AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

VƏLİ BAXŞƏLİYEV

# NAXÇIVANIN ARXEOLOJİ ABİDƏLƏRİ

Bakı- Elm- 2008

Kitab Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, işlənib hazırlanmışdır. Kitabın hazırlanmasına kömək edən hər kəsə öz təşəkkürümüzü bildiririk.

Məsləhətçlər: akademik İ.M. Hacıyev
akademik İ.Ə. Həbibbəyli

Elmi redaktoru: AMEA-nın müxbir üzvü V.B.Baxşəliyev

Vəli Baxşəli oğlu Baxşəliyev. Naxçıvanın arxeoloji abidələri. – Bakı: Elm, 2008, 301 s.

Kitabda Naxçıvan MR ərazisində qeydə alınan bütün arxeoloji abidələr haqqında yalnız ensiklopedik məlumat verilmişdir. Aşkar olunan arxeoloji abidələr Naxçıvanın qədim və Orta əsrlərə aid maddi-mədəniyyət nümunələrini mədəni-tarixi proses kimi izləməyə imkan verir. Monoqrafiya tədqiqatçılar, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

© Vəli Baxşəliyev

# MÜNDƏRİCAT

Giriş........................................................................................................ 4
1. Naxçivan şəhərinin arxeoloji abidələri..................................................... 5
2. Şərur rayonunun arxeoloji abidələri....................................................... 14
3. Babək rayonunun arxeoloji abidələri...................................................... 71
4. Ordubad rayonunun arxeoloji abidələri................................................. 108
5. Culfa rayonunun arxeoloji abidələri...................................................... 145
6. Kəngərli rayonunun arxeoloji abidələri................................................ 201
7. Şahbuz rayonunun arxeoloji abidələri................................................... 237
8. Sədərək rayonunun arxeoloji abidələri.................................................. 282
Nəticə...................................................................................................... 289
Ədəbiyyat................................................................................................ 294

# GİRİŞ

Naxçıvan MR ərazisində uzun illərdən bəri aparılan arxeoloji tədqiqatlar nəticəsində maddi-mədəniyyət qalıqları ilə zəngin yüzlərlə arxeoloji abidə aşkar olunmuşdur. Aparılan tədqiqatlarla bağlı bir sıra elmi əsərlər, o cümlədən onlarla monoqrafiya və yüzlərlə məqalələr nəşr olunmuşdur. Lakin aparılan tədqiqatlar Naxçıvanın arxeoloji abidələri haqqında bütöv təsəvvür əldə etməyə imkan verməmişdir. Məhz buna görə 1991-1994-cü illərdə Naxçıvanın arxeoloji abidələrinin toplu halında hazırlanması məqsədi ilə Naxçıvan Regional Elm Mərkəzində V.B.Baxşəliyevin rəhbərliyi ilə xüsusi arxeoloji ekspedisiya təşkil edilmiş və arxeoloji abidələrin böyük bir qismi toplu halında hazırlanaraq nəşr edilmişdir. Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra abidələrimizin öyrənilməsinə diqqət daha da artmışdır. Naxçıvan MR Ali Məclisi sədrinin 2001-ci ildə Gəmiqaya abidələrinin öyrənilməsi ilə bağlı, 6 dekabr 2005-ci ildə isə «Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması və qoruması işinin təşkili haqqında» verdiyi sərəncamların arxeoloji abidələrin və bütövlükdə mədəni irsimizin öyrənilməsində, o cümlədən folklor və etnoqrafik materialların toplanılmasında böyük əhəmiyyəti olmuşdur. Araşdırmalar zamanı 1162 tarix və mədəniyyət abidəsi qeydə alınmışdır ki, bunların da əksəriyyəti arxeoloji abidələrdir. Tədqiqat zamanı müxtəlif dövrlərə aid arxeoloji abidələr içərisində Erkən Tunc, Orta Tunc, Son Tunc və Erkən Dəmir dövrü, Orta əsr yaşayış yerləri və qəbir abidələri xüsusilə diqqətəlayiqdir. Yeni aşkar olunan arxeoloji abidələr arxeoloji mədəniyyətlərin yayılması və inkişafı ilə bağlı yeni fikirlər deməyə imkan verir. Xüsusilə Gəmiqaya ətrafında aşkar olunan arxeoloji abidələr qaya təsvirlərini yaradan tayfalar haqqında müəyyən fikirlər irəli sürməyə imkan verir.

Arxeoloji abidələrlə yanaşı Muxtar Respublika ərazisində qeydə alınan inanc yerləri, memarlıq abidələri və epiqrafik abidələr də xalqımızın tarixində yeni səhifələrin yazılmasına imkan verir. Ordubad rayonunda aparılan tədqiqatlar zamanı qeydə alınan epiqrafik abidələrdə Naxçıvanın tarixi ilə bağlı yeni faktlar aşkar olunmuşdur. Köhnə Kotam kəndindəki epiqrafik abidənin oxunması ilə Naxçıvan xanlarının indiyədək tarixə məlum olmayan nümayəndəsi İbrahim xanın adı aşkar olunmuşdur.

Biz bu kitabda yalnız arxeoloji abidələr haqqında ensiklopedik məlumat verməklə kifayətlənəcəyik. Çünki bu abidələrin hər biri bir monoqrafiyanın mövzusudur.

Naxçıvanın arxeoloji abidələri Daş dövründən başlayaraq ölkəmizin qədim tarixini öyrənmək üçün olduqca mühüm əhəmiyyəti olan mənbələrdir. Arxeoloji abidələrin və bu abidələrdən aşkar olunan maddi-mədəniyyət nümunələrinin araşdırılması göstərir ki, Azərbaycan xalqı qədim dövrlərdən bu ərazidə məskunlaşan ulu əcdadlarımızın varisləridir.

# NAXÇIVAN ŞƏHƏRİNİN ARXEOLOJİ ABİDƏLƏRİ

**1. Qədim Naxçıvan.** Naxçıvan MR ərazisində qədim insanlar Paleolit dövründən başlayaraq məskən salmışlar. Naxçıvanın qədim mədəniyyətləri Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf edib təşəkkül tapmışdır. E.ə. III minilliyin sonunda iqtisadiyyatın və ticarətin inkişafı Naxçıvanda şəhər tipli yaşayış məskənlərinin yaranmasına imkan vermişdir. Naxçıvan şəhəri ərazisində aşkar edilmiş ən qədim tapıntılar e.ə. II minilliyin ikinci yarısına aiddir. Bu tapıntılar təsadüfən dağıdılmış qəbirlərdən aşkar edilmiş boyalı qablar, tunc əşyalar və başqa maddi-mədəniyyət nümunələrindən ibarətdir. Maddi-mədəniyyət qalıqlarına əsaslanaraq bəzi tədqiqatçılar Naxçıvan şəhərinin əsasının e.ə. II minillikdə qoyulduğunu qeyd etmişdir. Tədqiqatlar zamanı Naxçıvan şəhəri ərazisində Tunc dövrünə aid qəbir abidələri, Antik dövrə aid təsərrüfat binalarının qalıqları və qəbir abidələri aşkar olunmuşdur. Belə güman etmək olar ki, yaşayış yerinin qalıqları müasir tikintilərin altında qalmışdır. Naxçıvan şəhərinin ərazisində e.ə. II minillikdə yaşayış olması heç bir şübhə doğurmur. Qədim Naxçıvan şəhərinin qalıqları indiki hərbi şəhərciyin müasir tikintiləri, yaxud Orta əsr Naxçıvan şəhərinin xarabalıqları altında qalmışdır. Qeyd etmək lazımdır ki, qədim Naxçıvan şəhərinin yaxınlığında e.ə. II minilliyin əvvəllərində bir neçə yerdə, o cümlədən Şahtaxtı, Qızılburun və Qarabağlarda şəhər tipli yaşayış yerləri movcud olmuşdur. Naxçıvan şəhəri e.ə. III-II minilliklərdə təşəkkül tapan qədim şəhər mədəniyyətinin ən mühüm mərkəzlərindən biri olmuşdur.

Bəzi orta əsr tarixçiləri Naxçıvan şəhərinin adını eramızdan əvvəlki hadisələrdən bəhs edərkən çəkmişlər. Lakin Naxçıvan şəhərinin ilk dəfə adı çəkilən ən qədim məxəz hələlik II əsrdə yaşamış yunan coğrafiyaşünası Klavdi Ptolomeyin «Coğrafiya» əsəridir.

Mənbələrdə Naxçıvan şəhərinin adı müxtəlif formalarda işlədilmiş, K.Ptolomeyin «Coğrafiya» əsərində isə «Naksuana» şəklində qeyd olunmuşdur. Sasani hökmdarlarının VI əsrdə zərb olunmuş sikkələri üzərində şəhərin adı ixtisarla «Naxç» şəklində yazılmışdır. Naxçıvan şəhərinin adı Orta əsr mənbələrində «Nəxçuan» və «Nəşəva», XI əsrə aid sikkələrin üzərində «Nəşəva», XII-XVII əsr şərq mənbələrində isə «Nəxcəvan» şəklində işlədilmişdir. Yaqut Həməvinin yazdığına görə, şəhər xalq arasında «Nəxcuan» adı ilə məşhur olmuşdur.

«Naxçıvan» sözünün mənası haqqında da müxtəlif fikirlər irəli sürülmüşdür. Bəzi tədqiqatçılar şəhərin adını Nuh əfsanəsi ilə bağlayaraq onu Nuhun gəmisi ilə əlaqələndirirlər. Onlar «Naxçıvan» sözünün «ilk dayanacaq», yaxud «ilk köç yeri» mənası verdiyini göstərirlər. Bəziləri Nuhun gəmisinin Naxçıvanda Gəmiqayada ilişib qaldığını, onun qəbrinin isə Naxçıvan şəhərində olduğunu söyləyirlər. Bəzi Orta əsr fars mənbələri «Naxçıvan» adının «nəxcir»

sözündən təşəkkül tapdığını qeyd edərək, onun «ov yeri», «şikargah» mənası verdiyini göstərmişlər. İran və türk mənbələrində şəhərin adı «Nəqşicahan» şəklində işlədilmişdir. Şəhərin adının belə izahına ilk dəfə XIV əsrdə yaşamış Azərbaycan tarixçisi Məhəmməd İbn Hinduşah Naxçıvaninin «Dəstur-əl-katib fitəyin əl-məratib» əsərində təsadüf edilmişdir. Qeyd etmək lazımdır ki, Şərq ölkələrində, Orta əsrlərdə Nəqşicahan adlı müxtəlif şəhərlər olmuşdur. Aydınlaşdırılmışdır ki, söz şəhərin adının mənası olmayıb, yalnız ona verilən epitetdir. Tədqiqatçıların bir çoxu Naxçıvan şəhərinin adınını bu ərazidə qədimdən məskunlaşan yerli «naxçı» tayfaları ilə bağlayırlar. Onların fikrincə, «naxçı»- tayfa adı, «van» isə məkan bildirən şəkilçidir. Bu tayfalar haqqında Orta əsr mənbələrində də məlumat verilmişdir. Naxçıvan sözünün bizə məlum olan yeganə elmi izahı belədir. Naxçıvan ərazisində aparılan arxeoloji tədqiqatlar e.ə. III-II minilliklərdə türkdilli naxçı tayfalarının bu ərazidə qədimdən məskənləşdiyini təsdiq edir. Şübhəsiz ki, gələcək tədqiqatlar zamanı yeni faktlar da aşkar ediləcəkdir.

**2. Qədim Naxçıvan nekropolu.** Nekropol 1968-ci ildə tikinti işləri görülərkən təsadüfən aşkar olunmuşdur. O şəhərin şimalında, Naxçıvan-Şahbuz yolunun sol tərəfində yerləşir, Nekropolun ərazisi hərbi şəhərciyin müasir tikililəri altında qalmışdır. 1968-ci ildə dağıdılmış qəbirlərin materialları toplanaraq Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Aşkar edilmiş materialların bir qismi V.H. Əliyev tərəfindən çap olunmuşdur.





Şəkil 1. Naxçıvan nekropolunun maddi-mədəniyyət nümunələri

Qəbirlər dağıdılarkən aşkar edilmiş maddi mədəniyyət nümunələri bir yerə toplandığından onların kompleksini müəyyən etmək mümkün olmamışdır. V.H.Əliyevin verdiyi məlumata görə burada 6 qəbir dağıdılmışdır. Qəbirlər torpaqda qazılmış dördkünc formalı çalalardan ibarət olub, üstdən iri daş plitələrlə örtülmüşdür. Onlar şimal-cənub, şərq-qərb istiqamətində yerləşmişdir. Bu qəbirlər üçün kollektiv dəfn adəti xarakterik olmuşdur. Skeletlər olduqca pis

saxlanmış, müxtəlif istiqamətlərə yönəlmiş vəziyyətdə aşkar edilmişdir. 1986-1989-cu illərdə Ə. Novruzlu burada bir neçə qəbir tədqiq etmişdir.

Qəbirlərdən aşkar olunmuş maddi mədəniyyət nümunələrinin bir qismi boz və çəhrayı rəngli gil qablardan ibarətdir. Gil məmulatı içərisində çəhrayı rəngdə yaxşı bişirilmiş, üzəri qara, qəhvəyi, qırmızı və sarı rənglərlə naxışlanmış boyalı qablar xüsusilə yüksək sənətkarlıqla hazırlanmışdır. Onlar müxtəlif formalı küpə, çaynik və vazalardan ibarətdir.

Bəzək əşyaları tuncdan hazırlanmış bilərzik, üzük, sırğa və müxtəlif minerallardan düzəldilmiş muncuqlardan ibarətdir. Nekropoldan aşkar edilmiş, yüksək sənətkarlıqla hazırlanmış boyalı və sadə qabların, bəzək əşyalarının tapılması Naxçıvan şəhərinin ərazisində müxtəlif sənət sahələrinin inkişaf etdiyini və burada şəhər tipli qədim yaşayış məskəninin olduğunu göstərir. Aşkar olunmuş maddi - mədəniyyət nümunələrinə əsasən qədim Naxçıvan nekropolunu e.ə. 1600-1400-cü illərə aid etmək olar.

**3. I Antik Naxçıvan nekropolu.** Naxçıvan şəhəri ərazisində aparılan tədqiqatlar nəticəsində Antik dövrə aid üç nekropol aşkar edilmişdir. 1970-ci ildə tikinti işləri aparılarkən təsadüfən aşkar olunmuş, sahəsi 1,9 hektar olan birinci nekropol küp qəbirlərdən ibarətdir. Dağıdılmış küp qəbirlərin materialları hərbi qulluqçu Peters tərəfindən kompleks şəkildə nömrələnmişdir. Bu materiallar hazırda Gürcüstan Dövlət Tarix Muzeyində saxlanılır.




Şəkil 2. I Antik Naxçıvan nekropolundan aşkar edilmiş dolça

1971-1972-ci illərdə tədqiqatçı V.H.Əliyev nekropolun ərazisində kəşfiyyat xarakterli qazıntılar aparmış, nekropolun sahəsini müəyyən etmişdir.

Nekropolda dağıntı zamanı altı küp qəbir aşkar olunmuşdur. Bu qəbirlərdən əldə edilmiş materiallar V.H. Əliyev tərəfindən nəşr edilmişdir. Arxeoloji tapıntılar çəhrayı və boz rəngdə bişirilmiş gil qablar və müxtəlif bəzək əşyalardan ibarətdir.

Çəhrayı gil məmulatı içərisində birinci qəbirdə aşkar edilmiş boyalı küpə xüsusilə diqqətəlayiqdir. Onun ağız kənarı xaricə qatlanaraq dəyirmiləşdirilmişdir. Boğazı dar, gövdəsi qabarıq, oturacağı yastıdır. Boğazı ilə çiynini birləşdirən, kəsikdə dairəvi olan, qulpu vardır. Çəhrayı rəngli gil məmulatına həmçinin sadə qablar aiddir. Onlar əsasən küpə və badya tipli qablardan ibarətdir. Qablar formaca bir-birindən fərqlənir.

Altıncı küp qəbirdən bəzək əşyaları ilə yanaşı iki şüşə möhür və Makedoniyalı İsgəndərə aid bir ədəd gümüş sikkə aşkar edilmişdir. Aşkar edilmiş tapıntılar əsasında Antik dövrə aid I Naxçıvan nekropolu e.ə. IV-II əsrlərə aid edilir .

**4. II Antik Naxçıvan nekropolu.** Bu nekropol 1990-cı ildə Naxçıvan-Şahbuz yolunun sol tərəfində, hərbi şəhərciyin qurtaracağında tikinti işləri görülərkən təsadüfən aşkar edilmişdir. Tikinti zamanı küp qəbirlər və onlardan aşkar olunmuş maddi-mədəniyyət nümunələri tamamilə dağıdılmışdır. Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin əməkdaşı V.B.Baxşəliyev həmin il dağıntı yerinə getmiş və maddi-mədəniyyət nümunələrinin az bir qismini toplaya bilmişdir. Tapıntılar qara rəngli çölmək və müxtəlif mineraldan hazırlanmış muncuqlardan ibarətdir.

Keramika məmulatı qum qarışığı olan gildən hazırlanmış, xaricdən yüngülcə cilalanmışdır. Bəzi qabların lentşəkilli qulpu vardır.

Burada aşkar olunmuş tapıntılara həmçinin çəhrayı rəngli iri küpələrin qırıqları da aiddir. Onlar gövdə və oturacaq hissələrindən ibarətdir.

Aşkar olunmuş tapıntılar hazırda Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Bu materiallara əsasən nekropolu e.ə. II-I əsrlərə aid etmək olar.

**5. III Antik Naxçıvan nekropolu.** 1987-ci ildə orta əsr Naxçıvan şəhərinin əpazisində (Köhnəqalada) Ə.İ.Novruzlunun apardığı qazıntılar zamanı aşkar olunmuşdur. Qazıntı zamanı qalanın cənub-şərq tərəfində iki küp qəbirin qalıqları öyrənilmişdir. Tapıntılar çəhrayı rəngli küpün qırıqlarından və müxtəlif əşyalardan ibarətdir. Birinci qəbirdən tapılan gil qablardan biri narın qum qarışığı olan gildən hazırlanaraq boz rəngdə yaxşı bişirilmiş, xaricdən yaxşı cilalanmışdır. İkinci qəbirdən çəhrayı rəngli küpə qırığı, dəmir toqqa, nizə ucluqları tapılmışdır. Aşkar olunmuş materiallara əsasən nekropolu III-VII əsrlərə aid etmək olar.

**6. Antik və Orta əsr Naxçıvan şəhəri.** Antik və Orta əsr Naxçıvan şəhərinin əksər hissəsi müasir tikililərin altında qalmışdır. Vaxtilə aparılan tikinti işləri mədəni təbəqənin dağılmasına səbəb olmuşdur. Mömünə Xatun türbəsi ətrafında aparılan tikinti zamanı alınan kəsikdə təbəqənin qalınlığı 13 m olmuşdur. Bu türbənin yaxınlığında vaxtilə şiş oturacaqlı təsərrüfat küplərindən ibarət anbar aşkar edilmiş, lakin əhəmiyyət verilməyərək dağıdılmışdır. Küplərin yalnız biri Naxçıvan Dövlət Tarix Muzeyinə gətirilmişdir. Türbənin yaxınlığında aparılan tikinti işləri zamanı, XVII əsrə aid bir neçə ictimai bina aşkara çıxarılmışdır. Son illər abadlıq işləri görülən vaxt Orta əsrlərə aid bir neçə memarlıq abidəsi də aşkar olunmuşdur.

Orta əsr Naxçıvan şəhərinin Narınqala hissəsinin qalıqları hazırda şəhərin cənub-şərq hissəsində qalmaqdadır. Bu abidə xalq arasında «Köhnəqala» adlanır. O iki hissədən – kiçik qala və böyük qaladan ibarətdir. Şəhərin adı ilk dəfə yunan coğrafiyaşünası K. Ptolomey tərəfindən çəkilmişdir. Erkən Orta əsrlərə aid mənbələrdə Naxçıvan şəhəri ətrafı möhkəmləndirilmiş qala kimi xarakterizə edilmişdir. Şəhərin böyük qala hissəsində küp qəbirlərin tapılması burada həyatın Antik dövrdən başlandığını göstərir. Qalanın müasir dövrədək saxlanmış divarları Orta əsrlərə aiddir. Qala divarları daş qarışıq möhrədən inşa edilmiş, yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Yaşayış binaları əsasən qala divarı boyunca salınmış, bir-birinə bitişik kvadratşəkilli otaqlardan ibarətdir. Bu binaların üst hissəsindən döyüşçülərin hərəkət etməsi üçün meydan kimi istifadə olunmuşdur. Bu xüsusiyyətlərə görə Naxçıvan şəhərinin Narınqalası Muxtar Respublikanın Tunc və Dəmir dövründə salınmış qalaları ilə oxşarlıq təşkil edir. Oğlanqala, Çalxanqala, Qazançıqala məhz beləlƏrindəndir. Qalanın altından keçən kəhrizlər onun həm dinc vaxtlarda, həm də mühasirə zamanı su ilə təmin olunması üçün şərait yaratmışdır. Kəhrizin qalanın altından keçən qolları xeyli genişləndirilmişdir. Burda hətta at qoşulmuş arabalar da hərəkət edə bilər. Müşahidələrə əsasən demək olar ki, kəhrizlərdən həm də müdafiə məqsədi üçün istifadə edilmişdir. Kəhrizlər nəzərdən keçirilərkən həmçinin müxtəlif istiqamətlərdə yönəlmiş yeraltı dar yollar da aşkar edilmişdir. Şübhəsiz ki, bu yollar yerli hökmdarların və feodalların təhlükəsizliyini təmin etmək məqsədi daşımışdır.



Şəkil 3. Orta əsr Naxçıvan şəhərinin qalıqları

Eramızın ilk əsrlərindən başlayaraq sənətkarlıq və mədəniyyət mərkəzi kimi formalaşan Naxçıvan şəhəri IX-XII əsrlərdə həm də mühüm inzibati mərkəzə çevrilir. O, X-XI əsrlərdə Naxçıvan şahlığının, XII əsrdə isə Eldənizlər dövlətinin paytaxtı olmuşdur. Sonrakı dövrlərdə də Naxçıvan inzibati mərkəz kimi öz əhəmiyyətini itirməmişdir. XVIII əsrin ortalarından başlayaraq şəhər Naxçıvan xanlığının mərkəzinə çevrilir.



Şəkil 4. Orta əsr Naxçıvan şəhərinin planı

1983-cü ildə Ə.İ. Novruzlu tərəfindən Orta əsr Naxçıvan şəhərində sistemli tədqiqat işlərinə başlanmışdır. 1983-1991-ci illər ərzində aparılan tədqiqatlar zamanı şəhərin iqtisadi-mədəni həyatını əks etdirən zəngin maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Qazıntı zamanı IX-XVII əsrləri əhatə edən üç mədəni təbəqə aşkar edilmişdir. Bu materiallar əsasən istehsal ocaqları, tikinti qalıqları, şirli və şirsiz keramikadan ibarətdir.

Naxçıvan Dövlət Universitetinin yerləşdiyi ərazidə aparılmış tədqiqatlar göstərdi ki, həm qədim dövrdə, həm də Orta əsrlərdə bu sahə şəhərin tərkibində olmuşdur. Əliabad kəndi istiqamətində uzanıb gedən təpələrin zirvəsində qala divarları tikilmişdir. Tikinti materialları kimi möhrədən istifadə edilmişdir. Qala divarlarının planı strateji cəhətdən əlverişli təpənin zirvəsinə uyğundur. Divarın

çıxıntıları bir növü bürcləri əvəz etmişdir. Odur ki, bürclərin tez-tez təkrar edilməsinə ehtiyac qalmamışdır. Qeyd edilən sahədə aşkar edilmiş divar qalıqlarının tikinti materialları içərisində arxeoloji tapıntılara tez-tez təsadüf edilir. Əsasən, şirsiz saxsı məmulatından ibarət olan materiallar e.ə. II minilliyə aiddir. Lakin qala divarları Antik dövrdə və Orta əsrlərdə dəfələrlə bərpa edildiyindən divarlarda həmin dövrlərin materiallarına da təsadüf edilir.

Naxçıvan şəhərində aparılmış arxeoloji qazıntılardan osteoloji, fauna, flora qalıqları da aşkar edilmişdir. Taxıl, şaftalı, ərik, gilənar, armud, alma tumlarının qalıqları Orta əsrlərdə Naxçıvanın flora və faunasının müəyyənləşdirməkdə qiymətli materiallardır. Aparılmış tədqiqatlar nəticəsində Naxçıvan şəhərinin keramikası ilə Zaqafqaziya, Orta Asiya və Yaxın Şərq keramikası arasında xeyli oxşar cəhətlər müəyyən edilmiş, bu ölkələrlə geniş iqtisadi-mədəni əlaqələr saxlanılmışdır. Şəhər ərazisindən tapılmış seladon qablar bunu sübut edir. Naxçıvan şəhərinin kiçik qala hissəsindən aşkar olunmuş belə qablardan birinin üzərində Çin dilində yazıya təsadüf olunmuşdur.

Naxçıvan şəhərinin Narınqalası XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuşdur. Lakin Səfəvi-Osmanlı müharibələri zamanı güclü dağıntıya məruz qalmış qalanın əvvəlki möhtəşəmliyini bərpa etmək mümkün olmamışdır. Qala müdafiə əhəmiyyətini itirdikdən sonra burada mülki əhalinin həyatı müəyyən müddət davam etmişdir.



Şəkil 5. Qoçüstü nekropolu

**7. Qoçüstü yaşayış yeri.** Naxçıvançayın sağ sahilində, Naxçıvan şəhərinin şərq hissəsində yerləşir. Hazırda yaşayış yerinin ərazisi «Yeni

Naxçıvan»ın müasir tikintiləri ilə örtülmüşdür. Yaşayış yerində mədəni təbəqə tikinti işləri görülərkən dağıdılmışdır. 1994-cü ildə yaşayış yerinin ərazisində V.B.Baxşəliyev və Ə.İ.Novruzlu tərəfindən aparılan kəşfiyyat işləri nəticəsində orta əsrlərə aid gil qablar aşkar edilmişdir. Tikinti zamanı əmələ gəlmiş kəsiklərdə mədəni təbəqə 0,5-1 m qalınlığında saxlanmışdı. Mədəni təbəqə kül qarışıq torpaq laylardan ibarət idi. Təbəqədə çiy və bişmiş kərpic qırıqlarına təsadüf edilirdi.

Əldə edilmiş tapıntılara əsasən Qoçüstü yaşayış yerini XI-XVIII əsrlərə aid etmək olar.

**8. Qoçüstü nekropolu** yaşayış yerinin yaxınlığında yerləşir. Orta əsrlərə aid qəbirlər şərq-qərb istiqamətinə yönəlmişdir. Qəbirlərdən bəzisinin üzərinə boz və çəhrayı daşlardan yonulmuş qoç fiqurları qoyulmuşdur. Qoç fiqurları hələ keçən əsrdə qırılıb dağıdılmış, bir qismi isə naməlum adamlar tərəfindən aparılmışdır. 1926-cı ildə Naxçıvanda olan V.M. Sısoev burada salamat qalan bir qoç fiquru haqqında məlumat vermişdir.

Yerli əhalinin məlumatına görə son vaxtlara qədər həmin daş qoçun yerləşdiyi əraziyə və daş qoça sitayiş olunmuşdur. Uşağı olmayan qadınlar niyyət edib bu daş qoçun altından keçmişlər. Hazırda nekropolun ərazisi tamamilə dağılmışdır.



Şəkil 6. Orta əsr Naxçıvan nekropolu

**9. Orta əsr Naxçıvan nekropolu** Köhnəqalanın qərbində yerləşir. Hazırda burada XVII-XVIII əsrlərdə inşa olunmuş «İmamzadə» memarlıq

kompleksi qalmaqdadır. Memarlıq kompleksinin ətrafı orta əsr qəbiristanlığıdır. Qəbirstanlığın bir hissəsi tikinti işləri zamanı dağıdılmış, bir hissəsi isə indiyədək qalmaqdadır. Qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmişdir. Nekropol yamacda yerləşdiyindən bəzi qəbirlər aşınma nəticəsində açılmışdır. Burada bişmiş kərpicdən hörülmüş tağvari sərdabələrə də təsadüf olunur. Tədqiqatlar göstərir ki, zaman keçdikcə nekropolun yeri dəyişmiş və «İmamzadə» kompleksinin yaxınlığında yerləşən təpənin üzərinə keçmişdir. Nekropolu XI-XVIII əsrlərə aid etmək olar.

## ŞƏRUR RAYONUNUN ARXEOLOJİ ABİDƏLƏRİ

**1. Albantəpə.** Antik dövrün abidəsidir. Yaşayış yeri Axura kəndinin qərbində hündür uzunsov formalı təpənin üzərində yerləşir. Sahəsi 5 hektardan artıqdır. Yaşayış yeri 1979-cu ildə Ə.İ.Novruzlu tərəfindən qeydə alınmışdır. Albantəpənin yerləşdiyi sahə hər tərəfdən dağlarla əhatələnmiş dərədə yerləşən ümumi dağ silsiləsindən ayrılmış təpə üzərindədir. Albantəpə cənub tərəfdən Axuraçayla hüdudlanır. Sel sularının təsiri nəticəsində yaşayış yerinin bir hissəsi dağılmışdır.




Şəkil 7. Albantəpə yaşayış yerinin materialları (Ə.İ.Novruzlu)

Ə.İ.Novruzlu 1979-1985-ci illərdə yaşayış yerində tədqiqat işləri aparmışdır. 1979-cu ildə 2 x 2 metr ölçüdə kəşfiyyat qazıntısı nəticəsində 1,5 metr dərinliyində mədəni təbəqə aşkar edilmişdir. Mədəni təbəqədə 6-7 sm qalınlığında olan kül təbəqəsi izlənmişdir. Kül təbəqəsinin böyük sahəni əhatə etməsi yaşayış yerinin yandırıldığını göstərən mühüm faktlardan biridir.

Albantəpədə 1985-ci ildə Ə.İ.Novruzlu tərəfindən yenidən 5 x 5 metr ölçüdə qazıntı aparılmışdır.

Aparılmış arxeoloji qazıntı nəticəsində zəngin mədəni təbəqə aşkarlanmışdır. Kül qatı və tikinti materialları ilə örtülmüş qazıntı sahəsinin qərb tərəfində divar qalığı aşkar edilmişdir. Divar daşdan inşa edilmiş, hər iki tərəfdən qalınlığı 2,5-3 sm olan gil suvaqla örtülmüşdür. Divardan bir qədər kənarda təndir qalığının olduğu müəyyən edilmişdir.




Şəkil 8. Albantəpə yaşayış yerinin keramikası (Ə.İ.Novruzlu)

Tədqiqat zamanı mədəni təbəqədən həmçinin kül yığınları, müxtəlif çürüntü qalıqları, ostoloji materiallar və müxtəlif saxsı qab hissələri aşkar edilmişdir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Albantəpə çoxtəbəqəli abidədir. Yaşayış yerində həyat yüz illər boyu davam etmişdir. Nəticədə 8-10 metr qalınlığında zəngin mədəni təbəqə əmələ gəlmişdir. Tədqiqat zamanı xeyli keramika məmulatı, dəmirdən hazırlanmış əmək alətləri və silahlar aşkar edilmişdir.

Arxeoloji tədqiqatlar nəticəsində aşkar edilmiş maddi mədəniyyət nümunələri içərisində keramika məmulatı sayca çoxluq təşkil edir. Keramika məmulatı küp, küpə, qazan, iki qulplu qablar, təkayaqlı vaz, ağzı novçalı qablar, ördəkburunlar və onların kiçik ölçülü sınıqları ilə təmsil edilmişdir.

Aşkar edilmiş keramika məmulatının bir qismi kirəmitlərdən ibarətdir. Albantəpədən aşkar edilmiş kirəmitlər eynitiplidir. Kirəmitlər sütun qalığı və sütun altlığının yaxınlığından tapılmışdır.

Albantəpə yaşayış yerindən xeyli miqdarda şüşə qab sınıqları aşkar edilmişdir. Onların içərisində uzunsov gövdəli qab xüsusilə diqqəti cəlb edir.

Şüşə qablar içərisində kiçik ölçülü, gövdəsi şarşəkilli formalı qablara da təsadüf edilir.

Albantəpənin cənub hissəsi qeyd edildiyi kimi Axuraçayın sel suları tərəfindən yuyulmuş, nəticədə abidənin bir hissəsi dağılmış və bir neçə maddi-mədəniyyət nümunəsi aşkar edilmişdir. Onların içərisində sütun altlığı xüsusilə qiymətlidir. Sütun altlığı mərmərdən son dərəcə nəfis şəkildə yonulmuşdur. Onun üzəri sütunu yerləşdirmək üçün oyulmuşdur. Belə tapıntılar Albantəpədə nəhəng ictimai tikintilərin varlığını sübut edir.Yaşayış yerində həyat e.ə VII əsrdən III əsrədək davam etmişdir.

**2. I Albantəpə nekropolu.** I Albantəpə nekropolu daş qutu qəbirlərdən ibarət olub Albantəpə yaşayış yerinin şimal qərb hissəsində yastı təpə üzərində yerləşir. Daş qutu qəbirlərdən iki ədədi 1979-cu ildə Ə.İ.Novruzlu tərəfindən tədqiq edilmişdir. Qəbirlərin döşəməsinə iri sal daşlar qoyulmuş, kənarları və digər tərəflərinə yastı daşlar düzülmüşdür. Qəbirlərin üstü də iri sal daşla örtülmüşdür. Üst daşları bir, bəzən isə iki sal daşdan ibarət olmuşdur. Tədqiqat zamanı nekropolda iki qəbir öyrənilmişdir. Qəbirlər üçün tək dəfnlər xarakterikdir. Onların biri qadına, digəri isə kişiyə aid olmuşdur. Qəbirlərdən şüşə qablar və bəzək əşyaları aşkar edilmişdir. Nekropol e.ə. II-b.e. III əsrinə aiddir.

**3. II Albantəpə nekropolu.** Nekropol Albantəpənin şərq hissəsində Axuraçayın sol sahilində yerləşir. Nekropolun əsas hissəsi təsərrüfat işləri nəticəsində dağıdılmışdır. Nekropol küp qəbirlərdən ibarətdir. Armudvari formalı xumlar dik vəziyyətdə basdırılmışdır. Xumlar kiçik yastı oturacağa, qısa boğaza malikdir. Xaricə doğru açılan ağzı genişdir. Xumun aşağı hissəsi ağımtıl maddə ilə örtülmüşdür. Qulpsuz xumların əsas hissəsi dulus çarxında səliqəli hazırlanmışdır. Hündürlüyü 1,2 metr olan xumun ağzının diametri 30-35 sm, ən geniş yerdə gövdəsinin diametri 70 sm-dir. Tədqiq edilmiş küp qəbirlərdən biri dağıdılmış, ikincisi isə nisbətən salamat qalmışdır. Xumlardan birinin ağzı yastı

daşla örtülmüşdür. Onun içərisində insan skeleti ilə yanaşı olaraq bir ədəd kiçik ölçülü küpə də aşkar edilmişdir. Dulus çarxında səliqəli hazırlanmış küpə qulpsuzdur.



Şəkil 9. I Albantəpə nekropolunun materialları(Ə.İ.Novruzlu)

3 №-li qəbirdən iki ədəd saxsı qab aşkar edilmişdir. Onlardan biri təkayaqlı vaza, digəri isə dulus çarxında səliqəli hazırlanmış gil qabla təmsil olunmuşdur.

Bu tip qablar tədqiq edilən dövrdə Azərbaycanda geniş yayılmışdır. Nekropolda aparılmış tədqiqatlar nəticəsində aşkar edilmiş materiallar əsasında II Albantəpə nekropolunu e.ə. III-II əsrlərə aid etmək olar.

**4.Qoşatəpə.** Yaşayış yeri Albantəpədən 1 km şərqə doğru Axuraçayın sağ sahilində yerləşir. Abidə dağ silsiləsindən ayrılmış iki təpəni və onun ətrafını (4 hektar) əhatə edir. Yaşayış yeri çoxtəbəqəlidir. Burada min illər boyu həyat davam etmiş, nəticədə 8-10 metr qalınlığında mədəni təbəqələr əmələ gəlmişdir. Abidənin üzərində müxtəlif maddi-mədəniyyət nümunələrinə rastlanır. Yerüstü materiallar içərisində qövsvari formalı dən daşlarına, müxtəlif formalı çayniktipli qab hissələrinə və digər boyalı qabların sınıqlarına təsadüf edilir. Abidə Ə.İ.Novruzov tərəfindən tədqiq edilmişdir. Qoşatəpənin alt mədəni təbəqələrindən toplanılmış materiallar əsasında Tunc dövrünün sonu və Dəmir

dövrünə, üst təbəqəsində isə e.ə. IV-II əsrlərə aid maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Bu nümunələr küp, küpə, qazan tipli müxtəlif qabların hissələrinə aiddir. Küplər şarşəkilli, armudvari gövdəli, kiçik yastı oturacaqlıdır. Boğazsız küplər dulus çarxında səliqəli hazırlanmış və yaxşı bişirilmişdir. Qabların ağzının kənarı barmaq izləri, çiyni isə cızma üsulu ilə çəkilmiş həndəsi xətlərlə bəzədilmişdir. Qoşatəpədən aşkar olunmuş arxeoloji materiallar e.ə. I minilliyə aiddir.




Şəkil 10. II Albantəpə nekropolunun materialları (Ə.İ.Novruzlu)

**5. Axura Kültəpəsi.** Yaşayış yeri Qoşatəpədən 2 km şərqə doğru Axuraçayın sağ sahilində təpəliklər üzərində yerləşir. Sahəsi ətrafı ilə birlikdə 7-8 hektardır. Abidədə 2 x 2 m ölçüdə qazıntı aparılmış, 1,5 metr dərinlikdə divar qalığı aşkar edilmişdir. Divarın hündürlüyü 30-35 sm, eni 80 sm-dir. Tikinti materialı kimi yonulmuş və təbii qaya parçalarından istifadə edilmişdir. Bərkidici maddə kimi gildən istifadə edilmişdir. Döşəmə qalın gil təbəqəsi ilə örtülmüşdür.

Qazıntı sahəsindən 20-25 sm qalınlığında kül təbəqəsi, ostoloji və bitki qalıqları aşkar edilmişdir. Qazıntı sahəsinin kül təbəqəsi ilə örtülməsi yaşayış yerinin yandırıldığını göstərir. Kül təbəqəsi qazıntı sahəsinin hüdudlarını aşaraq yaşayış yerinin digər hissələrində də izlənir. Ehtimal ki, yanğın yaşayış yerini tamamilə əhatə etmişdir.

Araşdırmalar zamanı Kültəpə yaşayış yerindən tapılmış qrafin tipli qabın gövdəsi şarşəkilli formalıdır. Boğazı uzun və silindrik formalıdır. Qab əldə nisbətən kobud hazırlanmış, yaxşı bişirilmişdir. Saxsısı çəhrayı rənglidir. Arxeoloji materiallar əsasında Kültəpə yaşayış yerini e.ə. III, eramızın II əsrinə aid edirik.

**6. Boyaqlıyer yaşayış yeri.** Yaşayış yeri Axura kəndinin cənub qərb hissəsində, Axuraçayın sol sahilində hündür olmayan uzunsov təpələr üzərində yerləşir. Yaşayış yerinin uzunluğu təxminən 6 hektardır.

Boyaqlı yer yaşayış yerində 3 x 3 metr ölçüdə kəşfiyyat qazıntısı aparılmışdır. Qazıntı sahəsində tikinti qalığına təsadüf edilmədi. Buradan 13 ədəd müxtəlif növ saxsı məmulatı tapıldı. Onlar əsasən küp tipli qabların müxtəlif hissələrinin kiçik ölçülü sınıqlarına aiddir. Qablardan altısı boyalıdır. Onlar dulus çarxında səliqəli şəkildə hazırlanmış və yaxşı bişirilmişdir. Yaşayış yerindən aşkar edilmiş saxsı məmulatı eramızın I-IV əsrlərinə aiddir.



Şəkil 11. Qoşatəpə yaşayış yeri

**7. Qalacıq.** Qala Axura kəndinin şimal-şərq hissəsində Axuraçayla Havuşçayın birləşdiyi yerdə hündür dağın sinəsində yerləşir. Qala iri ölçülü

daşlardan inşa edilmişdir. O planda uzunsovdur. Qala divarının eni bəzi yerlərdə iki metrə çatır. Divarlar iri daşlardan hörülmüş gil məmulu ilə bir-birinə bərkidilmişdir. Qala divarlarının bəzi hissələrində düzbucaqlı çıxıntılara və bürclərə rastlanır. Düzbucaqlı bürclərin biri qalanın şimalındadır. Onun hörgüsündə yonulmuş daşlardan da istifadə edilmişdir. Arxeoloji qazıntı işləri nəticəsində Qalacıqdan tikinti qalıqları, müxtəlif saxsı qab sınıqları çürümüş nizə və ox ucları aşkar edilmişdir.

Qalacığın iki yolu var. Yollardan biri Qabaqlıçay tərəfdən, ikincisi isə Axura kəndinin qala divarları yaxınlığında tikilmiş evlərin istiqamətindədir. Qala Qabaqlıçay istiqamətində əsasən sıldırım qayalarla əhatələnmişdir. Lakin buna baxmayaraq həmin istiqamətdə də qala divarları inşa edilmiş və möhkəmləndirilmişdir.

Qala divarları içərisində apardığımız tədqiqatlar əsasında aydınlaşdırılmışdır ki, burada mədəni təbəqənin dərinliyi 1 metrdən artıq deyil. Görünür ki, qaladan hərbi hissələrin yerləşdirilməsi üçün istifadə edilmişdir. Ehtimal ki, təhlükəli anlarda Axura yaşayış yerinin əhalisi müvəqqəti olaraq qalaya köçürülmüşdür.

Qalacıqdan aşkar edilmiş küp, küpə, qazan tipli qablar e.ə. II, eramızın III əsrləri üçün səciyyəvidir. Lakin qala divarları içərisində yerüstü tədqiqatlar göstərdi ki, maddi materiallar içərisində ilk, inkişaf etmiş və Son Orta əsrlərə aid şirsiz və şirli saxsı məmulatı da var. Lakin Qalacıqda Son Orta əsrlərə aid mədəni təbəqəyə rast gəlinməmişdir.

**8. I Axura nekropolu.** Nekropol Axura kəndinin şərq qurtaracığında «Yuxarı bulaq», «Teymurun bağı» adlanan sahənin yaxınlığında yerləşir.

Axuraçayın sağ sahilində yerləşdiyindən nekropolun bir hissəsini sel suları yuyub dağıtmışdır. Salamat qalmış hissənin sahəsi 150 x 100 metrdir. Başdaşıları nəhəng daşlardan ibarət olub konusvari formalıdır. Tədricən kiçilmiş hissədə diametri 20 x 25 sm olan deşik açılmışdır. Görünür, daşlara bu hissədən ip bağlanmış və sürümə üsulu ilə qəbirstanlığa gətirilmişdir.

Nekropolda iki torpaq qəbir tədqiq edilmişdir. Qəbirlərin dərinliyi 1,5 metr, uzunluğu isə 1,85 m-dir. Onların hər ikisində kişi skleti aşkar olunmuşdur. Qəbirlərdən maddi-mədəniyyət nümunəsi tapılmamışdır. Nekropol III-VIII əsrlərə aid edilir.

**9. II Axura nekropolu.** Nekropol I Axura nekropolunun 1 km şərqində, Axuraçayın sağ sahilində, «Yuxarı bulaq», «Əncirlik» adlanan sahədə çay yatağının yaxınlığında alçaq təpə üzərində yerləşir. Salamat qalmış sahəsi 50 x 80 m-dir.

Nekropolda aparılmış arxeoloji qazıntı işləri nəticəsində iki qəbir öyrənilmiş və müəyyən edilmişdir ki, nekropol torpaq qəbirlərdən ibarətdir.

II Axura nekropolunda aparılan tədqiqat zamanı bir neçə saxsı məmulatı aşkar edilmişdir. Saxsı qablar kiçik ölçülü küpə sınıqlarından ibarətdir.

Nekropolu oradan aşkar edilmiş materiallar əsasında e.ə. III, eramızın I əsrlərinə aid etmək olar.

**10. III Axura nekropolu.** Axura kəndinin yaxınlığında yerləşir. Qəbirlər qərb-şərq istiqamətində qazılmışdır. Bəzi qəbirlərin üzərində sənduqə tipli sinə daşları və qoç daşları olmuşdur. Ərəb əlifbası ilə yazılmış kitabələr aşınma nəticəsində dağılmış və oxunmaz hala düşmüşdür. Nekropol XIV-XVIII əsrlərə aid edilir.

**11. Axura Qaradaş ocağı.** Axura kəndinin içərisində yerləşir. Qaradaş ocağına indi də inam var. Öz ürəyində arzu və istəyinin həyata keçməsini istəyən şəxslər ocağa nəzir deyir və adamlar arzu, istəklərinə çatdıqda nəziri ocağa aparırlar.

Qaradaş ocağının mərkəzində nəhəng prizmatik-konusvari formalı qara daş var. Daşın ətrafına bir neçə kiçik ölçülü daşlar düzülmüşdür. Əfsanəyə görə iri qara daşlar göydən gəlmiş ana, ətrafında olan kiçik daşlar isə onun övladlarıdır. Odur ki, ocağa ancaq qadınlar və uşaqlar girə bilər. Kişilərin ocağa gəlməsi qadağandır. Ocağa qab-qacaq da gətirilir. Qaradaş ocağının həyətindən iki ədəd şirli saxsı qab sınıqları aşkar edilmişdir. Bu materiallar XIII-XIV əsrlərə aiddir. Görünür, müqəddəs Qaradaş ocağı da həmin dövrlərə aiddir.

**12. Billava Orta əsr yaşayış yeri.** Xarabalıqları Axura kəndinin cənub-şərq istiqamətində hər tərəfdən dağlarla əhatə edilmiş dərədə yerləşir.

Billava orta əsr yaşayış yeri son dövrlərədək həyatın davam etdiyi eyni adlı kəndin 2 km-liyində yerləşir. Tədqiqatlar nəticəsində yaşayış yerlərindən aşkar olunan arxeoloji materiallar başlıca olaraq şirli və şirsiz keramika məmulatlarından ibarətdir. Yaşayış evləri daş təməl üzərində möhrədən və çiy kərpicdən inşa edilmişdir. Divarların seysmik davamlılığını artırmaq üçün hörgünün arasına ağac tirlər atılmışdır. Bu materiallar əsasında yaşayış yerini IX-XX əsrlərə aid etmək olar.

**13. Muncuqlutəpə nekropolu.** Billava Orta əsr yaşayış yerinin 3 km-liyində yerləşir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, yerin səthinə yayılan arxeoloji materiallar yağış və sel sularının təsiri nəticəsində dağılmış qəbir abidələrindən aşkar olunmuşdur.

Abidənin yerləşdiyi ərazidən şüşə muncuqlar tapıldığına görə əhali buranı Muncuqlutəpə adlandırmışdır. Aşkar olunan keramika məmulatı küpə və kasa tipli qabların parçalarından ibarətdir. Onların gilinə narın qum qatılmış çəhrayı rəngdə yaxşı bişirilmişdir. Nekropoldan aşkar olunan materiallar I-III əsrlərə aiddir.

**14. Hadiqaib yaşayış yeri.** Yaşayış yeri Axuraçıyın sol sahilində hündür dağlarla əhatələnmiş dərədə yerləşir.

Hadiqaib yaşayış yeri haqqında yerli əhali arasında müxtəlif əfsanələr dolaşmaqdadır. Əfsanələrdən biri yaşayış yerinin ən hündür dağ zirvəsində ucalan insan heykəlinə bənzər daşla bağlıdır. Rəvayətə görə zalım bir ovçu

ətrafda olan heyvanları qırıb qurtarırdı. Heyvanların ahı-naləsi onu tutmuş və ovçu daşa dönmüşdür.



Şəkil 12. Hadiqaib yaşayış yeri

Hadiqaib yaşayış yerinin sahəsi 60-150metr ölçüdədir. Yaşayış yerində evlərin qalıqları dövrümüzədək qalmışdır. Divarların hündürlüyü 50-80 sm-dir. Bəzi evlərin planları aydınca bilinir. Onların əksəriyyəti dördbucaqlı formasındadır. Evlər ətrafda olan tikinti materiallarından-daşdan inşa edilmişdir. Bərkidici material kimi gildən istifadə edilmişdir.

Yaşayış yerindən aşkar edilmiş, qazan, küp və küpələrin bəziləri əldə, əsas hissəsi isə dulus çarxında səliqəli hazırlanmışdır. Hadiqaib yaşayış yerinin ətrafı gil ehtiyatları ilə zəngindir. Hadiqaib gil təbəqəsinin tərkibində dəmir oksidi nisbətən çoxluq təşkil etdiyindən qabların saxsıları çəhrayı rənglidir.

Yaşayış yerindən tapılmış şirli saxsı məmulatının bəziləri ağ anqob üzərindən yaşıl, digərləri mavi, üçüncü qrupu göyümtül rəngli şirlə örtülmüşdür. Şirli saxsı məmulatının əsas hissəsi kasa və boşqab tipli qablara aiddir. Bu tip qablar dairəvi oturacağa malik olub daxildən və xaricdən fırça ilə çəkilmiş müxtəlif naxışlarla bəzədilmişdir. Naxışlar həndəsi və nəbati səciyyəlidir. Naxışlar şəffaf, yaxud rəngli yarımşəffaf şirlə örtülmüşdür.

Hadiqaib yaşayış yerindən aşkar edilmiş maddi materiallar VIII-XVIII əsrlər üçün səciyyəvidir. Bu əsasda yaşayış yerində yüz illər boyu həyatın davam etdiyi qənaətinə gəlmək olar.

Yaşayış yerində aparılmış arxeoloji tədqiqatlarla müəyyən edilmişdir ki, abidənin üst tikinti təbəqəsi yanğın nəticəsində dağılmışdır. Yaşayış yerinə təxminən XVIII əsrin sonlarında basqın edilmiş və kənd dağıdılaraq yandırılmışdır. Bu hadisədən sonra ətraf kəndlərin əhalisi yaşayış yerində olan pirə armud ağacına sitayiş etməyə davam etmişlər. Hadiqaib yaşayış yerindən aşkar edilmiş maddi materiallar VIII-XVIII əsrlər üçün səciyyəvidir.




Şəril 13. Hadiqaib yaşayış yerinin tapıntıları (Ə.İ.Novruzlu)

**15. Hadiqaib piri.** Hadiqaib yaşayış yerində olan armud ağacına sitayiş edilməsi müxtəlif şəkildə həyata keçirilir. Birinci növ sitayişdə armud ağacının budaqlarına müxtəlif rəngli parçalar bağlanılır. İkinci növ nəzirlərin verilməsi və qurban kəsilməsidir. Sonuncuya xüsusilə üstünlük verilir. Axura kənd əhalisi

quraqlıq baş verdikdə Hadiqaib pirinin yanında qurban kəsir və allaha dua edərək yağış göndərməsini xahiş edir və yalvarırlar.

**16. Hadiqaib mağarası.** Mağara sıldırım qayaların üç metrliyində yerləşir. Ora çıxmaq son dərəcə təhlükəlidir. Mağaranın ağız hissəsi aşağıdan daşlarla hörülmüşdür. Mağaranın içərisində vəhşi heyvanlar məskən salmışlar. Uzunluğu 10 metrdən artıq olan mağaranın hündürlüyü 2, bəzi yerlərdə isə 3 metrə çatır. Mağaranın eni də 3 m-dir. Ağız hissədən iki metr içəriyə doğru vəhşi heyvanlar tərəfindən qazılmış hissədə iti uclu obsidion qəlpələri səpələnmişdir. Təhlükəli olduğundan mağarada arxeoloji tədqiqat işləri aparmaq mümkün olmamışdır. Lakin qeyd edilən mədəniyyət nümunələrinə əsaslanaraq mağaranın Daş dövründə ibtidai insanın yaşayış məskəni olduğunu demək olar.

**17. Musa pələngi basar dərəsi nekropolu.** El arasında Musa adlı bir gəncin igidliyi barədə maraqlı bir rəvayət dolaşır. Əhvalat Axuraçayın yuxarı axarında hər tərəfdən qayalıqlarla əhatələnmiş darısqal bir dərədə baş vermişdir. Pələnglə əlbəyaxa olmuş Musa onu boğub öldürmüş və Axura kəndinə doğru qaçmışdır. Yolda belindəki şalın bir ucu açılaraq toz-duman qaldırmış və hələ həddi buluğa çatmamış gənc Musa vahimələnərək həlak olmuşdur.

Nekropol dərədən bir qədər kənarda olan təpəlikdə yerləşir. Nekropol müsəlman qəbirlərindən ibarətdir. Qəbirlər qərb-şərq istiqamətindədir. Nekropol təxminən XIII-XVII əsrlərə aiddir.

**18. Havuş piri.** Havuş kəndinin şimal-şərq qurtarıcağında sıldırım qayaların arasında dərinliyi 15 metrdən artıq olan mağara var. Mağaranın giriş hissəsində qaya tağvari şəkildə oyulmuş onun içərisində cızma və qazma üsulu ilə bir neçə döyüşçü həkk edilmişdir. Döyüşçülərin əlində nizə təsvir edilmişdir .

Burada tək armud ağacı var. Armud ağacının özünə də pir kimi sitayiş edilir. Övladı olmayan qadınlar ağacın budaqlarından nənni asır və arzusunu diləyir.

Mağarının eni 3, bəzi yerlərdə 4 metrdir. Mağara ortada daralaraq yenidən genişlənir. Mağaranın aşağı hissəsi dolduğundan bura ancaq əyilərək girmək olur. Mağarada 1 x 1 metr ölçüdə təmizləmə işləri aparılmış,. 40 sm dərinlikdə insan sümükləri aşkar edilmişdir. Kənd əhalisinin verdiyi məlumata görə mağarada imamlarımız dəfn edilmişdir.

Mağaranın 1 metr dərinliyindən iti uclu qara rəngli alətin sınığı aşkar edilmişdir. Ehtimal ki, mağara ən qədim insan məskənlərindən olmuşdur. Mağaranın pirə çevrilməsi də əcdadlara və onların ruhlarına olan inamlarla bağlıdır. Yüz illər boyu yerli əhali əcdad ruhları qarşısında baş əymiş, oranı toxunulmaz hesab edərək səcdəgaha çevirmişlər.

**19. Havuş nekropolu.** Nekropol kəndin yaxınlığındakı yamacda yerləşir. Nekropolda aparılmış yerüstü tədqiqatlar nəticəsində bir neçə saxsı qab sınıqları toplanmışdır. Buna əsasən nekropolu eramızın III-XIX əsrlərinə aid etmək olar.

**20. Havuş mədən istismar yeri.** Eyniadlı kəndin içərisində dərin dərədədir. Havuşçayın sol sahilində Dərələyəz sıra dağlarının ətəklərində yerləş-

mişdir. Yeraltı filizçıxarma məntəqəsində təmizləmə işləri aparılmış, Orta əsrlərə aid keramika məmulatı aşkar edilmişdir. Filizin analizi göstərmişdir ki, Havuş mədən istismar yerindən əsasən qurğuşun çıxarılmışdır. Lakin filizin tərkibində digər qarışıqlar da olmuşdur .

**21. Tamaşalı yaşayış yeri .** Havuş kəndi ərazisində hər tərəfdən hündür dağlarla əhatələnmiş düzənlik sahədə səfalı bir yerdə salınmışdır. Bu ərazi maldarlıq və heyvandarlıq üçün olduqca əlverişlidir. Hər tərəf yam-yaşıl bitkilərlə örtülmüşdür. Hazırda yaşayış yerində daşdan inşa olunmuş tikintilər, iri daş həvənglər, ictimai binaların qalıqları qalmaqdadır. Yerüstü materiallar başlıca olaraq çəhrayı rəngdə bişirilmiş xaricdən cilalanmış kasa və küpə tipli qabların parçalarından ibarətdir.

Tamaşalı yaşayış yerinin sahəsi bir hektardır. Yaşayış yerində 2 x 2 metr ölçüdə kəşfiyyat qazıntısı aparılmış, divar qalıqları, kül yığını, çəhrayı rəngdə bişirilmiş keramika aşkar edilmişdir. Tədqiqat zamanı 3 m qalınlığı olan iki mədəni təbəqə aşkar edilmişdir. Üst mədəni təbəqədən şirli və şirsiz keramika, osteoloji qalıqlar tapılmışdır. Bu təbəqə XI-XVI əsrlərə aiddir.

İkinci mədəni təbəqədən Erkən Orta əsrlərə aid keramika məmulatı, tikinti qalıqları və ocaq yerləri aşkar edilmişdir. Araşdırmalara əsasən alt mədəni təbəqəni eramızın I-IX əsrlərinə aid etmək olar.

**22. Tamaşalı nekropolu.** Nekropol yaşayış yerinin 1 km-liyində təpə üzərində yerləşir. Burada aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, nekropolda daş qutu tipli və torpaq qəbirlər vardır. Nekropoldan aşkar edilmiş maddi-mədəniyyət nümunələri kiçik ölçülü küpə tipli qablara aiddir. Küpələr əldə nisbətən kobud şəkildə formalaşdırılmışdır. Onlar I-VI əsrlərə aiddir. Torpaq qəbirlər X-XVI əsrlərə aiddir. Onlar qərb-şərq istiqamətində qazılmışdır. Bəzisinin üzərində sənduqə tipli sinə daşları var.

**23. Sarıbulaq yaşayış yeri.** Şərurun dəniz səviyyəsindən ən hündür dağları arasında, geniş bir düzənlikdə yerləşir. Bu düzənliklərdə bir neçə yaşayış yeri, oba və yurd yerləri, nekropollar aşkar edilmişdir.

Sarıbulaq yaşayış yerində aparılan kəşfiyyat qazıntıları nəticəsində (2 x 2 m ölçüdə) divar qalıqları, ocaq yerləri, keramika məmulatı aşkarlanmışdır. Daşdan inşa edilmiş divarın eni 80 sm-dir. Qazıntı zamanı silindirik formalı təndirlər də aşkar olunmuşdur.

Keramika məmulatı bir neçə küp, səhəng tipli qabın və bir ədəd şirli qabın oturacaq hissəsinin parçaları ilə təmsil olunmuşdur. Bu materiallar əsasında yaşayış yerinin IX-XVIII əsrlərə aid eimək olar.

**24. Sarıbulaq oba yeri.** Oba yeri bulağın yaxınlığında yerləşir. Araşdırmalar zamanı müəyyən edilmişdir ki, Sarıbulaq oba yerində mədəni təbəqə əmələ gəlmişdir. Tikinti qalıqları bir neçə ev və küz xarabalıqlarından ibarət idi. Ətrafda olan təndir qalıqları nisbətən yaxşı qorunub saxlanmışdır. Yerli əhalinin verdiyi məlumata görə oba yeri uzun illərdir ki, istifadə edilir. Sarıbulaq oba yeri

yay aylarında Şərurun maldar tayfalarının və Arazboyu əhalinin istirahət və qışlaq yeri olmuşdur.

Sarıbulaq oba yerindən tapılmış maddi-mədəniyyət nümunələri IX-XX əsrlərə aiddir. Tapıntılar içərisində nehrə qalıqlarına tez-tez təsadüf edilməsi oba yerində maldar tayfaların vaxtaşırı məskən saldığını göstərən mühüm əlamətdir.

**25. Sarıbulaq yurd yeri.** Eyniadlı oba yerindən 5-6 km cənuba doğru yerləşir. Yurd yerində aparılan kəşfiyyat qazıntıları nəticəsində 20 sm dərinlikdən divar qalıqları aşkar olunmuşdur. Qazıntı zamanı məlum olmuşdur ki, burada (üst qatdan tapılmış divar qalıqları istisna olmaqla) mədəni təbəqə az yığılmışdır. Yurd yerindən də bir neçə təndir qalığı, keramika nümunələri aşkar edilmişdir.

Aşkar edilmiş saxsı qablar çəhrayı rəngdə yaxşı bişirilmişdir. Sarıbulaq yurd yerini IX-XVIII əsrlərə aid etmək olar.

**26. I Sarıbulaq nekropolu.** Nekropol yurd yerindən 1 km şərqə doğru hündür təpə üzərində yerləşir. Nekropol sel sularının təsiri ilə dağılmışdır. Qəbirlər torpaqda qazılmış dördkünc çalalardan və daş qutu qəbirlərdən ibarətdir. Dağılmış qəbirlərdən tapılmış saxsı qablar eramızdan əvvəl II, eramızın III əsrlərinə aiddir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmiş, xaricdən anqoblanmış, bəziləri cilalanmışdır.

**27. II Sarıbulaq nekropolu.** Keçəlbaba istiqamətində, I nekropoldan 2 km şimal-şərqə doğru oval təpənin üzərində yerləşir. Torpaq qəbirlərin bəziləri dağılmışdır. Qəbirlər qərb-şərq istiqamətindədir. Nekropoldan toplanılmış saxsı məmulatı III-VI əsrlər üçün səciyyəvidir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmiş, bəziləri qırmızı anqobla örtülərək cilalanmışdır.

**28. İtqıran yaşayış yeri.** El arasında Dərələyəz sıra dağlarının ən hündür yeri Mailxan adlanır. Mailxan dağının arxasında yerləşən İtqıran yaşayış yerinin xarabalıqları indi də qalmaqdadır. Evlər düzbucaqlı formalıdır. Yaşayış binaları daşdan inşa edilmiş, bəzi evlərin tikintilərində çiy kərpic və möhrədən istifadə olunmuşdur. Evlərin içərisində dördkünc və tağşəkilli taxçalar vardır. Yerüstü materiallar çəhrayı rəngli şirli və şirsiz keramikadan ibarətdir. Yaşayış yeri IX-XVII əsrlərə aiddir.

**29. İtqıran nekropolu.** Yaşayış yerinin 1 km-liyində yerləşir. Qəbirlər qərb-iərq istiqamətindədir. Başdaşıları hündür olub əksəriyyətinin bir üzündə aypara təsvir edilmişdir. Mərhumların adları cızma üsulu ilə daş üzərinə həkk edilmişdir. Kitabələr ərəb əlifbası ilə yazılmışdır. Onların üzərində Əli, Maqsud, Həsən, Zeynəb, Fatma və başqalarının adları oxunur. Əsrlərin sınağından çıxıb zəmanəmizədək qalmış müsəlman qəbirstanlığıı ermənilər tərəfindən dağıdılıb məhv edilmişdir. Nekropol eyniadlı yaşayış yerinə məxsus olub IX-XVII əsrlərə aiddir.

**30. Almalı yaşayış yeri.** Xarabalıqları eyniadlı kəndin yaxınlığında yerləşir. Evlər daş təməl üzərində çiy kərpic və möhrədən inşa edilmişdir. Bəzi evlərin divarlarına ağac tirlər atılmışdır. Uçub-tökülmüş binaların içərisində

dördkünc taxçalara və buxarılara rastlanır. Keramika məmulatı çəhrayı rəngdə yaxşı bişirilmiş şirli qablardan və qara rəngli çölməklərdən ibarətdir. Yaşayış yerindən aşkar edilmiş saxsı məmulatı IX-XV əsrlərə aiddir.

**31. Pir Süleyman (Tənənəm).** Rəvayətə görə, Həzrəti Süleymanın qəbri burada yerləşir. Qəbir üzərində tikilmiş sərdabə uzun illərdir ki, ibadətgaha çevrilmişdir. Pir Süleymana daim nəzir verilir və qurbanlar kəsilir.

Kənd əhalisinin verdiyi məlumata görə Pir Süleymanın kitabəsi olmuşdur. Kitabə daş üzərində oyulmuş və ərəb dillində yazılmışdır. Türbənin divarları yastı daşlardan inşa edilərək, əhəng məhlulu ilə bərkidilmişdir. Tavanın mərkəzi hissəsi günbəzlə tamamlanır. Günbəzi bütün Orta əsr müsəlman abidələrində olduğu kimi tağvari və dairəvi planlıdır. Sərdabənin yeraltı hissəsində olan qəbirin izləri itmişdir.

Abidənin içərisində divardan asılmış yazı üzərində qoşa uclu qılınc tutmuş şəxs təsvir edilmiş və onun sağ tərəfində «Ya Əli» sözü yazılmışdır. Vərəqin digər üzündə haşiyələr içərisində Quranın II surəsinin 256-cı ayəsi yazılmışdır. Digər hissədə Quranın 39-cu surəsinin 54-cü ayəsi həkk edilmişdir.

Pir Süleyman türbəsinin ətrafından xeyli miqdarda saxsı qab sınıqları kaşı hissələri aşkar edilmişdir. Şirli qablar və kaşılar XIV əsr üçün səciyyəvidir. Abidəni buradan aşkar edilmiş materiallar əsasında XIV-XV əsrə aid etmək olar.

**32. Qırlar nekropolu.** Daşarxdan Dizə kəndinə gedən yolun ikinci döngəsində yol genişləndirilərkən 1987-ci ildə nəhəng xumlar tapılmışdır. Dağıdılmış xumların içərisində insan skeleti və saxsı qab sınıqları aşkar edilmişdir. Xumlar arsındakı məsafə 1,5-2 metrdir. Qırlardan tapılmış xumlar armudvari və şarşəkilli gövdəyə, kiçik yastı oturacağa və geniş ağıza malikdir. Boğazsız xumların ağzının kənarları birbaşa xaricə açılır. Xumların bəzisi dulus çarxında, bəziləri isə əldə hazırlanmışdır. Onlar xaricdən iki, üç yerdən enli relyefli kəmərlərlə əhatələnmişdir. Hündürlüyü 1,5 metr olan küplərin gövdəsi olduqca genişdir. Bəzilərinin ən geniş yerdə diametri 80 sm-dir. Nekropol e.ə. II-b.e. I əsrlərinə aiddir.

**33. Şərur Orta əsr yaşayış yeri.** Müasir Şərur şəhərinin şimal-qərb tərəfində yerləşir. Yaşayış yerinin qalıqları bu ərazidə tikinti işləri aparılarkən tapılmışdır. Mədəni təbəqə 1,5 metr dərinlikdən aşkar edilmişdir. Buradan tapılmış divar qılıqları tikinti materiallarına görə bir-birindən fərqlənir. Bəzi divarlar daşdan hörülərək gil məhlulu ilə bərkidilmişdir. Digər divarların tikintisində bişmiş kərpic və əhəngdən istifadə edilmişdir.

Şərur yaşayış yerindən xeyli miqdarda şirli və şirsiz saxsı məmulatı sınıqları aşkar edilmişdir. Onlar nəhəng küp, dolça, çıraq və şar-konusvari qab sınıqlarından ibarətdir. Küp nəhəng gövdəli olub, silindrik boğazlı, yastı oturacaqlıdır. Onların bəzisinin gilinə qum qatılmış, bəzisi isə qarışıqsız gildən hazırlanmışdır.

Yaşayış yerindən aşkar olunan keramikanın bir qismi son dərəcə möhkəm və keyfiyyətli qablar olan şarkonusvari qab sınıqlarından ibarətdir.

Karvan yollarının kəsişdiyi nöqtədə yerləşən Şərurdan şarkonusvari qabların tapılması təsadüfi deyil. Bu qabları istehsal edən yerli dulusçular qiymətli məhlulların daşınması və saxlanmasına şərait yaradırdılar.



Şəkil 14. Orta əsr Şərur yaşayış yerinin planı və tapıntıları (Ə.İ.Novruzlu)

Şərur Orta əsr yaşayış yerini buradan aşkar edilmiş maddi-mədəniyyət nümunələri əsasında IX-XVII əsrlərə aid edirik.

**34. Dana qalası.** Axura kəndindən şərqdə, Havuş kəndinin cənub tərəfində hündür dağ üzərində yerləşir. Ə.İ.Novruzlunun apardığı arxeoloji

tədqiqatlar nəticəsində burada qala divarları izlənilmişdir. Divarlar iri daşlardan inşa edilmişdir. Arxeoloji tapıntıların əsas hissəsini şirsiz saxsı məmulatı təşkil etsə də qaladan şirli qab hissələri, metal əşya qalıqları da tapılmışdır. Qalada mədəni təbəqə çox yığılmamışdır. Materiallar müxtəlif tarixli dövrlərə aiddir. Şirli qablar anqob təbəqəsini qazma və qravirovka üsulu ilə naxışlanaraq yaşıl rəngli şirlə örtülmüşdür. Keramika XI-XVII əsrlər üçün xarakterikdir.

Bu əsasda Dana qalasının XI əsrdə inşa edildiyini etimal edirik. Qalada XVIII əsrədək Azərbaycan torpaqlarını qoruyan hərbi qüvvələr yerləşmişdir.

**35. Pisdər mağarası.** Dana qalasının yaxınlığında yerləşir. Yarımdairəvi formalıdır. Dərinliyi 10 metrdən artıqdır. Aşağı hissəsi torpaqla doldurulmuşdur. Mağaranın ibtidai insan məskəni olduğu ehtimal olunur. Yerüstü materiallar Orta əzsrlərə aiddir.

**36. Şoralı mağarası.** Pisdər mağarasının qərb tərəfində yerləşir. Mağara qövsvari formalıdır. Onun içərisinə ayaq üstə daxil olmaq mümkündür. Uzunluğu 15 metrdən artıqdır. Qalın torpaq örtüyü var. Bəzi tapıntılar əsasında Şoralı mağarasının Daş dövrünə aid olduğunu etimal edirik. Lakin yerüstü materiallar Orta əsrlərə aiddir.

**37. Havuş qız qalası.** Abidəyə el arasında «Qız evi», yaxud «Qız qayası» da deyilir. Abidə Havuş kəndinin şərq tərəfində sıldırım qayaların üzərində yerləşir. Qayanın içərisində oyulmuş tağbəndlə tamamlanır. Abidənin Orta əsrlərə aid olduğunu ehtimal edirik.

**38. Sultan İbrahim imamzadəsi.** Parçı orta əsr yaşayış yerinin ərazisində yerləşir. Yaşayış yerindən şirsiz və şirli saxsı məmulatı hissələri aşkar edilmişdir.

Sultan İbrahim imamzadəsi orta əsr Azərbaycan memarlığının kiçik ölçülü abidələrindəndir. Abidəni onun ətrafından tapılmış arxeoloji materiallar əsasında XIV əsrin əvvəllərinə aid edirik.

Tədqiqatçıların verdiyi məlumata görə (bu barədə F.Y.Səfərov məlumat vermişdir), vaxtilə imamzadənın qapısı üzərində ərəb qrafikası ilə yazılmış kitabə olmuşdur. Təəssüf ki, həmin kitabə hazırda saxlanmamışdır. Məlumata görə, o, şiələrin yeddinci imamı Museyi Kazımın övladlarının şərəfinə tikilmişdir .

**39. Dan yeri yaşayış yeri.** Yaşayış yeri Qara dağın ətrafında, Yastan deyilən yerdə yerləşir. Yaşayış binalarının bünövrəsi daşdan, divarları isə möhrədən tikilmişdir. Bəzi binaların divarları iri daşlardan inşa olunmuşdur. Aparılan araşdırmalar zamanı çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatı aşkar edilmişdir. Mədəni təbəqənin 1,5-2 m arasında olması burada həyatın uzun müddət davam etdiyini göstərir. Yaşayış yerinin xarabalıqlarından aşkar edilmiş materiallar əsasında onu IX-XVII əsrlərə aid etmək olar.

**40. Dan yeri Orta əsr qəbirstanlığı.** Yaşayış yerinin yaxınlığında yerləşir. Əsas hissəsinin izləri itmişdir. Bir neçə sinə daşları-sənduqələr dövrümüzədək qalmışdır. Düzbucaqlı forması sənduqənin yalnız bir üzü istisna edilməklə digər tərəfləri zəngin bəzədilmişdir. Cızma, döymə və oyma üsulu ilə zəngin nəbati təsvirlərlə bəzədilmiş sənduqənin üzərinə ərəb əlifbası ilə yazı həkk edilmişdir.

Kitabə Quran ayələrindən və mərhumun adı, olum və ölüm tarixinə aid məlumatlardan ibarətdir.

**41. Qazma mağarası.** Paleolit dövrünün abidəsidir. O, Tənənəm kəndindən 3 km şimal-şərqdə, dəniz səviyyəsindən 1450 m yüksəklikdə yerləşir. 1987-1990-cı illərdə Ə.Q.Cəfərovun rəhbərliyi ilə Qazma mağarasında qazıntı işləri aparılmışdır. Qazıntı zamanı qalınlığı 3 m olan mədəni təbəqə aşkar edilmişdir.



Şəkil 15. Qazma mamarası. Mustye mədəniyyətinin əmək alətləri

Mədəni təbəqələrin üçündə- IV, V və VI təbəqələrdə zəngin osteoloji material, ocaq yerləri və Mustye mədəniyyətinə aid daş alətlər aşkar edilmişdir. Musteye mədəniyyətinə aid təbəqələr tərkibcə eyni olub az miqdarda əhəngdaşı

çınqılının qarışığı olan yüngül gil torpaqdan ibarətdir. Kəsiklərin birində bir neçə ocaq qeydə alınmışdır. Altıncı təbəqə müxtəlif maddi mədəniyyət qalıqları ilə zəngin olmuşdur. Bu təbəqədə daş alətlərdən başqa üç tərəfdən yastı daşlarla əhatələnmiş iki ocaq aşkar olunmuşdur. Ocaqlardan xeyli qaralmış sümük tapılmışdır. Əmək alətləri əsasən obsidiandan (92,7%) hazırlanmışdır. Bundan başqa çaxmaq daşı (21 ədəd) və daşlı şistdən (5 ədəd) hazırlanmış alətlərə də təsadüf olunmuşdur. Əmək alətlərinin hazırlandığı bütün daş növləri yerlidir. Xeyli miqdarda istehsal tullantısının – nukleus, qəlpə, obsidian və çaxmaqdaşı sınıqlarının aşkar edilməsi göstərir ki, daşın ilkin emalı mağarada olmuşdur.

Dördüncü təbəqədən daş alətlərlə bərabər sümük alətlər də aşkar edilmişdir. Onlar biz, bıçaq, kəsici və oyucu alətlərdən ibarətdir.

Aşkar olunmuş tapıntılar göstərir ki, Qazma mağarasında Mustye dövründə uzun müddət yaşayan qədim sakinlərin əsas təsərrüfat forması ovçuluq olmuşdur.

**42. Şortəpə yaşayış yeri.** Tunc və Dəmir dövrünün abidəsidir. O, İbadulla kəndindən cənub-şərqdə yerləşir. Yaşayış yeri ilk dəfə 1934-cü ildə qeydə alınmışdır. Abidə ətraf yerlərə nisbətən 1,5-2 m hündürlükdə olan oval təpədən ibarətdir. Sahəsi 1500 kv.m-dir.

1934-cü ildə yaşayış yerinin ərazisində kanal qazılarkən mədəni təbəqə dağıdılmış iribuynuzlu heyvan başı formasında hazırlanmış ocaq qurğusu və boyalı qablar aşkar edilmişdir.

1936-cı ildə Ə.K.Ələkbərov Şortəpədə kəşfiyyat qazıntısı aparmış və mədəni təbəqəni 3 m dərinliyədək tədqiq etmişdir. Tədqiqat nəticəsində dörd mədəni təbəqə aşkar olunmuşdur. Birinci təbəqə Kür-Araz mədəniyyətinə aiddir. Bu təbəqədən iribuynuzlu heyvan başı formasında və nalşəkilli formada hazırlanmış ocaq qurğuları aşkar olunmuşdur. İkinci təbəqədə Orta Tunc dövrü üçün xarakterik olan boyalı və sadə qablar, üçüncü təbəqədə isə daş qutu tipli qəbirlər və uzunboğaz çəkmə formasında olan gil qab aşkar edilib. Bu qəbirlər çay daşlarından qurulmuş və dördkünc formalı olmuşdur. Həmin qəbirlər tədqiq edilərkən qara rəngdə bişirilmiş gil qablar tapılmışdır. Belə keramika Son Tunc və Erkən Dəmir dövrü üçün xarakterikdir.

Dördüncü təbəqə 0,3-0,9 m dərinlikdə yerləşir. Bu təbəqədə uşağa və yaşlı adamlara aid torpaq qəbirlər tapılmışdır. Qəbirlərdən maddi mədəniyyət qalıqları aşkar edilmədiyindən onların dövrü müəyyənləşdirilməmişdir. Son zamanlar Şortəpənin üst təbəqəsinin dağıntıya məruz qalması nəticəsində buradan Son Antik dövrə aid çəhrayı rəngli küpələr aşkar edilmişdir. Onların üzəri qırmızı anqobla örtülərək yaxşı cilalanmışdır. Gövdəsi uzunsov, qabarıq ağzının kənarı isə yanlardan içəriyə doğru batıqdır. Ağzının kənarından gövdəsinin yuxarı hissəsinə birləşən lentşəkilli qulpu vardır. Qabların xarici səthi cilalanmışdır. Aşkar olunmuş tapıntılar burada Antik dövrə aid nekropolun olduğunu göstərir.

1986-87-ci illərdə aparılmış tədqiqatlar nəticəsində Şortəpə yaşayış yerində Erkən Dəmir dövrünə aid xeyli gil qab sınıqları toplanmışdır. Onlar əsasən kasa tipli qablardan ibarət olub silindrik-konusvari və bikonus formalıdır.

Qablar xaricdən yüngülcə cilalanmışdır. Belə qablar Naxçıvanın Erkən Dəmir dövrü keramikası üçün xarakterikdir.

Aparılmış tədqiqatlara əsasən belə hesab etmək olar ki, Şortəpə yaşayış yerində həyat uzun müddət davam etmiş. Erkən Dəmir dövründə yaşayış yeri öz əhəmiyyətini itirmiş və qəbirstanlıq kimi istifadə olunmuşdur. Tədqiqatların nəticələrinə əsaslanaraq yaşayış yerini e.ə. IV-I minilliyə, burada salınmış Antik nekropolu isə eramızın ilk əsrlərinə aid etmək olar.




Şəril 16. Ovçulartəpəsində, I kvadratda aşkar olunan tikinti qalıqları

**43. Ovçulartəpəsi.** Eneolit və Erkən Tunc dövrünün abidəsidir. Yaşayış yeri Dizə kəndindən şimal-qərbdə Arpaçayın sol sahilində uzunsov konusvari təpənin üzərində yerləşir. Sahəsi 10 hektara yaxındır. Yaşayış yerində televiziya qülləsinin tikintisi ilə əlaqədər olaraq mədəni təbəqə dağıdılmış, Eneolit və Erkən Tunc dövrünə aid tapıntılar əldə edilmişdir. Eneolit-dövrünə aid gil məmulatı əsasən saman, bəzən isə qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə bişirilmişdir. Onlar küpə, kasa, badya, xeyrə tipli qabların sınıqlarından ibarətdir.

Küpə tipli qabların bir qismi xaricdən anqoblanmış, yapma, basma ornamentlə naxışlanmışdır. Çəlləkvari qab hissələrinin gövdəsi cızma, ağzının kənarı yapma ornamentlə naxışlanmışdır. Badya və kasa tipli qablar xaricdən sarı rəngli anqobla örtülmüşdür.

Kür-Araz mədəniyyətinə məxsus qabların qulpları yarımşarşəkillidir. Qulpların biri çəhrayı rəngdə bişirilmiş, xaricdən cilalanmışdır. Dən daşları boz rəngli tufdan və bazaltdan hazırlanmışdır. Həvənglər dairəvi-şarşəkilli formada olub hər tərəfdən yaxşı işlənmiş, oturacağı yastılanmışdır.

1980-ci ildə yaşayış yerinin şimal-şərq qurtaracağında 6,25 kv.m, 2001-ci ildə isə 25 kv.m sahədə kəşfiyyat şurfu qoyulmuşdur. Qazıntı işləri 1 m dərinliyədək davam etdirilmişdir. Tədqiqat zamanı Eneolit və Kür-Araz mədəniyyətinə aid tikinti qalıqları, gil qab hissələri daş alətlər və osteoloji qalıqlar aşkar edilmişdir.

2001-ci ildə S.H.Aşurov yaşayış yerində 5 x 5 m sahədə tədqiqat aparmışdır. 2006-2008-ci illərdə yaşayış yerində V.B.Baxşəliyev, Katerine Morro və S.H.Aşurovun rəhbərliyi ilə 1225 kv.m sahədə tədqiqat aparılmış Eneolit və Erkən Tunc dövrünə aid dairəvi və dördkünc formalı tikintilər, keramika, tunc və sümükdən hazırlanmış əşyalar tapılmışdır. Eneolit dövrünə aid tapıntıların əksəriyyəti gil məmulatından ibarətdir. Onlara çəhrayı rəngdə, sarı, qırmızı, çəhrayı çalalarda bişirilmiş gil məmulatı daxildir. Onların gilinə qum qatılmış, əsasən yaxşı, bəzən qeyri-bərabər bişirilmişdir. Bəzi qabların divarları arasında bişməmiş təbəqə saxlanmışdır. Bu qrupa aid keramika küpə və xeyrə tipli qablar aiddir. Onların üzəri daraq şəkilli alətlə, çəpinə çəkilmiş kəsmə xətlərlə və yapma zolaqlarla naxışlanmışdır. Bəzi sınıqların üzərində qulplara və məməcik şəkilli çıxıntılara təsadüf olunur.

Erkən Tunc dövrünə aid keramika boz və qonur rəngdə bişirilmiş gil məmulatından ibarətdir. Onlar küpə, kasa, parça tipli qabların müxtəlif hissələrindən ibarətdir. Xarici səthi yaxşı sığallanaraq qara rənglə örtülmüş və cilalanmışdır. Bu qrupa aid gil məmulatının bir qrupu çəhrayı astarlıdır. Bu qabların bəzisi xaricdən qara, içəridən isə çəhrayı və qəhvəyi rənglə örtülərək cilalanmışdır. Onların naxışlanmasında oval dairə və kannelyur ornamentdən istifadə edilmişdir.

Dən daşları boz və qonur rəngli tufdan hazırlanmışdır. Onlar qayıqşəkilli formada olub işlənmə nəticəsində ucları mərkəzi hissəsinə nisbətən yuxarı qalxmışdır.

Ovçular təpəsindən aşkar olunmuş maddi mədəniyyət qalıqlarının tədqiqi yaşayış yerini e.ə. V-III minilliklərə aid etməyə imkan verir.

**44. I Maxta Kültəpəsi.** Erkən Tunc dövrünün abidəsidir. O, yer səthindən 2 m hündürlükdə olan oval təpədən ibarət olub hər tərəfdən əkin sahəsi, qərb tərəfdən isə kanalla məhdudlaşır. Kanaldan bir qədər aralı dəmir yol xətti keçir. Yaşayış yerinin cənub-qərb hissəsi kanal və dəmir yol xətti çəkilərkən dağıdılmış, kanalın içərisində mədəni təbəqənin kəsiyi alınmışdır. Abidənin

böyük bir hissəsi üzüm bağları və əkin sahələrinin altında qalmışdır. Hazırda salamat qalan hissəsinin sahəsi 3 hektardır.




Şəkil 17. I Maxta Kültəsinin keramikası (S.H.Aşurov)

1986-cı ildə yaşayış yerində V.H.Əliyev və A.Q.Seyidov tərəfindən kəşfiyyat şurfu qoyulmuş, qazıntı işləri 0,5 m dərinliyədək davam etdirilmişdir.

1988-1989-cu illərdə isə yaşayış yerində V.H.Əliyev və S.H.Aşurov tərəfindən 100 kv.m. sahədə qazıntı işləri aparılmışdır. 2006-cı ildə Naxta Kültəpəsində V.B.Baxşəliyev, S.H.Aşurov və Lauren Ristvet təpəfindən tədiqat-lar aparılmışdır. Hazırda tədqiqatlar S.H.Aşurov tərəfindən davam etdirilmək-

dədir. Tədqiqat zamanı daş və çiy kərpicdən hörülmüş tikinti qalıqları, gil qab sınıqları, ocaq qurğusunun qalıqları və başqa maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Aşkar edilmiş tapıntılar içərisində gil məmulatı üstünlük təşkil edir. Onlar əsasən boz, qonur, çəhrayı rəngdə bişirilmiş gil qablardan ibarətdir. Boz rəngli gil məmulatı küpə, kasa, çölmək tipli qablar və onların qapaqları ilə təmsil olunmuşdur. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Küpə və çölmək tipli qabların bəzisi qara rəngli boya ilə örtülərək yaxşı cilalanmışdır. Qabların gövdəsinin yuxarı hissəsində yarımşarşəkilli qulpları vardır. Bu tip qabların bəzisi içəridən çəhrayı astarlıdır. Çəhrayı rəngli gil məmulatına küpə və çölmək tipli qabların gövdə hissəsi və ocaq qurğuları aiddir. Gil qablar narın qum qarışığı olan gildən hazırlanaraq hər iki tərəfdən yaxşı hamarlanmış, bəzən onların xarici səthi qırmızı boya ilə örtülmüşdür. Gövdəsinin yuxarısında yarımşarşəkilli qulpları vardır.

Gil məmulatı içərisində ocaq qurğuları xüsusilə maraqlıdır. Onların bir qrupu aşağıda düzbucaqlı formada olub yuxarı hissədə buynuzşəkilli çıxıntılarla tamamlanmışdır. Buynuzvari çıxıntıların üzərində məməcikşəkilli qabartmalar var. İkinci qrup ocaqlar nalşəkilli formadadır. Onlardan birinin mərkəzi çıxıntısı sxematik insan təsviri ilə tamamlanır. Tədqiqat göstərir ki, ocaq qurğuları qədim insanların dünyagörüşü ilə bağlı olmuş sitayiş məqsədilə hazırlanmışdır. Ehtimal ki, nalşəkilli ocaq qurğuları ayaqları yanlara açılmış insan fiqurunu immitasiya etmişdir. Üçüncü qrup ocaq qurğuları dairəvi formalı manqallardan ibarətdir. Onların içərisi odun təsirindən qonur və çəhrayı rəng almışdır. I Maxta Kültəpəsindən obsidian və çaxmaqdaşından hazırlanmış oraq dişləri, obsidiandan hazırlanmış ox ucluqları da aşkar olunmuşdur.

Bu abidədən aşkar olunmuş dəstələr, sürtgəclər və dən daşları Naxçıvan MR ərazisində olan Kür-Araz mədəniyyəti abidələrindən aşkar olunmuş əmək alətləri ilə eyni tiplidir.

Kəşfiyyat xarakterli tədqiqatlar zamanı yaşayış yerinin ərazisində daşdan tikilmiş qədim məbəd, onun içərisindən isə daş bütlər aşkar edilmişdir .

Aparılmış tədqiqatlar zamanı aşkar olunmuş materialların tədqiqi I Maxta Kültəpəsini e.ə. IV - III minilliyə aid etməyə imkan verir.

**45. Xələc yaşayış yeri.** Eneolit və Tunc dövrünün abidəsidir. O, Arpaçayın sağ sahilində, Xalac kəndindən cənubda, çox hündür olmayan təpənin yamacında yerləşir. Sahəsi 0,5 hektardır. Yaşayaş yerinin ərazisində mərmər karxanası açılarkən onun böyük bir qismi dağıdılmış, xeyli maddi mədəniyyət qalıqları aşkar olunmuşdur.

1982-1983-cü illərdə yaşayış yerində aparılan kəşfiyyat işləri nəticəsində buradan xeyli arxeoloji material toplanmışdır. Onlar əsasən gil məmulatı və daş alətlərdən ibarətdir.

Saxsı məmulatının bir qrupu saman qarışığı olan gildən kobud hazırlanmış çəhrayı, bəzən isə boz rəngdə bişirilmişdir. Belə keramika II Kültəpənin Eneolit və Erkən Tunc dövrünə aid təbəqəsindən də tapılmışdır.

İkinci qrupa narın qum qarışığı olan gildən hazırlanmış qablar daxildir. Onlar boz və çəhrayı rəngdə yaxşı bişirilmişdir. Gil məmulatı küpə, çölmək və kasa tipli qablardan ibarət olub gövdəsində yarımşarşəkilli qulpları vardır. Boz rəngli gil qabların bəzininin içəridən çəhrayı astarı var. Üçüncü qrupa çəhrayı rəngdə yaxşı bişirilmiş, boyalı qablar aiddir. Belə keramika Naxçıvan MR abidələrinin Orta Tunc dövrü üçn xarakterikdir.

Aparılmış tədqiqatların nəticələri göstərir ki, Xalac yaşayış yeri çoxtəbəqəli arxeoloji abidədir. Burada sistemli tədqiqat işləri aparılmadığından müxtəlif dövrlərə aid mədəni təbəqələrin saxlanma dərəcəsi haqqında söz demək çətindir. Tədqiqatçılar tərəfindən qismən öyrənilən Erkən Tunc dövrü keramikası Kür-Araz mədəniyyətinin birinci və ikinci mərhələlərini əhatə edir. Abidəni e.ə. IV-II minilliklərə aid etmək olar.



Şəkil 18. Ərəbyengicə yaşayış yerinin keramika məmulatı

**46. Ərəbyengicə yaşayış yeri.** Erkən Tunc dövrünün abidəsidir. Yaşayış yeri Ərəbyengicə kəndindən cənubda yer səthindən 1-1,5 m yüksəklikdə olan oval təpədən ibarətdir. Abidə Arpaçayın Araza töküldüyü yerdən bir qədər

aralıda yerləşir. Sahəsi 0,8 hektardır. Yaşayış yerinin böyük bir qismi hazırda üzüm plantasiyalarının altında qalmışdır .

1984-1986-cı illərdə yaşayış yerində aparılan tədqiqatlar nəticəsində abidənin yerləşdiyi sahədən xeyli yerüstü materiallar toplanmışdır. Onlar dən daşları, sürtkəc və keramikadan ibarətdir.

2008-ci ildə A.Q.Seyidov və V.B.Baxşəliyev tərəfindən yaşayış yerində tədqiqatlar aparılmış, mədəni təbəqə 2,4 m dərinliyədək öyrənilmişdir. Tədqiqat zamanı dördrünc və oval formalı binaların qalıqları aşkar olunmuşdur. Keramika əsasən boz və qonur-qara rəngli gil qabların müxtəlif hissələrindən ibarətdir. Əsasən qum, bəzən isə saman qarışığı olan gildən hazırlanmışdır. Onlar küpə, çölmək və kasalarla təmsil olunmuşdur. Saxsı qabların bəzisi çəhrayı astarlıdır. Ağzının kənarı içəridən çəhrayı və qəhvəyi rənglə, xaricdən isə qara rənglə boyanaraq cilalanmışdır. Gil qabların naxışlanmasında spiralşəkilli ornamentdən dz oval batıqlardan istifadə edilmişdir. Yaşayış yerindən aşkar edilmiş gil məmulatı Kür-Araz mədəniyyətinin erkən, əsasən isə orta və son dövrləri üçün xarakterikdir. Yaşayış yerini e.ə. IV-III minilliklərə aid etmək olar.

**47. Aşağı Daşarx nekropolu.** Erkən Dəmir dövrünün abidəsidir. O, Aşağı Daşarx kəndindən şimal-qərbdə yerləşir. Nekropol hər tərəfdən əkin sahələri, şimal tərəfdən isə suvarma kanalı ilə məhdudlaşır. Onun cənub tərəfində yer səthindən 5 m hündürlükdə olan oval təpə vardır. Hazırda heç bir yerüstü əlaməti qalmamışdır.

1983-cü ildə nekropolun ərazisində təsərrüfat işləri görülərkən təsadüfən bir neçə torpaq qəbir dağıdılmış və zəngin maddi mədəniyyət qalıqları toplanmışdır. Tapıntılar hazırda Şərur rayon tarix-diyarşünaslıq muzeyində saxlanılır.

Arxeoloji materiallar əsasən gil qablar və onların sınıqlarından ibarətdir. Qabların gilinə narın qum qatılmış, boz rəngdə yaxşı bişirilmiş, bəzən üzərində qonur rənglər saxlanmışdır. Qablar içəridən yaxşı hamarlanmış, xaricdən isə cilalanmışdır. Tapıntılar piyalə, parç və kasa tipli qablarla təmsil olunmuşdur.

Kasa tipli qablar tapıntılar içərisində üstünlük təşkil edir. Onların gövdəsi konusvari olub ağzı gen, oturacağı yastıdır. Bəzi kasaların ağzının altı və oturacağı batıq xətlə əhatələnmişdir. Kasaların ağzının kənarında şaquli deşiyi olan qulaqcıqşəkilli çıxıntısı vardır. Onların bir qrupu xaricdən konnelyur ornamentlə naxışlanmışdır.

Parç tipli qab armudu formada olub ağzının kənarı bir qədər yanlara doğru əyilmişdir. Onun boğazı dar, gövdəsi qabarıq, oturacağı yastı olub, ağzının kənarından gövdəsinin yuxarı hissəsinə birləşən qulpu vardır. Belə keramika Naxçıvan abidələri üçün xarakterikdir. Aşkar olunmuş materialların analizinə əsasən Aşağı Daşarx nekropolunu e.ə. II-I minilliklərə aid etmək olar

**48. Qarabulaq nekropolu.** Erkən Dəmir dövrünün abidəsidir. Nekropol Maxta kəndindən şimal-şərqdə, Naxçıvan-Sədərək şose yolunun sağ tərəfində yerləşir. Nekropolun ərazisi 5 hektardan artıq sahəni əhatə edir. O, cənub tərəfdə iri suvarma kanalı ilə məhdudlaşır.

Nekropol 1988-ci ildə təsərrüfat işləri görülərkən təsadüfən aşkar olunmuşdur. Bu zaman dağılmış qəbirlərdən gil qablar toplanmış və Şərur rayon tarix-diyarşünaslıq muzeyinə verilmişdir.




Şəkil 19. Şərur rayonunun Erkən Dəmir dövrü abidələri. 1-2 - Aşağı Daşarx, 3-6-7 – Qarabulaq, 4-5 –Şortəpə yaşayış yeri, 8-10 – Zeyvə, 12-19 – Yurdçu

Arxeoloji tapıntılar əsasən boz rəngdə bişirilmiş çaynik kasa və banka tipli gil qablardan ibarətdir. Onların gilinə narın qum qatılmış, yaxşı bişirilmişdir.

1988-89-cu illərdə nekropolun ərazisində aparılan kəşfiyyat xarakterli tədqiqatlar zamanı müəyyən edilmişdir ki, Qarabulaq nekropolu kurqan tipli

abidələrdən ibarətdir. Kurqanlar yer səthindən 1-1,5 m yüksəklikdədir. Kurqanlar konusvari formada olub oturacağı düzgün olmayan dairə şəklindədir. Onların diametri 3-5 m-dir. Kurqanlar bir-birindən xeyli aralıda yerləşir.

1989-cu ildə Qarabulaq nekropolundakı kurqanların biri Azərbaycan EA Tarix İnstitutunun arxeoloji ekspedisiyası tərəfindən tədqiq edilmişdir. Tədqiqat zamanı müəyyən edilmişdir ki, kurqanların qəbir kameraları daş qutu tipli olub, divarları iri daşlardan hörülmüşdür. Qarabulaq nekropolundan aşkar edilmiş gil məmulatı Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü abidələri üçün xarakterikdir. Aparılmış tədqiqatlara əsaslanaraq Qarabulaq nekropolunu e.ə. I minilliyin əvvəllərinə aid etmək olar.

**49. Şortəpə nekropolu.** Tunc dövrünün abidəsidir. O İbadulla kəndindən şərqdə eyni adlı yaşayış yerinin yaxınlığındadır. Nekropolun sahəsi hazırda əkin sahəsinə çevrilmişdir. Yerüstü əlamətlərini itirdiyindən sahəsini dəqiqləşdirmək çətindir.

Nekropol 1934-cü ildə kanal qazılarkən dağılmış və zəngin maddi-mədəniyyət qalıqları aşkar edilmişdir. Aşkar edilmiş materialların bir qismi hazırda Naxçıvan MR Dövlət Tarix Muzeyində saxlanılır.

Aşkar edilmiş tapıntılar küpə, çölmək, kasa, çaynik tipli qablardan ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə keyfiyyətli bişirilmişdir. Qabların bir qrupu qırmızı rəng üzərindən qara rənglə, həndəsi motivdə naxışlanmışdır.

Polixrom boyalı qablar bir küpə ilə təmsil olunmuşdur. Onun ağzının kənarı bir qədər yanlara doğru genişlənərək ucda dəyirmiləşdirilmişdir. Boğazı silindrik, gövdəsi qabarıq, oturacağı yastıdır. Gövdəsinin mərkəzi hissəsi sarı anqobla örtülərək qara və qırmızı rəngdə çəkilmiş bir-birinin içərisində olan üçbucaqlarla naxışlanmışdır. İçəridəki üçbucaqlar qırmızı rənglə çəkilmiş torla doldurulmuşdur. Naxışlar aşağıdan və yuxarıdan qara rənglə çəkilmiş düz xətlərlə məhdudlaşdırılmışdır.

Aparılmış tədqiqatlara əsasən belə hesab etmək olar ki, nekropol e.ə. III-II minilliklərə aiddir.

**50. Püsyan nekropolu.** Antik dövrün abidəsidir. O, Püsyan kəndinin cənub-şərqində yerləşir. Hər tərəfdən əkin sahələri ilə əhatə olunub. Nekropolun yaxınlığından torpaq yol keçir. Yerüstü əlamətləri olmadığından sahəsini dəqiq müəyyənləşdirmək mümkün deyil. Dağıdılmış abidələrə əsasən demək olar ki, 1200 kv.m-dən artıq sahəni əhatə edib

Nekropol 1981-ci ildə kanal qazılarkən təsadüfən aşkar olunmuş, dağıntı zamanı aşkar edilmiş materiallar Şərur rayon tarix-diyarşünaslıq muzeyinə aparılmışdır.

1987-ci ildə meliorasiya işləri görülərkən nekropolda daha bir neçə qəbir dağıdılmışdır. Dağıntı zamanı aşkar olunmuş abidələr daş qutu və torpaq qəbirlərdən ibarətdir. Onlar tamamilə dağıdıldığından formasını müəyyən etmək

mümkün olmamışdır. Skeletlər şərq-qərb istiqamətində bükülü vəziyyətdə olmuşdur.

İstər qəbirlərin forması, istərsə də aşkar olunmuş materiallara görə Püsyan nekropolu Qafqaz Albaniyasının qəbir abidələri ilə oxşardır. Belə abidələr Naxçıvan MR ərazisində Naxçıvan şəhəri, Şıxmahmud, Camaldın, Uzunoba, Ağbulaq və başqa yerlərdən məlumdur.

Püsyan nekropolundan aşkar edilmiş arxeoloji materiallar gil qablar və onların sınıqlarından ibarətdir. Onlar küpə, dolça, kasa, çaynik tipli qablardan ibarət olub sarı rəngdə bişirilmişdir. Küpə tipli qablar gen ağızlı, qabarıq gövdəli, yastı oturacaqlıdır. Onların ağzının kənarından gövdəsinin yuxarı hissəsinə birləşən lentşəkilli formalı və ortası batıq qulpları var. Küpələrdən bəzisinin üzəri sarı rənglə anqoblanaraq yüngülcə cilalanmışdır. Bəzi küplərin ağzı yanlardan içəriyə doğru əyilib.

Çaynik tipli qablar formaca müxtəlifdir. Birinci tip çayniklər küpələrlə eyni formada olub qulpunun əks tərəfində silindrik lüləyi vardır. Lüləyi ağzının kənarından bir qədər yuxarı qalxmışdır.

İkinci tip çayniklər lüləyinin formasına görə birincidən fərqlənir. Bu çayniklərin lüləyi Naxçıvanın qədim çayniklərini xatırladır. Lüləyinin arxa hissəsi ağzının kənarı ilə birləşir.

Püsyan nekropolundan tapılmış materiallar Azərbaycanın Son Antik dövr abidələri üçün xarakterikdir. Aşkar edilmiş arxeoloji materiallara əsasən nekropolu e.ə. I-b.e.I əsrinə aid etmək olar.

**51. Püsyan yaşayış yeri.** Antik dövrün abidəsidir. O, Püsyan kəndinin cənub-şərqindədir. Yaşayış yeri yer səthindən bir qədər hündürlükdə yerləşən oval təpədən ibarət olub hər tərəfdən əkin sahəsi ilə əhatə olunmuşdur. Sahəsi 3 hektardır. Yaşayış yeri 1987-ci ildə qeydə alınmış, aparılmış arxeoloji kəşfiyyat işləri nəticəsində küpə, kasa tipli qablar aşkar edilmişdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq açıq sarı rəngdə bişirilmişdir.

Yaşayış yerindən aşkar olunmuş materiallar e.ə. I və b.e-nın I əsrinə aid edilir.

**52. Yaycı nekropolu.** Tunc dövrünün abidəsidir. Aşağı Yaycı kəndindən cənubda yerləşir. Nekropol Dərələyəz dağ silsiləsinin Arpaçaya enən yamacında salınmışdır.

Nekropol 1976-cı ildə Arpaçay su anbarı tikilərkən təsadüfən aşkar olunmuşdur. Tikinti zamanı bir neçə qəbir abidəsi dağıdılmış, zəngin maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Qəbirlər daş qutulardan ibarət olub müxtəlif istiqamətlərə yönəlmişdir. Onların divarları iri sal daşlarla qurulmuş, üzəri bir neçə daş pilitə ilə örtülmüşdür. Bəzi daş qutular kromlexlə əhatə olunmuşdur. Qəbirlərin üzərində yer səviyyəsindən 0,5-1 m hündürlükdə olan kurqanlar saxlanmışdır.

Yaycı nekropolundan aşkar edilmiş arxeoloji materiallar əsasən boyalı qablardan ibarət olub küpə və kasa tipli qablarla təmsil olunmuşdur. Onların

gilinə narın qum qatılmış, çəhrayı rəngdə yaxşı bişirilmiş, qırmızı boya ilə örtülərək xaricdən cilalanmışdır.



Şəkil 20. Orta Tunc dövrünün boyalı qabları. 1, 2 – Şortəpə,
3, 4, 6, 7 - Yaycı, 5 – II Kültəpə

Boyalı keramika məmulatı arasında uzunboğazlı küpələr yüksək sənətkarlıq nümunəsi olmaları ilə fərqlənir. Onların boğazı dar, gövdəsi qabarıq, oturacağı yastıdır. Bu tip küpələrin bəzisinin gövdəsi bikonus formalı, bəzisi isə şarşəkillidir. Boğazı və gövdəsinin yuxarı hissəsi qırmızı anqob üzərindən qara

rənglə çəkilmiş üçbucaq, sınıq və dalğalı xətlərlə naxışlanmışdır. Onların birinin gövdəsində həndəsi ornamentlər arasından yerləşən quş təsvirləri verilmişdir. Digərinin gövdəsi isə iki cərgə heyvan təsviri ilə naxışlanmışdır. Birinci cərgədə quş təsvirləri, ikinci cərgədə isə bir-birinin ardınca düzülmüş maral, it, keçi və qoyun təsvirləri verilmişdir. Təsvirlərin kompozisiyası Şumer mədəniyyətinə məxsus elementləri xatırladır. Bu cür mürəkkəb kompozisiyası olan boyalı qablar Naxçıvanda hələlik başqa abidələrdən məlum deyil.

Yaycı nekropolundan aşkar olunmuş kasa tipli monoxrom boyalı qablar da bəzəmə stilinin orijinallığı ilə fərqlənir.

Yaycı nekropolundan aşkar edilmiş monoxrom naxışlı boyalı qablar Azərbaycan boyalı qablar mədəniyyətinin ilk mərhələsi üçün xarakterikdir.

Aşkar olunmuş materiallara əsasən Yaycı nekropolunu e.ə. III-II minilliklərə aid etmək olar.

**53. Yaycı qalası.** Arpaçayın sol sahilində, hündür dağ zirvəsində daşdan inşa edilmiş qala strateji cəhətdən əlverişli mövqedədir. Qalanın bir hissəsi təbii qayalarla əhatələnmişdir.

Qalada apardığımız tədqiqatlar nəticəsində buradan xeyli miqdarda şirli və şirsiz saxsı məmulatı, dəmir əşyaların  hissələri aşkar edilmişdir. Dəmir əşyalar ox və nizə tipli Orta əsr silahları ilə təmsil olunmuşdur.

Yaycı qalasını buradan aşkar edilmiş maddi materiallar əsasında IX-XIII əsrlərə aid etmək olar.

**54. Dizə nekropolu.** Erkən Tunc dövrünün abidəsidir. Nekropol Dizə kəndindən qərbdə, Ovçulartəpəsi yaşayış yerinin şimalında yerləşir.

Yerüstü əlaməti olmadığından nekropolun sahəsini dəqiq müəyyənləşdirmək mümkün olmamışdır. Abidə Ovçulartəpəsinin Arpaçaya yenən yamacında yerləşmiş,  qərb tərəfdən Arpaçayla məhdudlaşmışdır.

Nekropol 1969-cu ildə təsərrüfat işləri görülərkən təsadüfən aşkar olunmuşdur. Burada dağıdılmış iki qəbirin materialları R.B.Cöyüşov və V.H.Əliyev tərəfindən nəşr edilmişdir. Aparılan tədqiqat işləri nəticəsində qəbirlərdən ikisini öyrənmək mümkün olmuşdur. Birinci qəbrin kamerasının bir hissəsi salamat qalmışdı. Onun divarları çay daşlarından palçıqla hörülmüşdür. Qəbir kamerası şərq-qərb istiqamətində  olub tağşəkilli örtüklə tamamlanmışdır. Qəbir kamerasının döşəməsi palçıqla suvanmışdı. Saxlanmış sümük qalıqlarına əsasən demək olar ki, burada iki dəfn aparılmışdır. Bükülü vəziyyətdə olan skeletlərin başı cənub tərəfə yönəldilmişdir. Bu qəbirdən parç və banka tipli qablar tapılmışdır. Onların gilinə narın qum qatılaraq yaxşı bişirilmiş, xarici səthi cilalanmışdır. Bəzi qabların gövdəsinin yuxarı hissəsində yarımşəkilli qulpu var.

Dizə nekropolundan aşkar edilmiş qəbirlər formaca oxşardır. Qəbirlərin avadanlığı isə Azərbaycanın Kür-Araz mədəniyyətinə aid materialları içərisində özünə geniş analogiya tapır.

Aşkar olunmuş materialların analizinə əsasən demək olar ki, Dizə nekropolu Kür-Araz mədəniyyətinin ilk və orta mərhələsini əhatə edir. Nekropolu e.ə. IV minilliyin sonu III minilliyin əvvəllərinə aid etmək olar.




Şəkil 21. Qarasu qalasının keramikası

**55. Qarasu qalası.** Tunc və Dəmir dövrünün abidəsidir. Abidə Gümüşlü qəsəbəsindən şimalda, hündür təpə üzərində yerləşir. Yayşayış yerinin yerləşdiyi təpə bir neçə terrasdan ibarət olub kobud yonulmuş iri daşlardan hörülmüş divarla əhatə olunmuş, üst terrasda salınmış qala divarı ilə iki hissəyə bölünmüşdür. Narınqala yaşayış yerinin mərkəzi hissəsində yerləşir. Yerüstü

materiallar gil qab sınıqlarından və əmək alətlərindən ibarətdir. Qala divarı relyefə uyğun inşa edilmiş, bəzi hissələrdə rizalitlərlə möhkəmləndirilmişdir. Qala divarının içərisində dördkünc formalı binaların qalıqları vardır.

Tədqiqatçıların verdiyi məlumata görə vaxtilə yaşayış yerindən Orta Tunc dövrünün əvvəlləri üçün xarakterik olan boyalı qablar aşkar olunmuşdur. Yaşayış yerinin mərkəzi hissəsi Orta əsrlərdə bərpa olunaraq istifadə olunmuşdur. Qarasunun Orta əsr divarları yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Divarlar qaya parçalarından hörülərək əhəng məhlulu ilə bərkidilmişdir.

Yerüstü materiallar içərisində Erkən Dəmir dövrünə aid gil məmulatı üstünlük təşkil edir. Tapıntıların əksəriyyəti çəhrayı və boz rəngdə bişirilmiş qab hissələrindən ibarətdir. Qalanın mərkəzi hissəsində xeyli miqdarda orta əsrlərə aid şirli və şirsiz keramika toplanmışdır.

Qarasudan aşkar olunmuş arxeoloji materilların tədqiqinə əsasən demək olar ki, burada həyat e.ə. II-I minilliklərdən XIV-XVII əsrlərədək davam etmişdir.

**56. Oğlanqala yaşayış yeri.** Dəmir dövrünün abidəsidir. O, Oğlanqala kəndinin şimal qurtaracağında yerləşən Qaratəpə adlanan dağın üzərində salınmışdır. Dağ bir neçə terrasdan ibarətdir. Yaşayış yerinin ən üst hissəsində Narınqala yerləşir. Narınqalanın sahəsi 320 kv. m, yaşayış yerinin bütövlükdə sahəsi isə 40 hektara yaxındır. Narınqalanın ətrafına terraslar boyunca bir neçə cərgə divar çəkilmişdir. Qala divarları bəzi yerlərdə yarımdairəvi, bəzən isə girintili-çıxıntılı ziqzaqlarla möhkəmləndirilmişdir. Divarların tikintisində bəzən bir neçə ton ağırlığı olan daşlardan istifadə edilmişdir. Qala divarlarının çox hissəsi uçub tökülmüş, yalnız bəzi hissələrinin qalıqları saxlanmışdır. Bəzi yerlərdə divarın hündürlüyü 3 metrə çatır. Qala divarının içərisində ona bitişik dördkünc formalı bina qalıqları vardır. Qala divarlarına bitişik divarlar həm də müdafiə məqsədi daşımışdır.

Yaşayış yeri 1936-cı ildə Ə.K.Ələkbərov tərəfindən qeydə alınmışdır. O, yaşayış yerində kəşfiyyat xarakterli tədqiqat aparmış, burada boyalı qabların və sütun altlıqlarının olduğunu qeyd etmişdir.

1979-1980-ci illərdə V.H.Əliyev Oğlanqalada kəşfiyyat xarakterli tədqiqat aparmış, qala divarının ölçüsünü götürmüşdür.

1988-1989-cu illərdə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin ekspedisiyası V.B.Baxşəliyevin rəhbərliyi ilə Oğlanqalada 280 kv.m. sahədə qazıntı aparmışdır. Mədəni təbəqə 150 kv.m sahədə xam torpağa, daha doğrusu qayayadək qazılmışdır. Təbəqənin qalınlığı yerin relyefindən asılı olaraq 2,5-4,5 m arasındadır. Qazıntı zamanı dörd tikinti qatı aşkar edilmişdir. Birinci tikinti qatı e.ə. IX-VIII, ikinci e.ə. VIII-VII, üçüncü e.ə. VII-VI, dördüncü e.ə. VI-IV əsrlərə aid edilmişdir.

Tədqiqat zamanı aşkar olunmuş materialların əksəriyyəti saxsı məmulatından ibarətdir. Bu tapıntılar arxeoloji materialların mədəni mənsubiyyətinin və abidənin tarixinin müəyyənləşdirilməsi üçün olduqca əhəmiyyətlidir. Qeyd

etmək lazımdır ki, Oğlanqalanın saxsı məmulatının hazırlanmasında əvvəlki dövrlərin texnoloji üsullarından da istifadə edilmişdir. Saxsı məmulatı əsasən boz və çəhrayı rəngdə bişirilmişdir. Onların müxtəlif təbəqələrdə bir-birinə nisbəti



Şəkil 22. Oğlanqalanın keramika məmulatı

deməк olar ki, bərabərdir. Boz rəngli gil qabların bəzisinin tərkibində Eneolit mədəniyyəti üçün xarakterik olan saman qarışığına təsadüf olunur. Bu qrupa daxil olan bəzi çölmək və banka tipli qabların Kür-Araz mədəniyyəti üçün

xarakterik olan çəhrayı astarı vardır. Boz rəngli gil məmulatına aid çölmək və kasa tipli qabların bir qrupu qara rənglə örtülərək yaxşı cilalanmışdır. İkinci qrup gil məmulatı çəhrayı rəngdə yaxşı bişirilmişdir. Qabların bir qrupu qırmızı boya ilə örtülərək yaxşı cilalanmışdır. Bu tip keramika içərisində boyalı qablara təsadüf edilməmişdir .

Tikinti qatlarının xronologiyasının müəyyənləşdirilməsində çölməklər, silindrik lüləkli qablar, şiş oturacaqlı qablar, silindrik-konusvari və konusvari formalı kasalar əhəmiyyətlidir. Bu tip qablar Naxçıvanın, Cənubi Azərbaycanın və Zaqafqaziyanın həmdövr abidələri içərisində geniş bənzərlər tapır. Belə qablar I Kültəpədən, III Nəhəcirdən, Həsənlidən, Pasarqaddan, Suzdan və Urartu abidələrindən məlumdur.

2008-ci ildə AMEA Naxçıvan Bölməsi və ABŞ-ın Corciya Universitetinin əməkdaşlarının V.B.Baxşəliyevin rəhbərliyi ilə apardığı araşdırmalar zamanı Oğlanqalanın tarixi ilə bağlı yeni maddi-mədəniyyət nümunələri aikar olunmuşdur. Qala-şəhərin tikintisi ilə bağlı mixi yazının aşkar olunması xüsusilə maraqlıdır. Tədqiqat zamanı müəyyən edilmişdir ki, yerüstü materiallar arasinda geniş yayılan boyalı qablar Dəmir dövrünə aiddir.

Aparılmış tədqiqatlar göstərir ki, Oğlanqala yaşayış yerinin əsas fəaliyyət dövrü e.ə. IX-IV əsrlərə aiddir. Yaşayış yerinin müasir dövrədək saxlanmış qala divarları e.ə. I minilliyin əvvəllərində salınmış və sonrakı dövrlərdə istifadə olunmuşdur. Bu dövr ərzində qala divarlarının ümumi planı müəyyən dəyişikliyə uğramişdir.

Oğlanqala yaşayış yerində aparılan tədqiqatlar zamanı həmçinin xeyli miqdarda yerüstü materiallar toplanmışdır.

Yerüstü tapıntıların bir qismi həmçinin Son Orta əsrlərə aiddir. Onlar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatı ilə təmsil olunmuşdur.

Aparılmış tədqiqatlar nəticəsində əldə edilmiş materiallar göstərir ki, XX əsrin əvvəllərində Oğlanqaladan rus qoşunları tərəfindən hərbi istehkam kimi istifadə olunmuşdur.

Göründüyü kimi, Oğlanqalanın əlverişli təbii-coğrafi və strateji mövqeyi onun uzun müddət müdafiə istehkamı kimi istifadə olunmasına səbəb olmuşdur. Oğlanqalanın gələcəkdə tədqiqi xalqımızın qədim tarixi ilə bağlı daha da maraqlı olan materiallar verə bilər.

**57. Dəvəli yaşayış yeri.** Orta əsr abidəsidir. Abidə Gümüşli kəndinin şimalında dağ silsiləsinin Arpaçaya enən yamacında yerləşir. Sahəsi 2 hektara yaxındır. Mədəni təbəqə saxlanmamışdır. Yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş sadə və şirli qab hissələrindən ibarətdir. Bəzi yerlərdə dairəvi və düzbucaqlı planda olan daş düzümlərinə, bəzən isə dördkünc formalı çalalara təsadüf olunur. Şirsiz saxsı məmulatı banka və kasa tipli qablarla təmsil olunmuşdur. Onların bəzisinin lentşəkilli qulpu var.

Kasa tipli qablar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş, içərisində dulus çarxında fırlanma nəticəsində konsentrik izlər saxlanmışdır.

Şirli saxsı məmulatı kasa tipli qablarla təmsil olunmuşdur. Qablar təmiz gildən səliqəli hazırlanaraq yaxşı bişirilmiş, hər iki üzdən göy rəngli şirlə örtülmüşdür. Yaşayış yerindən tapılan kaşı dördkünc formada olub künclərdə dəyirmiləşdirilmişdir. Gili ağ rəngdədir. Yaxşı bişirilmiş və üzəri göy şirlə örtülmüşdür. Dəvəli yaşayış yeri buradan aşkar edilmiş materiallar əsasında X-XVII əsrlərə aid edilir.

**58. Babəki yaşayış yeri.** Orta əsr abidəsidir. Abidə Şərur rayonunun Babəki kəndi yaxınlığında yerləşir. Ərazisi 3 hektardır. Yaşayış yeri hazırda əkin sahələrinin altında qalmışdır. Yaşayış yerinin mərkəzi hissəsi uzunsov-oval formalı təpə şəklində olmuşdur. Təpənin aşınması nəticəsində skelet qalıqları və gil qab sınıqları aşkar edilmişdir. Mədəni təbəqənin qalınlığı bəzi yerlərdə 2 m-dən artıqdır. Təbəqə torpaq qarışıq kül laylarından ibarət olub saxsı məmulatı, tikinti qalıqları və ostoloji materiallarla zəngindir.

Yaşayış yerindən aşkar edilmiş materiallar əsasən Orta əsrlərə aid şirsiz və şirli qab sınıqlarından ibarətdir.

Şirsiz saxsı məmulatı küpə, qapaq, qazan tipli qabların sınıqlarından ibarət olub əsasən çəhrayı və sarı rəngdə bişirilmişdir. Küplərin ağzının kənarında gövdəsinin yuxarı hissəsinə birləşən lentşəkilli qulpları vardır.

Şirli saxsı məmulatı əsasən nimçə və kasa tipli qab hissələrindən ibarətdir. Onların içərisi anqobüstü və anqob fonun qazılması üsulu ilə naxışlanmışdır. Qabların naxışlanmasında yaşıl, göy və qəhvəyi rənglərdən geniş istifadə olunmuşdur. Kasa tipli qabların bəzisi ancaq içəridən, başqaları isə hər iki üzdən göy şirlə örtülmüşdür.

Aşkar olunmuş tapıntılara əsasən Babəki yaşayış yerini VIII-XVIII əsrlərə aid etmək olar.

**59. Təzəkənd yaşayış yeri.** Orta əsr abidəsidir. Yaşayış yeri Təzəkəndin şimal-şərqində yerləşir. Onun əsas hissəsi şumlanaraq əkin sahəsinə çevrilmişdir. Salamat qalan hissəsinin sahəsi 2 hektardır. Yaşayış yerinin mərkəzi hissəsi yer səthindən 1-1,5 m hündürlükdə olan təpə şəklindədir. Burada mədəni təbəqənin qalınlığı bəzi yerlərdə 1-2,5 m hündürlükdə saxlanmışdır. Mədəni təbəqə bəzi yerlərdə aşınma nəticəsində dağılmışdır. O kül qarışıq torpaq laylarından ibarət olub gil qab sınıqları, osteoloji və tikinti qalıqları ilə zəngindir.

Şirsiz gil məmulatı küpə, dolça, çıraq, çölmək və kasa tipli qabların müxtəlif hissələrindən ibarətdir. Qablar narın qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə yaxşı bişirilmiş, hər iki üzdən hamarlanmışdır. Onların bəzisinin ağzının kənarı batıq zolaqla əhatələnmişdir. Qabların ağzının kənarında gövdəsinin yuxarı hissəsinə birləşən lentşəkilli qulpları vardır.

Şirli saxsı məmulatı kasa və nimçə tipli qabların sınıqlarından ibarətdir. Onlar qum qatılmamış, bəzən isə narın qum qarışığı olan gildən hazırlanaraq

çəhrayı rəngdə yaxşı bişirilmişdir. Onların üzəri yaşıl şirlə örtülmüşdür. Qabların bəzisi ağ anqob üzərindən göy, yaşıl bəzən isə marqansla çəkilmiş xətlər və nəbati ornamentlə naxışlanmışdır. Qabların bir qrupu içəri tərəfdən müxtəlif rənglərlə naxışlanmış, xaricdən isə yarıyadək göy rəngli şirlə örtülmüşdür. Yaşayış yerini VII-XVII əsrlərə aid etmək olar.



Şəkil 23. Albantəpə (1-4 ), Babəki (5-6), Təzəkənd ( 9-11) yaşayış yerlərinin keramikası

**60. Qız qalası.** Tunc və Erkən Dəmir dövrünün abidəsidir. Yaşayış yeri Aşağı Yaycı kəndinin cənub-qərbində, Uzunqaya dağ silsiləsinin Arpaçaya

endiyi yerdə yerləşir. O, şərqdə Arpaçay vadisi və su anbarı ilə cənubda düzənlik sahə, şimal və qərbdə isə dağlarla əhatələnmişdir. Tikinti qalıqları olduqca az saxlanmışdır. Yaşayış yerində təsadüf edilən tikinti qalıqları burada vaxtilə daşdan tikilmiş binaların olduğunu göstərir. Abidənin cənub qərb tərəfində iri daşlardan tikilmiş divar qalıqları saxlanmışdır. Tikinti texnikasına görə onlar Oğlanqala tikililərini xatırladır.




Şəkil 24. Qız qalası və Cənnət qayasının tapıntıları. 1-4 – Qız qalası, 5-8 –Cənnət qayası

Yerüstü materiallar çəhrayı və boz rəngdə bişirilmiş gil qab hissələrindən, dən daşları və əmək alətlərindən ibarətdir.

Boz rəngli gil məmulatı narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş, bəzi qabların üzərində qonur ləkələr saxlanmışdır. Onlar əsasən qabların gövdə və oturacaq hissəsindən ibarət olub forma verməyən sınıqlardan ibarətdir. Keramika məmulatı cızma ornamentlə naxışlanmışdır.

Çəhrayı rəngli gil məmulatı küpə və kasa tipli qabların sınıqlarından ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir.

Qabların xarici səthi qırmızı boya ilə örtülərək yaxşı cilalanmışdır. Çəhrayı rəngli gil məmulatının bir qismi boyalı qablardan ibarətdir. Kasa, küpə, badya tipli qabların bir qrupunun üzəri qırmızı rəng üzərindən qara rənglə çəkilmiş xətlərlə naxışlanmışdır. İkinci qrup boyalı qabların mərkəzi hissəsi sarı anqobla örtülmüş, qırmızı və qara rənglə naxışlanmışdır.

Yerüstü materialların analizinə əsasən yaşayış yerini e.ə. II-I minilliklərə aid etmək olar. Qala Orta əsrlərdə bərpa edilərək istifadə olunmuşdur.

**61. Maxta nekropolu.** Antik dövrün abidəsidir. Nekropol Maxta kəndindən şimal-şərqdə Naxçıvan-Sədərək şose yolunun sol tərəfində yerləşir. Nekropola aid olan küp qəbirlər su hovuzunun yerləşdiyi təpədə 1988-ci ildə aşkar olunmuşdur. Küp qəbirlərdən aşkar edilən qablar qum qatılmamış gildən hazırlanaraq çəhrayı rəngdə keyfiyyətli bişirilmişdir. Gövdəsinin yuxarı hissəsi enli qabarıq və batıq zolaqlardan ibarət ornamentlə naxışlanmışdır. Gövdəsində lentşəkilli qulpu var. Hər iki üzdən çəhrayı boya ilə örtülmüşdür. Aşkar edilmiş gil qablara əsasən nekropolu təxminən II-III əsrlərə aid etmək olar.

**62. Parçı yaşayış yeri.** Orta əsr abidəsidir. Yaşayış yeri Naxçıvan-Şərur şose yolunun sağ tərəfində Xanlıqlar kəndinin şimalında yerləşir. Abidə hazırda Xanlıqlar kəndinin əhatəsində qalmışdır. Burada möhrədən və çiy kərpicdən hörülmüş tikinti qalıqları vardır. Yaşayış yerinin üzəri müasir tikintilərlə örtüldüyündən ona məxsus bir çox əlamətlər itmişdir. Yaşayış yerinin mərkəzində Sultan İbrahim imamzadəsi adlanan memarlıq kompleksi yerləşir. Abidə bərpa edilərək təmir edilmişdir. Yaşayış yerinin üzərində xeyli şirsiz və şirli saxsı məmulatına təsadüf olunur. Onlar qum qarışığı olmayan gildən hazırlanmış, çəhrayı rəngdə yaxşı bişirilmişdir. Şirli saxsı məmulatının bəzisi kasa tipli qabların oturacaq hissəsinə məxsusdur. Onların səthi ağ anqob üzərindən göy və yaşıl şirlə naxışlanaraq şəffaf rənglə örtülmüşdür.

Aşkar olunmuş arxeoloji materiallara və epiqrafik dəlillərə əsaslanaraq belə hesab etmək olar ki, Parçı yaşayış yeri VIII-XVII əsrlərə aiddir.

**63. Parçı nekropolu.** Orta əsr abidəsidir. Nekropol eyni adlı yaşayış yerinin yaxınlığında yerləşir. Buradakı torpaq qəbirlər hazırda tamamilə itmiş, qəbirüstü sinədaşları, başdaşıları isə saxlanmışdır. Nekropol qərb-şərq istiqamətində torpaqda qazılmış müsəlman qəbirlərindən ibarət olmuşdur. Başdaşıları düzbucaqlı formada olub yuxarıda tağvari sonluqla tamamlanır. Hazırda nekropolda olan Imamzadənin həyətində bir neçə qəbir vardır. Onlara xalq arasında “Seyid qəbiri” deyilir və müqəddəs hesab edilir.

Nekropol Parçı yaşayış yeri ilə həmdövr olub VIII-XVII əsrlərə aiddir.

**64. Tənənəm yaşayış yeri.** Orta əsr abidəsidir. Yaşayış yeri hazırda kəndin əhatəsində qalmışdır. Kəndin içərisində uçub-tökülmüş kərpic və möhrə tikintilərinin qalıqları nəzərə çarpır. Tikintilərdən nisbətən salamat qalanı günbəzlə tamamlanan abidədir. Abidə daşla inşa olunmuş bişmiş kərpic və kaşı ilə üzlənmişdir. Kəndin içərisində mədəni təbəqənin aşınması nəticəsində çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatı aşkar edilmişdir. Onlar qabların gövdəsinin, oturacağının və qulpunun sınıqlarından ibarətdir. Şirli qabların naxışlanmasında yaşıl, göy və mavi rənglərdən istifadə edilmişdir. Belə qablar Naxçıvanın Orta əsr keramikası üçün xarakterikdir.

Yaşayış yerini təxminən XIV-XVIII əsrlərə aid etmək olar.

**65. Cənnət qayası yaşayış yeri.** Tunc və Dəmir dövrünün abidəsidir. O, Y.Yaycı kəndinin şərqində «Ağ zirət» deyilən yerin yaxınlığında yerləşir. Yaşayış yeri təbii təpənin üzərində salınmış və hər tərəfdən dağlarla əhatə olunmuşdur. Sahəsi 6 hektara yaxındır. Abidənin mərkəzi hissəsində daşdan inşa olunmuş dördkünc formalı tikintilər, onun yaxınlığında isə divar qalıqları var. Yaşayış yerinin bəzi hissələrində tikinti qalıqlarının uçub tökülməsi nəticəsində daş yığınları əmələ gəlmişdir. Aşınma nəticəsində bəzi yerlərdə mədəni təbəqənin kəsiyi alınmışdır. Mədəni təbəqə olduqca az saxlanmışdır. Bəzi yerlərdə təbəqə 50 sm qalınlığındadır.

Yerüstü materiallar saxsı qab sınıqlarından və dən daşlarından ibarətdir. Gil məmulatı çəhrayı və boz rəngli olmaqla iki qrupa bölünür. Çəhrayı rəngli gil məmulatına küpə və kasa tipli qabların sınıqları aiddir. Onlar hər iki üzdən yaxşı sığallanmış, bəzisinin üzəri çəpinə çəkilmiş çərtmələrlə naxışlanmışdır.

Boz rəngli gil məmulatı narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Onlar küpə və kasa tipli qablardan ibarətdir. Qabların xarici səthi yüngülcə cilalanmışdır.

Yaşayış yerindən aşkar edilmiş saxsı məmulatı əsasən Son Tunc və Erkən Dəmir dövrü üçün xarakterikdir. Lakin dən daşları öz arxaik formaları ilə seçilirlər. Şübhəsiz ki, yaşayış yerində həyat mövsümi xarakter daşımış ondan uzun müddət istifadə olunmuşdur. Abidəni e.ə. II-I minilliklərə aid etmək olar.

**66. Muğanlı nekropolu.** Orta əsr abidəsidir. Nekropol Muğanlı kəndinin yaxınlığında yerləşir. Hazırda nekropolun yerüstü əlamətləri itmiş, onun yerləşdiyi sahə əkin yerinə çevrilmişdir. Yerli əhalinin verdiyi məlumata görə nekropolda vaxtilə qoç daşlar olmuşdur. O daşlardan biri Şərur rayon tarix-diyarşünaslıq muzeyinin əməkdaşları tərəfindən muzeyə gətirilmişdir. Hazırda nekropolda olan başdaşılarının bəzisində ərəb əlifbası ilə yazılmış kitabələr var. Nekropolu XV-XVI əsrlərə aid etmək olar.

**67. Şərur yaşayış yeri.** Antik dövr abidəsidir. Şərur ilk dəfə V əsr mənbəsində e.ə. II əsrə aid hadisələrdən danışılarkən xatırlanmışdır. Şərur yaşayış məskəni kimi həmçinin «Kitabi Dədə Qorqud» dastanında «Şaruk» kimi xatırlanmışdır.

Şərur yaşayış yeri hazırda müasir tikintilərlə örtüldüyündən burada arxeoloji tədqiqat işləri aparılmamış və yaşayış yerinin tarixi kifayət qədər aydınlaşdırılmamışdır.

**68. Zeyvə nekropolu.** Erkən Dəmir dövrünün abidəsidir. Nekropol Zeyvə kəndinin yaxınlığında tikinti işləri görülərkən təsadüfən aşkar olunmuşdur. Dağıntı zamanı aşkar olunmuş materialların bir qismi toplanaraq Şərur rayon tarix-diyarşünaslıq muzeyinə verilmişdir. Qəbirlərin formasını və tipi müəyyənləşdirmək mümkün olmamışdır. Ola bilsin ki, onlar torpaq qəbirlərdən ibarət olmuşdur.

Qabların xarici səthi cilalanmış, bəzisinin xarici səthi konnelyur ornamentlə naxışlanmışdır. Kasaların ağzının kənarında şaquli deşiyi olan qulaqcıq şəkilli çıxıntı vardır. Küpələrdən birinin ağzının kənarından gövdəsinə birləşən qulpu diş-diş edilmişdir. Gil məmulatı əsasən boz rəngdə bişirilmiş kasa, piyalə və küpə tipli qablardan və onların müxtəlif hissələrindən ibarətdir.

Zeyvə nekropolunun materilları, Naxçıvanın Erkən Dəmir dövrü abidələri içərisində özünə geniş anologiya tapır. Bu nekropoldan aşkar olunmuş kasa və küpə tipli qablar I Kültəpə və II Kültəpə yaşayış yerlərinin üst təbəqəsindən Sarıdərədən, Kolanıdan və Şahtaxtından məlumdur. Zeyvədən tapılmış kasalar I Kültəpə və Şahtaxtından tapılmış kasalarla eyniyyət təşkil edir. Qulpu diş-diş edilmiş küpələr Naxçıvanda Qızılburundan məlumdur.

**69. Qalacıq arxı.** Oğlanqala yaşayış yerinin şimal tərəfindən, bilavasitə qalanın yaxınlığından çəkilmişdir. O, öz başlanğıcını Arpaçaydan götürür. Bu kanaldan yaşayış yerindən cənubda və qərbdə olan əkin sahələrini suvarmaq üçün istifadə edilmişdir. Kanalın bəzi yerlərində iri qaya parçalarından hörülmüş tikinti qalıqları saxlanmışdır. Tədqiqatçıların fikrincə, kanal uzun müddət fəaliyyət göstərmiş, e.ə. II-I minilliklərdə və Erkən Orta əsrlərdə istifadə olunmuşdur.

**70. Fərhad arxı.** Başlanğıcını Qız qalasının yaxınlığından, Arpaçaydan götürür. Onun uzunluğu 30 km, eni 3-4 m, dərinliyi 2-3 m-dir. Bu kanal Şərur düzünün şimalında və cənubunda olan əkin sahələrini suvarmaq üçün istifadə edilmişdir. Kanal bir neçə dəfə bərpa olunmuş və e.ə. II minillikdən Orta əsrlərədək öz əhəmiyyətini itirməmişdir. Fərhad arxı və bu arxın başlanğıcında qayada çapılmış Fərhad evi ilə bağlı xalq arasında xeyli əfsanə vardır.

**71. II Maxta Kültəpəsi.** Maxta kəndindən şərqdə yerləşir. Yaşayış yerində aparılan tədqiqatlar nəticəsində xeyli yerüstü materiallar toplanmışdır. Tapıntılar əsasən çəhrayı və boz rəngdə bişirilmiş gil qab sınıqlarından, ocaq qurğularının hissələrindən və dən daşlarından ibarətdir. Buradan aşkar olunmuş maddi mədəniyyət nümunələri I Maxta Kültəpəsinin materialları ilə eyniyyət təşkil edir. Bu materiallar Kür-Araz mədəniyyəti üçün xarakterikdir.

Aşkar olunmuş tapıntılara əsasən II Maxta Kültəpəsini e.ə. IV-III minilliklərə aid etmək olar

**72. Yaycı yaşayış yeri.** Orta əsr abidəsidir. Yaşayış yeri Yaycı kəndinin içərisində yerləşir. Onun üzəri müasir tikililərlə örtülmüşdür. Bəzi yerlərdə möhrədən və çiy kərpicdən hörülmüş divar qalıqları saxlanmışdır. Tikintilərin ətrafında Orta əsrlər üçün xarakterik olan çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı sınıqlarına təsadüf olunur. Buradan aşkar olunmuş çölmək tipli qab qabarıq gövdəli olub uzunsov formadadır. Onun ağzının kənarı düz, oturacağı yastıdır. Gövdəsinin yuxarı hissəsini ağzının kənarına birləşdirən iki lentşəkilli qulpu vardır. Yaycı kəndində XIX əsrdə inşa olunmuş bina indi də qalmaqdadır. Ehtimal ki, bu abidə XII-XIII əsrlərdə Azərbaycana gələn türkdilli yaycı tayfaları ilə bağlıdır. Abidəni təxminən XIII-XIX əsrlərə aid etmək olar.

**73. Maral fiquru.** Şərurun arxeoloji abidələrindən aşkar edilmiş maral fiquru son dərəcə orijinal bir tapıntıdır. Maral fiqurunun çiyin hissəsinə zəncir birləşdirilmişdir. Maralın buynuzu və boynuna konusvari formalı, bucaq əmələ gətirən əlavə bir fiqur birləşdirilmişdir.

Güman edirik ki, maral fiqurundan dəvə karvanlarında istifadə edilmişdir. Görünür, fiqurun aşağı hissəsinə əlavə zəng birləşdirilmişdir. Karvan hərəkət etdikcə zəng səslənirdi. Maral fiquru III əsrə aid edilir.

S.M.Qazıyevin fikrincə, maral qədim Azərbaycanlıların totemi olduğu üçün onun fiqurunu hazırlamışlar.

**74. Ordugah.** Axura kəndinin şimal hissəsində «Bəy salı» adlanan dağın 2-3 km-liyində Orta əsrlərə aid maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Mədəni təbəqə yoxdur. Ordugahdan hərbi qüvvələrin müvvəqəti düşərgəsi kimi istifadə edilmişdir. Yaşayış yerindən tapılmış materiallar əsasında Ordugahı IX-XVII əsrlərə aid etmək olar.

**75. Yuxarı Daşarx nekropolu** kəndin içərisindəki təpənin üzərindədir. Hazırda nekropolun ərazisində yaşayış evləri salınmışdır. Yerli əhalinin verdiyi məlumata görə nekropolda küp qəbirlər aşkar olunmuşdur. Nekropolu e.ə. II-I əsrlərə aid etmək olar.

**76. Daş heykəl** Erkən Orta əsr abidəsidir. Abidə Şərur rayonunun Zeyvə kəndindəki qəbiristanlıqda aşkar olunmuşdur. Üçbucaq formalı daş heykəl yuxarıya doğru ensizləşir. Onun yuxarı hissəsi dərin gəzlə əhatə olunaraq başı nəzərə çarpdırılmışdır. Ön tərəfində yuvarlaq dəlik açılmışdır. Daş heykəli VII-VIII əsrlərə aid etmək olar. Ehtimal ki, ondan sonrakı dövrlərdə sinə daşı kimi istifadə olunmuşdur.

**77. Köhnəkənd yaşayış yeri** Şərur rayonunun Siyaqut kəndi yaxınlığında yerləşir. Yaşayış yerindəki binalar dördkünc formalı olub daş təməl üzərində çiy kərpicdən inşa olunmuşdur. Araşdırmalar zamanı yaşayış yerinin ərazisindən Orta əsrlərə aid şirli və şirsiz keramika nümunələri aşkar olunmuşdur.

**78. Sarılar yaşayış yeri** Şərur rayonunun Şahbulaq kəndinin şimal-qərbində yerləşir. Yaşayış yerinin salamat qalan hissəsinin sahəsi 12400 kv.m-dir. Araşdırmalar göstərir ki, yaşayış yerinin bir qismi indiki Şahbulaq kəndinin müasir tikintiləri altında qalmışdır. Yaşayış binalarının yalnız dağılmış qismi

saxlanmışdır. Onların bünövrəsi daşdan, yuxarı qismi isə möhrədən tikilmişdir. Bəzi binaların yerində dördkünc formalı çalalar vardır. Araşdırmalar zamanı toplanan yerüstü materiallar əsasən çəhrayı, bəzən isə boz rəngdə bişirilmiş keramika məmulatından ibarətdir. Çəhrayı rəngdə bişirilmiş keramika məmulatının bir qismi cilalanmışdır. Onlar küpə, kasa, çölmək tipli qabların parçalarından ibarətdir. Arxeoloji materiallara və tikinti qalıqlarına əsasən demək olar ki, yaşayış yerində həyat uzun müddət davam etmişdir. Yaşayış yerini e.ə. III- b.e. III əsrinə aid etmək olar.

**79. II Qız qalası** Şərur rayonunun Aşağı Yaycı kəndindən qərbdə, Arpaçayın sağ sahilində, hündür dağın üzərində yerləşir. Qala şimal tərəfdən sıldırım qaya ilə əhatə olunmuş, onun cənub və cənub-qərb tərəfinə isə iri qaya parçalarından hörülmüş divar çəkilmişdir. Müəyyən hissəsi yonulmuş daşlardan inşa olunmuş divarların eni 1,8-2m arasındadır. Divarlar bəzi yerlərdə 2,1 m hündürlüyündə salamat qalmışdır. Qalanın girişi cənub tərəfdəndir. Giriş qapısının eni 3 m-dir. Divarlar boyunca dördkünc formalı binalar yerləşdirilmişdir. Qalanın mərkəzində yerləşən sahəsi 72 kv.m olan böyük binanın qalıqları iri daşlardan tikilmişdir. Ehtimal ki, bu bina qalanın inzibati mərkəzi olmuşdur. Tədqiqat zamanı olduqca az miqdarda keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən qalanı e.ə. IV- b.e. III əsrinə aid etmək olar.

**80. II Muncuqlutəpə yaşayış yeri** Şərur rayonunun Yuxarı Yaycı kəndindən şimal-şərqdə, Ağzirət pirinin yaxınlığında yerləşir. Yaşayış yeri uzunsov, hündür təpənin üzərini əhatə edir. Yaşayış yerinin ərazisində olduqca az miqdarda daşdan inşa olunmuş tikintilərin izləri qalmışdır. Keramika məmulatı olduqca azdır. Tapıntılar çəhrayı rəngdə bişirilmiş gil qab parçalarından ibarətdir. Onların bəzisi şirlidir. Yaşayış yerinin ərazisindən tapılmış bir ədəd keramika parçası qırmızı üzərinə qara rəngdə çəkilmiş boya ilə naxışlanmışdır. Ehtimal ki, yaşayış yeri köçəri maldar tayfaların mövsümi məskəni olmuş və e.ə. II minilliklərdən Orta əsrlərədək istifadə edilmişdir.

**81. Şahbulaq qalası** xalq arasında Dəyirman qayası da adlanır. Yaşayış yeri Şahbulaq kəndinin cənubunda hündür dağın üzərində yerləşir. Yaşayış yeri dağın zirvəsini və ətəklərini əhatə edir. Dağın zirvəsində yaşayış yerini şimaldan əhatə edən müdafiə divarı və həmin divara birləşik dördkünc formalı yaşayış binalarının qalıqları saxlanmışdır. Divarlar orta həcmli qaya parçalarından inşa edilmişdir. Müdafiə divarının qərb tərəfində, təpənin ətəyində saxlanan dördkünc formalı çalalar burada vaxtilə yaşayış binalarının olduğunu təsdiq edir. Yaşayış yerinin qərb tərəfi təbii müdafiəyə malik olduğu üçün bu tərəfdə divar çəkilməmişdir. Qalanın bu hissəsində qayaların arasında olan ensiz keçid iri daşlardan hörülmüş divarla möhkəmləndirilmişdir. Yaşayış yerindən aşkar olunan çəhrayı rəngli keramika məmulatı Son Antik dövr üçün xarakterikdir. Abidəni e.ə. II, b.e. I-II əsrlərinə aid etmək olar.

**82. Ağbucaq nekropolu** Axura kəndinin içərisində konusvari təpənin üzərində yerləşir. Qəbirlər daş qutu tiplidir. Onlar müxtəlif istiqamətə

yönəlmişdir. Qəbirlər yanlarda yastı sal daşlarla qurulmuşdur. Onların üzəri eyni tipli daşlarla qapadılmışdır. Nekropol kənd təsərrüfatı işləri görülərkən tamamilə dağıdılmışdır. Qəbir avadanlığından yalnız bir neçə çəhrayı rəngli keramika parçası qalmışdır. Onlar Son Antik dövr üçün xarakterikdir. Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, nekropolda həmçinin küp qəbirlərdə dəfn etmə adəti də olmuşdur. Tədqiqat zamanı nekropolun şərq tərəfində buradakı iri küplərdən birinin ağzının parçası tapılmışdır. Arxeoloji materiallara əsasən nekropolu e.ə. II- b.e. I-II əsrlərinə aid etmək olar.

**83. Ağbucaq yaşayış yeri** Axura kəndinin qərbində yerləşir. Yaşayış yeri çox da hündür olmayan təpənin üzərini və onun ətrafını əhatə edir. Yaşayış yerinin bir qismi hazırda əkin sahəsinə çevrilmişdir. Bu ərazidə Son Antik dövrə aid çəhrayı rəngli keramika parçalarına rastlanır. Hazırda yaşayış yerində tikinti qalıqlarına rastlanmır, lakin abidənin bəzi yerlərində olan dördkünc formalı çalalar vaxtilə burada yaşayış binalarının olduğunu təsdiq edir. Keramika məmulatına əsasən yaşayış yerini e.ə. IV- b.e. III əsrinə aid etmək olar.

**84. Qarovuş yaşayış yeri** Billavadan şimalda, dağların arasında salınmışdır. Yaşayış yeri dağ çayının hər iki sahilini əhatə edir. Yaşayış yerində dördkünc formalı binaların qalıqları qalmaqdadır. Binaların bünövrəsi daşdan inşa olunaraq gil məhlulu ilə bərkidilmişdir. Yerüstü materiallar Antik və Orta əsrlərə aid forma verməyən keramika parçalarından ibarətdir. Hazırda yaşayış yerindən yaylaq kimi istifadə olunur. Yaşayış yerinin yaxınlığında Son Antik dövrə aid nekropol da vardır. Araşdırmalara əsasən demək olar ki, yaşayış yeri uzun müddət maldar tayfalar tərəfindən istifadə edilmişdir. Yaşayış yerini e.ə. II əsrə aid etmək olar.

**85. Qarovuş nekropolu** eyniadlı yaşayış yerinin cənubunda, çayın sol sahilində, meşənin içərisində yerləşir. Nekropolun ərazisi xalq arasında “Alçalı” da adlandırılır. Qəbirlərin bir neçəsi aşınma nəticəsində üzə çıxmış və dağıdılmışdır. Qəbirlər dördkünc formada orta həcmli qaya parçalarından iki sıra hörülməklə qurulmuşdur. Talan edilən bəzi qəbirlərin divarları 0,5- 0,8 sm hündürlükdə salamat qalmışdır. Qəbirlər müxtəlif istiqamətlərə yönəldilmiş vəziyyətdə olub həcminə görə bir-birindən fərqlənirlər. Dağıdılmış qəbirlərin ətrafında aparılan araşdırmalar zamanı çəhrayı rəngli keramika parçaları aşkar olunmuşdur. Aşkar olunmuş materiallar eramızın ilk əsrləri üçün xarakterikdir. Arxeoloji materiallara əsasən nekropolu e.ə. II- b.e. I- II əsrlərinə aid etmək olar.

**86. Tənənəm nekropolu** Tənənəm kəndinin cənub-şərqində kəndə doğru uzanan uzunsov təpənin üzərində yerləşir. Nekropol yamacda yerləşdiyindən sel suları tərəfindən yuyulub dağıdılmışdır. Lakin bəzi qəbirlər indiyədək qalmışdır. Onların torpaq örtüyü aşındığından planını aydın şəkildə izləmək mümkündür. Qəbirlər daş qutu tipli olub, yastı sal daşlardan qurulmuş və müxtəlif istiqamətlərə yönəldilmişdir. Nekropolun ərazisindən qara rəngdə bişirilmiş bir neçə keramika parçası aşkar edilmişdir. Nekropoldakı qəbirlərin tipləri Son Antik dövr üçün xarakterikdir. Nekropolu e.ə. II- b.e. III əsrinə aid etmək olar.

**87. Kazımbəy yurdu** Havuş kəndindən şimal-şərqdə, "cəvizlik" adlanan yerin yaxınlığında, Havuşa gedən yolun sağ tərəfində yerləşir. Yaşayış yeri yol boyu nalşəkilli formada uzanan təpələrin üzərini və ətəklərini əhatə edir. Evlər təpənin yamacında, süni şəkildə düzəldilmiş şəkillərdə tikilmişdir. Evlər dördkünc formalı olub daşdan inşa edilmişdir. Keramika nümunələri Erkən Orta əsrlərə aid forma verməyən parçalardan ibarətdir. Keramika nümunələrinə əsasən yaşayış yerini III- VIII əsrlərə aid etmək olar. Ehtimal ki, yaşayış yerində həyat sonrakı dövrlərdə də davam etmişdir.

**88. III Qarabulaq nekropolu** Qarabulağa gedən yolun sağ kənarında, birinci nekropoldan şimal-şərqdə yerləşir. Qəbirlər kromlexlə əhatə olunmuş daş qutulardan ibarətdir. Burada təsərrüfat işləri görülərkən dağıdılmış qəbirlərdən Kür-Araz mədəniyyəti üçün xarakterik olan boz rəngli keramika məmulatı əldə edilmişdir. Bəzi qab parçalarının üzərində yarımşarşəkilli qulplar vardır. Aşkar olunmuş tapıntılara əsasən nekropolu e.ə. III minilliyə aid etmək olar.

**89. Dəmirçilər nekropolu** Şərur rayonunun Dəmirçi kəndindən şimalda, dağ silsiləsinin düzənliyə yenən yamacında yerləşir. Nekropol tamamilə dağıdıldığından qəbir tiplərini müəyyən etmək mümkün olmamışdır. Tədqiqatçıların məlumatına görə, Dəmirçi nekropolundakı qəbirlər daş qutu tipli olmuşdur. Dağıdılmış qəbir abidələrindən çəhrayı və boz rəngdə bişirilmiş gil qablar aşkar olunmuşdur. Kasa tipli qabların ağzının kənarında deşikli qulaqcıqşəkilli çıxıntıları vardır. Gil qabların üzəri dalğalı xətlər və sünbülşəkilli basma ornamentlə naxışlanmışdır. Bu tip keramika məmulatı Erkən Dəmir dövrü üçün xarakterikdir. 2007-ci ildə aparılan araşdırmalar zamanı nekropolda kurqan tipli abidələr də aşkar edilmişdir. Nekropolu e.ə. II-I minilliklərə aid etmək olar.

**90. Alışar yaşayış yeri** Alışar kəndinin cənubunda, düzənlik sahədə yerləşir. Yaşayış yerinin ərazisi dəfələrlə şumlanıb əkildiyindən yerüstü əlamətləri itmişdir. Tədqiqat zamanı buradan Dəmir dövrünə aid çəhrayı və qara rəngli keramika parçaları aşkar edilmişdir. Yaşayış yerində tikinti qalıqlarına rastlanmamışdır. Ehtimal ki, onlar möhrədən olmuş və dağıntıya uğramışdır. Tədqiqat zamanı yaşayış yerinin ərazisindən bir ədəd tunc bilərzik də əldə olunmuşdur. Ehtimal ki, yaşayış yerinin yaxınlığında qəbirstanlıq da olmuşdur. Arxeoloji materiallara əsasən yaşayış yerini e.ə. I minilliyə aid etmək olar.

**91. Dan yeri qalası** Şərur rayonunun Dan yeri kəndinin yaxanlığında yerləşir. Böyük qala və kiçik qala adlanan hissələrdən ibarətdir. Qala divarları yonulmamış qaya parçalarından hörülərək gil məhlulu ilə bərkidilmişdir. Divarların bəzi qismləri yonulmuş daşlardan inşa edilmişdir. Qala divarları yarımdairəvi bürclər və kontrforslarla möhkəmləndirilmişdir. Qalanın içərisində, qala divarına bitişik, dördkünc formalı binaların qalıqları qalmaqdadır. Aşkar olunan keramika məmulatı çəhrayı və boz rəngdə bişirilmiş qabların parçalarından ibarətdir. Keramika məmulatı içərisində şirli qabların parçaları da vardır. Qalanı arxeoloji materiallara əsasən VIII-XVIII əsrlərə aid etmək olar.

**92. Qazxan yaşayış yeri** Şərur rayonunun Çərçiboğan kəndindən cənubda yerləşir. Yaşayış yerinin ərazisi su kanalı ilə iki hissəyə bölünmüşdür. Yaşayış yeri düzənlikdə yerləşdirildiyindən sahəsi əkin yerinə çevrilmişdir. Mədəni təbəqənin dağılması nəticəsində keramika məmulatı yer səthinə dağılmışdır. Yerüstü materialların əksəriyyəti inkişaf etmiş və Son Orta əsrlər dövrünə aiddir. Onlar çəhrayı rəngdə bişirilmiş şirsiz bəzən şirli qabların parçalarından ibarətdir. Lakin yaşayış yerinin yaxınlığında qədim nekropolun aşkar olunması bu ərazinin Son Tunc və Erkən Dəmir dövründən başlayaraq məskunlaşdırıldığını təsdiq edir. Yaşayış yerini e.ə. II- I minilliklərə aid etmək olar.

**93. Sərxanlı qəbiristanlığı** Şərur rayonunun eyni adlı kəndində yerləşir. Qəbirlər müsəlman qibləsi istiqamətində yönəldilmişdir. Qəbirlərin demək olar ki, əksəriyyətinin yerüstü əlamətləri itmişdir. Yalnız bəzi qəbirlərin ətrafında daş düzümlərinə rastlanır. Başdaşıları çəhrayı, boz və ağ rəngli, müxtəlif cinsli daşlardan hazırlanmışdır. Başdaşıları dördkünc formalıdır. Onların yuxarı qisminə tağvari forma verilmişdir. Başdaşılarından bəzilərinin üzərində ərəb əlifbası ilə kitabələr və hicri təqvimi ilə tarixlər yazılmışdır (1322, 1337, 1355 və s.). Bir ədəd başdaşının üzərində kirill əlifbası ilə kitabə və 1905-ci il tarixi vardır. Sərxanlı qəbiristanlığını XVIII-XX əsrlərə aid etmək olar.

**94. Parçı qəbiristanlığı** Xanlıqlar kəndinin şimalında «Parçı imamzadəsi» adlı memarlıq kompleksinin arxa tərəfində yerləşir. Qəbiristanlıq hazırda istifadə edilməkdədir. Onun ərazisi bir tərəfdən evlərin hasarları, digər tərəfdən isə su kanalı ilə məhdudlaşdırılmışdır. Orta əsr qəbirlərinin üzərini ot basmış, bir çoxunun yerüstü əlamətləri itmiş və yalnız başdaşıları salamat qalmışdır. Baş daşları başlıca olaraq boz rəngli daş cinslərindən yonulmuş, onların yuxarı qisminə tağvari forma verilmişdir. Bəzi başdaşılarının başlıqları qövsşəkillidir. Başdaşılarının üzərində ərəb əlifbası ilə kitabələr, hicri təqvimi ilə yazılmış tarixlər vardır. Baş daşlarının bir qismi nəbati ornamentlə naxışlanmışdır. Qəbirstanlığın ərazisində Orta əsrlərə aid çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika parçalarına rastlanır. Parçı qəbiristanlığını XV-XX əsrlərə aid etmək olar.

**95. Zeyvə qəbiristanlığı** kəndin içərisindəki təpənin üzərində yerləşir. Qəbiristanlığın bir qismi hazırda istifadə edilməkdədir. Aparılan araşdırmalar zamanı Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Müəyyən edilmişdir ki, qəbirstanlıq bir neçə dövr ərzində istifadə olunmuşdur. Qəbirstanlığın ərazisindən bir ədəd nadir daş heykəl əldə olunmuşdur. O, yastı sal daşdan hazırlanmış yuxarı qismi dərin gəzlə əhatə olunmuşdur. Baş tərəfində dərin slindrik çuxur oyulmuşdur. Orta əsr qəbirlərinin, demək olar ki, hamısının yerüstü əlamətləri itmişdir. Başdaşıları dördkünc formada yonulmuş, onların yuxarı qisminə tağvari forma verilmişdir. Başdaşıları çəhrayı, ağ, boz rəngli daşlardan hazırlanmışdır. Onların bəzisinin üzərində ərəb əlifbası ilə kitabələr və hicri təqvimi ilə tarixlər vardır. Qəbiristanlığın uzun müddət ərzində istifadə olunduğunu nəzərə alaraq onu VII-XX əsrlərə aid etmək olar.

**96. Yuxarı Daşarx nekropolu** Şərur rayonunun Yuxarı Daşarx kəndinin içərisində oval təpənin üzərində yerləşir. Nekropolun ərazisində hazırda evlər tikilmişdir. Qəbirlər iri küplərdən ibarət olmuşdur. Küp qəbirlər təpənin ətrafında su kanalı qazılarkən aşkar olunmuşdur. Dağıdılmış qəbirlərdən gil qablar və müxtəlif tipli muncuqlar aşkar olunmuşdur. Təəssüf ki, aşkar olunmuş arxeoloji materialların heç biri indiyədək qalmamışdır. Nekropolda aparılan tədqiqat zamanı bir neçə forma verməyən çəhrayı rəngdə keramika parçasına rastlanmışdır. Nekropolu I-II əsrlərə aid etmək olar.

**97. Məmməd yeri yaşayış yeri** Şərur rayonunun Axamət kəndinin şimalında yerləşir. Yaşayış yeri hər tərəfdən su kanalı ilə əhatə olunmuşdur. Təsərrüfat işləri nəticəsində mədəni təbəqə dağılmış və maddi-mədəniyyət nümunələri ətrafa yayılmışdır. Maddi-mədəniyyət qalıqları başlıca olaraq çəhrayı və boz rəngdə bişirilmiş keramika nümunələrindən ibarətdir. Boz rəngdə bişirilmiş keramika narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş, xarici səthi hamarlanmış, bəziləri isə cilalanmışdır. Çəhrayı rəngli keramika yaxşı bişirilmiş və cilalanmışdır. Xalq arasında olan məlumata görə abidənin olduğu ərazi «kəbirli» və «kəlbili» adı ilə də tanınmışdır.

Aşkar olunan maddi-mədəniyyət qalıqlarına əsasən yaşayış yerini e.ə. I minilliyə aid etmək olar.




Şəkil 25. Qazxan nekropolundan aşkar olunmuş mifoloji naxışlı küpə

**98. Qazxan nekropolu** Şərur rayonunun Çərçiboğan kəndindən cənubda, eyni adlı yaşayış yerinin yaxınlığında yerləşir. Nekropolun ərazisi xalq arasında

Kasxan da adlandırılır. Nekropol təsərrüfat işləri görülərkən təsadüfən dağıdılmışdır. Dağıdılmış qəbirlərdən boz rəngdə, orta dərəcədə bişirilmiş gil qablar aşkar olunmuşdur. Küpə tipli qablardan birinin Xocalı-Gədəbəy mədəniyyəti keramikası üçün xarakterik olan göbələkşəkilli çıxıntısı vardır. Digər küpənin üzəri ağ inkrustasiyalı həndəsi ornamentlə naxışlanmışdır. Aşkar olunan keramika məmulatı Naxçıvan üçün xarakterik olub Son Tunc və Erkən Dəmir dövrünə aiddir. Nekropoldakı qəbirlər tamamilə dağıldığından onların tiplərini müəyyən etmək mümkün olmamışdır.

Arxeoloji materiallara əsasən Qazxan nekropolunu e.ə. II-I minilliklərə aid etmək olar.

**99. Yengicə yaşayış yeri** Şərur rayonunun eyni adlı kəndinin ərazisində yerləşir. Orta əsr tikintiləri yalnız kəndin bəzi qismlərində qalmışdır. Binalar kvadrat formalı çiy kərpiclərdən tikilmişdir. Lakin dəfələrlə təmir olunduğundan evlərin forması tamamilə dəyişmişdir. Yaşayış binaları başlıca olaraq dördkünc formalı və yastı damlı olmuşdur. Orta əsr tikintilərindən hazırda yalnız Yengicə hamamı qalmışdır. Yerli əhalinin verdiyi məlumata görə vaxtilə kənddə üstüörtülü çarşı, buzxana və karvansara olmuşdur. İctimai binaların tikintisində tağbənd və günbəzlərdən də istifadə olunmuşdur. Olduqca böyük olan yaşayış yerində sənətkarlara məxsus məhəllələr də olmuşdur. Həmin məhəllələrin biri hazırda xalq arasında «Çölməkçilər küçəsi» adı ilə qalmaqdadır.

Arxeoloji və etnoqrafik materiallara əsaslanaraq Yengicə yaşayış yerini XI-XVIII əsrlərə aid etmək olar.

**100. Dəyirman dərəsi yaşayış yeri** Yuxarı Yaycı kəndindən şərqdə Ağbulağın yaxınlığında yerləşir. Burada dağ çayının sağ sahilində qaya parçalarından tikilmiş dördkünc formalı bina qalıqları və boru şəklində yonulmuş iri qaya parçalarına rastlanmışdır. Yerli əhalinin məlumatına görə burada vaxtilə dəyirman olmuşdur. Lakin hazırda o tamamilə dağıdılmışdır. Yaşayış yerindən Erkən Orta əsrlərə aid bir neçə keramika parçası aşkar olunmuşdur. Yaşayış yerini III-X əsrlərə aid etmək olar.

**101. İrincöy yaşayış yeri** Şahbulaq kəndinin cənub-şərqində yerləşən iki hündür təpəni və onların ətəklərini əhatə edir. Sahəsi 1500 kv.m-dir. Yaşayış yerində bünövrəsi daşdan, divarları möhrədən hörülmüş bina qalıqlarına rastlanmışdır. Yaşayış yerinin digər hissəsində iri daşlardan hörülmüş divar qalıqları vardır. Aşkar olunmuş keramika məmulatı çəhrayı rəngdə bişirilmiş, forma verməyən qab parçalarından ibarətdir. Keramika məmulatı Son Orta əsrlər üçün xarakterikdir. Yaşayış yerini XVII- XIX əsrlərə aid etmək olar.

**102. Qələmətli yaşayış yeri** Yuxarı Yaycı kəndinin şərqində Cənnət qayasının yaxınlığında yerləşir. Yaşayış yerinin ərazisində daşdan hörülmüş binaların qalıqlarından yalnız dördkünc formalı çalalar qalmışdır. Ətrafa dağılmış tikinti qalıqları, binaların tikintisində yonulmuş daşlardan istifadə olunduğunu deməyə əsas verir. Yaşayış yerində aparılan araşdırmalar zamanı Erkən Orta əsrlərə aid çəhrayı rəngli forma verməyən keramika parçaları aşkar olunmuşdur.

Yaşayış yerini III- X əsrlərə aid etmək olar. Ehtimal ki, Orta əsrlərin sonrakı mərhələlərində burada yaşayış davam etmişdir.

**103. Şahbulaq nekropolu** kəndin cənub-şərq qurtaracağında çay yatağının sağ tərəfində yerləşir. Qəbiristanlığın böyük bir qismi sel suları tərəfindən yuyulub dağılmışdır. Hazırda onun yalnız az bir hissəsi salamat qalmışdır. Dördkünc formalı qəbirlər qiblə istiqamətinə yönəldilmişdir. Qəbirlərin ətrafı çay daşları ilə dövrəyə alınmışdır. Bəzi qəbirlər əmanət qəbirlər olduğu üçün qibləyə yönəldilməmişdir. Qəbir daşlarında kitabəyə rastlanmamışdır. Salamat qalan bəzi qəbirüstü daşlar sənduqə tiplidir. Bu tip qəbir daşları başlıca olaraq Orta əsrlərin inkişaf etmiş dövrü üçün xarakterikdir. Qəbiristanlığı XIV-XX əsrlərə aid etmək olar.

**104. Şahbulaq yaşayış yeri** Şərur rayonunun indiki Şahbulaq kəndi ərazisində yerləşir. Mədəni təbəqənin qalınlığı 0,5-1m arasındadır. Yaşayış yerindən uçub-tökülmüş binaların, sürüşmənin qarşısını almaq üçün çəkilmiş dəstək divarlarının qalıqları saxlanmaqdadır. Yaşayış yerində məscid binasının xarabalıqları da indiyədək qalmışdır. Aşkar edilmiş tapıntılar çəhrayı rəngli, şirli və şirsiz saxsı məmulatından ibarətdir. Keramika məmulatı Orta əsrlərin inkişaf etmiş və son dövrləri üçün xarakterikdir. Arxeoloji materiallara əsasən yaşayış yerini XIV- XIX əsrlərə aid etmək olar.

**105. Aratəpə nekropolu** Axura ilə Həmzəlinin arasında yerləşir. Tədqiqat zamanı təpənin şimal tərəfində torpaq qəbirlərin qalıqlarına rastlanmışdır. Yerli əhalinin verdiyi məlumata görə buradan vaxtilə küp qəbirlər də aşkar olunmuşdur. Tədqiqat zamanı Son Antik dövrə aid bir neçə forma verməyən keramika məmulatı aşkar olunmuşdur. Keramika məmulatına əsasən nekropolu I-II əsrlərə aid etmək olar.

**106. Həmzəli nekropolu** Həmzəli kəndinin şimal-şərqində yerləşir. Burada təpənin ətəyində kanal qazılarkən bir neçə küp qəbir dağıdılmışdır. Dağıdılmış küplərin qalıqları təpənin ətəyinə səpələnmişdir. Küp qəbirlərin yerləşdiyi təpə nalşəkilli formada olub şimala doğru ensizləşir. Tədqiqat zamanı iri küp parçaları ilə bərabər qəbir avadanlığına aid bir neçə gil qabın parçası da əldə edilmişdir. Keramika məmulatına əsasən nekropolu I- III əsrlərə aid etmək olar.

**107. Billava nekropolu** Billava kəndinin xarabalıqlarından şərqdə, hündür təpənin üzərində yerləşir. Qəbirlərin hamısı qiblə istiqamətindədir. Başdaşıları yonulmamış, yastı daşlardan qoyulmuşdur. Bəzi qəbirlərin ətrafı dördkünc formada çay daşları ilə əhatə edilmiş, bəzilərinin isə üzəri tamamilə daşla qapadılmışdır. Nekropolun ərazisindən Orta əsrlərin inkişaf etmiş dövrünə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Billava nekropolu yaşayış yeri ilə həmdövr olub IX- XX əsrlərə aiddir.

**108. Billava kahaları** Billava kəndinin cənub-qərbində təpənin yamacında yerləşir. Bir-birinin yaxınlığında qazılan kahaların uzunluğu 8-12m arasında hündürlüyü isə 1,8-2m arasındadır. Kahaların girişi və tavanı tağvari

formadadır. Onların birinin dib tərəfində çıraq qoymaq üçün kiçik taxça düzəldilmişdir. Kahaların içərisi uçqun nəticəsində dağılmış, bəzilərinin girişi isə tamamilə örtülmüşdür. Kahaları XVIII- XX əsrlərə aid etmək olar.

**109. Zeyvə yaşayış yeri** indiki Zeyvə kəndinin altında qalmışdır. Tədqiqat zamanı sel sularının açdığı yarğanda mədəni təbəqənin qalınlığı 0,5-1,2m arasında izlənmişdir. Təbəqə kül qarışıq torpaq laylarından, daş yığınları və möhrə qalıqlarından ibarətdir. Araşdırmalar göstərir ki, yaşayış yerində binaların bünövrəsi daşdan, divarları isə daşdan, ya da möhrədən inşa edilmişdir. Mədəni təbəqədən qara rəngli çölmək parçaları, çəhrayı rəngdə bişirilmiş şirsiz və şirli keramika parçaları əldə edilmişdir. Aşkar olunan arxeoloji materiallar VII-XVI əsrlərə aiddir. Yaşayış yerinin yaxınlığında Orta əsr müsəlman qəbirstanlığı vardır. Yaşayış yerini VII-XX əsrlərə aid etmək olar.

**110. Vayxır yaşayış yeri** Şərur rayonununda Tumaslı kəndinin ərazisində yerləşir. Yaşayış yerinin bəzi qismlərində möhrə tikintilərin qalıqları qalmışdır. Araşdırmalar zamanı yaşayış yerinidən çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika parçaları aşkar olunmuşdur. Aşkar olunmuş materiallara əsasən Vayxır yaşayış yerini XIV-XVIII əsrlərə aid etmək olar.

**111. Havuş qəbiristanlığı** Havuş kəndininin cənub-şərq tərəfində təpənin yamacında yerləşir. Qəbirlər qiblə istiqamətindədir, baş daşları yonulmamış qaya parçalarından qoyulmuşdur. Bəzi qəbirlərin üzərində daş yığınlarına rastlanır. Bəzilərinin isə yalnız ətrafına kiçik həcmli çay daşları döşənmişdir. Bu tip qəbirlər Orta əsrlər üçün xarakterikdir. Qəbiristanlığı XI- XVIII əsrlərə aid etmək olar.

**112. I Maxta qəbiristanlığı** kəndin içərisində, Maxta kəndinin şərq tərəfində yerləşir. Qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmişdir. Baş-daşılarının bəziləri yonulmamış yastı daşlardan, bəziləri isə dördkünc formada yonulmuş qara və çəhrayı daşlardan hazırlanmışdır. Başdaşılarının bəzilərində ərəb əlifbası ilə kitabə vardır. Lakin qəbir daşlarının heç birində tarixə rastlanma-mışdır. Araşdırmalar bu tip baş daşlarının Son Orta əsrlər üçün xarakterik olduğunu göstərir. Qəbiristanlığı XVIII- XX əsrlərə aid etmək olar.

**113. II Maxta qəbiristanlığı** Maxta kəndinin şimal-şərqində yolun kənarındakı su hovuzunun yaxınlığında yerləşir. Qəbirlər qiblə istiqamətində yönəldilmiş, əksəriyyətinin üzəri orta həcmli çay daşları ilə örtülmüşdür. Bəzi qəbirlərin daş örtüyü düzgün dördkünc formaya malikdir. Başdaşılarının bəziləri yonulmuş, bəziləri isə yonulmamış daşlardandır. Başdaşılarının bəzisində ərəb əlifbası ilə kitabələr vardır. Qəbiristanlığı XIV-XX əsrlərə aid etmək olar.

**114. Alışar qəbiristanlığı** kəndin kənarında yerləşir. Qəbiristanlığın ərazisi yovşan kolları ilə örtülmüşdür. Qiblə istiqamətində yönəldilmiş müsəlman qəbirlərinin əksəriyyətinin başdaşıları təbii daşlardan, bir qismi isə yonulmamış daşlardan hazırlanmışdır. Yonulmuş başdaşılarının bəzisinin üzərində ərəb əlifbası ilə kitabə vardır. Qəbirlərdən birinin üzərində sənduqə tipli sinə daşına

rastlanmışdır. Qəbiristanlığı başdaşılarına əsasən XVIII- XX əsrlərə aid etmək olar.

**115. Muğanlı yaşayış yeri** Muğanlı kəndindən şimalda, kəndin kənarında yerləşir. Yaşayış yeri su kanalının qazılması ilə iki yerə bölünmüşdür. Hazırda yaşayış yerində möhrədən tikilmiş dördkünc formalı yaşayış evlərinin qalıqları qalmaqdadır. Tədqiqat zamanı yaşayış yerindən Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Araşdırmalara əsaslanaraq yaşayış yerini XI- XVIII əsrlərə aid etmək olar.

**116. Muğanlı qəbirstanlığı** kəndin cənubunda yerləşir. Qəbirstanlığın ərazisi su kanalı ilə iki yerə bölünmüşdür. Hazırda qəbirlərin yerüstü əlamətləri tamamilə itmişdir. Bəzi qəbirlərin dördkünc formada yonulmuş başdaşıları vardır. Onlardan bir neçəsinin üzərində ərəb əlifbası ilə kitabə, birinin üzərində isə hicri təqvimi ilə 1313-cü il tarixi vardır. Bu tip qəbir daşları XIX əsrin sonu XX əsrin əvvəlləri üçün xarakterikdir. Qəbiristanlığın uzun müddət istifadə olunduğunu nəzərə alaraq onu XVIII- XX əsrlərə aid etmək olar.

**117. Cillər yaşayış yeri** Muğanlı kəndindən şimal-şərqdə, düzənlik sahədə yerləşir. Yaşayış yerinin bir qismi su kanalı çəkilərkən dağıdılmışdır. Abidənin ərazisi şumlanıb əkildiyindən onun yerüstü əlamətləri tamamilə itmişdir. Tədqiqat zamanı yaşayış yerindən Orta əsrlərə aid keramika parçaları aşkar olunmuşdur. Tapıntıların az bir qismi şirli qablardan ibarətdir. Abidənin bəzi qismlərində kül yığınları və bad qırıqlarına rastlanmışdır. Aşkar olunan arxeoloji materiallara əsasən yaşayış yerini XVI- XVIII əsrlərə aid etmək olar.

**118. Şəhriyar qəbiristanlığı** kəndin şimal tərəfində yerləşir. Qəbiristanlığın içərisini yovşan kolları basmışdır. Qiblə istiqamətinə yönələn qəbirlərin yerüstü əlamətləri itmək üzrədir. Başdaşıları qara və çəhrayı rəngli daşlardan, bəzən adi qaya parçalarından hazıranmışdır. Onlar aşağıda dördkünc formalı olub, yuxarıda tağşəkilli formada tamamlanmışdır. Qəbiristanlıqdakı başdaşılarının bir çoxunun üzərində ərəb əlifbası ilə yazılmış kitabələr, hicri 1237, 1310, 1314 tarixli yazılar vardır. Qəbiristanlığın mərkəzində xalq arasında “Seyid ocağı” adı ilə tanınan pir var. Onun içərisindəki qəbrin üzərində hicri 1307-ci il tarixli kitabə yazılmışdır. Şəhriyar qəbiristanlığını XVIII- XX əsrlərə aid etmək olar.

**119. Sayalı bağı yaşayış yeri** Şəhriyar kəndinin cənub-şərqində yerləşir. Yaşayış yerinin bir qismi əkin sahəsinə çevrilmiş, bir qismində isə yeni binalar salınmışdır. Araşdırmalar zamanı möhrədən tikilmiş dördkünc formalı binaların qalıqları, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatı əldə edilmişdir. Aşkar olunan keramika məmulatı Son Orta əsrlər üçün xarakterikdir. Yaşayış yeri ilə bağlı yerli əhali arasında müxtəlif rəvayətlər vardır. Yaşayış yerini XVI- XIX əsrlərə aid etmək olar.

**120. Qobu yaşayış yeri** Şərur rayonunun Axamət kəndindən qərbdə yerləşir. Yaşayış yerinin bir qismi kanal qazılarkən dağıdılmışdır. Hazırda yaşayış yerinin ərazisində kül qalıqlarına, bad qırıqlarına rastlanır. Tikintilər

ehtimal ki, möhrədən olmuş və tamamilə dağılmışdır. Aparılan araşdırmalar zamanı yaşayış yerindən çəhrayı və sarı rəngdə bişirilmiş keramika, o cümlədən şirli qabların parçaları aşkar edilmişdir. Keramika nümunələri Orta əsrlərin inkişaf etmiş və son dövrü üçün xarakterikdir. Yaşayış yerinin sahəsi 5 hektardan artıqdır. Yerli əhalinin məlumatına görə təsərrüfat işləri görülərkən abidənin ərazisindən təndir qalıqları və keramika nümunələri aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən yaşayış yerini XIV- XIX əsrlərə aid etmək olar.

**121. Ellik yaşayış yeri** Axamət kəndinin cənub-şərqində yerləşir. Yaşayış yerinin ərazisi əkin sahəsinə çevrildiyindən mədəni təbəqə tamamilə dağılmış, abidə ilkin formasını itirmişdir. Yaşayış yerinin ərazisində aparılan araşdırmalar zamanı kül yığınları, bad qalıqları, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatı aşkar edilmişdir. Aşkar olunan keramika məmulatı Orta əsrlərin inkişaf etmiş və son dövrünə aiddir. Aşkar olunan arxeoloji materiallar XVI- XIX əsrlərə aiddir. Ehtimal ki, yaşayış yerində daha əvvəlki dövrlərdə də yaşayış olmuşdur. Abidəni XIV- XIX əsrlərə aid etmək olar.

**122. Bəylərin yeri yaşayış yeri** Tumaslı kəndinin cənubunda yerləşir. Yaşayış yerinin ərazisi düzənlikdir. Düzənliyin mərkəzi hissəsində uzunsov, çox da hündür olmayan təpə vardır. Təpənin üzərində "Seyid qəbri" adlandırılan tək bir məzar var. Həmin məzar kənd sakinləri tərəfindən tez-tez ziyarət edilir. Tədqiqat zamanı yaşayış yerinin bəzi qismlərində kül yığınları və bad qırıqlarına rastlanmışdır. Abidədən toplanan keramika məmulatı çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz qab parçalarından ibarətdir. Şirli qab parçalarına çox az rastlanır. Keramika məmulatı inkişaf etmiş və Son Orta əsrlər üçün xarakterikdir. Arxeoloji materiallara əsasən yaşayış yerini XVI- XIX əsrlərə aid etmək olar.

**123. Kürçüboyat yaşayış yeri** Tumaslı kəndindən cənub-qərbdə Tumaslı-Diyadin yolunun sol tərəfində yerləşir. Yaşayış yerinin bir qismi kanal qazılarkən dağıdılmışdır. Hazırda yaşayış yerinin ərazisi əkin sahəsinə çevrilmişdir. Ərazinin şumlanması nəticəsində mədəni təbəqə dağılmış, keramika məmulatı ətrafa səpələnmişdir. Yaşayış yerinin bəzi qismlərində kül yığınlarına, bəzi yerlərdə isə çəhrayı rəngli bad qırıqlarına rastlanır. Aşkar olunan keramika məmulatı çəhrayı rəngdə bişirilmiş forma verməyən keramika parçalarından ibarətdir. Yaşayış yerindən az miqdarda şirli keramika məmulatı da aşkar olunmuşdur. Arxeoloji materiallar inkişaf etmiş və Son Orta əsrlər dövrünə aiddir. Yaşayış yerini XV- XVIII əsrlərə aid etmək olar.

**124. Diyadin qəbiristanlığı** kəndin şimalında yerləşir. Qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmişdir. Bəzi qəbirlərin boz rəngli tuf daşından hazırlanmış başdaşıları vardır. Başdaşılarında kitabəyə rastlanmamışdır. Qəbirlərin hamısı qiblə istiqamətinə yönəldilmiş müsəlman qəbirlərindən ibarətdir. Qəbiristanlığı XIX- XX əsrlərə aid etmək olar.

**125. Çərçiboğan qəbiristanlığı** kəndin şərq tərəfində yerləşir. Onun ərazisi beton bloklarla əhatə olunmuşdur. Qəbiristanlığın bir qismindən hazırda istifadə edilməkdədir. Qəbirlərin bir çoxunun yerüstü əlamətləri tamamilə itmiş

və yalnız başdaşıları qalmışdır. Bəzi qəbirlərin ətrafı çay daşları ilə dördkünc formada əhatələnmişdir. Başdaşıları çəhrayı və qara rəngli yonulmuş daşlardan, bəzən isə təbii qaya parçalarından hazırlanmışdır. Yonulmuş başdaşılarının üzərində ərəb əlifbası ilə kitabələr vardır. Baş daşları üzərində hicri təqvimi ilə 1210, 1317, 1340 və s. tarixlər yazılmışdır. Qəbiristanlığın bəzi qisimlərində Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatına da rastlanır.

Arxeoloji materiallara və kitabələrə əsaslanaraq qəbiristanlığı XVIII-XIX əsrlərə aid etmək olar.

**126. Bəylər qəbiristanlığı** Yeycə kəndinin içərisində yerləşir. Qəbiristanlıq qiblə istiqamətinə yönəlmiş müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərin bir çoxunun izləri itmiş, bəzilərinin üzərində isə alçaq təpəciklər qalmışdır. Bəzi qəbirlərin ətrafı çay daşları ilə götürülmüşdür. Başdaşılarının bir qismi təbii qaya parçalarından, digərləri isə yonulmuş daşlardan qoyulmuşdur. Başdaşıları adətən düzbucaqlı formada hazırlanmış, yuxarı hissəsinə tağvari forma verilmişdir. Onlardan bəzisinin üzərində ərəb əlifbası ilə kitabələr və hicri təqvimi ilə yazılmış tarixlər (1320, 1330 və s.) vardır. Bəylər qəbiristanlığını XVIII-XX əsrlərə aid etmək olar.

**127. Maltəpə** Şərur rayonunun Yeycə kəndindən qərbdə yerləşən yaşayış yeridir. Vaxtilə möhrədən tikilmiş yaşayış binaları olmuşdur. Abidənin ərazisində bəzi yerlərdə kül yığınlarına rastlanır. Mədəni təbəqə 0,5 m qalınlığındadır. Hazırda yaşayış yerinin kənarında daşdan inşa edilmiş binanın qalıqları qalmışdır. Abidənin ərazisi bir neçə dəfə sürüldüyündən tikintilər tamamilə dağılmışdır. Yaşayış yerinin ərazisində çəhrayı rəngli şirli və şirsiz keramika parçalarına rastlanır. Abidənin böyük bir qisminin torpağı qazılaraq kərpic kəsilmək üçün istifadə edilmişdir. Yaşayış yeri tərk edildikdən sonra mal-heyvanın basdırılması üçün istifadə olunmuş və «Mal qəbiristanlığı» adlandırılmışdır. Yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar

**128. Kürçülü yaşayış yeri** eyniadlı kəndin ərazisində yerləşir. Yaşayış yerinin ərazisi müasir tikintilərlə örtülmüşdür. Hazırda kəndin bəzi qismlərində möhrədən tikilmiş binaların, o cümlədən məscidin qalıqları qalmaqdadır. Kəndin içərisində köhnə tikintilərin ətrafında çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatına rastlanır. Keramika məmulatı inkişaf etmiş və Son Orta əsrlər dövrü üçün xarakterikdir. Ehtimal ki, yaşayış yerinin adı Qorçulu olmuş, sonradan isə leksik dəyişikliyə uğramışdır. Arxeoloji materiallara əsasən Kürçülü yaşayış yerini XV-XIX əsrlərə aid etmək olar.

**129. Kürçülü qəbiristanlığı** kəndin içərisində yerləşir. Qəbiristanlığı ot basmışdır. Onun bir qismində müasir dövrə aid qəbirlər vardır. Ətrafı çəpərlənmişdir. Qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmişdir. Başdaşıları təbii qaya parçalarından, qara, boz və ağ rəngli daşlardan hazırlanmış, onların yuxarı qisminə tağvari forma verilmişdir. Bəzi başdaşıları üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Qəbiristanlığı XVIII-XX əsrlərə aid etmək olar.

**130. I Qaraburc yaşayış yeri** eyniadlı kəndin qərb tərəfində yerləşir və xalq arasında Bağındalı adlandırılır. Hazırda yaşayış yeri su kanalı ilə bir neçə hissəyə bölünmüşdür. Yaşayış yerinin bəzi yerlərində möhrədən tikilmiş divar qalıqları saxlanmışdır. Lakin tikintilərin əksəriyyəti dağılmışdır. Hazırda abidənin ərazisi əkin sahəsi kimi istifadə olunur. Mədəni təbəqənin dağılması nəticəsində bad qırıqları, çəhrayı rəngdə bişirilmiş keramika məmulatı yer səthinə səpələnmişdir. Keramika məmulatının bir qismi şirlidir. Onlar arasında küpə və kasa tipli qablara rastlanır. Aşkar olunmuş keramika məmulatı inkişaf etmiş və Son Orta əsrlər üçün xarakterikdir. Yaşayış yerini XV-XIX əsrlərə aid etmək olar.

**131. II Qarabulaq nekropolu** Maxta kəndindən şimalda, Qarabulağa uzanan yolun solunda yerləşir. Nekropol dağ silsiləsinin Şərur düzənliyinə doğru uzanan hissəsində yerləşir. Nekropolun ətrafı hündür dağlarla əhatə olunmuşdur. Qəbirlər kromlexlərlə əhatə olunmuş daş qutulardan ibarətdir. Qəbir kameraları bir, bəzən isə iki sıra sal daşlardan qurulmuşdur. Nekropolda S.H.Aşurov tərəfindən aparılan araşdırmalar zamanı 10 ədəd kurqan qeydə alınmışdır. Daş qutu tipli qəbirlərdən əldə edilən keramika məmulatı Erkən Tunc dövrünə aid olub boz rəngdə bişirilmişdir. Qablardan bəzilərinin üzərində quş təsvirlərinə rastlanmışdır. Keramika parçalarının üzərində yarımşarşəkilli qulplar vardır. Nekropol e.ə. IV-III minilliklərdə Şərurda məskunlaşan maldar tayfalara aiddir.

**132. II Dizə qəbiristanlığı** Orta əsr abidəsidir. Qəbiristanlıq kəndin şimalında Ovçulartəpəsinin cənub-qərb ətəyində yerləşir. Qəbiristanlığın bir qismindən hazırda istifadə edilməkdədir. Başdaşıları boz və qəhvəyi rəngli daşlardan yonularaq hazırlanmışdır. Onların üzərində krill və ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Qəbirlərin əksəriyyətinin ətrafı kiçik həcmli çay daşları ilə əhatə edilmiş, bəzilərinin üzəri isə tamamilə daşlarla örtülmüşdür. Qəbirlərin üzərində hicri 1334, 1320, 1310 və s. tarixlərə rastlanır. Qəbiristanlığın əhatə etdiyi sahədə Son Orta əsrlərə aid şirli və şirsiz keramika parçalarına da rastlanır. Arxeoloji materiallara və kitabələrə əsasən nekropolu XIX-XX əsrlərə aid etmək olar.

**133. Aralıq qəbiristanlığı** eyniadlı kəndin içərisində, Arpaçayın sağ sahilində yerləşir. Qəbiristanlıq hazırda itmək üzrədir. Qəbirlərin ətrafı dördkünc formada, çay daşları ilə əhatələnmişdir. Başdaşıları təbii qaya parçalarındandır. Bəzi başdaşıları dördkünc formada yonulmuş, onların yuxarı qisminə tağvari forma verilmişdir. Başdaşılarının bir neçəsinin üzərində ərəb əlifbası ilə kitabələr vardır. Qəbiristanlığın ərazisindən Son Orta əsrlərə aid şirsiz keramika nümunələri aşkar olunmuşdur. Qəbiristanlığı XVIII-XX əsrlərə aid etmək olar.

**134. Qula yaşayış yeri** Şərur rayonunda Qarxun kəndinin içərisində yerləşir. Yaşayış yeri hazırda tamamilə dağılmışdır. Yaşayış yerində tikilmiş bəzi binaların qalıqları indiyədək saxlanmışdır. Binaların əksəriyyəti uçub-tökülmüş və hazırda həyətyanı sahə kimi istifadə olunur. Mədəni təbəqənin aşınması nəticəsində keramika parçaları yer səthinə yayılmışdır. Ətrafa yayılan tikinti

qalıqlarına əsasən demək olar ki, binaların tikintisində kvadrat formalı çiy kərpiclərdən də istifadə olunmuşdur. Aşkar olunan arxeoloji materiallar XV-XVIII əsrlərə aiddir. Ehtimal ki, bu ərazidə yaşayış daha qədim dövrlrədən mövcud olmuşdur. Qula yaşayış yerini XV- XVIII əsrlərə aid etmək olar.

**135. Avsanlar yaşayış yeri** Qarxun kəndinin qərbində yerləşir. Yaşayış yeri hazırda əkin sahəsi kimi istifadə olunur. Yaşayış yerindən aşkar olunan tikinti qalıqlarına əsasən demək olar ki, binaların inşa edilməsində möhrə, çiy kərpic və bişmiş kərpicdən istifadə olunmuşdur. Yaşayış yerinin ərazisində kül yığınlarına, çəhrayı və boz rəngdə bişirilmiş keramika nümunələrinə rastlanır. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə yaşayış yerinin ərazisində karvansara olmuşdur. Təəssüf ki, vaxtilə mövcud olan binaların heç biri indiyədək qalmamışdır. Aşkar olunan arxeoloji materiallara əsasən yaşayış yerini XI-XVIII əsrlərə aid etmək olar.

**136. Siyaqut qəbiristanlığı** kəndin şərq tərəfində yerləşir. Hazırda qəbiristanlıq tamamilə itmək üzrədir. Qəbirlərin bəzilərinin üstü son zamanlar götürülmüşdür. Başdaşılarının bəzisi dördkünc formalıdır. Bəziləri isə dördkünc formada olub onların yuxarısına tağvari forma verilmişdir. Bəzi başdaşıları ensiz, uzunsov formalıdır. Başdaşılarının bir qisminin həm arxa, həm də ön tərəflərində ərəb əlifbası ilə kitabə və tarixlər vardır. Onların üzərində hicri 1320, 1324, 1337 və s. tarixlərə rastlanır. Qəbir daşları üzərində olan kitabələrə əsasən qəbiristanlığı XVIII-XX əsrlərə aid etmək olar.

**137. Küllüklər yaşayış yeri** Şərur rayonunun Kosacan kəndindən şərqdə, hazırda mövcud olan su kanalının alt tərəfində yerləşir. Yaşayış yerinin sahəsi düzənlik olduğu üçün əkin sahəsinə çevrilmişdir. Hazırda abidənin ərazisində kül qalıqlarına, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika parçalarına rastlanır. Yaşayış yerinin ərazisində az miqdarda bişmiş kərpic parçaları da vardır. Aşkar olunan arxeoloji materiallar Orta əsrlərin inkişaf etmiş və son dövrləri üçün xarakterikdir. Arxeoloji tapıntılara əsasən yaşayış yerini XV-XVIII əsrlərə aid etmək olar.

**138. Çayarası yaşayış yeri** Şərur rayonunun Kosacan kəndindən şərqdə, Küllüklər yaşayış yerinin qərbində yerləşir. Yaşayış yerinin ərazisi hazırda əkin sahəsi kimi istifadə olunur. Abidənin bəzi qismlərində sel sularının açdığı yarğanda mədəni təbəqənin qalınlığı 1 m-ə çatır. Təbəqə daş, möhrə, kül qatları və keramika nümunələrindən ibarətdir. Aşkar olunan arxeoloji materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatından ibarətdir. Keramika məmulatı Orta əsrlərin inkişaf etmiş və son dövrlərinə aiddir. Yaşayış yerinin ərazisində təndirlərin və təsərrüfat quyularının qalıqlarına rastlanmışdır. Arxeoloji materiallara əsasən, yaşayış yerini XVI-XVIII əsrlərə aid etmək olar.

**139. Aşağı Daşarx qəbiristanlığı** eyniadlı kəndin cənub tərəfində Xanlıqlar kəndinə gedən torpaq yolun sağ tərəfində yerləşir. Qəbiristanlığın yerüstü əlamətləri tamamilə itmişdir. Bəzi qəbirlərin ətrafı kiçik həcmli daşlarla əhatələnmiş, bəzilərinin isə üzəri tamamilə daşla qapadılmışdır. Salamat qalmış

baş daşlarının bəzisinin üzərində ərəb əlifbası ilə kitabələr və hicri təqvimi ilə tarixlər vardır. Başdaşılarında hicri 1237, 1334 və s. tarixlərə rastlanır. Yerli əhalinin məlumatına görə, vaxtilə qəbirstanlıqda sənduqə tipli sinə daşları və qoç daşlar olmuşdur. Qəbiristanlığın ərazisində aparılan araşdırmalar zamanı çəhrayı rəngdə bişirilmiş şirsiz saxsı məmulatı da əldə edilmişdir. Arxeoloji materiallara əsasən, qəbiristanlığı XV-XX əsrlərə aid etmək olar.

**140. Külyeri yaşayış yeri** Şərur rayonunun Vərməziyar kəndindən şərqdə, Püsyan Xanlıqlar yolunun sol tərəfində yerləşir. Yaşayış yerinin mərkəzi qismi alçaq təpə şəklindədir. Ərazinin böyük bir qismi əkin sahəsinin altında qalmışdır. Yaşayış yeri hər tərəfdən su kanalları və əkin sahələri ilə əhatə olunmuşdur. Mədəni təbəqənin dağılması nəticəsində şirli və şirsiz keramika məmulatı yerin üzərinə yayılmışdır. Aşkar olunmuş tapıntılar Orta əsrlərin inkişaf etmiş və son dövrlərinə aiddir. Yaşayış yerində aparılan araşdırmalar zamanı onun ərazisində xeyli bad qırıqları və kül qalıntıları izlənmiş, çəhrayı və boz rəngdə bişirilmiş keramika məmulatı toplanmışdır.

Aşkar olunan arxeoloji materiallara əsasən, yaşayış yerini XIV-XVIII əsrlərə aid etmək olar.

**141. Cəlilkənd qəbiristanlığı** eyniadlı kəndin yaxınlığında Naxçıvan-Sədərək asfalt yolunun sağ tərəfində yerləşir. Qəbiristanlıq ətraf yerlərə nisbətən hündür olan təpənin üzərində yerləşir. Orta əsrlərə aid olan qəbirlər başlıca olaraq qəbiristanlığın cənub və qərb tərəflərindədir. Başdaşılarının bir qismi torpağın aşınması nəticəsində yerə düşmüşdür. Başdaşıları çəhrayı və boz rəngli daşlardan dördkünc formada hazırlanmışdır. Onların mərkəzi hissəsi taxça şəklində oyulmuş və ərəb əlifbası ilə kitabələr yazılmışdır. Tarixlər hicri təqvimi ilə verilmişdir. Başdaşılarında hicri 1210, 1320, 1334 və s. tarixlərə rastlanır. Araşdırmalar göstərir ki, qəbirstanlığın ərazisindən uzun müddət istifadə edilmişdir. Arxeoloji və epiqrafik materiallara əsaslanaraq qəbirstanlığı XVIII-XX əsrlərə aid etmək olar.

**142. Dərəkənd qəbiristanlığı** kəndin içərisində yerləşən hündür təpənin üzərində yerləşir. Qəbirlər müsəlman qibləsinə yönəldilmişdir. Qəbiristanlığın bir qismi hazırda istifadə olunur. Orta əsr qəbirlərinin yerüstü əlamətləri tamamilə itmiş, yalnız başdaşıları qalmışdır. Başdaşıları çəhrayı, boz və ağ rəngli bərk daş cinslərindən hazırlanmışdır. Onların üzərində ərəb əlifbası ilə kitabələr və hicri təqvimi ilə tarixlər vardır. Başdaşıları üzərində hicri 1210, 1332, 1327, 1334 və s. tarixlərə rastlanır. Qəbirstanlığın ərazisindən həmçinin Son Orta əsrlərə aid çəhrayı rəngli şirsiz və şirli keramika məmulatları əldə edilmişdir. Arxeoloji materiallara əsaslanaraq qəbiristanlığı XVIII-XX əsrlərə aid etmək olar.

**143. Yuxarı Daşarx qəbiristanlığı** eyniadlı kəndin girəcəyində yolun kənarında yerləşir. Qəbiristanlıq hündür uzunsov təpəni və onun ətrafını əhatə edir. Onun bir qimində müasir dövrə aid qəbirlər vardır. Orta əsr qəbirlərinin əksəriyyəti təpənin ətəyində yerləşir. Qəbiristanlığın ərazisi hazırda otla örtülmüş, qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmişdir. Qəbiristanlığın

ərazisini başdaşılarına əsasən müəyyən etmək mümkündür. Baş daşlarının bir qismi təbii qaya parçalarından, bir qismi isə yonulmuş daşlardan hazırlanmışdır. Onların bir qisminin üzərində ərəb əlifbası ilə kitabələr, xüsusilə mərhumların adı, soyadı, doğum və ölüm tarixləri yazılmışdır. Qəbiristanlığı XVIII-XX əsrlərə aid etmək olar.

**144. Təpələr yaşayış yeri** Tumaslı kəndinin cənubunda su kanalının sağ tərəfində yerləşir. Yaşayış yerinin ərazisi hazırda əkin sahəsinə çevrilmişdir. Abidənin bəzi qismlərində kül yığınları, bad qırıqları və keramika parçalarına rastlanır. Keramika məmulatı çəhrayı rəngdə bişirilmiş şirsiz qabların parçalarından ibarətdir. Forma verməyən şirli keramika məmulatına da rastlanır. Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, Təpələr yaşayış yerinin böyük bir qismi indiki Tumaslı kəndinin altında qalmışdır. Tumaclı kəndinin yaşayış yerinə yaxın olan məhəlləsi xalq arasında Vayxır adlandırılır. Arxeoloji materiallara əsasən yaşayış yerini XI-XVIII əsrlərə aid etmək olar.

**145. Şəhriyar yaşayış yeri** Şərur rayonunda eyni adlı kəndin şimal-qərbində yerləşir. Yaşayış yerinin ərazisi su kanalının çəkilməsi ilə bir neçə hissəyə ayrılmışdır. Abidənin bəzi qismlərində kül yığınları və bad qırıqlarına rastlanır. Araşdırmalar zamanı yaşayış yerindən çəhrayı rəngdə bişirilmiş şirsiz keramika nümunələri aşkar olunmuşdur. Xalq arasında olan rəvayətə görə bu ərazidə böyük bir şəhər olmuşdur. Şəhər şahın sevgilisinin şərəfinə inşa edildiyi üçün Şəhriyar adlandırılmışdır. Yaşayış yerindən aşkar olunmuş keramika nümunələri Son Orta əsrlər üçün xarakterikdir. Arxeoloji materiallara əsasən yaşayış yerini XVII-XIX əsrlərə aid etmək olar.

**146. II Qaraburc yaşayış yeri** kəndin içərisində yerləşir. Hazırda Orta əsr tikintilərinin qalıqları kəndin mərkəzində təpə şəklində qalmışdır. Mədəni təbəqənin dağılması nəticəsində bəzi tikinti qalıqları üzə çıxmışdır. Tikinti qalıqlarına əsasən demək olar ki, binalar möhrədən və kvadrat formalı çiy kərpicdən inşa edilmişdir. Yaşayış yerinin cənub tərəfində təbəqənin dağılması nəticəsində yaranan kəsiklərdə kül yığınları, möhrə və çiy kərpic tikintilərinin qalıqları, bad qırıqları görünməkdədir. Aşkar olunan keramika məmulatı çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz qabların parçalarından ibarətdir. Yaşayış yerinin mərkəzində olan ziyarətgah indiyədək qalmışdır. Xalq arasında ziyarətgahı «Mirim ocağı» adlandırırlar.

Arxeoloji materiallara əsaslanaraq yaşayış yerini XIV-XVIII əsrlərə aid etmək olar.

**147. Muğancıq Müslüm qəbiristanlığı** kəndin şərq tərəfində yerləşir. Abidə şimal və qərbdən su kanalı ilə məhdudlaşmışdır. Qəbirlər müsəlman qibləsinə yönəldilmişdir. Onların əksəriyyətinin yerüstü əlaməti itmiş, qəbiristanlığın ərazisini ot basmışdır. Lakin bəzi qəbirlərin başdaşıları indiyədək qalmışdır. Onlarının bir qismi boz və çəhrayı rəngli yonulmuş daşlardan hazırlanmışdır. Başdaşılarının üzərində ərəb əlifbası ilə kitabələr və hicri təqvimi ilə 1210, 1310, 1326 və digər tarixlər yazılmışdır.

Qəbiristanlığı arxeoloji materiallar və kitabələrə əsasən XVIII-XX əsrlərə aid etmək olar.




Şəkil 26. Dizə kurqanlarının keramikası

**148. Dizə kurqanları** Şərur rayonunun Dizə kəndi yaxınlığında, Arpaçayın sağ sahilində, dağ silsiləsinin çaya yenən ətəyində yerləşir. Kurqanlar hündürlüyü yer səthindən 1-1,5m, diametri 3-5m olan oval təpə formasındadır. Bəzi kurqanların torpaq örtüyü tamamilə aşınmışdır. Kurqanların biri elektrik dirəyi üçün çuxur qazılarkən dağıdılmış, monoxrom boyalı qablar aşkar

edilmişdir. Araşdırmalar zamanı kurqanların yerləşdiyi ərazidə müxtəlif dövrlərə aid abidələrin olduğu müəyyən olunmuşdur. Dizə kurqanlarını e.ə. III-II minilliklərə aid etmək olar.

**149. Acılı yaşayış yeri** Şərur rayonunda Dərəkənddən şimal-qərbdə yerləşir. Yaşayış yerində olan uçub-tökülmüş tikinti qalıqları binaların daş təməl üzərində möhrə və çiy kərpicdən inşa olunduğunu göstərir. Tədqiqat zamanı Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur.

**150. Yamaclar yaşayış yeri** Şərur rayonun Xələc kəndindən cənub-şərqdə yerləşir. Yaşayış yerinin yerüstü əlamətləri tamamilə itmişdir. Aparılan araşdırmalar zamanı abidənin ərazisində ocaq qalıqları, çəhrayı və boz rəngdə bişirilmiş keramika nümunələri aşkar olunmuşdur. Bəzi qabların xarici səthi cilalanmış, bəzisinin isə gövdəsi ilə boğazının arasında yarımşarşəkilli qulpu vardır. Yaşayış yeri e.ə. IV-III minilliklərə aiddir.



Şəkil 27. Yaycı nekropolunun boyalı keramikası

# BABƏK RAYONUNUN ARXEOLOJİ ABİDƏLƏRİ

**1. I Kültəpə yaşayış yeri.** Yaşayış yeri Babək rayonunun Kültəpə kəndində, Naxçıvançayın sol sahilində yerləşir. Abidənin yalnız kiçik bir hissəsi müasir dövrədək salamat qalmışdır. Onun sahəsi 1,5 hektardır. 1904-cü ildə Kültəpədə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmış, aşkar edilmiş materialların bir qismi 1905-ci ildə Tiflisdəki Qafqaz muzeyinə verilmişdir.




Şəkil 28. I Kültəpənin Neolit keramikası

1951-ci ildə Azərbaycan EA Tarix İnstitutunun arxeoloji ekspedisiyası O.H.Həbibullayevin rəhbərliyi ilə I Kültəpədə sistemli tədqiqat işlərinə başlanmışdır. 1951-1964-cü illərdə aparılan tədqiqatlar zamanı müxtəlif dövrlərə aid dörd mədəni təbəqə aşkar edilmişdir. Mədəni təbəqələrin ümumi qalınlığı 22,2 m-dir.

Birinci təbəqə (1a) Neolit dövrünə aiddir. Qalınlığı 3,2 m olan bu təbəqə abidənin üzərindən 19-22,2 m dərinlikdə yerləşir. Neolit təbəqəsində aparılan

tədqiqatlar zamanı 5 tikinti qatı aşkar olunmuşdur. Üçüncü tikinti qatınta aaşkar olunan evlər dördkünc formalıdır. Evin içərisində dairəvi formalı ocaq olmuş, döşəməsi isə saman qatılmış gillə suvanmışdır. Bəzi evlərin döşəməsində qamışdan hörülmüş həsir qalıqları qalmışdır. Bu dövrdə yaşayış yerində və evlərin döşəməsində dəfn etmə adəti olmuşdur. Dəfnlər tək və cüt olmuş, qəbirlərə əmək alətləri və bəzək əşyaları qoyulmuşdur. Bəzi skeletlər oxra ilə boyanmışdır. Əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur.

I Kültəpənin 1b təbəqəsi Eneolit dövrünə aiddir. Bu təbəqə 19-12,8 m dərinlikdə yerləşir. Bu dövrə aid 13 tikinti qatı aşkar olunmuşdur. Tikintilər əsasən dairəvi formada, çay daşları və möhrə ilə inşa edilmişdir. Evlərin qızdırılması üçün otağın mərkəzində yerləşdirilmiş ocaqdan, yaxud gil manqallardan istifadə edilmişdir. Bəzən yaşayış binalarının bir hissəsi arakəsmə divarla ayrılaraq təsərrüfat məqsədilə istifadə edilmişdir. I Kültəpədən aşkar edilmiş binaların oxşarları Azərbaycanda Şomutəpə, Töyrətəpə, Yanıqtəpə və başqa abidələrdən məlumdur. Tədqiqatçı O.H.Həbibullayev dairəvi yaşayış binalarının Azərbaycanda yerli zəmin əsasında meydana gəldiyini və bu ərazi üçün xarakterik olduğunu qeyd etmişdir.

Tədqiqat nəticəsində I Kültəpədə həmçinin Neolit və Eneolit dövrünə aid 85 qəbir aşkar edilmişdir. Qəbirlərin tikinti qatlarının arasında aşkar olunması bu dövrdə yaşayış binalarının döşəməsində dəfnetmə adətinin mövcud olduğunu göstərir. Qazıntı zamanı müəyyən edilmişdir ki, skeletlər əsasən bükülü və arxası üstə uzadılmış vəziyyətdə müxtəlif istiqamətlərə yönəlmişdir. Skeletlərin bəzisi qırmızı oxra ilə boyanmış, bəzisinin isə başının altına daş, yaxud gil qab qırığı qoyulmuşdur. Kəllənin altına daş, yaxud gil qab qırığı qoyulması adətinə Azərbaycanın ErkənTunc dövrü kurqanlarında və Yaloylutəpə abidələrində təsadüf olunmuşdur. Belə adətə tədqiqatlar zamanı Şahbuzda Sarıdərə nekropolunda və Böyükdüzün antik dövrə aid qəbirlərində rast gəlinmişdir.

Qəbirlərin ikisində itlə dəfn olunma adətinə təsadüf olunmuşdur. Bu adət Naxçıvan ərazisində sonrakı dövrlərdə də mövcud olmuşdur.

Qordan Çayldın fikrincə arxası üstə uzadılmış skeletlər Şumerin Ubeyd dövrü üçün xarakterikdir. Şübhəsiz ki, dəfn adətinin oxşarlığı qədim Şumerlə Naxçıvan arasında əlaqələrin olduğunu və müəyyən əhali qrupunun Mesopotamiyadan gələrək burada məskunlaşdığını göstərir.

I Kültəpənin Eneolit təbəqəsindən daşdan hazırlanmış toxa, çəkic, dəndaşı, toppuz, həvəng və dəstələr, sümükdən hazırlanmış biz, qaşov, deşici və cilalayıcı alətlər aşkar edilmişdir. Bu alətlər Azərbaycanın Eneolit abidələrindən tapılmış əmək alətləri ilə oxşardır.

Əldə edilmiş materialların əksəriyyəti gil məmulatından ibarətdir. Keramika əsasən saman, bəzən isə qum qarışığı olan gildən hazırlanmışdır. Onların üzəri şüyrələnərək yüngülcə cilalanmışdır. Bəzi qablar hər iki tərəfdən kobud suvaqla əhatələnmişdir. Saxsı məmulatı çəhrayı rəngdə, bəzi hallarda isə boz və qara rəngdə olub yaxşı bişirilmişdir. Tədqiqat göstərir ki, Eneolit

qablarının bışirilməsində dulus kürələrindən istifadə edilmişdir. Eneolit keramikası küpə, kasa, banka, piyalə, qapaq, təkər modeli, əyircək və s. əşyaların qırıqlarından ibarətdir. Bu qabların oxşarları bir sıra Eneolit abidələrindən, o cümlədən Şomutəpə, Töyrətəpə, Göytəpə, Sədərək və başqa həmdövr abidələrindən aşkar edilmişdir.




Şəkil 29.I Kültəpənin Neolit və Eneolit təbəqəsinin boyalı qabları: 2-Neolit, 1, 3-13 –Eneolit (O.A.Abibullaev 1982)

I Kültəpənin Eneolit keramikası içərisində boyalı qablar xüsusilə diqqətəlayiqdir. Onlar iki bütöv qab və 12 qırıqdan ibarətdir. O.Həbibullayev Eneolit boyalı qablarını iki qrupa bölür. Birinci qrupa narın qum qarışığı olan gildən hazırlanaraq səliqəli naxışlanmış və keyfiyyətli bişirilmiş qablar daxildir.

Bu qrupa iki çölmək, qapaq, kasa və müxtəlif qabların gövdəsinə aid qırıqlar aiddir. Onların üzəri qırmızı, qəhvəyi və qara rənglə naxışlanmışdır.

İkinci qrupa gilinə saman qatılmış, kobud hazırlanmış, lakin yaxşı bişirilmiş qabların parçaları aiddir. Bu qrupa aid qabların naxışlanmasında səliqəsizlik nəzərə çarpır .

O.H.Həbibullayevin fikrincə, birinci qrup qablar Yaxın Şərq ölkələrindən-Mesopotamiyadan gətirilmiş, ikinci qrup qablar isə yerli istehsala məxsus olmuşdur. Mesopotamiya ilə Azərbaycanın cənub rayonlarının, o cümlədən Naxçıvanın əlaqələri eyni zamanda dəfn adətinin oxşarlığı ilə də təsdiq olunur. I Kültəpənin Eneolit dövrünə aid boyalı keramikası Urmiya hövzəsinin abidələri ilə oxşardır. Belə keramika Tilkitəpə, Göytəpə, Gavurtəpə, Pijdəlitəpə və b. abidələrdən məlumdur. V.M.Masson Ubeyd keramikası ilə Urmiya hövzəsi abidələrinin keramikası arasında oxşarlığa əsasən qeyd etmişdir ki, Urmiya hövzəsinin ilk əkinçi tayfaları Şimali Mesopotamiyadan yayılmışdır. Bu təbəqədən misdən hazırlanmış müxtəlif əmək aləti və bəzək əşyalarının qırıqları aşkar edilmişdir. Müəyyənləşdirilmişdir ki, onların ikisinin tərkibində mərgümüş, birində isə nikel qarışığı vardır.

İkinci təbəqə Ilk Tunc dövrünə aiddir. Bu təbəqənin qalınlığı 9,5m olub, abidənin üzərindən 3,5-4,5-12,3-13m dərinlikdə yerləşir. Bu təbəqədən Kür-Araz mədəniyyətinə aid müxtəlif maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Qazıntı zamanı ikinci təbəqədə 14 tikinti qatı öyrənilmişdir. Binalar əsasən dairəvi formada, bəzən isə düzbucaqlı tikilmişdir. Onlar daş özül üzərində möhrədən və ya çiy kərpicdən inşa edilmişdir. O.H.Həbibullayevin tədqiqatları zamanı müəyyən olmuşdur ki, dairəvi binalar konusvari, dördkünc binalar isə yastı örtüklə tamamlanmışdır. Binaların qızdırılması üçün ocaqlardan, sobalardan və manqallardan istifadə edilmişdir.

İkinci təbəqədə aşkar olunmuş maddi-mədəniyyət qalıqlarının bir qismi obsidian (dəvəgözü) və çaxmaq daşından hazırlanmış oraq dişləri, qaşov və s. alətlərdən ibarətdir. Əmək alətlərinin hazırlanması üçün daşın müxtəlif növlərindən (porfir, qranit, tuf, diorit və s.) istifadə edilmişdir. Daşdan hazırlanmış əmək alətləri dən daşı, həvəngdəstə, balta, çəkic və toppuzlardan ibarətdir. Bundan başqa sümükdən hazırlanmış iy başlıqları, əyircək, biz və deşici alətlər də aşkar edilmişdir. Əmək alətlərinin az bir hissəsi metaldan-mis və mərgümüş qarışığı olan tuncdan istehsal olunmuşdur. Tuncdan müəyyən silah və bəzək əşyaları da hazırlanmışdır.

Kür-Araz mədəniyyəti üçün xarakterik olan tapıntıların əksəriyyəti gil məmulatından ibarətdir. Keramika qum qarışığı olan gildən hazırlanaraq əsasən yaxşı, bəzən isə qeyri-bərabər bişirilmişdir. Gil məmulatının hazırlanmasında dulus çarxı tətbiq olunmamışdır. I Kültəpədən aşkar olunmuş Kür-Araz keramikası üç mərhələdən keçmişdir. Birinci mərhələ üçün keyfiyyətli bişirilmiş və yaxşı anqoblanmış boz və qara rəngli qablar xarakterikdir. Qabların ağzının kənarı relsşəkilli, yaxud xaricə doğru kvadrat çıxıntılara malikdir. Onların




Şəkil 30. I Kültəpənin Erkən Tunc dövrü təbəqəsi

qulpları yarımşarşəkilli olub, bir qədər uzunsovdur. İkinci mərhələ çəhrayı astarlı qara və boz rəngli yaxşı cilalanmış qabların meydana gəlməsi ilə xarakterizə olunur. Bu mərhələdə çəhrayı rəngdə bişirilmiş qabların miqdarı əvvəlki mərhələyə nisbətən artır. Qabların qulpu klassik yarımşarşəkilli forma alır. Üçüncü mərhələ yüksək keyfiyyətlə bişirilmiş nazik divarlı qara və boz cilalı qablarla xarakterizə olunur. Bu mərhələdə qabların xarici səthinə qara boya çəkilərək yaxşı cilalanır. Qulpların forması bir qədər dəyişir və əsasən qabların ağzı ilə gövdəsinin yuxarı hissəsini birləşdirir. Bu mərhələnin xarakterik xüsusiyyətlərindən biri də həndəsi, nəbati və astral ornamentlərlə naxışlanmış qabların sayca əvvəlki mərhələyə nisbətən xeyli artmasıdır.

Gil məmulatı içərisində ocaq qurğuları xüsusilə diqqəti cəlb edir. Onların bir qrupu nalşəkilli formada olub, mərkəzi hissəsində horizontal çıxıntısı vardır. O.H.Həbibullayevin fikrincə, bu cür ocaq qurğuları əvvəlcə məişətdə, sonra isə sitayiş məqsədi ilə istifadə edilmişdir. Belə ocaq qurğuları İqdır, Karaz, Maxta, II Kültəpə, Amiranisqora və b. abidələrdən məlumdur. II Kültəpənin Kür-Araz təbəqəsinin alt qatlarından tapılan belə ocaq qurğularının mərkəzi hissəsində insan fiquru təsvir edilmişdir. Buna əsasən demək olar ki, nalşəkilli ocaq qurğuları məişətdə yalnız sitayiş məqsədilə istifadə edilmişdir .

İkinci qrup ocaq qurğuları trapes formalıdır. Onların baş tərəfində iki buynuzvari çıxıntı vardır. Bu çıxıntılar öz növbəsində məməcikşəkillidir. Tədqiqat göstərir ki, bu tip ocaq qurğuları iribuynuzlu heyvana, yaxud məhsuldarlıq ilahəsinə sitayişlə bağlı olmuşdur .

Gil məmulatının bir qrupu heyvan fiqurlarından ibarətdir. Onlar əsasən öküz, qoyun, keçi və it fiqurları ilə təmsil olunmuşdur. Öküz fiqurları üstünlük təşkil edir. O.H.Həbibullayev haqlı olaraq qeyd etmişdir ki, bu fiqurlar sitayiş məqsədilə hazırlanmış və onlardan müəyyən ayinlərin icrasında istifadə edilmişdir .

I Kültəpənin tədqiqatları Erkən Tunc dövründə nəinki müxtəlif sənət sahələrinin, həmçinin müəyyən sənət sahələri üzrə ixtisaslaşmanın mövcud olduğunu göstərir.

I Kültəpənin üçüncü təbəqəsi Orta və Son Tunc dövrünə aiddir. Bu dövrə aid mədəni təbəqə 2m qalınlığında olub, abidənin üzərindən 1,5-2,5-3,5-4,5m dərinlikdə yerləşir .

Bu dövrə aid tikinti qalıqları olduqca az aşkar olunmuşdur. O.H.Həbibullayevin fikrincə, binalar əsasən dördkünc formalı olmuş, tikinti materialı kimi çay daşı və çiy kərpicdən istifadə edilmişdir .

Arxeoloji tədqiqatlar zamanı bu təbəqədən daşdan, sümükdən və tuncdan hazırlanmış müxtəlif əmək alətləri tapılmışdır. Bu təbəqədən aşkar edilmiş gil məmulatı əsasən çəhrayı, bəzən isə boz və qara rəngdə olub yaxşı bişirilmişdir. Çəhrayı rəngdə bişirilmiş gil məmulatı içərisində boyalı qablar üstünlük təşkil edir. Onlar küpə, kasa, badya və çaynik tipli qabların qırıqlarından ibarətdir. O.H.Həbibullayev I Kültəpənin Orta və Son Tunc dövrünə aid boyalı qablarını üç

tipə bölmüşdür. Birinci tipə monoxrom boyalı qablar, ikinci tipə polixrom boyalı qablar, üçüncü tipə isə polixrom və monoxrom boyalı qablar aiddir.

Dördüncü təbəqə abidənin üzərindən 1,5-2,5m dərinliyədək davam edir. Bu təbəqə Erkən Dəmir dövrünə aid edilmişdir. Bu təbəqədən aşkar edilmiş tapıntılar əsasən gil məmulatından ibarət olub, çəhrayı və boz rəngdə bişirilmişdir. Bu dövrə həmçinin O.H.Həbibullayevin dördüncü tipə aid etdiyi boyalı qablar da aiddir.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, I Kültəpədən aşkar edilmiş maddi-mədəniyyət qalıqları Eneolit dövründən başlayaraq Erkən Dəmir dövrünədək böyük bir tarixi mərhələni əhatə edir. Bu abidəni bütövlükdə e.ə. VII-I minilliklərə aid edirlər.

**2. II Kültəpə yaşayış yeri.** Yuxarı Uzunoba kəndi yaxınlığında, Cəhriçayla Naxçıvançayın birləşdiyi ərazidə yerləşir. Bu abidə vaxtilə təbii dağıntıya məruz qalmış, onun böyük bir hissəsi Cəhriçay tərəfindən yuyulmuşdur. Hazırda yaşayış yerinin salamat qalan hissəsinin sahəsi 3 hektardır. Abidə 1960-cı ildə O.H.Həbibullayev V.H.Əliyev tərəfindən qeydə alınmış, 1962-ci ildə burada kəşfiyyat xarakterli qazıntılar aparılmışdır. 1968-ci ildə II Kültəpədə O.H.Həbibullayev və V.H.Əliyevin rəhbərliyi ilə geniş qazıntı işlərinə (400 kv.m sahədə) başlanmışdır. II Kültəpənin tədqiqində müxtəlif vaxtlarda M.M.Seyidov, Q.H.Ağayev, A.Q.Seyidov, V.B.Baxşəliyev və başqa tədqiqatçılar iştirak etmişdir. Abidənin tədqiqi V.H.Əliyevin rəhbərliyi ilə 1986-cı ilədək davam etdirilmişdir. II Kültəpədə altı qazıntı sahəsi qoyulmuş, onlardan yalnız birində - ikinci qazıntı sahəsində tədqiqat xam torpağadək davam etdirilmişdir. Aparılmış tədqiqatlar nəticəsində üç mədəni təbəqə aşkar edilmişdir. Mədəni təbəqələrin ümumi qalınlığı 14 m-dir. Birinci təbəqə Ilk Tunc dövrünə aid olub, Kür-Araz mədəniyyətinə aid maddi-mədəniyyət nümunələri ilə xarakterizə olunur. Bu təbəqədə aparılan tədqiqatlar zamanı 14 tikinti qatı aşkar edilmişdir. II Kültəpənin Ilk Tunc dövrünə aid alt tikinti qatları üçün dairəvi, üst qatları üçün isə dairəvi və dördkünc binalar xarakterikdir. Dairəvi binalardan birinin içərisində konusvari örtüyü saxlayan mərkəzi sütun üçün daş döşənmiş çala aşkar olunmuşdur .Binaların tikintisində əvvəlcə möhrədən, sonra isə çiy kərpicdən istifadə edilmişdir. Çiy kərpic XI tikinti qatından başlayaraq tətbiq edilmiş, VIII tikinti qatında isə daha da genişlənmişdir.

Dairəvi binaların əksəriyyəti arakəsmə ilə iki hissəyə ayrılmış, onların bir hissəsindən yaşayış sahəsi, ikinci hissəsindən isə təsərrüfat məqsədilə istifadə edilmişdir. Binaların qızdırılması üçün dairəvi manqallar və ocaqlar əsas yer tutmuşdur. Tədqiqat zamanı müəyyən edilmişdir ki, altıncı tikinti qatında aşkar edilmiş dairəvi bina qədim məbədin qalığıdır. Bundan sitayiş məqsədilə istifadə olunmuşdur. Binanın içərisindən ocaq qurğularının qalığı aşkar edilmişdir. II Kültəpənin birinci təbəqəsinin arxeoloji materialları əsasən daşdan hazırlanmış xeyli əmək aləti, o cümlədən oraq dişləri, dən daşları, həvəng-dəstələr, çəkiclər, ox ucluqları və toppuzlardan ibarətdir. Bu əmək alətləri Azərbaycanın Erkən

Tunc dövrü üçün xarakterik olub, Zaqafqaziya və Yaxın Şərqin bir sıra abidələrindən də məlumdur. Əmək alətləri içərisində sümükdən hazırlanmış əyircək, biz, cilalayıcı və deşici alətlər də vardır. Əmək alətlərinin bir qismi tunc iynə, bıçaq və bizlərdən ibarətdir. Onlar mis-mərgümüş ərintisindən hazırlanmışdır. Tunc əşyalar içərisində bir ədəd bilərzik qırığı da vardır.



Şəkil 31. II Kültəpənin Erkən Tunc dövrü təbəqəsi

Birinci təbəqənin tapıntıları içərisində keramika məmulatı üstünlük təşkil edir. Tədqiqat göstərir ki, II Kültəpənin gil məmulatı öz inkişafında üç mərhələdən keçmişdir. II Kültəpənin birinci mərhələyə aid gil qablarının tərkibində saman qarışığına da təsadüf olunur.

Birinci təbəqənin keramikası içərisində arxaik formalı ocaq qurğularının aşkar olunması xüsusilə diqqətəlayiqdir. Bu tapıntılar ocaq qurğularının mənşəyi ilə bağlı yeni fikirlər irəli sürməyə imkan verir. Bu baxımdan mərkəzi hissəsi sxematik insan fiquru ilə tamamlanan nalşəkilli ocaq qurğusu böyük əhəmiyyət kəsb edir. Bu tapıntı nalşəkilli ocaq qurğuların sxematik insan fiquru olduğunu deməyə əsas verir. Onlar sitayiş məqsədilə hazırlanmış və ocağın qoruyucusu və himayədarını özündə təcəssüm etdirmişdir. Ocaq qurğularının bir qisminin qoşa mal buynuzu formasında hazırlanması, onların da sitayiş məqsədi ilə hazırlandığını göstərir. II Kültəpənin birinci təbəqəsindən dulus kürəsinin və metaləritmə sobasının qalıqlarının aşkar olunması sənətkarlığın müxtəlif sahələri ilə bağlı ixtisaslaşmış adamların olduğunu göstərir. Müxtəlif çeşidli gil qabların və tunc əşyaların aşkar olunması da bunu sübut edir. Bu dövrdə dulusçuluq xüsusilə inkişaf etmişdir. II Kültəpənin Kür-Araz mədəniyyətinin son mərhələsinə aid gil məmulatı keyfiyyətli hazırlanması ilə fərqlənir. Qabların zəngin naxışları həm qədim insanların yüksək estetik zövqü, həm də onların dünyagörüşünü özündə əks etdirmişdir.

II Kültəpə yaşayış yerinin ikinci təbəqəsi Orta Tunc dövrünə aiddir. Bu təbəqədə aparılmış tədqiqatlar nəticəsində dörd tikinti qatı müəyyən edilmişdir. Bu təbəqədən aşkar olunmuş tapıntılar qədim şəhər mədəniyyəti üçün xarakterikdir. Tədqiqat göstərir ki, e.ə. III minilliyin sonunda II Kültəpədə ətrafı möhkəmləndirilmiş yaşayış yeri meydana gəlmişdir. Qazıntı zamanı aşkar edilmiş qala divarının uzunluğu 35 m, eni 2-2,5 m, hündürlüyü 1,4 m-dir. Qala divarı dördkünc bürc və kontrforslarla möhkəmləndirilmişdir. İkinci tikinti qatında həmçinin qala divarı boyunca daş döşənmiş küçənin bir hissəsi aşkar edilmişdir. Binalar dördkünc formalı olub, çay daşı və çiy kərpiclə inşa edilmişdir. Burada aşkar edilmiş binaların əksəriyyəti iki, üç, yaxud dördotaqlıdır. Şübhəsiz ki, çoxotaqlı binalar patriarxal ailələr üçün nəzərdə tutulmuşdur .

Dördüncü tikinti qatında aparılan tədqiqatlar zamanı daş özül üzərində çiy kərpicdən hörülmüş müdafiə divarlarının qalıqları aşkar olunmuşdur. Tədqiqatçı V.H.Əliyevin fikrincə, həmin divar e.ə. XVII-XVI əsrlərdə inşa edilmiş və əvvəlki müdafiə sisteminə nisbətən kiçik sahəni əhatə etmişdir. II Kültəpə Orta Tunc dövrü təbəqəsindən dulus kürələrinin, dulusçuluq emalatxanasının, metaləritmə sobasının qalıqları aşkar edilmişdir. Bu təbəqədən metal emalı ilə bağlı müxtəlif əmək alətləri tapılmışdır. Tapıntılara əsasən demək olar ki, II Kültəpənin sakinləri dulusçuluq, metalişləmə, daşişləmə, sümükişləmə və b. sənət sahələri ilə məşğul olmuşlar.

Abidənin tədqiqi zamanı aşkar edilmiş arxeoloji materialların əksəriyyəti keramikadan ibarət olmuşdur. Onların içərisində boyalı qablar üstünlük təşkil edir. II Kültəpənin Orta Tunc dövrünə aid gil qablarını iki qrupa bölmək olar. Birinci qrupa qara rəngli, basma naxışlı cilalı qablar aiddir. Onlar üçün əsasən

küpə və çölmək tipli qablar xarakterikdir. Bu qrupa həmçinin boz və qara rəngdə bişirilmiş naxışsız qablar da daxildir.



Şəkil 32. II Kültəpənin Orta Tunc dövrü təbəqəsi

İkinci qrupa narın qum qarışığı olan gildən hazırlanmış yüksək keyfiyyətli çəhrayı rəngli qablar aiddir. Bu qrupa daxil olan keramikanın bir hissəsi sadə qablardan, əksəriyyəti isə boyalı qablardan ibarətdir. V.H.Əliyev II Kültəpənin Orta Tunc dövrünə aid boyalı qabları abidənin stratiqrafiyasına əsasən dörd mərhələyə bölmüşdür: Birinci mərhələ e.ə. XX-XIX, ikinci-e.ə. XVIII-XVII, üçüncü-e.ə. XVII-XVI, dördüncü isə e.ə. XVI-XIV əsrlərə aid edilmişdir. II Kül-

təpənin stratiqrafiyasının Yaxın Şərq, o cümlədən Urmiya hövzəsi abidələri ilə müqayisəsi göstərir ki, Azərbaycada Orta Tunc dövrü e.ə. III minilliyin ikinci yarısından başlamış, Orta Tunc dövrü üçün xarakterik olan boyalı qablar da bu ərazidə həmin dövrdə istehsal olunmuşdur. II Kültəpənin ikinci təbəqəsinin üst laylarından götürülən kömürün analizi e.ə. 1800-cü ili göstərmişdir. Əgər nəzərə alsaq ki, II Kültəpənin Orta Tunc dövrü təbəqəsi 4,5 qalınlığındadır, onda boyalı qabların xronologiyasını e.ə. III minilliyin ikinci yarısından başlamaq məqsədə uyğundur.

II Kültəpənin üçüncü təbəqəsindən Son Tunc və Erkən Dəmir dövrünə aid maddi-mədəniyyət qalıqları aşkar edilmişdir. Bu dövrdə gil qabların formasında müəyyən dəyişiklik yaranır. Əvvəlki dövr üçün xarakterik olan çaynik tipli qablarla yanaşı, Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan konnelyur ornamentli, göbələkvari çıxıntısı olan qablar meydana gəlir. Bu dövrdə boyalı qablar istehsalı tənəzzülə uğrayır və müəyyən müddət aradan çıxır, lakin e.ə. I minillikdə yenidən meydana gəlir.

Arxeoloji materialların analizinə əsasən II Kültəpədən aşkar edilmiş maddi-mədəniyyət qalıqlarını bütövlükdə e.ə. IV-I minilliklərə aid etmək olar.

**3. İşıqlar yaşayış yeri** Orta əsr abidəsidir. Yaşayış yeri Cəhri kəndinin şimal-şərqində, təbii cəhətdən əlverişli mövqedə yerləşmişdir. Sahəsi 46 min kvadrat metrdir. Yaşayış yerinin mərkəzində «Xərtənli bulaq» adlanan çeşmə vardır. Vaxtilə Cəhriçayın sol qolu, Canıçaydan çəkilən kanalın qalıqları indi də qalmaqdadır. Bu kanalın suyundan son vaxtlara qədər əkinçilikdə istifadə edilmişdir. Təbii aşınma nəticəsində yaşayış yerində əmələ gəlmiş yarğanlarda mədəni təbəqənin qalınlığı aydın izlənilir. Təbəqə müxtəlif qalınlıqda saxlanmışdır. Abidənin bəzi yerlərində onun qalınlığı 3-5 metrdir. Burada olan yaşayış binaları tamamilə dağılmışdır. Lakin bəzi yerlərdə dördkünc formalı çalalara və divar qalıqlarına təsadüf olunur.

Yaşayış yerinin böyük bir hissəsi (təqribən 16 min kv.m. sahə) kül yığınları ilə örtülmüşdür. Kül yığınları içərisində gil qab qırıqlarına tez-tez təsadüf olunur. Belə kül yığınları bizim tərəfimizdən Nəhəcir Orta əsr yaşayış yerində də qeydə alınmışdır. Müşahidələrə əsasən demək olar ki, bu kül yığınları dulus kürələrinin fəaliyyəti ilə bağlı olmuşdur. Şübhəsiz ki, İşıqlar yaşayış yerində dulusçuluq sənətkarlığın əsas sahələrindən biri olmuşdur.

Yaşayış yerindən aşkar edilmiş materialları iki dövrə bölmək olar. Birinci dövrə aid olan tapıntılar boz, qara, çəhrayı rəngdə bişirilmiş qab qırıqlarından ibarətdir. Onlar Ilk Orta əsrlərə aiddir.

İkinci dövrə orta əsrlərin inkişaf etmiş mərhələsi üçün xarakterik olan maddi-mədəniyyət qalıqları aiddir. Onlar əsasən çəhrayı rəngdə bişirilmiş, həndəsi və nəbati ornamentlərlə naxışlanmışdır. Qablar naxışlandıqdan sonra şəffaf və qeyri-şəffaf şirlə örtülmüşdür.

Yaşayış yerinin nekropolu ondan cənubda yerləşən kiçik təpənin üzərində olmuşdur. Təbii aşınma nəticəsində qəbirlərin əksəriyyəti dağılmışdır. Onlar torpaqda qazılmış müsəlman qəbirlərindən ibarətdir.

Tədqiqatçı Q.İ.Qədirzadənin fikrincə yaşayış yerinin adı «İşıqlar» tayfası ilə bağlıdır. Bu tayfa XIII əsrdə Orta Asiyadan Azərbaycana gələn türkdilli tayfalardan biridir.

Aşkar edilmiş arxeoloji materiallara əsasən yaşayış yerini III-XVIII əsrlərə aid etmək olar.

**4. Qızılburun yaşayış yeri** Tunc və Ilk Dəmir dövrlərinə aiddir. Yaşayış yeri Babək qəsəbəsi yaxınlığında Qızılburun adlı yerdə aşkar olunmuşdur. Abidə coğrafi cəhətdən əlverişli mövqedə, Araz çayının sol sahilində Zəngəzur dağ silsiləsinin Araz vadisinə enən burnunda salınmışdır. Onun yerləşdiyi sahədə torpaq və qayalar qırmızı rəngdədir. Burada Zəngəzur və Qaradağ silsilələri Araz vadisinə doğru uzanaraq dar boğaz əmələ gətirir. Yəqin elə buna görə bu ərazi yerli əhali tərəfindən Qızılburun, yaxud Qızılboğaz adlanır.

Yaşayış yeri 1926-cı ildə A.A.Miller tərəfindən qeydə alınmışdır. Vaxtilə yaşayış yerinin ərazisində orta əsr tikintilərinin salınması ilə əlaqədar abidənin xeyli hissəsi dağıdılmışdır. Salamat qalan hissəsinin sahəsi 2 hektardır.

1969-cu ildə yaşayış yerində O.H.Həbibullayev və V.H.Əliyev tərəfindən 100 kvadratmetr sahədə arxeoloji tədqiqat işləri aparılmışdır. Yaşayış yerində mədəni təbəqənin qalınlığı 2 metrdir. Buradan tikinti qalıqları, keramika, xırda buynuzlu heyvan sümükləri aşkar edilmişdir. Müəyyən edilmişdir ki, təbəqə kül qarışıq torpaq laylarından ibarət olub, maddi-mədəniyyət qalıqları ilə zəngindir. Tədqiqat zamanı həmçinin, gildən hazırlanmış ocaq qalıqları aşkar edilmişdir. Tikintilər olduqca pis qalmışdır. Onlar əsasən dördkünc formalı olub, çay daşı, yaxud qaya parçalarından inşa edilmişdir. Bərkidici maddə kimi gil məhlulundan istifadə olunmuşdur.

Arxeoloji materialların bir qismi daş məmulatıdır. Onların içərisində çaxmaqdaşından düzəldilmiş oraq dişləri, obsidian ox ucluqları, asmalar, toppuzlar, tufdan hazırlanmış dən daşları və sürtkəclər vardır.

Keramika əsasən çəhrayı rəngdə, bəzən isə boz və qara rəngdə bişirilmişdir. Onlar küpə, kasa, çaynik, vaza və s. qabların qırıqlarından ibarətdir. Sadə qablar dalğalı və düz xətlərlə cızma ornamentlə naxışlanmışdır. Keramikanın əsas hissəsi boyalı qablardan ibarət olub, üzəri qırmızı anqobla örtülərək bəzən qara, bəzən isə qara və qırmızı rənglərlə naxışlanmışdır. Naxışlar əsasən həndəsi motivdə olub, dalğalı və düz xətlərdən torlu üçbucaq romblardan ibarətdir.

Qızılburun yaşayış yerinin maraqlı tapıntılarından biri də gildən hazırlanmış kişi fiqurudur. O bir neçə hissəyə qırılmışdır. Fiqurun başında şiş papaq, əynində arxalıq vardır. Üzəri qırmızı və qara rənglərlə naxışlanmışdır. Arxeoloji materiallar əsasında Qızılburun yaşayış yerini e.ə. II-I minilliyə aid etmək olar.

**5. Qızılburun nekropolu** da Tunc və Ilk Dəmir dövrlərini əhatə edir. Nekropol eyniadlı yaşayış yerinin yaxınlığında yerləşir. Onun bir hissəsi orta əsr məbədi tikilərkən, digər hissəsi isə Naxçıvan-Culfa dəmiryol xətti ilə əlaqədar dağıdılmışdır. Qəbiristanlıq şərqdə dağ silsiləsi, şimalda dərin xəndək, qərbdə yaşayış məskəni və Araz çayı ilə məhdudlaşır. Qəbirlərin bir qismi yamacda yerləşdiyindən üzə çıxaraq dağıntıya məruz qalmışdır.




Şəkil 33. Qızılburun nekropolu. Polixrom boyalı çölməklər

Nekropol 1895-ci ildə təsadüfən aşkar olunub. Açılmış qəbirlərin içərisindən qızıl əşyaların tapılması onların dağılmasına səbəb olmuşdur. Lakin hadisə yerinə gələn sərhəd-gözətçi məntəqəsinin rəisi N.V.Fyodorov dağıntının qarşısını almış, aşkar edilmiş materialların bir qismini toplayaraq Moskvaya, İmperator Arxeoloji Komissiyasına göndərmişdir. 1896-cı ildə N.V.Fyodorov arxeoloji komissiyanın göstərişi ilə nekropolda qızıntı işləri aparmış, materialları

Moskva Dövlət Tarix Muzeyinə göndərmişdir. 1909-cu ildə həmin materialları A.A.Spisın nəşr etdirmişdir.



Şəkil 34. Qızılburun nekropolu. Polixrom boyalı küpə

1926-cı ildə Qızılburunda İ.İ.Meşşaninovun rəhbərliyi ilə arxeoloji tədqiqat aparılaraq yeddi daş qutu qəbir öyrənilmişdir.

1926-cı ilin payızında Qızılburun nekropolunda A.A. Millerin rəhbərliyi ilə aparılan qazıntılar zamanı iki daş qutu qəbir öyrənilmişdir. Qəbirlərdən birinin üzərində insan təsviri olan daş piltə aşkar olunmuşdur. Onun uzunluğu 2,3 m, eni 0,75 m-dir. İnsan təsviri sxematik olub, qazma üsulu ilə çəkilmişdir .

İ.İ.Meşşaninovun və A.A.Millerin rəhbərliyi ilə aparılan qazıntılar zamanı Qızılburundan aşkar edilən materialların bir qismi Azərbaycan Tarix Muzeyində, bir qismi isə Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır.

Arxeoloji materiallar gil qab, tuncdan hazırlanmış silah, bəzək əşyaları digər əşyalardan ibarətdir. Qızılburun nekropolundan aşkar olunmuş arxeoloji materiallar tədqiqatçılar tərəfindən üç dövrə bölünmüşdür. B.A.Kuftin N.V.Fyodorovun materiallarını Qızılburun-1, İ.İ.Meşşaninovun tapıntılarını Qızılburun-1bis, A.A.Millerin tapıntılarını isə Qızılburun-2 quruplarına ayırmışdır. B.B.Piotrovski B.A.Kuftinin bölgüsünə uyğun olaraq həmin

materialları birinci, ikinci və üçüncü tip adlandırmışdır. O.H.Həbibullayev I Kültəpə yaşayış yerinin stratiqrafiyasına əsaslanaraq Azərbaycanın Tunc dövrü abidələrindən aşkar olunmuş boyalı qabları dörd tipə bölmüşdür. Bu zaman N.V. Fyodorov tapıntılarının bir qismi ikinci tipə, N.V. Fyodorov kolleksiyasının bir hissəsi İ.İ.Meşşaninovun materialları ilə birlikdə üçüncü tipə aid edilmişdir. Bu dövrləşdirmə müəyyən xronoloji dəyişikliklərlə edilmişdir. Qızılburun materiallarının xronologiyası ilə bağlı tədqiqatçılar arasında müəyyən fikir ayrılığının olmasına baxmayaraq, onların hamısı bu maddi-mədəniyyət nümunələrinin üç dövrə bölündüyünü qəbul etmişdir.



Şəkil 35. Qızılburun xəncərləri

Birinci dövrə aid Qızılburun keramikası küpə və kasa tipli qablardan ibarətdir. Küpələr qısa silindrik boğazlı, qabarıq gövdəli, yastı oturacaqlıdır. Küpələrin biri yüksək zövqlə naxışlanması ilə fərqlənir. Küpənin xarici səthi qırmızı boya ilə örtülərək yaxşı cilalanmış, gövdəsinin mərkəzi hissəsi ağ anqob üzərindən torlu üçbucaqlarla naxışlanmışdır. Bir yerdə torlu üçbucaqların arasında rəqs edən sxematik insan təsvirləri, bir yerdə isə xüsusi kompozisiyada qurulmuş həndəsi ornamentlər verilmişdir. Naxışlar aşağıdan və yuxarıdan qara

rənglə çəkilmiş üfüqi zolaqlarla məhdudlaşdırılmışdır. Bu tip küpələrin bəzisi nisbətən sadə naxışlanmışdır.

Birinci dövrə həmçinin N.V.Fyodorovun tapıntıları içərisində olan yastı tiyəli tunc xəncərlər, Ön Asiya tipli xəncər, daş toppuz, obsidian ox ucluqları, eynəkşəkilli tunc asmalar aiddir.

Küpələrin boğazı qısa olub, ağzının kənarı yanlara doğru genişlənir. Onlardan birinin gövdəsinin mərkəzi hissəsi bucaqların arasına alınmış torlu üçbucaqlarla naxışlanmışdır. Bucaqların arasında bir yerdə ilan təsviri vardır. Naxışlar aşağıdan və yuxarıdan qara rənglə çəkilmiş üfüqi zolaqlarla məhdudlaşdırılmışdır. Küpələrin bəzisi qara, bəzisi isə qara və qırmızı rənglərlə çəkilmiş torlu üçbucaqlarla naxışlanmışdır.

N.V.Fyodorovun tapıntıları içərisində olan yanları içəriyə doğru batıq kasalar da bu dövrə aiddir. Bu kasalardan birinin üzəri qara rənglə çəkilmiş torlu üçbucaqlarla naxışlanmışdır.

Üçüncü dövrə İ.İ.Meşşaninovun açdığı bir qəbir və A.A.Miller tərəfindən tədqiq edilən iki daş qutu qəbir aiddir. Aşkar olunmuş materiallar boz, qara və çəhrayı rəngli gil məmulatlarından, tunc və dəmir əşyalardan, müxtəlif minerallardan hazırlanmış muncuqlardan ibarətdir. Boyalı qabların bir qismi başdan-başa qırmızı boya ilə örtülmüş, bəziləri enli xətlərlə naxışlanmışdır. Onlar küpə, çaynik və kasalardan ibarətdir. Qabların bəzisində Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan göbələkvari çıxıntılara təsadüf edilir. Aşkar edilmiş arxeoloji materialların təhlilinə əsasən, Qızılburun nekropolu e.ə. II-I minilliklərə aid edilir. Buna uyğun olaraq Qızılburunun birinci dövrə aid materiallarını e.ə. 1900-1700-cü illərə, ikinci dövrə aid materiallarını e.ə. 1600-1400-cü illərə, üçüncü dövrə aid materiallarını isə e.ə. 1300-1000-ci illərə aid etmək olar.

**6. Nəzərəbad nekropolu** kəndin şərqində, Cəhriçayın sağ sahilində yerləşir. Bəzi qəbirlərin ətrafı dördkünc formada yastı daşlarla əhatə olunmuşdur. Qəbirlərin bir çoxunun yerüstü əlamətləri tamamilə itmişdir. Təsərrüfat işləri görülərkən dağıdılan qəbirlərdən maddi-mədəniyyət nümunəsi aşkar olunmamışdır. Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, dəfnlər müsəlman adəti ilə aparılmışdır. Nekropolu XII-XVII əsrlərə aid etmək olar.

**7. Vayxır qalası** eyniadlı kəndin yaxınlığında, Naxçıvançayın sol sahilində yerləşir. Yaxınlıqda olan dağ silsiləsinin Naxçıvançay vadisində yaratdığı dar keçid el arasında Qızılboğaz adlanır. Qala dağ silsiləsinin Naxçıvançaya enən üçbucaq formalı çıxıntısı üzərində yerləşir. Qala hər tərəfdən dərin yarğan, yaxud sıldırım qayalarla məhdudlaşır və təbii mühafizəyə malikdir. Buna baxmayaraq, qala əlavə müdafiə istehkamı ilə də möhkəmləndirilmişdir. Müdafiə divarı həm dördkünc bürclərə, həm də bucaqşəkilli çıxıntılara malikdir. Divarlar yüngülcə yonulmuş iri qaya parçalarından hörülərək gil məhlulu ilə bərkidilmişdir. Onun sahəsi 2 hektardır.

Qala yalnız kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Arxitektor

D.A.Axundov Vayxır qalasının bərpa layihəsini hazırlamışdır Tədqiqatçıların fikrincə, qala e.ə. II minillikdə inşa edilmişdir.

**8. Köhnə Vayxır yaşayış yeri** Orta əsrlərə aiddir. Abidə 1961-ci ildə O.H.Həbibullayev tərəfindən qeydə alınmışdır. Yaşayış yeri yamacda yerləşdiyindən mədəni təbəqə güclü aşınmaya məruz qalaraq dağılmışdır. Bəzi yerlərdə daşdan, yaxud çiy kərpicdən hörülmüş tikinti qalıqları saxlanmışdır. Aşınma zamanı yaşayış yerində əmələ gəlmiş yarğanlarda təbəqənin qalınlığı 1,5 metrdir.

Yerüstü materiallar əsasən çəhrayı rəngdə bişirilmiş sadə və şirli qabların qırıqlarından ibarətdir. Onların bir qismi iri qum qatılmış gildən, bir qismi isə narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Qablar hər iki tərəfdən yaxşı sığallanmışdır. Sadə qabların biri hündürayaqlı olub, oturacağı yastı və diskşəkillidir. Gövdəsinin yuxarı hissəsi kasa formalı olub, ağzının kənarı bir yerdə nov şəkilində xaricə doğru çıxıntılıdır. Novun üzəri hislə örtülmüşdür. Novun əks tərəfində lentşəkilli qulpun qırığı saxlanmışdır. Şirli qablar əsasən kasa və nimçə tipli qabların ağız və gövdə hissəsinin qırıqları ilə təmsil olunmuşdur. Kasa tipli qabların birinin tərkibinəələnmiş qum qatılmış, keyfiyyətli bişirilmişdir. Gili çəhrayı rəngdədir. Oturacağı diskşəkilli olub, azacıq içəriyə doğru batıqdır. Həm oturacağında, həm də gövdəsində dulus çarxında fırlanma nəticəsində konsentrik izlər saxlanmışdır. Ağzının kənarı düz, ağzı bir qədər içəriyə doğru yastılanmış və dəyirmilənmişdir. Gövdəsi konusvaridir. İçərisi yarımşəfaf şirlə örtülmüşdür. Şir bəzən ağ, bəzən isə qabın öz rəngindədir. Belə qablar orta əsr şirli qablarının ilk nümunələrindən olub, əsasən IX-X əsrlərdə meydana gəlmişdir.

Şirli qablar həndəsi və nəbati ornamentlə yüksək zövqlə naxışlanmışdır. Naxışlar şüaşəkilli xətlərdən, gül ləçəklərindən və s. ibarətdir. Naxışlar yaşıl, göy, mavi rənglərlə çəkilmişdir. Qabların bəzisinin üzəri tamamilə yaşıl, bəzən isə göy şirlə örtülmüşdür. Köhnə Vayxır yaşayış yerindən aşkar edilmiş tapıntılar Naxçıvanın Orta əsr keramikası üçün xarakterikdir. Yaşayış yerindən aşkar edilmiş materialları IX-XVII əsrlərə aid etmək olar.

**9. Çalxanqala** Payız kəndi yaxınlığında, Cəhriçayın sağ sahilində yerləşir. Bu abidə xalq arasında Oğlanqala da adlanır. Çalxan dağının üzərində yerləşdiyinə görə Çalxanqala adını almışdır. Abidə 1969-cu ildə O.H.Həbibullayev və V.H.Əliyev tərəfindən qeydə alınmış və burada kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Qala təbii cəhətdən əlverişli mövqedə yerləşdiyindən buradan Cəhriçay və Naxçıvançay vadisini bütövlükdə nəzərdə saxlamaq mümkündür. Qalanın yerləşdiyi Çalxan dağı hər tərəfdən sıldırım qayalarla əhatələnmişdir. Qalanın əsas giriş yolu cənub tərəfdə olub Cəhriçayın sağ sahilindən başlanır. Bu hissədən qalaya qalxarkən yol boyu qayaaltı sığınaqlara təsadüf olunur. Qayaaltı sığınaqlar yaşayış yeri kimi istifadə olunduğundan burada xeyli maddi-mədəniyyət qalıqları – kül yığınları, daş alətlərin parçaları, gil qab qırıqları qalmışdır. Ola bilsin ki, Çalxan dağında qədim insanların məskənləşməsi bu sığınacaqlardan başlanmışdır.

Qala divarı yüngülcə yonulmuş iri qaya parçalarından inşa olunmuşdur. Onların bəzisi bir neçə ton ağırlığındadır. Divar yerin relyefinə uyğun olaraq bucaqşəkilli çıxıntılara malikdir. Qala divarının salamat qalmış hissəsinin uzunluğu 4,5 m, eni 2,7 m, hündürlüyü 2,5 m-dir. Qalaya giriş qərb tərəfdəndir. Onun eni 2,7 m-dir. Giriş qapısı üstdən iri daş piltələrlə örtülmüşdür. Aparılan tədqiqatlar zamanı düzbucaqlı planda tikilmiş yaşayış binalarının qalıqları aşkar edilmişdir.

Qalanın içərisində olan təbii qayaların üzərində qazılmış daş hovuzlar yağış suyunun yığılması və sakinlərin su ilə təmin olunmasında mühüm rol oynamışdır. Düşmən basqınları zamanı qalaya xeyli adam yığıldığından bu hovuzlar bütün əhalini su ilə təmin edə bilməzdi. Odur ki, qalanın yaxınlığından axan Cəhriçaya enmək üçün yeraltı yol düzəldilmişdir. Şübhəsiz ki, yeraltı yollardan həm də gizli çaparların göndərilməsi və düşmənə qəfil zərbələr vurmaq üçün də istifadə olunmuşdur.

Çalxanqala öz tikinti texnikasına görə Naxçıvan ərazisində olan Oğlanqala və Qazançı qalası ilə oxşardır. Belə tikintilər həmçinin Zaqafqaziya və Yaxın Şərq ölkələrində də mövcud olmuşdur. Lakin Çalxanqala öz müdafiə sisteminə və tikinti texnikasına görə bu qalaların heç birini təkrar etmir. Nəhəng qaya parçalarından inşa olunmuş bu cür qalalar arxeoloji ədəbiyyatda siklop tikintiləri kimi xarakterizə olunmuşdur. Tədqiqatçıların fikrincə, qala divarlarının üst tərəfi çiy kərpicdən inşa olunmuşdur.

Çalxanqala şübhəsiz ki, Cəhriçay vadisində yaşayan yerli əhalinin müdafiə olunması məqsədilə inşa edilmişdir. Xarici düşmənlərin bu əraziyə hücumları e.ə. II minilliyin ikinci yarısı, I minilliyin başlanğıcında xüsusilə güclənmişdi. Qonşuluqda möhkəmlənən Assuriya və Urartu kimi təcavüzkar dövlətlər Naxçıvan ərazisi üçün böyük təhlükə yaradırdı. Qalanın içərisi zəngin bitki örtüyünə malik olduğundan, burada nəinki insanların, həmçinin heyvan sürülərinin də mühafizə olunması üçün imkan olmuşdur. Təəssüflə qeyd etmək lazımdır ki, vaxtilə buradan toplanmış maddi-mədəniyyət nümunələri nəşr edilməmiş və hazırda harada saxlanması da məlum deyil. Tədqiqatçılar Çalxanqalanın inşa olunma tarixini e.ə. II minilliyə aid edirlər. Şübhəsiz ki, Çalxanqaladan e.ə. II-I minilliklər boyu müdafiə istehkamı kimi istifadə edilmişdir.

**10. Qədim Duzdağ mədəni** Böyükdüz kəndi yaxınlığında Naxçıvan şəhərindən 12 km aralıda yerləşir. XIX əsrin 70 illərində Duzdağda işləmiş dağ-mədən mühəndisi Koşkul və Bayer adlı şəxslər tərəfindən bir neçə ədəd daş balta tapmışdır. Daş çəkiclərin bir qismi 1870-ci ildə abidələrlə maraqlanan Naxçıvan şəhər məktəbinin müfəttişi K.A.Nikitin tərəfindən toplanmışdır. O, bu alətlərdən duz çıxarılması üçün istifadə edildiyini qeyd etmişdir. 1879-cu ildə İ.S. Polyakov arxeoloji kəşfiyyat işləri zamanı duz mədənlərinin yaxınlığından xeyli daş çəkic tapmışdır. Tədqiqatçının fikrincə, onlardan daha qədim dövrdə duz çıxarmaq üçün istifadə olunmuşdur. 1895-ci ildə Qafqazın arxeologiyası və etnoqrafiyası

ilə məşğul olan P.N.Nadejdin tapıntılarla tanış olduqdan sonra onların duz çıxarmaq üçün istifadə olduğunu qeyd etmişdir. Həmin daş çəkiclər M.M.Hüseynov tərəfindən nəşr edilmişdir. Qədim duz mədənləri 1967-ci ildə uçqun nəticəsində təsadüfən aşkar olunmuşdur. Dağıntı yerindən xeyli daş çəkiclər aşkar olunmuşdur. Onların biri iri həcmli olub, 30 kq ağırlığındadır. Daş çəkiclərin bir qismi Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Uçqun nəticəsində qədim mədənlərin girişi tutulmuşdur. 1976-cı ildə müasir tuneldə aparılan partlayış zamanı qədim mədənin yolu açılmışdır. Yol 70 m uzunluğunda tuneldən ibarət olub, eni bəzi yerlərdə 6 m, bəzi yerlərdə isə 20 m-dir. Tunelin hündürlüyü 10 m-dən artıqdır. Tunel bir-birini əvəz edən 10 zaldan ibarətdir. Onların birində duzdan yonulmuş beş sütun vardır. Mədəndə aparılan tədqiqat zamanı ocaq yerləri, divarlarda isə his izləri aşkar edilmişdir. Bəzi yerlərdə duz laylarının arasına vurulmuş ağac pazlar, döşəmədə gil qab qırıqları, maral buynuzunun qalıqları qeydə alınmışdır. Mədənin divarında bir yerdə şaquli xətlərdən ibarət işarələrə təsadüf edilmişdir. Tədqiqatçıların fikrincə, bu qədim say sistemi ilə bağlı olmuşdur. Şübhəsiz ki, həmin işarələrlə çıxarılan duzun miqdarı qeyd edilmişdir.



Şəkil 36. Qədim mədənlərdə işlədilən əmək alətləri.
1,5, 11-14 - Eneolit, 2-4, 6-10, 15-19 – Erkən Tunc dövrü

2006-2008ci illərdə aparılan araşdırmalar zamanı Duzdağda Eneolit və Erkən Tunc, Dəmir dövrünə və Orta əsrlərə aid keramika məmulatı, daş çəkiclər

tapılmışdır.Mədənlərdən aşkar edilmiş maddi-mədəniyyət qalıqları, xüsusilə daş çəkiclər əsasında demək olar ki, bu duz yataqlarından e.ə. VI-II minilliklərdə geniş istifadə edilmişdir. O həmçinin mübadilə vasitəsi olmuş, ticarət məqsədilə Şərq ölkələrinə aparılmışdır.




Şəkil 37. Qaraçuq nekropolunun monoxrom boyalı qabları

**11. I Qarçuq nekropolu** Tunc dövrünün abidəsidir. Nekropol 1985-ci ildə Qaraçuq kəndi yaxınlığında təsadüfən aşkar edilmişdir. Nekropolun yerləşdiyi ərazi Araz çayı daşarkən ada şəklində suyun ortasında qalır. Burada qumsal təpədə yerləşən qəbirlərin bir hissəsi yuyulub dağılmış, aşkar olunmuş materiallar Naxçıvan Elm Mərkəzinin hidro-bioloji ekspedisiyasının üzvləri tərəfindən toplanmışdır. Bu materialların əksəriyyəti çəhrayı rəngdə, keyfiyyətli bişirilmiş, boyalı, əsasən kasa, badya və küpə tipli qablardan ibarətdir. Kasalar gen ağızlı, qabarıq gövdəli, yastı oturacaqlıdır. Gövdəsi ağız hissədə bir qədər içəri yığılmışdır. Üzəri qırmızı anqobla örtülərək yaxşı cilalanmış, ağzının kənarı bir-birinin içərisində yerləşən yarımdairələrlə naxışlanmışdır .Formaca və naxışlanmasına görə bu kasaların oxşarları Çalxanqaladan, Şortəpədən, Kərki-dən və b. abidələrdən məlumdur.

Qaraçuq nekropolunun arxeoloji materialları Orta Tunc dövrünün ilk mərhələsi üçün xarakterikdir. Bu nekropolda aşkar edilmiş boyalı keramika Azərbaycan, o cümlədən Naxçıvan materialları içərisində özünə geniş analogiya

tapır. Arxeoloji materialların tipoloji analizi nekropolu e.ə. 2100-1900-cü illərə aid etməyə imkan verir.

**12. Quyuludağ qalası** Tunc, Antik və Orta əsrlər dövrünün abidəsidir. Abidə Məzrə kəndindən şimalda, hər tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağın üzərində yerləşir. Qalanın əsas girişi şimal tərəfdən olmuşdur. O, qayalardan və sərt yamaclardan keçən dar cığırdan ibarətdir. Qalanın üst tərəfi əsasən qayalıq, yamaclar isə enişli olduğundan burada mədəni təbəqə olduqca az qalmışdır. Abidənin təbii cəhətdən zəif müdafiə olunan şimal-şərq tərəfi iri qaya parçalarından hörülmüş divarla möhkəmləndirilmişdir. Bu müdafiə divarı tamamilə uçub dağılmış, onun yalnız bəzi yerlərdə özülü salamat qalmışdır. Divar qalıqları aydın izlənilir və qalanın baş tərəfini kəmər şəklində əhatə edir. Kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində buradan Orta əsrlərə aid materiallar toplanmışdır. 1984-cü ildə abidə mədəni təbəqənin saxlanmasını müəyyən etmək məqsədilə 2 x 2 m ölçüdə kəşfiyyat qazıntısı aparılmışdır. Mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarət olub, 20-50 sm qalınlığında saxlanmışdı. Qazıntı zamanı çəhrayı və boz rəngli qab qırıqları əldə edilmişdi. Boz rəngli küpənin qırığı narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş, xarici səthi yüngülcə cilalanmışdı. Onun ağzının kənarı xaricə qatlanaraq dəyirmiləş-dirilmişdir. Boğazı dar və konusvari idi. Çəhrayı rəngli keramika forma verməyən qırıqlardan ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş, xarici səthi cilalanmışdır.

Yerüstü materiallar çəhrayı və boz rəngli gil qablardan, o cümlədən şirli qablardan ibarətdir. Yerüstü materialları iki qrupa bölmək olar. Birinci qrupa daxil olan qabların qırıqları Antik dövrə aiddir. Onlar əsasən kasa və küpə tipli qabların qırıqlarından ibarətdir. Kasalar iki tipə ayrılır. Birinci tip kasaların gövdəsi silindrik-konusvari formada olub, ağzının kənarı düzdür. Hər iki üzdən qırmızı anqobla örtülmüş, xarici səthi cilalanmışdır. İkinci tip kasaların gövdəsi konusvari olub, ağzının kənarı xaricdən köbəlidir. Ağzının kənarı içəridən yastılanaraq qapaq qoymaq üçün əlverişli formaya salınmışdır. Kasa hər iki üzdən qırmızı boya ilə örtülmüşdür. Küpə tipli qabların yalnız gövdə hissəsinin qırıqları saxlanmışdır. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş, xaricdən qırmızı boya ilə örtülərək cilalanmışdır. Bəzi qab qırıqlarının üzərində lentşəkilli, ortada batıq qulpun qırığı qalmışdır.

Orta əsrlərə aid keramika əsasən çəhrayı rəngdə bişirilmişdir. Onları iki qrupa bölmək olar. Birinci qrupa sadə qabların qırıqları daxildir. Onlar yaxşı bişirilmiş, xaricdən sığallanmışdır. Küpələrin bir qrupu dar boğazlı olub, ağzının kənarı xaricə qatlanmışdır. Bəzisinin üzərində boğazı ilə gövdəsini birləşdirən lentşəkilli qulpun qırığı vardır.

Şirli keramika kasa tipli qabların ağız və oturacaq hissəsinin qırıqlarından ibarətdir. Onların ağzının kənarı düz, bəzisi isə içəriyə və xaricə doğru çıxıntılıdır. Qabların oturacağı diskşəkilli olub, içəriyə doğru batıqdır. Kasaların üzəri göy, yaşıl, ağ, mavi rənglərlə həndəsi və nəbati ornamentlə naxışlanmışdır.




Şəkil 38. Quyuludağ qalasının Orta Tunc dövrü keramikası

Qalanın şərq tərəfində qayada çapılmış kiçik meydançada iki quyu qazılmışdır. Quyuların biri yağış sularının axması nəticəsində dolmuşdur. İkinci quyunun bir hissəsi saxlanıb. O qayanın üzərində bir qədər meyilli qazılmış yarımdairəvi şaxtadan ibarətdir. Aşağı tərəfində enmək üçün pillələr düzəldilib. Quyu üç hissədən ibarətdir. Birinci və ikinci hissə bir qədər maili olub, pilləlidir. Üçüncü hissə isə şaquli istiqamətdə qazılmış 10 m dərinliyində quyudan ibarətdir. İçərisi torpaqla dolduğundan axıradək getmək mümkün olmur. Quyuların qazıldığı istiqamətdə, Quyuludağın aşağısında şirin sulu bulaq vardır. Ehtimal ki, quyular su üçün qazılır.

Qalanın cənub tərəfində aparılan tədqiqatlar zamanı Orta Tunc lövrünə aid boyalı və boz rəngli keramika nümunələri aşkar olunmuşdur. Aşkar olunmuş arxeoloji materiallar əsasında demək olar ki, Quyuludağ qalası e.ə. III minillikdə salınmış və orta əsrlərədək bu qaladan istifadə edilmişdir.

**13. Şıxmahmud nekropolu** Antik dövrə aiddir. Nekropol 1989-cu ildə təsərrüfat işləri görülərkən təsadüfən aşkar edilmişdir. Nekropol demək olar ki, tamamilə dağıdılmışdır. Qazılmış yarğanda kül yığıntıları, bəzən gil qab qırıqlarına təsadüf edilirdi. Yarğanda olan qəbirlərdən biri öyrənilmişdir. Qəbir torpaqda qazılmış dördkünc formalı çaladan ibarət idi. Skeletin baş tərəfi cənuba tərəf olmaqla, şimal-cənub istiqamətində yerləşmişdi. O, sağ böyrü üstə bükülü vəziyyətdə idi. Tədqiqat zamanı skeletin boyun sümükləri yaxınlığında 78 ədəd şüşə muncuq aşkar edildi. Onlar tünd mavi rəngdə olub, üzəri diş-diş edilmiş, ortasında kiçik dairəvi deşik açılmışdı. Muncuqlardan əlavə bu qəbirdən heç bir maddi-mədəniyyət qalığı aşkar edilmədi.

Şıxmahmud nekropolunda təsərrüfat işləri zamanı dağıdılmış qəbirlərdən bəzisinin materialları toplanaraq Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Onlar dörd ədəd şüşə flakondan ibarətdir. Şüşə qablar kiçik həcmli olub, çəhrayı, göy və yaşıl rəngdədir. Onların divarı olduqca nazikdir. Bəzisinin boğazı ilə gövdəsini birləşdirən lentşəkilli, ortada batıq qulpu vardır. Aşkar edilmiş şüşə qablar Antik dövrün son mərhələsi üçün xarakterikdir. Vaxtilə belə qablar Böyükdüzdən və Naxçıvan şəhərindən aşkar edilmişdir. Tapıntılara əsasən Şıxmahmud nekropolunu I-III əsrlərə aid etmək olar.

**14. Yuxarı Uzunoba nekropolu** Antik dövrün abidəsidir. Nekropol 1986-cı ildə aşkar edilmişdir. O, Yuxarı Uzunoba kəndindən şimalda, Naxçıvançayın sağ sahilində yerləşir. Dağıntı nəticəsində nekropolda olan küp qəbirlərin biri aşkar edilmişdir. Küp qəbir torpağın təzyiqindən qırılmışdı. Nekropolun bir hissəsi çayın yatağına düşdüyündən, buradakı qəbirlərin skeletləri pis qalmış və çürümüşdü. Küp qəbrin içərisindən insan skeletinin qalıqları və xırdabuynuzlu heyvan sümükləri aşkar olunmuşdur. Küp qəbirin ətrafından bir ədəd küpə tipli qab aşkar edilmişdir. Qab narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş, xarici səthi yüngülcə cilalanmışdır. Ağzının və gövdəsinin bir hissəsi hislənmişdir. Yuxarı Uzunoba nekropolunu aşkar edilmiş keramika nümunələrinə əsasən e.ə. III-I əsrlərə aid etmək olar.

**15. Meydantəpə yaşayış yeri** Nəzərabad kəndindən şimalda, Naxçıvan-Şahbuz şose yolunun üstündə yerləşir. Hazırda yaşayış yerinin ortasından yol keçdiyindən iki hissəyə bölünmüşdür. Yaşayış yerinin böyük bir hissəsi tikinti işləri görülərkən dağıdılmışdır. Onun mərkəzi hissəsi alçaq konusvari təpə formasındadır. Asfalt yol çəkilərkən həmin təpə iki hissəyə bölünmüş, 2 m qalınlığında mədəni təbəqə aşkar edilmişdir. Bəzi yerlərdə mədəni təbəqənin qalınlığı 4 m-dir. Aşkar olunmuş materiallar e.ə I minillik üçün xarakterikdir. Yaşayış yerində Ə.H.Bədəlov tərəfindən tədqiqatlar aparılmış, daş təməl üzərində qurulmuş binaların qalıqları aşkar edilmişdir. Yaşayış yerində həmçinin Antik dövrə aid boyalı keramika aşkar olunmuşdur.

Dəmir dövrünə aid materiallar çəhrayı və boz rəngdə bişirilmiş gil qab qırıqlarından ibarətdir. Boz rəngli qablar əsasən çölmək qırıqları ilə təmsil olunmuşdur. Onların gövdəsi qabarıq, ağzının kənarı xaricə qatlanaraq dəyirmiləşdirilmiş, xarici səthi yaxşı hamarlanmış formadadır. Bəzi qab qırıqlarının üzərində ağzının kənarından gövdəsinin yuxarı hissəsinə birləşən lentşəkilli qulplar vardır.

Çəhrayı rəngli gil məmulatı küpə və kasa tipli qabların qırıqlarından ibarətdir. Küpələr gen ağızlı, qısa və silindrik boğazlı olub, gövdəsi qabarıqdır. Ağzının kənarı xaricə qatlanaraq dəyirmilənmiş, xarici səthi yaxşı sığallanaraq qırmızı anqobla örtülmüşdür.

Antik dövrə aid qabların bir qismi sadədir. Kasaların gövdəsi qabarıq, ağzının kənarı dəyirmidir. Onlar qırmızı boya ilə örtülərək cilalanmışdır. Gövdəsində dulus çarxında fırlanma nəticəsində konsentrik izlər saxlanmışdır. Keramika məmulatının bir qismi forma verməyən qırıqlardan ibarətdir. Onların üzəri ağ anqobla örtülərək qırmızı rənglə çəkilmiş paralel xətlərlə naxışlanmışdır. Ə.Bədəlovun rəhbərliy ilə aparılan qazıntılar zamanı yaşayış yerində dördkünc formalı binalar və xeyli maddi-mədəniyyət nümunəsi aşkar olunmuşdur. Aşkar edilmiş arxeoloji materiallara əsasən demək olar ki, Meydantəpədə həyat e.ə. I minilliyin əvvəllərindən eramızın ilk əsrlərinədək davam etmişdir. Yaşayış yerinin ərazisindən Antik dövrə aid küp qəbirlər də aşkar edilmişdir.

**16. Sirab mədənləri** eyniadlı mis yatağında yerləşir. Burada qədim mədənin qalıqlarına iki yerdə təsadüf edilmişdir. Onlardan biri Xal-Xaldan Quyuludağa doğru uzanan torpaq yolun sol tərəfində yerləşir. Tunel tipli oval çaladan ibarət, eni 1,55 m, dərinliyi 2 m, hündürlüyü 2,3 metr olan qədim mədənin divarlarında filiz qalıqlarına, küt alətlə vurulmuş zərbə izlərinə təsadüf edilir. Onun ətrafında filizin ilk saflaşdırılması zamanı toplanmış süxur qalıqları vardır.

İkinci mədən ondan bir qədər aralıda yerləşir. Geoloji kəşfiyyat ekspedisiyasının apardığı tədqiqatlar zamanı dağıdılsa da kiçik bir hissəsi salamat qalmışdır. Sirab mədənlərinin ətrafından çəhrayı gil qab qırıqları aşkar edilmişdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir.

Aşkar edilmiş gil məmulatı çölmək, banka və kasa tipli qabların qırıqlarından ibarət olub, əsasən tunc və dəmir dövrü abidələri üçün xarakterikdir.



Şəkil 39. Sirab və Göy dağ mədənlərinin əmək alətləri

Sirab mədənlərinin I Kültəpə və II Kültəpə kimi qədim istehsal mərkəzlərinə yaxın olduğunu nəzərə alaraq demək olar ki, bu mədənlərdən e.ə. III-I minilliklərdə istifadə edilmişdir.



Şəkil 40. Vayxır mədənindən tapılmış əmək aləti

**17. Vayxır mədənləri** eyni adlı mis yatağında aşkar edilmişdir. Onlar bir-birinin yaxınlığında yerləşən oval çalalardan ibarətdir. Burada filizin saflaşdırılması nəticəsində əmələ gəlmiş süxur yığınlarının toplandığı sahədə kəşfiyyat qazıntısı (12 kvadratmetr sahədə) aparıldı. Aparılan tədqiqatlar nəticəsində daş çəkic və boz rəngli gil qabların qırıqları aşkar edildi. Aşkar olunmuş tapıntılar e.ə. II minilliyə aid abidələr üçün xarakterikdir. Qeyd etmək lazımdır ki, Vayxır mədənləri I və II Kültəpə kimi qədim yaşayış yerlərinin

yaxınlığında yerləşir. Şübhəsiz ki, Naxçıvanın qədim sakinləri bu mis yatağının oksidləşmiş filizindən uzun müddət istifadə etmişdir. Vayxır mədənlərini e.ə. II minilliyə aid etmək olar.

**18. Didivar nekropolu** Tunc dövrünə aid olub, eyni adlı kəndin şərqində, müasir qəbirstanlığın ərazisində yerləşir. Yerli əhalinin verdiyi məlumata görə, buradan qırmızı rəng üzərindən qara rənglə naxışlanmış boyalı qablar aşkar olunmuşdur. Nekropolda geniş tədqiqat işləri aparılmışdır. Şübhəsiz ki, bu nekropol yaxınlıqda yerləşən II Kültəpə yaşayış yerinə aiddir. Nekropolu təxminən e.ə. III-II minilliklərə aid etmək olar.

**19. Lizbirt yaşayış yeri** Orta əsrlərin abidəsidir. Abidə Cəhri-Buzqov yolunun sol tərəfində, Cəhriçayın sağ sahilində Lizbirt dərəsi adlanan ərazidə yerləşir.Yaşayış yerinin ərazisində dördkünc formalı binaların və su kanalının qalıqları qalmaqdadır. Burada kahaların yaxınlığındakı uzunsov təpənin üzərindən çəhrayı rəngli şirli və şirsiz qab qırıqları toplanmışdır. Bəzi yerlərdə dördkünc və dairəvi formalı daş düzümlərinə təsadüf olunur. Yaşayış yerinin yaxınlığında, bir neçə yerdə dağın altında qazılmış kahalar vardır. Kahalar dördkünc olub, yuxarısı tağşəkilli formada tamamlanır. Onların bəzisinin divarlarında his qalıqları, döşəmədə isə ocaq yerləri izlənilir. Şübhəsiz ki, Lizbirt yaşayış yeri və buradakı kahalar maldar tayfalar tərəfindən salınmışdır. Yaşayış yerinin keramika məmulatı forma verməyən qırıqlardan ibarətdir. Şirli qabların üzəri yaşıl, göy və firuzəyi rənglərlə nəbati və həndəsi ornamentlərlə naxışlanmışdır. Aşkar olunmuş materiallar Son Orta əsrlər üçün xarakterikdir. Arxeoloji materiallara və kahaların qazılma texnikasına əsasən, yaşayış yerini XVI-XX əsrlərə aid etmək olar.

**20. Xaraba şəhər yaşayış yeri** Orta əsrlərə aid olub, Qaraçuq kəndi yaxınlığında yerləşir. Sahəsi 40 hektara yaxındır. Araz su qovşağının tikintisi ilə əlaqədar olaraq 1969-cu ildə Azərbaycan EA Tarix İnstitutunun Araz Arxeoloji Ekspedisiyası yaşayış yerində tədqiqat apararaq xeyli maddi-mədəniyyət qalıqları aşkar etmişdir. Yaşayış binaları dördkünc formalıdır. Onlar daş təməl üzərində çiy kərpicdən inşa edilmişdir. Arxeoloji tədqiqatlar zamanı dəmirçixana, körük, Elxanilərə aid sikkələr, şüşə, dəri, ağac, sümük və parçadan hazırlanmış müxtəlif materiallar aşkar edilmişdir. Tapıntıların əksəriyyəti şirli və sadə qabların qırıqlarından ibarətdir. Onları küpə, kasa, qapaq və s. qablarla təmsil edilmişdir. Şirli qablar göy, yaşıl, qəhvəyi, mavi rənglə həndəsi və nəbati ornamentlə naxışlanmış, bəzən isə qeyri-şəffaf şirlə örtülmüşdür.

Aşkar olunmuş tapıntılara əsasən, yaşayış yerini XII-XVII əsrlərə aid etmək olar.

**21. Muncuqtəpə yaşayış yeri** Orta əsrləri əhatə edir. Bu abidə də Qaraçuq kəndi yaxınlığında yerləşir. Burada 1969-cu ildə Azərbaycan EA Tarix İnstitutunun Araz Arxeoloji Ekspedisiyası tədqiqat işləri apararaq tikinti qalıqları, dəmir əşyalar, şirli və şirsiz saxsı məmulatı aşkar etmişdir. Tapıntılar

inkişaf etmiş və Son Orta əsrlər üçün xarakterikdir. Materiallara əsasən, yaşayış yerini XII-XVII əsrlərə aid etmək olar.

**22. Astabad şəhəri** Orta əsrlərə aid olub, Babək qəsəbəsi yaxınlığında, Qızılburun adlı yerdə yerləşir. Yaşayış yerində 1969-cu ildə kəşfiyyat xarakterli tədqiqat aparılmışdır. Yaşayış yerinin qalıqları son vaxtlara qədər saxlanmışdır. Burada daş, çiy kərpic və möhrədən tikilmiş bina qalıqlarına təsadüf edilir. Bəzi binaların tikintisində bişmiş kərpicdən də istifadə edilmişdir. Araz su qovşağının tikintisindən sonra yaşayış yeri suyun altında qalmışdır. Yaşayış yerində yerüstü materiallar içərisində şirli saxsı məmulatı üstünlük təşkil edir. Onlar küpə, kasa, nimçə, çıraq və s. tipli qabların qırıqlarından ibarətdir. Qablar yaşıl, göy, mavi və firuzəyi rənglərlə yüksək zövqlə naxışlanmışdır.

Astabad şəhəri haqqında Orta əsr mənbələrində XIV əsrdən başlayaraq müəyyən məlumatlar verilmişdir. Şəhər hürufiliyin əsas mərkəzlərindən biri olmuşdur. Tədqiqatçıların fikrincə, hürufiliyin banisi F. Nəimi bu şəhərdə yaşamış və «Astabadi» təxəllüsü daşımışdır. Astabad şəhərindən aşkar edilmiş maddi-mədəniyyət qalıqları XII-XVII əsrlər üçün xarakterikdir. Şəhər XVI-XVII əsrlərdə feodal ara müharibələri nəticəsində dağıdılmışdır. Sonralar yaşayış yerində həyat davam etsə də, o öz əvvəlki əzəmətini bərpa edə bilməmişdir.

**23. II Qaraçuq nekropolu** Orta əsrlərə aid olub, eyniadlı kəndin yaxınlığında yerləşir. Nekropolun ərazisindən indi də istifadə edilməkdədir. Nekropol Araz su qovşağının tikintisi ilə əlaqədar su altında qalmış və hazırda dağılmışdır. Yerli əhalinin məlumatına görə, nekropolda sənduqə tipli və qoç daşlardan ibarət qəbirüstü abidələr olmuşdur. Başdaşıları əsasən yastı daş plitələrdən hazırlanaraq bəzilərinin baş tərəfi tağvari formada tamamlanmışdır. Bir neçəsinin üzərində ərəb qrafikası ilə kitabələr yazılmışdır. Nekropoldakı skeletlərin hamısı müsəlman adəti üzrə dəfn edilib. Nekropolu XII-XIX əsrlərə aid etmək olar.

**24. Abbasabad qalası** Babək qəsəbəsi yaxınlığında yerləşir. Qala 1809-1810-cu illərdə fransız hərbi mühəndislərinin layihəsi əsasında tikilmişdir. Abidə inşa olunarkən Astabad şəhərinin xarabalıqlarının bir hissəsi dağılmışdır. Qala beşbucaqlı tikilmiş, hər bucaqda üçbucaq formalı çıxıntılara malik olmuşdur. Onun ətrafı dərin xəndəklə əhatə olunmuşdur. Rus-İran müharibəsi zamanı (1826-1828) Abbasabad qalası bir müddət ruslara müqavimət göstərmişdir. 1827-ci ildə qala ruslar tərəfindən işğal olunaraq dağıdılmışdır. Araz su qovşağı tikildikdən sonra onun xarabalıqları su altında qalmışdır.

**25. Astabad nekropolu** eyniadlı yaşayış yerinin yaxınlığında yerləşir. Nekropolda skeletlər müsəlman adəti üzrə dəfn edilmişdir. Bəzi qəbirlərin üzərində sənduqə və daş qoç formasında qəbirüstü abidələr olmuşdur. Baş daşıların əksəriyyəti düşmüş və dağılmışdır. Saxlanmış başdaşılarına əsasən demək olar ki, onlar yastı daş plitələrdən ibarət olub, bəzən yuxarısı tağvari sonluqla tamamlanır. Müşahidələr göstərir ki, nekropolda dəfn XIX əsrədək davam etmişdir. Bəzi başdaşılarının üzərində ərəb qrafikası ilə kitabə vardır.

Araz su qovşağının tikintisi ilə əlaqədar nekropol suyun altında qalmış, qəbirlərin əksəriyyəti yuyulub dağılmışdır. Nekropol XII-XVII əsrlərə aiddir.

**26. Bulqan yaşayış yeri** Orta əsrləri özündə əks etdirir. Eyniadlı kəndin yaxınlığında yerləşir. Yaşayış yerində tikinti qalıqlarının bir qismi saxlanmışdır. Onlar dördkünc formalı binalardan ibarət olub, aşağıda daş çaylarından, üst hissədə isə çiy kərpicdən hörülmüşdür. Bəzi binaların divarları möhrədən olub, daş qarışıq torpaqla inşa edilmişdir. Yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş sadə və şirli qab qırıqlarından ibarətdir. Onlar dövrcə müxtəlifdir. Tədqiqat göstərir ki, Bulqan yaşayış yerində XII-XVIII əsrlərdə yaşayış olmuşdur.

**27. Bulqan nekropolu** da həmin ərazidə yerləşir. Burada sənduqə tipli bir neçə qəbirüstü abidəyə təsadüf edilmişdir. Qəbirlərin əksəriyyəti batmış və yerində dördkünc çalalar saxlanmışdır. Əksər qəbirlərin başdaşları düşmüşdür. Onların bəzisində yuxarısı tağvari formada tamamlanan başdaşıları olmuşdur. Nekropoldan müasir dövrədək Bulqan əhalisi tərəfindən istifadə edilmişdir. Onu XII-XIX əsrlərə aid etmək olar.

**28. Qoşa-Dizə nekropolu** Antik dövrə aiddir. O, eyniadlı kəndin yaxınlığında yerləşir. Vaxtilə buradan iki küp qəbir aşkar olunmuşdur. Skeletlər küpün eninə qoyulmuş, dizləri çənəsinə sıxılmış vəziyyətdə olmuşdur. Küp qəbirlərdən saxsı və şüşə qab qırıqları, dəmir bıçaq və s. əşyalar aşkar olunmuşdur. Arxeoloji materiallar I-III əsrlər üçün xarakterikdir.

**29. Yuxarı Lizbirt yaşayış yeri** Lizbirt kəndindən 2 km şimalda, çayın kənarında yerləşir. Yaşayış yerinə aid binalar çay boyunca, bir-birindən müəyyən qədər aralıda yerləşən qruplar halında salınmışdır. Yaşayış binaları tamamilə dağılmışdır. Onların yerində dördkünc formalı çalalar qalmışdır. Evlərin bünövrəsi iri qaya parçalarından inşa olunaraq gil məhlulu ilə bərkidilmişdir. Tədqiqat zamanı yaşayış yerinin ərazisindən Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

**30. Nəzərabad nekropolu** Orta əsrlərə aid olub, eyniadlı kəndin qərbində, Naxçıvan-Şahbuz şose yolunun sağ tərəfində yerləşir. Nekropol müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərin üzərində sənduqə tipli abidələr qoyulmuşdur. Onların üzərində kitabəyə təsadüf olunmur. Nekropolu təxminən XIV-XVII əsrlərə aid etmək olar.

**31. Qaradaş yaşayış yeri** Babək rayonunun Vayxır kəndindən şərqdə, Quyuludağ qalasının yaxınlığında yerləşir. Yaşayış yeri yaxınlıqda olan su kanalı boyunca şərqdən qərbə doğru uzanır. Onun yaxınlığında bulaq vardır. Hazırda yaşayış yerində uçub-tökülmüş möhrə binaların qalıqları qalmaqdadır. Bəzi binalar daşdan inşa edilmişdir. Mədəni təbəqə olduqca az yığılmışdır. Ehtimal ki, abidənin ərazisindən maldar tayfalar müvəqqəti yaşayış məskəni kimi istifadə etmişdir. Tədqiqat zamanı aşkar olunan yerüstü materiallar çəhrayı və qara rəngdə bişirilmiş keramika nümunələrindən ibarətdir. Çəhrayı rəngli keramikanın

bir qismi şirli qabların parçalarından ibarətdir. Yaşayış yeri XVIII-XIX əsrlərə aiddir.

**32. Ocaqtəpə yaşayış yeri** Babək rayonunun Məzrə kəndindən şimalda, cənub-şimal istiqamətində uzanan oval təpənin üzərindədir. Hazırda yaşayış yerinin ərazisində uçub-tökülmüş binaların qalıqları qalmaqdadır. Bəzi binaların yerində yalnız dördkünc formalı çalalar qalmışdır. Tikinti qalıqlarına əsasən binaların daşdan, möhrədən və çiy kərpicdən inşa edildiyini demək olar. Bəzi binaların inşasında bişmiş kərpiclərdən də istifadə olunmuşdur. Yaşayış yerinin şərq tərəfində su kanalının qazılması nəticəsində mədəni təbəqə dağılmış, maddi-mədəniyyət qalıqları üzə çıxmışdır. Maddi- mədəniyyət nümunələri bişmiş kərpic qalıqlarından, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatından ibarətdir. Yaşayış yerinin ərazisində xalq tərəfindən "ocaq" adlandırılan iki pir vardır.

Yaşayış yerindən aşkar olunan maddi- mədəniyyət nümunələri Son Orta əsrlər dövrü üçün xarakterikdir. Abidəni XII-XVIII əsrlərə aid etmək olar.

**33. Qahab qəbiristanlığı** kəndin şimal-şərq tərəfində, Qahab gölü bəndinin altında yerləşir. Müsəlman qəbirlərindən ibarət olan nekropolun bir qismi gölün inşası zamanı dağıdılmışdır. Hazırda qəbiristanlığın az bir qismi salamat qalmışdır. Bəzi qəbirlərin ətrafı dördkünc, bəzilərininki, isə dairəvi formada, kiçik həcmli daşlarla əhatə olunmuşdur. Başdaşıları yastı, yonulmamış təbii qaya parçalarından ibarətdir. Yerli əhalinin verdiyi məlumata görə, bənd çəkilərkən bu ərazidə qədim qəbirlər dağıdılmış və maddi-mədəniyyət qalıqları aşkar olunmuşdur. Lakin təəssüf ki, onlar indiyədək qalmamışdır.

Qahab qəbiristanlığını XVIII-XIX əsrlərə aid etmək olar.

**34. Quyuludağ kromlexi** Quyuludağ qalasının şərqində yerləşir. Kromlex ətraf yerlərə nisbətən bir qədər hündür olan təpənin üzərindədir. Mərkəzdə yerləşən qəbrin ətrafı orta həcmli qaya parçalarından qurulmuş iki sıra konsentirik dairə ilə əhatə olunmuşdur. Bu tip qəbir abidələri Orta Tunc dövrü üçün xarakterikdir. Quyuludağ kromlexini e.ə. III minilliyə aid etmək olar.

**35. Maralbulaq yaşayış yeri** Quyuludağ abidəsinin şimal-şərqində, yaxınlıqda olan bulağın ətrafında, dağların arasında yerləşir. Abidənin yaxınlığında kiçik həcmli süni göl düzəldilmişdir. Dördkünc formada daşdan tikilmiş binaların qalıqları hazırda yaşayış yerində qalmaqdadır. Araşdırmalar zamanı yaşayış yerinin ərazisində çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji materiallar Son Orta əsrlər dövrü üçün xarakterikdir. Arxeoloji materiallara əsasən yaşayış yerini -XIX əsrə aid etmək olar.

**36. Daşqala mağarası** Sirab kəndindən şimal-şərqdə yerləşən təbii mağaradır. Mağaranın girişi geniş və hündürdür. Girişdən qayalığın içərisinə doğru iki istiqamətdə yol vardır. Onların biri yaxınlıqda olan böyük salona açılır. Digəri isə mağaranın içərisinə doğru gedərək bir neçə dəfə şaxələnir. Mağaradan uzun müddət heyvan ağılı kimi istifadə olunduğundan onun içərisində qalın

peyin qatı vardır. Tədqiqat zamanı mağarada insanların məskənləşməsi ilə bağlı qədim maddi-mədəniyyət nümunələrinə rastlanmamışdır. Mağaranın girişindən Son Orta əsrlərə aid bir neçə keramika parçası aşkar olunmuşdur.

**37. Donuz qalası** Babək rayonunun Sirab kəndindən şimalda, hündür qayalıqların üzərində yerləşir. Qalanın yerləşdiyi ərazi hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Qalaya şimalda olan ensiz keçiddən qalxmaq mümkündür. Abidənin yerləşdiyi ərazi uzunsov oval formalı daş divarla iki hissəyə ayrılmışdır. Divarın uzunluğu 26,6 m, eni 2,3 m-dir. O, iri qaya parçalarından hörülmüş və bəzi yerlərdə 1 m hündürlükdə salamat qalmışdır. Qala divarı ziqzaq formalı çıxıntılarla təmin edilmişdir. Mərkəzi hissədə eni 2,9 m olan qapı vardır. Şübhəsiz ki, bu divar qalaya qərbdən olan hücumların qarşısını almaq üçün inşa edilmişdir. Tədqiqat zamanı qalanın ərazisindən Orta əsrlərin erkən və inkişaf etmiş dövrlərinə aid keramika nümunələrinə rastanmışdır. Arxeoloji materiallara əsaslanaraq qalanı III-XVII əsrlərə aid etmək olar.

**38. Qaval daşı.** Babək rayonunun Payız kəndi yaxınlığında Çalxanqala qədim yaşayış yerinin ərazisində yerləşir. Təbii oval formalı daşdan ibarətdir. Qaval daş qalanın ən uca hissəsində yerləşmişdir. Ehtimal ki, qaval daş müəyyən mərasimlərin keçirilməsi üçün istifadə edilmişdir. Onu e.ə. II-I minilliklərə aid etmək olar.

**39. Yarımca yaşayış yeri** Babək rayonunun Yarımca kəndi yaxınlığında yerləşir. Yaşayış yeri Yarımca kəndinin yaxınlığından keçən asfalt yolun sağ tərəfində yerləşən uzunsov, təpədən ibarətdir. Vaxtilə təpənin üzərində Orta əsrlərə aid qəbiristanlıq olmuşdur. Araşdırmalar zamanı müəyyən edilmişdir ki, yaşayış yeri Orta Tunc dövründən istifadə olunmuşdur. Araşdırma zamanı Orta Tunc dövrünün son mərhələsinə aid polixrom naxışlı boyalı keramika parçaları aşkar olunmuşdur. Naxışlar sarı fona qırmızı və qəhvəyi rənglə çəkilmiş torlu üçbucaqlardan ibarətdir. Aşkar olunan materiallara əsasən, yaşayış yerini e.ə. II minilliyə aid etmək olar.

**40. Şamın tili yaşayış yeri** Aşağı Buzqov kəndinin cənubunda yerləşir. Yaşayış yeri dağ silsiləsinin Cəhriçaya yenən şərq yamacında salınmışdır. Yaşayış yerinin ərazisində dördkünc formalı binaların qalıqları qalmaqdadır. Evlər yarımqazma tipli olmuşdur. Divarlar kiçik həcmli yastı daşlardan tikilmiş, giriş divarın bir tərəfində qoyulmuşdur. Aşkar olunan şirsiz saxsı məmulatı Son Orta əsrlər üçün xarakterikdir. Yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

**41. Şamın tili nekropolu** yaşayış yerinin cənub-şərqində təpənin yamacında yerləşir. Nekropolun bir qismi yol çəkilərkən dağıdılmışdır. Qəbirlər qərb-şərq istiqamətindədir. Qəbirlər yanlarda yastı sal daşlarla qurulmuşdur. Baş-daşıları adi qaya parçalarındandır. Nekropolu təqribən XVIII-XIX əsrlərə aid etmək olar.

**42. Karvansara yaşayış yeri** Aşağı Buzqov kəndinin cənubunda, kəndə gedən yolun sol kənarında yerləşir. Yerli əhalinin məlumatına görə, burada

yaşayış məntəqəsi və karvansara olmuşdur. Lakin tikintilər tamamilə dağıldığından onların formasını müəyyən etmək mümkün deyil. Yalnız bəzi yerlərdə nizamsız daş yığınlarına rastlanır ki, bunlar da vaxtilə burada tikintilərin olduğunu göstərir. Karvansaradan bir qədər aralıda yerləşən yaşayış yerinin ərazisindən çəhrayı və boz rəngli keramika parçaları aşkar olunmuşdur.

Arxeoloji materiallar burada I-XVIII əsrlərdə yaşayış olduğunu deməyə əsas verir.




Şəkil 41. Hovuzlu yaşayış yeri

**43. Karvansara nekropolu** yaşayış yerindən qərbdə hündür, uzunsov təpənin üzərində yerləşir. Qəbirlər daş qutu tiplidir. Onlar müxtəlif istiqamətlərə yönəlmişdir. Təpənin yuxarı qismində müsəlman qəbirlərinə də rastlanır. Yerli əhalinin məlumatına görə, vaxtilə nekropolda daş qoçlar olmuşdur. Lakin onlar naməlum adamlar tərəfindən aparılmışdır. Araşdırmalara əsasən demək olar ki, nekropolda müxtəlif dövrlərə aid qəbir abidələri vardır. Qəbirlərin əksəriyyəti Antik dövrə aiddir. Nekroplolu I-XVIII əsrlərə aid etmək olar.

**44. Aşağı Buzqov nekropolu** Cəhriçayın sol sahilində, Karvansara yaşayış yerinin şərqində yerləşir. Nekropol çaya doğru uzanan dağ silsiləsinin ətəyində salınmışdır. Qəbirlərin bir çoxu yol çəkilərkən dağıdılmışdır. Onlar müxtəlif istiqamətlərə yönəlmiş daş qutu tipli qəbirlərdən ibarətdir. Qəbirlər yanlarda uzunsov yastı sal daşlarla qurulmuş, onların üzəri eynitipli yastı daşlarla qapadılmışdır. Araşdırmalar zamanı heç bir maddi mədəniyyət qalığına

rastlanmamışdır. Qəbir tipləri Naxçıvan ərazisində olan Antik dövrə aid qəbirlərlə bənzərdir. Odur ki, nekropolu I-II əsrlərə aid etmək olar.

**45. Hovuzlu yaşayış yeri** Yuxarı Buzqov kəndinin qərbində hündür təpənin üzərində yerləşir. Yaşayış yerinin ərazisində bir neçə yerdə yaşayış binası üçün bünövrə qazıldığından Erkən Tunc dövrünə aid keramika parçaları üzə çıxmışdır. Lakin araşdırmalar göstərdi ki, yaşayış yerində mədəni təbəqə çox yığılmamışdır. Tapıntılar başlıca olaraq yerüstü materiallardan ibarətdir. Onlar qara, boz və çəhrayı rəngdə bişirilmiş küpə tipli qabların ağız hissəsi və qulplarının parçaları ilə təmsil olunmuşdur. Yaşayış yerinin ərazisi 2 hektardır. Yaşayış yeri köçmə maldarlıqla məşğul olan maldar tayfalara aiddir. Abidəni e.ə. IV-III minilliklərə aid etmək olar. Qeyd etmək lazımdır ki, yaşayış yerinin ərazisindən Antik və Orta əsrlərə aid keramika nümunələri də aşkar olunmuşdur. Buna əsasən yaşayış yerinin uzun müddət istifadə olunduğunu demək olar.

**46. Cəhri qəbiristanlığı** kəndin mərkəzində yerləşir. Torpaq qəbirlərdən ibarət olan müsəlman qəbirləri qərb-şərq istiqamətində yönəlmişdir. Başdaşıları adi qaya parçalarından ibarətdir. Vaxtilə qəbiristanlıqda xeyli qoç daş olmuşdur. Təəssüf ki, onların hamısı indiyədək qalmamışdır. Araşdırmalar zamanı müəyyən olundu ki, qoç daşlarının bəzisinin üzəri torpaq və çim qatı ilə örtülmüşdür. Qəbiristanlığın qərb tərəfində xalq arasında «Seyid qəbiri» adlandırılan qəbirlər vardır. Onların başdaşılarının yerində kərpicdən hörülmüş tikintilər vardır. Başdaşlarının biri günbəz şəkilli formada hörülmüş, ön tərəfində çıraq, yaxud şam yandırmaq üçün taxça qoyulmuşdur. Qəbiristanlığı XVIII-XX əsrlərə aid etmək olar.

**47. Uzuntəpə qəbiristanlığı** Cəhri kəndinin şimal-şərqində, İşıqlar yaşayış yerinin yaxınlığında yerləşir. Torpaq qəbirlər müsəlman qibləsi istiqamətində yönəldilmişdir. Qəbirlərin üzərinə yastı, dördkünc formalı sinə daşları qoyulmuşdur. Qəbiristanlıq eyniadlı yaşayış yerinin cənubunda kiçik həcmli konusvari təpənin üzərində yerləşir. Qəbiristanlığı XVII-XIX əsrlərə aid etmək olar.

**48. Uzuntəpə yaşayış yeri** Cəhri kəndinin şimal-şərqində, İşıqlar yaşayış yerindən qərbdə yerləşən uzunsov təpənin üzərini və onun ətrafını əhatə edir. Yaşayış yerinin ərazisində dördkünc formalı bina qalıqları, çəhrayı və boz rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatına təsadüf olunur. Şirsiz saxsı məmulatının bir qismi Son Antik dövrə aiddir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmiş, xaricdən cilalanmışdır. Araşdırmalara əsaslanaraq yaşayış yerində həyatın Antik dövrdən başlayaraq Orta əsrlərədək davam etdiyini demək olar. Arxeoloji materiallara əsasən, yaşayış yerini X-XVII əsrlərə aid etmək olar.

**49. İşıqlar qəbiristanlığı** yaşayış yerinin qərbində olan təpənin üzərində yerləşir. Yaşayış yeri ilə qəbiristanlıq dərin dərə ilə bir-birindən ayrılır. Qəbiristanlıq qərb-şərq istiqamətində yönəlmiş torpaq qəbirlərdən ibarətdir. Başdaşılarının bəzisi yonulmuş və üzərində səkkizguşəli ulduz təsvir edilmişdir.

Bəzi başdaşılarının üzərində nəbati ornamentlərə də rastlanır. Nekropoldakı qəbirləri XIV-XVII əsrlərə aid etmək olar.

**50. İşıqlar arxı** yaşayış yerinin şimal qurtaracağı boyunca, sıra dağların ətəyi ilə uzanır. Arx öz başlanğıcını şirin sulu Canıçaydan götürür. Ətrafda xeyli bulaqların olmasına baxmayaraq, onların suyu mineral mənşəli olduğundan suvarma üçün kifayət qədər əlverişli deyil. Digər tərəfdən həmin bulaqlar şübhəsiz ki, təsərrüfat ehtiyaclarını qarşılamamışdır. Odur ki, yaşayış yerinə kanal vasitəsilə su gətirilmişdir. Kanalının içərisi tamamilə dolmuşdur. Kanal torpaqda qazılmış, bəzi qisimlərdə daş hörgü ilə möhkəmləndirilmişdir. İşıqlar arxını XIV-XVII əsrlərə aid etmək olar.

**51. Kalbaəziz kəhrizi** İşıqlar yaşayış yerinin şimalında yerləşir. Hazırda kəhrizin üç quyusu fəaliyyət göstərir. Son vaxtlar təmir-bərpa işləri aparılsa da quyular dolmuş və suyun qarşısı tutulmuşdur. Kəhrizin suyu mineral mənşəlidir. Kəhrizin çıxacağından bir qədər aralıda iki kiçik süni göl yaradılmışdır. Lakin kəhrizin suyu azaldığından göllərdə su azdır. Kəhrizi XVIII-XIX əsrlərə aid etmək olar.

**52. Şahtaxtı yaşayış yeri** İşıqlar yaşayış yerindən şimalda yerləşir. Yaşayış yeri hündür təpənin ətəyindəki düzənlik sahədə yerləşir və qərb tərəfdə dərin dərə ilə məhdudlaşır. Yaşayış yerinin mərkəzi hissəsində dördkünc formalı böyük təbii sal daş var. Rəvayətə görə, Nadirşah bu ərazidən keçərkən bu daşın üstünə çıxaraq orduya müraciət etmişdir. Yaşayış yerinin adı da bununla bağlıdır. Araşdırmalar zamanı abidənin ərazisində mədəni təbəqənin yığılmadığı müəyyən olunmuşdur. Tapıntılar yalnız Son Orta əsrlərə aid keramika parçalarından ibarətdir. Yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

**53. Qaradaş yaşayış yeri** eyniadlı dağın şimal-qərb ətəyini əhatə edir. Yaşayış yerinin ərazisində daşdan inşa olunmuş divar qalıqlarına, həmçinin dördkünc formalı binaların bünövrəsinə aid tikintilərə rastlanır. Divarlar iri qaya parçalarından tikilmişdir. Abidənin yaxınlığındakı kanalın tikintisi zamanı mədəni təbəqə dağılmış, çəhrayı rəngli şirli və şirsiz saxsı məmulatı ətrafa səpələnmişdir. Aşkar olunan keramika məmulatı X-XVII əsrlər üçün xarakterikdir. Aparılan araşdırmalar zamanı müəyyən olunmuşdur ki, yaşayış yerində mədəni təbəqə olduqca az yığılmışdır.

**54. Bağ yeri nekropolu** Cəhri kəndinin qərbində, Cəhriçayın sağ sahilində yerləşir. Ərazi xalq arasında Cəfərqulunun bağ yeri adlanır. Araşdırmalar zamanı burada daş qutu və küp qəbirlərdən ibarət nekropolun olduğu müəyyən olunmuşdur. Qəbirlər sel sularının açdığı yarğanda aşkar olunmuşdur. Onlar yer səthindən 1,5- 2 m dərinlikdə yerləşir. Nekropolun ərazisindən Son Antik və Orta əsrlərə aid çəhrayı rəngli keramika parçaları və kirəmit qalıqları aşkar olunmuşdur. Ehtimal ki, nekropolun yaxınlığında yaşayış yeri də olmuşdur. Lakin ətraf ərazilər dəfələrlə şumlanıb əkildiyindən yaşayış yerini dəqiq müəyyən etmək mümkün olmamışdır. Nekropolda aşkar edilən qəbir tipləri I-II əsrlər üçün xarakterikdir.

**55. Kəndtəpə yaşayış yeri** Cəhri kəndindən qərbdə yerləşir. Yaşayış yerinin ərazisində ətraf yerlərə nisbətən hündür olan bir neçə təpə vardır. Araşdırmalar göstərdi ki, yaşayış başlıca olaraq mərkəzi təpədə və onun ətrafında toplanmışdır. Bu ərazidə sel sularının yuyub açdığı yarğanda mədəni təbəqənin qalınlığı 1,5-2,5 m arasındadır. Təbəqədə heyvan sümükləri, keramika parçaları, iri təsərrüfat və məişət qalıqlarının parçalarına rastlanır. Bəzi yerlərdə qalın kül təbəqəsinin olduğu müəyyən olunmuşdur. Arxeoloji materiallar yaşayış yerində həyatın Son Antik dövrdən Orta əsrlərədək davam etdiyini göstərir. Abidəni I-XVII əsrlərə aid etmək olar.

**56. Tülkütəpə yaşayış yeri** Cəhri kəndinin cənub-qərbində, hündür uzunsov təpənin üzərində yerləşir. Yaşayış yerinin ərazisində kül yığınları, daşdan inşa olunmuş tikinti qalıqlarına rastlanır. Yerüstü tapıntılar başlıca olaraq çəhrayı və boz rəngdə bişirilmiş keramika məmulatından ibarətdir. Keramika nümunələri narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Onların birisi həm xaricdən, həm də daxildən cilalanmışdır. Çəhrayı rəngli gil məmulatının bir qismi qırmızı boya ilə örtülmüşdür. Aşkar olunan keramika məmulatı X-XIV əsrlər üçün xarakterikdir.

**57. Qoşatəpə yaşayış yeri** Cəhri kəndindən cənubda, ətraf yerlərə nisbətən hündür olan iki qoşa təpənin üzərində yerləşir. Hazırda təpələrin ortasından yol salınmışdır. Tədqiqat zamanı daşdan inşa olunmuş divar qalıqları, çəhrayı rəngdə bişirilmiş keramika parçaları aşkar olunmuşdur. Mədəni təbəqə olduqca az yığılmışdır. Çəhrayı rəngli gil məmulatının bir qismi qırmızı boya ilə örtülərək cilalanmışdır. Qoşatəpə yaşayış yerini I-X əsrlərə aid etmək olar.

**58. Əyriarx yaşayış yeri** Qoşatəpədən şimalda, düzənlik ərazidə yerləşir. Yaşayış yerinin ərazisi bir neçə dəfə şumlanaraq ilkin görkəmini itirmişdir. Bəzi yerlərdə kül yığınları və bad qırıqlarına rastlanır. Sel sularının yuyub açdığı yarğanlarda mədəni təbəqənin bəzi yerlərdə 0,5 m qalınlığında olduğu müəyyənləşdirilmişdir. Araşdırmalar zamanı aşkar olunan yerüstü tapıntılar müxtəlif dövrlərə aid keramika parçalarından ibarətdir. Keramika məmulatı başlıca olaraq çəhrayı rəngdə bişirilmiş, onların bəzisi qırmızı boya ilə örtülərək cilalanmışdır. Yaşayış yerini I-X əsrlərə aid etmək olar.

**59. Qız qalası** Cəhri-Buzqov torpaq yolunun sağ tərəfində, strateji cəhətdən əlverişli mövqedə yerləşir. Qala təbii cəhətdən müdafiə olunan qayanın üzərindədir. Qalaya yalnız şərq tərəfdə olan ensiz cığırla qalxmaq mümkündür. Sahəsi olduqca kiçikdir. Mərkəzi hissəsində 3 x 2,5 m ölçülü dördkünc formalı tikinti vardır. Tikinti qalıqlarına əsasən demək olar ki, onun üzəri çatma tağla örtülmüşdür. Lakin binanın damı uçaraq üzəri tökülmüşdür. Mədəni təbəqənin qalınlığı 0,5 m-dir. Araşdırmalar zamanı qalada Son Antik və Orta əsrlərə aid keramika parçaları aşkar olunmuşdur. Qız qalası Çalxanqala ilə üzbəüz yerləşir. Xalq deyiminə görə Çalxanqalanın adı vaxtilə Oğlanqala olmuşdur. Qalanı I-XIV əsrlərə aid etmək olar

**60. Gərməçataq qəbiristanlığı** kəndin içərisində yerləşir. Qəbirlər qiblə istiqamətində yönəldilmişdir. Bəzi qəbirlərin ətrafına çay daşları düzülmüş və üzərinə daş yığılmışdır. Qəbiristanlıqdakı qəbirlərin ikisinin üzərində sənduqə tipli sinə daşı var idi. Sinə daşlarının üzərində çərxifələk və altıguşəli ulduz təsvir olunmuşdur. Sinə daşlarından birinin üzərində qrup halında yerləşdirilmiş beş ulduz, habelə dörd yerə bölünmüş dairə təsvirinə də rastlandı. Qəbiristanlığın ətrafından Son Orta əsrlərə aid şirsiz keramika məmulatı aşkar olundu.

Arxeoloji materiallara və daş sənduqələrə əsasən nekropolu XIV-XVIII əsrlərə aid etmək olar.

**61. Qaragüney nekropolu** Gərməçataq kəndinin şimal-qərbində, təpənin yamacında yerləşir. Qəbirlərin bəzisi sel sularının torpağı yuması nəticəsində aşkar olunmuşdur. Onlar müxtəlif istiqamətlərə yönəlmiş daş qutu tipli qəbirlərdən ibarətdir. Qəbirlər yastı sal daşlarla qurulmuş və eynitipli daşlarla qapadılmışdır. Araşdırma zamanı nekropolun ərazisindən Son Antik dövrə aid bir neçə çəhrayı rəngdə bişirilmiş keramika parçası aşkar edilmişdir. Aşkar olunmuş arxeoloji materiallara əsasən, nekropolu I-II əsrlərə aid etmək olar.

**62. II Gərməçataq qəbiristanlığı** kəndin içərisində, təpənin ətəyində salınmışdır. Qəbirlər müsəlman qibləsinə yönəldilmişdir. Bəzi qəbirlərin baş-daşılarında ərəb əlifbası ilə kitabələr vardır. Qəbirlərdən bir neçəsinin başdaşı insan fiquru formasında yonulmuşdur. Qəbiristanlıq XIX- XX əsrlərə aiddir.

**63. III Gərməçataq nekropolu** kəndə gedən yolun sol kənarında, təpənin ətəyindədir. Qəbirlər müsəlman qibləsi istiqamətindədir. Onların bəzisinin ətrafına daş döşənmiş, bəziləri isə dikinə qoyulmuş daşlarla dövrəyə alınmışdır. Nekropolun yalnız bir hissəsi salamat qalmışdır. Onun böyük bir qismi ətraf ərazilərin əkilməsi zamanı dağıdılmışdır. Nekropolu XVII- XVIII əsrlərə aid etmək olar.

**64. Didivar qəbiristanlığı** kəndin şərq tərəfində, Cəhriçayın sağ sahilində yerləşir. Qəbirlərin üzəri dördkünc formada daşlarla əhatə olunmuş, bəzi qəbirlərin üzərində isə daş yığınları yaranmışdır. Qəbirlərin başdaşları adi qaya parçalarındandır. Başdaşılarının bəzisi yonulmuş daşdandır. Onlar tağşəkilli formada hazırlanmışdır. Bəzi qəbirlərin başdaşılarında ərəb əlifbası ilə kitabələr vardır. Onlar aşındığından oxunmaz hala düşmüşdür. Qəbiristanlığın ərazisindən toplanan keramika məmulatı Son Orta əsrlərə aiddir. Qəbiristanlığı XVII-XIX əsrlərə aid etmək olar.

**65. Çuxurdərə yaşayış yeri** Nehrəm kəndinin cənubunda, eyniadlı dəmiryol stansiyasının yaxınlığında yerləşir. Quru çay vadisinin hər iki sahilində yerləşən yaşayış yeri beş hektardan artıq sahəni əhatə edir. Sel sularının yuyub açdığı yarğanlarda mədəni təbəqənin qalınlığı 0,5- 1,5 m arasındadır. Yaşayış yerində dördkünc formalı evlərin qalıqları saxlanmışdır. Evlərin bünövrəsi daşdan, divarların yuxarı qismi isə möhrədən inşa olunmuşdur. Aşkar olunan arxeoloji materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarətdir. Abidə xalq arasında «Ölən şəhər» adlanır. Yerüstü materiallar arasında

xeyli miqdarda saxsı su borularının qalıqlarına rastlanması vaxtilə yaşayış yerinin bol su ilə təmin olunduğunu təsdiq edir. Abidəni XIV-XVIII əsrlərə aid etmək olar.

**66. Sum qalası** Nehrəm dəmiryol stansiyasından şərqdə, hündür dağın üzərində yerləşir. Qala hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Onun şərqdən və qərbdən olan girişləri daşlardan hörülmüş qala divarı ilə möhkəmləndirilmişdir. Qalanın şərq hissəsində inşa olunan qala divarı xüsusilə möhtəşəmdir. Divarın eni 1,8-2,3 m arasında dəyişir. Bəzi yerlərdə divar qalıqları 1,8 m hündürlüyündə saxlanmışdır. Qala divarı relyefə uyğun olaraq inşa edilmişdir. Qalanın içərisində təsərrüfat məqsədilə istifadə olunan iri həcmli binaların qalıqları da vardır. Keramika məmulatı başlıca olaraq çəhrayı rəngdə bişirilmiş şirsiz saxsı məmulatından ibarətdir. Onlar qapaq, bardaq və küpə tipli qabların parçaları ilə təmsil olunmuşdur. Qalanı VIII- XVII əsrlərə aid etmək olar.

**67. Tərsaxan mağarası** Nehrəm dəmiryol stansiyasının yaxınlığında yerləşir. Təbii mağaranın ön tərəfi daşdan inşa olunmuş divarla kəsilərək yaşayış yeri kimi istifadə olunmuşdur. Onun cənub divarında ensiz pəncərə açılmışdır. Mağaranın girişi qərbdəndir. Araşdırmalar zamanı mağaradan Son Orta əsrlərə aid keramika parçaları aşkar olundu. Mağara Son Orta əsrlərdə yaşayış yeri kimi istifadə olunmuşdur. Onu XVI-XVIII əsrlərə aid etmək olar.

**68. Haçaparaq yaşayış yeri** Naxçıvan Əshabi-Kəhf asfalt yolunun sağ tərəfində, təpənin ətəyində yerləşir. Yaşayış binaları, dördkünc formalıdır. Onlar möhrədən tikilərək hər iki tərəfdən palçıqla suvanmışdır. Evlərin içərisində divarda yerləşdirilən buxarı və kiçik taxçalar vardır. Bəzi evlər çoxotaqlıdır. Araşdırmalar zamanı yaşayış yerindən Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı əldə edilmişdir. Kəndin şimal tərəfindəki kəhriz kəndin yeganə su mənbəyidir. Yaşayış yerinin yaxınlığında iki nekropol vardır.

Arxeoloji materiallara və tikinti qalıqlarına əsasən, yaşayış yerini XVIII-XX əsrlərə aid etmək olar.

**69. I Haçaparaq nekropolu** yaşayış yerinin cənubunda kiçik, uzunsov təpənin üzərində yerləşir. Qəbirlərin bəzisinin ətrafı dairəvi şəkildə, bəzisi isə dördkünc şəkildə daşlarla əhatə olunmuşdur. Qəbirlər qərb-şərq istiqamətinə yönəldilmişdir. Onların başdaşları yonulmamış qaya parçalarındandır. Tədqiqat zamanı qəbiristanlıqdan Son Orta əsrlərə aid şirsiz saxsı məmulatı aşkar olunmuşdur. Qəbiristanlığı XIX-XX əsrlərə aid etmək olar.

**70. II Haçaparaq nekropolu** Haçaparaq yaşayış yerindən şimalda, Naxçıvan Əshabi-Kəhf asfalt yolunun sol tərəfində yerləşir. Başdaşları yonulmamış qaya parçalarındandır. Bəzi qəbirlərin ətrafı dördkünc formada çay daşları ilə əhatələnmiş, bəzilərinin isə üzərinə daş yığılmışdır. Torpaqda qazılan qəbirlər müsəlman qibləsinə yönəldilmişdir. Bir çox qəbirlərin yerüstü əlamətləri itmişdir. Qəbiristanlığı XII- XIX əsrlərə aid etmək olar.

**71. Lizbirt qəbiristanlığı** eyniadlı kəndin şərqindəki təpənin üzərindədir. Torpaqda qazılmış qəbirlər qərb-şərq istiqamətində yönəlmişdir. Başdaşıları yonulmamış qaya parçalarındandır. Bəzi qəbirlərin ətrafı dördkünc formada qaya parçaları ilə əhatə edilmiş, bəzilərinin üzərində daş yığınları yaranmışdır. Araşdırmalar zamanı qəbiristanlığın ərazisindən Son Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Qəbiristanlığı XVIII-XX əsrlərə aid etmək olar.

# ORDUBAD RAYONUNUN ARXEOLOJİ ABİDƏLƏRİ

1. **Gəmiqaya təsvirləri** Naxçıvanın Tunc dövrü mədəniyyətinin ayrılmaz hissəsidir. Gəmiqaya Ordubad rayonunun Nəsirvaz kəndinin yaxınlığında yerləşir. Qayaüstü təsvirlər başlıca olaraq Qaranquş yaylağında toplansa da, bu tip təsvirlərə Qapıcıq zirvəsindən başlayaraq Nəbiyurdu və Camışölən yaylağınadək geniş bir ərazidə rast gəlmək mümkündür. Başlıca olaraq su qaynaqları ətrafında toplanan qaya təsvirləri qədim insanların təsərrüfatı və mənəvi mədəniyyətini öyrənmək üçün dəyərli mənbədir. Gəmiqaya təsvirlərini stilistik xüsusiyyətlərinə görə iki böyük qrupa ayırmaq olar. Birinci qrupa simvol-işarə və astral rəsmlər, ikinci qrupa isə süjetli təsvirlər daxildir. Birinci qrup təsvirlər arasında astral rəsmlər, xüsusilə Günəş təsvirləri mühüm yer tutur. İnsanların həyatdakı uğurları təbiətlə, o cümlədən Günəşlə bağlı olduğu üçün istər əkinçi, istər də maldar tayfaların inancında Günəşə sitayiş geniş yer tutmuşdur. Gəmiqayada Günəşi simvolizə edən təsvirlərin çoxluğu da bu inanclarla bağlı olmuşdur.



Şəkil 42. Gəmiqayada mifoloji təsvir

Gəmiqaya təsvirləri arasında Veneranı simvolizə edən rəsmlər xüsusilə diqqətəlayiqdir. Başlıca olaraq qoşa dairə şəklində verilən Venera ekizlər kultu ilə bağlı olmuşdur. Ekizliklə bağlı tapıntılara digər arxeoloji abidələrin tədqiqi zamanı da rastlanmışdır. Onlar qoşa spiral şəklində hazırlanmış asmalar,qoşa disklər və qoşa heyvan fiqurları ilə təmsil olunmuşdur. Mingəçevirdən aşkar

olunmuş qoşa disklərdən birinin ortasında insan təsvirinin olması, onların insanların mifik təfəkkürü ilə bağlı olduğunu deməyə imkan verir.



Şəkil 43. Gəmiqayada qurd-keçi qarşıdurması

İkinci qrup rəsmlər insan, heyvan və astral rəsmlərin müxtəlif kompozisiyasından ibarətdir. Bu qrupa daxil olan rəsmlər başlıca olaraq qədim insanların mifik təfəkkürünü əks etdirir. Bu rəsmlər arasında məhsuldarlıq Tanrısı və məhsuldarlıqla bağlı inancları əks etdirən rəsmlər üstünlük təşkil edir. Bu təsvirlərin məzmununu təşkil edən başlıca ideya məhsuldarlığın təmin olunmasıdır. İnsanların yaşayışı üçün həyati əhəmiyyətə malik olan bu ideya təbii stixiyaların – quraqlığın, kütləvi məhvolmanın qarşısının alınması, ovun uğurluluğunun təmin olunması, bu məqsədlə gərəksiz ovun yasaq edilməsi ilə bağlı inancları əks etdirən rəsmlərdə ifadə olunmuşdur. Bu rəsmlərdə animizm, maqiya və totemizmlə bağlı ibtidai inancların qalıqları izlənməkdədir. Rəsmlərdə əks olunan ikinci başlıca ideya əks başlanğıcların mübarizəsidir. Bu ideya yırtıcı heyvanların dırnaqlı heyvanları parçalamaması səhnələrinin təsvirində aydın şəkildə göstərilmişdir.

Gəmiqaya təsvirlərində obrazlı şəkildə ifadə olunan Göy inancı, Göy cisimlərinə sitayiş, dağ kultu, Göy aləminin nizamlayıcı başlanğıc funksiyasını yerinə yetirməsi, bu dünya və o biri dünya anlayışlarının binar oppozisiya şəklində verilməsi türk xalqlarının mifologiyasında izlənmişdir. Bu düşüncə tərzi

indiyədək Azərbaycan xalqının sənət əsərlərində, folklorunda və etnoqrafik materiallarda yaşamaqda davam edir. Azərbaycan ərazisində yaşayan qədim tayfaların mifoloji görüşlərinin formalaşmasına qədim Şərq mədəniyyətinin, xüsusilə Şumer mədəniyyətinin müəyyən təsiri olmuşdur. Bu təsir digər arxeoloji abidələrdə olduğu kimi Gəmiqaya təsvirlərində də ifadə olunmuşdur.



Şəkil 44. Gəviqayada ovsun təsviri

Naxçıvan arxeoloji abidələrinin tədqiqi bu ərazidə formalaşan mədəniyyətlərin Ön Asiya mədəniyyətləri ilə qarşılıqlı əlaqədə inkişaf etdiyini və qonşu ölkələrə təsir etdiyini təsdiq edir. Bəzi araşdırıcılar Maykop mədəniyyətində Misir mədəniyyətinin təsirini ortaya çıxarmağa, bu mədəniyyətin Balkanlar üzərindən Şimali Qafqaza gəlməsini sübut etməyə çalışsa da, Ön Asiya mədəniyyətinin Qafqaz üzərindən Şimala doğru yayıldığı çoxsaylı arxeoloji tapıntılarla sübut olunur. Gəmiqaya təsvirlərinin araşdırılması bir daha sübut edir ki, Azərbaycan ərazisi qədim Şərq mədəniyyətinin şimala doğru ötürülməsində bir körpü olmuşdur.

Təsvirlər e.ə. IV-I minilliklərdə Naxçıvanda məskən salan insanların ideoloji görüşlərini, onların həyat tərzini öyrənmək üçün olduqca əhəmiyyətlidir. Qaya təsvirlərinin ətrafında e.ə. IV-I minilliklərə və Orta əsrlərə aid qəbiristanlıqlar var. Qaya təsvirlərinin müqayisəli araşdırılması onların ən qədim nümunələrinin İlk Tunc dövrünə aid olduğunu göstərir. Lakin burada daha qədim rəsmlərin olma ehtimalı da irəli sürülmüşdür.

**2. Muncuqlutəpə nekropolu.** Ordubad rayonunun Sabirkənd və Kələntərdizə kəndləri yaxınlığında yerləşir. Nekropol 60 x 40 m ölçülü oval təpə üzərindədir. Nekropolda düzbucaq formalı 33 qəbir aşkar olunmuşdur. Sal daşlardan qurulmuş qəbirlərin qərb, bəzi hallarda isə şimal divarında giriş yolu

qoyulmuşdur. Girişin ön tərəfində yastı sal daşlardan inşa olunmuş qurbangah yerləşdirilmişdir. Qəbirlərin və qurbangahların üstü yastı sal daşlarla qapadılmışdır. Qəbirlər üçün kollektiv dəfn adəti xarakterik olmuşdur. Yeni dəfnlər zamanı əvvəlki, skeletlərin vəziyyəti dəyişdirilirdi. Toxunulmamış skelet qalıqları göstərir ki, dəfn olunan sağ böyrü üstə, bükülü vəziyyətdə qoyulur, əlləri üzü bərabərinə qatlanırmış. Qəbirlərdən qara-boz və sarı-çəhrayı rəngli keramika məmulatı, silah nümunələri, tunc və dəmirdən hazırlanmış bəzək əşyaları, müxtəlif muncuqlar aşkar olunmuşdur. Qurbangahlardan gil qabların dəsti tapılmışdır. Arxeoloji materialların tədqiqinə əsasən abidə VIII-VI əsrlərə aid edilir.



Şəkil 45. Muncuqlutəpə nekropolu

**3. Orta əsr Ordubad şəhərinin xarabalıqları.** İndiki şəhərin müasir tikintiləri altında qalmışdır. Came məscidinin təmiri zamanı aşkar olunan kitabə (hicri 111-ci il) şəhərin VIII əsrdə mövcud olduğunu göstərir. Ordubad şəhərinin

ərazisində Orta əsrlərə aid mədəni təbəqənin qalınlığı 3-5 m arasındadır. Orta əsrlərə aid yaşayış evlərinin və memarlıq abidələrinin bir qismi indiyədək saxlanmışdır. Araşdırmalar zamanı şəhərin ərazisindən şirli və şirsiz saxsı məmulatı, müxtəlif əmək alətləri, kitabələr aşkar edilmişdir. Aşkar olunan materiallara əsasən şəhərin əsasının V-VI əsrlərdə qoyulduğunu demək olar. Hazırda şəhərdə Orta əsrlərə aid Əfqan qalası, Cümə məscidi, Malik İbrahim piri, kəhrizlər və digər tikililər qalmaqdadır.

Ordubad şəhəri V-XVIII əsrlərin abidəsidir.



Şəkil 46. Xaraba Gilan karvansarasının planı (Q.Aslanov, B.İbrahimov, S.Qaşkay)

**4. Xaraba Gilan şəhəri.** Ordubad rayonu ərazisində, Gilançayın sol sahilində 100 hektardan artıq sahəni əhatə edir. Şəhər narınqala və onu əhatə edən məhəllələrdən ibarətdir. Həm narınqala, həm də məhəllələr daşdan inşa olunmuş müdafiə divarı ilə əhatə olunmuşdur. Qala divarları dairəvi və dördkünc bürclərlə möhkəmləndirilmişdir. Arxeoloji tədqiqatlar zamanı şəhərin ərazisində karvansara, su hovuzları və sərdabələrin qalıqları aşkar olunmuşdur. Müəyyən olunmuşdur ki, şəhərin içərisindən keçən çayın kənarları daşla hörülərək düzəldilmişdir. Şəhərin xarabalıqlarından su tünglərinin qalıqlarına rastlanması vaxtilə su təchizatının təmin edildiyini göstərir. Lakin yağış sularını yığmaq üçün düzəldilən hovuzlar su təchizatında müəyyən çətinliklər olduğunu göstərir. Ehtimal ki, şəhərin tərk edilməsinin əsas səbəblərindən biri su sisteminin pozulması olmuşdur. Maddi- mədəniyyət qalıqlarının tədqiqi şəhərin əsasının e.ə.

V-IV əsrlərdə qoyulduğunu deməyə əsas verir. Orta əsrlərdə, xüsusilə XII-XIV əsrlərdə şəhər mühüm ticarət və sənətkarlıq mərkəzi olmuşdur. Tədqiqatlar zamanı yaşayış yerindən şirli və şirsiz keramika məmulatı əldə edilmişdir.

**5. Babək qalası.** Ordubad rayonunun Biləv kəndindən cənub-qərbdə yerləşir. Hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Gilançayın sağ sahilində yerləşən qalaya ensiz dar cığırla qalxmaq mümkündür. Strateji baxımdan əlverişli mövqedə yerləşən Babək qalasının divarları bəzi qismlərdə yonulmuş daşlardan inşa olunmuşdur. Bir-birinə bitişik, dördkünc formalı bina qalıqları, başlıca olaraq qala divarına bitişik formada inşa olunmuşdur. Bu üslub Azərbaycanın qədim və Orta əsr qalaları üçün xarakterikdir. Qalada dairəvi formalı binaların da qalıqları vardır. Divarlar 0,8- 1 m hündürlükdə salamat qalmışdır.Yaşayış yerinin şimal tərəfində qayada qazılmış, qərb divarı daşla hörülmüş dördkünc formalı tikintiyə rastlanmışdır. Ehtimal ki, ondan su hovuzu kimi istifadə olunmuşdur. Onun içərisi lilli torpaq və su ilə dolmuşdur. Yerüstü materiallar dən daşları, obsibian lövhələri, çəhrayı və qəhvəyi rəngli keramika, şirli qab parçalarından ibarətdir. Şirli qablar qum qarışığı olmayan gildən hazırlanaraq yaxşı bişirilmiş, anqob təbəqəsini qazma, qravirovka üsulu ilə yaşıl, sarı, mavi rənglə naxışlanmış, şəffaf şirlə örtülmüşdür. Arxeoloji materiallar qaladan uzun müddət müdafiə məqsədi ilə istifadə olunduğunu göstərir.

Babək qalasından II- XIV əsrlər ərzində müdafiə istehkamı kimi istifadə olunmuşdur.

**6. Biləv körpüsü.** Biləv kəndinin cənubunda yerləşir. Beş aşırımlıdır. Körpünün yalnız bir qisminin qalıqları salamat qalmışdır. Gilançayın üzərindədir. Aşırımlar arasındakı məsafələr müxtəlifdir. Tağvari aşırımlar dördkünc formalı dayaq sütunları üzərində inşa olunmuşdur. Körpünün eni 3,3 m, uzunluğu 55 m-dir. Körpü əhəng məhlulu ilə iri həcmli çay daşları və qaya parçalarından hörülmüş, yonulmuş daşlarla üzlənmişdir. Körpü XVIII əsrə aiddir.

**7. Biləv qəbiristanlığı.** Kəndin şərqində, təpənin üzərində yerləşir. Qəbiristanlıqda xeyli qoç daşlar və daş sənduqələr vardır. Qərb-şərq istiqamətində yönəlmiş torpaq qəbirlərin bəzisinin ətrafı dördkünc formada, bəzisi isə dairəvi formada daş düzümləri ilə əhatələnmişdir. Başdaşılarının bir qismi adi qaya parçalarından, bir qismi isə yonulmuş daşlardan qoyulmuşdur. Qəbir daşları üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Biləv qəbiristanlığı XIV-XVIII əsrlərə aiddir.

**8. Plovdağ nekropolu.** Gilançayın sol sahilində böyük ərazini əhatə edir. Nekropolun bir hissəsi Plovdağın cənubunda, bir hissəsə qərbdə, digər hissəsi isə şimalında yerləşir. Dağın ətəyində salınmış nekropoldakı qəbirlər müxtəlif dövrlərə aiddir. Qəbirlər kurqanaltı dördkünc formalı daş qutulardan ibarətdir. Hər qəbrin özünə aid dördkünc formalı qurbangahı vardır. Qəbirlər dairəvi formada kromlexlə əhatə olunmuş, kromlexin içərisinə isə daş döşənmişdir. Tədqiqat zamanı Tunc dövrünün müxtəlif mərhələlərinə aid qəbir abidələri aşkar olununaraq Q.M.Aslanov, B.İ.İrahimov və S.M.Qaşkay tərəfindən öyrənilmişdir.




Şəkil 47. Xaraba Gilanın planı (Q.Aslanov, B.İbrahimov, S.Qaşkay)
1- Məhəllələr. 2- Su hovuzu. 3- Daş bənd. 4- Daş divarlar. 5. Kanal. 6- Yol. 7- Sərdabə. 8- Bulaq. 9- Qəbiristanlıq. 10- Türbələr. 11- Dəyirman. 12. Şurf

Hazırda nekropolda B.İ.İrahimovun rəhbərliyi ilə tədqiqatlar davam etdirilir. Aşkar olunmuş arxeoloji materiallar silahlar, bəzək əşyaları, keramika məmulatı və s. əşyalardan ibarətdir. Keramika məmulatı çəhrayı və boz rəngdə olmaqla iki qrupa bölünür. Boz rəngli keramika məmulatı xaricdən cilalanmışdır. Onların bəzisinin yarımşar formalı qulpları vardır. Dəfnlər tək, cüt və kollektivdir. Nekropol e.ə. III- I minilliklərə aiddir.



Şəkil 48. Plovdağ nekropolu

**9. Xarabagilan qalası.** Orta əsr Xarabagilan şəhərinin narınqala hissəsinin adıdır. Abidə 10 hektardan artıq sahəni əhatə edir. Narınqala ətraf yerlərə nisbətən hündür dağın üzərində yerləşir. Abidənin yerləşdiyi ərazi hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Buna baxmayaraq yaşayış yeri

müdafiə divarları ilə əlavə olaraq möhkəmləndirilmişdir. Qala divarı dördkünc və yarımdairəvi formalı bürclər, rizalitlər və kontrforslarla möhkəmləndirilmişdir. İçərisində yaşayış binalarının və ictimai binaların qalıqları vardır. Arxeoloji tapıntılar XII-XIV əsrlərə aiddir.



Şəkil 49. Mərdangöl nekropolu

**10. Mərdangöl nekropolu.** Ordubad rayonunun Sabirkənd və Kələntər Dizə kəndləri yaxınlığında, Xarabagilanın yerləşdiyi dağın qərb yamacında yerləşir. Nekropol daş qutu tipli qəbirlərdən və onlara aid qurbangahlardan

ibarətdir. Qəbirlər və qurbangahlar şaquli qoyulmuş sal daşlardan qurulmuş, qəbirlərin bəzi qismləri hörgü ilə tamamlanmışdır. Arxeoloji tapıntılar boz və çəhrayı rəngdə bişirilmiş keramika nümunələrindən, tunc silah və bəzək əşyalarından ibarətdir. Tapıntılar arasında boyalı qablar da vardır. Muncuqlar əqiq, pasta, mərmər, tunc, balıqqulağı və s. materiallardan hazırlanmışdır. Muncuqlar içərisində ağ daşdan hazırlanmış silindir möhürlər xüsusi yer tutur. Möhürlər həndəsi ornament və mifoloji məzmunu olan təsvirlərlə naxışlanmışdır.

Mərdangöl nekropolu e.ə. IX-VIII əsrlərə aid edilir.



Şəkil 50. Qumluq nekropolu

**11. Qumluq nekropolu.** yaşayış yerinin yaxınlığında, Nəsirvazçayın sahilində, Gəmiqayanın yaxınlığında yerləşir. Nekropol Nəsirvazçaya enən yamacda salındığından təbii aşınma nəticəsində dağılmış, qəbir daşları üzə çıxmışdır. Bu isə qəbir abidələrinin dağılmasına səbəb olmuşdur. Nekropola onun yaxınlığından su kanalı çəkilərkən böyük zərər vurulmuşdur. Qəbirlər daş qutu tipli olub yanlarda iki, baş tərəfdə isə bir iri sal daşla qurulmuşdur. Onların

üzərini örtən iri sal daşlar sürüşüb qəbirlərin yanına, ya da içərisinə düşmüşdür. Qəbirlər təmizlənərkən çəhrayı və boz rəngli gil qab parçaları aşkar olunmuşdur. Onların bəzisi narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş, xarici səthi batıq xətlərlə naxışlanmışdır. Gil qab parçalarının biri xaricdən çəhrayı, içəridən qara rənglidir.

Nekropolun ərazisində aparılan araşdırmalar zamanı dağıdılmış qəbirlərdən aşkar olunmuş və ətrafa səpələnmiş çəhrayı rəngli çölmək tipli gil qab parçaları da aşkar olunmuşdur. Nekropoldakı dağıdılmış qəbirlərdən aşkar olunan ən maraqlı tapıntılar Xocalı-Gədəbəy tipli tunc xəncərlərdir.

Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinin tərkib hissəsi olan bu mədəniyyət nümunələri e.ə. II minilliyin sonunda köçəri maldar tayfaların Gəmiqaya ətrafında məskunlaşdığını təsdiq edir.

Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan bu tip tunc xəncərlər qədim tariximizin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Bu tip xəncərlərin tipik nümunələri Naxçıvanda Şahtaxtı, Muncuqlutəpə, Kolanı və Boyəhməddən tapılmışdır. Bu xəncərlərin Naxçıvandan aşkar olunması Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinin Azərbaycanın şimalında və cənubunda məskən salan qədim tayfalarla sıx bağlı olduğunu təsdiq edir. Xocalı-Gədəbəy mədəniyyətinin Naxçıvana təsiri və burada yayılması aparılan tədqiqatlarla təsdiq edilmişdir. Araşdırmalar göstərir ki, Xocalı-Gədəbəy mədəniyyətinin məxsus olduğu tayfalar e.ə. II-I minilliklərin qovşağında Yaxın Şərqdə və Cənubi Qafqazda baş verən hadisələrə fəal müdaxilə etmiş, Naxçıvanın xarici işğalçılardan qorunmasında mühüm rol oynamışlar. Naxçıvanın bu mədəniyyətlə bağlı abidələrinin tədqiqi Assur hökmdarı Adadnirariyə aid, üzərində mixi yazı olan muncuğun Xocalıya hansı yolla gəldiyini də təxmin etməyə imkan verir.

**12. Dəmyələr nekropolu.** Tivi-Ağdərə torpaq yolunun alt tərəfində, yaşayış yerinin yaxınlığında yerləşir. Nekropol yaşayış yerindən dərin dərə ilə ayrılmışdır. Nekropol dağın yamacında yerləşdiyindən təbii aşınma nəticəsində qəbirlərin torpaq örtüyü və yan daşları dağılmışdır. Qəbirlər daş qutu tiplidir. Onların bəzilərinin üst daşları saxlanmasa da, ətrafa dağılmış iri sal daşlar qəbirlərin bu tip daşlarla örtüldüyünü göstərir. Tədqiqatlar zamanı nekropolda dörd qəbir abidəsi öyrənilmiş, bu abidələrdən insan skeletinə aid qalıqlar və zəngin maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Dəfnlər kollektivdir. Aşkar olunan arxeoloji materiallar keramika məmulatı və bəzək əşyalarından ibarətdir. Aşkar edilmiş maddi mədəniyyət nümunələri Tunc dövründən Dəmir dövrünə keçidi izləməyə imkan verir. Bu baxımdan bimetallik fibula və dəmir məftildən hazırlanmış, əqiq muncuqlar keçirilmiş boyunbağı, aqat muncuqlar keçirilmiş, üzəri gözlü tunc üzüklər xüsusilə diqqəti cəlb edir. Qəbir avadanlığı arasında şüşə muncuqların olması da bu dövrün yeniliklərindəndir. Çünki Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü abidələrində şüşə muncuqlara heç rastlanmamışdır. Dəmyələr nekropolundan aşkar edilmiş maddi-mədəniyyət nümunələri Naxçıvanda məskənləşən qədim tayfaların Azərbaycanın Şimalında

və Cənubunda məskən salan tayfalarla, habelə Yaxın Şərq ölkələri ilə iqtisadi mədəni əlaqələrinin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Yeni aşkar edilmiş abidələrin Gəmiqayanın yaxınlığında yerləşməsi qaya təsvirlərinin meydana gəlməsində bu tayfaların müəyyən rol oynadığını deməyə imkan verir. Müqayisəli araşdırmalara əsaslanaraq yeni aşkar olunmuş maddi-mədəniyyət nümunələrini e.ə. I minilliyin əvvəllərinə aid etmək olar.



Şəkil 51. Dəmyələr nekropolu

**13. Subatan yaşayış yeri.** Ordubad rayonunda, Sabirkəndin cənub-qərbində, Gilançayın sağ sahilində yerləşir. Abidə 1976-cı ildə aşkar olunmuşdur. Sahəsi 5 hektar, mədəni təbəqənin qalınlığı 3 m-dir. B.İbrahimov, Q.Aslanov və S.Qaşqay tərəfindən tədqiq olunmuşdur. Tədqiqat zamanı Tunc və




Şəkil 52. Dəmyələr nekropolu

Dəmir dövrünə aid tikinti qalıqları, çəhrayı və boz rəngli keramika məmulatı, o cümlədən boyalı keramika aşkar olunmuşdur. Evlərin bünövrəsi dördkünc formalı yonulmamış qaya parçalarından inşa olunmuşdur. Arxeoloji qazıntılar zamanı yaşayış evlərindən dən daşları, həvəng-dəstələr, daş çəkiclər, obsidian lövhələr və digər maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən yaşayış yerini e.ə. II-I minilliklərə aid etmək olar.




Şəkil 53. İlikliqaya nekropolu

**14. İlikliqaya nekropolu.** Yaşayış yerinin yaxınlığında yerləşir. Nekropol təsadüfən dağıdılmış, Son Tunc və Erkən Dəmir dövrünə aid maddi - mədəniyyət nümunələri aşkar olunmuşdur. Aşkar olunan materiallar başlıca

olaraq keramika məmulatından ibarətdir. Küpə, kasa, çaynik və vaza tipli qabların parçalarından ibarət olan keramika nümunələri boz rəngdə yaxşı bişirilmişdir. Aşkar olunan arxeoloji materiallara əsasən, yaşayış yerini e.ə. II minilliyin sonu və I minilliyin əvvəllərinə aid etmək olar.

**15. Vənənd nekropolu.** Ordubad rayonunun Vənənd kəndindən şimal-qərbdə yerləşir. Nekropol torpaq qəbirlərdən ibarətdir. Qəbirlər qərb-şərq istiqamətində yönəldilmişdir. Onların əksəriyyətinin başdaşıları yonulmamış qaya parçalarındandır. Lakin yonulmuş daşlardan hazırlanmış başdaşıları və sinə daşları da vardır. Bəzi qəbirlərin üzərində daşdan yonulmuş qoç fiqurları qoyulmuşdur. Qəbirlərin ətrafı dördkünc formada daşlarla əhatə edilmiş, bəzən isə onların üzəri tamamilə daş yığını ilə örtülmüşdür. Başdaşılarının üzərində süls və nəsx xətləri ilə ərəbcə yazılmış kitabələr var. Axtarışlar zamanı Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji və epiqrafik materiallara əsasən, nekropolu XVI-XVIII əsrlərə aid etmək olar.

**16. Malik İbrahim qəbiristanlığı**. Ordubad şəhərindən şərqdə yerləşir. Qəbiristanlıqdan hazırda istifadə edildiyi üçün Orta əsr qəbirlərinin bir çoxu dağıdılmışdır. Qəbiristanlığın mərkəzində əhali tərəfindən müqəddəs hesab edilən Malik İbrahim ziyarətgahı vardır. Pir kimi ziyarət olunan qəbrin üzərində qoyulmuş mərmər sənduqənin ərəbcə yazısından məlum olur ki, orada hicri 1554-1555-ci ildə vəfat etmiş Fərruxzad bəy dəfn olunmuşdur. Məqbərədən bir qədər aralıda sufi xanəgahı şeyxinin də məzarı vardır. Araşdırmalar zamanı qəbiristanlığın ərazisindən yonulmuş sinə daşları və mərmərdən hazırlanmış xeyli başdaşılarına rast gəlinmişdir. Başdaşıları üzərində ərəbcə yazılmış kitabələr və hicri təqvimi ilə tarixlər var. Tədqiqatlar zamanı Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji və epiqrafik materiallara əsasən, qəbiristanlığı XIV-XVIII əsrlərə aid etmək olar.

**17. Dəlmə nekropolu.** Ordubad rayonunun Sabirkənd kəndindən qərbdə yerləşir. Qəbirlər daş qutu tiplidir. Onlar bir sıra yastı sal daşlardan qurulmuşdur. Qəbirlərdə tək və cüt skelet qalıqlarına rastlanmışdır. Nekropolda aparılan araşdırmalar zamanı Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatı və müxtəlif tunc əşyalar aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən nekropol e.ə. II-I minilliklərə aid edilir.

**18. Nurgədik qəbiristanlığı.** Eyniadlı yaşayış yerindən qərbdə, kəndə gedən cığırın üstündə yerləşir. Qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmişdir. Qərb-şərq istiqamətində olan qəbirlər torpaqda qazılmışdır. Onların bəzilərinin üzərində yalnız daş yığınları qalmışdır. Başdaşılarının bir qismi adi qaya parçalarından, bir qismi isə yonulmuş daşlardandır. Onlar dördkünc formada yonulmuş, yuxarıda isə tağşəkilli formaya salınmışdır. Başdaşılarının üz tərəfində dördkünc taxçalar və ərəb əlifbası ilə kitabələr oyulmuşdur. Başdaşılarından birinin üzərində hicri 1044-cü il tarixinə rast gəlinmişdir. Epiqrafik dəlillərə əsasən qəbiristanlığı XV-XIX əsrlərə aid etmək olar.

**19. Köhnə Kotam qəbiristanlığı.** Kəndin şərq tərəfində təpənin yamacında yerləşir. Qəbirlər torpaqda qazılmış və qərb-şərq istiqamətinə yönəlmişdir. Bəzi qəbirlərin ətrafında dördkünc formalı daş düzümlərinə rast gəlinir. Başdaşılarının əksəriyyəti yonulmamış qaya parçalarından ibarətdir. Lakin qəbirlərin bir çoxunun başdaşıları yonularaq dördkünc və tağvari formada işlənmişdir. Bu tip başdaşılarında ərəb qrafikası ilə yazılmış kitabələr vardır. Kotam qəbiristanlığındakı qəbirlərin bir neçəsinin üstündə qoç daşlar olmuşdur. Arxeoloji və epiqrafik dəlillərə əsasən, qəbiritsanlığı XI-XIX əsrlərə aid etmək olar.

**20. Köçəri qəbiristanlığı.** Ordubad rayonunun Məzrə kəndindən şərqdə, təpənin yamacında yerləşir. Torpaqda qazılmış qəbirlər qərb-şərq istiqamətində yönəlmişdir. Qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmişdir. Qəbirlərin üzərində sənduqə tipli sinə daşları olmuşdur. Sənduqə tipli qəbir daşlarının üzərində ərəb əlifbası ilə kitabələr vardır. Nekropolun ərazisində aparılan axtarışlar zamanı şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Kitabələrə və arxeoloji dəlillərə əsasən, nekropolu XIV-XVII əsrlərə aid etmək olar.

**21. Plovdağ yaşayış yeri.** Ordubad rayonunda Sabirkənddən şərqdə, Gilançayın sol sahilində yerləşir. 1975-76-cı illərdə qeydə alınaraq tədqiq edilmişdir. Abidənin aşınma nəticəsində dağılmasına baxmayaraq, tikintilərin uçub tökülməsi nəticəsində yaranan daş yığınları aydın izlənir. Tədqiqat nəticəsində daş bünövrə üzərində çiy kərpicdən inşa olunmuş binaların divarları aşkar olunmuşdur. Tədqiqat nəticəsində Tunc və Dəmir dövrünə aid keramika məmulatı, heyvan sümükləri, əmək alətləri, çaxmaqdaşı və obsidian parçaları aşkar olunmuşdur.

Son illər Plovdağ yaşayış yerinin şimal-qərbində aparılan qazıntılar zamanı Kür-Araz mədəniyyətinə aid maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Arxeoloji materiallar başlıca olaraq çəhrayı və boz rəngli keramika məmulatından ibarətdir. Keramika məmulatı arasında boz rəngli gil qab parçaları, Kür-Araz mədəniyyəti üçün xarakterik olan yarımşar formalı qulplar üstünlük təşkil edir. Yaşayış yerinin yaxınlığında həmçinin Tunc dövrünə aid nekropol aşkar olunmuşdur.

Aşkar olunan arxeoloji materiallara əsasən, yaşayış yerini e.ə. IV-I minilliklərə aid etmək olar.

**22. Düyülün qalası.** Düyülün kəndindən cənub-qərbdə, hündür dağın üzərində yerləşir. Qalanın yerləşdiyi ərazi cənub və qərb tərəfdən sıldırım qayalıqla əhatə olunmuşdur. Ərazinin digər hissələri təbii müdafiəyə malik olmadığı üçün daşdan inşa edilmiş divarlarla möhkəmləndirilmişdir. Qalanın şərq tərəfinə çəkilən divar iri daşlardan hörülmüş və rizalitlərlə möhkəmləndirilmişdir. Qalanın şimal hissəsi paralel çəkilmiş divarlarla möhkəmləndirilmişdir. Divarların arası kəsilərək mənzil kimi istifadə edilmişdir. Ümumi sahəsi 2100 kv. m. olan qala kiçik həcmlidir. Ehtimal ki, mühafizə məntəqəsi kimi istifadə edilmişdir. Qala divarları bəzi qismlərdə 4 m

hündürlükdə saxlanmışdır. Qalanın mərkəzi hissəsində nekropol vardır. Ehtimal ki, müdafiə zamanı həlak olanlar burada dəfn edilmişdir. Düyülün qalasından aşkar olunan keramika məmulatı Erkən və inkişaf etmiş Orta əsrlər dövrünə aiddir. Düyülün qalası III-XVIII əsrlərə aiddir.

**23. Qəssabxana.** Düyülün kəndindən cənubda yerləşir. Sahəsi iki hektardır. Qəssabxana adlanan ərazi şimal tərəfdən dağ silsiləsi, digər tərəflərdə dərin dərə ilə məhdudlaşır. Xalq arasında vaxtilə burada dükan və bazarların olması haqqında rəvayətlər vardır. Tədqiqat zamanı tikinti qalıqlarına rastlanmamışdır. Aşkar olunan yerüstü materiallar orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı ilə təmsil olunmuşdur. Arxeoloji materiallar XI-XVII əsrlərə aiddir.

**24. Dizə yaşayış yeri.** Düyülün kəndi yaxınlığında yerləşir. Hazırda tərk edilmişdir. Yaşayış yerində xalq tərəfindən pir kimi sitayiş edilən binanın qalıqları qalmışdır. Yaşayış binaları möhrədən və çiy kərpicdən tikilmişdir. Bəzi binaların içərisində dördkünc formalı taxçalar olmuşdur. Yaşayış evlərinin əksəriyyəti dağılmış, onların yerində kiçik təpəciklər qalmışdır. Kəndin əkin sahələri hazırda qonşu kəndlərin, xüsusilə Düyülün kəndinin əhalisi tərəfindən istifadə edilməkdədir. Yaşayış yerindən aşkar olunan arxeoloji materiallar Son Orta əsrlər dövrünə aiddir. Yaşayış yerini XI-XVIII əsrlərə aid etmək olar.

**25. Çeşmə başı kahaları.** Aza kəndinin şimal-şərqində yerləşir. Kahalar ətraf yerlərə nisbətən bir qədər hündürlükdə olan təpənin cənub-şərq tərəfində qazılmışdır. Onların girişi tağvari formadadır. Torpağın aşınması zamanı kahaların girişi uçaraq içəriyə olan keçidi kəsmişdir. Tədqiqat zamanı kahaların ətrafından Son Orta əsrlərə aid keramika parçaları aşkar olunmuşdur. Kahaları XVIII-XIX əsrlərə aid etmək olar.

**26. Darkənd hasarları.** Ordubad rayonunda Darkənddən qərbdə yerləşir. Burada 10 hektardan artıq ərazidə möhrədən tikilmiş divar qalıqları vardır. Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, bu hasarlar torpaq sahələrinin ətrafına çəkilmiş divarların qalıqlarıdır. Onların hamısı dağın yamacı ilə çəkilən su kanalının alt tərəfində yerləşir. Şübhəsiz ki, kanalın suyundan torpaq sahələrini suvarmaq üçün istifadə edilmişdir. Yerli əhalinin verdiyi məlumata görə, bu ərazidə vaxtilə meyvə bağları və üzümlüklər olmuşdur. Araşdırmalar zamanı hasarların ətrafından Son Orta əsrlərə aid şirsiz və şirli keramika məmulatı aşkar olunmuşdur. Darkənd hasarlarını XVII-XIX əsrlərə aid etmək olar.

**27. Aza yaşayış yeri.** Aza kəndinin şimalında, Gilançayın sol sahilində, hündür təpənin üzərində yerləşir. Yaşayış yeri hər tərəfdən daşdan hörülmüş divarlarla əhatə olunmuşdur. Lakin divarların əksər hissəsi uçub dağılmışdır. Divar qalıqları yalnız abidənin cənub hissəsində, Gilançayın sahilində salamat qalmışdır. Qalanın içərisindəki binalar tamamilə dağılmışdır. Tikinti qalıqlarına əsasən, onların daşdan və möhrədən tikildiyini demək olar. Abidənin ərazisindən aşkar olunan yerüstü materiallar Orta əsrlərin Erkən və inkişaf etmiş dövrünə

aiddir. Arxeoloji materiallara əsasən, yaşayış yerini III-XIX əsrlərə aid etmək olar. Yaşayış yeri tərk edildikdən sonra onun bir qismindən qəbiristanlıq kimi istifadə olunmuşdur.

**28. Baş Dizə qəbiristanlığı.** Kəndin şərqində yerləşir. Ərazisi bir hektara yaxındır. Qəbiristanlığın ərazisində ətrafı dördkünc və dairəvi formada daş düzümləri ilə əhatələnmiş torpaq qəbirlər vardır. Başdaşıları və sinə daşları müxtəlif tiplidir. Sinə daşları başlıca olaraq sənduqə tipli və qoç daşlardan ibarətdir. Vaxtilə nekropolun ərazisində xeyli qoç daş olmuşdur. Hazırda onlardan yalnız ikisi salamat qalmışdır. Qəbiristanlığın kənarında olan qoç daşların biri hazırda yerli əhali tərəfindən pir kimi ziyarət edilməkdədir. Qəbirüstü daşlar üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Nekropolu XVI-XX əsrlərə aid etmək olar.

**29. Baş Dizə yaşayış yeri.** Xalq arasında qala adlanır. Yaşayış yeri kəndin içərisində olan hündür təpənin üzərindədir. Abidənin yerləşdiyi ərazi hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Qalaya yalnız cənub tərəfdə yerləşən dar cığırla qalxmaq mümkündür. Abidənin cənub qismində yaşayış binalarının qalıqlarına rastlanır. Tikintilər tamamilə dağıldığından onların planını müəyyən etmək mümkün olmamışdır. Araşdırmalar zamanı qalanın cənub ətəyindən Orta əsrlərə aid keramika parçaları aşkar olunmuşdur. Baş Dizə yaşayış yerini III-XIX əsrlərə aid etmək olar.

**30. Oğlan-qız qayası**. Ordubad rayonunun Baş Dizə kəndindən cənubda, Gilançayın sağ sahilində yerləşən təbii abidədir. Abidə bir-birinin yaxınlığında yerləşən insanabənzər iki şiş zirvədən ibarətdir. Xalq arasında olan rəvayətə görə, Oğlan- qız qayası bir- birini sevən iki gəncin daşa çevrilməsindən yaranmışdır.

**31. Düyülün nekropolu.** Düyülün kəndinin cənubunda, pirin arxa tərəfində yerləşir. Nekropol qərb-şərq istiqamətinə yönəlmiş müsəlman qəbirlərindən ibarətdir. Başdaşıları və sinə daşları müxtəlif tiplidir. Sinə daşları başlıca olaraq sənduqə tipli və qoç daş heykəllər formasında hazırlanmışdır. Sənduqələrin bəzisi yuxarıda tağvari formada tamamlanır. Onların üzərində ərəb əlifbası ilə kitabələr vardır. Qəbirlərin ətrafı çay daşları ilə əhatə edilmiş, bəzən isə tamamilə daşla örtülmüşdür. Salamat qalan qoç daşlarının biri pirin həyətinə qoyulmuş və ziyarət obyektinə çevrilmişdir. Nekropolu XIV-XIX əsrlərə aid etmək olar.

**32. Darkənd nekropolu.** Kəndin qərb tərəfində, dağın ətəyində yerləşir. Orta əsrlərə aid torpaq qəbirlərin yerüstü əlamətləri tamamilə itmişdir. Araşdırma zamanı nekropolda daş qoç fiquru formasında hazırlanmış iki qəbirüstü abidə aşkar olunmuşdur. Qoç daşlar sındırılmışdır. Onlardan birinin boyun hissəsində ərəb əlifbası ilə kitabə vardır. Yerli əhalinin məlumatına görə, qəbiristanlıqda qoç daşlar çox olmuş, lakin dağıdılmışdır. Darkənd nekropolu XIV-XVIII əsrlərə aiddir.

**33. Azad nekropolu.** Kəndin şərqində təpənin ətəyində yerləşir. Qəbiristanlıqda orta əsrlərə aid bir neçə daş sənduqə qalmışdır. Sənduqələr

düzbucaqlı prizma formasında boz və çəhrayı rəngli daşdan hazırlanmışdır. Bəzi sənduqələrin üzəri Günəş, bəziləri isə tağ təsvirləri ilə naxışlanmışdır. Kitabələr ərəb dilində, həm də sinə daşlarının yan tərəfinə yazılmışdır. Onların bir çoxu aşınmaya məruz qalmışdır. Qərb-şərq istiqamətinə yönəlmiş torpaq qəbirlərin ətrafı dördkünc formada çay daşları ilə əhatələnmiş, bəzən isə onların üzəri tamamilə daşla örtülmüşdür. Azad nekropolunu XIV-XVIII əsrlərə aid etmək olar.



Şəkil 54. Xalıkeşan nekropolu

**34. Xalıkeşan nekropolu.** Ordubad rayonunun Sabirkənd və Kələntər Dizə kəndlərinin yaxınlığında, Muncuqlutəpədən şərqdə yerləşir. Nekropol quru çay vadisinə doğru uzanan təpənin yamacında yerləşir. Nekropol yastı sal daşlarla hörülmüş trapesiya formalı qəbirlər və onların yaxınlığında yerləşən qurbangahlardan ibarətdir. Tədqiqat zamanı qara-boz və çəhrayı rəngli keramika məmulatı, tunc silah, tuncdan və daşdan hazırlanmış bəzək əşyaları tapılmışdır. Xalıkeşan nekropolundan aşkar olunan boyalı qablar Naxçıvan boyalı qablar mədəniyyətinin son inkişaf mərhələsinə aiddir. Nekropoldan aşkar edilmiş

keramika məmulatı və tunc əşyalar Urmiya hövzəsində yerləşən arxeoloji abidələrdən əldə edilmiş tapıntılarla bənzərdir.

Arxeoloji materialların tədqiqinə əsasən, nekropol e.ə. II minilliyin sonu və I minilliyin əvvəllərinə aid edilir.

**35. Tivi nekropolu.** Ordubad rayonunun Tivi kəndi içərisində hündür təpənin üzərindədir. Qəbirlər daş qutu tiplidir. Onlar düzbucaqlı formada olub yanlarda iri sal daşlarla qurulmuşdur. Qəbirlərin üzəri bəzən iki, bəzən isə bir neçə sal daşla örtülmüşdür. Müxtəlif istiqamətlərə yönəlmiş vəziyyətdə olan qəbirlər aşınma və təsərrüfat işləri görülərkən dağıdılmışdır. Aşkar olunan arxeoloji materialar gil qablardan, tunc üzük, sırğa, əqiqdən hazırlanmış muncuqlardan ibarətdir. Tapıntılara əsasən abidə e.ə. III-II əsrlərə aid edilir.




Şəkil 55. Gəmiqaya nekropolunda Dəmir dövrünə aid qəbir abidəsi

**36. Gəmiqaya nekropolu.** Nəbiyurdu yaylağında yerləşir. Qəbirlər daş qutu tiplidir. Tədqiqat zamanı dağıdılmış qəbirlərin birindən isə Kür-Araz mədəniyyətinə aid keramika parçaları tapılmışdır Araşdırmalar zamanı nekropolda həmçinin Dəmir dövrünə aid qəbirlər aşkar olunmuşdur. Dəmir dövrünə aid olan qəbir abidəsi qaya parçalarından dördkünc formada hazırlanmış, üzəri ağır sal daşlarla qapadılmışdır. Qəbrin içərisinə şimal tərəfdə yerləşən ensiz dromosdan girilir. Qəbirin şərq divarında bir üçbucaqşəkilli taxça vardır. Abidə kanal qazılarkən dağıntıya uğramışdır və talan edildiyindən maddi-mədəniyyət nümunələri aşkar olunmamışdır. Nekropolu arxeoloji materiallara,

qəbirlərin tikinti texnikasına və quruluşuna əsasən, e.ə. IV-I minilliklərə aid etmək olar.

**37. Dəmirçilər yaşayış yeri.** Ordubad rayonunun Tivi kəndindən şərqdə, təpənin üzərində yerləşir. Yaşayış yerinin ərazisində bünövrəsi daşdan inşa olunmuş dördkünc formalı binaların qalıqları qalmışdır. Yaşayış yeri hər tərəfdən dərin dərə ilə əhatə olunmuşdur. Sahəsi 4 hektardır. Axtarışlar nəticəsində tikinti qalıqları, keramika məmulatı, əmək alətlərinin parçaları, obsidian qəlpələri, dəmir əşyaların qalıqları aşkar olunmuşdur. Mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarət olub, çəhrayı rəngli gil qab parçaları, çiy kərpic qalıqları ilə zəngindir. Tikinti qalıqlarına əsasən demək olar ki, binalar daşdan və çiy kərpicdən inşa olunmuş, bərkidici məhlul kimi əhəngdən və palçıqdan istifadə olunmuşdur. Keramika məmulatı başlıca olaraq çəhrayı rəngdə bişirilmiş gil qab parçalarından ibarətdir. Arxeoloji materiallara əsasən, abidəni III-X əsrlərə aid etmək olar.

**38. Dəmirçilər nekropolu.** Yaşayış yerindən şimal-şərqdə, təpənin yamacında salınmışdır. Qəbirlərin bəzisi aşınma nəticəsində dağılmış, keramika parçaları, tuncdan və əqiqdən hazırlanmış bəzək əşyaları tapılmışdır. Qəbirlər müxtəlif istiqamətlərə yönəlmişdir. Onların bəzisinin üzərinə iri sal daş qoyulmuşdur. Bəzi qəbirlərin ətrafı daşlarla, dördkünc və dairəvi formada əhatə olunmuşdur. Nekropolu arxeoloji materiallara əsasən, III-X əsrlərə aid etmək olar.

**39. Tillək yaşayış yeri.** Ordubad rayonunun Nürgüt kəndindən şimalda, meşənin içərisində yerləşir. Yaşayış yerinin ərazisi 2 hektardır. Mədəni təbəqənin qalınlığı 1-2,5 m-dir. Abidənin ərazisində dördkünc formalı binaların qalıqları qalmışdır. Binaların divarları, yonulmamış qaya parçalarından, bəzən isə yonulmuş daşlardan inşa olunmuşdur. Axtarışlar zamanı çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Abidənin yaxınlığında, dağ çayının əks tərəfində nekropol yerləşir. Arxeoloji materiallara əsasən, yaşayış yerini XIV- XVIII əsrlərə aid etmək olar.

**40. Tillək nekropolu.** Eyniadlı yaşayış yerinin yaxınlığında, meşənin içərisində yerləşir. Nekropol torpaq qəbirlərdən ibarətdir. Qəbirlər qərb-şərq istiqamətinə yönəldilmişdir. Onların üzərinə iri sal daşlar qoyulmuşdur. Aşınma nəticəsində sal daşlar sürüşərək istiqamətini dəyişmişdir. Nekropol yaşayış yeri ilə eyni dövrə aiddir. Nekropolu XIV-XVIII əsrlərə aid etmək olar.

**41. İlikliqaya yaşayış yeri.** Ordubad rayonunun Tivi kəndindən cənub-şərqdə, oval, uzunsov təpənin üzərində yerləşir. Abidənin sahəsi 150 kv. m-dən artıqdır. Tikinti qalıqlarına əsasən demək olar ki, binalar yonulmamış qaya parçalarından inşa olunmuşdur. Mədəni təbəqənin qalınlığı 0,5-1 m arasındadır. Mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarət olub keramika, sümük qalıqları ilə zəngindir. Yerüstü materiallar arasında keramika məmulatı üstünlük təşkil edir. Keramika məmulatı çəhrayı və boz rəngdə bişirilmiş gil qabların

parçalarından ibarətdir. Arxeoloji materiallara əsasən, yaşayış yerini e.ə. II-I minilliklərə aid etmək olar.



Şəkil 56. İlikliqaya yaşayış yeri

**42. Piləpan qalası.** Ordubad rayonunun Çənnəb kəndindən qərbdə, hündür təpənin üzərində yerləşir. Qala üç tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Onun təbii cəhətdən zəif müdafiə olunan şərq tərəfinə hündür divar çəkilmişdir. Divarların hündürlüyü 2-4 m arasındadır. Divar boyunca qalanın içərisində dördkünc formalı evlər inşa olunmuşdur. Onların həcmi bir-birindən fərqlənir. Bəzi otaqlardan bir-birinə keçid qoyulmuşdur. Divarın üzəri ilə əsgərlərin müdafiəsi üçün xüsusi sipər düzəldilmişdir. Axtarışlar zamanı qaladan yalnız Son Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən, qalanı III-XIX əsrlərə aid etmək olar.

**43. Qalaça.** Ordubad rayonunun Nüs-nüs kəndindən şimal-şərqdə, hündür dağın üzərində yerləşir. Hər tərəfdən sıldırım qayalarla əhatə olunan kiçik

meydançaya yalnız cənubda olan ensiz cığırla qalxmaq mümkündür. Qalada heç bir tikintiyə və maddi mədəniyyət qalığına rastlanmamışdır. Ehtimal ki, ondan təbii qala kimi istifadə edilmişdir. Yerli əhalinin verdiyi məlumata görə, qaladan xəbərləşmək məqsədilə istifadə edilmişdir. Düşmən hücumu zamanı bir tonqal Qalaçada digəri isə Dübəndidə qalanar və bütün Ordubad mahalına xəbər çatdırılardı. Abidəni X-XIX əsrlərə aid etmək olar.

**44. Darkənd yaşayış yeri.** Qalıqları hazırda eynikəndin ərazisində yerləşir. Orta əsr yaşayış evlərinin bir qisminin yalnız qalıqları saxlanır. Yaşayış evləri dördkünc formalı çiy kərpicdən inşa olunmuş, onların damı tağbəndlərlə tamamlanmışdır. Yaşayış binalarının tikintisində bişmiş kərpic və daşdan da istifadə edilmişdir. Hazırda kəndin içərisində mədəni təbəqənin dağılması nəticəsində çəhrayı rəngli keramika məmulatı ətrafa yayılmışdır. Onların bir qismi şirlidir. Kəndin ətrafında Orta əsrlərə aid türbə və qəbiristanlıqlar indiyədək qalmaqdadır. Yaşayış yerindən aşkar olunan arxeoloji materiallar XI-XVIII əsrlərə aiddir.

**45. Çardağ qəbiristanlığı.** Ordubad şəhərindən 2 km şərqdə yerləşir. Torpaq qəbirlərdən ibarət olan qəbiristanlıq geniş bir ərazini əhatə edir. qəbirlər qərbdən-şərqə doğru istiqamətlənmişdir. Qəbirlərin üzərində düzgün olmayan düzbucaqlı formasında sinə daşları qoyulmuşdur. Bəzi qəbirlərin ətrafı kiçik həcmli daşlarla əhatələnmiş, bəzilərinin isə üzəri tamamilə kiçik həcmli daşlarla qapadılmışdır. Seyid Səbrinin yerli əhaliyə əsaslanaraq verdiyi məlumata bu qəbiristanlıq "ounəz" adlı bir tayfaya məxsus olmuşdur. Qəbiristanlığın bir qismində müsəlman qəbirlərinə də rastlanır. Qəbir abidələrinin bəzisinin başdaşılarında ərəb əlifbası ilə kitabələr vardır. Qəbirlərin əksəriyyətinin baş daşları yonulmamış qaya parçalarındandır. Axtarışlar zamanı qəbiristanlığın ərazisindən Son Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Çardağ qəbiristanlığı XVI-XVIII əsrlərə aid edilir.

**46. Qaradağ nekropolu.** Ordubad şəhərinin ərazisində yerləşir. Qəbirlərin torpaq örtüyü aşınma nəticəsində dağıdıldığından yalnız başdaşılarını izləmək mümkündür. Bəzi qəbirlərin dövrəsinə düzbucaqlı formada kiçik həcmli daşlar düzülmüş, bəzilərinin isə üzəri tamamilə daşlarla örtülmüşdür. Qəbiristanlıq torpaq qəbirlərdən ibarətdir. Qəbirlər qərbdən şərqə doğru istiqamətlənmişdir. Qəbirüstü daşlar müxtəlif daş cinslərindəndir. Onlar arasında mərmərdən hazırlanmış başdaşılarına da rastlanır. Baş daşlarının bir qismində ərəb əlifbası ilə kitabələr olmuşdur. Epiqrafik dəlillərə əsasən qəbiristanlıq XIV-XVI əsrlərə aid edilir.

**47. Kələki nekropolu.** Ordubad rayonunun Kələki kəndinin içərisində aşkar olunmuşdur. Qəbirlər qərb-şərq istiqamətində yönəlmiş daş qutulardan ibarət olmuşdur. Onlar yanlarda yastı sal daşla qurulmuş və eynicinsli daşlarla qapadılmışdır. Aşınma zamanı dağılmış qəbirlərdən keramika parçaları şüşə və əqiqdən hazırlanmış muncuqlar aşkar olunmuşdur. Nekropol III-VII əsrlərə aid edilir.

**48. Yuxarı Əylis nekropolu.** Ordubad rayonunun Y.Əylis kəndindən şimal- şərqdə, təpənin ətəyində yerləşir. Qəbirlərin torpaq örtüyü aşındığından onları yalnız baş daşlarına görə müəyyənləşdirmək olur. Başdaşılarının əksəriyyəti yonulmamış qaya parçalarındandır. Bəzi qəbirlərin ətrafına kiçik həcmli dördkünc formada daşlar düzülmüşdür. Başdaşılarının bir çoxu aşınma nəticəsində sınmış, bir qismi isə yerə düşmüşdür. Başdaşılarının bir qismi yonulmuş qaya parçalarından hazırlanmışdır. Onlar dördkünc formalı olub yuxarıda tağşəkillidir. Başdaşılarından ikisinin üzərində ərəb əifbası ilə yazılmış kitabəyə, birinin üzərində isə gül təsvirinə rast gəlinmişdir. Qəbiristanlığın qərb qurtaracağında yerli əhali tərəfindən ziyarət edilən seyid qəbri vardır. Qəbiristanlıq xalq arasında Xışkeşin qəbiristanlığı adlanır. Nekropolu XIV-XVIII əsrlərə aid etmək olar.

**49. Dəstə nekropolu.** Ordubad rayonunun Dəstə kəndində yerləşir. Orta əsr qəbirlərinin bir çoxu yeni qəbirlər qazılarkən dağıdılmışdır. Qəbirlər torpaqda qazılmış dördkünc formalı çalalardan ibarət olub qərb-şərq istiqamətindədir. Qəbirlərin ətrafı dördkünc formada daşlarla əhatə olunmuşdur. Başdaşılarının əksəriyyəti yonulmamış, bəziləri isə yonulmuş daşlardandır. Onlar dördkünc formalı olub yuxarıda tağşəkillidir. Bəzi başdaşılarının üzərində nəbati və astral rəsmlərə rast gəlinir. Başdaşılarının bir neçəsinin üzərində ərəb əlifbası ilə yazılmış kitabələr var. Onlardan birinin üzərində hicri 1227, digərində isə 1199 qeyd olunmuşdur. Qəbiristanlığın cənub şərq tərəfində əhəng məhlulu ilə daş və bişmiş kərpicdən inşa edilmiş tikintinin qalıqları vardır. Lakin o, çox dağıldığından tikintinin nə ilə bağlı olduğu müəyyən edilməmişdir. Nekropol XVIII-XIX əsrlərə aid edilir.

**50. Köhnə Dırnıs yaşayış yeri.** Ordubad rayonunun Dırnıs kəndindən şimal- şərqdə, təpənin yamacında yerləşir. Yaşayış evləri dördkünc formalı olub daş, möhrə və çiy kərpicdən inşa edilmişdir. Evlər bir- birinin yaxınlığında, dağın yamacında açılan süni səkilərdə salınmışdır. Kəndin qərb tərəfindən çəkilən su kanalı hazırda fəaliyyət göstərməkdədir. Araşdırmalar zamanı yaşayış yerindən Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Aşınma zamanı yaşayış yerində açılan yarğanlarda mədəni təbəqənin qalınlığı 1,5-2 m arasındadır. Təbəqədə kəndir, keramika məmulatı, kül yığınları və tikinti qalıqlarına rastlanır. Arxeoloji materiallara əsasən, yaşayış yerini XIV-XVIII əsrlərə aid etmək olar.

**51. Əfqan qalası.** Ordubad şəhərinin içərisində, Dübəndi çayının sahilində yerləşir. Qala şərq tərəfdən sıldırım qayalıqlarla məhdudlaşır. Digər tərəflərdə müdafiə məqsədi ilə iri qaya parçalarından hörülmüş müdafiə divarı vardır. Hörgüdə bərkidici kimi əhəng məhlulundan istifadə edilmişdir. Qala divarının aşınma nəticəsində dağılmasına baxmayaraq, 5 m hündürlükdə salamat qalmışdır. Qalanın içəri tərəfindəki tikintilər tamamilə dağılmış vəziyyətdədir. Bəzi qismlərdə dördkünc formalı binaların qalıqlarını izləmək mümkündür. Araşdırmalar zamanı qalanın ərazisində Orta əsrələrin sonuna aid şirli və şirsiz

keramika məmulatı toplanmışdır. Arxeoloji materiallara və qala divarının tikinti texnikasına əsasən, Əfqan qalasını XIV-XIX əsrlərə aid etmək olar.

**52. Çardağ yaşayış yeri.** Ordubad rayonundan şərqdə yerləşir. Tikintilər tamamilə dağılmış vəziyyətdədir. Yaşayış binalarının yerində yalnız dördkünc formalı daş yığınları qalmışdır. Tikinti materialı kimi çay daşı, möhrə və kərpicdən istifadə edilmişdir. Bəzi binaların yerində dördkünc formalı çalalar qalmışdır. Tikinti materialı kimi çay daşı, möhrə və çiy kərpicdən istifadə edilmişdir. Yaşayış yerindən əldə edilən yerüstü arxeoloji materiallar Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı ilə təmsil olunmuşdur. Arxeoloji materiallara əsasən, abidəni XIV-XVIII əsrlərə aid etmək olar.

**53. Baba Yaqub qəbiristanlığı.** Ordubad rayonunun Dəstə kəndindən qərbdə eyniadlı pirin ətrafında yerləşir. Qəbiristanlıq şərq-qərb istiqamətinə yönəldilmiş müsəlman qəbirlərindən ibarətdir. Bəzi qəbirlərin ətrafı dördkünc formada çay daşları ilə əhatə olunmuş, bəzilərinin isə üzərində çay daşlarından kiçik təpəciklər əmələ gəlmişdir. Bəzi qəbirlər aşınma nəticəsində dağılmışdır. Axtarışlar zamanı qəbiristanlığın ərazisindən Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən, qəbiristanlığı XIV-XVIII əsrlərə aid etmək olar.

**54. Baba Yaqub yaşayış yeri.** Eyniadlı pirdən şimal-şərqdə yerləşir. Ərazisi 2 hektardan artıqdır. Aşınma nəticəsində yaranan yarğanlarda mədəni təbəqənin qalınlığı 0,5-1 m arasındadır. Yaşayış yerinin ərazisində dördkünc formalı evlərin qalıqları saxlanmışdır. Tikinti qalıqlarına əsasən demək olar ki, binaların inşasında çay daşından istifadə olunmuşdur. Tədqiqat zamanı aşkar olunan keramika məmulatı Son Orta əsrlərə aiddir. Arxeoloji materiallara əsasən, yaşayış yerini XIV-XVIII əsrlərə aid etmək olar.

**55. Xanağa yaşayış yeri.** Ordubad rayonunun Xanağa kəndindən şərqdə, pirin yaxınlığında yerləşir. Sahəsi 3 hektardır. Mədəni təbəqənin qalınlığı 0,5-1 m arasındadır. Yaşayış yerinin ərazisində daşdan inşa olunmuş tikinti qalıqları var. Bərkidici kimi əhəng məhlulu və palçıqdan istifadə olunmuşdur. Tikinti qalıqlarına əsasən demək olar ki, binaların bünövrəsi çay daşlarından, divarlar isə möhrədən inşa edilmişdir. Axtarışlar zamanı Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji tapıntılara əsasən, yaşayış yerini XII- XVIII əsrlərə aid etmək olar.

**56. Xanağa nekropolu.** Ordubad rayonunun Xanağa kəndindən şərqdə pirin ətrafında yerləşir. Nekropol hazırda itmək üzrədir. Nekropol qərb-şərq istiqamətinə yönəldilmiş müsəlman qəbirlərindən ibarətdir. Onların bəzisinin ətrafına dördkünc formada çay daşları düzülmüş, bəzisinin üzərində daş yığını əmələ gəlmişdir. İslam müqəddəslərindən birinin qəbri üzərində inşa olunan bina yerli əhali tərəfindən pir kimi ziyarət edilir. Nekropolun ərazisindən son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən, nekropolu XII- XVIII əsrlərə aid etmək olar.

**57. Vələver nekropolu.** Ordubad rayonunun Vələver kəndindən şərqdə təpənin üzərində yerləşir. Nekropol qərb-şərq istiqamətinə yönəldilmiş müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərin ətrafına dördkünc formada çay daşları düzülmüş, bəzi qəbirlərin üzərində isə daş yığınları meydana gəlmişdir. Qəbirlərin bəzisinin üzərində qoç daşlar vardır. Başdaşılarının əksəriyyəti yonulmamış qaya parçalarındandır. Lakin yonulmuş başdaşılarına da rast gəlinir. Onlar dördkünc olub yuxarıda tağşəkilli formaya malikdir. Başdaşılarının bəzisində ərəb əlifbası ilə kitabə vardır. Nekropol XIV-XVIII əsrlərə aid edilir.

**58. Vələver qalası.** Ordubad rayonunun Vələver kəndinin şərqində yerləşir. Hazırda abidənin bir qismində qəbiristanlıq salınmışdır. Tikinti qalıqlarına əsasən demək olar ki, evlər daş təməl üzərində möhrə və çiy kərpicdən inşa olunmuşdur. Abidənin şərq hissəsində müdafiə divarlarının qalıqları saxlanmışdır. Müdafiə divarlarının əksəriyyəti, demək olar ki, yol çəkilərkən tamamilə dağıdılmışdır. Aşınma nəticəsində bəzi yerlərdə mədəni təbəqə dağılmış, maddi- mədəniyyət nümunələri üzə çıxmışdır. Aşkar olunan maddi-mədəniyyət qalıqları ocaq yerləri, kül yığınları, möhrə parçaları və çəhrayı rəngdə bişirilmiş keramikadan ibarətdir. Arxeoloji materiallara əsasən qalanı V-VIII əsrlərə aid etmək olar.

**59. Dırnıs qəbiristanlığı.** Kəndin şimalında təpənin ətəyində salınmışdır. Qəbiristanlıq qərb-şərq istiqamətinə yönəlmiş dördkünc formalı torpaq qəbirlərdən ibarətdir. Qəbirlərin üzərində kiçik təpəciklər və qaya parçalarından qoyulmuş başdaşıları vardır. Bəzi qəbirlərin ətrafı dördkünc formada çay daşları ilə əhatələnmişdir. Qəbirlərin bir qisminin başdaşıları yonulmuş bərk daş cinslərindən hazırlanmış, onların üzərində ərəb əlifbası və hicri təqvimi ilə 1101, 1120-ci il tarixli ilə kitabələr qoyulmuşdur. Araşdırma zamanı qəbiristanlığın ərazisindən Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur.

Arxeoloji materiallara və epiqrafik dəlillərə əsasən Dırnıs nekropolu XV-XIX əsrlərə aid edilir.

**60. Nurgədik yaşayış yeri.** Ordubad rayonunun Dırnıs kəndindən şimalda, eyniadlı çayın sağ sahilində yerləşir. Yaşayış evləri dördkünc formalı olub daşdan inşa olunmuşdur. Bəzi evlərin inşasında əhəng məhlulundan istifadə edilmişdir. Evlər bir, iki və üç otaqlıdır. Kəndin şərq tərəfində, çayın kənarında məscidə aid binanın qalıqları vardır. Yaşayış evləri dağın yamacında, bir-birindən müəyyən məsafədə tikilmişdir. Üstdəki binaların eyvanı altdakının damına çıxır. Kəndin içərisində və ondan bir qədər aralıda heyvan ağılları və mal-qara saxlamaq üçün kahalar vardır. Axtarışlar zamanı yaşayış yerindən şirli və şirsiz keramika məmulatı, təndir qalıqları, bad yığınları aşkar olunmuşdur.

Arxeoloji materiallara əsasən, yaşayış yeri XV-XIX əsrlərə aid edilir.

**61. Nurgədik oba yeri**. Kəndə gedən yolun üstündə, dağın yamacında yerləşir. Obada daşdan hörülmüş tikinti qalıqları və söyüd ağacları vardır. Tikinti qalıqlarına əsasən demək olar ki, obada dördkünc formalı evlərdən istifadə

edilmişdir. Oba gur sulu bulağın başında salınmışdır. Yaşayış yerini Nurgədik kəndi ilə eyni dövrə XV-XIX əsrlərə aid etmək olar.

**62. Nüsnüs yaşayış yeri.** Eyniadlı kəndin müasir tikintiləri altında qalmışdır. Hazırda yaşayış yerinə aid bəzi binaların qalıqları kəndin içərisində qalmaqdadır. Onlar daşdan inşa olunmuş hündür kürsülük üzərində çiy kərpicdən tikilmişdir. Evlərin divarlarında dördkünc və tağvari formalı taxçalar vardır. Yaşayış yerinin orta əsrlərə aid tikintilərindən biri də kəndin içərisində qalmaqda olan hamamdır. O, əhəng məhlulu ilə daşdan inşa olunmuş, üzəri tağbənd və iki günbəzlə örtülmüşdür. Hamamın ətrafında və Qırxkimsənə pirinin ətrafında mədəni təbəqənin aşınması nəticəsində orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı, təndir qalıqları üzə çıxmışdır. Arxeoloji dəlillər yaşayış yerində XII-XVIII əsrlərdə yaşayış olduğunu deməyə əsas verir.

**63. Nüsnüs qəbiristanlığı.** Eyniadlı kəndin şimalında yerləşir. Hazırda qəbiristanlığın ərazisi müasir tikintilərin altında qalmışdır. Qəbiristanlıqda olan qəbirlərin yerüstü əlamətləri itmişdir. Yalnız bir neçə qəbrin başdaşı salamat qalmışdır. Bəzi qəbirlərin üzərində isə daş yığınlarına rast gəlinir. Başdaşıları yonulmamış qaya parçalarındandır. Nüs-nüs qəbiristanlığını yaşayış yeri ilə eyni dövrə XII-XIX əsrlərə aid etmək olar.

**64. Yuxarı Əndəmic qəbiristanlığı.** Ordubad rayonunda eyniadlı kəndin şərqində, təpənin ətəyində yerləşir. Orta əsrlərə aid qəbir abidələrinin yerüstü əlamətləri itmişdir. Onların yalnız başdaşılarına əsasən müəyyən etmək mümkündür. Bəzi qəbirlərin ətrafına dördkünc formada çay daşları düzülmüşdür. Qəbirlərdən birinin başdaşında ərəb əlifbası ilə kitabə vardır. Qəbiristanlıq XVI-XIX əsrlərə aid edilir.

**65. Gənzə qəbiristanlığı.** Kəndin içərisində yerləşir. Qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmiş və başdaşıları torpağın altında qalmışdır. Qəbiristanlıq qərb-şərq istiqamətinə yönəlmiş müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərdən bəzisinin ətrafında dördkünc formalı daş düzümləri, bəzilərinin üzərində isə kiçik oval təpəciklər qalmışdır. Qəbirlərdən bir neçəsinin başdaşıları yonulmuş qaya parçalarından hazırlanmışdır. Onlar dördkünc formalı olub tağşəkilli sonluqla tamamlanmışdır. Başdaşılarının üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Axtarışlar zamanı qəbiristanlığın ərazisindən Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur.

Qəbiristanlıq XI-XVIII əsrlərə aid edilir.

**66. Sınağan qalası.** Ordubad rayonunun Gənzə kəndindən şimalda, sıra dağların Gənzə çayına doğru uzanan uzunsov çıxıntılarından birinin üzərində yerləşir. Qala hər tərəfdən hündür divarla əhatə olunmuşdur. Divarların inşasında qaya parçaları və palçıqdan istifadə edilmişdir. Cənub tərəfdə dairəvi formalı bir bürcü vardır. Şərq divarının inşasında rizalitlərdən istifadə olunmuşdur. Qalanın girişi qərb tərəfdəndir. Giriş hər iki tərəfdən hündür divarla əhatə olunmuşdur. Qalanın içərisində iki böyük rombşəkilli binanın və dördkünc formalı otaqların qalıqları saxlanmışdır. Axtarışlar zamanı şirsiz keramika məmulatı və saxsı

boruların qalıqları aşkar olunmuşdur. Saxsı borularla yaxınlıqda olan bulağın suyu qalanın içərisinə gətirilmişdir. Hazırda həmin su kəməri tamamilə sıradan çıxmışdır. Yaşayış yeri VII- XIV əsrlərə aid edilir.

**67. II Nüsnüs qəbiristanlığı.** Kəndin içərisindən keçən yolun üst tərəfində yerləşir. Qəbiristanlıq qərb-şərq istiqamətinə yönəlmiş torpaq qəbirlərdən ibarətdir. Əksərinin yerüstü əlamətləri itmişdir. Bəzi qəbirlərin başdaşıları, bəzilərinin isə üzərində daş yığınları vardır. Qəbiristanlığın ərazisindən Son Orta əsrlərə aid şirsiz keramika məmulatı aşkar olunmuşdur. Qəbiristanlıq XII-XVIII əsrlərə aid edilir

**68. Köhnə Əndəmic yaşayış yeri (Gülaman).** Yuxarı Əndəmic kəndindən qərbdə yerləşir. Tikinti qalıqlarına əsasən demək olar ki, evlərin tikintisində daş və möhrədən, bəzi evlərin tikintisində isə kvadrat formalı çiy kərpicdən istifadə edilmişdir. Evlər dördkünc formalıdır. Onlar bir, iki, bəzən isə üç otaqlıdır. Yaşayış binaları dağın yamacında yaradılan səkilərdə inşa olunmuşdur. Tədqiqat zamanı Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatına rast gəlinmişdir. Araşdırmalara əsasən demək olar ki, yaşayış yerində XIV-XVIII əsrlərdə yaşayış olmuşdur.

**69. Gənzə yaşayış yeri.** İndiki Gənzə kəndinin tikintiləri altında qalmışdır. Araşdırmalar zamanı kəndin ərazisindən orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Kəndin içərisində Orta əsrlərə aid pir, hamam və qəbiristanlıq indiyədək qalmaqdadır. Epiqrafik dəlillər və arxeoloji materiallar Gənzə kəndində XI-XVIII əsrlərdə yaşayışın olduğunu deməyə əsas verir. Ehtimal ki, kəndin əsası daha qədim dövrlərdə qoyulmuşdur.

**70. Biləv yaşayış yeri.** İndiki kəndin müasir tikintilərinin altında qalmışdır. Kəndin ətrafında Ağacannı, Çayqatışan, Şır-Şır, Əmircanlı, Xəlfəli və s. yer adları var. Kəndin içərisində mədəni təbəqənin qalınlığı 0,5-1,5 m arasındadır. Aşınma nəticəsində dağılan mədəni təbəqədən şirli və şirsiz saxsı məmulatı, o cümlədən Orta əsrlərə aid saxsı qəlyan, çıraq, küpə və nimçə tipli qabların parçaları aşkar olunmuşdur. Biləv kəndinin ətrafında Orta əsrlərə aid dörd qəbiristanlığın olduğu müəyyən olunmuşdur. Kəndin içərisində yerləşən qala əhalinin düşmən hücumlarından mühafizə olunmasında istifadə olunmuşdur. XVIII əsrə aid körpünün qalıqları da hazırda Biləv kəndində qalmaqdadır. Arxeoloji materiallara əsaslanaraq demək olar ki, kəndin əsası ilk orta əsrlərdə, təqribən V-VII əsrlərdə qoyulmuş, sonrakı dövrlərdə isə inkişaf etmiş yaşayış məntəqəsi olmuşdur.

**71. II Biləv qəbiristanlığı.** Kəndin içərisində yerləşir. Torpaqda qazılan müsəlman qəbirləri qərb-şərq istiqamətində yönəlmişdir. Başdaşıları yonulmamış qaya parçalarındandır. Qəbirlərin ətrafı dördkünc formada daşlarla əhatə olunmuşdur. Qəbiristanlığı XVIII-XX əsrlərə aid etmək olar.

**72. Yencə qəbiristanlığı.** Biləv kəndinin şimal- qərbində, kəndin mərkəzindəki Taxtır adlı təpənin arxasında yerləşir. Qəbiristanlıq təpənin ətəyində salınmışdır. Hazırda onun yerüstü əlamətləri tamamilə itmişdir. Bəzi

qəbirlərin ətrafında dördkünc formalı daş düzümlərinə rastlanır. Torpaqda qazılan müsəlman qəbirləri qərb-şərq istiqamətinə yönəlmişdir. Tədqiqat zamanı Son Orta əsrlərə aid şirsiz keramika məmulatı toplanmışdır. Qəbiristanlığı XVII-XVIII əsrlərə aid etmək olar.

**73. Biləv qalası.** Kəndin içərisində «Taxtır» adlı təpənin üzərində yerləşir. Qala divarları yalnız bəzi yerlərdə saxlanmışdır. Divar qalıqlarına əsasən demək olar ki, qala təpənin üzərini tamamilə əhatə etmişdir. Qalanın tikintisində Naxçıvan qalaları üçün xarakterik olan ziqzaq şəkilli çıxıntılardan istifadə olunmuşdur. Qalanın içəri tərəfində dördkünc formalı binaların qalıqları saxlanmışdır. Tədqiqat zamanı toplanan yerüstü materiallar Erkən Orta əsrlər dövrünə aiddir. Yerli əhalinin verdiyi məlumata görə, qaladan uzun müddət düşmən hücumlarından qorunmaq üçün istifadə olunmuşdur. XX əsrin əvvəllərində qazılmış səngərlərin qalıqları indi də qalada qalmaqdadır. Qalanı VII-X əsrlərə aid etmək olar.

**74. Carçı daşı.** Ordubad rayonunun Biləv kəndindən cənubda, hündür təpənin üzərində yerləşir. Yerli əhalinin məlumatına görə, kəndlə bağlı ən mühüm xəbərlər bu daşın üzərinə çıxan carçı tərəfindən elan edildiyi üçün belə adlandırılmışdır.

**75. Sıx qəbiristanlığı.** Eyniadlı pirin ətrafında yerləşir. Qəbiristanlıq hündür təpənin üzərini və onun ətəyini əhatə edir. Qəbirlərin ətrafı dördkünc, bəzən isə dairəvi formada daş düzümləri ilə əhatə olunmuşdur. Torpaq qəbirlərin hamısı qərb-şərq istiqamətinə yönəlmişdir. Bəzi qəbirlərin üzərində qoç daşlar vardır. Əhalinin məlumatına görə, vaxtilə onlar daha çox olmuşdur. Başdaşılarının əksəriyyəti yonulmamış qaya parçalarındandır. Bəzi qəbirlərin üzərində sənduqə tipli yonulmuş daşlar da vardır. Qəbir daşları üzərindəki ərəb əlifbası ilə yazılmış kitabələr aşınmaya məruz qaldığından oxunmaz hala düşmüşdür. Qəbiristanlığı XII-XVIII əsrlərə aid etmək olar.

**76. Behrud qəbiristanlığı.** Kəndin şərqində hündür təpənin ətəyində yerləşir. Qəbiristanlıq qərb-şərq istiqamətinə yönəlmiş torpaq qəbirlərdən ibarətdir. Qəbirlərin ətrafı dördkünc formada daş düzümləri ilə əhatə olunmuşdur. Vaxtilə qəbiristanlıqda pir kimi ziyarət edilən müqəddəs bir qəbir olmuş, lakin hazırda tamamilə dağılmışdır. Hazırda qəbiristanlıqda türk şəhidinə aid bir məzar var. Axtarışlar zamanı qəbiristanlığın ərazisindən Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Qəbiristanlığı XI-XIX əsrlərə aid etmək olar.

**77. Bist qəbiristanlığı.** Kəndin şimal şərqində yerləşir. Qəbiristanlıq torpaq qəbirlərdən ibarət olub qərb-şərq istiqamətində yönəlmişdir. Torpaqda qazılan qəbirlərin üzəri yastı, sal daşlarla örtülmüşdür. Müsəlman qəbirlərindən ibarət olan bu qəbiristanlıq yol çəkilərkən təsadüfən dağıdılmışdır. Qəbirlərin yerüstü əlamətləri tamamilə itdiyindən bu ərazidə müsəlman qəbiristanlığının olmasından yerli əhalinin belə xəbəri olmamışdır. Qəbiristanlığı IX-XIV əsrlərə aid etmək olar.

**78. Dərgəməlik yaşayış yeri.** Ordubad rayonunun Bist kəndindən şimalda, dağların arasında yerləşir. Yaşayış yerindəki binalar daş, möhrə və kvadrat formalı çiy kərpicdən inşa olunmuşdur. Evlərin qapı və pəncərələri dördkünc formalı olub, başlıca olaraq cənuba yönəlmişdir. Evlər bir, iki, bəzən isə üç otaqlıdır. Onların içərisində divarlarda inşa olunmuş buxarılar vardır. Bəzi evlərin divarlarında kiçik dördkünc formalı taxçalara rastlanır. Yaşayış yerinin yaxınlığında bulaq vardır. Araşdırmalar zamanı yaşayış yerindən çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatı, o cümlədən mətbəx qablarının parçaları aşkar olunmuşdur. Keramika məmulatına əsasən, yaşayış yerini XIV-XVIII əsrlərə aid etmək olar.

**79. Ələhi yaşayış yerinin** qalıqları indiki kəndin müasir tikintiləri altında qalmışdır. Mədəni təbəqənin qalınlığı 0,5-2 m arasındadır. Mədəni təbəqənin aşınması nəticəsində aşkar olunan maddi- mədəniyyət qalıqları kül yığınları, bad qırıqları, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika parçalarından ibarətdir. Aparılan araşdırmalar göstərir ki, Orta əsrlər dövründə yaşayış yerinə saxsı borular vasitəsi ilə içməli su gətirilmişdir. Orta əsrlərə aid olan körpünün qalıqları hazırda Ələhi kəndi yaxınlığında qalmaqdadır. Körpünün yaxınlığında, çayın sol sahilində köhnə dəyirmanın qalıqları var. Orta əsr Ələhi yaşayış yerini XI-XVIII əsrlərə aid etmək olar.

**80. Ələhi yolunun qalıqları.** Eyniadlı kəndin qərb tərəfində, çayın sağ sahilində yerləşir. Körpüdən çıxdıqdan sonra yol həm cənuba, həm də şimala doğru uzanır. Dağların yamacı boyunca uzanan yolu aşınmadan qorumaq üçün iri qaya parçalarından hörülmüş divarlar çəkilmişdir. Divarların ətrafından Orta əsrlərə aid şirsiz keramika parçaları aşkar olunmuşdur. Ələhi körpüsü yaxınlığında olan yolu XVII-XVIII əsrlərə aid etmək olar.

**81. Pəzməri nekropolu.** Kəndin içərisində təpənin üzərində yerləşir. Nekropoldakı qəbirlər torpaqda qazılmış və qərb-şərq istiqamətinə yönəlmişdir. Qəbirlərin əksərinin yerüstü əlamətləri itmişdir. Lakin onların bəzisinin üzərində daş yığınlarına, bəzisində isə dördkünc formalı daş düzümlərinə rastlanır. Axtarışlar zamanı nekropolun ərazisindən Orta əsrlərə aid şirsiz keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji tapıntılara əsasən, nekropolu XI-XVII əsrlərə aid etmək olar.

**82. Tiri qəbiristanlığı.** Ordubad rayonunun Pəzməri kəndindən şərqdə, hündür dağın üzərində yerləşir. Bu ərazi yerli əhali tərəfindən yaylaq kimi istifadə edilir. Eyni zamanda Yaylaqda olan ağaclar və daşlar müqəddəs hesab olunur. Qəbiristanlıq eyniadlı pirin ətrafındadır. Qəbirlərin bir çoxunun yerüstü əlamətləri itmişdir. Onların ətrafında dördkünc formalı daş düzümlərinə rastlanır. Verilən məlumata görə əhalinin yaylağa çıxdığı zaman, vəfat edənlər burada basdırılarmış. Qəbiristanlığın mərkəzində pir kimi sitayiş edilən bir məzar vardır. Məzar daşında olan kitabə onun XVI əsrə aid olduğunu təsdiq edir. Araşdırmalar zamanı qəbiristanlıqdan Orta əsrlərə aid keramika parçaları da aşkar olunmuşdur. Arxeoloji dəlillərə əsasən qəbiristanlığı XI-XX əsrlərə aid etmək olar.

**83. Ağrı qəbiristanlığı.** Eyni adlı kəndin içərisində Xanağa- Dırnıs yolunun sol kənarında yerləşir. Qəbiristanlıq müsəlman qəbirlərindən ibarətdir. Qərb-şərq istiqamətində yerləşən qəbirlər torpaqda qazılmışdır. Baş daşları yonulmamış qaya parçalarındandır. Qəbirlərin üzəri dördkünc formada daş düzümləri ilə əhatə olunmuşdur. Onlardan bəzilərinin üzərində konusvari təpələr əmələ gəlmişdir. Bəzi qəbirlərin başdaşıları yonulmuş və onlara tağvari forma verilmişdir. Yonulmuş başdaşıları üzərində ərəb əlifbası ilə yazılmış kitabələr var. Tədqiqat zamanı nekropolun ərazisində Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatına rastlanmışdır. Ağrı qəbiristanlığını XI-XX əsrlərə aid etmək olar.

**84. Köhnə Kotam yaşayış yeri.** Ordubad rayonunun Kotam kəndində şimal-şərqdə yerləşir. Kəndin xarabalıqları Kotam çayı boyunca uzanır. Kəndin mərkəzi hissəsində məscid binası var. Evlər daş, möhrə və kvadrat formalı çiy kərpiclərdən inşa olunmuşdur. Evlər bir-birinin yaxınlığında, təpənin yamacında düzəldilmiş səkillərdə salınmışdır. Əkin və bağ yerləri kəndin şimal tərəfindəki sahədə çay boyunca uzanır. Əhalinin əsas məşğuliyyəti bağçılıq, bostançılıq və maldarlıq olmuşdur. Kəndlə üzbəüz çayın sol sahilində Orta əsrlərə aid nekropol yerləşir. Kəndin içərisindəki məsciddə saxlanan kitabədə və nekropolda saxlanan kitabələrdə kənd sakinləri ilə bağlı məlumatlar var. Yaşayış yerini XIV-XVIII əsrlərə aid etmək olar.

**85. Kilit yaşayış yeri.** Ordubad şəhərindən şərqdə, Kilit çayının sahilində yerləşir. Evlər bir-birinin yaxınlığında təpənin yamacında düzəldilmiş səkillərdə yerləşir. Evlərin divarları başlıca olaraq daşdan inşa edilmişdir. Bəzi evlərin tikintisində həm daşdan, həm də çiy kərpicdən istifadə olunmuşdur. Əkin sahələri kəndin şimal-şərqində təpənin yamaclarında xüsusi olaraq düzəldilən səkilərdə salınmışdır. Əkin sahələrinin ətrafı divar və ağaclarla əhatə olunmuşdur. Kəndin mərkəzində məscid var. Yaşayış yerini XI-XX əsrlərə aid etmək olar.

**86. Kilit qəbiristanlığı.** Kəndlə üzbəüz yerləşən təpənin yamacında, Kilit çayının sol sahilində yerləşir. Qəbirlər qərb-şərq istiqamətində yönəlmiş və torpaqda qazılmışdır. Başdaşıları yonulmamış qaya parçalarındandır. Qəbirlərin ətrafına dördkünc formada çay daşları düzülmüş, bəzi qəbirlərin üzərində kiçik təpəciklər yaranmışdır. Qəbiristanlığın ərazisindən Orta əsrlərə aid şirli və şirsiz keramika parçaları aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən, yaşayış yerini XI-XIX əsrlərə aid etmək olar.

**87. Ərəzin yurdu.** Ordubad rayonunun Nurgüt kəndindən şimalda, Sakkarsu çayının sol sahilində yerləşir. Yurd yerində dördkünc və dairəvi formalı daş düzümləri, daş kələklərin qalıqları saxlanmışdır. Kələklər gil məhlulu olmadan iri qaya parçalarını üst-üstə qoymaqla hazırlanmışdır. Tədqiqat zamanı aşkar olunan keramika məmulatı Orta əsrlərə aiddir. Ərəzin yurdundan aşkar olunan materiallar XIV-XX əsrlərə aiddir.

**88. Ərəzin yurdu nekropolu.** Yaşayış yerindən şimalda təpənin yamacında salınmışdır. Nekropol qərb-şərq istiqamətində yönəlmiş torpaq qəbirlərdən

ibarətdir. Aşınma nəticəsində qəbirlərin bir çoxunun yerüstü əlamətləri itmiş, bəziləri isə dağılmışdır. Bəzi qəbirlərin üzərində oval daş yığınları qalmışdır. Nekropol yaşayış yeri ilə eyni dövrə XIV- XX əsrlərə aiddir.

**89. Seyidölən yurdu.** Ordubad rayonunun Nürgüt kəndindən şimalda, Sakkarsu çayının sol sahilində yerləşir. Yurd yerində dördkünc və dairəvi formada daşlarla əhatə olunmuş çadır yerləri, heyvanların saxlanması üçün arxaclar və kəlləklər vardır. Kəlləklər gil məhlulu olmadan orta həcmli çay daşlarını üst- üstə yığmaqla inşa olunmuşdur. Axtarışlar zamanı yaşayış yerindən Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Seyidölən yurd yerini XI-XX əsrlərə aid etmək olar.

**90. Göy göl nekropolu.** Ordubad rayonunun Nürgüt kəndindən şimalda, Göy göldən qərbdə yerləşir. Təpənin üzərində bir-birinin yaxınlığında kiçik kurqanlara rast gəlinir. Onların hündürlüyü 1 m, diametri 3 m-dir. Kurqanlar daş qarışıq torpaq laylarından yaranmışdır. Araşdırmalar zamanı maddi- mədəniyyət qalıqlarına rast gəlinməmişdir. Bu tip kurqanlar e.ə. II-I minilliklər üçün xarakterikdir. Göy göl nekropolunu e.ə. II-I minilliklərə aid etmək olar.

**91. II Bist qəbiristanlığı.** Bist kəndinin şimalında Xurs kəndinə gedən yolun altında yerləşir. Qəbirlərin bir çoxunun yerüstü əlamətləri itmiş və yalnız başdaşıları qalmışdır. Başdaşıları yonulmamış qaya parçalarındandır. Qəbirlər qərb-şərq istiqamətində yönəlmiş və torpaqda qazılmışdır. Vaxtilə qəbiristanlıqda qoç daşlar və üzərində kitabə olan başdaşıları olmuşdur. Üzərində ərəb dilində kitabə olan başdaşılarının parçaları hazırda saxlansa da oxunmaz hala düşmüşdür. Qəbirlərin bir neçəsinin ətrafında dördkünc formalı daş düzümləri qalmışdır. Qəbiristanlığı XIV-XX əsrlərə aid etmək olar.

**92. Gilaslı dərə yaşayış yeri.** Ordubad rayonunun Məzrə kəndindən şərqdə, Məzrə pirinə gedən yolun sağ tərəfində yerləşir. Yaşayış yeri təpənin ətəyindədir. Evlər dördkünc formalı olub qaya parçalarından inşa olunmuşdur. Qapı girişləri başlıca olaraq cənub tərəfdəndir. Yaşayış yerinin şərq tərəfində bulaq vardır. Araşdırmalar zamanı yaşayış yerinin ərazisindən Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Yaşayış yerinin qərb tərəfində təpənin üzərində müsəlman qəbiristanlığı var. Yaşayış yerindən aşkar olunan arxeoloji materiallar XI-XVIII əsrlərə aiddir. Ehtimal ki, bu ərazidə daha qədim dövrlərdə yaşayış olmuşdur.

**93. Gilaslı dərə nekropolu.** Eyniadlı yaşayış yerinin qərb tərəfində təpənin üzərində yerləşir. Torpaqda qazılmış qəbirlər qərb-şərq istiqamətində yönəlmişdir. Qəbirlərin bir çoxunun yerüstü əlamətləri itsə də başdaşıları qalmışdır. Onların üzərində dördkünc formalı daş düzümləri vardır. Bəzi qəbirlərin baş və ayaq tərəflərində nişangah daşları qoyulmuşdur. Bir çox qəbirlərin üzərində oval təpəciklər yaranmışdır. Axtarışlar zamanı nekropolun ərazisindən Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Qəbiristanlığı XI-XVIII əsrlərə aid etmək olar.

**94. Köhnə Məzrə yaşayış yeri.** Ordubad rayonunun Məzrə kəndinin şimalında yerləşir. Yaşayış yerinin yerüstü əlamətləri hazırda tamamilə itmişdir. Bəzi evlərin yerində dördkünc formalı çalalar qalmışdır. Yaşayış binalarına aid divar qalıqları iri daşlardan, gil məhlulu istifadə olunmaqla inşa olunmuşdur. Yaşayış yerinin cənub tərəfində yerləşən qəbiristanlığın əlamətləri tamamilə itmişdir. Kəndin şimal şərqində Orta əsrlərə aid olan körpünün qalıqları indi də saxlanmaqdadır. Araşdırmalar Məzrə kəndinin Zəngəzurdan gələn ticarət yolu üzərində mühüm bir yaşayış məntəqəsi olduğunu göstərir. Yaşayış yerini XI-XVIII əsrlərə aid etmək olar.

**95. Üstüpü nekropolu.** Ordubad rayonunun Üstüpü kəndinin mərkəzində yerləşir. Nekropolun böyük bir qismi dağılmışdır. Torpaqda qazılmış qəbirlər qərb-şərq istiqamətindədir. Qəbirlərin üzərinə sənduqə tipli sinə daşları və qoç daşlar qoyulmuşdur. Sinə daşlarının üzərində ərəb əlifbası ilə kitabələr var. Sinə və başdaşılarının bir qismi göy rəngli qum daşından hazırlanmışdır. Başdaşılarının bəzisinin üzərində ərəb əlifbası ilə kitabə və hicri təqvimi ilə tarixlər vardır. Onların birinin üzərində hicri 975-ci il tarixi vardır. Epiqrafik dəlillərə və arxeoloji materiallara əsasən, nekropolu XI-XVIII əsrlərə aid etmək olar.

**96. Mücərdəni yaşayış yeri.** Ordubad rayonunun Çənnəb kəndindən cənub-qərbdə yerləşir. Yaşayış yeri meşənin içərisindəki hündür təpələrdə salınmışdır. Yaşayış binaları daşdan inşa olunmuş dördkünc formalı otaqlardan ibarət olmuşdur. Evlər bir, iki, bəzən isə üç otaqlıdır. Yerli əhalinin verdiyi məlumata görə, bu ərazi Rusiya hakimiyyəti dövründə yerli rəhbərlərin istirahət yeri olmuşdur. Yay vaxtı onlar bu ərazidə məskən salarmışlar. Evlərin döşəməsi qalın gəc təbəqəsi ilə suvanmış, bəzi evlərin ətrafına müdafiə divarları çəkilmişdir. Axtarışlar zamanı yaşayış yerindən Son Orta əsrlərə aid şirli və şirsiz keramika parçaları aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən, yaşayış yerini XVIII-XX əsrlərə aid etmək olar.

**97. Kəreyil qalası.** Çənnəb kəndindən cənubda, Düylün çayının sol sahilində hündür təpənin üzərində salınmışdır. Müdafiə divarlarının olduqca az bir qismi salamat qalmışdır. Yaşayış yerinin mərkəzi hissəsində daşdan dördkünc formada inşa olunmuş binanın qalıqları vardır. Həmin binanın ön tərəfində təbii mağara var. Mağaranın tavanı hislənmişdir. Onun giriş hissəsindəki kiçik meydançada dən daşının parçaları, şirli və şirsiz keramika parçaları aşkar olunmuşdur. Arxeoloji materiallar I-II əsrlərdə burada yaşayış olduğunu deməyə əsas verir. Araşdırma zamanı istehsal çıxarlarına rastlansa da, qədim əmək alətləri aşkar olunmamışdır. Abidənin şərq tərəfində həmin dövrdə inşa olunan, lakin sonradan bərpa edilən su kanalı indi də fəaliyyət göstərməkdədir.

Arxeoloji materiallara əsasən, yaşayış yerini I-XVI əsrlərə aid etmək olar.

**98. Keşan yaşayış yeri.** Düylün kəndinin şimalında, Düylünçayın sağ sahilində hündür, uzunsov təpənin üzərində yerləşir. Yaşayış evləri dördkünc formalıdır. Divarların aşağısı qaya parçaları və çay daşlarından, yuxarısı isə

möhrədən inşa olunmuşdur. Bəzi evlərin tikintisində kvadrat formalı çiy kərpiclərdən istifadə edilmişdir. Yaşayış yerinin şərq və cənub tərəfində su kanalı vardır. Onun ətrafında olan ərazilər indi də əkin sahəsi kimi istifadə olunur. Axtarışlar zamanı yaşayış yerinin ərazisindən Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Aşkar olunan arxeoloji materiallara əsasən yaşayış yerini IX-XVIII əsrlərə aid etmək olar. Abidənin cənubunda onunla həmdövr olan qəbiristanlıq vardır.

**99. Keşan nekropolu.** Eyniadlı yaşayış yerinin cənubunda yerləşir. Nekropol uzunsov, oval təpənin həm şərq, həm də qərb tərəfini əhatə edir. Qəbirlər qərb-şərq istiqamətində yönəlmiş və torpaqda qazılmışdır. Bəzi qəbirlər aşınma nəticəsində dağılmışdır. Qəbirlərin əksərinin başdaşıları yonulmamış qaya parçalarındandır. Vaxtilə qəbiristanlıqda qoç daşlar da olmuşdur. Üzərində ərəb əlifbası ilə kitabələr olan qəbir daşları aşınma nəticəsində dağılmışdır. Nekropolu IX-XVIII əsrlərə aid etmək olar.

**100. Köçəri yaşayış yeri.** Ordubad rayonunun Məzrə kəndindən şərqdə yerləşir. Yaşayış yerində dördkünc formalı tikintilərin qalıqları saxlanmışdır. Divarlar qaya parçalarından gil məhlulu istifadə olunmaqla inşa olunmuşdur. Yaşayış yerinin şimal tərəfində daşdan inşa olunmuş məscidin qalıqları var. Yaşayış yerinin böyük bir qismi dağılmış, yerüstü əlamətlər itmişdir. Hazırda bu ərazidə maldarlıqla məşğul olan əhalinin məskənləri vardır.

Araşdırmalar zamanı yaşayış yerinin ərazisindən Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatının parçaları aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən, Köçəri yaşayış yerini XIV-XVII əsrlərə aid etmək olar.

**101. Urumıs yaşayış yeri.** Ordubad rayonunun Pəzməri kəndindən qərbdə yerləşir. Yaşayış yeri hündür təpənin üzərində salınmışdır. Evlər daşdan və kvadrat formalı çiy kərpicdən inşa olunmuşdur. Yaşayış binaları bir, iki, bəzən isə üç otaqlıdır. Bəzi evlər iki mərtəbəlidir. Evlərin içərisində dördkünc formalı taxçalar və buxarılar vardır. Divarlar içəridən və eşikdən palçıqla suvanmışdır. Bəzi evlərdə ərzaq saxlamaq üçün zirzəmilər düzəldilmişdir. Əkin yerləri yaşayış yerinin şimal-şərqindədir. Yaşayış yerinin şimal tərəfində bulaq və daşdan yonulmuş təknələr vardır. Araşdırmalar zamanı aşkar olunan arxeoloji materiallar Son Orta əsrlər dövrünə aiddir.

Yaşayış yerini aşkar olunan arxeoloji materiallara əsasən, XIX-XX əsrlərə aid etmək olar.

**102. Qarapir qalası.** Ordubad rayonunun Ağdərə qəsəbəsindən şimal-şərqdə Qarapirə gedən yolun üzərində yerləşir. Yaşayış yerinin cənub tərəfinə çəkilən divar iri daşlardan hörülmüşdür. Qalanın digər tərəfləri təbii cəhətdən müdafiə olunduğundan divar çəkilməmişdir. Qalanın içərisində daşdan inşa olunmuş dördkünc formalı binaların qalıqları saxlanmışdır. Yaşayış binaları qalanın içərisində qrup halında yerləşdirilmişdir. Müdafiə divarının uzunluğu 35 m-dir. Axtarışlar zamanı qalanın içərisindən müxtəlif dövrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Keramika məmulatının böyük qismi orta əsrlərə

aiddir. Lakin qədim dövrə aid keramika məmulatı da vardır. Yaşayış yerini e.ə. IV-I minilliklərə aid etmək olar.



Şəkil 57. Qarapir qalası

**103. Daşlı yurd.** Ordubad rayonunun Ağdərə qəsəbəsindən şimalda, Sulu düzün üstündə yerləşir. Yurd yerinin ərazisi oval təpə şəklindədir. Araşdırmalar zamanı yurd yerində ətrafı dördkünc və dairəvi daşlarla əhatə edilmiş binaların qalıqları aşkar olunmuşdur. Yurd yerinin şimal tərəfində daşdan inşa olunmuş kələklərin qalıqları da var. Bəzi tikintilər uçub tökülmüş və daş yığınına çevrilmişdir. Yurd yerinin ərazisi qalın peyin qatı ilə örtülmüşdür. Yaşayış yerini XI-XVIII əsrlərə aid etmək olar.

**104. Gülüm-gülüm yaşayış yeri.** Haqqında əfsanələr dolaşan bu abidə Ordubad rayonunun Nəsirvaz kəndindən cənub-qərbdə dağın ətəyində yerləşir. Araşdırmalar zamanı yaşayış yerində iri daşlardan hörülmüş müdafiə divarlarının və yaşayış binalarının qalıqları aşkar olunmuşdur. Müdafiə divarları yanlarda iri qaya parçalarından hörülərək, onların arası kiçik həcmli daşlarla doldurulmuşdur. Bəzi yerlərdə müdafiə divarlarının uzunluğu 35 m-ə çatır. Divarın eni müxtəlifdir. Onun qalınlığı 1,2-1,5 m arasındadır. Yaşayış yerinin ərazisində dördkünc formada inşa olunmuş yaşayış binaların qalıqları var. Onların böyük bir qismi dağ uçqununun altında qalaraq dağılmışdır. Araşdırmalar göstərir ki, yaşayış yerindən uzun müddət istifadə olunmuş, Orta əsrlərdə isə bağ yerinə çevrilmişdir. Deyilənə görə, burada ağanın bağı olmuş və o bağda hər meyvədən olmuşdur. Yaşayış yerini tikinti qalıqlarına əsasən e.ə. I minilliyə aid etmək olar.

**105. Sürcü yaşayış yeri.** Ordubad rayonunun Tivi kəndindən şimalda, dağ çayının sağ sahilində yerləşir. Yaşayış yerinin ərazisi biçənək və əkin sahəsi kimi istifadə olunduğundan tamamilə dağılmışdır. Lakin bəzi yerlərdə dördkünc formalı, daşdan inşa olunmuş yaşayış binalarının qalıqları saxlanmışdır. Axtarışlar zamanı yaşayış yerinin ərazisindən Son orta əsrlərə aid keramika parçaları aşkar olunmuşdur. Şirli keramika çəhrayı rəngdə bişirilmiş, anqobüstü ornamentlə yaşıl və mavi rənglərlə naxışlanmış, şəffaf şirlə örtülmüşdür. Yaşayış yerinin yaxınlığında pir və qəbiristanlıq vardır. Aşkar olunan arxeoloji materiallara əsasən yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

**106. Sürcü nekropolu.** Eyni adlı yaşayış yerinin qərbində təpənin ətəyində yerləşir. Nekropol yamacda yerləşdiyindən təbii aşınma nəticəsində dağılmışdır. Qəbirlər şərq- qərb istiqamətindədir. Bəzi qəbirlərin üzərində sənduqə tipli sinə daşlarına, bəzilərində isə daş yığınlarına rastlanır. Nekropol XVIII-XIX əsrlərə aid edilir.

**107. Navış yaşayış yeri.** Ordubad rayonunun Tivi kəndindən cənub-şərqdə yerləşir. Yaşayış yerində daşdan inşa olunmuş dördkünc tikintilərin qalıqları saxlanmışdır. Araşdırmalar zamanı Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

**108. Karvansara yaşayış yeri.** Ordubad rayonunun Dəstə kəndindən cənub-şərqdə Naxçıvan-Ordubad asfalt yolunun sağında yerləşir. Yaşayış yerinin ərazisindən tikinti qalıqları, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika nümunələri aşkar olunmuşdur. Tikinti qalıqlarına əsasən demək olar ki, binaların tikintisində daş, möhrə və bişmiş kərpicdən istifadə olunmuşdur. Yaşayış yerini XI-XIV əsrlərə aid etmək olar.

**109. Qumluq yaşayış yeri.** Yaşayış yeri Nəsirvazçaya doğru uzanan hündür dağın yamacında salınmışdır. Yaşayış yerinin ərazisi yabanı meyvə ağacları və bitki qalıqları ilə örtülmüşdür. Kəşfiyyat xarakterli qazıntılar göstərir ki, yaşayış yerində mədəni təbəqə yığılmamışdır. Maddi mədəniyyət qalıqları yer üzərinə səpələnmiş daş alətlər və keramika nümunələrindən ibarətdir. Daş alətlər başlıca olaraq iri və kiçik həcimli dən daşlarının parçalarından ibarətdir. Boz rəngli tuf daşından hazırlanan dən daşlarının alt tərəfi oval, üst tərəfi isə yastı olub işlənmə nəticəsində aşınmış, bəzilərinin üst səthi qayıqşəkilli forma almışdır.

Yaşayış yerindən toplanmış keramika nümunələrinin əksəriyyəti qalındivarlı təsərrüfat qablarının parçalarından ibarətdir. Keramika nümunələri narın qum qatılmış gildən hazırlanaraq çəhrayı rəngdə yaxşı bişirilmiş, xaricdən anqoblanmışdır. Gil qab parçalarının birinin gövdəsi qabarıq bucaqşəkilli kəmərlə əhatə edilmişdir. Yaşayış yerlərində mədəni təbəqənin yığılmaması burada məskənləşən tayfaların yarımköçəri həyat tərzi keçirdiyini, yaylaq maldarlığı ilə məşğul olduğunu göstərir. Yaşayış yerinin yaxınlığında yerləşən onunla həmdövr olan nekropoldan aşkar olunan maddi mədəniyyət nümunələri

bu mədəniyyətin Xocalı-Gədəbəy mədəniyyətini daşıyan tayfalarla sıx bağlı olduğunu göstərir. Aşkar olunan materiallar Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyəti üçün xarakterik olub e.ə. II minilliyin sonuna aiddir.




Şəkil 58. Qumluq yaşayış yeri

# CULFA RAYONUNUN ARXEOLOJİ ABİDƏLƏRİ

**1. Ağsal yaşayış yeri.** Tunc və Erkən Dəmir dövrünün abidəsidir. O, Əlincəçayın sol sahilində, Ağsal adlı yerin yaxınlığında, Milax kəndindən şimal-şərqdə yerləşir. Yaşayış yeri yerli əhali içərisində «kənd yeri» adı ilə tanınır. Abidə strateji cəhətdən əlverişli mövqedə olub hər tərəfdən hündür dağlarla əhatə olunmuşdur. O, iki hündür təpənin yamacını əhatə edir və qərb tərəfdə ensiz dərə vasitəsilə Əlincəçayla əlaqələnir.

Yaşayış yeri 1991-ci ildə qeydə alınmış və kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Sahəsi 3600 kv.m-dir. Aşkar olunmuş materiallar Culfa rayon tarix-diyarşünaslıq muzeyində saxlanılır.

Abidənin yerləşdiyi təpələrin üzəri uçub tökülmüş tikinti qalıqları ilə örtülmüşdür. Tikinti qalıqlarına əsasən demək olar ki, binalar əsasən daşdan inşa olunmuşdur. Şimal-qərbdəki təpənin üzərində iri daşlardan hörülmüş divar qalıqları saxlanmışdır. Onun uzunluğu 3,5, eni 1,6 m-dir. Araşdırmalar bu divarın müdafiə məqsədilə tikildiyini göstərir.

Yaşayış yerinin bəzi hissələri aşınma nəticəsində dağıldığından mədəni təbəqə üzə çıxmışdır. Onun qalınlığı bəzi yerlərdə 0,5 m-ə çatır. Yerüstü materiallar dən daşı, çəhrayı və boz rəngli gil qab qırıqlarından ibarətdir.

Boz rəngli gil məmulatı küpə və kasa tipli qabların qırıqları ilə təmsil olunmuşdur. Onların gilinə narın qum qatılmış və yaxşı bişirilmişdir. Boz rəngli gil məmulatına forma verməyən qab qırıqları da daxildir. Onların bəzisi çəhrayı astarlıdır. Bəzi qab qırıqlarının üzərinə qara boya çəkilmişdir.

Çəhrayı rəngli gil məmulatı küpə və kasa tipli qabların qırıqlarından ibarətdir. Onlardan birinin gilinə narın qum qatılmış, hər iki üzdən kobud hamarlanmış çəhrayı rəngdə bişirilmişdir. Kəsiyində bəzən iri qum dənələrinə təsadüf olunur. Bəzi qabların üzəri cızma xətlərlə naxışlanmış, xarici səthi hislənmişdir.

Çəhrayı rəngi gil məmulatına forma verməyən qab qırıqları da daxildir. Onlar yaxşı bişirilmiş və hər iki üzdən qırmızı boya ilə örtülmüşdür.

Yaşayış yerində mədəni təbəqənin olduqca az saxlanması burada həyatın mövsümi xarakter daşıdığını göstərir. Abidədən toplanmış gil məmulatının əksəriyyəti xüsusilə ağzının altı batıq kasalar e.ə. I minilliyin birinci yarısı üçün, az bir qismi isə Tunc dövrü üçün xarakterikdir. Daş alətlər xronoloji cəhətdən Tunc dövrünün ilk çağlarına doğru meyl edir. Arxeoloji tapıntıların analizinə əsasən demək olar ki, burada yaşayış e.ə. III-I minilliklər boyu davam etmişdir.

**2. Ağsal nekropolu.** Tunc dövrünün abidəsidir. O, Milax kəndindən şimal-şərqdə, Əlincəçayın sağ sahilində yerləşir. Şimal-qərbdə əkin sahələri, cənub-şərqdə isə Əlincəçayla məhdudlaşır.

Ə.K.Ələkbərov və O.H.Həbibullayevin verdiyi məlumata görə, burada vaxtilə böyük nekropol olmuş və bu nekropoldan boyalı qablar tapılmışdır. Nekropolun yerləşdiyi ərazi xalq arasında «İydəlik» və «Camış rəddi» adlanır.

Əlincəçayının vadisi başdan-başa şumlanıb əkin sahəsi kimi istifadə edildiyindən nekropolun yerüstü əlamətləri tamamilə itmişdir. Odur ki, onun sərhədlərini dəqiq müəyyən etmək mümkün olmadı. Yerli əhalinin verdiyi məlumata görə, burada «Camış rəddi» deyilən yerdə traktorla torpaq işləri görülərkən qəbir abidələri dağıdılmış və gil qablar aşkar edilmişdir. Təəssüf ki, aşkar olunmuş materiallar indiyədək saxlanmamışdır.

**3. I Boyəhməd yaşayış yeri.** Erkən Dəmir dövrünün abidəsidir. O, Culfa rayonunun Boyəhməd kəndindən şimal-qərbdə Dərəçayın sol sahilində yerləşir. Yaşayış yeri dağ silsiləsinin çaya enən yamacında yerləşərək şimal tərəfdən Dərəçay, şimal-şərq və şimal–qərbdə isə dərin dərə ilə məhdudlaşır.

Yaşayış yeri 1991-ci ildə qeydə alınmışdır. Aşkar olunmuş materiallar Culfa rayon tarix-diyarşünaslıq muzeyində saxlanılır. Abidənin sahəsi 1500 kv.m-dir.

Abidənin yerləşdiyi sahə uzun müddət yaşayış yeri kimi istifadə edildiyi üçün yerüstü materiallar və mədəni təbəqə tamamilə dağılmışdır. Yerin səthində gil qab qırıqlarına və dən daşlarına təsadüf edilir.

Gil məmulatı əsasən forma verməyən qırıqlardan ibarət olub narın qum qatışığı olan gildən hazırlanmış, boz rəngdə bişirilmişdir. Bəzi qab qırıqlarının üzərinə qara boya çəkilərək yüngülcə cilalanmışdır.

Dən daşları çəhrayı və boz rəngli tuf daşından hazırlanmışdır. Onlar alt daşlardan ibarət olub ortada bir qədər çökükdür. Dən daşlarının işlək hissəsi oval formadadır.

Yaşayış yerində həyat ardıcıl davam etmişdir. Tədqiqatlara əsasən demək olar ki, müəyyən müddətdə yaşayış yeri Dərəçayın sağ sahilini də əhatə etmişdir.

Aşkar olunmuş materiallara əsasən yaşayış yerini eradan əvvəl I minilliyin birinci yarısına aid etmək olar.

**4. II Boyəhməd yaşayış yeri.** Erkən Orta əsrlərə aiddir. Boyəhməd kəndindən cənub-qərbdə, Dərəçayın sağ sahilində yerləşir. Yaşayış yeri şimal və şərqdə dağ silsiləsi, şimal-qərb və cənub-qərbdə isə dərin dərələrlə əhatə olunmuşdur.

Yaşayış yeri 1991-ci ildə qeydə alınmış və kəşfiyyat xarakterli tədqiqatlar-la öyrənilmişdir. Aşkar olunmuş materiallar Culfa rayon tarix-diyarşünaslıq muzeyində saxlanılır. Yaşayış yerinin sahəsi 1300 kv.m-dir.

Abidə iki dərin dərənin əmələ gətirdiyi çıxıntının üzərində yerləşir. Onun cənub-qərb tərəfi tikinti qalıqları ilə örtülmüşdür. Tikinti qalıqlarına əsasən demək olar ki, binalar daşdan inşa olunmuşdur. Bəzi binaların yerində dördkünc formalı çalalar saxlanmışdır. Burada Dərəçayın sağ sahilində dəyirman daşının qırıqları saxlanmışdır. O, ağ rəngli daşdan yonulmuş, ortasında diametri 10 sm olan deşik açılmışdır. Yaşayış yerinin bu hissəsində çəhrayı və boz rəngli gil məmulatına, çay daşlarından hazırlanmış dən daşlarına təsadüf olunur.

Abidənin şimal hissəsində müasir müsəlman qəbirstanlığı yerləşir. Qəbirstanlığın yerləşdiyi sahədən bir qədər aşağıda yol çəkilərkən yaşayış yeri

kəsilmiş, mədəni təbəqə dağıdılmışdır. Təbəqənin qalınlığı 0,5 m-dən 1,5 m-ə-qədərdir. Təbəqə tünd rəngdə olub tikinti qalıqları, heyvan sümükləri və gil qab qırıqlarından ibarətdir. Kəsikdən tapılan materiallar yerüstü materiallarla eyniyyət təşkil edir.

Yerüstü materiallar əsasən çəhrayı və boz rəngdə bişirilmiş gil qab qırıqlarından ibarətdir.

Çəhrayı rəngli gil məmulatı küpə, kasa, çıraq tipli qablardan ibarətdir. Küpə tipli qablar iki ədəddir. Onların gilinə narın qum qatılmış, sarı rəngdə keyfiyyətli bişirilmiş, hər iki üzdən yaxşı hamarlanmışdır. Çəhrayı rəngli gil məmulatına gil ocaq badının qırığı da daxildir. O bitki qalığı olan gildən olduqca kobud hazırlanmış və pis bişirilmişdir. Gövdəsi azacıq qabarıq olub oturacağına doğru trapes formasında genişlənir. Ağzının kənarı dəyirmidir .

Boz rəngli gil məmulatı kasa tipli qabların qırıqlarından ibarətdir. Onların gilinə narın qum qatılmış, yaxşı bişirilmişdir. Kasalar silindrik konusvari formada olub bir-birindən bir qədər fərqlənir.

Yaşayış yerində aparılan kəşfiyyat qazıntısı zamanı 20 x 20 x 5 sm ölçüdə bişmiş kərpiclər və digər inşaat materialları aşkar edildi. Daş və bişmiş kərpicdən inşa edilmiş binanın qalığı dördkünc formada idi. Mədəni təbəqədən xeyli miqdarda şirsiz və şirli qab sınıqları, şüşə parçaları tapılmışdır. Şirsiz saxsı məmulatı qazanlardan və əsasən səhəng tipli qablardan ibarətdir.

Mədəni təbəqədən tapılmış şirli qablar əsasən monoxrom, marqans və iki rənglə bəzədilmiş kasa və boşqab tipli qablara məxsusdur. Ağ anqob üzərindən çəkilmiş monoxrom şir yaşıl və mavi rənglidir. Qablar üzərinə işlənilmiş təsvirlər nəbati və həndəsi motivlidir.

**5. I Boyəhməd nekropolu.** Erkən Dəmir dövrünün abidəsidir. O, Culfa rayonunun Boyəhməd kəndindən cənub-qərbdə Dərəçayın hər iki sahilində yerləşərək hər iki tərəfdən hündür dağlarla əhatə olunmuşdur. Sahəsi 5000 kv. m-dir.

Nekropol tikinti işləri görülərkən təsadüfən aşkar olunmuş və qəbir abidələrinin böyük bir qismi dağıdılmışdır. 1989-cu ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin əməkdaşları dağıntı yerində olmuş və arxeoloji materialların az bir qismini toplamışdır. Erməni quldurlarının Boyəhməd kəndinə basqını ilə bu iş yarımçıq qalmışdır. 1991-ci ildə Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası V.B.Baxşəliyevin rəhbərliyi ilə Boyəhməd nekropolunda iki dağıdılmış və iki toxunulmamış qəbir abidəsini öyrənmiş və arxeoloji tapıntıların bir qismini yerli əhalidən toplamışdır. Aşkar olunmuş materiallar Culfa rayon tarix-diyarşünaslıq muzeyində saxlanılır.

Nekropoldakı qəbirlər daş qutulardan ibarətdir. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə dağıdılmış qəbirlərdən xeyli bəzək əşyası, tunc xəncərlər, yabalar, zəncir, nizə ucluğu və s. materiallar aşkar olunmuşdur.

Nekropolda aparılan kəşfiyyat işləri nəticəsində müəyyən edildi ki, qəbirlər heç bir yerüstü əlamətə malik deyil. Lakin bəzi qəbirlərin üst və yan

daşları torpağın aşınması nəticəsində üzə çıxdığı üçün onların dağılmasına səbəb olmuşdur. Nekropolda aparılan qazıntı zamanı iki daş qutu tipli qəbir öyrənilmişdi.Yanlarda iri daşlarla qurulan daş qutuların üzəri yastı daşlarla qapadılmışdır.



Şəkil 59. I Boyəhməd neropolu

Birinci qəbrin qərb divarı yaxınlığında təpəsi aşağıya, üzü yuxarıya olan qərb-şərq istiqamətində yönəldilmiş iki kəlləyə təsadüf edildi. Üçüncü kəllə onlardan 20 sm aralıda dikinə qoyulmuşdu. Onun üzü cənub-qərbə doğru idi. Kəllələrin ətrafında qol və qıç sümüklərinə, ayrıca qoyulmuş alt çənəyə təsadüf edilirdi. Sümüklər bir-birinin üzərində olduqca sıx yerləşdirilmişdir. Dördüncü

kəllə cənub divarı yaxınlığında aşkar olundu, o tamamilə dağılmışdı. Bu kəllənin altında qıç sümükləri aşkar edildi. Skelet qalıqları təmizlənərkən onurğa və çanaq sümüklərinə təsadüf edilmədi. Cənub divarının yaxınlığında olan kəllənin altından tunc xəncər qın, qərb divarının yaxınlığında olan kəllələrin altından isə tunc xəncərlər tapıldı. Skeletlərin ətrafından həmçinin tunc bəzək əşyaları aşkar olundu. Şərq divarının yaxınlığında tunc boyunbağı, cənub və şərq divarlarının birləşdiyi yerdə xeyli aqat və pasta muncuqlar tapıldı. Skelet qalıqları təmizlənərkən həmçinin xırdabuynuzlu heyvana aid çənə sümükləri tapılmışdır. Qəbrin uzunluğu 2, eni 1,2 m-dir. O şərq-qərb istiqamətində idi.

Qəbirdən aşkar olunmuş gil məmulatı əsasən boz rəngdədir. Qablar bişmə dərəcəsinə görə bir-birindən fərqlənir. Onlar küpə, qədəh və parç tipli qablardan ibarətdir. Qabların gilinə narın qum qatılmış, bəziləri dulus çarxında hazırlanmış, qeyri-bərabər bişirilmişdir. Bəzi qabların xarici səthi yaxşı hamarlanmış və cızma xətlərlə naxışlanmışdır. Boz rəngli gil məmulatına forma verməyən qırıqlar da daxildir. Onların gilinə narın qum qatılmış, pis bişirilmişdir. Kəsiyində çəhrayı laylar izlənilir.

Silahlar iki ədəd xəncərlə təmsil olunmuşdur. Xəncərlər formaca eyni tiplidir. Onlar bütöv şəkildə tökmə üsulu ilə hazırlanmışdır. Xəncərlərin başlığı şəbəkəli və konusvari olub yuxarıda şarşəkilli çıxıntı ilə tamamlanır. Onların dəstəyi ensiz olub ağac inkrustasiya keçirmək üçün ramkası vardır. Tiyəsi üçbucaq şəkillidir. Xəncərlərdən birinin tiyəsi sadədir. İkincinin tiyəsi isə ensiz qabarıq və batıq zolaqlarla naxışlanmışdır. Qəbir avadanlığının bir qismi tuncdan hazırlanmış bilərzik, sırğa, piլək, asma, toqqa və boyunbağılardan ibarət olmuşdur.

İkinci birincidən şimala doğru, ondan 2 m aralıda yerləşirdi. Qəbrin kamerası şərq-qərb istiqamətində olub dikinə qoyulmuş yastı sal daşlardan qurulmuşdur. Sal daşların üzəri əlavə olaraq dağ daşları ilə iki cərgə hörülmüşdü. Qəbir təmizlənərkən 0,4 m dərinlikdən başlayaraq ağac kömürünün və insana aid ayaq lülə sümüyünün qalıqları aşkar olunmağa başladı. Lülə sümüyünün qalıqlarına qəbrin qərb və şimal hissəsində təsadüf edildi. Qazıntı zamanı 0,6 m dərinlikdə lülə sümüyünün qalıqları və kəllə qapağının bir hissəsi tapıldı. Bu səviyyədən başlayaraq həmçinin boz rəngli gil qab qırıqları aşkar edilirdi. Qəbrin şərq hissəsindən düzbucaqlı formada hazırlanmış tunc pilək tapıldı. Qəbrin dərinliyi 0,8 m idi. Onun uzunluğu 1,8 , eni 1,35 m-dir. Cənub tərəfdə eni 1,9 m-dir.

Nekropolda aparılan tədqiqatlar zamanı həmçinin dağıdılmış qəbirlərin materialları kompleks şəkildə tapılmışdır. Aşkar olunan maddi-mədəniyyət nümunələri boz rənglə bişirilmiş küpə, kasa, nimçə, badya və s. qabların parçalarından ibarətdir.

Aşkar olunmuş materialların analizinə əsasən I Boyəhməd nekropolunu e.ə. I minilliyin əvvəllərinə aid etmək olar.

**6. II Boyəhməd nekropolu.** Erkən Dəmir dövrünün abidəsidir. O, Boyəhməd kəndinin şimal tərəfindədir. Nekropol hündür dağın yamacında yerləşir. O, şərq və cənub şərqdə dərin dərə ilə məhdudlaşır. Tikinti işləri görülərkən nekropolda təsadüfən bir qəbir abidəsi dağıdılmışdır. Dağıdılmış qəbrin materialları kənd məktəbinin müəllimi Firəddin müəllim tərəfindən toplanmışdır.



Şəkil 60. II Boyəhməd nekropolu

Nekropolun yerləşdiyi ərazi 1991-ci ildə tədqiq edilmişdir. Qəbirlər heç bir yerüstü əlamətə malik deyil. Firəddin müəllimin verdiyi məlumata görə, burada yol çəkilərkən dağıdılmış qəbir daş qutu tipli olmuşdur. Dağıdılmış qəbrin materialları iki tunc bilərzik və bir tunc bıçaqdan ibarətdir. Təəssüf ki, onlarla birlikdə toplanmış gil qab indiyədək saxlanmamışdır.

Tunc bilərziklər eyni formada olub içəridən yastı, xaricdən qabarıq olan məftildən hazırlanmışdır. Ucları bir-birindən aralıdır. Tunc bıçaq yastıtiyəlidir. Ortada bir qədər əyri olub ucu arxaya doğru əyilərək dəyirmiləşdirilmişdir. Sap qısa olub uca doğru ensizləşir.

Aşkar olunmuş arxeoloji materialların təhlili II Boyəhməd nekropolunun e.ə. I minilliyin əvvəllərinə aid olduğunu göstərir.

**7. III Boyəhməd nekropolu** Orta əsrlərə aiddir. Nekropol Boyəhməd kəndinin şimal-şərqində, hündür təpənin yamacında yerləşir. O şimal-şərqdə hündür dağlarla, cənub tərəfdə isə torpaq yolla məhdudlaşır. Sahəsi 1600 kv.m-dir.

Nekropol xalq arasında qəbirstanlıq adlandırılır. 1991-ci ildə burada kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropoldakı qəbirlərin bir qismi torpağın aşınması nəticəsində dağılmışdır. Onların əksəriyyətinin başdaşıları düşmüş, sinə daşları isə dağılmışdır. Qəbirlər qiblə istiqamətindədir. Qəbirüstü daşlar əsasən yastı olub dördkünc formalıdır. Onlar olduqca kobud hazırlanmışdır. Bəzi sinə daşlarının üzərində ərəb əlifbası ilə yazılara təsadüf olunur. Sinə daşlarının bəzisi dördkünc formalı olub, yuxarıda tağ şəkillidir. Bu nekropolu təqribən XIV-XVII əsrlərə aid etmək olar.

**8. Qazançı qalası.** Tunc və Erkən Dəmir dövrünün abidəsidir. O, Culfa rayonunun Qazançı kəndindən şimalda, Əlincəçayın hər iki sahilində yerləşir. Qalanın sağsahil və solsahil hissəsi sıldırım qayalardan ibarət dərin dərə ilə bir-birindən ayrılır .

Azərbaycan EA Tarix İnstitutunun əməkdaşları qalada kəşfiyyat xarakterli tədqiqat aparmışdır. 1991-ci ildə qalada Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası kəşfiyyat xarakterli tədqiqat aparmış və nəticədə qalanın hər iki hissəsinin planı hazırlanmışdır. Aşkar olunmuş materiallar, Culfa rayon tarix-diyarşünaslıq muzeyində saxlanılır. Abidənin sahəsi 5,6 hektardır.

Qalanın sağ sahil hissəsi konusvari təpə formasındadır. O, şərqdə sıldırım qayalarla məhdudlaşır. Onun şimal və cənub-qərb tərəfi maili olduğu üçün bu istiqamətlərdən qalaya qalxmaq olur. Təpənin zirvəsində yarımdairəvi bürclərlə möhkəmləndirilmiş qala olmuşdur. Lakin hazırda bu qaladan əsər-əlamət qalmamışdır. Qazançı gölü tikilərkən abidənin bu hissəsi patladılaraq yerlə yeksan olunub. Hazırda abidənin cənub və şimal-qərb hissəsində iri daşlardan tikilmiş divarların qalıqları saxlanmışdır. Mədəni təbəqənin qalınlığı 0,5 m-dən 1,5 m-ə qədərdir. Mədəni təbəqə dağıdıldığından gil qab qırıqlarına tez-tez təsadüf olunur. Yerüstü materiallar dən daşlarından, çəhrayı və boz rəngdə bişirilmiş gil qab qırıqlarından ibarətdir. Yerüstü materialların böyük bir qismi boyalı qablardan ibarətdir.

Abidənin solsahil hissəsi sağsahilə nisbətən xeyli böyükdür. Solsahil qalası iki hissədən ibarət olub hər tərəfdən sıldırım qayalıqlarla əhatə olunmuşdur. Qalanın birinci hissəsi ikincidən çox da dərin olmayan dərə boyunca çəkilmiş iki qat divarla ayrılır. Bu hissədə qalanın şərq tərəfində yarımdairəvi formada tikilmiş bürclərin qalıqları saxlanmışdır. Bürclərin biri daş divarla iki yerə bölünüb.

Qalanın təbii cəhətdən əlçatmaz mövqedə yerləşməsinə baxmayaraq o hər tərəfdən iri daşlardan hörülmüş, divarlarla əhatə olunmuşdur. Divarların eni müxtəlifdir. Şimal və şimal-şərqdə qala təbii cəhətdən zəif müdafiə olunmadığı

üçün burada divarların eni 2,6-3 m-ə çatır. Divarlar 1-2 m hündürlüyədək saxlanmışdır.



Şəkil 61. Qazançı qalası

Divarlar ərazinin relyefinə uyğun olaraq girintili çıxıntılıdır. Tədqiqatlara əsasən demək olar ki, qala bəzi yerlərdə iki və üç cərgə divarla möhkəmləndirilmişdir. 1999-cu ildə qalada aparılan araşdırmalar zamanı onun mərkəzi hissəsində Narınqalanın olduğu müəyyən edilmişdir.

Qazançı qalasından toplanmış yerüstü materiallar çəhrayı və boz rəngli gil məmulatından ibarətdir.

Çəhrayı rəngli gil məmulatı küpə və kasa tipli qabların qırıqlarından ibarətdir. Onların gilinə narın qum qatılmış, yaxşı bişirilmişdir. Gil məmulatlarının bir qismi boyalı keramikadan ibarətdir. Onların üzəri boyalı anqolla örtülmüş, qara rənglə həndəsi motivdə naxışlanmışdır. Çəhrayı rəngli gil qab qırıqlarının birinin üzərində göbələkvari çıxıntısı vardır. Onun gilinə narın qum qatılmış, çəhrayı rəngdə bişirilmişdir. Xarici səthi uzunsov çərtmələrlə naxışlanmışdır. Çəhrayı rəngli gil məmulatının bir qrupu forma verməyən qırıqlardan ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq keyfiyyətli bişirilmişdir. Səthi qırmızı boya ilə örtülərək qara rəngdə naxışlanmışdır. Naxışlar üfüqi, şaquli və çəpinə çəkilmiş xətlərdən ibarət olub əsasən həndəsi xarakterdədir .

Boz rəngli gil məmulatı əsasən küpə tipli qabların qırıqlarından ibarətdir. Onlar formaca müxtəlifdir. Boz rəngli gil məmulatına forma verməyən qırıqlar da daxildir. Onların bir qismi narın qum qatılmış gildən hazırlanaraq qara rəngdə bişirilmişdir. Üzəri batıq üfüqi zolaqlarla naxışlanmışdır.

Aşkar edilmiş arxeoloji materialların analizi Qazançı qalasının e.ə. III-I minilliyə aid olduğunu göstərir.

**9. Qazançı yaşayış yeri** Orta əsr abidəsidir. Yaşayış yeri indiki Qazançı kəndinin ərazisini və onun şimal hissəsini əhatə edir. Abidənin əksər hissəsi müasir tikintilərin altında qalmışdır. Onun yalnız kiçik bir hissəsi saxlanmışdır. O, şimal-şərqdə Qazançı qalası, şərqdə Əlincəçayla məhdudlaşır. Yaşayış yerinin şimal-qərbindən asfalt yol keçir.

Yaşayış yerinin salamat qalan hissəsi dağın ətəyində yerləşdiyindən onun sahəsi girintili çıxıntılıdır. Bu sahədə mədəni təbəqə aşınma nəticəsində dağılmış, şirli və şirsiz qab qırıqları ətrafa səpələnmişdir. Abidənin şərq hissəsində uçub tökülmüş tikinti qalıqlarına təsadüf edilir. Onlar yonulmamış qaya daşlarından tikilmişdir. Dağıntı zamanı əmələ gəlmiş yarğanlarda təbəqənin qalınlığı aydın izlənilir. Bəzi yerlərdə təbəqə 2-3 m-ə yaxındır. Təbəqə kül qarışıq torpaq laylarından ibarət olub kül, osteoloji qalıqlar və gil qab qırıqları ilə zəngindir. Araşdırmalar zamanı yaşayış yerinin ərazisindən heyvan fiqurları və gil çıraqlar tapılmışdır.

Aşkar edilmiş şirli saxsı məmulatı daha zəngin ornamentlə naxışlanmışdır. Onların əksəriyyəti anqob üzərindən örtülmüş monoxrom, şirli qablardan ibarətdir. Şirli qablar içərisində polixrom, marqans və kobaltla naxışlanmış qablara da təsadüf edilir. Buradan tapılmış marqans üzərindən cızma üsulu ilə bəzədilmiş qab sadə həndəsi naxışlıdır. Belə qabların bölgədə əsas istehsal mərkəzi Naxçıvan şəhəri olmuşdur.

Heyvan fiqurları iki ədəd olub qırılmışdır. Onların baş və gövdə hissəsi salamat qalmışdır. Fiqurlar çəhrayı rəngdə yaxşı bişirilmiş ağ, göy və mavi rənglə naxışlanmışdır.

Qabların bəzisi ağ anqob üzərindən qəhvəyi və göy rənglə nəbati ornamentlə naxışlanmışdır.

Aşkar olunmuş arxeoloji materiallara əsasən, demək olar ki, Qazançı yaşayış yerində həyat IX-XVIII əsrlər boyu davam etmişdir.

**10. I Qazançı nekropolu** Orta əsrlərə aiddir. Nekropol Əlincəçayın sağ sahilində, Qazançı kəndinin şimal-şərqində, uzunsov təpənin üzərində yerləşir. Hazırda nekropol kəndin əhatəsindədir .

Nekropoldakı qəbirlər müsəlman qibləsi istiqamətində olub yerləşdiyi təpənin bütün səthini əhatə edir. Qəbirlərin əksəriyyətinin başdaşıları yoxdur. Sinə daşları uzunsov və dördkünc formada olub bir qədər kobud hazırlanmışdır. Sinə daşlarının bir qrupu sandıqşəkillidir. Onlar yuxarıda tağvari formada tamamlanır. Bu tip sinə daşlarının gövdəsi boyunca süjetli təsvirlər vardır. Təəssüf ki, belə sinə daşlarının əksəriyyəti qırılıb dağıdılmışdır. Qəbiristanlıqdakı sinə daşlarının bir qrupu qoç daşlardan ibarətdir. Onların əksəriyyəti qırılıb dağıdılmış və ətrafa səpələnmişdir.

I Qazançı nekropolunu ətrafdan tapılmış saxsı qab sınıqları və sinə daşları əsasında XIII-XVII əsrlərə aid etmək olar.

**11. II Qazançı nekropolu** Orta əsr abidəsidir. Nekropol Əlincəçayın sağ sahilində, Qazançı kəndinin cənub-şərqində yerləşir. O şərqdə Əlincəçay, şimalda isə dərin dərə ilə məhdudlaşır. Nekropolun yerləşdiyi təpə qərbdə ensiz zolaq şəklində ümumi dağ silsiləsi ilə əlaqələnir. Onun qərb tərəfindən asfalt yol keçir.

Nekropolda müxtəlif dövrlərə aid qəbirlər vardır. Qəbirlərin üzərində başdaşıları saxlanmamışdır, qədim qəbirlərin əksəriyyəti dağıdılmışdır. Qəbirlər müsəlman qibləsi istiqamətindədir. Sinə daşları dördkünc və uzunsov formalı olub olduqca kobud hazırlanmışdır. Bəzi sinə daşları yastıdır. Qəbirlərin üzərində heç bir işarə yaxud yazıya təsadüf edilmir. Yalnız iki qəbirin üzərində həndəsi xətlərin olduğu müəyyən edilmişdir. Orta əsrlərə aid sinə daşlarının üzəri qalın mamır qatı ilə örtülmüşdür. Yerli əhalinin verdiyi məlumata görə, qəbiristanlıqda xeyli qoç daşlar olmuşdur. Hazırda onlardan yalnız biri saxlanmış, qalanları isə qırılıb dağılmışdır .

II Qazançı nekropolunun Orta əsr qəbirlərini XIV-XVIII əsrlərə aid etmək olar.

**12. Qıtqın yaşayış yeri** Orta əsr abidəsidir. Abidə Culfa bölgəsinin Xanəgah kəndindən şərqdə, Əlincəçayın sol sahilində, ondan təqribən 1 km aralıda yerləşir.Yaşayış yeri şərqdə kiçik çay axan dərin dərə, şimalda isə hündür dağlarla məhdudlaşır. Cənub və cənub-qərbdə o Əlincəçay boyunca uzanan kiçik təpələrlə əlaqələnir. Sahəsi 17600 kv.m-dir.

Yaşayış yeri 1991-ci ildə qeydə alınmış və orada kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır. Aşkar olunmuş materiallar Culfa tarix-diyarşünaslıq muzeyində saxlanılır.

Yaşayış yeri dağ çayının sahili boyunca şimal-şərqə doğru uzanır. Onun yerləşdiyi ərazi iki yerdə dərin yarğanla kəsilmişdir. Tikintilər tamamilə dağıdılmış, onların yerində yalnız daş yığınları qalmışdır. Odur ki, yaşayış yerinin planını müəyyən etmək mümkün olmadı. Yerüstü materiallar çay daşından hazırlanmış dən daşları, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz gil qab qırıqları və bişmiş kərpiclərdən ibarətdir. Bişmiş kərpiclərin ölçüsü 19 x 19 x 4 sm-dir.




Şəkil 62. Qıtqın yaşayış yeri

Abidənin böyük bir hissəsində mədəni təbəqə dağıdılmışdır. Təbəqə olduqca az saxlanmışdır, lakin bəzi yerlərdə onun qalınlığı 1 m-ə çatır.

Yaşayış yerində toplanmış yerüstü materiallar sadə və şirli gil qab qırıqlarından ibarətdir.

Şirli gil məmulatı əsasən kasa tipli qabların parçalarından ibarətdir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmiş, içəridən yaşıl, yaxud göy şirlə örtülmüşdür. Onlardan biri göy rəng üzərindən qəhvəyi rənglə naxışlanmış və şəffaf şirlə örtülmüşdür. Naxışlar həndəsi motivlidir.

Şirli saxsı məmulatına forma verməyən gil qab qırıqları da daxildir. Onlar əsasən ağ anqobla örtüldükdən sonra qəhvəyi və göy rənglə naxışlanmış, rəngsiz şirlə örtülmüşdür. Qabların biri anqob üstü cızma üsulu ilə naxışlanmış, oyuqlar yaşıl şirlə doldurulmuş və rəngsiz şirlə örtülmüşdür.

Toplanmış arxeoloji materialların analizinə əsasən, Qıtqın yaşayış yerini IX-XVII əsrlərə aid etmək olar.

**13. Ləkətağ körpüsü** Orta əsr abidəsidir. Körpü Culfa rayonunun Ərəfsə kəndindən şimal-şərqdə Əlincəçayın üzərində yerləşir. Körpü Əlincə çayın sol sahilində olan kəndləri Culfa rayonun digər kəndləri ilə əlaqələndirmişdir.

1991-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası bu ərazidə işləyərkən körpünün ölçülərini və fotosunu götürmüşdür.

Körpü tağvari formada olub müxtəlif həcmli çay və dağ daşlarından tikilmişdir. Onun tağı kənarlarda yonulmuş ağ daşlardan, ortada isə müxtəlif çay daşları ilə hörülmüşdür. Bərkidici maddə kimi iri qum və əhəng qarışığı olan gəcdən istifadə edilmişdir. Aşağı hissədə körpunun eni 7 m-dir. Onun hündürlüyü daş özülə qədər 5, çaya qədər 6,5 m-dir. Körpünün eni 2,7 m-dir. Onun üst hissəsi tamamilə uçub dağılmış, tağı isə uçmaq üzrədir.

Belə hesab etmək olar ki, Orta əsrlərdə Əlincəçay vadisi ilə uzanan yol Ərəfsə kəndinin yaxınlığında çayın sol sahili boyunca davam etmişdir.

Tikinti texnikasına əsasən körpünü XVI-XVII əsrlərə aid etmək olar.

**14. I Əbrəqunus nekropolu** Orta əsrlərə aiddir. Nekropol kəndin qərbində Ərəfsə-Naxçıvan yolunun sağ tərəfində, uzunsov təpənin üzərində yerləşir. Abidə ətraf yerlərə nisbətən hündürdə olub hər tərəfdən əkin sahələri ilə əhatə olunmuşdur. Nekropolun şimal-şərqindən torpaq yol keçir. Sahəsi 3200 kv.m-dir.

Nekropoldakı qəbirlər müxtəlif dövrlərə aiddir. Onlar təpənin üzərini tamamilə əhatə etmişdir. Şərq-qərb istiqamətində olan qəbirlərin baş daşıları saxlanmamışdır. Sinə daşlarının əksəriyyəti dördüzlü prizma formasında olub olduqca kobud hazırlanmış, üzəri mamırla örtülmüşdür. Bəzi sinə daşlarının yuxarı hissəsi tağvari formada tamamlanır. Sinə daşlarının bəziləri həndəsi və arxitektura ornamentləri ilə naxışlanmışdır. Onlardan birinin üzərində süjetli təsvir həkk olunmuşdur. Rəsmlər sxematik quş, ucları dəyirmiləşdirilmiş həndəsi xətlər, insan və ağac təsvirlərindən ibarətdir. Təsvir oyma naxışla haşiyələnmişdir. Qəbiristanlıqdan forma verməyən çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz qab qırıqları aşkar edilmişdir. Nekropolda müasir qəbirlərə də təsadüf olunur.

I Əbrəqunus nekropolunun Orta əsr qəbirlərini XIV-XVII əsrlərə aid etmək olar.

**15. II Əbrəqunus nekropolu** Orta əsrlərə aiddir. Nekropol birincidən bir qədər aralıda, Ərəfsə-Naxçıvan şose yolunun sağ tərəfində nalşəkilli formada

uzanan kiçik təpə üzərində yerləşir. O, hər tərəfdən əkin sahələri ilə əhatə olunmuşdur. Abidənin şərq tərəfindən asfalt yol keçir. Sahəsi 5600 kv.m-dir.

Nekropolda 1991-ci ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropol nalşəkilli təpənin əsasən üst hissəsini əhatə edir. Qəbirlər əsasən qiblə istiqamətindədir, onların başdaşıları saxlanmamışdır. Sinə daşları düzbucaqlı prizma formasında kobud hazırlanmışdır. Onlardan birinin üst hissəsi tağvari formada tamamlanır. Bu növ daşların əsas hissəsi qırılıb dağıdılmışdır. Saxlanmış bir qırığın üzərində insan təsviri vardır. Bəzi sinə daşlarının yan tərəfində həndəsi və səkkizguşəli gül təsvirləri verilmişdir. Qəbiristanlıqdakı qəbirlərin bir çoxu qazılmış, sinə daşları qırılmışdır. Vaxtilə nekropolda xeyli qoç daşlar olmuşdur.

Nekropolda aparılan tədqiqatlar zamanı yerüstü materiallara təsadüf olunmuşdur. Onlar Son Orta əsrlərə aid şirli və şirsiz saxsı qab sınıqlarından və yüksək keyfiyyətli fayans hissələrindən ibarətdir. Nekropolda iki müasir qəbrə təsadüf edildi. Nekropolda olan Orta əsr qəbirlərini XIV-XVII əsrlərə aid etmək olar.

**16. III Əbrəqunus nekropolu.** Orta əsrlərə aiddir. Nekropol Əbrəqunus çayının sol sahilində, kəndin cənub-qərbində yerləşir. Nekropol hər tərəfdən yaşayış binaları ilə əhatə olunmuşdur, cənub-qərbdə dərin yarğandan axan Əbrəqunus çayı ilə sərhədlənir. Nekropol asfalt yolla iki yerə bölünmüşdür. Sahəsi 1800 kv.m-dir. 1991-ci ildə burada kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Nekropolun yerləşdiyi ərazi əsasən düzənlik olub bəzi yerlərdə kiçik təpələr vardır. Hazırda nekropolun izləri itmək üzrədir. Qəbirlərin başdaşıları saxlanmamış, sinə daşları isə yerindən tərpədilmişdir. Sinə daşları olduqca kobud hazırlanmış, bəzi qəbirlərin üzərinə yonulmamış dördkünc daşlar qoyulmuşdur. Onlar əsasən qərb-şərq istiqamətindədir. Qəbirlərin sinə daşlarında heç bir yazıya, yaxud işarəyə təsadüf olunmur, yalnız bir neçə qəbir daşının üzərində kiçik həndəsi xətlər cızılmışdır. Nekropolu XVI-XVIII əsrlərə aid etmək olar.

**17. Ərəzin yaşayış yeri** Orta əsr abidəsidir. Abidə Ərəzin kəndindən qərbdə, Naxçıvan-Ərəfsə asfalt yolunun sağ tərəfində yerləşir. Abidənin yerləşdiyi ərazi şimal-şərqdə və cənub-qərbdə qurumuş çay yatağı ilə məhdudlaşır. Yaşayış yeri sel sularının yuyub açdığı yarğanlarla bir neçə hissəyə bölünmüşdür.

Yaşayış yeri 1989-cu ildə bu ərazidə su hovuzu tikilərkən təsadüfən aşkar olunmuşdur. Tikinti zamanı abidənin bir qismi dağıdılmışdır. 1991-ci ildə Ə.İ.Novruzlu və V.B.Baxşəliyev burada kəşfiyyat xarakterli tədqiqat işləri aparmış yerüstü materiallar toplamışdır.

Yaşayış yerinin mərkəzi hissəsi 360 kv.m sahədə qismən salamat qalmışdır. O, ətraf yerlərə nisbətən bir qədər hündürdədir. Yerüstü materiallar əmək alətlərinin qırıqlarından, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı qab sınıqlarından, bişmiş kərpic və istehsal tullantılarından ibarətdir. Abidənin bir

hissəsində mədəni təbəqə 2 m qalınlığında saxlanmışdır. Lakin yaşayış yerinin kənarlarında təbəqə olduqca az yığılmışdır. Kənarlarda təbəqənin qalınlığı 0,5 m-dir. Abidənin dağıdılmış hissələrində qara rəngli kül dolu ocaq yerlərinə təsadüf olunur.



Şəkil 63. Ərəzin yaşayış yeri

Yerüstü materiallar əsasən gil məmulatından ibarət olub şirli və şirsiz gil qab qırıqları ilə təmsil olunmuşdur. Şirsiz saxsı məmulatı qapaq, çölmək, küpə və kasa tipli qabların sınıqlarından ibarətdir. Küpələr formaca müxtəlif olub çəhrayı rəngdə yaxşı bişirilmişdir.

Kasalar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Onlar qabarıq gövdəli olub ağzının formasına görə bir-birindən fərqlənir. Kasaların ikisinin ağzının kənarı xaricdən qabarıq zolaqla əhatə olunmuşdur.

Şirli saxsı məmulatı əsasən kasa tipli qabların sınıqlarından ibarətdir. Lakin onların içərisində badya və banka tipli qablara da təsadüf olunur. Qabların ağzının kənarı daxildən, bəzən isə xaricdən yaşıl şirlə örtülmüşdür, səthi anqob, üstü cızma üsulu ilə naxışlanmışdır. Qazılmış yerlərə tünd, yaxud açıq yaşıl rəng

çəkilmiş və şəffaf şirlə örtülmüşdür. Naxışlar əsasən həndəsi xarakterlidir. Kasalardan birinin ağzının kənarı basma ilə naxışlanmışdır.

Aşkar olunmuş arxeoloji materialların analizinə əsasən, Ərəzin yaşayış yerini XIV-XVII əsrlərə aid etmək olar.

**18. Ərəzin nekropolu** Orta əsrə aiddir. Nekropol Ərəzin kəndindən şimal-şərqdə, Ərəzin-Camaldın asfalt yolunun sol tərəfində, hündür təpənin üzərində yerləşir. Onun yerləşdiyi təpə ətraf yerlərə nisbətən hündürdə olub şimala doğru uzanır və ümumi dağ silsiləsi ilə əlaqələnir. Cənub və cənub-qərb tərəflərdən düzənlik sahə ilə əhatə olunmuşdur.

Nekropolda 1991-ci ildə müəllif burada kəşfiyyat xarakterli tədqiqat aparmışdır. Nekropol hazırda itmək üzrədir. Qəbirlər şərq-qərb istiqamətinə yönəldilib. Onların üzərinə dördkünc formalı yonulmamış sal daşlar qoyulmuşdur. Qəbirlərin başdaşıları saxlanmamış, onların bir neçəsi qazılıb dağıdılmışdır. Nekropolun ərazisində Son Orta əsrlərə aid şirsiz saxsı məmulatına təsadüf edilir.

Nekropolu təqribən XV-XVIII əsrlərə aid etmək olar.

**19. Zərişdərə yaşayış yeri** Orta əsr abidəsidir. Abidə Ləkətağ kəndindən cənub-qərbdə Əlincəçayın sağ sahilində yerləşir. O, cənub-şərqdə asfalt yol, şimal-şərqdə dərin dərə ilə məhdudlaşır. Yaşayış yeri qərb tərəfdə hündür dağlarla əhatələnmişdir.

1991-ci ildə yaşayış yerində kəşfiyyat xarakterli tədqiqat aparılmışdır. Sahəsi 890 kv.m-dir. Yaşayış yeri dağın yamacında yerləşdiyindən mədəni təbəqə dağılmışdır. Suyun yuyub açdığı yarğanlarda mədəni təbəqəyə təsadüf edilmədi. Abidənin yerləşdiyi ərazidə forma verməyən şirsiz saxsı qab sınıqlarına təsadüf edilmişdir.

Yaşayış yerinin ərazisi hazırda əkin sahəsi kimi istifadə olunur, odur ki, onun sərhədlərini dəqiq müəyyənləşdirmək mümkün olmadı. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə burada böyük məscid və yaşayış binaları olmuşdur. Etnoqrafik məlumatlardan aydın olur ki, buradan kir-kirə daşı, mis qablar, şamdan və başqa əşyalar tapılmışdır. Lakin aşkar olunmuş materialların heç biri indiyədək saxlanmamışdır.

Yaşayış yerinin şərq qurtaracağında yerli əhali tərəfindən sitayiş olunan pir vardır. Pir dairəvi formada iri daşlar və kollarla əhatələnmişdir.

Zərişdərə yaşayış yerini təqribən XVI-XVIII əsrlərə aid etmək olar.

**20. Zərişdərə nekropolu** Orta əsrlərə aiddir. Abidə yaşayış yerindən qərbdə yerləşir. Nekropol hündür təpənin üzərini və onun yamaclarını əhatə edir. O, dağ silsiləsinin çaya enən yamacında salınmışdır.

1990-1991-ci illərdə nekropol ərazisində kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropoldakı qəbirlərin hamısı şərq-qərb istiqamətində olub başdaşıları qərb tərəfdədir. Onların çoxunun başdaşı düşmüşdür. Qəbirlərin üzəri iri və kiçik həcmli daşlarla örtülmüşdür, bəzilərinin üzərinə iri sal daşlar da qoyulmuşdur.

Əksəriyyəti batmış və hazırda itmək üzrədir. Bəzi qəbir daşlarında oxunmaz hala düşmüş, ərəb əlifbası ilə yazılmış kitabələr var. Nekropolu təqribən XVI-XVIII əsrlərə aid etmək olar.

**21. I Zoğala yaşayış yeri.** Antik və Erkən Orta əsrlərə aid abidədir. O, Əlincəçayın sağ sahilində, Milax kəndindən 6 km şimal-qərbdə yerləşir. Yaşayış yeri cənub-qərbdə Zoğala çayı, şimal-şərqdə isə dərin dərə ilə sərhədlənir. Şimal tərəfdə yaşayış yeri dağ silsiləsi ilə məhdudlaşır .

Yaşayış yerinin adı ədəbiyyatda Zağalı, Zoğalı, Zoğallı kimi qeyd edilmişdir. Yerli əhali isə abidəni və onun yerləşdiyi ərazini « Yeni Zoğala » adlandırır. Yaşayış yerindən 1932-ci ildə təsadüfən iki tunc qrifon tapılmışdır. Qrifonlarla tanış olduqdan sonra İ.P.Şeblıkin bu ərazidə qazıntı aparmış və sütun altlıqları aşkar etmişdir. 1987-ci ildə B.H.Əliyev və V.B.Baxşəliyev tərəfindən yaşayış yerində kəşfiyyat xarakterli tədqiqat aparılmışdır .

Yaşayış yerinin yerləşdiyi sahə düzənlikdir. Onun qərb tərəfində yolun kənarında tənha bir ağac vardır. Bu ərazi uzun müddət əkin sahəsi kimi istifadə edildiyindən torpağın şumlanması nəticəsində mədəni təbəqə tamamilə dağıdılmışdır. Aparılan tədqiqatlar nəticəsində yaşayış yerindən çəhrayı rəngli forma verməyən gil qab qırıqları, o cümlədən bir ədəd kasa tipli qabın sınığı tapılmışdır.

Vaxtilə buradan tapılmış Erkən Orta əsrlərə aid sütun altlıqları hazırda saxlanmamışdır. Tunc qrifonların biri Sankt-Peterburqda Dövlət Ermitajında, ikincisi isə Nizami adına Azərbaycan ədəbiyyatı muzeyində saxlanılır. Qrifon müxtəlif heyvanların əlamətlərini özündə birləşdirən fantastik bir varlıq şəklindədir. Onun yuxarı hissəsi qartal başını, aşağısı isə şir ayağını xatırladır. Tədqiqatçılar Zoğala qriflərinin taxt ayağı olduğunu qeyd etmişlər, lakin onların dövrü haqqında müxtəlif fikirlər söylənmişdir. Qrifonları İlk Orta əsrlərə aid edən tədqiqatçılar daha düzgün mövqe tutmuşdur .

Aşkar olunmuş tapıntılara əsasən demək olar ki, I Zoğala yaşayış yerində həyat e.ə. IV əsrdən bizim eranın VII əsirinədək davam etmişdir. Müşahidələr göstərir ki, Zoğalada həyat sonrakı dövrlərdə bərpa olunmuş və Son Orta əsrlərədək davam etmişdir.

**22. II Zoğala yaşayış yeri.** ( Köhnə Zoğala). Milax kəndindən şimal-qərbdə Zoğalçayın sol sahilində birinci yaşayış yerindən bir qədər aralıdadır. Yaşayış yeri şərqdə dərin dərə, cənub-qərbdə Zoğalçay, şimalda dağ silsiləsi ilə məhdudlaşır.

Yaşayış yerində 1987-ci ildə B.H.Əliyev və V.B.Baxşəliyev tərəfindən kəşfiyyat xarakterli tədqiqat aparılmışdır .

Yaşayış yeri hündür təpənin yamacında yerləşir. Abidə təpənin yamacı boyunca şimaldan şərqə doğru uzanır, yaşayış binaları tamamilə uçub dağılmış, onların yerində dördkünc və oval çalalar qalmışdır. Uçub tökülmüş tikinti qalıqlarına əsasən demək olar ki, binalar əsasən daşdan tikilmişdir. Yaşayış yerində aparılan tədqiqatlar zamanı gil məmulatına, yaxud əmək alətlərinə

təsadüf edilməmişdir. Tədqiqat zamanı müəyyən olunmuşdur ki, mədəni təbəqə 0,5-1 m qalınlığında saxlanmışdır.

II Zoğala yaşayış yerini Son Orta əsrlərə, təqribən XVI-XVIII əsrlərə aid etmək olar.

**23. Zoğala nekropolu.** Son Orta əsrlərə aid abidədir. Abidə Milax kəndindən şimal-qərbdə birinci yaşayış yerinin yaxınlığında yerləşir. Onları bir-birindən dərin dərə ayırır. Nekropolun yerləşdiyi ərazi şimal-qərb və cənub-şərqdə dərin dərə ilə məhdudlaşır. O, şimal tərəfdə ümumi dağ silsiləsi ilə qovuşur. Nekropol 1987-ci ildə B.H.Əliyev və V.B.Baxşəliyev tərəfindən tədqiq edilmişdir.

Nekropoldakı qəbirlər qərb-şərq istiqamətindədir. Onların demək olar ki, heç birinin başdaşıları saxlanmamışdır. Qəbirlərin üzəri dördkünc formada kiçik həcmli daşlarla əhatələnmiş, bəzilərinin üzəri isə başdan-başa daşla örtülmüşdür. Onların əksəriyyəti hazırda itmək üzrədir. Nekropolu təqribən XVI-XIX əsrlərə aid etmək olar.

**24. İlandağ yaşayış yeri.** Orta əsrlərə aid abidədir. Abidə Culfa rayonunun Gal kəndindən şimal-şərqdə, İlandağın şərq yamacında yerləşir. Onun şərq tərəfindən torpaq yol keçir. Yaşayış yerində 1991–ci ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Yaşayış yeri dağın yamacında təbii cəhətdən əlverişli mövqedə yerləşir. O, üç tərəfdən sıldırım qayalarla əhatə edilmişdir. Yerli əhali arasında onu «Nəbi qalası» da adlandırırlar. Qalanın ətrafı möhrədən tikilmiş divarlarla əhatə edilmişdir. Divarların bünövrəsi bəzi yerlərdə qaya daşlarından hörülmüşdür. Yaşayış yerində daşdan və möhrədən tikilmiş binaların qalıqları saxlanmışdır. Möhrə divarların tikintisində çınqıl qarışığı olan palçıqdan istifadə edilmişdir. Mədəni təbəqə yaxşı saxlanmamış və aşınma nəticəsində dağılmışdır. Lakin bəzi yerlərdə təbəqənin qalınlığı 0,5 m-dən 1 m-ə çatır.

Yerüstü materiallar əsasən gil qab sınıqlarından ibarət olub çəhrayı rəngdə yaxşı bişirilmişdir. Onlar küpə və kasa tipli qabların sınıqlarından ibarətdir. Küpələrin gilinə napın qum qatılmış, çəhrayı rəngdə yaxşı bişirilmiş, xaricdən hamarlanmışdır.

Kasa tipli qabların öturacağı hündür dabanlı olub bir qədər içəriyə doğru batıqdır. İçərisi ağ anqob, üzərindən yaşıl və qəhvəyi rənglə nəbati ornamentlə naxışlanmışdır. Bəzi kasaların ağzının kənarları xaricdən həmçinin sadə həndəsi xətlərlə bəzədilmişdir.

Şüşə qablar bir neçə nümunə ilə təmsil olunmuşdur. Onlardan birinin boğaz hissəsi saxlanmışdır. Onun boğazı silindrik, ağzının kənarı pilləlidir. İkinci nümunə şüşə qabın oturacaq hissəsinə aid olub yastıdır. Gövdəsi yuxarıya doğru şarşəkilli formada genişlənir.

Aşkar edilmiş tapıntılara və tikinti qalıqlarına əsasən İlandağ yaşayış yerinin XI-XVIII əsrlərə aid etmək olar.

**25. Yeycə yaşayış yeri.** Orta əsrlərə aid abidədir. Yaşayış yeri Culfa rayonunun Saltaq kəndindən şimal-şərqdə, Əlincəçayın sol sahilində yerləşir.

Abidə şimal şərqdə Əlincəçayla, şimal və cənubda dərin dərə ilə məhdudlaşır. Şərq tərəfdə alçaq təpələrlə birləşərək ümumi relyeflə əlaqələnir. Sahəsi 1850 kv. m-dir.Yaşayış yeri 1991–ci ildə V.B.Baxşəliyev və Ə.İ.Novruzlu tərəfindən qeydə alınmışdır.




Şəkil 64. Yeycə yaşayış yeri

Abidə qərbdən şərqə doğru genişlənən uzunsov təpənin üzərində yerləşir. Təpə ətraf yerlərə nisbətən bir qədər hündürdədir. O, cənub tərəfdən qayalıqlarla əhatə olunub. Yaşayış yeri arx çəkilərkən güclü dağıntıya məruz qalmışdır.

Abidənin yerləşdiyi təpənin üzəri tikinti qalıqları ilə örtülmüşdür. Tikintilər qrup halında iki yerdə yerləşmişdir. Yerin üzərinə səpələnmiş tikinti qalıqlarına əsasən demək olar ki, binalar daşdan və möhrədən tikilmişdir. Tikintilər tamamilə dağılmış, onların yerində dördkünc və oval çalalar saxlanmışdır. Tədqiqatlara əsasən demək olar ki, abidənin üzərində saxlanmış tikinti qalıqları Son Orta əsrlərə aiddir.

Yaşayış yerinin qərb tərəfində möhrədən və daşdan hörülmüş divarlar aşkar olunmuşdur. Şimal-qərbdə arx çəkilərkən hündürlüyü 5 m olan kəsik əmələ

gəlmişdir. Kəsikdə bir-birinin üzərində yerləşən üç tikinti qatı aydın izlənilir. Yerin relyefindən asılı olaraq təbəqə 5-15 m qalınlığında saxlanmışdır. O, kül və ağ rəngli çürüntü qarışığı olan torpaq laylarından ibarət olub gil məmulatı və osteoloji qalıqlarla zəngindir. Təbəqə yumşaq olduğu üçün təbii aşınmaya məruz qalmışdır. Abidənin dağıntıya məruz qalmış hissəsində aparılan təmizləmə işləri zamanı qara rəngli bişirilmiş gil qabların sınıqları aşkar olunmuşdur.

Yerüstü materiallar əsasən şirli və şirsiz saxsı məmulatından ibarətdir. Şirsiz saxsı məmulatı çəhrayı və boz rəngdə bişirilmiş qabların sınıqları ilə təmsil olunmuşdur.

Çəhrayı rəngdə bişirilmiş gil məmulatı küpə, badya və kasa tipli qablardan ibarətdir. Onların gilinin tərkibinə iri qum qatılmış, çəhrayı rəngdə bişirilmişdir. Bəzi qabların gövdəsinin yuxarı hissəsi iri çərtmə ornamentlə naxışlanmışdır.

Şirli saxsı məmulatı kasa tipli qabların sınıqlarından ibarətdir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmişdir. Kasalar formaca bir-birindən fərqlənir. Onların bir qrupu asimmetrikdir. Qabların gövdəsi yuxarıdan bir qədər içəriyə, aşağıdan isə xaricə doğru çıxıntılıdır. Ağızlarının kənarı relsşəkillidir. İçərisinə tünd yaşıl rəng çəkilmiş, anqob üstü cızma üsulu ilə işlənilmiş, nəbati təsvirlərlə naxışlanmışdır. Naxışlar müxtəlif rənglərlə çəkilmiş, enli xətlərlə sərhədlənmişdir. İkinci qrup kasaların gövdəsi qabarıq olub ağız hissədə bir qədər içəri yığılmışdır. Onlar ağ anqob üzərindən göy rəngdə çəkilmiş xətlər və göy rəngli nəbati ornamentlə naxışlanmışdır .

Bəzi qabların hər iki üzü ağ anqobla örtülərək içərisi göy və yaşıl rənglə naxışlanmış, rəngsiz şəffaf şirlə örtülmüşdür .

Yeycə yaşayış yerindən aşkar edilmiş arxeoloji materialların təhlilinə əsasən belə hesab etmək olar ki, yaşayış yeri IX-XVIII əsrlərə aiddir. Lakin burada qədim dövrlərə aid təbəqənin də olması güman edilir.

**26. Kolasu yaşayış yeri** Erkən Orta əsrlərə aiddir. Abidə Culfa rayonunun Ləkətağ kəndindən şimal-şərqdə, Kolasu çayı ilə Dəmirli çayın qovşağında yerləşir. Yaşayış yeri 1991–ci ildə qeydə alınmış və kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir.

Yaşayış yeri dağ silsiləsinin çay qovşağına enən yamacında yerləşir. Abidə bir-birinin üzərində yerləşən üç terrası əhatə edir. Onun üzəri uçub-tökülmüş tikinti qalıqları ilə örtülmüşdür. Tikintilər tamamilə dağıdılmışdır. Binaların yerində dördkünc və oval formalı çalalar saxlanmışdır. Yerin üzərinə səpələnmiş tikinti qalıqlarına əsasən belə hesab etmək olar ki, binalar əsasən daşdan inşa edilmişdir.

Tədqiqat nəticəsində müəyyən edildi ki, yaşayış yerində mədəni təbəqə saxlanmamışdır. Yerüstü materiallar sınmış dən daşlarından və çəhrayı rəngdə bişirilmiş gil qab sınıqlarından ibarətdir.

Gil məmulatı forma verməyən qab parçaları ilə təmsil olunmuşdur. Onların gilinə narın qum qatılmış, çəhrayı rəngdə yaxşı bişirilmişdir.

Dən daşları iki nümunə ilə təmsil olunub. Onlar boz rəngli çaydaşından oval formada hazırlanmışdır. Dən daşları üst tərəfdə yastı, aşağıda isə qabarıqdır.

Kolasu yaşayış yerini təqribən VI-VIII əsrlərə aid etmək olar.

**27. Kolasu nekropolu.** Erkən Orta əslərə aiddir. Nekropol Culfa rayonunun Ləkətağ kəndindən şimal-şərqdə, eyni adlı yaşayış yerinin şimalında, onunla bir ərazidə yerləşir. Nekropol 1991–ci ildə qeydə alınmış və kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir.

Nekropol ensiz zolaq şəklində qərbdən-şərqə doğru uzanır. Qəbirlər əsasən qərb-şərq istiqamətində yönəldilmişdir. Onların başdaşıları saxlanmamışdır. Sinə daşları yonulmamış iri sal daşlardan ibarət olub dördkünc formalıdır. Aşınma nəticəsində bəzi qəbirlərin üzəri açılmış və yan daşlar üzə çıxmışdır. Tədqiqatlara əsasən demək olar ki, qəbirlər daş qutu tipli olmuşdur. Nekropol yaşayış yerindən azacıq aralıda yerləşir. Nekropolu yaşayış yeri ilə eyni dövrə - VI-VIII əsrlərə aid etmək olar.

**28. Kırna yaşayış yeri** Orta əsr abidəsidir. Abidə Culfa rayonunun Kırna kəndindən şərqdə yerləşir. Yaşayış yerinin yerləşdiyi ərazi girintili-çıxıntılı olub. Şərqdən hündür dağ silsiləsi, qərbdən Əlincəçay, şimal və cənubdan isə dərələrlə sərhədlənir. 1991–ci ildə yaşayış yerində kəşfiyyat xarakterli tədqiqat aparılmışdır. Sahəsi 3700 kv.m-dir.

Kırna yaşayış yerinin böyük bir hissəsi hazırda yeni tikintilərlə örtülmüşdür. Onun saxlanmış hissəsi hündür təpəni və onun ətəklərini əhatə edir. Təpənin üzərində orta əsrlərə aid türbə vardır. Bu nadir memarlıq abidəsi hazırda güclü dağıntıya məruz qalmışdır.

Yaşayış yerində vaxtilə mövcud olan tikintilər tamamilə dağılmış, kərpic və möhrə qırıqları ətrafa səpələnmişdir. Yerüstü materiallar olduqca azdır. Onlar əsasən gil qab və kərpic hissələrindən, dən daşlarından ibarətdir. Abidənin şimal tərəfindən daş ovuntusu qatılmış möhrədən hörülmüş divar qalıqları saxlanmışdır. Araşdırmalar göstərir ki, yaşayış yerində bişmiş kərpicdən inşa olunmuş tikintilər olmuşdur.

Gil məmulatı şirli və şirsiz saxsı qabların sınıqlarından ibarətdir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmiş və hər iki üzdən hamarlanmışdır. Bəzi qab hissələri müxtəlif rəngdə naxışlanaraq şəffaf və rəngli şirlə örtülmüşdür.

Bişmiş kərpiclər kvadrat formalı olub yaxşı bişirilmişdir. Onların ölçüləri 18 x 18 x 4 sm, 18,5 x 18,5 x 4 sm-dir.

Dən daşları bazaltdan hazırlanmışdır. Onların işlək hissəsi yastı və oval, aşağı hissəsi isə qabarıqdır.

Aşkar olunmuş arxeoloji materialların analizinə əsasən, Kırna yaşayış yerini XI-XVII əsrlərə aid etmək olar.

**29. I Kırna nekropolu.** Orta əsrlərə aid abidədir. O, Culfa bölgəsinin Kırna kəndindən şimalda yerləşir. Nekropol hündür təpəni və onun yamaclarını əhatə edir, qərb tərəfdə Əlincəçay, cənubda torpaq yol, şimal-şərqdə dərin dərə

ilə sərhədlənir. Nekropolda 1985-1991–ci ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropol hazırda yerli əhali tərəfindən istifadə edilir. Orta əsr və müasir qəbirlər bir-birinə qarışmışdır. Qəbirlərin başdaşıları saxlanmamışdır, sinə daşlarının isə bir çoxu yerindən tərpədilib çevrilmişdir. Sinə daşları müxtəlif formalıdır. Onlar əsasən düzbucaqlı və prizma formasında olub, bəzən yuxarıda tağvari formada tamamlanmışdır. Bir qrup qəbirlərin baş tərəfində tağşəkilli oyuqlar açılmışdır. Bəzi qəbirlərin üzərində quş və haça təsvirləri vardır. Onların üzərində yazıya təsadüf olunmamışdır.

Qəbirlərin bəzisinin üzərində nəhəng qoç daşlar qoyulmuşdur. Qoçların bir qrupu düzbucaqlı altlıq üzərində yonulmuşdur. Qoçların hamısı yüksək ustalıqla işlənmişdir. Onların baş tərəfi spiralşəkilli buynuzları olan oval çıxıntı ilə bildirilmişdir.

Kırna nekropolundakı qəbirlərin bir qrupu iri daşlarla əhatə olunmuşdur. Daş düzmələr əsasən düzbucaqlı planlıdır. Lakin onların çoxusu hazırda dağıdılıb məhv edilmişdir.

Nekropolun mərkəzində çiy kərpiclərdən hörülmüş binanın qalıqları saxlanmışdır. O, düzbucaqlı planda olub 5 x 5 m sahəni əhatə edir. Binanın hər divarında eni 1 m olan giriş qapısı vardır. Türbə hündürlüyü 0,6 , 0,75 m olan daş özül üzərində qurulmuşdur. Divarların eni 0,66 m-dir.

Qəbirüstü abidələrin tədqiqinə əsasən belə hesab etmək olar ki, nekropolun qədim hissəsi XIV-XVIII əsrlərə aiddir. Lakin o, sonrakı dövrlərdə də istifadə edilmişdir.

**30. II Kırna nekropolu.** Orta əsrlərə aiddir. O, Culfa rayonunun Kırna kəndindən şərqdə yerləşir. Nekropol şimal-şərq və cənub tərəflərdən hündür dağlarla əhatə olunmuş düzənlik sahədə yerləşir. Qərb tərəfdə nekropolun yaxınlığından torpaq yol keçir. Nekropolda 1991–ci ildə kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır.

Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə nekropolda xeyli qoç-daş olmuşdur. Qoçlar çox olduğuna görə nekropol bəzən “qoçluq” adlandırılır. Lakin onların əksəriyyəti aparılmışdır. Hazırda nekropolda üç ədəd qoç-daş qalmışdır ki, onların da bir tərəfi sındırılmışdır. Qoç-daşlar boz yaxud qəhvəyi rəngli daşdan yonulmuşdur. Onların biri düzbucaqlı əsas üzərində hazırlanmışdır. Araşdırmalar əsasında müəyyən edilmişdir ki, qoç daşların hazırlanmasında kəndin yaxınlığındakı Səfər evləri adlanan daş karxanasından istifadə edilmişdir. Nekropolu təqribən XIV-XVI əsrlərə aid etmək olar.

**31. Göydərə nekropolu.** Orta əsrlərə aiddir. Nekropol Culfa rayonunun Göydərə kəndindən şimal-qərbdə, hündür dağ yamacında yerləşir. Qərbdə dərə, şimalda dağ silsiləsi, şərqdə və cənubda Göydərə kəndi ilə əhatələnir. Yaşayış yerində 1990-1991–ci illərdə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropoldakı qəbirlərin hamısı qərb-şərq istiqamətindədir. Onların başdaşıları saxlanmamışdır. Sinə daşları dördkünc prizmatik formadadır. Burada

həmçinin qoç daşlara və sənduqələrə təsadüf olunur. Sənduqələrin bir qismi düzbucaqlı əsas üzərində hazırlanmış və yuxarıda tağvari formada tamamlanmışdır. Bəzi qəbirlərin üzərində Ərəb əlifbası ilə kitabələrə təsadüf edilir. Qəbirlərdən birinin yan tərəfində Azərbaycanın Orta əsr təsviri sənəti üçün xarakterik olan tüfəng və qılınc təsvir edilmişdir. Qoç daşları xüsusilə yüksək sənətkarlıqla hazırlanmışdır. Onlardan birinin üzərində ox işarəsi vardır. Oxun o biri ucu oval dairə ilə tamamlanır. Göydərə nekropolunu XIII-XVII əsrlərə aid etmək olar.

**32. Ləkətağ nekropolu.** Erkən Dəmir dövrünə aiddir. Nekropol Culfa rayonunun Ləkətağ kəndinin girəcəyində Əlincəçayın sağ sahilində yerləşir. Nekropolun şərq tərəfindən torpaq yol keçir. Şimalda həyətyanı sahə, qərbdə isə dərə ilə sərhədlənir. Nekropol 1975-ci ildə yol çəkilərkən təsadüfən aşkar olunmuşdur.

Nekropol çox da hündür olmayan təpənin üzərindədir. Nekropolun ərazisi həyətyanı sahəyə daxil edildiyindən burada qazıntı aparmaq mümkün olmadı. Nekropolun ərazisi yol çəkilərkən kəsildiyi üçün burada iri sal daşlara təsadüf olunur. Tədqiqatlara əsasən demək olar ki, nekropoldakı qəbirlər daş qutu tipli olmuşdur. Bu ərazi araşdırılarkən bir neçə forma verməyən gil qab qırığına təsadüf edilmişdir. Onların gilinə narın qum qatılmış boz, bəzən isə qara rəngdə bişirilmişdir. Gil qab qırıqları Boyəhməd nekropolundan aşkar edilmiş materiallarla oxşar olub eyni mədəniyyətə aiddir.

Aşkar olunmuş arxeoloji materiallara əsasən, Ləkətağ nekropolunu e.ə. I minilliyin əvvəllərinə aid etmək olar.

**33. I Nəhəcir yaşayış yeri** Tunc dövrünün abidəsidir. Abidə Culfa rayonunun Nəhəcir kəndindən şimal-şərqdə iki bulağın arasında yerləşir. O, şimaldan Nəhəcir dağı, cənubdan isə Nəhəcir kəndi və onun yaxınlığından keçən torpaq yolla məhdudlaşır.

Yaşayış yeri 1928-ci ildə qeydə alınmış, daha sonra Azərbaycan EA Tarix İnstitutunun əməkdaşları tərəfindən burada kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. 1991-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası yaşayış yerində olmuş, yerüstü materialları toplamışdır. 2002-ci ildə A.Q.Seyidov və V.B.Baxşəliyev yaşayış yerində kəşfiyyat xarakterli qazıntılar aparmış, Orta Tunc dövrünə aid maddi-mədəniyyət qalıqları aşkar etmişdir.

Yaşayış yeri Nəhəcir dağının ətəyi boyunca ensiz zolaq şəklində uzanır. Abidənin bəzi yerləri aşınma nəticəsində dağılmış və tikinti qalıqları üzə çıxmışdır. Onlar yonulmamış iri daşlardan gil məhlulu ilə tikilmişdir. Divarların hündürlüyü bəzi yerlərdə 1,5 m-ə çatır. Yaşayış yeri maddi mədəniyyət qalıqları ilə zəngindir. Mədəni təbəqə 3 m qalınlığında saxlanmışdır. Təbəqə kül qarışıq torpaq laylarından ibarətdir. Aşınma nəticəsində yaranmış yarğanlarda təbəqənin tərkibində ostoloji qalıqlara, gil məmulatına və bad qalıqlarına təsadüf edilir. 2001-ci ildə Nəhəcir yaşayış yerində 2 x 2 m sahədə V.B.Baxşəliyev və

A.Q.Seyidov tərəfindən qazıntı aparılmış, mədəni təbəqə 1,5 m dərinliyədək endirilmişdir.Tədqiqat zamanı daşdan inşa olunmuş divar qalıqları və boyalı keramika məmulatı aşkar olunmuşdur.




Şəkil 65. I Nəhəcir yaşayış yeri

Yerüstü materiallar əsasən gil qab sınıqlarından ibarətdir. Onlar müxtəlif dövrlərə aiddir, lakin Tunc dövrünə aid qablar çoxluq təşkil edir. Onlar əsasən küpə tipli qablara aid sınıqlardan ibarət olub çəhrayı rəngdə yaxşı bişirilmişdir. Qablar qırmızı boya üzərində qara rənglə şaquli istiqamətdə çəkilmiş dalğalı və düz xətlərlə naxışlanmışdır. Tunc dövrünə aid gil məmulatının müəyyən hissəsi forma verməyən sınıqlardan ibarətdir. Onların üzəri qırmızı boya ilə örtülərək qara rənglə naxışlanmış və yaxşı cilalanmışdır. Naxışlar əsasən həndəsi

xarakterdə olub düz və dalğalı xətlərdən ibarətdir. Bəzi qabların üzərində torşəkilli naxışlara da təsadüf olunur.



Şəkil 66. I Nəhəcir yaşayış yeri

Dəmir dövrünə aid gil məmulatı narın qum qatılmış, gildən hazırlanaraq çəhrayı rəngdə yaxşı bişirilmişdir. Onlar dulus çarxında hazırlanmışdır.

Orta əsrlərə aid gil məmulatı əsasən forma verməyən sınıqlardan ibarətdir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmişdir. Bəzi qab sınıqlarının səthi ağ anqob üzərindən mavi rənglə naxışlanmış və şəffaf şirlə örtülmüşdür.

Arxeoloji materialların analizinə əsasən demək olar ki, yaşayış yeri e.ə. III minilliyin sonlarından I minilliyin ortalarınadək fəaliyyət göstərmişdir. Orta əsrlərdə bu yaşayış yerindən qismən istifadə edilmişdir.

**34. II Nəhəcir yaşayış yeri** Orta əsr abidəsidir. Abidə Nəhəcir kəndindən şimal-qərbdə yerləşir. Abidə şimal tərəfdən Nəhəcir dağı ilə məhdudlaşır və onun yamacı boyunca ensiz zolaq şəklində şərqdən qərbə doğru uzanır.




Şəkil 67. II Nəhəcir yaşayış yeri

Yaşayış yerində 1991-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Yaşayış yerində tikinti qalıqları olduqca pis saxlanmışdır. Yerüstü materiallara və araşdırmalara əsasən demək olar ki, tikinti materialı kimi daşdan bəzən isə bişmiş kərpic və möhrədən istifadə edilmişdir. Daş tikintilərdə bərkidici maddə kimi gil məhlulundan və əhəng qatılmış gəcdən istifadə edilmişdir. Binalar tamamilə dağılmış, onların yerində dördkünc, bəzən isə oval çalalar saxlanmışdır.

Yaşayış yerində iki yerdə böyük kül təpəsi vardır. Onlardan biri yaşayış yerinin aşağı hissəsində, ikincisi isə ondan təqribən yüz metr yuxarıda yerləşir. Aşağıdakı kül təpəsi Nəhəcir kəndinə yaxın olduğundan o, yerli əhali tərəfindən daşınıb gübrə kimi istifadə edilmişdir. Külün içərisində çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz gil qab qırıqlarına təsadüf edilir. Görünür ki, kül təpələri istehsal fəaliyyəti ilə əlaqədar yığılmışdır.

Gil məmulatı əsasən çəhrayı rəngdə bişirilmiş gil qab qırıqlarından ibarətdir. Onlar müxtəlif formalı küpə və kasa tipli qabların hissələri ilə təmsil olunmuşdur. Şirli qablar yüksək sənətkarlıqla hazırlanmaları ilə seçilir. Onların naxışlanmasında göy, yaşıl, mavi rənglərdən daha çox istifadə edilmişdir. Qabların bir qrupunun yalnız oturacaq hissəsi saxlanmışdır. Dabanları hündür olub daxildən daha dərindir. Qabların içərisi ağ anqob üzərində nəbati ornamentlə naxışlanaraq şəffaf şirlə örtülmüşdür.

Arxeoloji materialların analizi yaşayış yerini XIV-XVII əsrlərə aid etməyə imkan verir.



Şəkil 68. I Nəhəcir nekropolu

**35. I Nəhəcir nekropolu.** Tunc dövrünün abidəsidir. Qəbir abidələri kromlexlə əhatə olunmuş kurqanlardan ibarətdir. Nekropol onunla həmdövr olan yaşayış yerininin şərq qurtaracağında yerləşir. O, şimalda Nəhəcir dağı, qərbdə Tunc dövrünün yaşayış yeri, cənubda Nəhəcir kəndi, şərqdə torpaq yolla məhdudlaşır.

Nekropol 1928-ci ildə buradan bir ədəd boyalı küpənin tapılması ilə əlaqədar olaraq təsadüfən aşkar olmuşdur. Nekropolun ərazisində Azərbaycan EA Tarix İnstitutunun əməkdaşları tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır. 1991-ci ildə Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası bu ərazidə olmuş və nekropolun planını hazırlamışdır.

Nekropolun yerləşdiyi ərazi girintili-çıxıntılıdır. Qəbirlərin bir çoxunun yerüstü əlaməti itmişdir. Lakin nekropolda bir neçə yerdə kromlexlə əhatə olunan kurqanlara təsadüf edilir. Onların diametri 3-11 m arasındadır. Nekropolun ərazisindəki kurqanların hündürlüyü 1 m-ə yaxındır. Vaxtilə buradan tapılmış boyalı küpə O.H.Həbibullayev tərəfindən nəşr edilmişdir .

Bu monoxrom boyalı küpənin üzərində qara boya ilə keçinin boğazına bağlanmış ipdən tutan kişi təsvir edilmişdir. Rəsmdə adamın duruşu elədir ki, burada bəsit təsərrüfat-məişət səhnəsini güman etmək çətindir. Ən başlıcası da odur ki, kişinin əlləri yuxarıya, səmaya qalxmışdır. Bu ayin çox ehtimal ki, Naxçıvanın Orta Tunc dövrü tayfalarının etiqadlarını göstərir. Bu səhnə Gəmiqayadakı rəsmlərlə eyniyyət təşkil edir.

2002-ci ildə nekropoldakı kurqanlardan biri A.Q.Seyidov və V.B.Baxşəliyev tərəfindən tədqiq edilmişdir. Kurqanaltı qəbir kamerası 3 m dərinlikdə yerləşirdi. O, küncləri dəyirmiləşdirilmiş düzbucaqlı formasında idi. Qəbirdən bir boyalı qab, basma naxışlı qara cilalı qablar və xeyli sadə qablar aşkar olunmuşdur.

I Nəhəcir nekropolundan aşkar edilmiş gil məmulatı Azərbaycan boyalı qablar mədəniyyətinin ilk mərhələsi üçün xarakterik olub e.ə. III minilliyin sonu və II minilliyin əvvəllərinə aiddir. Lakin nekropolda Tunc dövrünün sonrakı mərhələsi üçün xarakterik olan abidələr də vardır.

**36. II Nəhəcir nekropolu.** Orta əsr abidəsidir. Abidə Nəhəcir kəndinin qərb tərəfində uzunsov təpənin üzərində yerləşir. O, ətraf yerlərə nisbətən bir qədər yüksəklikdədir. Nekropolun şərq tərəfindən torpaq yol keçir.

Nekropolda 1991–ci ildə müəllif tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropoldakı qəbirlərin hamısı qərb-şərq istiqamətində yerləşdirilmişdir. Onların başdaşıları saxlanmamış, sinə daşları isə yastı sal daşlardan, yaxud dördkünc prizmatik daşlardan ibarət olub kobud şəkildə işlənmişdir. Bəzi sinə daşlarının üzəri yaxşı yonulmuş, yuxarı hissəsi tağvari formada tamamlanmışdır. Yerli əhalinin verdiyi məlumata görə, nekropolda vaxtilə xeyli qoç-daş olmuşdur. Lakin hazırda onların heç biri saxlanmamışdır. Onların bəzisi aparılmış, bəzisi isə sındırılmışdır. Sinə daşlarının üzərində heç bir yazıya, yaxud işarəyə təsadüf edilmir. Nekropolun cənub tərəfində yerləşən qəbirlərin bir qrupu qazılaraq dağıdılmışdır.

II Nəhəcir nekropolunu XIV-XVII əsrlərə aid etmək olar.

**37. III Nəhəcir yaşayış yeri.** Dəmir dövrünün abidəsidir. Yaşayış yeri Nəhəcir kəndindən qərbdə, Qahab kəndindən şimalda yerləşir. O, Nəhəcir kən-

dinə gedən torpaq yolla iki hissəyə bölünmüş, qərb tərəfdən çayın qurumuş yatağı ilə məhdudlaşmışdır.

Yaşayış yeri 1990-cı ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmış və kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir.

Hazırda yaşayış yerində duzbucaqlı planda tikilmiş böyük binanın qalığı saxlanmışdır. Onun divarları yonulmamış iri qaya parçalarından iki cərgə hörülmüş, arası kiçik həcmli daşlarla doldurulmuşdur. Yaşayış yeri dağətəyi zolaqda yerləşdiyindən mədəni təbəqənin üzəri qalın ot qatı ilə örtülmüşdür. Yaşayış yerində mədəni təbəqənin 0,5-1m qalınlığında saxlandığı güman edilir. Yerüstü materiallar çəhrayı və boz rəngdə bişirilmiş gil qab qırıqlarından ibarətdir. Çəhrayı rəngli gil məmulatı sayca üstünlük təşkil edir. Onlar küpə, kasa və nimçə tipli qabların qırıqlarından ibarətdir.

Aşkar edilmiş arxeoloji materialların analizinə əsasən, III Nəhəcir yaşayış yeri e.ə. VI-IV əsrlərə aid edilir.

**38. Saltaq yaşayış yeri.** Orta əsr abidəsidir. O, Culfa rayonunun Saltaq kəndindən şərqdə, Əlincəçayın sol sahilində yerləşir. Yaşayış yeri qərbdə Əlincəçayla məhdudlaşır. Şimal və şimal-şərqdə yaşayış yeri ümumi dağ silsiləsi ilə əlaqələnir.

Yaşayış yerində 1991–ci ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır. Sahəsi 56000 kv.m-dir.

Yaşayış yeri hazırda su arxı vasitəsilə iki yerə bölünüb. Abidənin bəzi yerlərinin dağıdılmasına baxmayaraq hazırda yaxşı saxlanmışdır. Yaşayış yerinin şimal şərqində uçub-tökülmüş tikinti qalıqları aydın izlənilir.

Yerüstü materiallar olduqca azdır. Onlar çəhrayı rəngli gil qab sınıqlarından ibarət olub gilinə iri, yaxud narın qum qatılmış, yaxşı bişirilmişdir. Gil məmulatı küpə və banka tipli qabların sınıqları ilə təmsil olunub.

Yaşayış yerində mədəni təbəqənin yaxşı saxlandığı güman olunan yerdə 3 x 3 m sahədə kəşfiyyat şurfu qoyuldu. Qazıntı zamanı uçub-tökülmüş daş yığınları, bişmiş kərpic sınıqları aşkar olundu. Qazıntı 0,5 m dərinliyə çatdıqda 1 m uzunluğunda saxlanmış divar qalığı aşkar edildi. Onun əsas hissəsi qazıntı sahəsindən kənarda qaldığından enini müəyyən etmək mümkün olmadı. Divar yonulmuş daşlardan əhəng qatılmış gəc məhlulu ilə tikilmişdir. Qazıntı zamanı aşkar edilmiş kərpiclərin ölçüləri 23 x 25 x 5; 23 x 23 x 2,5 sm-dir. Mədəni təbəqə 1,5 m dərinliyədək davam edir. Saltaq yaşayış yerini X-XVI əsrlərə aid etmək olar.

**39. I Saltaq nekropolu** Orta əsr abidəsidir. Abidə Əlincəçayın sol sahilində, yaşayış yerinin qərbində, hündür təpə üzərində yerləşir. Qərbdən Əlincəçayın sıldırım sahili, cənub və şimalda isə dərin dərə ilə məhdudlaşır, şərqdə ensiz zolaq vasitəsilə yaşayış yeri ilə əlaqələnir. Nekropolda 1991–ci ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Qəbir abidələrinin bir çoxu sahə əkilərkən dağıdılmışdır. Onların heç birinin başdaşı yoxdur. Sinə daşları düzbucaqlı prizma formasında olub, bəzən yuxarıda tağvari formada tamamlanır. Onların uzunluğu 1,55m, hündürlüyü 0,6m, eni 0,4 m-dir. Sinə daşlarından birinin üzərində böyük ox işarəsi vardır.

I Saltaq nekropolunu XIV-XVI əsrlərə aid etmək olar.

**40. II Saltaq nekropolu.** Orta əsrlərə aiddir. Nekropol Əlincəçayın sağ sahilində Saltaq kəndinin şimal-qərbində yerləşir. Nekropol asfalt yolla iki hissəyə bölünmüşdür. Abidə şərqdən su kanalı, şimaldan dağ silsiləsi ilə məhdudlaşır.

Nekropolun asfalt yoldan aşağıda qalan hissəsi tamamilə dağıdılmışdır. Burada yalnız bir neçə ədəd sinə daşı qalmışdır. Onlar düzbucaqlı prizma formasında olub kobud şəkildə yonulmuşdur. Daşların üzərində heç bir işarəyə yaxud yazıya təsadüf olunmamışdır. Qəbiristanlığın ikinci yarısı hazırda yerli əhali tərəfindən istifadə edilir. Buradakı qəbirlərin çoxunun yerüstü əlaməti itmişdir. II Saltaq nekropolu XIV-XVI əsrlərə aiddir.

**41. Saltaq sərdabəsi.** Qəbiristanlığın mərkəzində daşdan tikilmiş sərdabə xüsusilə diqqəti cəlb edir. O, xaçşəkilli planlı olub kiçik həcmli daşlardan əhəng məhlulu qatılmış gəclə tikilmişdir. Sərdabənin tavanı tağvari formada tamamlanmışdır. Onun girişi xaricə doğru çıxıntılıdır. Qapının tikintisində bişmiş kərpicdən də istifadə edilmişdir. Bişmiş kərpiclərin ölçüsü 23 x 23 x 5 sm; 20 x 10 x 5 sm-dir. Sərdabənin içərisi gəclə suvanmış, lakin bəzi yerlərdə uçub tökülmüşdür. Onun içərisində taxta tabut və insan skeletinin qalıqları vardır. Tabutun taxtaları əldə düzəldilmiş dördkünc-yastı mıxlarla bərkidilmişdir. Lakin taxtaların üzərində müasir mıxlara da təsadüf olunur ki, bu da onların vaxtilə bərpa edildiyini göstərir. Belə hesab edilir ki, sərdabənin giriş qapısının tikintisində istifadə edilmiş bişmiş kərpiclər də onun sonrakı dövrlərdə bərpası ilə əlaqədar olmuşdur. Saltaq sərdabəsi XVI əsrə aiddir.

**42. Xanəgah yaşayış yeri** Orta əsr abidəsidir. Abidə Culfa bölgəsinin Xanağa kəndindən şimal-şərqdə, Əlincəçayın sol sahilində yerləşir. Yaşayış yeri hər tərəfdən dağlarla əhatə olunmuş dərədə salınmışdır . Sahəsi 22400 kv.m-dir.

1991-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası yaşayış yerində kəşfiyyat xarakterli tədqiqat aparmışdır.

Yaşayış yeri dərənin hər iki sahilində yerləşmişdir, lakin onun əsas hissəsi nalşəkilli formada yerləşən təpənin yamacını əhatə edir. Hazırda yaşayış yerini iki hissəyə bölən dərə ilə kiçik çay axır. Çayın sahilini aşınmadan qorumaq üçün bu hissə şəhər tipli yaşayış yerlərinə uyğun şəkildə başdan-başa daşla hörülmüşdür. Lakin bu tikintilərin hazırda az bir qismi saxlanmışdır. Yaşayış binaları tamamilə dağılmış, onların yerində oval, yaxud dördkünc çalalar saxlanmışdır. Yaşayış yerinin qərbində təpənin üzərində mədəni təbəqə xüsusilə aydın izlənilir. Bu sahə aşınma nəticəsində dağıldığından təbəqənin kəsiyi alınmışdır. Təbəqə möhrə, kül, sümük və gil qab qırıqlarının yığınından ibarətdir. Mədəni təbəqənin qalınlığı 5 m-ə yaxındır. Yerüstü materiallar tikinti

qalıqlarından və gil qab sınıqlarından ibarətdir. Tikintilər daşdan, bəzən isə daş özül üzərində möhrədən inşa olunmuşdur.Yaşayış yerinin mərkəzində hazırda bərpa edilmiş nadir memarlıq kompleksi yerləşir.



Şəkil 69. Xanəgah yaşayış yeri

Xanəgah yaşayış yerindən toplanmış yerüstü materialların əksəriyyəti çəhrayı rəngdə bişirilmiş gil qab sınıqlarından ibarətdir. Onlar küpə, kasa nimçə tipli qabların sınıqları ilə təmsil olunmuşdur. Qablar daxildən anqobüstü qəhvəyi və yaşıl rənglə nəbati təsvirlərlə bəzədilmiş və yarım şəffaf şirlə örtülmüşdür. Onlardan birinin xaricdən səthinə göy rəng çəkilmişdir .

Kasalardan biri hər iki tərəfdən göy rəngli anqob təbəqəsi ilə örtülmüşdür. Anqob təbəqəsi qazılmış və göy rəngli xətlərlə naxışlanıb, şəffaf şirlə örtülmüş qablara da təsadüf edilir.

Kasa tipli bəzi qablar açıq yaşıl rənglə anqoblanmış, anqob üzərindən cızma üsulu ilə işlənilmiş, həndəsi xətlərlə naxışlanmış və şəffaf şirlə örtülmüşdür.

Aşkar olunmuş arxeoloji materialların təhlilinə əsasən Xanəgah yaşayış yerini e.ə. XI-XVIII əsrlərə aid etmək olar.

**43. Xanəgah nekropolu** Orta əsr abidəsidir. Abidə Xanəgah yaşayış yerinin şimal-şərqində, memarlıq kompleksinin ətrafında yerləşir .

Nekropol vaxtilə epiqraflar (M.Nemətova və F.Səfərov) tərəfindən tədqiq edilmiş və burada olan kitabələr oxunmuşdur. 1991-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası bu nekropolda kəşfiyyat xarakterli tədqiqat işləri aparmışdır.

Nekropol hazırda memarlıq kompleksinin ətrafına çəkilən daş divarla iki hissəyə bölünmüş və divarın içərisində olan qəbirlər demək olar ki, tamamilə dağılmışdır. Hazırda qəbirlərin əksəriyyəti itmək üzrədir. Onların çoxunu yalnız başdaşılarına görə seçmək mümkündür. Başdaşılarının bəzilərində ərəb əlifbasında kitabələr vardır. Vaxtilə nekropolda olan bir neçə qəbrin üzərində mərmərin xüsusi növündən, oniksdən yüksək sənətkarlıqla hazırlanmış sinə daşları olmuşdur. Lakin hazırda onların hamısı öz yerindən götürülmüşdür. Sinə daşlarının bəzisi Xanəgahda, digərləri isə Naxçıvan Dövlət Tarix muzeyində saxlanılır.

Nekropolun qərb tərəfində Orta əsrlərə aid bir sərdabənin qalıqları var. O planda düzbucaqlı formada olub daşdan tikilmişdir. Bərkidici maddə kimi əhəng qatılmış gəc məhlulundan istifadə edilmişdir. İçərisi gəclə suvanmışdır. Sərdabə yuxarıda tağvari formada tamamlanır. Onun uzunluğu 3,5 m, eni 2,85 m, hündürlüyü 2 m-dir. Xanəgah nekropolunu XI-XVII əsrlərə aid etmək olar.

**44. Xanağa nekropolu.** Orta əsr abidəsidir. O, Əlincəçayın sağ sahilində, Xanəgah kəndindən qərbdə yerləşir. Hazırda nekropolun ərazisi əkin sahəsinə çevrilib. Nekropolda 1991-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropolun yerləşdiyi sahə Əlincəqalanın cənub tərəfindədir. Qəbirlərin əksəriyyətinin başdaşıları düşmüşdür. Sinə daşları düzbucaqlı əsas üzərində hazırlanmış, yuxarıda tağvari sonluqla tamamlanmışdır. Vaxtilə nekropolda xeyli qoç-daşlar olmuşdur. Hazırda onların yalnız bir qismi saxlanmış və əksəriyyəti aşınıb dağılmışdır. Bəzi qəbirlərin üzərində ərəb əlifbasında kitabələr vardır.

Xanağa nekropolunu XIV-XVII əsrlərə aid etmək olar.

**45. Xarabalıq yaşayış yeri.** Orta əsr abidəsidir. O, Culfa bölgəsinin Ərəfsə kəndindən şimal-şərqdə Əlincəçayla Gəvikçayın qovşağından bir qədər yuxarıda yerləşir. Abidə şimal-qərbdə Gəvikçay, cənub-şərqdə isə Əlincəçayın axdığı dərin dərə ilə məhdudlaşır.

Yaşayış yerinin sahəsi 1600 kv.m-dir. Onun şərq hissəsində uçub tökülmüş tikinti qalıqları aydın nəzərə çarpır. Lakin binalar tamamilə dağıdıldığından onların planını müəyyən etmək mümkün olmamışdır. Yaşayış yerinin böyük bir hissəsi şumlanaraq əkin sahəsi kimi istifadə edilmişdir. Lakin yaşayış yerinin şərq tərəfi nisbətən salamat qalmışdır. Bu hissədə orta əsrlər üçün xarakterik olan çəhrayı rəngli gil qab sınıqlarına təsadüf edilir.

Yaşayış yerində mədəni təbəqə olduqca az saxlanmışdır. Bəzi yerlərdə onun qalınlığı 0,5 m-ə çatır. Yerüstü materiallar olduqca azdır. Toplanmış maddi-mədəniyyət nümunələri içərisində kasa və küpə tipli qabların sınıqlarına təsadüf edilir. Kasanın oturacağı diskşəkilli olub içəriyə doğru batıqdır. O, xaricdən yaxşı hamarlanmış, daxildən göy şirlə örtülmüşdür.

Küpə tipli qabın gilinə iri qum qatılmış, pis bişirilmişdir. Divarların arasında bişməmiş təbəqə saxlanmışdır. Oturacağı xaricdən uzunsov çərtmələrlə naxışlanıb.

Aşkar olunmuş arxeoloji materialların analizinə əsasən Xarabalıq yaşayış yerini XII-XVII əsrlərə aid etmək olar.

**46. I Camaldın nekropolu.** Antik dövrün abidəsidir. Abidə Culfa rayonunun Camaldın kəndinin cənubunda düzənlik sahədə yerləşir. Şərqdə asfalt yolla, şimalda hündür təpə ilə sərhədlənir. Hazırda yaşayış binalarının altında qalmışdır. Nekropol 1989-cu ilin aprelində tikinti işləri görülərkən təsadüfən aşkar edilmişdir. Həmin nekropolun ərazisində M.M. Seyidov, A.Q. Seyidov və V.B.Baxşəliyev tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropol dağıdılmışdır. Küp qəbirlərdən aşkar edilmiş üç gil və bir şüşə qab tapılmışdır. Küp qəbirlərin yuxarı hissəsi və orada olan skeletlər tamamilə dağıdılmışdır. Onların oturacaqlarının vəziyyətinə əsasən demək olar ki, küp qəbirlərin ağzı cənub və cənub qərb istiqamətinə yönəldilmiş şəkildə olmuşdur. Onların ağzı iri sal daşlarla qapadılmışdır. Küpələr çəhrayı rəngdə qeyri-bərabər bişirilmişdir.

Nekropolda aparılan tədqiqatlar zamanı daş qutu tipli bir qəbir öyrənilmişdir. Onun örtük daşı yox idi. Ola bilsin ki, o torpaq işləri zamanı dağıdılmışdır. Qəbirdə bir skelet aşkar edilmişdir. Onun kəlləsi cənub-qərbdə olmaqla sağ böyrü üstə bükülü vəziyyətdə olmuşdur. Kəllə olduqca pis saxlanmış və əzilmişdi. Onun əl barmaqları çənənin altında, ayaqları bud sümüyünün yaxınlığında idi. Skeletin əl barmaqlarından birində tunc üzük, boyun tərəfindən isə xeyli şəvə və serdolik muncuqlar tapıldı. Kəllə sümüyünün üst tərəfində bir-birinin üzərinə qoyulmuş iri balıqqulaqları var idi. Qəbrə balıqqulağı qoyulması adətinə Naxçıvanda ilk dəfədir ki, təsadüf edilir.

Nekropoldan aşkar olunmuş arxeoloji materialların analizinə əsasən, onu bizim eranın I-II əsrlərinə aid etmək olar.

**47. II Camaldın nekropolu.** Orta əsr abidəsidir. Nekropol Camaldın kəndindən şimal-şərqdə, Alməmməd pirinə gedən yolun sağ tərəfində, uzunsov təpənin üzərində yerləşir. Nekropol şərqdə dərə, qərbdə isə quru çay vadisi ilə məhdudlaşır. Şimal-şərqdə nekropolun yerləşdiyi təpə yaşayış yeri ilə birləşir.

Qəbirlər qərb-şərq istiqamətində olub düzbucaqlı formadadır. Onların əksəriyyətinin başdaşıları saxlanmışdır. Qəbirlərin üzəri daş yığınları ilə örtülmüşdür. Daşların üzəri qalın mamır qatı ilə örtülüb. Bəzi qəbirlərin ətrafı dikinə qoyulmuş sal daşlarla, bəzilərininki isə kiçik həcmli daşlarla düzbucaqlı formada əhatələnmişdir. Qəbiristanlıqda müxtəlif ölçülü bişmiş kərpiclərə,

çəhrayı rəngdə bişirilmiş şirsiz gil qab qırıqlarına təsadüf edilir. Yerli əhalinin verdiyi məlumata görə, burada vaxtilə xeyli qoç-daş olmuşdur, lakin hazırda onların heç biri saxlanılmamışdır. Burada olan qəbirlərin bir neçəsi qazılıb dağıdılmışdır.

Qəbir tiplərinə və aşkar olunan keramika məmulatına əsasən, II Camaldın nekropolunu XIV-XVIII əsrlərə aid etmək olar.




Şəril 70. Camaldın yaşayış yeri

**48. Camaldın yaşayış yeri.** Orta əsr abidəsidir. Yaşayış yeri Camaldın kəndindən şimal-şərqdə, Alməmməd pirinə gedən yolun sağ tərəfində yerləşir. Şimalda çayın qurumuş yatağı, şərqdə dərə, cənub-qərbdə qəbiristanlıqla sərhədlənir. Şimal-şərqdə yaşayış yeri hündür dağ silsiləsi ilə əlaqələnir. Sahəsi 96000 kv.m.-dir.

Yaşayış yerinin yerləşdiyi ərazi girintili-çıxıntılıdır. Onun mərkəzi hissəsində hündür təpə var. Abidə uçub-tökülmüş tikinti qalıqları, əmək alətləri, gil qab qırıqları ilə zəngindir. Saxlanmış qalıqlara əsasən demək olar ki, tikintilər daşdan hörülmüşdür. Bəzi binaların yerində uzunsov, dördkünc və dairəvi çalalar

saxlanmışdır. Araşdırmalar göstərir ki, yaşayış yeri müəyyən müddət qurumuş çay yatağının o biri sahilini də əhatə etmişdir.

Yerüstü materialların əksəriyyəti şirsiz və şirli gil qab sınıqlarından ibarətdir. Şirsiz saxsı məmulatı küpə və badya tipli qabların sınıqları ilə təmsil olunmuşdur. Onların gilinə narın qum qatılmış, çəhrayı rəngdə yaxşı bişirilmişdir.

Şirli gil məmulatı kasa və nimçə tipli qabların sınıqlarından ibarətdir. Kasa tipli qablar əsasən oturacaq və gövdə hissəsinin sınıqları ilə təmsil olunmuşdur. Onlardan bir qrupunun oturacağı diskşəkilli olub içəriyə doğru batıqdır. Bəziləri ağ anqob üzərində yaşıl rənglə işlənilmiş həndəsi xətlər və nəbati təsvirlərlə naxışlanmışdır. Xətlərin arası göy, yaxud yaşıl rənglə doldurulmuşdur

Kasa tipli qablardan ikisinin gövdəsi qabarıqdır. Ağzının altı enli batıq zolaqla əhatə olunmuşdur. Daxildən anqob üzərində qara rənglə çəkilmiş xətlərlə naxışlanaraq şəffaf, şüşəvari şirlə örtülmüşdür .

Nimçə tipli qabın gövdəsi konusvaridir. Onlar hər iki üzdən ağ anqobla örtülmüş, ağzının kənarına göy rəng çəkilmişdir. Qablardan biri fırça ilə işlənilmiş yaşıl rəngli xətlərlə naxışlanmışdır. Şirli saxsı məmulatının bir qrupu forma verməyən sınıqlardan ibarətdir .

Aşkar olunmuş arxeoloji materialların analizinə əsasən, yaşayış yerini XII-XVII əsrlərə aid etmək olar.

**49. Oba yeri yaşayış yeri.** Orta əsr abidəsidir. Tədqiqat zamanı yaşayış yerində tikinti qalıqları, şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Abidə Culfa rayonun Dizə kəndi yaxınlığında yerləşir. 2008-ci ildə aparılan araşdırmalar zamanı yaşayış yerinin yaxınlığında qədim su kanalının qalıqları aşkar edilmişdir. Su kanalı Cərəcür çayının suyunun Dizə kəndi ətrafındakı torpaqlara çıxarmaq üçün çəkilmişdir. Çayın qabağı kəsilərək su torpaqda qazılmış kanala yönəldilmişdir. Kanalın suyunu dağın ətəyindən keçirmək üçün mürəkkəb hidrotexniki qurğu inşa olunmuşdur. Qurğu dağdan gələn sel sularının qarşısını almaq üçün qaya parçalarından hörülən hündür divardan ibarətdir. Divarın hündürlüyü bəzi yerlərdə dörd metrdən artıq olmuşdur. Aparılan araşdırmalar göstərir ki, sel sularının axması üçün divarda xüsusi novdanlar qoyulmuş və onun təbiətin gözlənilməz təhlükələrindən qorunması təmin edilmişdir. Araşdırmalar zamanı kanalın ətrafında salınan mövsümi yaşayış yerindən eramızın ilk əsrlərinə aid çəhrayı rəngdə bişirilmiş, qırmızı cilalı keramika nümunələri tapılmışdır. Keramika nümunələrinin bir qismi isə Orta əsrlər dövrünə aiddir. Demək olar ki, su kanalı eramızın əvvəllərindən Orta əsrlərədək istifadə edilmişdir. Hazırda su kanalı yerli əhali tərəfindən bərpa edilərək yenidən istifadəyə verilmişdir.

**50. Culfa nekropolu.** İlk Dəmir dövrünün abidəsidir. Culfa şəhərinin yaxınlığında yerləşir. Nekropol 1939-1940-cı illərdə Culfa dəmir yolu çəkilərkən təsadüfən dağıdılmışdır. Aşkar olunmuş materiallar mühəndis K.K.Vasilyev

tərəfindən toplanmışdır. Kolleksiya uzun müddət E.S. Tormanın evində saxlandıqdan sonra 1951-ci ildə Gürcüstan Dövlət Tarix Muzeyinə verilmişdir.



Şəkil 71. Culfa nekropolu

Culfa arxeoloji tapıntıları çəhrayı və boz rəngdə bişirilmiş gil qablardan və yüksək sənətkarlıqla hazırlanmış müxtəlif tunc bəzək əşyalarından ibarətdir.

Çəhrayı rəngli gil qabların bir qrupu boyalı qablardan ibarətdir. Onların üzəri qırmızı, yaxud sarı anqob üzərindən qara və qırmızı rənglə çəkilmiş xətlərlə naxışlanmışdır. Naxışlar əsasən həndəsi xarakterdə olub ştrixlənmiş, yaxud torlu üçbucaq və romblardan ibarətdir. Naxışlar bəzən qabların oturacaq hissəsinə çəkilmişdir. Boyalı qablar içərisində hər iki tərəfdən batıq olan kasalar və ayaqqabı tipli qablar xüsusilə maraq doğurur.

Boz rəngli gil məmulatı küpə, kasa, vaza, çaynik və qədəh tipli qablardan ibarətdir. Onların gövdəsi bəzən bucaqşəkilli, bəzən isə üfüqi cızma xətlərlə naxışlanmışdır.

Culfa arxeoloji tapıntılarının böyük bir qismi tunc əşyalardan ibarətdir. Onlar içərisində yastı tiyəli, şəbəkəli dəstəyi olan bir xəncər, Ön Asiya tipli dörd

xəncər, ox ucluqları, sancaqlar, üzəri cızma ornamentlə naxışlanmış bilərzik və boyunbağılar vardır. Tapıntılar içərisində bir ədəd tunc toppuz vardır.

Culfa arxeoloji tapıntılarının analizi onları e.ə. XIII-IX əsrlərə aid etməyə imkan verir.

**51. Nəhəcir qalası.** Culfa rayonunun Nəhəcir kəndindən şimal-qərbdə Nəhəcir dağının üzərində yerləşir. Qalanın girişi uzunluğu 35 m, eni 2,7 m olan müdafiə divarı ilə möhkəmləndirilmişdir. Qala başlıca olaraq iki hissədən ibarətdir. Qalanın aşağı hissəsində bir-birinə birləşik dördkünc formalı binanın qalıqları yerləşir. Yuxarı hissədə dördkünc formalı yaşayış evlərinin və yerli əhali tərəfindən at tövləsi adlandırılan böyük dördkünc binanın qalıqları saxlanmaqdadır.

Mədəni təbəqə vaxtaşırı yuyulub dağıldığından olduqca az saxlanmışdır. Təbəqənin qalınlığı 0,5-1 m arasındadır.

Abidə arxeoloji qazıntılarla öyrənilməmişdir. Yerüstü materiallar küpə tipli qabların forma verməyən parçalarından ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir.

Aşkar edilmiş arxeoloji materiallara əsasən, qalanı XVII-XIX əsrlərə aid etmək olar.

**52. Xanağa yaşayış yeri.** Orta əsr abidəsidir. Yaşayış yeri Xanəgah kəndinin tikintiləri altında qalmışdır. Buradakı binaların və memarlıq abidələrinin qalıqları dövrümüzədək qalmaqdadır. Mədəni təbəqənin qalınlığı 4 m-dir. Tədqiqatlar nəticəsində toplanmış yerüstü materiallar müxtəlif növ şirsiz və şirli saxsı məmulatı sınıqlarından ibarətdir. Şirsiz qablar küp, küpə, qazan, aftafa tipli qab sınıqları ilə təmsil olunmuşdur. Dulus çarxında hazırlanmış bu qablar qazanlar istisna olmaqla yaxşı bişirilmişdir. Qazanlar boz, digər qablar isə çəhrayı rəngdə bişirilmişdir. Şirsiz qabların səthi anqob təbəqəsi ilə örtülmüşdür. Onların xarici səthi cızma həndəsi xətlərlə bəzədilmişdir.

Şirli qablar kasa, boşqab tipli qab sınıqlarından ibarətdir. Belə qablar bir qayda olaraq daxildən zəngin həndəsi və nəbati təsvirlərlə bəzədilmişdir. Fırça ilə çəkilmiş naxışların bir qismi kölgəli verilmişdir.

Aşkar edilmiş fayans qab hissələri daxildən və xaricdən nəbati təsvirlərlə naxışlanmışdır. Naxışlanmada yaşıl rəng və onun müxtəlif çalarlarından istifadə edilmişdir. Xanağa yaşayış yerini yerüstü materiallar əsasında IX-XVIII əsrlərə aid etmək olar.

**53. Əshabi-Kəhf qəbiristanlığı** Qıtmırdan cənubda, uzunsov təpənin üzərində yerləşir. Qəbirlərin başdaşıları yonulmamış, yastı qaya parçalarındandır. Bəzi qəbirlərin üzərində oval təpəciklər vardır. Onların bəzisinin ətrafı kiçik həcmli daşlarla əhatə edilmişdir. Qəbiristanlıqda aparılan araşdırmalar zamanı Orta əsrlərə aid şirli və şirsiz saxsı məmulatına rastlanmışdır. Qəbiristanlığı XII-XVII əsrlərə aid etmək olar.

**54. Nəhəcir kromlexi.** Kromlex Nəhəcir kəndindən şimal-şərqdə yerləşən qədim nekropolda yerləşir. Diametri 10 m-dir. Yanları dairə boyunca iri sal

daşlarla əhatələnmişdir. Kromlex ətraf əraziyə nisbətən hündür olan kiçik təpənin üzərində yerləşdiyindən aşınma nəticəsində bəzi daşlar sürüşüb kənara düşmüşdür. Mərkəzi hissəsində dördkünc formalı çökük vardır.

Kromlex Nəhəcir nekropolunun oxşar arxeoloji abidələri ilə eyni dövrə - e.ə. III-II minilliklərə aiddir.

**55. Nəhəcir kurqanı.** Nəhəcir kəndinin şimal-şərqində yerləşən qədim nekropolun ərazisindədir. Diametri 11 m-dir. Ətrafı dairə boyunca iri sal daşlarla əhatələnmişdir. Daşların bəzisi torpaq təbəqəsi ilə örtüldüyündən görünmür.

Kurqan 2002-ci ildə V.B.Baxşəliyev və A.Q.Seyidov tərəfindən tədqiq edilmişdir. Tədqiqat zamanı həmin kromlexin içərisində daha bir kromlex, daxildəki kromlexin içərisində isə dördkünc formalı, küncləri dəyirmiləşdirilmiş torpaq qəbir aşkar olunmuşdur. Qəbirdə insan skeletinə təsadüf olunmamış, iribuynuzlu heyvan sümüyü, bir boyalı, iki basma naxışlı qara cilalı qab, həmçinin çəhrayı və boz rəngdə bişirilmiş qablar aşkar olunmuşdur.

Aşkar olunan arxeoloji materiallara əsasən, Nəhəcir kurqanı e.ə. III-II minilliklərə aid edilir.

**56. Sürəməlik yaşayış yeri.** Nəhəcir kəndindən qərbdə, hündür təpəliklərin arasında yerləşir. Yaşayış yeri AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Yaşayış yerinin ərazisindəki binalar dördkünc formalı olub çiy kərpicdən və möhrədən tikilmişdir. Bəzi binaların bünövrəsinə çay daşları düzülmüşdür. Binalar olduqca pis saxlanmışdır. Kül qarışıq torpaq qatından ibarət olan mədəni təbəqənin qalınlığı 1-3 m arasındadır.

Yaşayış yeri şimal tərəfdən çəkilmiş kəhrizlər vasitəsi ilə su ilə təmin edilmişdir. Kəhrizlərin suyundan indi istifadə edilsə də, onların bərpaya ehtiyacı var. Quyuların çoxu tutulmuşdur.

Yaşayış yerindən toplanan şirli və şirsiz gil qabların parçaları Son Orta əsrlər üçün xarakterikdir. Arxeoloji materiallara əsasən, yaşayış yerini XVI-XX əsrlərə aid etmək olar.

**57. Sürəməlik nekropolu.** Yaşayış yerinin qərb tərəfində hündür təpənin üzərində yerləşir. Qəbiristanlığın yerləşdiyi sahə düzənlikdir. Nekropoldakı qəbirlər qərb-şərq istiqamətində olub qibləyə yönəlmişdir. Qəbrlərin ətrafı dördkünc formada daşlarla əhatə olunmuşdur. Bəzi qəbirlərin ətrafı kromlexlərlə əhatələnmiş, bəzilərinin isə üzəri tamamilə daşla qapadılmışdır. Bu tip qəbir formaları Orta əsrlər üçün xarakterikdir. Nekropolun ərazisində şirsiz, bəzən isə şirli saxsı məmulatına rastlanır. Bu tip qablar XVI-XVIII əsrlər üçün xarakterikdir. Arxeoloji tapıntılara və qəbir tiplərinə əsasən nekropolu XVI-XVIII əsrlərə aid etmək olar.

**58. Sürəməlik kromlexi.** Nekropolun şimal tərəfində yerləşir. Qəbrin ətrafı boz rəngli daşlarla dairəvi formada əhatələnmişdir. Kromlexin diametri 5 m-dir. Kromlex daşlarının bəzisi içəriyə, bəzisi isə xaricə doğru aşmışdır.

Naxçıvanın Orta əsr nekropollarında bu tip qəbirlərə xeyli rastlanmışdır. Kromlexin nekropolla eyni dövrə aid olduğunu demək olar.

Sürəməlik kromlexini arxeoloji materiallara və qəbir tiplərinə əsasən XVII-XVIII əsrlərə aid etmək olar.

**59. Sürəməlik qəbiristanlığı.** Eyniadlı nekropolun yaxınlığında düzənlik sahədə yerləşir. Nekropoldan fərqli olaraq qəbirlərin başdaşıları saxlanmışdır. Qəbirlər qərb-şərq istiqamətində olub qibləyə yönəldilmişdir. Bəzi qəbirlərin yanlarına çay daşları düzülmüş, bəzilərinin isə üzəri tamamilə daşlarla örtülmüşdür. Qəbir daşları üzərində yazıya təsadüf olunmamışdır. Bu tip qəbir abidələrinə Naxçıvanın digər Orta əsr qəbiristanlıqlarında da rastlanır. Qəbiristanlıqda Son Orta əsrlərə aid çəhrayı rəngli şirsiz keramika parçalarına rast gəlinmişdir.

Qəbiristanlığı qəbir tiplərinə və aşkar olunmuş arxeoloji materiallara əsasən XVI-XIX əsrlərə aid edirik.

**60. II Sürəməlik yaşayış yeri.** Birincidən bir qədər yuxarıda, qurumuş dağ çayının sahilində yerləşir. Sahəsi 3050 kv.m-dir. Kül qarışıq torpaq qatından ibarət olan mədəni təbəqənin qalınlığı 0,5-1,5 m arasındadır. Təbəqədə tikinti qalıqları və keramika parçalarına rastlanır.

Yaşayış yeri AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Yaşayış yerində bünövrəsi daşdan, divarları isə möhrədən hörülmüş dördkünc formalı binaların qalıqları saxlanmışdır.

Yerüstü materiallar şirli və şirsiz qabların parçaları ilə təmsil olunmuşdur. Aşkar olunan keramika məmulatı Son Orta əsrlər üçün xarakterikdir.

Binaların memarlıq xüsusiyyətləri və aşkar olunan arxeoloji materiallara əsasən, yaşayış yerini XVI-XIX əsrlərə aid etmək olar.

**61. Xornu nekropolu.** Culfa rayonunun Göynük kəndindən şimalda, Xornu çayının vadisində yerləşir. Nekropol yaşayış yerinin yuxarısında hündür təpənin yamacındadır. Nekropoldakı qəbirlərin yerüstü əlamətləri itmişdir. Qəbirlərin ikisi kiçik həcmli kurqan tipində olduğundan diqqəti cəlb etmiş və dağıdılmışdır. Dağıdılmış qəbir abidələrinin tədqiqi onların kromlexlə əhatə edildiyini göstərir. Kromlexlərin mərkəzi hissəsində daş qutu tipli qəbirlər olmuşdur. Dəfndən sonra qəbirlərin üzərində torpaq kurqan düzəldilmişdir. Ətrafa səpələnmiş insan skeletinin qalıqları qəbirlərdə inqumasiya üsulu ilə dəfn aparıldığını təsdiq edir.

Nekropol V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Dağıdılmış qəbirlərin biri 2006-cı ildə V.B.Baxşəliyev və S.H.Aşurov tərəfindən araşdırılmışdır. Tədqiqat zamanı qərb-şərq istiqamətində yönəlmiş skelet qalıqları və daş qutu qəbrin bir qismi aşkar olunmuşdur. Aşkar olunan materiallara əsasən, nekropolu e.ə. III minilliyə aid etmək olar.

**62. Gərməşovluq nekropolu.** Culfa rayonunun Göynük kəndindən şimalda, Xornu çayının yuxarı axarında, hündür təpənin yamacında yerləşir.

Nekropol AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır.

Nekropol yamacda yerləşdiyindən qəbirlər aşınma nəticəsində üzə çıxmış və dağıdılmışdır. Qəbirlər dördkünc, bəzən isə oval formalı olub müxtəlif istiqamətlərə yönəldilmiş vəziyyətdədir. Onlar yanlarda iri sal daşlarla qurulmuşdur. Qəbirlərin üstü iri yastı sal daşlarla qapadılmışdır. Ətrafa səpələnmiş skelet qalıqları inqumasiya üsulu ilə dəfn adətinin olduğunu göstərir. Qəbirlərdən aşkar olunan gil qablar qırılmış və ətrafa səpələnmişdir. Boz və çəhrayı rəngdə bişirilən keramika məmulatı I-II əsrlərə aiddir.

**63. Xornu yaşayış yeri.** Göynük kəndindən şimalda, Xornu çayının vadisində yerləşir. Abidə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Qədim maldar tayfaların yurd yeri olan yaşayış yeri üç tərəfdən dərin dərə, şimal-şərqdə isə hündür təpə ilə məhdudlaşır. Yaşayış yerinin ərazisi hazırda qalın peyin qatı və bitki örtüyü ilə qapanmışdır. Dərin yarğanlarda maddi-mədəniyyət qalıqlarına və mədəni təbəqənin izlərinə rastlanmamışdır.

Yaşayış yerini onun yaxınlığında yerləşən nekropoldan aşkar olunan keramika məmulatına əsasən e.ə.III minilliyə aid etmək olar.




Şəkil 72. Xornu kromlexi

**64. Xornu kromlexi.** Nekropolun şərq qurtaracağında yerləşir. Kromlexin diametri 3,90 m-dir. Kromlex daş qutu tipli qəbrin ətrafında iri qaya parçalarının düzülməsi ilə yaradılmışdır. O, hazırda dağıdılmışdır. 2006-cı ildə onun

dağıdılmış hissəsinin qalıqları V.B.Baxşəliyev və S.H.Aşurov tərəfindən tədqiq edilmiş, başı cənuba, üzü qərbə yönəlmiş, sol yanı üstə uzadılmış skeletin qalıqlarına rastlanmışdır. Tədqiqat zamanı daş qutu tipli qəbrin yalnız iki divarının qalıqları ortaya çıxarılmışdır. Qəbir dördkünc formalı olub qaya parçalarından iki sıra hörülmüşdür. Onun eni 1,1 m, uzunluğu 1,6 m dir.

Bu qəbirdən qara rəngdə bişirilmiş və cilalanmış gil qabların parçaları da aşkar olunmuşdur. Aşkar olunan maddi-mədəniyyət qalıqları Kür-Araz mədəniyyətinin son mərhələsinə aiddir. Kromlexi e.ə. III minilliyə aid etmək olar.

**65. Köhnə Külüs yaşayış yeri.** Göynük kəndindən şimalda, Xornu çayının sağ sahilində yerləşir. Yaşayış yeri V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Sahəsi 24000 kv.m.-dir. Abidə xalq arasında «kənd yeri», «şəhər yeri» adlanır. Yaşayış yeri Xornu çayına doğru yenişli vadidə yerləşir. Abidənin cənub-şərq hissəsində dördkünc formalı çay daşlarından hörülmüş binaların qalıqları saxlanmışdır. Onların bəzisinin mərkəzi hissəsinin döşəməsində dördkünc formada daşdan qurulmuş ocaqlar vardır. Binaların girişi cənub tərəfdəndir.

Yaşayış yerinin ərazisində uçub tökülmüş tikinti qalıqlarına, şirli və şirsiz gil qabların parçalarına rastlanır. Keramika məmulatı Son Orta əsrlər üçün xarakterikdir. Abidə XIV-XIX əsrlərə aid edilir.

**66. Köhnə Külüs nekropolu.** Yaşayış yerinin şimal-şərqində yerləşir. Nekropolun yerləşdiyi ərazi sarı rəngli, bitki örtüyü olmayan təpələrdən ibarətdir. Nekropoldakı qəbirlərin bir çoxu qazılıb dağıdılmışdır. Bəzi qəbirlərin üzərində dördkünc formalı sənduqə tipli sinə daşları olmuşdur. Qəbir daşlarında yazıya rastlanmamışdır. Müsəlman qəbirlərindən ibarət olan nekropol yaşayış yeri ilə həmdövrdür. Abidəni XIV-XIX əsrlərə aid etmək olar.

**67. Kahalıdərə yaşayış yeri.** Xornu çayının vadisində, Köhnə Külüs yaşayış yerindən 1 km qərbdə yerləşir. Abidə yarımköçəri maldar tayfaların yurd yeri olmuşdur. Onun ərazisində dairəvi və dördkünc formalı daş düzümlərinə rastlanır. Yaşayış yerinin ərazisi hazırda çimənliklə örtülmüşdür. Yaxınlıqda gur sulu bulaq vardır. Buradakı kahalar tamamilə tutulduğundan onların formasını müəyyən etmək mümkün olmamışdır. Yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

**68. Dirəkdaş nekropolu.** Xornu çayına doğru axan dağ çaylarından birinin sahilində, hündür təpənin üzərindədir. Nekropoldakı qəbirlər daş qutu tiplidir. Onlar bir sıra iri sal daşlarla qurulmuşdur. Qəbirlər torpağın aşınması nəticəsində üzə çıxdığından tamamilə dağıdılmışdır. Qəbirlər müxtəlif istiqamətlərə yönəldilmişdir. Qəbirlərdən çəhrayı və boz rəngli gil qabların parçaları aşkar olunmuşdur.

Aşkar olunmuş arxeoloji materiallara əsasən, nekropolu I-II əsrlərə aid etmək olar.

**69. II Xornu nekropolu.** Xornu çayının sol sahilində, çaya doğru uzanan təpənin yamacında yerləşir. Nekropol V.B.Baxşəliyev tərəfindən qeydə alın-

mışdır. Qəbirlər daş qutu tiplidir. Onlar yanlarda iri, yastı sal daşlarla qurulmuş, eyni tipli daşlarla qapadılmışdır. Qəbirlər yamacda yerləşdiyindən aşınma nəticəsində üzə çıxmış və qarət edilmişdir.

Qəbirlərdən aşkar olunan çəhrayı və boz rəngli keramika parçaları ətrafa səpələnmişdir. 2003-cü ildə Nekropoldakı dağıdılmış qəbirlərin bəzisi V.B.Baxşəliyev və A.Q.Seyidov tərəfindən tədqiq edilmişdir. Tədqiqat zamanı dəmirdən hazırlanmış ox ucluqları və keramika parçaları aşkar edilmişdir.

Aşkar edilmiş arxeoloji materiallara əsasən II Xornu nekropolunu I-II əsrlərə aid etmək olar.




Şəkil 73. III Xornu nekropolu

**70. III Xornu nekropolu.** İkinci nekropoldan bir qədər yuxarıda, Xornu çayının sol sahilində, çaya doğru uzanan təpənin yamacında yerləşir. Nekropol V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Qəbirlər daş qutu tiplidir. Onlar

yanlarda iri, yastı sal daşlarla qurulmuş, eynitipli daşlarla qapadılmışdır. Qəbirlər yamacda yerləşdiyindən aşınma nəticəsində üzə çıxmış və qarət edilmişdir.

Qəbirlərdən aşkar olunan çəhrayı və boz rəngli keramika parçaları ətrafa səpələnmişdir. 2003-cü ildə nekropoldakı dağıdılmış qəbirlərin bəzisi V.B.Baxşəliyev və A.Q.Seyidov tərəfindən tədqiq edilmişdir. Tədqiqat zamanı çəhrayı və boz rəngli keramika parçaları aşkar edilmişdir.

Aşkar edilmiş arxeoloji materiallara əsasən, III Xornu nekropolunu I-II əsrlərə aid etmək olar.

**71. Dəmirli nekropolu.** Ləkətağ kəndindən şimalda, Dəmirliçayla Bərxudarçayın qovşağında, uzunsov təpənin üzərində yerləşir. Nekropolun ətrafı yaşayış yeri olmuşdur. Qəbirlər daş qutu tiplidir. Onlar yanlarda iri sal daşlarla qurularıq irihəcmli yastı sal daşlarla qapadılmışdır. Qəbirlər müxtəlif istiqamətlərə yönəldilmişdir. Bəzi qəbirlər qazılaraq dağıdılmış, bəzilərinin üst daşları aşınma nəticəsində düşmüşdür. Nekropolun ərazisindən çəhrayı və boz rəngli keramika parçaları toplanmışdır. Toplanmış arxeoloji materiallara əsasən, nekropolu I-VII əsrlərə aid etmək olar.

**72. Dəmirli yaşayış yeri.** Dəmirliçayla Bərxudarçayın qovşağında yerləşir. Yaşayış yerinin böyük hissəsi Dəmirliçayın sağ sahilini əhatə edir. Abidənin ərazisində dördkünc və dairəvi formalı binaların qalıqları izlənməkdədir. Yerüstü materiallar olduqca azdır. Bəzi hissələrdə iri daşlardan hörülmüş, xalq arasında «kələk» adlandırılan tikintilərin qalıqları saxlanmışdır. Tədqiqatlara əsasən demək olar ki, yaşayış yeri yarımköçəri maldar tayfaların yurd yeri olmuşdur.

Aşkar olunmuş arxeoloji materiallar Son Antik və Erkən Orta əsrlərə aiddir. Yaşayış yerini I-VII əsrlərə aid etmək olar.

**73. Ərəfsə nekropolu.** Kəndin qərb tərəfində, təpənin ətəyində yerləşir. Qəbirlər qiblə istiqamətində yönəldiyindən onların müsəlman qəbirləri olması heç bir şübhə doğurmur. Onlardan bəzisinin üzərində ərəb əlifbası ilə yazıya təsadüf olunur. Qəbirlərin əksəriyyətinin başdaşıları saxlanmışdır. Onların ətrafı çay daşları, bir çox hallarda çaxmaqdaşı ilə əhatələnmişdir. Qəbirlərdən birinin başdaşı insan fiquruna bənzədilmişdir.

Qəbiristanlıqda Son Orta əsrlərə aid keramika nümunələrinə rastlanır. Onlar çəhrayı və sarı rəngdə yaxşı bişirilmiş şirsiz qabların parçalarından ibarətdir. Nekropolu XI-XVIII əsrlərə aid etmək olar.

**74. Ləkətağ nekropolu.** Ləkətağ kəndindən şimal-qərbdə, hündür təpənin yamacında yerləşir. Qəbirlər qibləyə istiqamətləndirilmişdir. Onların bir çoxunun başdaşıları saxlanmamış, bir çoxunun yerüstü əlamətləri tamamilə itmişdir. Lakin bir çox qəbirlərin üzərində başdaşılarına rastlanmaqdadır. Onların ikisi ağ rəngli su mərmərindən hazırlanmışdır. Başdaşılarının üzərində ərəb əlifbası ilə yazı vardır. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə nekropolda qoç daşlar və daş sənduqələr olmuşdur. Hazırda nekropolun yerüstü əlamətləri itmək üzrədir.

Qəbir tiplərinə və aşkar olunan epiqrafik abidələrə əsasən, nekropolu XI-XIX əsrlərə aid etmək olar.

**75. II Zoğala nekropolu.** Zoğalaçayın sağ sahilində, yaşayış yerinin yaxınlığında yerləşir. Qəbirlər yanlarda iri sal daşlardan qurulmuşdur. Bəzi qəbirlərin üzərində üst daşlarına rastlanır. Onların yan daşları torpağın aşınması nəticəsində üzə çıxmış, bəziləri qazılıb dağıdılmışdır. Qəbirlər müxtəlif istiqamətlərə yönəldilmiş vəziyyətdədir. Qərb-şərq istiqamətində olan qəbirlərdən birinin uzunluğu 1,30 m, eni 0,7 m idi. Qəbir kamerası baş və ayaqda bir, yanlarda bir neçə yastı sal daşla qurulmuşdur. Nekropolu I-VII əsrlərə aid etmək olar.

**76. Söyüdlü nekropolu.** Milax kəndindən şimalda, Zoğalaçayın sağ kənarındakı uzunsov təpənin üzərində yerləşir. Qəbirlər daş qutu tipli olub müxtəlif istiqamətlərə yönəlmişdir. Onların yan daşları torpağın aşınması nəticəsində üzə çıxmışdır. Qəbirlər yanlarda iki iri, yastı sal daşla qurulmuşdur. Qəbirlərin üzəri ağır yastı sal daşla qapadılmışdır. Bəzi qəbirlərin üzərində örtük daşları yoxdur. Nekropolun ərazisi tədqiq edilərkən çəhrayı və boz rəngli keramika parçalarına rastlandı. Onlardan bəzisinin üzəri yaxşı anqoblanmış və cilalanmışdır. Aşkar edilmiş arxeoloji materiallara əsasən, Söyüdlü nekropolunu III-VIII əsrlərə aid etmək olar.

**77. Qırxlar qalası.** Əlincə qalanın qərbində, Qazançı kəndinə gedən asfalt yolun sol tərəfində, üçbucaq formalı təpənin üzərində yerləşir. AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Qala təpənin relyefinə uyğun olaraq üçbucaq formasında tikilmişdir. Qala divarının eni 1, 65 m-dir. Divarlar sökülüb dağıdıldığından onların yalnız bünövrəsi qalmışdır. Qalanın içərisində dördkünc formalı yaşayış binalarının qalıqları vardır. Onlar ortahəcmli qaya parçalarından tikilmişdir. Sahəsi 136 min kv.m-dir.

Tədqiqat zamanı qalanın ərazisindən şirsiz və şirli keramika nümunələri aşkar edilmişdir. Aşkar edilmiş keramika nümunələrinə əsasən, qalanı XI-XV əsrlərə aid etmək olar.

**78. Qızılca nekropolu.** Qızılca kəndindən cənubda, ətraf yerlərə nisbətən hündür təpənin üzərində yerləşir. AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Nekropolun ərazisi əkin sahəsi kimi istifadə edildiyindən təpənin üzəri şumlanmış və qəbirlər tamamilə dağıdılmışdır. Sahəsi 845 kv.m-dir. Nekropolun ərazisində xeyli daş yığınlarına rastlandığından qəbirlərin daş qutu tipli olduğunu ehtimal etmək olar.

Nekropolda aparılan araşdırmalar zamanı qəbirlərin dağıdılması zamanı aşkar olunan keramika parçaları toplanmışdır. Keramika nümunələri çəhrayı rəngdə yaxşı bişirilmişdir. Aşkar olunan keramika nümunələrinə əsasən, nekropolu e.ə. IV-I əsrlərə aid etmək olar.

**79. Qızılca qəbiristanlığı.** Qızılca kəndinin cənubunda, uzunsov, ayparaşəkilli təpənin üzərini və onun ətəyini əhatə edir. Qəbirlərin bir qrupunun başdaşıları saxlanmasa da, onların əksəriyyətinin nişangah daşları vardır.

Qəbirlərin ətrafına, bəzən isə üstünə başdan-başa çay daşları düzülmüşdür. Baş-daşılarının üzərində ərəb qrafikası ilə yazılmış kitabələr vardır.

Nekropolun ərazisində Son Orta əsrlərə aid müxtəlif tipli keramika parçalarına rastlanması qəbiristanlıqda müsəlman adətinə uyğun müəyyən mərasimlərin keçirildiyini göstərir. Qəbiristanlığı XV-XX əsrlərə aid etmək olar.

**80. II Xanəgah nekropolu.** Şeyx Xorasan memarlıq kompleksinin cənubunda, hündür təpənin yamacında yerləşir. Qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmişdir. Onlardan bəzilərinin ətrafında dördkünc formalı daş düzümlərinə rastlanır. Bəzi qəbirlərin üzərinə qoç daşlar, bəzilərinə isə dördkünc formalı sinə daşları qoyulmuşdur. Qəbir daşlarının üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Təəssüf ki, qəbiristanlıqdakı qoç daşların hamısı sındırılmışdır.

Nekropolun ərazisində torpaq yolun alt tərəfində bişmiş kərpicdən tikilmiş türbənin sərdabəsinə aid qalıqlar saxlanmışdır.

Qəbiristanlığın ərazisindən çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika nümunələri də aşkar edilmişdir. Qəbirüstü abidələr və aşkar edilən keramika nümunələrinə əsasən nekropolu XII-XVI əsrlərə aid etmək olar.

**81. Səfərevləri daş karxanası.** Kırna kəndindən şərqdə yerləşir. Karxana Kırna kəndinə doğru uzanan hündür təpənin yamacındadır. Təpə başdan-başa çəhrayı rəngli qayalıqdan ibarətdir. Qayalığın bir yerində çobanlar tərəfindən istifadə edilən çox da dərin olmayan kiçik zağa vardır. Karxananın ərazisində bir neçə yerdə prizmatik formada yonulmuş qəbir daşlarına və dairəvi formalı dəyirman daşlarına rastlanmışdır. Bəzi dəyirman daşları hazır olmadığından aparılmamış, digərləri isə sındığı üçün karxanada qalmışdır. Aparılan araşdırmalar karxanadan müntəzəm şəkildə daş çıxarıldığını təsdiq edir. Kırna kəndində rastlanan düzbucaqlı qəbir daşlarının və qoç daşların bu karxanada hazırlandığı heç bir şübhə doğurmur.

Daş karxanası XX əsrin əvvəllərinədək istifadə olunmuşdur. Onu XV-XVIII əsrlərə aid edirik.

**82. Gal yaşayış yeri.** Gal kəndindən şimal-qərbdə, dağın yamacında yerləşir. Yaşayış yerinin ərazisində iri daşlardan tikilmiş divar qalıqlarına, dördkünc formalı binalara rastlanır. Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, iri daşlardan hörülmüş divarların bir qismi torpağı sürüşmədən qorumaq üçün inşa edilmişdir. Torpağın aşınması nəticəsində yaranan yarğanlarda mədəni təbəqənin qalınlığı 1, 8 m-dir.

Tədqiqat zamanı yaşayış yerindən şirli və şirsiz keramika parçaları toplanmışdır. Aşkar olunan arxeoloji materiallar Son Orta əsrlər üçün xapakterik-dir. Tikinti qalıqlarına və arxeoloji materiallara əsasən yaşayış yerini X-XVIII əsrlərə aid etmək olar.

**83. Şurut nekropolu.** Şurut kəndindən cənub-qərbdə təpənin yamacında yerləşir. Müsəlman qəbirlərindən ibarət olan nekropolun ərazisi aşınma nəticəsində dağılmışdır. Bəzi qəbirlərin başdaşıları saxlanmış, digərləri isə düş-

müşdür. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə nekropolda qoç daşlar olmuşdur. Hazırda nekropolda qalan qəbirlərin ətrafında daş düzümlərinə rastlanır. Nekropolun ərazisində tədqiqat aparılarkən Son Orta əsrlərə aid şirsiz saxsı məmulatına rastlanmışdır. Aşkar edilmiş arxeoloji materiallara və qəbirüstü daşların tiplərinə görə Şurut nekropolunu XIV-XVIII əsrlərə aid etmək olar.

**84. Bənəniyar nekropolu.** Kəndin qərbində, asfalt yolun kənarında yerləşir. Nekropolun bir hissəsindən hazırda istifadə edilməsinə baxmayaraq, onun cənub hissəsində Son Orta əsrlərə aid qəbirüstü daşlara rastlanır. Qəbirüstü daşlar sənduqə tiplidir. Onların bəzisinin yuxarı hissəsi tağvari formada yonulmuşdur. Sənduqələrin bir çoxu aşınma nəticəsində dağılmış, bəziləri isə torpağın altında qalmışdır. Tədqiqat zamanı qəbir daşlarının bir neçəsində ərəb əlifbasında yazıya rastlanmışdır. Lakin yazı pis saxlandığından oxumaq mümkün olmamışdır. Nekropolda aşkar olunan sənduqə tipli sinə daşları Son Orta əsrlər üçün xarakterikdir. Nekropolu XVI-XIX əsrlərə aid etmək olar.

**85. Koreymər yaşayış yeri.** Teyvaz kəndindən şimalda, təpənin yamacında yerləşir. Yaxınlığında bulaq vardır. Sahəsi 37400 kv.m-dir. Yaşayış yerinin ərazisində dördkünc formada daşdan və möhrədən tikilmiş binaların qalıqları saxlanmışdır. Binalar bir-birinin üstündə yerləşən düzgün meydançalarda, bəzən isə binalar üçün düzəldilmiş səkilərdə yerləşdirilmişdir. Yaşayış yerinin yaxınlığında iki nekropol və təsərrüfat tikintilərinin qalıqları vardır. Abidənin ərazisində aparılan araşdırmalar zamanı Son Orta əsrlərə aid çəhrayı rəngli, şirli və şirsiz keramika nümunələrinə rastlanmışdır. Yerli əhalinin verdiyi məlumata görə, burada həyat XX əsrin ortalarınadək davam etmişdir.

Aşkar olunmuş arxeoloji materiallara əsasən, yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

**86. Koreymər kahaları.** Koreymər yaşayış yerindən şimal-şərqdə, təpənin ətəyində yerləşir. Kahalar təpənin yamacında tağvari formada qazılmışdır. Onlardan bəzisinin uzunluğu 15 m-ə çatır. Kahaların hamısının döşəməsi qalın peyin qatı ilə örtülmüşdür. Onların dib divarlarında çıraq, yaxud piltə qoymaq üçün kiçik taxça düzəldilmişdir. Taxçanın yaxınlığındakı divar və tavan hislənmişdir. Kahaların ön tərəfi təmizlənərək dəhliz şəklinə salınmışdır. Lakin uzun müddət istifadə edilmədiyindən aşınmaya uğrayaraq dağıdılmışdır. Araşdırmalar kahalardan xırdabuynuzlu heyvanlanın saxlanması üçün istifadə edildiyini göstərir. Kahaları XVI-XIX əsrlərə aid etmək olar.

**87. Çətəndaş yaşayış yeri.** Teyvaz kəndinin şərqində yerləşir. Yaşayış yerinin yaxınlığında gur sulu bulaq vardır. Onun ərazisində qaya daşlarından və möhrədən tikilmiş dördkünc formalı binaların qalıqları saxlanmışdır. Yaşayış yerinin ərazisi uzun müddət otlaq sahəsi kimi istifadə edildiyindən binaların izləri tamamilə itmək üzrədir. Yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarət olub Son Orta əsrlərə aiddir. Yaşayış yerini arxeoloji materiallara əsasən XVIII-XIX əsrlərə aid etmək olar.

**88. Xosuyatan yaşayış yeri.** Teyvaz kəndindən şərqdə yerləşir. Ərazisində daşdan tikilmiş dördkünc formalı binaların qalıqları saxlanmışdır. Yaşayış yerinin mərkəzində, iri qaya parçasının içərisində təbii oyuq vardır. Araşdırmalar bu yaşayış yerində də həyatın mövsümi xarakterdə olduğunu və bu ərazinin maldar əhali tərəfindən istifadə edildiyini göstərir. Yerüstü materiallar Son Orta əsrlərə aid küpə tipli qabların parçalarından ibarətdir. Yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

**89. Camaldın karvansarası.** Camaldın kəndindən cənub-qərbdə, əkin sahələrinin arasında yerləşir. Mərkəzi hissəsinin sahəsi 6750 kv.m-dir. Mədəni təbəqənin qalınlığı 1-2 m arasındadır. Yaşayış yerinin ərazisində dördkünc formalı tikintilərin qalıqları saxlanmışdır. Tikintilər tamamilə dağılmışdır. Abidə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınaraq araşdırılmışdır.

Yerüstü materiallar başlıca olaraq bişmiş kərpic və çəhrayı rəngdə bişirilmiş keramika nümunələrindən ibarətdir. Keramika nümunələrinin bir qrupu şirlidir. Aşkar olunan arxeoloji materiallara əsasən, Camaldın karvansarasını XII-XVII əsrlərə aid etmək olar.

**90. Tülkütəpəsi kurqanı.** Camaldın karvansarasından şərqdə əkin sahələrinin arasında yerləşir. Kurqan AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Onun ətrafı çay daşları ilə əhatələnmişdir. Kurqanın hündürlüyü 2,8 m, diametri 26 m-dir. Kurqanın tökmə torpağı yumşaq olduğundan heyvanların açdığı oyuqlarda çəhrayı və sarı rəngli keramika parçalarına rastlanır. Kurqanın bitki örtüyü zəifdir.

Kurqanın üzərindən toplanan keramika nümunələri Erkən Orta əsrlər üçün xarakterikdir. Kurqanı təxmini olaraq III-VIII əsrlərə aid etmək olar.

**91. II Gülüstan nekropolu.** Gülüstan kəndindən şərqdə, hündür oval təpənin üzərində yerləşir. Nekropolun ərazisi torpaq işləri görülərkən dağıdılmışdır. Qəbirlər daş qutu tiplidir. Onlar yanlarda iri sal daşlarla qurulmuşdur. Müxtəlif istiqamətlərə yönəldilmiş qəbirlərin üstü iri yastı sal daşlarla qapadılmışdır. Dağıdılmış qəbirlərdən maddi-mədəniyyət nümunələri aşkar edilməmişdir. Nekropolu IV-VIII əsrlərə aid etmək olar.

**92. I Gülüstan yaşayış yeri.** Yaşayış yeri Culfa rayonunun şimal-qərbində, Araz çayının sol sahilində yerləşir. Yaşayış yeri şimalda hündür dağ silsiləsi, cənubda Araz çayı, qərbdə qəbiristanlıqla məhdudlaşır. Yaşayış yeri və onun tarixi abidələri haqqında Orta əsr müəlliflərinin əsərlərində məlumat verilmişdir. Burada Azərbaycan EA Tarix İnstitutunun və Naxçıvan Elm Mərkəzinin əməkdaşları tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Yaşayış yerində şirli və şirsiz gil məmulatına, mis sikkələrə və başqa maddi-mədəniyyət qalıqlarına təsadüf olunmuşdur. Aşkar edilmiş arxeoloji materialların bir qismi hazırda Culfa rayon tarix-diyarşünaslıq muzeyində, bir qismi isə Gülüstan kənd orta məktəbində saxlanır. Yerüstü materiallar əsasən bişmiş kərпic, şirli və şirsiz saxsı məmulatından ibarətdir.

Aşkar olunmuş arxeoloji tapıntılara əsasən, yaşayış yerinin əsas fəaliyyət dövrünü XI-XVII əsrlərə aid etmək olar. Lakin bəzi təsadüfi tapıntılar burada həyatın müəyyən fasilələrlə XVIII-XIX əsrlərədək davam etdiyini göstərir.

**93. II Gülüstan yaşayış yeri.** Araz çayının sol sahilində, Gülüstan türbəsinin yaxınlığında yerləşir. Yaşayış yerində olan binalar tamamilə dağılmışdır. Hazırda yaşayış yerinin ərazisində bir neçə yerdə möhrədən tikilmiş divarların qalıqlarına rastlanır. Onlardan birinin uzunluğu 48 m, eni 45 m-dir.

Abidədə aparılan araşdırmalar zamanı çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika nümunələrinə rastlanır. Şirli qablar Orta əsrlərin inkişaf etmiş dövrü üçün xarakterikdir. Aşkar olunmuş arxeoloji materiallara əsasən, yaşayış yerini X-XIV əsrlərə aid etmək olar.

**94. Yaycı qəbiristanlığı.** Yaycı kəndindən qərbdə, düzənlik sahədə yerləşir. Qəbiristanlıq hazırda istifadə edilməkdədir. Müsəlman qəbirlərindən ibarət olan qəbiristanlıqda qəbirlərin üstü dördkünc formada çay daşları ilə qapadılmışdır. Bəzi qəbirlərin ətrafı iri qaya parçaları ilə əhatələnmişdir. Qəbiristanlığın ərazisində Son Orta əsrlərə aid şirsiz keramika parçalarına rastlanmışdır. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə bəzi qəbirlərin üzərində qoç daşlar olmuşdur. Qəbiristanlığın yaxınlığında yerli əhalinin sitayiş etdiyi pir vardır. Hazırda pir bərpa edilərək təmir olunmuşdur. Yaycı qəbiristanlığını XVI-XX əsrlərə aid etmək olar.

**95. Üçtəpə yaşayış yeri.** Yaycı kəndinin cənub-şərqində, Araz çayının sol sahilindən təqribən 2 km aralıda yerləşir. Yaşayış yerinin ərazisi dərin yarğanlarla bir neçə hissəyə bölünmüşdür. Abidənin şimal-şərqindən dəmiryol xətti keçir. Daşdan və möhrədən tikilmiş bəzi binaların qalıqları indiyədək qalmışdır. Mədəni təbəqənin qalınlığı 2-4 m arasındadır.

Yerüstü tapıntılar başlıca olaraq çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarət olub müxtəlif tipli qabların parçaları ilə təmsil olunmuşdur. Şirli saxsı məmulatının böyük bir qismi Son Orta əsrlər üçün xarakterikdir.

Yaşayış yerinin ərazisində ətrafı kromlexlə əhatə olunmuş kurqanlara da rastlanır. Lakin onlar tədqiq edilmədiyindən hansı dövrə aid olduğunu demək çətindir. Aşkar olunmuş arxeoloji materiallara əsasən, Üçtəpə yaşayış yerini X-XVIII əsrlərə aid etmək olar.

**96. Qızılqaya nekropolu.** Yaycı kəndinin qərbində, dağların arasında, dəmiryol xəttinin yaxınlığında yerləşir. Nekropol dağın yamacında yerləşir. Onlar bir-birindən xeyli aralıda yerləşən torpaq qəbirlərdən ibarətdir. Qəbirlərin ətrafı çay daşları ilə əhatələnmişdir. Onların bir neçəsi qazılaraq dağıdılmışdır. Nekropolun ərazisindən Son Orta əsrlər üçün xarakterik olan çəhrayı rəngdə bişirilmiş şirsiz keramika parçaları tapılmışdır. Nekropolun maldarlıqla məşğul olan türkdilli yaycı tayfalarına aid olması heç bir şübhə doğurmur. Nekropolu XVII-XIX əsrlərə aid etmək olar.

**97. Göynük qalası.** Culfa rayonunun Göynük kəndindən şərqdə, hündür təpənin üzərində yerləşir. Abidə S.H.Aşurov tərəfindən qeydə alınmışdır. Təpənin yuxarı hissəsi dördkünc formalı divarla əhatə olunmuşdur. Divarlar yanlarda iri qaya parçalarından hörülmüşdür. Qalanın içərisində dördkünc formalı binanın qalıqları saxlanmışdır. AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyasının apardığı araşdırmalar zamanı xeyli yerüstü material toplanmışdır. Başlıca olaraq gil qabların parçalarından ibarət olan yerüstü materiallar arasında Orta Tunc dövrü üçün xarakterik olan boyalı keramika nümunələri də vardır.

Aşkar olunmuş arxeoloji materiallara əsasən Göynük qalasını e.ə. III-I minilliklərə aid etmək olar.




Şəkil 74. Göynük qalası

**98. I Çola yaşayış yeri.** Kərimquludizə kəndindən şərqdə, hündür təpənin ətəyində yerləşir. Yaşayış yeri şərqdə hündür təpə ilə məhdudlaşır. Onun ərazisi traktorla kürənib dağıdılmışdır. Abidənin ərazisində Orta əsrlərə aid şirsiz keramika parçalarına rastlanır. Vaxtilə yaşayış yerinə çəkilən kəhriz hazırda fəaliyyət göstərməkdədir. Yaşayış yerinin bəzi qismlərində daşdan tikilmiş dördkünc formalı binaların qalıqları saxlanmışdır. Yaşayış yerini III-VIII əsrlərə aid etmək olar.

**99. II Çola yaşayış yeri.** Xalq arasında Qalaqabağı da adlanır. Yaşayış yerində iri daşlardan tikilmiş oval və dördkünc formalı binaların qalıqları saxlanmışdır. Yaşayış yeri qurumuş çayın sahilində, strateji cəhətdən əlverişli mövqedə yerləşir. Araşdırmalar yaşayış yerinin yarımköçəri həyat tərzi keçirən maldar tayfalar tərəfindən salındığını göstərir. Yerüstü materiallar Son Orta əsrlər üçün

xarakterik olan, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatından ibarətdir. Aşkar olunmuş arxeoloji materiallara əsasən yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

**100. Köhnə Xoşkeşin yaşayış yeri.** Culfa rayonunun Xoşkeşin kəndindən şərqdə, İlandağın ətəyində yerləşir. Kəndin xarabalıqları İlandağın ətəyi boyunca uzanır. Kəndin ortasından torpaq yol keçir. Evlərin özülü daşdan, divarları isə daş parçaları qarışdırılmış möhrədən tikilmişdir. Daş tikintilər balıqbeli texnikası ilə inşa edilmiş və gil məhlulu ilə bərkidilmişdir. Evlər bir otaqlı, iki otaqlı, bəzən isə üç otaqlıdır. Kəndin şərq tərəfində Qoşa qardaş adlanan sahədə iri həcmli iki mərtəbəli binaların qalıqları qalmışdır. Bəzi evlərin içəri divarlarında taxçaları vardır.

Yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarət olub Orta əsrlər üçün xarakterikdir. Arxeoloji materialların araşdırılması yaşayış yerini XI-XX əsrlərə aid etməyə imkan verir. Lakin kəndin ətrafındakı nekropollar burada həyatın daha qədim dövrdən mövcud olduğunu təsdiq edir.

**101. I Ərəzin yaşayış yerinin nekropolu.** Yaşayış yerindən şimalda dərənin yamacında yerləşir. Müsəlman qəbirlərindən ibarət olan qəbiristanlıq torpağın aşınması nəticəsində tamamilə dağılmışdır. Torpaqda qazılmış qəbirlərin üzəri yaşıl rəngli yastı sal daşlarla örtülmüşdür. Qəbirlərin birinin üstünün götürülməsində rəngli kaşılardan istifadə edilmişdir. Kaşıların dağılmış qalıqlarına əsasən demək olar ki, onlar kvadrat formalı blok halında yığılaraq istifadə edilmişdir. I Ərəzin yaşayış yerinin nekropolunu arxeoloji materiallara əsasən XV-XIX əsrlərə aid etmək olar.

**102. II Ərəzin yaşayış yeri.** Ərəzin kəndindən qərbdə, Naxçıvan şəhərinə gedən yolun sol kənarında yerləşir. Yaşayış yeri şimaldan cənuba doğru uzanan oval təpə formasındadır. Yaşayış binaları tamamilə dağıldığından onların formasını müəyyən etmək mümkün deyil. Mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarətdir. Onun qalınlığı 1-1,5 m arasındadır. Maddi-mədəniyyət qalıqları çəhrayı rəngdə bişirilmiş şirsiz və şirli saxsı məmulatından ibarətdir.

Aşkar edilmiş arxeoloji materiallar XIV-XVIII əsrlər üçün xarakterikdir.

**103. Gülnəzər yaşayış yeri.** Culfa rayonunun Xoşkeşin kəndindən şimalda, dağın yamacında yerləşir. Evlər dağın yamacında düzəldilmiş və ön tərəfdən qalın daş divarla möhkəmləndirilmiş xüsusi səkilərdə tikilmişdir. Divarlar başlıca olaraq daşdan tikilmiş və gil məhlulu ilə bərkidilmişdir. İri daşlardan tikilən divarların qalınlığı 1-1,2 m arasındadır. Divarların hörülməsində balıqbeli texnikasından istifadə edilmişdir.

Mədəni təbəqənin qalınlığı 1-1,5 m arasındadır. Yerüstü maddi-mədəniyyət nümunələri başlıca olaraq çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarətdir. Aşkar olunmuş arxeoloji materiallara əsasən yaşayış yerini XIV-XX əsrlərə aid etmək olar.

**104. Gülnəzər yaşayış yerinin nekropolu.** Yaşayış yerinin şərqində hündür təpənin üzərində yerləşir. Nekropolun şimal tərəfində olan tikinti qalıqları vaxtilə burada yaşayış binalarının olduğunu göstərir. Nekropoldakı qəbirlər müsəlman qibləsi istiqamətindədir. Qəbirlərin əksəriyyətinin başdaşıları yıxılmışdır. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə nekropolda qoç daşlar olmuşdur. Hazırda isə onların heç biri qalmamışdır. Nekropolu yaşayış yeri ilə eyni dövrə – XIV-XX əsrlərə aid etmək olar.

**105. Paradaş yaşayış yeri.** Xoşkeşin kəndindən şimalda, Gülnəzər kəndinə gedən torpaq yolun kənarında yerləşir. Binaların xarabalıqları indiyədək qalmaqdadır. Evlərin bünövrəsi iri daşlardan, yuxarı qismi isə möhrədən tikilmişdir. Bəzi binalarda daş və möhrə hörgü bir-birini əvəzləmişdir. Daş tikintilər balıqbeli texnikası ilə hörülmüş, gil məhlulu ilə bərkidilmişdir. Binalardan bəzisinin içəri divarlarında taxçalar düzəldilmişdir. Kəndin cənub tərəfində kəhriz vardır.

Maddi-mədəniyyət qalıqları ilə zəngin olan mədəni təbəqənin qalınlığı 1-1,8 m arasındadır. Yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatı ilə təmsil olunmuşdur. Aşkar olunan arxeoloji materialları XIV-XX əsrlərə aid etmək olar.

**106. Paradaş nekropolu.** Kəndin şərqində, uzunsov təpənin üzərində yerləşir. Müsəlman qəbirlərindən ibarət olan nekropol tamamilə dağılmış, qəbirlərin başdaşıları yıxılmışdır. Yerli əhalinin məlumatına görə, vaxtilə nekropolda qoç daşlar olmuşdur. Lakin hazırda onların heç biri saxlanmamışdır. Nekropolu yaşayış yeri ilə eyni dövrə XIV-XX əsrlərə aid etmək olar.

**107. I Xoşkeşin nekropolu.** Köhnə Xoşkeşin kəndinin şərqində, təpənin üzərində yerləşir. Nekropol müsəlman qəbirlərindən ibarətdir. Bəzi qəbirlərin başdaşıları, bəzilərinin isə sənduqə tipli sinə daşları saxlanmışdır. Sinə daşlarının biri oyma tağşəkilli ornamentlə, digəri isə qabartma rəsmlə naxışlanmışdır. Qəbirlərin ətrafına çay daşları düzülmüş, bəzilərinin üzərində isə daş yığınları toplanmışdır. Nekropolun ərazisində şirli və şirsiz saxsı qabların parçalarına da rastlanmışdır.

Aşkar olunmuş arxeoloji materiallar XII-XVII əsrlərə aiddir.

**108. II Xoşkeşin nekropolu.** Birincidən bir qədər aralıda yerləşir. Müsəlman qəbirlərindən ibarət olan nekropoldakı qəbirlərin izləri tamamilə itmişdir. Onlardan yalnız bəzisinin başdaşıları saxlanmışdır. Bəzi qəbirlərin üzərində daş yığınlarına rastlanır. Nekropolu XVII-XIX əsrlərə aid etmək olar.

**109. III Xoşkeşin nekropolu.** Köhnə Xoşkeşin yaşayış yerinin cənub-qərbində yerləşir. Qəbirlərin izləri itmək üzrədir. Müsəlman qəbirlərindən ibarət olan nekropoldakı qəbirlərin ətrafı çay daşları ilə əhatələnmiş, bəzisinin isə üzəri tamamilə daşla örtülmüşdür. Qədim türk tayfaları üçün xarakterik olan bu adət indiyədək Naxçıvanın kəndlərində saxlanmaqdadır. Nekropolu XVIII-XIX əsrlərə aid etmək olar.

**110. Xoşkeşin kromlexi.** III Xoşkeşin nekropolunun ərazisində qeydə alınmışdır. İri daşlardan qurulmuş kromlexin diametri 8 m-dir. Onun içərisi müxtəlif həcmli daşlarla doldurulmuşdur. Bu tip kromlexlər başlıca olaraq Tunc dövrü üçün xarakterikdir. Kromlexi e.ə. III minilliyə aid etmək olar.

**111. IV Xoşkeşin nekropolu.** Yaşayış yerinin qərbində, təpənin üzərində yerləşir. Nekropol qiblə istiqamətinə yönəlmiş müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərin ətrafı dördkünc formada qaya parçaları və çay daşları ilə əhatələnmişdir. Bəzi qəbirlərin üzərində daş yığınları yaranmışdır. Bu tip qəbirlər Naxçıvanda yaşayan müsəlman türklər üçün xarakterikdir. Nekropolu XIII-XVIII əsrlərə aid etmək olar.

**112. Baş Anzır yaşayış yeri.** Culfa rayonunun Xanəgah kəndindən şimalda dağın yamacında yerləşir. Kəndin ərazisi dərin dərələrlə iki yerə bölünmüşdür. Binaların bünövrəsi daşdan, yuxarı qismi isə möhrədən tikilmişdir. Evlər bir, iki və üç otaqlıdır. Evlərdən birinin divarının içərisində dördkünc və üçkünc formalı kiçik taxçalar düzəldilmişdir. Kəndin mərkəzi hissəsində olan məscid binasının özülü yonulmuş iri daşlardan yuxarısı isə möhrədən tikilmişdir. Divarların seysmik davamlığını artırmaq üçün onların üzərinə uzun tirlər atılmışdır. Heyvanların saxlanması üçün tikilən iri binalar kəndin şərqində, dərənin başında tikilmişdir. Yaşayış yerini XVII-XX əsrlərə aid etmək olar.

**113. Baş Anzır nekropolu.** Kəndin qərb qurtaracağında çökək bir sahədə yerləşir. Müsəlman qəbirlərindən ibarət olan nekropoldakı qəbirlər itmək üzrədir. Bəzi qəbirlərin başdaşıları saxlanmışdır. Onlardan bəzisinin ətrafı kiçik daşlarla əhatələnmiş, bəzisinin isə üzərində daş yığınları toplanmışdır. Nekropolu XVII-XX əsrlərə aid etmək olar.

**114. Orta Anzır yaşayış yeri.** Baş Anzırdan 5 km cənub-qərbdə nalşəkilli təpənin ətəyində yerləşir. Yaşayış yerinin binaları dördkünc formalıdır. Divarların əsası daşdan, yuxarısı isə möhrədən tikilmişdir. Binalardan birinin içəri divarında taxçalar, cənub divarında isə buxarı düzəldilmişdir. Divarların seysmik davamlığını artırmaq üçün möhrə hörgünün arasına bəzən ağac tirlər atılmışdır. Məscid binası kəndin mərkəzində yerləşir. Onun divarlarında taxçalar, cənub divarında isə mehrab düzəldilmişdir. Kəndin qərb yarımhissəsində başlıca olaraq irihəcmli təsərrüfat binaları yerləşdirilmişdir. Yaşayış yerinin şimal qurtaracağında bulaq vardır. Yaşayış yeri XIV-XX əsrlərə aiddir.

**115. Orta Anzır yaşayış yerinin nekropolu.** Xeyli aralıda yolun kənarında salınmışdır. Nekropol müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərin əksəriyyətinin başdaşı düşmüşdür. Bəzi qəbirlərdə baş və ayaq daşlarına rastlanır.

**116. Aşağı Anzır yaşayış yeri.** Xanəgah kəndindən şimalda hündür təpənin hər iki yamacında yerləşir. Evlərin tikilməsi üçün təpənin yamacında kiçik meydançalar hazırlanmışdır. Binaların arxa divarları təpənin yamacına söykənmişdir. Divarların bünövrəsi daşdan, yuxarı hissəsi isə möhrədən tikilmişdir. Bəzi evlərin içəri divarlarında taxçalar düzəldilmişdir. Kəndin içərisində gur sulu bulaq varldır. Kəndin xarabalıqlarının bir qismi hazırda bərpa edilərək

istifadə edilməkdədir. Yaşayış yerinin şimal qurtaracağında qəbiristanlıq vardır. Yaşayış yerindən toplanan yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarət olub Son Orta əsrlər üçün xarakterikdir. Yaşayış yerini XIV-XX əsrlərə aid etmək olar.

**117. Aşağı Anzır yaşayış yerinin nekropolu.** Kəndin xarabalıqlarından şimalda, təpənin yamacında yerləşir. Qəbirlərin əksəriyyəti itmişdir. Başdaşıları olduqca az qalmışdır. Onlar qəbirlərin baş tərəfinə sancılmış adi daş parçalarından ibarətdir. Bəzi qəbirlərin üzərində sənduqə tipli sinə daşları vardır. Qəbir daşları üzərində kitabələrə rastlanmamışdır.

**118. Göynük nekropolu.** Culfa rayonunun Göynük kəndindən şərqdə, hündür təpənin üzərində yerləşir. Nekropol qərb-şərq istiqamətində yönəlmiş torpaq qəbirlərdən ibarətdir. Qəbirlərin yerüstü əlaməti tamamilə itmişdir. Bəzi qəbirlərin ətrafında dördkünc, bəzilərində isə dairəvi formalı daş düzümləri vardır. Araşdırmalar zamanı nekropolun ərazisində aşınmaya uğramış daş qoçlara rastlanmışdır. Bir neçə hissəyə parçalanan qoç fiqurlarının birini bərpa etmək mümkün olmuşdur. Nekropoldakı qəbirlərin ətrafından Orta əsrlərə aid şirsiz keramika məmulatı aşkar olunmuşdur. Nekropol XIV-XVII əsrlərə aiddir.

**119. Göynük yaşayış yeri.** Eyniadlı kəndin müasir tikintiləri altında qalmışdır. Yaşayış yerinin qərb tərəfində mədəni təbəqə aşınma nəticəsində dağılmış, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Təbəqədən həmçinin mis qabların parçaları, Elxanilər dövrünə aid mis sikkə tapılmışdır. Şirli qablar ağ anqob üzərindən yaşıl və mavi rəngli ornamentlə naxışlanmışdır. Onlar arasında marqans naxışlı keramika nümunələrinə də rastlanmışdır. Arxeoloji tapıntılara əsasən yaşayış yerini XIV-XVII əsrlərə aid etmək olar.

**120. Əlincəqala.** Abidə Culfa rayonun Xanəgah kəndindən qərbdə, Əlincəçayın sağ sahilində, təbii qayalığın üzərində tikilmişdir. O, ətraf yerlərə nisbətən hündürdə olub şərqdə Əlincəçay, qərbdə isə asfalt yolla məhdudlaşır. Qalanın iki girişi vardır.

Abidə arxeoloji qazıntılarla öyrənilməmişdir. Mədəni təbəqənin qalınlığı 1,5-2 m arasındadır. Qalanın içərisində qayada çapılmış və əlavə hörgü ilə tamamlanmış 13 hovuz aşkar olunmuşdur. Şimal-qərb və qərbdəki divarlar yaxşı mühafizə olunmuşdur. Kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində bir sıra maddi-mədəniyyət qalıqları, saxsı qab fraqmentləri, sikkələr, inşaat materialları və s. əldə edilmişdir. Gil qabların üzərində müxtəlif nəbati rəsmlərə, heyvan, o cümlədən, quş, ceyran, maral, ilan, balıq və s. təsvirlərinə təsadüf edilir.

Qalanın tikilmə tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Son araşdırmalar qalanın IX-XI əsrlərdə tikildiyini göstərir. Əlincə qalası Azərbaycan Atabəylər dövlətinin (Eldənizlər) mövcud olduğu dövrdə və Əmir Teymurun hücumları zamanı xüsusən böyük əhəmiyyət daşımışdır.



Şəkil 75.  Əlincəqalanın sxematik planı

**121. Gülüstan nekropolu.** Culfa rayonunun Gülüstan kəndindən şimal-qərbdə, yaşayış yerinin qərb qurtaracağında yerləşir. Cənub-qərbdə Araz çayı, şimalda dağ silsiləsi, şərqdə yaşayış yeri ilə məhdudlaşır.

Nekropolda Azərbaycan EA Tarix İnstitutunun və Naxçıvan Elm Mərkəzinin əməkdaşları tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır.

Nekropolun yerləşdiyi ərazi girintili çıxıntılı olub 5 hektardan artıq sahəni əhatə edir. Burada müxtəlif dövrlərə aid qəbir abidələri vardır. Qəbirüstü daşlar həmçinin öz zahiri formasına görə fərqlənirlər. Onların içərisində qoç-daşlar, daş sənduqələr, düzbucaqlı prizma formasında hazırlanmış sinə və başdaşıları vardır. Başdaşılarının üzərində müxtəlif süjetli təsvirlərə təsadüf olunur. Onların içərisində qanadlı əjdaha obrazı xüsusilə tez-tez təkrar olunur. Təsvirlərdə qanadlı əjdahalar bəzən allahın qoruyucusu kimi verilmişdir. Təəssüflə qeyd etmək lazımdır ki, Gülüstan nekropolunda olan qoç daşların bir qismi aparılmış, bir qismi isə qırılıb dağıdılmışdır. Hazırda nekropol tamamilə dağılmışdır.

Nekropolun Orta əsr qəbirləri XII-XVIII əsrləri əhatə edir. Lakin burada XIX əsrə aid qəbirlərə də təsadüf olunur.

**122. Dərəlik yaşayış yeri** Culfa rayonunun Camaldın kəndindən cənubda, Culfa şəhərinə gedən asfalt yolun alt tərəfində yerləşir. Yaşayış yerində daşdan və çiy kərpicdən hörülmüş dördkünc formalı binaların qalıqları saxlanmışdır. Binaların bəzisi çoxotaqlıdır. Divarların hörülməsində düzbucaq və kvadrat formalı çiy kərpiclərdən istifadə edilmişdir. Araşdırmalar zamanı Son Orta əsrlərə aid çəhrayı rəngdə bişirilmiş şirsiz keramika məmulatı əldə edilmişdir. Yaşayış yerini XVIII-XX əsrlərə aid etmək olar.

**123. Dərəlik nekropolu** yaşayış yerinin yaxınlığında yerləşir. Ətraf ərazi əkinçilik məqsədilə istifadə edildiyindən nekropolun izləri tamamilə itmişdir. Qəbirlərdən biri nisbətən yaxşı saxlanmışdır. Onun ətrafı dairəvi formada daşlarla əhatə olunmuş üzəri kiçik həcmli çay daşları ilə örtülmüşdür. Bu tip qəbirlərə Naxçıvanın Orta əsr qəbiristanlıqlarında tez-tez rastlanır. Nekropolda aparılan araşdırmalar zamanı Son Orta əsrlərə aid şirsiz saxsı məmulatı əldə edilmişdir. Nekropolu XVII- XIX əsrlərə aid etmək olar.

**124. Dərəşam mağarası** Culfa rayonunun Gülüstan kəndi yaxınlığında, Dərəşam dəmiryol stansiyasından şərqdə, qayaların arasındadır. Təbii mağaranın ön tərəfi əhəng məhlulundan istifadə etməklə daşdan hörülmüş hündür divarla kəsilmişdir. Vaxtilə mağaranın xüsusi girişi olmuşdur. Lakin hazırda divarın bir qismi və girişi tamamilə dağılmışdır. Divarla mağaranın döşəməsinə müxtəlif tullantılar və bitki çürüntüləri dolmuşdur. Yığılan mədəni təbəqənin qalınlığı 2,5 m-ə qədərdir. Araşdırma zamanı Orta əsrlərə aid şirli və şirsiz keramika parçalarına rastlanmışdır. Tikinti qalıqlarına və keramika məmulatına əsasən mağaradan Orta əsrlərdə yaşayış yeri kimi istifadə edildiyini demək olar. Yaşayış yerini XIV- XVII əsrlərə aid etmək olar.

**125. Dərəşam nekropolu** mağaradan bir qədər aralıda dağın üstündə salınmışdır. Qəbirlərin ətrafı qaya parçaları və çay daşları ilə əhatə olunmuş, bəzi

qəbirlərin üzərində daş yığınları qalmışdır. Qəbirlərdən birinin üzərində astral təsvirlərə rastlanmışdır. Aşkar olunan keramika məmulatı Son Orta əsrlər üçün xarakterikdir. Nekropolu XVII- XIX əsrlərə aid etmək olar.

**126. Berdi qalası** Culfa rayonunun Qazançı kəndindən cənub-şərqdə yerləşir. Qala təbii qayanın üzərindədir. O, hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Qalanın yalnız şərq tərəfində müdafiə divarının qalıqlarına rastlanmışdır. Onun mərkəzi hissəsində heyvan saxlamaq üçün kələk və dördkünc formalı yaşayış binalarının qalıqları vardır. Yaşayış binaları bir otaqlıdır. Axtarışlar zamanı Berdik qalasından Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Qalanı I-XVIII əsrlərə aid etmək olar.

**127. Berdi yaşayış yeri** eyniadlı qalanın qərb ətəyində yerləşir. Yaşayış yerində evlər qrup halında, bir- birinin yanında inşa olunmuşdur. İnşaat materialı kimi daş və çiy kərpicdən istifadə olunmuşdur. Evlər dördkünc formalıdır. Yaşayış yerinin ərazisində ictimai binaların, heyvan ağıllarının qalıqları vardır. Yaşayış yerinin həm cənub, həm də şimal qurtaracağında su qaynağı vardır.

Axtarışlar zamanı toplanan yerüstü materiallar olduqca geniş bir dövrü əhatə edir. Keramika məmulatına əsasən yaşayış yerini I- XIX əsrlərə aid etmək olar.

**128. Sücüt qalası** eyniadlı yaşayış yerinin yaxınlığında Sücüt çayı ilə Qaranlıq dərənin qovşağında yerləşir. Qala sıldırım qayalarla əhatə olunmuş dağın zirvəsində yerləşir. Ehtimal ki, qaladan gözətçi məntəqəsi kimi istifadə olunmuşdur. Sücüt bağlarını qaladan nəzarət altında saxlamaq mümkündür. Qalanın mərkəzi hissəsində dördkünc formalı binaların qalıqları vardır. Binaların tikintisində daşdan və bişmiş kərpicdən istifadə olunmuşdur. Əhalinin verdiyi məlumata görə, qalanın yarımdairəvi formada tamamlanan mağzalları olmuşdur. Hazırda yaşayış yerinə səpələnən bir tərəfi qövsşəkilli olan bişmiş kərpiclər də bunu təsdiq edir. Yaşayış yerinin yaxınlığında, dərənin içərisində su dəyirmanı olmuşdur. Onun qalıqları indi də qalmaqdadır.

Axtarışlar zamanı aşkar olunan keramika məmulatı I-XIX əsrlərə aiddir.

**129. Sücüt su kanalı** Sücüt çayından Sücüt bağlarına çəkilmişdir. Kəndin aşağısında çayın qarşısı bəndlə kəsilərək su təqribən 3,5 m yüksəkliyə qaldırılmış və torpaqda qazılmış kanalla bağlara aparılmışdır. Hazırda kanalın qalıqlarının eni 2 m, dərinliyi isə 1,5 m-dir. Su kanalının çayın üzərindən keçirilərək aparılması onun tikintisində mühəndis məharətinin mühüm rol oynadığını göstərir. Kanal çayın üzərindən onun sağ kənarındakı qayalığa söykənən xüsusi bəndin köməkliyi ilə keçirilmişdir. Bəndin tikintisində yonulmuş daşlardan və əhəng məhlulundan istifadə olunmuşdur. Bəndin qalıqları hazırda qalmaqdadır. Kanalın ətrafından aşkar olunan keramika məmulatı onun I əsrdən başlayaraq fəaliyyət göstərdiyini təsdiq edir. Su kanalı XIX əsrədək bərpa olunmaqla istifadə olunmuş, lakin XX əsrdə onun bərpası üçün göstərilən cəhd uğursuz olmuşdur. Sücüt kanalından I-XX əsrlər ərzində istifadə olunmuşdur.

**130. Cərəcür yaşayış yeri** Culfa rayonunun Gal kəndindən şərqdə yerləşir. Yaşayış yeri hündür uzunsov təpənin üzərini əhatə edir. Tikintilər düzbucaqlı formada, daşdan və çiy kərpicdən inşa olunan otaqlardan ibarətdir. Yaşayış yerinin şərq tərəfində heyvan ağılı, şimalında isə böyük nekropolun qalıqları var. Yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatından ibarətdir. Yaşayış yeri XIV-XVIII əsrlərə aid edilir.

**131. Cərəcür nekropolu** eyniadlı yaşayış yerinin şərqində yerləşir. Torpaqda qazılan müsəlman qəbirləri qərb-şərq istiqamətində yönəlmişdir. Bəzi qəbirlərin üzərinə sənduqə tipli sinə daşları, bəzilərinə isə qoç fiqurları qoyulmuşdur. Qoçlardan ikisinin üzərində ərəb əlifbası ilə yazı olmuşdur. Nekropol XIV-XVIII əsrlərə aid edilir.

## KƏNGƏRLİ RAYONUNUN ARXEOLOJİ ABİDƏLƏRİ

**1. Çalxan yaşayış yeri** Çalxanqala kəndinin yaxınlığında yerləşir. Qala təbii cəhətdən əlverişli mövqedə, hündür təpənin üzərindədir. O, planda dördkünc formada olub, 0,7 hektar sahəni əhatə edir. Qala divarları bir cərgə iri daşlardan hörülmüşdür. Divarların saxlanmış hissəsinin hündürlüyü 0,5-1,2 m, qalınlığı 1 metrdir. Qala divarları kontrforslarla möhkəmləndirilmişdir. Qala tikinti texnikasına görə Oğlanqala, Qazançıqala və Çalxanqala ilə oxşardır. Çalxan yaşayış yeri e.ə. II-I minilliklərə aiddir. Tədqiqatçıların fikrincə, buradan tunc dövrü üçün xarakterik olan boyalı qablar tapılmışdır.

**2. Böyükdüz yaşayış yeri** həmin adda olan kəndin cənubunda, Araz çayının sol sahilində yerləşir. Bu ərazi yerli əhali tərəfindən «Vəllum» adlanır. Abidə ilin üç fəsli suyun altında, iyul, avqust, sentyabr aylarından isə Arazın suyu çəkildikdən sonra quruda qalır. Yaşayış yeri 1991-ci ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Daşqın zamanı yaşayış yeri demək olar ki, tamamilə yuyulmuşdur. Tədqiqat zamanı buradan Son Orta əsrlər üçün xarakterik olan çəhrayı rəngdə bişirilmiş gil qab qırıqları tapılmışdır. Onlardan birinin üzəri göy rəngli şəffaf şirlə örtülmüşdür. Yaşayış yeri tamamilə yuyulduğundan onun sərhədlərini müəyyən etmək mümkün olmadı. Lakin yaşayış yerinin yerləşdiyi uzunsov alçaq təpənin cənub tərəfində 10 ədəd skeletə təsadüf olundu. Qəbirlər torpaqda qazıldığı üçün tamamilə yuyulmuş, skeletlər qumun üzərində qalmışdı. Onlar müsəlman adəti ilə qərb-şərq istiqamətində, sağ böyrü üstə uzadılmış, ayaqlarının baş barmaqları bir-birinə bağlanmışdı. Şübhəsiz ki, bura yaşayış yerinin nekropolu olmuşdur.

Yaşayış yerindən aşkar edilmiş keramikanı XVII-XVIII əsrlərə aid etmək olar. Yaşayış yerinin yaxınlığında (təqribən 500 m aralıda) antik nekropol, ondan 2 km şərqdə isə müasir Böyükdüz qışlağı yerləşir. Düzənliyin bu sahəsi maldarlıq üçün əlverişli olduğundan Böyükdüz kəndinin yerli sakinləri yayda mal-qaranı və xırdabuynuzlu heyvanları əsasən burada saxlayırlar. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Böyükdüz düzənliyinin cənub-şərq hissəsi yaşayış üçün əlverişli olduğundan əhali burada qədim dövrdən məskən salmışdır. Orta əsr Böyükdüz yaşayış yerində həyat XI əsrdən başlanmışdır. Bu yaşayış yeri Orta əsr mənbələrində xatırlanan Böyükdüz (Bək-düz) tayfasının yadigarıdır. Bu tayfa haqqında Orta əsr müəlliflərindən M.Qaşqarinin, Rəşidəddinin, Əbülqazi Bahadır xanın əsərlərində və «Kitabi-Dədə Qorqud»da məlumat verilmişdir. Bu tayfanın adı ilə bağlı bir sıra ərəb və fars mənbələrində də məlumat verilmişdir. Yuxarıda qeyd edilən mənbələrdə bu tayfanın adı «Buqdur», «Bəkdəz», «Bukdüz», «Bəkdüz», «Böyükdüz» şəklində xatırlanmışdır. Böyükdüz tayfaları Orta əsrdə xatırlanan iyirmi dörd oğuz tayfasından biridir. Bu tayfanın özünəməxsus damğası və quşu olmuşdur. Damğa, içərisində diaqonal boyunca xətt çəkilən düzbucaqlı təsvirlərdən ibarətdir. Böyükdüz tayfasının quşu şahindir. Əbülqazi Bahadır xanın məlumatına görə «Büqdüz» xidmət etmək mənasındadır.

Əbülqazi Bahadır xanın «Türkmənlərin şəcərəsi» əsərində Büqdüz Oğuz xanın altıncı oğlu kimi xatırlanmışdır .

«Kitabi-Dədə Qorqud»da Bəkdüz Əmən Bayandır xanın və Qazan xanın yaxın silahdaşı kimi xatırlanır. Mənbələrdə yad edilən rəvayətlərə görə Bəkdüz Əmən Məhəmməd Peyğəmbərlə görüşmüş, oğuzlar içərisində ilk dəfə islamı qəbul etmiş və onu yaymışdır. Şübhəsiz ki, Böyükdüz düzənliyi və burada salınmış Böyükdüz adlı yaşayış məntəqələri bu tayfaların adı ilə bağlıdır. Deyilənlərə əsaslanaraq, Böyükdüz Orta əsr yaşayış yerini XI-XVIII əsrlərə aid edirik. Bu yaşayış yerində həyat mövsümi xarakter daşımışdır.

**3. Böyükdüz nekropolu** Antik dövrə aiddir. Bu nekropol Böyükdüz (Köhnə) kəndindən cənub-şərqdə, üçtəpələrin başlanğıcında «Yarma» adlanan ərazidə yerləşir. Nekropolun sahəsi 320 kvadrat metrdir. Qəbirlər əsasən daş qutu tiplidir. Onların hamısı daşqın zamanı yuyulub üzə çıxmışdır. Qəbirlərin sayı 50-dən artıqdır. Onlar yanlardan iki, baş və ayaqda bir iri sal daşla qurulmuş, üzəri daş piltələrlə örtülmüşdür. Qəbirlərin istiqaməti müxtəlifdir. Bəzi qəbirlərin örtük daşları yoxdur. Tədqiqat göstərir ki, qəbirlərin qurulması üçün istifadə edilən daş piltələr nekropolun yaxınlığındakı (təqribən 100 m aralıda) olan daş yatağından çıxarılmışdır. Qəbirlərin birində bizim tərəfimizdən aparılan qazıntı zamanı insan skeletinə aid qalıqlar aşkar edildi. Qəbirdə pis vəziyyətdə saxlanmış iki kəllə, alt çənə sümükləri var idi. Qol və ayaq sümükləri bir-birinə qarışmışdı. Qazıntı yerindən zərif şüşə qabın qırıqları tapılmışdır. Lakin onun formasını tutmaq mümkün olmamışdır.

Bu nekropolda 1972-ci ildə dağıdılmış bir neçə qəbrin materialları sərhəd-gözətçi məntəqəsinin zabitləri tərəfindən toplanaraq Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Həmin materiallar İ.Q.Əliyev və V.H.Əliyev tərəfindən nəşr edilmişdir. Aşkar edilmiş materiallar şüşə flakonlardan, boz və çəhrayı rəngdə bişirilmiş gil qablardan, bəzək əşyalarından, dəmir qılınc, xəncər, bıçaq, ox ucluğu və at əsləhəsinin qırıqlarından ibarətdir. Aşkar edilmiş maddi-mədəniyyət nümunələri yerli tayfaların, o cümlədən Azərbaycanın Son Antik dövrü abidələri arasında özünə geniş analogiya tapır. Bu, xüsusilə şüşə flakonlara, üç pərli ox ucluqlarına, xəncərlərə və gil məmulatına aiddir.

Böyükdüzün Antik nekropolları üçün kollektiv-qarışıq dəfnlər xarakterikdir. Belə dəfnlər Naxçıvanda e.ə. I minillik boyu mövcud olmuşdur. Onlar Kolanı, Sarıdərə, Muncuqlutəpə, Qızılburun və b. nekropollarda aparılan tədqiqat zamanı aşkar olunmuşdur. Fikrimizcə, Böyükdüz nekropolu yerli tayfalara məxsus olmuşdur. Nekropolu b.e. I-III əsrlərinə aid etmək olar.

**4. II Böyükdüz nekropolu** da Antik dövrün abidəsidir. Bu nekropol orta əsr Böyükdüz yaşayış yerinin yaxınlığında «Vəllum» adlı yerdə, keçmiş sərhəd gözətçi məntəqəsinin yerləşdiyi təpədə aşkar edilmişdir (salamat qalan hissəsinin sahəsi 160 kvadratmetrdir). Nekropol 1991-ci ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınıb. Qəbirlər əsasən şərq-qərb və şimal-cənub istiqamətində olub, yanlarında iki, baş və ayaqda isə bir iri sal daşla qurulmuşdu. Nekropol

Arazın lap yaxınlığında yerləşdiyindən (təqribən 5-6 m aralı) qəbirlərin çoxu daşqın zamanı yuyulub dağılmış, yalnız az bir qismi salamat qalmışdır. Qəbirlərin ikisi tədqiq edilmişdir. Birinci qəbir nekropolun şimalında yerləşmiş və şimal-cənub istiqamətində olmuşdur. Örtük daşı yox idi. Aşınma nəticəsində qəbir kamerasının daşları yarıyadək çölə çıxmışdı. Qəbirdə aparılan təmizləmə işləri zamanı pis vəziyyətdə olan skelet qalıqları, o cümlədən üç kəllə aşkar edildi. Birinci kəllə şimal, ikinci və üçüncü kəllə isə cənub tərəfdə idi. Qol və ayaq sümükləri bir-birinə qarışmış, skeletlər tamamilə çürümüşdü. Tədqiqat zamanı skeletlərin ətrafından dəmir əşyaların qırıqları və bir ədəd çəhrayı rəngli çölmək aşkar edildi. Qəbrin uzunluğu 1,2 m, eni 0,6 m idi. Maddi-mədəniyyət qalıqlarına əsasən, II Böyükdüz nekropolunu b.e. II-III əsrlərinə aid etmək olar. Şübhəsiz ki, vaxtilə bu nekropolun yaxınlığında yaşayış yeri də olmuşdur. Lakin həmin yaşayış yeri sərhəd gözətçi məntəqəsi tikilərkən dağıdılmışdır.

**5. II Böyükdüz yaşayış yeri** də Antik dövrün abidəsi olub köhnə Böyükdüz kəndindən qərbdə, Böyükdüz çaylağının sağ tərəfində yerləşir. Yaşayış yerinin əksər hissəsi yuyularaq dağılmışdır. Aparılan kəşfiyyat işləri zamanı dairəvi formada olan nazik bad qırıqları, kül yığınlarına təsadüf edildi. Yaşayış yeri demək olar ki, tamamilə yuyulduğundan onun sahəsini dəqiqləşdirmək mümkün olmamışdır. Yerüstü materiallar içərisində çəhrayı və boz rəngli gil qab qırıqlarına, şüşə qabların gövdəsinin parçalarına təsadüf edilirdi. Bəzi yerlərdə dairəvi və dördkünc formalı daş düzümləri qalmışdır. Keramika məlumatına əsasən, yaşayış yerini təqribən I-III əsrlərə aid etmək olar. Tədqiqatlara əsasən demək olar ki, yaşayış yerində həyat mövsümi xarakter daşımışdır.

**6. Köhnə Böyükdüz yaşayış yeri** müasir dövrə aiddir. Yaşayış yeri vaxtilə Böyükdüz çaylağının hər iki tərəfində olmuş, sonradan əhali əsasən sol sahil hissədə yaşamışdır. Yaşayış yeri 1925-ci ildə Böyükdüz düzənliyinin xam torpaqlarından istifadə məqsədilə salınmışdır.

1969-1970-ci illərdə Araz su elektrik stansiyasının tikintisi ilə əlaqədar yaşayış yeri tərk edilmişdir. Kəndin xarabalıqları hazırda durur və daşqın zamanı suyun altında qalır. Kəndin lap yaxınlığında antik dövrə aid nekropol yerləşir (bax: I Böyükdüz nekropolu). Şübhəsiz ki, düzənliyin bu hissəsi yarımköçəri maldarlıq üçün əlverişli olduğundan qədim dövrdən əhalinin diqqətini cəlb etmişdir. Təəssüf ki, köçəri maldarların yaşayış yerlərinin qalıqları burada saxlanmamışdır.

Köhnə Böyükdüz kəndinin qəbirstanlığı çaylağın sağ tərəfində olmuş və kənd köçərkən onların bir hissəsi yeni Böyükdüzə aparılmışdır.

**7. Şahtaxtı yaşayış yeri.** Abidə Şahtaxtı kəndindən şimal-qərbdə, Asnı çayının sol sahilində hündür təbii təpənin üzərində yerləşir. Sahəsi 2 hektardan artıqdır. Abidənin üzərində və ətrafında uçub tökülmüş tikinti qalıqları izlənilir. Onlar aşınma nəticəsində tamamilə dağıldığından daş və torpaq yığıntılarından ibarət uzunsov təpəcikləri xatırladır. Bəzi yerlərdə aşınma nəticəsində iri

daşlardan ibarət hörgülər aşkar olunmuşdur. Araşdırmalara əsasən demək olar ki, yaşayış yeri bir neçə cərgə divarla əhatə olunmuşdur.

Yerüstü materiallar tikinti qalıqları, dən daşları, çəhrayı və boz rəngdə bişirilmiş gil qab sınıqlarından ibarətdir. Yerüstü materiallar içərisində boz rəngli gil qab sınıqları üstünlük təşkil edir. Belə gil məmulatı e.ə. II minilliyin sonu və I minilliyin əvvəlləri üçün xarakterikdir.

Yaşayış yerində 1936-cı ildə Ə.K.Ələkbərov tərəfindən kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. 1979-cu ildə Naxçıvan arxeoloji ekspedisiyasının Şahtaxtı dəstəsi Q.H.Ağayevin rəhbərliyi ilə yaşayış yerində sistemli tədqiqat işlərinə başlamış və müəyyən fasilələrlə 1990-cı ilədək iş davam etmişdir. Tədqiqat zamanı müəyyən edilmişdir ki, mədəni təbəqə tikinti qalıqları, əmək alətləri, gil qab sınıqları və çürüntü qarışığından ibarət olub yerin relyefinə uyğun olaraq 3-4,5 m qalınlığındadır. Qazıntı zamanı aşkar olunmuş qala divarının qalıqları xüsusilə maraq doğurur. Divarın eni 2,2-2,6 m, hündürlüyü 1,2-2,45 m-dir. Tədqiqatçıların fikrincə, bu divar müdafiə məqsədilə Orta Tunc dövründə inşa olunmuşdur. E.ə. II minilliyin sonunda divar dağıdılmış və yenidən bərpa edilmişdir. Belə hesab etmək olar ki, bu divar bir neçə tikinti dövründə mövcud olmuş e.ə. II-I minilliklər boyu öz əhəmiyyətini itirməmişdir.

Yaşayış yerinin şərq tərəfindən indi də yerli əhalinin istifadə etdiyi torpaq yol keçir. Görünür bu yol vaxtilə qalanın içərisindən keçmişdir. Qaladan uzaqlaşdıqca yol boyu iri daşlardan hörülmüş divar qalıqlarına təsadüf olunur. Şahtaxtını yaxın yaşayış məskənləri ilə birləşdirən bu qısa yoldan vaxtilə ticarət və hərbi məqsədlərlə istifadə edilmişdir.

Yaşayış yerində aparılan tədqiqatlar zamanı gil qablar, daş alətlər və osteoloji qalıqlar aşkar olunmuşdur. Tapıntıların əksəriyyəti gil məmulatından ibarət olub çəhrayı, boz və qara rəngdə bişirilmişdir. Gil məmulatının müəyyən hissəsi boyalı qablardan ibarətdir. Onların bəzisi xaricdən qırmızı anqobla örtülmüş, başqaları qırmızı anqob üzərindən qara rənglə çəkilmiş həndəsi xətlərlə naxışlanmışdır. Gil məmulatının əksəriyyəti boz və qara rəngdə bişirilmiş qabların sınıqlarından ibarətdir. Onların üzəri cızma xətlərlə naxışlanmış, bəzisi isə parıldayanadək cilalanmışdır. Onlar içərisində qalın divarlı təsərrüfat qabları da vardır.

Şahtaxtı yaşayış yerindən aşkar olunmuş gil məmulatı Naxçıvan abidələrinin materialları içərisində özünə geniş analogiya tapır. Buradan aşkar olunmuş boyalı və boz rəngli keramika məmulatı I Kültəpədən, II Kültəpədən, Çalxanqaladan, Qazançıqaladan, Nəhəcirdən və başqa abidələrdən məlumdur.

Yaşayış yerindən aşkar olunmuş tikinti qalıqları, gil məmulatı və başqa arxeoloji materialların təhlili abidəni e.ə. III-I minilliklərə aid etməyə imkan verir.

**8. I Şahtaxtı nekropolu** yaşayış yerindən şimal-şərqdə yerləşərək 5 hektardan artıq sahəni əhatə edir. O, şimalda alçaq təpəliklər, şərqdə əkin sahələri, qərbdə Asnı çayının qurumuş vadisi, cənubda Şahtaxtının şimal qurtaracağından başlayaraq şərq-qərb istiqamətində Qıvraq kəndinə tərəf uzanır. Bu nekropoldakı

qəbirlərin əksəriyyəti daş qutulardan ibarət olub üzəri torpaq qarışıq daş kurqanla örtülmüşdür. Kurqanların bəzisi olduqca alçaq olub çətinliklə seçilir. Bəzi qəbirlərin torpaq örtüyü yuyulmuş və daş qutular üzə çıxmışdır. Bu onların dağılmasına səbəb olmuşdur. Daş qutuların istiqaməti müxtəlifdir. Onlar əsasən şimal-cənub və şərq-qərb istiqamətinə yönəlmişdir. Nekropolda bir neçə yerdə daş qutu qəbirlərin qrup halında iri daşlarla əhatələnməsinə təsadüf olunur. Ehtimal ki, ətrafı «hasarlanmış» bu yerlər müəyyən qəbiləyə, yaxud tayfaya məxsus olmuşdur. Şahtaxtı qəbirlərinin özünəməxsus xüsusiyyəti insan skeletinə təsadüf olunmamasıdır. Nekropolda Ə.K.Ələkbərov, Q.M.Aslanov, Q.H.Ağayev, V.B.Baxşəliyev tərəfindən tədqiqat işləri aparılmışdır. 1936-cı ildə Ə.K.Ələkbərov tərəfindən tədqiq olunan ətrafı kromlexlə əhatə olunmuş daş qutu qəbirdən bütöv at skeleti, bir ədəd boyalı, 30 ədəd sadə qab, at yüyəni üçün qızıl toqqa aşkar edilmişdir. Bu qəbirdən aşkar edilmiş, yüksək sənətkarlıqla hazırlanmış, dini-mifoloji məzmunlu rəsmlərlə naxışlanmış boyalı küpə hazırda Azərbaycan Tarix Muzeyində saxlanılır.




Şəkil 76. I Şahtaxtı nekropolu

Şahtaxtı qəbirlərindən aşkar edilmiş qiymətli materiallar O.H.Həbibullayev tərəfindən nəşr edilmişdir. Ələkbərovun tədqiq etdiyi Şahtaxtı qəbirləri müxtəlif ölçülü daş qutu qəbirlərdən ibarət olub, bəzilərinin uzunluğu 5 metrə, eni 3 metrə çatır. Aşkar olunmuş saxsı məmulatının əsas hissəsi müxtəlif formalı həndəsi

xətlərlə bəzədilmişdir. Həndəsi naxışlar bir-birini əvəz edən düz xətlərdən ibarətdir. Bucaq, üçbucaq formalı naxışlar əksər vaxtlarda paralel xətlər arasına çəkilmişdir. Şahtaxtı nekropolundan aşkar edilmiş qablar içərisində biri xüsusilə diqqəti cəlb edir. Polixrom boyalı qab şarşəkilli gövdəli, qısa boğazlı, yastı oturacaqlıdır. Qabın səthi qırmızı rənglə örtülmüşdür. Onun gövdəsinin mərkəzi hissəsi sarı rənglə örtülmüşdür. Rəsmlər qırmızı fon üzərindən yerinə yetirildiyindən naxışlamada tünd rənglərə üstünlük verilmişdir. Onun üzərində insanların əski dünyagörüşünü əks etdirən mifoloji rəsmlər təsvir edilmişdir.

Q.M.Aslanov və Q.H.Ağayevin açdığı daş qutu qəbirlərdən əsasən boz rəngli gil məmulatı və tunc əşyalar aşkar edilmişdir. Gil məmulatı çaynik, kasa, vaza, badya tipli qablardan ibarətdir. Q.H.Ağayevin 1980-ci ildə açdığı, ətrafı kromlexlə əhatə olunmuş daş qutu qəbirlərin birindən monoxrom naxışlı boyalı qablar tapılmışdır .



Şəkil 77. I Şahtaxtı nekropolu. Polixrom boyalı küpə

1985-ci ildə irriqasiya işləri ilə əlaqədar olaraq nekropolun ərazisi tamamilə dağıdılmışdır. İrriqasiya işləri aparılarkən daş qutu tipli bir çox qəbir dağıdılmış, gil qablar və tunc bəzək əşyaları aşkar olunmuşdur. Toplanmış materialların əksəriyyəti boyalı, az bir qismi isə sadə qablardan ibarətdir. Bu materiallar hazırda Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. V.B.Baxşəliyevin apardığı axtarışlar zamanı dağıntı yerindən əlavə materiallar əldə edilmişdir. I Şahtaxtı nekropolundan aşkar olunmuş bu tapıntıları Naxçıvan arxeoloji abidələrinin stratiqrafiyasına əsasən dörd dövrə bölmək olar. Birinci mərhələni e.ə 2300-1900-cü illərə, ikincini e.ə.1900-1700-cü illərə, üçüncünü e.ə. 1600-1300-cü illərə, dördüncünü e.ə. 1200-1000-ci illərə aid etmək olar.

**9. II Şahtaxtı nekropolu** yaşayış yerindən cənub-qərbdə Şahtaxtı kəndinin yerləşdiyi təpənin Asnı çayının vadisinə enən yerində yerləşir. Onun

sahəsi üç hektardan artıqdır. Nekropol qərb tərəfdə Asnı çayının quru yatağı və asfalt yolla, şimalda əkin sahələri, şərqdə və cənubda təpələrlə məhdudlaşır.




Şəkil 78. II Şahtaxtı nekropolunun boz rəngli keramika məmulatı

Hazırda nekropolun ərazisi yeni tikintilərlə örtülmüşdür. Qəbirlər daş qutulardan ibarət olub müxtəlif istiqamətlərə yönəlmişdir. Tədqiqat zamanı qəbirlərin müəyyən sıra ilə yerləşməsi halına təsadüf olunmuşdur. Nekropolun cənub-şərqində 1971-ci ildə tikinti işləri görülərkən bir neçə daş qutu qəbir dağıdılmış, çəhrayı və boz rəngdə bişirilmiş gil qablar, bəzək əşyaları , silindrik möhürlər tapılmışdır. Tapıntıların bir qrupu boyalı qablardan ibarətdir. Bu materiallar V.H.Əliyev tərəfindən nəşr edilmişdir. II Şahtaxtı nekropolundan aşkar olunmuş boyalı qablar yüksək sənətkarlıq nümunəsidir. Onlar küpə və

çaynik tipli qablardan ibarətdir. Qabların gövdəsinin mərkəzi hissəsi sarı anqobla örtülərək qırmızı və qəhvəyi rənglə həndəsi motivdə naxışlanmışdır. Arxeoloji materiallar arasında ağ pastadan hazırlanmış möhür xüsusilə diqqəti cəlb edir. Onun üzərində həyat ağacı, ağacın bir tərəfində uzun əbalı, saçları çiyninə tökülmüş, başına şiş günlük qoymuş kahin, o biri tərəfində isə döş-döşə dayanmış və başlarını arxaya çevirmiş iki keçi təsvir olunmuşdur. Bu cür möhürlər Yaxın Şərq ölkələrində geniş yayılmışdır.

1979-80-ci illərdə bu nekropolda dağıdılmış qəbirlərdən dördünün materialları V.B.Baxşəliyev tərəfindən kompleks şəkildə toplanmışdır. Onlar gil qablar, silah və daş alətlərdən ibarətdir.

Bu nekropoldan əldə edilmiş gil məmulatının böyük bir qismi boz rəngdə bişirilmiş qablardan ibarətdir. Onlar küpə kasa, çaynik, vaza, badya tipli qablardan ibarət olub əsasən yaxşı, bəzən isə qeyri-bərabər bişirilmişdir. Bəzi qabların xarici səthində bozumtul qonur ləkələr saxlanmışdır. Qablar əsasən cızma, bəzən isə yapma ornamentlə naxışlanmışdır. Tapıntılar içərisində çəkmə şəkilli qablar, tunc silahlar da olmuşdur. Təsadüfi aşkar olunmuş küpə tipli qablardan birinin üzərində kobud suvağa təsadüf olunmuşdur. Belə qablar Azərbaycanda II Kültəpədən, Qobustan və Abşerondan məlumdur.

II Şahtaxtı nekropolundan aşkar olunmuş arxeoloji materiallar Azərbaycan boyalı qablar mədəniyyətinin üçüncü və dördüncü dövrləri üçün xarakterikdir. Bu nekropolu bütövlükdə e.ə. 1600-1000-ci illərə aid etmək olar.

**10. Şah bağı yaşayış yeri.** Şahtaxtı kəndindən şərqdə Qıvraq yaylasının Araz çayına doğru uzanan yamacında yerləşir. Yaşayış yerinin ərazisi girintili çıxıntılı olub düzənlik və təpəliklərdən ibarətdir. Sahəsi 8 hektardır. Onun şərq tərəfində indi də yerli əhali tərəfindən istifadə olunan təbii bulaqlar və göl vardır. Gölün yaxınlığında yerli əhali tərəfindən sitayiş edilən «İydəli pir» adlı ziyarətgah vardır. Yaşayış yerinin əsas hissəsi hazırda əkin sahəsinə çevrilmişdir. Abidənin şərq tərəfində pirin yaxınlığında kromlexlər eni 1-1,5 m olan tikinti qalıqları saxlanmışdır. Yaşayış yerində mədəni təbəqə az saxlanmışdır. Yerüstü materiallar içərisində xeyli şirli və şirsiz saxsı parçalarına təsadüf olunur. Yaşayış yerinin qərb qurtaracağında vaxtilə dördkünc formalı daş hovuz qeydə alınmışdır. O, ağ rəngli əhəngdaşından hazırlanmışdı.

Yerli əhalinin verdiyi məlumata görə, burada vaxtilə meyvə və bəzək ağaclarından ibarət böyük bir bağ olmuşdur. Şübhəsiz ki, Şahtaxtının təbii cəhətdən əlverişli və gözəl olan bu guşəsi orta əsr feodallarının diqqətini cəlb etmiş, onların istirahət yeri olmuşdur. Yaşayış yerinin adı da bununla əlaqədardır.

Aparılmış tədqiqatlar göstərir ki, Şah bağında həyat mövsümi xarakterdə olmuşdur. Buradan aşkar edilmiş gil məmulatı Naxçıvanın Son Orta əsr keramikası üçün xarakterik olub XVI-XVIII əsrlərə aiddir.

**11. Cinli dərə yaşayış yerinə** xalq arasında bəzən sadəcə Cin dərəsi deyirlər. O, Şahtaxtı kəndindən cənub-şərqdə Şah bağından xeyli aralıda yerləşir. Yaşayış yeri hər tərəfdən təpələrlə əhatə olunmuş düzənlik sahədə və təpələrin

yamacında yerləşir. Sahəsi 2500 kv.m-dir. Yaşayış yerində bir neçə təbii bulaq və onların qarşısında düzəldilmiş kiçik göllər vardır. Yerli əhali bu göllərdən son zamanlaradək əkinçilik məqsədilə istifadə etmişdir. Burada yeraltı sular üzə çıxdığından yaşayış yeri başdan-başa çəmənliklə örtülmüşdür.

Yaşayış yerinin düzənlik hissəsində dairəvi və düzbucaqlı planda olan iri daşlardan ibarət bircərgəli hörgü qalıqları saxlanmışdır. Dairəvi binaların diametri 5-10 m arasındadır. Onlardan biri ortadan iri daşlar düzülməklə iki hissəyə ayrılmışdır. Tikintilər öz arxitekturasına görə Eneolit və Kür-Araz mədəniyyətinin yaşayış binalarını xatırladır. Bu müəyyən tikinti ənənələrinin min illər boyu davam etdiyini göstərir.

Yaşayış yerində mədəni təbəqə az saxlanmışdır. Yerüstü materiallar olduqca azdır. Onlar əsasən çəhrayı və sarı rəngdə bişirilmiş gil qab sınıqlarından ibarətdir. Bəzi qablarda ağzının kənarlarını onun çiyninə birləşdirən lentşəkilli qulplar var.

Qabların az bir qismi şirli saxsı məmulatından ibarətdir. Onlar əsasən kasa tipli qablara aiddir. Qablar diskşəkilli olub içəriyə doğru batıqdır. İçəri tərəfi yaşıl rəngli yarımşəffaf şirlə örtülmüşdür. Bəzi qabların üzəri ağ anqob üzərindən göy rənglə naxışlanaraq şəffaf şirlə örtülmüşdür.

Aparılmış tədqiqatlar göstərir ki, yaşayış yeri köçəri, yaxud yarımköçəri maldar tayfalarının dayanacaq yeri olmuşdur. Belə hesab edirik ki, yaşayış yerinin adı çinli tayfaları ilə bağlıdır.

Abidədən aşkar olunmuş gil məmulatı Naxçıvanın Son Orta əsr keramikası üçün xarakterik olub XVI-XVIII əsrlərə aiddir.

**12. Şahtaxtı Orta əsr yaşayış yeri.** 20 hektardan artıq sahəni əhatə edir. Burada daşdan inşa edilmiş bina, ev qalıqları qalmaqdadır. 1983-1985-ci illərdə yaşayış yerində aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, mədəni təbəqə əsasən dağıdılmış, onun az bir hissəsi qalmışdır. Tikinti qatının qalınlığı 0,7 metrdir.

Şahtaxtı Orta əsr yaşayış yeri planda çoxbucaqlı olub, təbii-coğrafi cəhətdən əlverişli bir mövqedə yerləşir. Şahtaxtının Araz çayı vadisində yerləşməsi burada əkinçilik mədəniyyətinin inkişafına müsbət təsir göstərmişdir. Bununla yanaşı olaraq Şahtaxtı Orta əsr yaşayış yerində təsərrüfatın digər sahələri ilə də məşğul olmuşlar. Yaşayış yerinin qərb hissəsində çökək bir sahədə 5 x 5 metr ölçüdə qazıntı işləri aparılmışdır. Qazıntı sahəsində dairəvi planlı dulus kürəsi qalığı aşkar edilmişdir. Kürənin aşağı hissəsi daşdan, nisbətən yuxarı hissəsi bişmiş kərpicdən inşa edilmişdir. Divarın salamat qalmış yuxarı hissəsi əsasında onun tağvari formalı olduğu müəyyən olunmuşdur.

Qazıntı sahəsindən şirsiz və şirli saxsı məmulatları aşkar edilmişdir. Şirsiz qablar qazan, küp, küpə, çölmək, çıraq tipli saxsı qabların kiçik hissələrindən ibarətdir. Bu tip qablar XI-XIII əsrlərdə Naxçıvanda geniş yayılmışdır.

Şahtaxtından aşkar edilmiş şirli saxsı məmulatı kasa, boşqab tipli qabların müxtəlif hissələrindən ibarətdir. Kasa tipli qablar daxildən ağ anqobla örtülmüş və

üzərindən marqans oksidi ilə işlədilmiş enli şüavari xətlərlə bəzədilmişdir. Qabın oturacağı mərkəzinə çəkilmiş enli dairəvi xətt ətrafına düzülmüş şüa təsvirləri yarpaqvari formalıdır. Qab fırça ilə naxışlandıqdan sonra şəffaf şirlə örtülmüşdür.




Şəkil 79. Şahtaxtı Orta əsr yaşayış yerinin keramikası (Ə.İ.Novruzlu)

Şahtaxtı Orta əsr yaşayış yerindən aşkar edilmiş şirli saxsı məmulatının ikinci qrupu marqansla çəkilmiş kvadrat, düzbucaqlı formalı həndəsi fiqurlarla naxışlanmışdır. Həndəsi fiqurlar bir qayda olaraq daxildən qabın oturacağının mərkəzinə çəkilmiş dairəvi xətlə əhatələnmişdir.

Şirli saxsı məmulatının əsas hissəsini monoxrom şirlə örtülmüş kasa, boşqab tipli qablar təşkil edir. Bu tip qabların digər qismi yaşıl, göy rənglərlə bəzədilmişdir. Kasa və boşqab tipli qabların divarları daxildən və xaricdən həndəsi xətlərlə əvvəlcə bir neçə bölməyə ayrılmış, bölmələrin bəziləri boş saxlanılmış, əsas hissəsi isə budaq, həndəsi, spiralvari, zolaqlı təsvirlər və xətlərlə

naxışlanmışdır. Belə qablar bəzədildikdən sonra şəffaf şirlə örtülmüşdür. Monoxrom rənglə bəzədilmiş şirli qablar içərisində kobaltla işlənilmiş naxışlar nisbətən az, yaşıl rənglə işlənilmiş nümunələrə də rast gəlinir.

Aparılmış arxeoloji tədqiqatlar nəticəsində aşkar edilmiş materiallar Şahtaxtı Orta əsr yaşayış yerini VII-XIII əsrlərə aid etməyə imkan verir. Materialların təhlili göstərir ki, Şahtaxtının əhalisi əkinçilik və maldarlıqla yanaşı olaraq sənətkarlıq və ticarətlə də məşğul olmuşdur.

**13. Yurdçu yaşayış yeri.** Yurdçu kəndinin cənub qərbində uzunsov təpə üzərində yerləşir. Yaşayış yeri 1983-cü ildə qeydə alınmışdır. Sahəsi 2 hektardır. Yaşayış yerində mədəni təbəqə olduqca az saxlanmışdır. Yerüstü tapıntılar əsasən gil qab sınıqlarından və daş alətlərdən ibarət olub iki dövrə bölünür.

Birinci dövrə İlk Dəmir dövrünə aid gil məmulatı və əmək alətləri aiddir. Keramika küpə və kasa tipli qabların ağzının və gövdəsinin müxtəlif hissələrindən ibarətdir. Onlar çəhrayı və boz rəngdə bişirilmişdir.

Çəhrayı rəngli gil məmulatı narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Bəzi qab sınıqlarının üzəri qırmızı anqobla örtülərək cilalanmışdır. Boz rəngli gil məmulatı narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş, küpə tipli qabların sınıqları ilə təmsil olunmuşdur. Onlardan birinin üzərində qabarıq quş təsviri var. Bəzi qabların gövdəsinin yuxarı hissəsi çərtmələrlə naxışlanmışdır.

Aşkar olunmuş materialların analizi yaşayış yerini e.ə. X-VIII əsrlərə aid etməyə imkan verir.

**14. Yurdçu Orta əsr yaşayış yeri.** Eyniadlı kəndin cənub-qərb hissəsində qədim dövr yaşayış yerinin yaxınlığında yerləşir. Yurdçu yaşayış yerində 10 x 10 metr ölçüdə arxeoloji qazıntı işləri aparılmışdır. Qazıntı zamanı 1,7 metr dərinlikdə düzbucaqlı formalı dulus və dəmirçi emalatxanasının qalıqları və zəngin maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Dulus emalatxanasından aşkar edilmiş saxsı qabların bir qismi yarımfabrikatlardır.

Düzbucaqlı formalı emalatxananın qərb tərəfində dairəvi formalı dəmirçi kürəsinin qalığı aşkar edilmişdir. Onun divarları bişmiş kərpicdən inşa edilmişdir. Bişmiş kərpiclər 21x21x5 sm ölçüdədir. Kürənin aşağısında kömür qalığının içərisində metal çıxarlar, şərq divarında isə körükdən vurulan havanı kürəyə ötürən körük ucluğu aşkar olunmuşdur.

Yurdçu Orta əsr yaşayış yerindən şirli və şirsiz saxsı məmulatı, tikinti keramikası, metal əşyalar, şüşə qab nümunələri aşkar edilmişdir.

Tapıntıların əsas hissəsini dəmirçilik sənəti nümunələri təşkil edirdi. Metal əşyalar şiş, ərsin, mıx, bel, kərki, gavahın, kotan qalığı, oraq, məftil, sancaq, bıçaq, dəhrə, rəzə, ox və nizə uclarının kiçik ölçülü hissələrindən ibarətdir.

Yurdçu Orta əsr yaşayış yerindən aşkar edilmiş sənət nümunələri içərisində saxsı məmulatı çoxluq təşkil edir. Onların içərisində başlıca yeri şirsiz saxsı məmulatı tutur. Onlar kasa, küpə qazan, çıraq, şar-konusvari qablardan ibarətdir. IX-XIII əsrlər üçün səciyyəvi olan şirsiz səhənglər dar, silindrik boğazlı, yastı

oturacaqlı, armudvari formalıdır. Dulus çarxında səliqəli hazırlanmış bu tip qabların gövdəsinin yuxarı hissəsi cızma həndəsi xətlərlə bəzədilmiş, yüksək keyfiyyətlə bişirilmişdir.



Şəkil 80. Yurdçu Orta əsr yaşayış yerinin keramikası (Ə.İ.Novruzlu)

Şirli saxsı məmulatı ağ anqob fonu üzərindən naxışlanmışdır. Naxışlamada göy, mavi, qəhvəyi, yaşıl rənglərdən istifadə edilmişdir. Qablar naxışlandıqdan sonra əksəriyyətinin səthi şəffaf rəngli şirlə örtülmüşdür. Bəzilərinin üzərinə rəngli yarımşəffaf şir çəkilmişdir. Belə qablardan naxışların fonu açıq göyümtül, yaşıl rənglərdə görünür.

Arxeoloji tədqiqatlar göstərir ki, Yurdçu Orta əsr yaşayış yerində əhalinin əsas hissəsi əkinçiliklə məşğul olmuşdur. Kənddə əkin və biçində istifadə edilmiş əmək alətlərini hazırlamaq və təmir etmək üçün IX-XIII əsrlərdə dəmirçi emalatxanası fəaliyyət göstərmişdir.

Yaşayış yerinin şərq tərəfində uçub dağılmış Orta əsr sərdabəsinin qalıqları saxlanmışdır. Yaşayış yerinin üzəri isə Son Orta əsr müsəlman qəbirləri ilə örtülmüşdür. Şübhəsiz ki, yaşayış yeri öz əhəmiyyətini itirdiyindən sonra ondan qəbirstanlıq kimi istifadə olunmuşdur.

Yaşayış yerini buradan aşkar edilmiş maddi-mədəniyyət nümunələri əsasında IX-XIV əsrlərə aid etmək olar.




Şəkil 81. Yurdçu Orta əsr yaşayış yerinin dəmir məmulatı (Ə.İ.Novruzlu)

Yaşayış yerinin şərq tərəfində uçub dağılmış Orta əsr sərdabəsinin qalıqları saxlanmışdır. Yaşayış yerinin üzəri isə Son Orta əsr müsəlman qəbirləri ilə örtülmüşdür. Şübhəsiz ki, yaşayış yeri öz əhəmiyyətini itirdiyindən sonra ondan qəbirstanlıq kimi istifadə olunmuşdur.

**15. Babatəpə yaşayış yeri.** Erkən Dəmir dövrünün abidəsidir. 1983-cü ildə qeydə alınmış abidə Yurdçu kəndindən 1 km qərbdə, çox da hündür olmayan təpə

üzərində yerləşərək cənub-qərb və cənub-şərqdə dərə ilə məhdudlaşır, şimalda isə ensiz zolaq şəklində ümumi dağ silsiləsi ilə əlaqələnir. Sahəsi 0,5 hektardır. Mədəni təbəqə olduqca az saxlanmışdır. Bəzi yerlərdə kül və çürüntü qalıqlarından ibarət olan təbəqənin qalınlığı 50 sm-ə çatır. Aşınma nəticəsində mədəni təbəqənin üst layları tamamilə dağıdılmış, maddi-mədəniyyət qalıqları ətrafa səpələnmişdir. Yerüstü materiallar gil qab sınıqlarından, daş gürz, dən daşı və başqa əmək alətlərindən ibarətdir. Babatəpə yaşayış yerinin keramikası küpə və kasa tipli qablardan ibarət olub çəhrayı və boz rəngdə bişirilmişdir.




Şəkil 82. Babatəpə yaşayış yeri

Çəhrayı rəngli gil məmulatı narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir.

Boz rəngli gil məmulatı narın qum qarışığı olan gildən hazırlanmış, qeyri-bərabər bişirilmişdir. Qabların xarici səthində boz ləkələr saxlanmışdır. Boz rəngli gil məmulatının əksəriyyəti kasa tipli qabların sınıqlarından ibarətdir.

Daş alətlər içərisində bir ədəd daş toxa var. O, üçbucaq formalı olub yuxarıya doğru ensizləşir. Onların işlək tərəfi uzun müddət istifadə olunduğundan cilalanmışdır.

Babatəpə yaşayış yerini maddi mədəniyyət nümunələri Azərbaycanın Erkən Dəmir dövrü mədəniyyəti üçün xarakterikdir. Babatəpə yaşayış yerindən aşkar edilmiş maddi mədəniyyət qalıqlarının analizi onları e.ə. X-VIII əsrlərə aid etməyə imkan verir.




Şəkil 83. Yurdçu nekropolunun avadanlığı

**16. Yurdçu nekropolu** Tunc və Erkən Dəmir dövrünün abidəsidir. Sahəsi 3 hektardır. 1983-cü ildə nekropolda, su anbarı tikilərkən, bir neçə daş qutu tipli qəbir abidəsi dağıdılmış, zəngin maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Daş qutuların üzəri daş və torpaq qarışıq kurqanla örtülmüşdü. Kurqanların

diametri 4-8 m, hündürlüyü 0,2-0,5 m olmuşdur. Daş qutuların bəzisi qərb-şərq, bəzisi isə şimal-cənub istiqamətindədir. Onlar yan tərəfdə iki, baş və ayaqda bir iri sal daşla qurularaq üzəri daş plitələrlə örtülmüşdür. Bəzi qəbirlərin torpaq örtüyü aşınma nəticəsində dağıdıldığından örtük daşları üzə çıxmışdır.

Dağıdılmış qəbirlərin materialları küpə, kasa, çaynik tipli gil qablardan, tunc nizə ucu və bəzək əşyalarından ibarətdir.

Tapıntılar içərisində boyalı küpə yüksək sənətkarlıqla hazırlanması ilə diqqəti cəlb edir. Onun ağzının kənarı xaricə qatlanaraq dəyirmiləşdirilmişdir. Boğazı qısa və silindrik, gövdəsi qabarıqdır. Üzəri qırmızı boya ilə örtülmüş, gövdəsinin yuxarısı qırmızı boya üzərindən qara rənglə ştrixlənmiş üçbucaqlarla naxışlanmışdır.

Aşkar olunmuş materialların əksəriyyəti boz rəngli gil məmulatından ibarətdir. Saxsı məmulatı narın qum qarışığı olan gildən hazırlanaraq boz rəngdə yaxşı bişirilmişdir. Onların üzəri dalğalı, düz xətlərlə, bitişik ştrixlənmiş üçbucaqlarla naxışlanmışdır. Çaynik və kasa tipli qabların ağzının kənarında qulaqcıq şəkilli, bəzi küpələrin gövdəsinin yuxarı hissəsində göbələkvari çıxıntılar vardır.

Yurdçu nekropolundan tapılmış gil qablar Naxçıvan abidələrinin keramika məmulatı arasında özünə geniş analogiya tapır. Boz rəngli keramika əsasən Son Tunc və Erkən Dəmir dövrü üçün xarakterikdir.

Aşkar olunmuş arxeoloji materialların təhlilinə əsasən, Yurdçu nekropolunu e.ə. 2100-1000-ci illərə aid etmək olar.

**17. Yurdçu sərdabəsi** inkişaf etmiş Dəmir dövrünə aiddir. Sərdabə 1985-ci ildə tikinti işləri görülərkən təsadüfən aşkar olunmuşdur. O, Yurdçu kəndinin qərb qurtaracağında alçaq təpənin üzərində yerləşir. Sərdabə dördkünc formalı olub şimal-cənub istiqamətinə yönəlmişdir. Onun divarları yonulmamış iri daşlardan hörülmüşdür. Sərdabənin şərq və qərb divarlarının hərəsində iki kvadrat formalı taxça, şimal divarında isə bir taxça vardır. Sərdabənin qapısı cənub tərəfdə yerləşir. Onun hündürlüyü 1,1 m, eni 0,6 m-dir. Giriş yolu xaricdən bütöv daş piltə ilə qapanmışdır. Sərdabənin üzəri bir neçə ton ağırlığı olan iki daş piltə ilə örtülmüşdür. Qəbrin uzunluğu 3 m, eni 1,6 m, hündürlüyü 1,8 m-dir. Sərdabənin içərisində olan skelet qalıqları vaxtında qeydə alınmamış və dağıdılmışdır. Qəbir avadanlığı əsasən silahlar, bəzək əşyalarından və keramikadan ibarətdir.

Keramika məmulatı beş küpə və bir kasadan ibarətdir. Küpələrin biri çəhrayı, üçü boz rəngdə yaxşı bişirilmişdir. Beşinci küpə iki hissədən ibarət olub hər iki üzdən şirlənmişdir. Onun xarici səthi mavi, ağ və qəhvəyi rənglərlə üç zolağa bölünmüşdür. Mavi zolaqda iti ucu aşağıya və yuxarıya çevrilmiş üçbucaqlar çəkilmişdir. Üçbucaqlar gah ağ, gah da qəhvəyi rənglə doldurulmuşdur. Qabın xarici səthi naxışlandıqdan sonra rəngsiz şirlə örtülmüşdür. Belə qablar Azərbaycanda Xocalı kurqanlarından, Paşatəpədən və II Kültəpədən məlumdur.

Bəzək əşyaları tuncdan, gümüşdən hazırlanmış üzük, sırğa, bilərzik, sancaq, pilək və asmalardan, müxtəlif minerallardan hazırlanmış muncuqlardan ibarətdir. Onlar olduqca yüksək sənətkarlıqla düzəldilmişdir.

Sərdabədənin avadanlığı Yaxın Şərq Azərbaycanın Dəmir dövrü abidələri arasında özünə geniş oxşarlar tapır.



Şəkil 84. Yurdçu sərdabəsinin avadanlığı

Lakin sərdabədən aşkar olunmuş gil qablar, bəzək əşyaları Azərbaycanın Dəmir dövrü abidələri üçün xarakterikdir.

Bu sərdabə Naxçıvan MR ərazisində aşkar edilmiş yeganə abidədir. Oradan aşkar edilmiş gil məmulatı və bəzək əşyaları e.ə. VIII-VII əsrlər üçün xarakterikdir. Tədqiqatlara əsasən demək olar ki, sərdabə tayfa başçısına məxsus olmuşdur.



Şəkil 85. Yurdçu sərdabəsinin planı

**18. Yurdçu kurqanları.** Son Antik dövrün abidəsidir. Onlar Yurdçu kəndindən qərbdə, ətraf yerlərə nisbətən bir qədər hündürdə olan uzunsov təpənin üzərində yerləşir. Kurqanların əksəriyyəti 1985-ci ildə su anbarının tikintisi ilə əlaqədar dağıdılmış, onların yalnız yeraltı qəbir kameraları saxlanmışdır. Kurqanlar daş qarışıq torpaq təpəciklərdən ibarət olub yerdən 0,1-1,5 m hündürlükdədir. Kurqanların diametri 3-5 m-dir. Nekropolda 17 qəbir abidəsi öyrənilmişdir. Qəbirlər quyu formasında olub dairəvidir. Onlar bir-birinin yanında, torpağın altında olan bütöv daş layınadək qazılmışdır. Qəbirlərin hamısının üzəri qalın kül təbəqəsi ilə örtülmüşdür.

Yurdçu kurqanlarından aşkar edilən maddi-mədəniyyət nümunələri çəhrayı və boz rəngdə bişirilmiş qablardan və şüşə məmulatından ibarətdir. Gil məmulatı arasında küpə tipli qablar və çıraqlar xüsusi ilə diqqətəlayiqdir.




Şəkil 86. Yurdçu kurqanlarının avadanlığı

Aparılmış tədqiqatlar Yurdçu kurqanlarının dəfn adətini müəyyən etməyə imkan verir. Bu qəbirlər üçün yandırma adəti xarakterik olmuşdur. Bizim fikrimizcə mərhum qəbirdən kənarda yandırılmış, müəyyən ayinlərin icrasından sonra torpaq qarışıq kül qəbirə tökülmüşdür. Qəbirlərin içərisində gil qab sınıqlarının və bəzək əşyalarının aşkar olunması göstərir ki, dəfn prosesində

müəyyən ayinlər icra edilmişdir. Dəfn başa çatdıqdan sonra qəbirin üzərində od yandırılmış, çox güman ki, qurban da kəsilmişdir. Bundan sonra qəbirlər daş qarışıq torpaq kurqanla örtülmüşdür.

Yurdçu kurqanlarından aşkar olunmuş arxeoloji materiallar Son Antik və Erkən Orta əsr abidələri içərisində özlərinə oxşarlar tapır. Bu kurqanları bütövlükdə e.ə. I, b.e-nın I-III əsrlərinə aid etmək olar.

**19. Tunc kəmər** inkişaf etmiş Dəmir dövrünə aiddir. O, 1983-cü ildə təsadüfən Şahtaxtı və Təzəkənd kəndlərinin yerləşdiyi ərazidən tapılmışdır. Kəmər nazik tunc təbəqədən hazırlanmışdır. Onun üzərində mifik-hərbi səhnə təsvir edilmişdir. Təsvirlər basma üsulla vurularaq kəsmə və döymə vasitəsilə tamamlanmışdır. Kəmərin mərkəzi hissəsində verilmiş təsvirlər aşağıdan və yuxarıdan iki qabarıq zolaqla məhdudlaşdırılmış, kənarlarında kiçik deşik açılmışdır. Kəmərin sol yarım hissəsində dal ayaqları üzərində qalxmış iki qrifon təsvir edilmişdir. Onların ensiz və ortada bir qədər əyilmiş qanadları vardır. Qrifonlardan birinin ayağı şir pəncəsi, o birisi isə mal dırnağı şəklində verilmişdir. Onların quyruqları bellərinə tərəf qaldırılmış, bədənin tükləri paralel çəkilmiş ştrixlərlə verilmişdir.

Qrifonlardan arxada iki günəş təsvir edilmişdir. Onlar dairənin içərisinə alınmış bir nöqtədən çıxan şüalar şəklindədir. Günəş təsvirlərindən arxada şiş papaqlı, əllərində nizə, qalxan, kürəklərində ox qabı olan iki atlı təsvir edilmişdir. Atlar iti sürətli hərəkət vəziyyətində təsvir edilmişdir. Atların başı və sinəsi xüsusi əşyalarla bəzədilmişdir. Atların arasında isə kəsilmiş insan başını aparan vəhşi quş təsvir edilmişdir. Atlılardan arxada başı kəsilmiş insan bədəni təsvir edilmişdir. Tunc kəmərin üzərində olan təsvirlər yerli istehsala məxsus olub Manna incəsənəti üçün xarakterik xüsusiyyətlərə malikdir. Tunc kəmər e.ə.VIII-VII əsrlərə aiddir.

**20. Tunc möhür** kəmərlə birlikdə tapılmışdır. O, armudu formada olub yuxarıya doğru ensizləşir və qulaqcıqşəkilli çıxıntı ilə tamamlanır. Həmin çıxıntıya nazik tunc məftildən hazırlanmış zəncir keçirilmişdir. Möhürün aşağı hissəsi dairəvi olub üzərində ayaqları qarnının altına doğru qatlanmış, başı arxaya çevrilmiş dağ keçisi təsvir edilmişdir. Möhürün kənarı boyunca keçini halqa şəklində əhatə edən ilan təsvir edilmişdir. Belə təsvirlər Mesopotamiya və Cənubi Azərbaycanın qliptika nümunələrində geniş yayılmış süjetlərdəndir. Təsvirlərin müəyyən detalları manna-skif incəsənəti üçün xarakterikdir. Möhür e.ə. VIII-VII əsrlərə aid edilir.

**21. Qıvraq nekropolu** Tunc dövrünün abidəsidir. Nekropol Qıvraq kəndindən cənub-şərqdə, Qıvraq yaylasından Asnı çayına enən düzənlik sahədə yerləşir. Burada diametri 3-5 m-ə çatan kromlexlərə təsadüf olunur. Onlar yonulmamış iri daşlardan qurulmuşdur. Nekropolun sahəsi 2 hektardır

Nekropolun ərazisində təsərrüfat işləri görülərkən bir neçə daş qutu tipli qəbir abidəsi dağıdılmışdır. Dağıntı zamanı aşkar olunmuş materialların bir qismi toplanaraq Naxçıvan MR Dövlət Tarix Muzeyinə verilmişdir. Tapıntılar əsasən

monoxrom boyalı küpə və kasa tipli qablardan ibarətdir. Müşahidələr göstərir ki, belə kromlexlər Tunc dövrünün orta mərhələsi üçün xarakterik olmuşdur. Nekropol e.ə. III-II minilliklərə aid edilir.

**22. Xaraba-Qıvraq yaşayış yeri** Qıvraq kəndindən qərbdə Qıvraq yaylasından Araz çayına enən ərazidə yerləşir. Yaşayış yerinin ərazisi təbii cəhətdən əlverişli olub şimal-qərb və cənub-şərqdə hündür təpələrlə, cənub-qərbdə dəmir yol xətti ilə məhdudlaşır. O, şimalda ensiz zolaq şəklində uzanaraq Şərur düzənliyi ilə əlaqələnir. Qıvraq yaylasının bu hissəsində yeraltı sular üzə çıxdığından yaşayış yeri başdan-başa çəmənliklə örtülmüşdür. Yaşayış yerində vaxtilə çıxan bulaqlardan indi yalnız biri qalmışdır. Bulaqların suyu göllərə yığılaraq əkinçilik məqsədilə istifadə edilmişdir. Yerli əhalinin verdiyi məlumata görə, burada vaxtilə daşdan və kərpicdən tikilmiş bina qalıqları olmuşdur. Lakin hazırda bu binalar tamamilə dağılmışdır. Aparılan tədqiqatlar zamanı yaşayış yerinin ərazisində yalnız dairəvi və dördkünc planda yerləşən daş düzümlərinə, dördkünc formalı çalalara təsadüf olunmuşdur. Dairəvi binaların diametri 3,5 m, düzbucaqlı binaların ölçüləri 3 x 4; 5 x 4 m-dir. Kəşfiyyat xarakterli yoxlamalar göstərdi ki, yaşayış yerində mədəni təbəqə az saxlanmışdır.

Yerüstü materiallar əsasən gil qab hissələrindən ibarət olub çəhrayı və sarı rəngdə bişirilmişdir. Onların az bir qismi şirli saxsı məmulatından ibarətdir.

Şirsiz qablar əsasən kasa və küpə tipli qabların sınıqlarından ibarət olub narin qum qatılmış gildən hazırlanmış, yaxşı bişirilmişdir. Bəzi qabların üzərində bir-birinə paralel çəkilmiş xətlərdən ibarət naxışlar vardır.

Xaraba-Qıvraq yaşayış yerindən aşkar olunmuş gil məmulatı Naxçıvanın Son Orta əsr keramikası üçün xarakterikdir. Aparılmış tədqiqatlara əsasən belə nəticəyə gəlmək olar ki, yaşayış yerində həyat mövsümi xarakter daşımış, buradan ilin müəyyən fəsillərində qışlaq, yaxud dölcək kimi istifadə olunmuşdur.

Yaşayış yerini gil məmulatının analizinə əsasən XIV-XVIII əsrlərə aid etmək olar.

**23. Qulalıtəpə** Naxçıvan-Şərur şosse yolunun sağ tərəfində Qıvraq və Yurdçu kəndlərinin arasında yerləşir. O, Qıvraq yaylasının ümumi sistemindən ayrılmış, ətrafı düzənlik sahələrlə əhatə olunmuş ayrıca bir təpədən ibarətdir. Təpə konusvari formadadır. Hazırda təpənin cənub-şərq və şimal-qərb tərəfindən kanal açılmışdır. Bu sahələr yoxlanılarkən mədəni təbəqə qalıqlarına təsadüf olunmamışdır. Qulalıtəpənin kurqan olması haqqında tədqiqatçılar arasında müəyyən fikirlər mövcuddur. Lakin yerüstü materiallar içərisində müxtəlif dövrlərə aid gil qabların olması Qulalıtəpədən mövsümi yaşayış məskəni kimi istifadə olunduğu göstərir.

Yerüstü tapıntılar gil qabların və əmək alətlərinin sınıqlarından ibarətdir. Bu tapıntıları xronoloji cəhətdən dörd dövrə bölmək olar. Birinci dövrə Erkən Tunc dövrünə aid keramika məmulatı aiddir.

İkinci dövrə Orta Tunc dövrü üçün xarakterik olan boyalı və sadə qablar aiddir. Onlar narın və iri qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə

bişirilmişdir. Onların bəzisi üzəri qırmızı boya ilə örtülərək cilalanmış, qara rənglə çəkilmiş enli xətlərlə naxışlanmışdır.

Üçüncü dövrə- inkişaf etmiş Dəmir dövrünə aid gil qablar aiddir.

Dördüncü dövrə isə Antik və Orta əsrlərə aid gil qab sınıqları daxildir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə yaxşı bişirilmişdir.

Qulalıtəpədən aşkar olunmuş maddi-mədəniyyət qalıqlarının analizi onu e.ə. III-I minilliklərə aid etmək imkanı verir.



Şəkil 87. Qalacıq yaşayış yeri

**24. Qalacıq yaşayış yeri** Tunc və Erkən Dəmir dövrünün abidəsidir. Yaşayış yeri Qarabağlar kəndinin şimal-şərqində bir neçə terrasdan ibarət olan təbii təpənin üzərində yerləşir. Sahəsi 30 hektara yaxındır. O, hər tərəfdən əkin sahələri ilə əhatə olunmuşdur. Asnı çayı yaşayış yerini iki hissəyə ayırır. Onun yaxınlığında xeyli su mənbəyi vardır. Yaşayış yerinin mərkəzi hissəsində

Narınqala yerləşir. Narınqalanın divarları kobud yonulmuş çoxtonlu daşlardan bərkidici məhlul olmadan tikilmişdir. Narınqala ətrafında salınmış yaşayış binaları iri daşlardan hörülmüş divarla əhatə olunmuşdur. İstər Narınqalada, istərsə də ondan kənarda dördkünc və dairəvi formalı bina qalıqlarına təsadüf olunur. Qalanın əsas girişi cənub tərəfdən qayaların arasında salınmışdır. Girişin sol tərəfində əyri və kəsişən xətlərdən ibarət qayaüstü təsvirə təsadüf edilmiş, lakin qaya parçalandığından onun kompozisiyasını tam müəyyən etmək mümkün olmamışdır.

Mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarət olub keramika əmək alətləri, tikinti qalıqları, ostoloji materiallar və s. maddi-mədəniyyət nümunələri ilə zəngindir. Təbəqənin qalınlığı yerin relyefindən asılı olaraq 1,5-3 m-dir. Hazırda yaşayış yerində Son Tunc və Erkən Dəmir dövrü təbəqəsi daha yaxşı saxlanmışdır.

Arxeoloji tapıntılar çəhrayı və boz rəngdə bişirilmiş gil məmulatı, əmək alətləri və metal əşyalardan ibarətdir.

Çəhrayı rəngli gil məmulatının müəyyən hissəsini monoxrom naxışlı boyalı qablar təşkil edir. Onlar qırmızı boya ilə örtülərək cilalanmış, qara rənglə naxışlanmışdır. Bu tip keramikanın müəyyən hissəsi sadə qablardan ibarətdir.

Gil məmulatının böyük bir qismi boz və qonur rəngdə bişirilmiş gil qab sınıqlarından ibarətdir. Onların gilinə narın qum qatılaraq əsasən yaxşı, bəzən isə qeyri-bərabər bişirilmişdir. Bu tip keramika küpə, kasa, çaynik tipli qabların sınıqlarından ibarət olub həndəsi ornamentlə naxışlanmışdır. Bəzi qabların üzəri ştamplama üsulu ilə nöqtələnmiş üçbucaqlarla bəzədilmişdir .

Qalacıqdan aşkar olunmuş gil məmulatı Naxçıvanın Tunc və Dəmir dövrü abidələri üçün xarakterikdir.

Yaşayış yerindən təsadüfən tapılmış üç tunc əşya xüsusilə maraq doğurur. Onlar kəsik üçbucaq şəkilli olan bilərzik formasında olub tökmə üsulu ilə hazırlanmışdır. Onların səthi həndəsi ornamentlə naxışlanmış, digərinin üzərində isə bitki təsviri verilmişdir. Tədqiqatçıların fikrincə, bu əşyalardan mübadilə vasitəsi kimi istifadə olunmuşdur.

Əmək alətləri dən daşları, sürtgəc, iskənə və gürzlərdən ibarətdir. Onların üzərində uzun müddət işləndiklərini göstərən müxtəlif əlamətlər vardır.

Aparılmış tədqiqatların nəticələri göstərir ki, Qalacıq yaşayış yerinin yerləşdiyi ərazi əlverişli təbii-coğrafi mövqeyinə görə qədim dövrlərdən insanların diqqətini cəlb etmiş və məskunlaşdırılmışdır. E.ə. II minilliyin sonu və I minilliyin əvvəllərində burada yaşayış yerinin ətrafına möhkəm müdafiə divarı çəkilmişdir. Yaşayış yerini bütövlükdə e.ə. III-I minilliyə aid etmək olar.

**25. I Qarabağlar nekropolu** Qalacıq yaşayış yerindən şimalda yerləşir. Bu nekropol üçün kurqan tipli qəbir abidələri xarakterikdir. Bəzi kurqanların ətrafı kromlexlə əhatə olunmuşdur. Kurqanaltı qəbirlər əsasən daş qutulardan ibarət olub iri sal daşlarla dördkünc formada qurulmuş və eyni formalı daşlarla örtülmüşdür. Bu qəbirlərdə insan skeletinin qalıqlarına təsadüf olunmamışdır .

Nekropolda aparılan tədqiqat işləri zamanı çəhrayı və boz rəngdə bişirilmiş gil qab sınıqları tunc əşyalar əldə edilmişdir. Saxsı məmulatı əsasən narın qum qarışığı olan gildən hazırlanaraq boz rəngdə bişirilmişdir. Qablar kasa, küpə, çaynik və s. tipli qabların müxtəlif hissələrindən ibarətdir.

Aşkar olunmuş arxeoloji materialların bir qismi tuncdan hazırlanmışdır. Onlar silah və bəzəklərdən ibarətdir.

Skeletsiz qəbirlər Naxçıvan ərazisində həmçinin Şahtaxtında müşahidə olunmuşdur. Tədqiqat göstərir ki, bu cür nekropollar Orta və Son Tunc dövrləri üçün xarakterik olmuşdur. Odur ki, I Qarabağlar nekropolu e.ə. III-I minilliklərə aid edilir.

**26. II Qarabağlar nekropolu** Qalacıq yaşayış yerindən cənubda yerləşir. Bu nekropol üçün daş qutu tipli və torpaq qəbirlər xarakterikdir. Birinci nekropoldan fərqli olaraq bu nekropolda insan skeletinin qalıqlarına təsadüf olunmuşdur. Nekropolda aparılan tədqiqatlar zamanı Son Tunc və Erkən Dəmir dövrü üçün xarakterik olan gil qablar və tunc əşyalar əldə edilmişdir.

Gil məmulatı əsasən küpə, kasa, çaynik tipli qablardan ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq boz rəngdə bişirilmişdir. Bəzi qabların gilinin tərkibində iri qum qarışığına da təsadüf olunur. Qabların xarici səthi yaxşı hamarlanmış, cızma xətlər və ştampla vurulmuş ornamentlə naxışlanmışdır. Gil qablar içərisində konnelyur ornamentli qablara da təsadüf olunur.

Tunc əşyalar bilərzik, üzük, sancaq və boyunbağılardan ibarətdir. Onların bir qismi xüsusilə yüksək sənətkarlıqla hazırlanmış, xaricdən yonularaq diş-diş edilmişdir. Tapıntılar içərisində ucları ilan başı ilə tamamlanan bilərziklər və yuxarı hissəsi qoyun başı ilə tamamlanmış tunc sancaq da vardır.

II Qarabağlar nekropolundan aşkar olunmuş materiallar e.ə. II minilliyin sonu və I minilliyin birinci yarısı üçün xarakterikdir.

**27. Damlama yaşayış yeri** çox təbəqəli olub eneolit dövründən başlayaraq Dəmir dövrünə qədər müxtəlif materiallarla zəngindir. Yaşayış yeri Qarabağlar kəndindən 3 km şimal-qərbdə yerləşir. M.M.Seyidov tərəfindən aparılan tədqiqatlar nəticəsində yaşayış yerinin planı hazırlanmış, yerüstü materiallar toplanmışdır.

Yerüstü tapıntılar gil qab sınıqlarından ibarətdir. M.M.Seyidov tərəfindən aparılmış qazıntılar zamanı həmçinin şlak qalıqları aşkar olunmuşdur. Mədəni təbəqə torpaq qarışıq çürüntü laylarından ibarət olub maddi-mədəniyyət qalıqları ilə zəngindir. Yerüstü materiallar içərisində ən qədim tapıntılar Eneolit dövrünə aiddir. Onlar saman qarışığı olan gildən kobud hazırlanmış, pis bişirilmişdir. Tapıntıların müəyyən hissəsi isə Erkən Dəmir dövrünə aid gil qab sınıqları və ox ucluqlarından ibarətdir.

Aşkar olunmuş tapıntılara əsasən yaşayış yerinin e.ə. IV-I minilliklərə aid etmək olar.

**28. Çalxanqala kurqanları** Orta Tunc dövrünün abidəsidir. Kurqanlar Kəngərli rayonunun Çalxanqala kəndi yaxınlığında yerləşir. Bu kurqanlar konusvari formada olub, diametri 8-10 m, hündürlüyü 1,2 m-dir. Kurqanların üçü

1963-cü ildə təsərrüfat işləri görülərkən dağıdılmışdır. Aşkar olunmuş materiallar boyalı qablardan, tunc silah və bəzək əşyalarından ibarətdir. 1976-cı ildə həmin materiallar V.H.Əliyev tərəfindən nəşr edilmişdir. Həmin ildə Çalxanqala kurqanlarının biri V.H.Əliyev tərəfindən açılmışdır. Qazıntı zamanı müəyyən edilmişdir ki, kurqanaltı qəbir kamerası torpaqda qazılmış dördkünc formalı çaladan ibarətdir. Tədqiqat zamanı çəhrayı astarlı qara qablar, skelet qalıqları aşkar edilmişdir. Çalxanqala kurqanlarından aşkar edilmiş materialların əksəriyyəti keramikadan ibarətdir. Gil məmulatını iki qrupa bölmək olar. Birinci qrupa qara cilalı qablar və onun qırıqları daxildir. Bu qrupa aid qabların bəzisinin Kür-Araz keramikası üçün xarakterik olan çəhrayı astarı vardır. Küpə tipli qabların birinin üzəri cızma ornamentlə naxışlanmışdır. Qabların bir qrupu naxışsızdır.




Şəkil 88. Çalxanqala kurqanlarının monoxrom boyalı qabları

İkinci qrupa çəhrayı rəngdə bişirilmiş gil məmulatı, o cümlədən boyalı qablar daxildir. Onlar əsasən küpə və kasa tipli qablardan və onların qırıqlarından ibarətdir. Küpələrin ağzı dar, boğazı silindrik, gövdəsi qabarıq, oturacağı yastıdır. Qabların üzəri qırmızı boya ilə örtülərək yaxşı cilalanmış, ağzının kənarı, boğazı

və gövdəsinin yuxarı hissəsi qara rənglə naxışlanmışdır. Naxışlar həndəsi motivdə olub, əsasən dalğalı və sınıq xətlərdən, üçbucaqlardan ibarətdir.

Kasaların gövdəsi qabarıq, oturacağı yastıdır. Ağız hissədə gövdəsi bir qədər içəri yığılmışdır. Üzəri qırmızı anqob üzərindən qara rəngdə çəkilmiş bir-birinin içərisində yerləşdirilmiş yarımdairə və sınıq xətlərlə naxışlanmışdır. Bu tip kasaların bir qismi naxışsızdır.

Xəncərlər iki ədəd olub, yastı tiyəlidir. Tiyənin mərkəzi hissəsində yarımdairəvi qabarıq zolaq keçir. Güclü paslanmaya məruz qaldığından onlar bir neçə hissəyə bölünmüşdür. Xəncər tökmə üsulu ilə hazırlanmışdır. Nizə ucluqları da tökmə üsulu ilə hazırlanmışdır. Birinci nizə dəstəkli olub, tiyəsi boyunca qara zolaq keçir. Ucu qırılmışdır. İkinci rombşəkillidir. Onun dəstəyində kiçik dairəvi deşik açılmışdır.

Sancaqlar altı ədəddir. Tökmə üsulu ilə hazırlanmışdır. Onların baş tərəfi piramida şəkillidir .




Şəkil 89. II Bəzəkli qalasının keramikasi

Çalxanqala kurqanlarından aşkar olunmuş boyalı qablar Azərbaycan boyalı qablar mədəniyyətinin ilk mərhələsinə aiddir. Belə qablar Nəhəcirdən, Yaycıdan, Şortəpədən və b. abidələrdən məlumdur. V.H.Əliyev vaxtı ilə Çalxanqala kurqanlarını e.ə. II minilliyin ikinci rübünə aid etmişdir. Lakin maddi-mədəniyyət qalıqlarının, xüsusilə tunc əşyaların tipoloji analizi kurqanların tarixini bir qədər dəqiqləşdirməyi tələb edir. Əznəbürd kurqanlarından çəhrayı astarlı qara cilalı qabların tapılması şübhəsiz ki, Kür-Araz mədəniyyətinin təsiri ilə bağlıdır. Digər tərəfdən tunc əşyaların spektral

analizi göstərir ki, onlar əsasən mis-mışyak ərintisindən hazırlanmışdır. Belə ərintilər isə Ilk Tunc dövrü üçün xarakterikdir. Mis-mışyak ərintisindən hazırlanmış tunc əşyaların üstünlük təşkil etməsi Çalxanqala kurqanlarının tarixini qədimləşdirməyə imkan verir. Bu kurqanlar e.ə. 2100-1900-cü illərə aid edilir.

**29. II Bəzəkli qalas**ı Qarabağlar kəndi yaxınlığında, Kənd yeri yaşayış yerindən şimal-qərbdə yerləşir. Qala təbii cəhətdən müdafiə olunan, strateji cəhətdən əlverişli mövqeyə malik dağın üzərində yerləşir. Qalanın yerləşdiyi ərazi qərb və şimal tərəfdən təbii qayalıqla əhatə olunmuşdur. Zəif müdafiə olunan şərq və cənub tərəfdə daşdan hörülmüş qalın divar inşa edilmişdir. Daş divarın yalnız qalıqları saxlanmışdır. Qalanın şimal qurtaracağında qayalığın üzərində yerləşən sahə Narınqala rolunu oynamışdır. Burada dördkünc formalı evlərin qalıqlarına rastlanmışdır.

Araşdırmalar göstərmişdir ki, qalanın içərisindəki evlər əsas müdafiə divarına birləşik halda yerləşdirilmişdir.

Tədqiqat zamanı yaşayış yerindən Tunc dövrünə aid çəhrayı və boz rəngli keramika nümunələri aşkar olunmuşdur. Çəhrayı rəngli keramika parçalarının bir qismi qara rənglə naxışlanmışdır. Bu tip keramika Naxçıvanın Orta Tunc dövrü üçün xarakterikdir. Abidəni e.ə. III-II minilliklərə aid etmək olar.

**30. Qırmızıdaş qalası** Kəngərli rayonunun Çalxanqala kəndindən şimalda, Arvad bulağının yaxınlığında yerləşir. Qala qərbdən sıldırım qayalarla əhatə olunduğundan təbii mühafizəyə malikdir. Qalanın az müdafiə olunan digər hissələri iri daşlardan hörülmüş müdafiə divarı ilə möhkəmləndirilmişdir. Sahəsi 3150 kv.m.-dir

Abidə Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən, V. Baxşəliyev və N.Alıyevin rəhbərliyi ilə qeydə alınmışdır. Mədəni təbəqənin qalınlığı 0,5-1,5 m arasındadır. Qala divarı düzbucaqşəkilli çıxıntılarla möhkəmləndirilmişdir. Orijinal arxitekturaya malik olan qalanın tikinti texnikası Naxçıvanın qədim qalaları üçün xarakterikdir. Qalanın içərisindəki binalar qala divarına birləşik olub divar boyunca inşa olunmuşdur. Binaların bəzisi qalanın mərkəzi hissəsindədir.

Yerüstü materiallar boz və çəhrayı rəngli keramika parçalarından ibarətdir. Arxeoloji tapıntılar və keramika Dəmir dövrü üçün xarakterikdir. Abidə e.ə. VII-VI əsrlərə aiddir.

**31. Baş qala** Kəngərli rayonunun Çalxanqala kəndindən şimalda, hündür dağın üzərində, Baş bulağın yaxınlığında yerləşir. Üçbucaq formasında tikilən qala hər tərəfdən müdafiə divarı ilə əhatə olunmuşdur. Qala divarı düzbucaq formalı çıxıntılar və yarımdairəvi kontrforslarla möhkəmləndirilmişdir. Sahəsi 7020 kv.m-dir. Divarlar yanlarda iri daşlarla hörülmüş, onların arası isə kiçik həcmli qaya parçaları ilə doldurulmuşdur. Araşdırma qalanın müdafiə sisteminin bir neçə divardan ibarət olduğunu göstərir.

Abidə Naxçıvan Bölməsinin ekspedisiyası tərəfindən, V.B.Baxşəliyev və N.Alıyevin rəhbərliyi ilə qeydə alınmışdır. Mədəni təbəqənin qalınlığı 0,5-1 m arasındadır. Qalanın tikinti texnikası Əhəmənilər dövrünün monumental abidələri ilə bənzərdir. Yerüstü materiallar forma verməyən gil qabların parçalarından ibarətdir. Qalanın arxitekturasının xüsusiyyətləri onu e.ə. VII-VI əsrlərə aid etməyə imkan verir.

**32. III Böyükdüz nekropolu** Köhnə Böyükdüz kəndindən cənub-şərqdə yerləşir. Nekropol vaxtilə burada mövcud olan sərhəd gözətçi məntəqəsinin (xalq arasında Hafizov zastavası adlanır) olduğu təpənin üzərindədir. Nekropolun ərazisi Araz çayının təpəni aşındırması nəticəsində ortaya çıxmışdır. Qəbirlər dördkünc formalı olub yastı sal daşlardan qurulmuşdur. Tədqiqat zamanı qəbir avadanlığına rastlanmamışdır. Nekropoldakı qəbir tipləri Son Antik dövr üçün xarakterikdir. Nekropolu I-III əsrlərə aid etmək olar.

**33. Qarabağlar yaşayış yeri.** Orta əsrlərə aiddir. Yaşayış yeri hazırda Qarabağlar kəndinin müasir tikintilərinin altında qalmışdır. Qarabağların şəhər tipli yaşayış yeri olması haqqında Orta əsr mənbələrində məlumat verilmişdir. Hazırda yaşayış yerində qoşa minarə və bir türbə qalmışdır. Tədqiqatlar memarlıq kompleksinin XII-XIV əsrdə inşa olunduğunu qeyd etmişdir. Türbənin üzərində onun Əhməd ibn Əyyub tərəfindən tikilməsi haqqında kitabə olmuş, lakin hazırda saxlanmamışdır. Türbənin Hülakü xanın arvadı Qutuy xatunun şərəfinə tikilməsi ehtimal olunur. Qarabağlar yaşayış yeri müasir tikintilərin altında qaldığından burada arxeoloji tədqiqat aparmaq olduqca çətindir. Lakin qismən aparılmış kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində bu yaşayış yerinin ərazisində orta əsrlərə aid gil məmulatı aşkar edilmişdir. Onların içərisində tikinti keramikası xüsusilə üstünlük təşkil edir.

XVII əsrin türk səyyahı. Evliya Çələbi Qarabağlar haqqında maraqlı məlumatlar vermişdir. Müəllif yazır ki, şəhərin əsası Mənüçöhr tərəfindən qoyulmuşdur. Şəhərin içərisində 40 minarə, bağ-bağçası və üzümlükləri olan 10000 ev, 70 mehrab, 40 minarəli məscid var. Burada sayı daim artan hasar, hamam və bazarlar var. Vilayət öz dadlı ərzağı və içkiləri ilə məşhurdur. Bağda gəzərkən bağban Yazdanqulu bizə 26 növ armud gətirdi. «Mələcə», «Abbasi» «Ordubadi» və digər armud növlərini Evliya Çələbi ağız dolusu tərifləmişdir.
Orta əsrlərdə iri ticarət və sənətkarlıq mərkəzinə çevrilən Qarabağlar həmçinin müəyyən vaxtlarda inzibati mərkəz rolunu oynamışdır. Şəhərin yaranma tarixi haqqında dəqiq məlumat yoxdur. Onun inkişaf etmiş dövrü IX-XVII əsrlərə aiddir.

**34. Alovtəpə yaşayış yeri.** Orta əsrlərə aiddir. Yaşayış yeri Yurdçu kəndindən şərqdə uzunsov-oval təpənin üzərində yerləşir. Sahəsi 2 hektardır. Qərb tərəfdən dərə ilə məhdudlaşır. Mədəni təbəqə olduqca az saxlanmışdır. Yaşayış yerinin mərkəzi hissəsində dördkünc formalı evlərə aid daş təməl qalıqları saxlanmışdır. Tikinti qalıqlarına əsasən demək olar ki, evlər daş təməl üzərində çiy kərpicdən və möhrədən inşa olunmuşdur. Yerüstü materiallar şirli və

şirsiz saxsı məmulatından ibarət olub əsasən çəhrayı rəngdə bişirilmişdir. Gil məmulatı içərisində küpə tipli qabların oturacaq hissəsinin, və onların gövdəsinin sınıqları üstünlük təşkil edir. Tapıntıların əksəriyyəti forma verməyən parçalardan ibarətdir.

Bəzi qabların gilinə iri qum qatılaraq qeyri-bərabər bişirilmiş, içəri tərəfinə qırmızı boya çəkilərək yaxşı hamarlanmışdır. Digərləri iri qum və bitki qarışığı olan gildən hazırlanmış, çəhrayı rəngdə bişirilmişdir. Xarici səthi yaxşı hamarlanmışdır.

Şirli keramika məmulatının bir qrupu ağ rəngli gildən hazırlanaraq yaxşı bişirilmiş, hər iki üzdən şüşəvari şirlə örtülmüşdür. Yaşayış yerinin təxminən IX-XVII əsrlərə aid etmək olar.

**35. Orta əsr Duzdağ mədəni** keçmiş Sust kəndi yaxınlığında «Qaş» adlı yerdə qeydə alınmışdır. Mədən ətraflı öyrənilməmiş müasir duz karxanaları tərəfindən tamamilə dağıdılmışdır. Yazılı mənbələrdən və yerli əhalinin verdiyi məlumatlardan məlum olur ki, bu mədən vaxtilə Kalbalı xan Kəngərli tərəfindən istismar olunmuşdur. Onu təqribən IX-XIX əsrlərə aid etmək olar

**36. Qarabağlar yaşayış yeri.** Qarabağlar kəndindən şimal-qərbdə, Damlama yaşayış yerinin yaxınlığında yerləşir. O, üç tərəfdən - şimal, cənub və qərbdə sıldırım qayalarla əhatələnmiş dağın üzərində yerləşir. Yaşayış yeri şərq tərəfdən iri daşlardan hörülmüş divarla əhatə edilmişdir. Bərkidici məhlul kimi palçıqdan istifadə edilmişdir. Qala divarı dördkünc formalı kontrforslarla möhkəmləndirilmişdir. Qala divarına birləşik şəkildə tikilən yaşayış evləri dördkünc formalıdır. Giriş qapısı şərqdəndir.

Yerüstü tapıntılar çəhrayı və boz rəngli qab sınıqlarından ibarətdir. Yaşayış yeri geniş tədqiqatlarla öyrənilməmişdir. Abidəni e. ə. I minilliyə aid etmək olar.

**37. Bəzəkli nekropolu** Qarabağlar kəndindən şərqdə, Bəzəkli bulağının yaxınlığındakı uzunsov təpənin üzərində yerləşir. Nekropol bir-birindən müəyyən məsafədə yerləşən kurqanlardan ibarətdir. Kiçik təpə şəklində olan kurqanların hündürlüyü 1,5 m, diametri 4 m-dir. Onlardan bəzisinin ətrafı qaya daşları ilə əhatə olunmuşdur. Nekropolun mərkəzində kromlexlə əhatə olunmuş daş qutu tipli qəbrə rastlanmışdır.

Qəbir tiplərinə əsasən Bəzəkli nekropolunu e.ə. III-II minilliklərə aid etmək olar.

**38. II Cin dərəsi yaşayış yeri** Xok kəndindən cənub-qərbdə hündür təpənin üzərində yerləşir. Ətraf yerlərə nisbətən hündürdə yerləşən qala müdafiə üçün əlverişli mövqedədir. Qala şimal tərəfdən təbii qayalıqla əhatə olunmuşdur. Yaşayış yerində daş tikintilərin və qəbirlərin qalıqları saxlanmışdır. Şübhəsiz ki, qəbirlər müdafiə zamanı həlak olanlara aiddir. Mədəni təbəqə 1-1,5 m qalınlığında saxlanmışdır.

Arxeoloji materiallar başlıca olaraq çəhrayı rəngli keramika parçalarından ibarətdir. Onlar arasında Son Antik və Orta əsrlərə aid saxsı parçalarına rastlanır.

Qala uzun müddət müdafiə məqsədi ilə istifadə olunmuşdur. Qalanın ətrafındakı ərazi indi də yaşayış yeri və əkin sahəsi kimi istifadə olunur.

Aşkar olunmuş arxeoloji materiallara əsasən abidəni I-XVII əsrlərə aid etmək olar.

**39. I Bəzəkli qalası** Bəzəkli kəhrizinin şimalında, hündür uzunsov təpənin üzərində yerləşir. Abidənin mərkəzində Narınqala yerləşir. Qala üçbucaq formalı quruluşa malikdir. O, hər tərəfdən iri qaya parçalarından hörülmüş divarla əhatə olunmuşdur. Divar qalıqları bəzi yerlərdə 1 m hündürlükdə saxlanmışdır. Divarlar yanlarda iri daşlardan tikilmiş, onların arası isə kiçik həcmli qaya parçaları ilə doldurulmuşdur. Qala cənub tərəfdən iki qat divarla əhatə olunmuşdur. Sahəsi 1125 kv.m.-dir. Sahəsi kiçik olduğu üçün onun gözətçi məntəqəsi kimi istifadə olunduğunu söyləmək olar. Qala kənd yerinə gedən yolun üzərində strateji cəhətdən əlverişli mövqedə yerləşdirilmişdir.

Abidənin quruluşu və tikinti texnikası Erkən Dəmir dövrü abidələri üçün xarakterikdir. Tikinti texnikasını nəzərə alaraq abidəni e.ə. I minilliyə aid etmək olar.

**40. Sancı daşı** Kəngərli rayonunun Xıncab qəbiristanlığında yerləşir. Dördkünc, prizmatik formada yonulmuşdur. Bir tərəfində, mərkəzi hissədə bir-birinin arxasında duran şir və inək təsviri, onun yuxarı tərəfindəki frizdə isə ərəb əlifbasında yazı vardır. Təsvir dörd tərəfdən zəncirvari ornamentlə əhatələnmişdir. Təsvirin əks tərəfindəki üzündə ərəb qrafikası ilə verilən yazı daşın üzərini mamır basdığından oxunmur. Qəbir daşının baş və ayaq tərəfində fantastik təsvirlər vardır. Bu tip sənduqə tipli qəbir daşları Orta əsrlər üçün xarakterikdir.

Xalq arasında bu qəbir daşı ilə bağlı olan rəvayətə görə müəyyən xəstəliyi, yaxud istəyi olan insanlar bu daşı ziyarət edər, diləklərinin yerinə yetirilməsini arzu edərlər.

Nadir sənət əsəri olan bu qəbirüstü daşı XVI-XVIII əsrlərə aid etmək olar.

**41. Xıncab qəbiristanlığı** kəndin içərisindəki təpənin üzərində və onun arxa tərəfində yerləşir. Qəbirlərin yerüstü əlamətləri itsə də, onların bir çoxunun başdaşı saxlanmışdır. Başdaşıların üzərində ərəb əlifbası ilə yazıya rastlanmışdır. Bəzi qəbirlərin üzərində dördkünc formalı daş yığınlarına rastlanır. Vaxtilə qəbiristanlıqda olan sənduqə tipli qəbirüstü sinə daşlarının az bir qisminin parçaları saxlanmışdır. Hazırda qəbiristanlığın ərazisində Orta əsrlərə aid şirli və şirsiz saxsı qabların parçalarına rastlanılır.

Qəbir tiplərinə və sinə daşlarına əsasən Xıncab qəbiristanlığını XVI-XX əsrlərə aid etmək olar. Qəbiristanlığın bir qismindən XX əsrdə də istifadə olunmuşdur.

**42. Batankənd yaşayış yeri** Xıncab kəndinin cənubunda düzənlik sahədə yerləşir. Yaşayış yerinin ərazisi ətraf yerlərə nisbətən bir qədər çökəkdədir. Yaşayış yerində dördkünc formalı evlərin qalıqlarına rastlanılır. Bəzi evlərin bünövrəsi daşdan, divarları isə çiy kərpicdən tikilmişdir. Uzunsov möhrə

bloklarından tikilən divar qalıqlarına da rastlanmışdır. Lakin tikintilər təbii eroziya nəticəsində dağıntıya məruz qalmışdır. Yaşayış yerinin ərazisində inşaat işlərinin aparılması onun daha da dağılmasına səbəb olmuşdur.




Şəkil 90. Batankənd yaşayış yeri

Aşkar olunan tapıntıların əksəriyyəti Antik və Orta əsrlər dövrünə aiddir. Keramika nümunələri başlıca olaraq çəhrayı rəngdə yaxşı bişirilmiş, xaricdən cilalanmışdır. Keramika nümunələri içərisində Orta Tunc dövrünə aid bir neçə boyalı qab parçalarına da rastlanmışdır. Onlar qırmızı rəng üzərindən qara rənglə naxışlanmışdır.

Arxeoloji materiallara əsasən demək olar ki, yaşayış yerində həyat e.ə. II minillikdən XIV-XVII əsrlərədək davam etmişdir.

**43. Yaralı Sultan ocağı** Kəngərli rayonunun Xıncab kəndinin içərisində yerləşir. Bina dördkünc formalı kərpic tikintidən ibarətdir. Girişi cənub tərəfdəndir. Damı günbəzşəkilli örtüklə tamamlanmışdır. İçəri üzündə künclər bir-biri ilə tağbəndlərlə birləşdirilərək günbəzə keçid yaradılmışdır. Bu memarlıq üslubu Orta əsr Azərbaycan arxitekturası üçün xarakterikdir. Pirin binası şərq divarda və günbəzdə olan pəncərələr vasitəsilə işıqlandırılmışdır. Vaxtilə pirin kitabəsi olmuş, lakin indiyədək saxlanmamışdır. Pirlə bağlı xalq arasında müxtəlif rəvayətlər vardır. Onun ətrafından Orta əsrlərə aid şirli və şirsiz saxsı qabların parçaları tapılmışdır.

Arxeoloji materialların araşdırılmasına və tikintinin memarlıq üslubuna əsaslanaraq onu XIV-XV əsrlərə aid etmək olar.

**44. Daş möhür** Qarabağlar kənd orta məktəbinin muzeyində saxlanılır. Konusvari formalı möhürün yuxarı hissəsində kiçik deşik açılmışdır. Onun bir

qədər geniş olan aşağı tərəfi hamarlanmış və üzərində atlı təsvir edilmişdir. Atlının ətrafına mixi yazıya bənzədilən üçbucaqşəkilli naxışlar vurulmuşdur. Bu tip möhürlər Qədim Şərq mədəniyyəti üçün xarakterik olub, e.ə. I minillikdə geniş yayılmışdır. Bu möhürü e.ə. VII-VI əsrlərə aid etmək olar.

**45. Xaraba karvansara** Xok kəndi yaxınlığında yerləşir. Sahəsi 2 hektara yaxındır. Karvansaranın yerində xeyli kərpic qalıqlarına rastlanması vaxtilə buradakı tikintilərin inşasında bişmiş kərpicdən geniş istifadə olunduğunu göstərir. Hazırda tikintilərin yerində dördkünc formalı çalalar və kərpic təpəcikləri qalmışdır. Tikinti qalıqlarına əsasən karvansara binalarının bir-birinə birləşik yerləşdirilmiş, dördkünc formalı tikililərdən ibarət olduğunu demək olar. Yerüstü materiallar başlıca olaraq çəhrayı rəngli şirsiz və şirli keramika parçalarından ibarətdir. Aşkar olunan keramika məmulatı başlıca olaraq Son Orta əsrlər üçün xarakterikdir. Arxeoloji materiallara əsasən karvansaranın qalıqlarını XIV- XVIII əsrlərə aid etmək olar.

**46. Qırmızıdaş yaşayış yeri** Çalxanqala kəndindən şimalda Qırmızıdaş qalasının ətəyində yerləşir. Yaşayış yerində dördkünc formalı tikintilərə aid çalalar qalmışdır. Tikinti qalıqlarına əsasən binaların tikintisində daşdan istifadə olunduğunu demək olar. Yaşayış yerinin yaxınlığında bulaq vardır. Ehtimal ki, bu yaşayış yerindən maldar tayfalar mövsümü məntəqə kimi istifadə etmişlər. Yaşayış yerindən toplanan yerüstü materiallar çəhrayı rəngli şirli və şirsiz keramika məmulatından ibarətdir. Keramika məmulatı başlıca olaraq Son Orta əsrlərə aiddir. Arxeoloji materialların təhlilinə əsasən yaşayış yerini XVII-XIX əsrlərə aid etmək olar.

**47. Cinli dərə yaşayış yeri.** Abidə Şahtaxtı kəndindən şərqdə, Xok kəndinin cənub-şərqində Şah bağından xeyli aralıda yerləşir. Sahəsi 2500 kv.m-dir. Yaşayış yerində bir neçə təbii bulaq və onların qarşısında düzəldilmiş kiçik göllər vardır.Yaşayış yerində mədəni təbəqə saxlanmamışdır. Yerüstü materiallar olduqca azdır. Tədqiqat zamanı çəhrayı və sarı rəngli gil qab sınıqları, şirli saxsı məmulatı, gil məmulatı və s. aşkar olunmuşdur.

Abidədən aşkar olunmuş gil məmulatı Naxçıvanın Son Orta əsr keramikası üçün xarakterik olub XVI-XVIII əsrlərə aiddir.

**48. III Böyükdüz yaşayış yeri** Antik dövrün abidəsi olub köhnə Böyükdüz kəndindən qərbdə, Böyükdüz çaylağının sağ tərəfində yerləşir. Yaşayış yerinin əksər hissəsi yuyularaq dağılmışdır. Aparılan kəşfiyyat işləri zamanı dairəvi formada olan nazik bad qırıqları, kül yığınlarına təsadüf edilmişdi. Yaşayış yeri demək olar ki, tamamilə yuyulduğundan onun sahəsini dəqiqləşdirmək mümkün olmamışdır. Yerüstü materiallar içərisində çəhrayı və boz rəngli gil qab qırıqlarına, şüşə qabların gövdəsinin parçalarına təsadüf edilmişdi. Bəzi yerlərdə dairəvi və dördkünc formalı daş düzümləri qalmışdır. Keramika məlumatına əsasən yaşayış yerini təqribən I-III əsrlərə aid etmək olar. Müşahidələrə əsasən demək olar ki, yaşayış yerində də həyat mövsümi xarakter daşımışdır.

**49. II Qıvraq nekropolu** Orta əsr abidəsidir. Abidə Qıvraq kəndindən cənubda uzunsov hündür təpənin üzərində yerləşir. Nekropol şərqdə Asnı çayının vadisi, şimalda Qıvraq kəndi, qərbdə və cənubda isə düzənlik sahə ilə məhdudlaşır. Nekropolun yerüstü əlamətləri hazırda itmişdir. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə burada qoç daşlar və daş sənduqələr olmuşdur.

Nekropolu təxminən XV-XVI əsrlərə aid edirik.

**50. Qıvraq yaşayış yeri** Orta əsr abidəsidir. Yaşayış yerinin sahəsi hazırda müasir tikintilərlə örtülmüşdür. Yaşayış yerinin mərkəzində yerin üzərində şirsiz və şirli saxsı qablara təsadüf edilir. Onlar əsasən forma verməyən sınıqlardan ibarətdir. Hazırda yaşayış yerinin ərazisində XVIII əsrə aid məscid, XIX əsrdə inşa olunmuş hamam qalmaqdadır. Yaşayış yerində geniş tədqiqat aparılmayıb. Abidəni təxminən XIV-XIX əsrlərə aid etmək olar.

**51. Qarovuldaş yaşayış yeri** Qarabağlar kəndindən şimal-qərbdə hündür təpənin üzərində yerləşir. Yaşayış yeri hər tərəfdən hündür qayalıqlarla əhatə olunmuşdur. Qalaya yalnız qərb tərəfdə yerləşən ensiz dar keçiddən qalxmaq mümkündür. Qalanın girişində və mərkəzi hissəsində daş tikintilərin qalıqları saxlanmışdır. Qaladan müvəqqəti müdafiə məntəqəsi kimi istifadə olunmuşdur. Abidə xalq arasında Qarovuldaş səngəri adlanır. Aparılan tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, abidədə mədəni təbəqə saxlanmamışdır. Yerüstü materiallar Son Orta əsrlərə aid qırmızı rəngli keramika parçalarından ibarətdir. Abidəni XVI-XVIII əsrlərə aid etmək olar.

**52. Qarovuldaş zağası** Qarabağlar kəndindən şimal-qərbdə Qarovuldaş yaşayış yerinin girəcəyində yerləşir. Oval formalı təbii mağaradan ibarətdir. Zağaya qaya üzərində qazılmış ensiz, dar cığırla getmək mümkündür. Zağadan sığınacaq kimi istifadə olunmuşdur. Araşdırmalar zamanı arxeoloji materiallara rastlanmamışdır. Zağanı yaşayış yeri ilə eyni dövrə - XVI-XVIII əsrlərə aid etmək olar.

**53. Qarayanlıq yaşayış yeri** Qıvraq kəndindən qərbdə, torpaq yolun kənarında yerləşir. Yaşayış yerinin sahəsi 2250 kv.m-dir. Yaşayış yerinin mərkəzi hissəsindən su kanalı keçir. Abidənin ərazisinin bir qismi qazılıb dağıdılmışdır. Mədəni təbəqə 1-1,5 m qalınlığında saxlanmışdır. Mərkəzi hissədə daş tikintilərin qalıqları nəzərə çarpır. Yaşayış yerinin yaxınlığında Orta əsr qəbirstanlığı vardır. Lakin qəbirstanlığın ərazisi əkin sahəsinə çevrildiyindən qəbirlərin izi tamamilə itmişdir.

Arxeoloji materiallar başlıca olaraq keramika məmulatından ibarətdir. Keramika məmulatı Son Antik dövrdən başlayaraq Son Orta əsrlərədək olan bir dövrü əhatə edir. Antik dövrə aid keramika məmulatı kasa tipli qabların parçalarından ibarət olub yaxşı bişirilmiş və cilalanmışdır. Son Orta əsr keramikası şirli və şirsiz keramika parçaları ilə təmsil olunmuşdur.

Aşkar olunmuş arxeoloji materiallara əsasən yaşayış yerini II-XVII əsrlərə aid etmək olar.

**54. Kürə yaşayış yeri** Qıvraq kəndindən şimalda Naxçıvan-Şərur asfalt yolunun kənarında yerləşir. Yaşayış yerinin yerüstü əlamətləri tamamilə itmişdir. Bəzi qisimlərdə kəhriz quyuları qazılan zaman mədəni təbəqə dağılmışdır. Mədəni təbəqə 1-1,5 m qalınlığında saxlanmış kül yığınları və keramika parçalarından ibarətdir. Başlıca olaraq çəhrayı və sarı rəngli gil qabların parçaları ilə təmsil olunan keramika nümunələri Antik və Erkən Orta əsrlərə aiddir.

Arxeoloji materiallara əsasən yaşayış yerini I-X əsrlərə aid etmək olar.

**55. Tülkülər yaşayış yeri** Şahtaxtı kəndindən şərqdə yerləşir. Hər tərəfdən hündür təpələrlə əhatə olunmuşdur. Yaşayış yerinin mərkəzi hissəsində kəhriz suyunu yığmaq üçün kiçik göl düzəldilmişdir. Yaşayış yerində mədəni təbəqə saxlanmamışdır. Yerüstü materiallar çəhrayı rəngli şirsiz saxsı məmulatından ibarətdir. Yaşayış yerinin ətrafında 0,5- 1m hündürlükdə saxlanmış divar qalıqları aşkar olunmuşdur. Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, bu ərazi mövsümi yaşayış məntəqəsidir. Ehtimal ki, burada bir neçə ailəyə məxsus torpaq sahəsi olmuş, əkin sahələrinin sərhədləri isə divarla əhatə edilmişdir.

Aşkar edilmiş arxeoloji materiallara əsasən, yaşayış yerini XIV- XVIII əsrlərə aid etmək olar.

**56. Şahtaxtı qəbiristanlığı** Şahtaxtı kəndinin qərbində yolun kənarındakı təpənin üzərində yerləşir. Qəbiristanlıqdakı qəbirlər müsəlman qəbirlərindən ibarətdir. Onların əksəriyyətinin yerüstü əlamətləri itmiş və yalnız başdaşıları salamat qalmışdır. Bəzi qəbirlərin üzərində çay daşları və qaya parçalarından ibarət daş yığınlarına rastlanır. Qəbrisitanlığın bir qismindən XX əsrin 60- cı illərinə qədər istifadə edilmişdir. Burada Şahtaxtı seyidlərinə aid qəbirlərdən birinin üzərində dördkünc formalı və günbəzlə tamamlanan türbə tikilmişdir.

Qəbiristanlıqda aparılan araşdırmalar zamanı Orta əsrlərə aid keramika parçalarına rastlanmışdır. Arxeoloji materiallara və qəbir abidələrinə əsasən, nekropolu XVIII- XX əsrlərə aid etmək olar.

**57. Haleylim yaşayış yeri** Xok kəndinin cənubunda yerləşir. Abidə hündür təpədən və onun ətrafındakı düzənlik sahədən ibarətdir. Abidənin ərazisindən müvəqqəti yaşayış məskəni kimi istifadə edilmişdir. Tədqiqat zamanı Son Orta əsrlərə aid qırmızı rəngli keramika parçalarına rastlanmışdır. Haleylim dağı ilə bağlı xalq arasında əfsanə də vardır.

Xalq arasında olan rəvayətlərə və arxeoloji tapıntılara əsasən, abidəni XII-XVIII əsrlərə aid etmək olar.

**58. Emin bulağı yaşayış yeri** Çalxanqala kəndinin şimalında Emin bulağı adlı su qaynağının ətrafında yerləşir. Evlər dördkünc formalı olub qaya parçalarından tikilmişdir. Evlərin girişi başlıca olaraq cənub və qərb tərəfdə, adətən divarın bir tərəfində yerləşdirilmişdir. Bu ərazidə qrup halında yerləşdirilmiş üç yaşayış kompleksi aşkar olunmuşdur. Evlər bir-birinin yaxınlığında, çox zaman isə bir-birinə bitişik şəkildə inşa edilmişdir. Evlərin quruluşu patriarxal- qəbilə quruluşunun əlamətlərini aydın şəkildə əks etdirir.

Yaşayış binalarının divarları 1-1,5 m hündürlükdə salamat qalmışdır. Aşkar olunan arxeoloji materiallar başlıca olaraq Son Orta əsrlərə aiddir. Lakin ev tiplərinə əsaslanaraq yaşayış yerinin daha qədim tarixə malik olduğunu demək olar. Yaşayış yeri X-XVII əsrlərlə tarixləndirilə bilər.

**59. Qırmızıdaş kahaları** Çalxanqala kəndinin şimalında Qırmızıdaş qalasından şimal-qərbdə, Dərəboğazı adlı yerdə yerləşir. Kahaların yaxınlığında bulaq vardır. Bu ərazi hazırda maldar əhali tərəfindən istifadə olunur. Qırmızıdaş kahalarının araşdırılması onlardan heyvan saxlamaq üçün istifadə olunduğunu göstərir. Qırmızıdaş kahalarının özünəməxsus quruluşu vardır. Təpənin yamacında, bir-birinin yaxınlığında qazılan kahalar ümumi keçid vasitəsi ilə əlaqələndirilmiş, keçidin mərkəzi hissəsində xaricə doğru silindirik deşik açılmışdır.

Kahalar tağvari formada torpaqda oyulmuş, onların dib tərəfində çobanın oturması və çıraq qoymaq üçün xüsusi yer düzəldilmişdir. Hazırda kahaların içərisi uçub tokülmüş torpaq layları ilə dolmuşdur. Qırmızıdaş kahalarını XVIII-XX əsrlərə aid etmək olar.

**60. Kənd yeri yaşayış yeri** Qarabağlar kəndindən şimalda hər tərəfdən dağlarla əhatə olunmuş dərənin içərisində yerləşir. Yaşayış yerində daşdan hörülmüş evlərin və ictimai binaların qalıqları saxlanmışdır. Evlər dördkünc formalıdır. Bəzi evlər təpənin yamacını hamarlamaqla düzəldilmiş səkilərdə salınmışdır. Tədqiqat zamanı yaşayış yerinin yaxınlığında yerləşən təpənin üzərində dördkünc formalı binaların qalıqları aşkar olunmuşdur.

Kənd yeri yaşayış yerindən aşkar olunan arxeoloji materiallar başlıca olaraq keramika məmulatından ibarətdir. Keramika məmulatı Orta əsrlərə aid şirli və şirsiz saxsı qabların parçalarından ibarətdir.

Aşkar olunmuş arxeoloji materiallara əsasən yaşayış yerini XIV-XVIII əsrlərə aid etmək olar.

**61. Qarabağlar səddinin qalıqları** Yurdçu kəndinin cənubunda aşkar olunmuşdur. Eni 1,25 m olan divarın qalıqları 500 m uzunluğunda salamat qalmışdır. Divarın bir ucu Qarabağlar, digər ucu isə Qıvraq kəndinə doğru uzanır. Səddin yaxınlığında yaşayış binalarına rastlanmamışdır. Xalq arasında Qarabağlar kəndindən Şahtaxtı kəndinədək uzanan qara hasarın mövcudluğu haqqında rəvayət də vardır. Ehtimal ki, bu divar vaxtilə sərhəd bildirən bir tikili olmuşdur. Divarın ətrafından aşkar olunan keramika məmulatı başlıca olaraq Orta əsrlərə aiddir. Divar qalıqlarını IX-XI əsrlərə aid etmək olar.

**62. Xıncab yaşayış yeri** kəndin içərisindəki təpənin üzərində yerləşir. Hazırda yaşayış yerində olan tikintilər tamamilə dağıdılmışdır. Sel sularının yuyub açdığı yarğanlarda kül qarışıq möhrə qalıqlarından ibarət mədəni təbəqəyə rastlanılır. Təbəqənin dağılması nəticəsində keramika parçaları abidənin üzərinə dağılmışdır. Keramika məmulatı başlıca olaraq çəhrayı rəngdə, narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Onların bir qismi qırmızı rənglə boyanaraq yaxşı cilalanmışdır. Yaşayış yeri öz əhəmiyyətini itirdikdən

sonra onun ərazisi qəbirstanlığa çevrilmişdir. Aşkar olunmuş keramika nümunələrinə əsasən, yaşayış yerini I-XIV əsrlərə aid etmək olar

**63. Xıncab kahaları** Xıncab kəndinin cənubunda dərə boyunca salınmışdır. Onlar bir-birinin yaxınlığında tağvari formada qazılmış uzunsov kahalardan ibarətdir. Dib divarlarında şam, ya da çıraq qoymaq üçün taxçalar düzəldilmişdir. Kahalar son zamanlar maldar əhali tərəfindən istifadə edildiyi üçün onların quruluşu bir qədər dəyişilmişdir. Lakin kahalar öz arxaik formasını indi də saxlamaqdadır. Tədqiqat zamanı 12 ədəd kaha qeydə alınmışdır. Onların hündürlüyü 2 m, eni 4,1 m, dərinliyi 15 m-dir. Kahaları, aşkar olunan arxeoloji materiallara əsasən, XVIII-XX əsrlərə aid etmək olar.

**64. Pirtəpəsi yaşayış yeri** Sust kəndinin şimalında hündür təpənin ətrafını əhatə edir. Sahəsi 19900 kv.m-dir. Yaşayış yerinin bəzi qisimlərində dördkünc formalı binaların qalıqları saxlanmışdır. Tikinti qalıqlarına əsasən evlərin başlıca olaraq çiy kərpicdən tikildiyini demək olar. Lakin bəzi evlərin tikintisində daşdan da istifadə olunmuşdur. Yaşayış yerinin yerləşdiyi təpənin üzərində Orta əsr qəbirstanlığına və bünövrəsi daşdan tikilmiş türbənin qalıqlarına rastlanmışdır.

Aşkar olunmuş arxeoloji materiallar başlıca olaraq çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarətdir. Keramika məmulatı başlıca olaraq Son Orta əsrlər üçün xarakterikdir. Onlar nimçə, kasa və küpə tipli qabların parçalarından ibarətdir. Aşkar edilmiş arxeoloji materiallara əsasən, yaşayış yerini XIV-XVIII əsrlərə aid etmək olar.

**65. Kora-gözə yaşayış yeri** Sust kəndindən qərbdə, eyniadlı kəhrizin ətrafında yerləşir. Yaşayış yerində bir-birindən aralıda yerləşən dördkünc formalı binaların qalıqları saxlanmışdır. Yaşayış binaları daşdan və çiy kərpicdən tikilmişdir. Hazırda binaların yerində dördkünc formalı çalalar qalmışdır. Tədqiqata əsasən demək olar ki, yaşayış yeri əkinçi maldar tayfaların müvəqqəti yaşayış məntəqəsi olmuşdur. Ehtimal ki, kəhriz suyunun azalması yaşayış yerinin tərk edilməsinə səbəb olmuşdur. Hazırda yaşayış yeri maldar tayfalar tərəfindən istifadə edilməkdədir. Arxeoloji tapıntılar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatlarından ibarətdir. Keramika məmulatı Son Orta əsrlərə aiddir. Arxeoloji tapıntılara əsasən yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

**66. Üçqulaq yaşayış yeri** Sust kəndi yaxınlığında Pirtəpəsi yaşayış yeri ilə Koragözə yaşayış yeri arasında yerləşir. Yaşayış yerində daşdan və möhrədən tikilmiş binaların qalıqları, evlərin yerində dördkünc formalı çalalar saxlanmışdır. Araşdırmalar yaşayış yerindən müvəqqəti yaşayış məntəqəsi kimi istifadə olunduğunu göstərir. Aşkar olunmuş arxeoloji materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika parçalarından ibarətdir. Aşkar olunmuş arxeoloji materiallara əsasən Üçqulaq yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

## ŞAHBUZ RAYONUNUN ARXEOLOJİ ABİDƏLƏRİ

**Sarıdərə yaşayış yeri** Şahbuz rayonunun Qızıl Qışlaq kəndi yaxınlığında Küküçayın sağ sahilində hündür təpə üzərində yerləşir. Yaşayış yeri oval planda olub iki terrasdan ibarətdir. Onun sahəsi 1500 kv.m-dir. Burada uçub-tökülmüş tikinti qalıqlarına təsadüf olunur. Onlar tamamilə dağıdıldığı üçün formasını müəyyən etmək mümkün deyil. Yaşayış yeri zəngin bitki örtüyü olan seyrək meşəli hündür dağlarla əhatə olunmuşdur. Hər tərəfdən dərin dərələrlə sərhədlənən yaşayış yeri yalnız şimal-qərbdə ensiz bir zolaq vasitəsilə ümumi dağ silsiləsi ilə əlaqələnir. Abidənin yerləşdiyi təpənin yanından azsulu dağ çayı axır. Yay vaxtı çay Küküçaya çatmamış quruyur. Çayın yatağında güclü sel sularının axması nəticəsində dərin yarğanlar əmələ gəlmişdir. Onun sağ sahilində iki qədim nekropol vardır.




Şəkil 91. I Sarıdərə yaşayış yerindən (13-20) və nekropolundan aşkar olunan keramika

Yaşayış yerinin yerləşdiyi təpənin yamacında, habelə onun üzərində çəhrayı və boz rəngli gil məmulatına, dən daşlarına təsadüf edilir. Yerüstü materiallar içərisində obsidian qəlpələri üstünlük təşkil edir.

Abidənin üzərindən toplanmış gil məmulatı əsasən çəhrayı və boz rəngdə bişirilmişdir. Çəhrayı rəngli gil məmulatı küpə, kasa və qapaq qırıqlarından ibarətdir. Onların gilinə narın qum qatılmış, yaxşı yoğrulmuş və keyfiyyətli bişirilmişdir.

Boz rəngli gil məmulatı küpə və kasa tipli qabların parçalarından ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir.Boz rəngli gil məmulatı içərisində qara cilalı formasız qırıqlara təsadüf olunur.

Dən daşları boz və qara rəngli tufdan hazırlanmış, alt daşlardan ibarət olub qayıqşəkilli formadadır.

Arxeoloji materialların analizinə əsasən demək olar ki, Sarıdərə yaşayış yeri e.ə. III-I minilliklərə aiddir.




Şəkil 92. I Kükü yaşayış yerinin keramikası

**2. I Kükü yaşayış yeri.** Yaşayış yeri Kükü kəndinin girəcəyində, Küküçayın sağ sahilində yerləşir. O, iki təpəni və onların ətəyini əhatə edir. Təpələr nalşəkilli formada əlaqələnərək bir tərəfdən dağ silsiləsi ilə birləşir, o biri

tərəflərdən isə dərin dərələrlə məhdudlaşır. Yaşayış yerinin aşağısından Kükü kəndinə gedən asfalt yol keçir. Asfalt yol yaşayış yerini iki hissəyə bölür. Yaşayış yerinin zəngin bitki örtüyü vardır. Ətraf ərazilər seyrək meşəliklə örtülmüşdür. Yaşayış yerində aparılan kəşfiyyat işləri mədəni təbəqənin dağıldığını göstərir. Yaşayış yerinin bəzi hissələrində uçub-tökülmüş, daş yığınlarına təsadüf edilir. Görünür, binaların inşasında tikinti materialı kimi daşdan geniş istifadə edilmişdir. Binalar dağın relyefinə uyğun olaraq ensiz səkilərdə yerləşmişdir. Bəzi yerlərdə iri daşlardan hörülmüş divar qalıqlarına təsadüf olunur. Divar qalıqları bəzi yerlərdə 50 m uzunluğunda izlənilir. Yaşayış yerində çəhrayı və boz rəngli gil qab qırıqlarına, dən daşlarına təsadüf olunur.

Yaşayış yerindən toplanmış yerüstü materiallar çəhrayı və boz rəngli gil qab qırıqlarından ibarətdir. Boz rəngli gil məmulatı küpə və kasa qırıqlarından ibarətdir. Küpələr qalındivarlı olub narın qum qatışığı olan gildən hazırlanmış boz rəngdə bişirilmişdir. Onların ağzının kənarı xaricə qatlanmışdır. Kasa tipli qab silindrik-konusvari formada olub boz rəngdə yaxşı bişirilmiş, hər iki üzdən hamarlanmışdır.

Çəhrayı rəngli gil məmulatı küpə və kasa qırıqlarından ibarətdir. Küpənin gilinə iri qum qatılmış kobud hazırlanmışdır. Xaricdən səthi çərtmələrlə naxışlanmışdır. Kasa tipli qabın ağzının kənarı rels şəkillidir. O, narın qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə bişirilmişdir. Yaşayış yerində iki kəşfiyyat şurfu qoyulmuşdu. Birinci şurf ikinci təpənin üzərində mədəni təbəqənin olması güman olunan yerdə 1 x 1 m ölçüdə qoyulmuş, qazıntı 1 m dərinliyədək davam etdirilmiş, lakin heç bir maddi-mədəniyyət qalığı aşkar olunmamışdır. Qeyd edək ki, bu təpənin aşağı hissəsi yol çəkilərkən traktorla kəsilmişdir. Kəsikdə mədəni təbəqənin əlamətləri müşahidə edilməmişdir.

Yaşayış yerinin düzənlik hissəsi uzun müddət əkildiyindən yer səthində maddi-mədəniyyət qalıqlarına təsadüf olunmurdu. İkinci şurf Küküçayın sağ sahilində əmələ gəlmiş yarğanda qoyulmuşdur. Qazıntı 2 x 2 m sahədə aparılmışdır. Tədqiqat zamanı qara və boz rəngdə bişirilmiş gil qab qırıqlarına təsadüf edilmişdir. Qazıntı 1 m dərinliyədək davam etdirilmişdi. Bu dərinlikdən sonra maddi-mədəniyyət qalıqları aşkar olunmamışdır. Qeyd etmək lazımdır ki, yaşayış yerinin bu hissəsində mədəni təbəqə olduqca az saxlanmışdır. Ərazidə qədim qəbirlərin olması güman edilir.

Şurfdan aşkar edilmiş materiallar əsasən boz rəngli gil qab qırıqlarından ibarətdir. Onlar küpə, kasa, badya tipli qablarla təmsil olunmuşdur.

Yaşayış yerinin ümumi sahəsi 74 hektardan artıqdır. Yerli əhalinin verdiyi məlumata görə, yaşayış yerinin şimal hissəsində torpaq işləri görülərkən qəbirlər aşkar edilmişdir, lakin onların yeri tamamilə dağıdılmış, materialları saxlanmamışdır. Yaşayış yerindən toplanmış yerüstü materiallar e.ə. II-I minilliklər, şurfdan aşkar olunmuş materiallar isə e.ə.I minilliyin əvvəlləri üçün xarakterikdir.

**3. II Kükü yaşayış yeri** 1990-cı ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. O, Küküçayla Zırnelçayın qovuşduğu yerdən bir qədər aşağıda, Küküçayın sağ sahilində, hündür təpə üzərində yerləşir. Sahəsi 6400 kv.m-dir. O, hər tərəfdən dərin dərə ilə əhatə olunub. Yaşayış yerində iri daşlardan tikilmiş bina qalıqları saxlanmışdır. Otaqların saxlanmış qalıqlarına əsasən demək olar ki, onlar düzbucaqlı formada olmuşdur. Bəzi binalar tamamilə dağıdılmış, onların yerində yalnız dördkünc çalalar qalmışdır. Saxlanmış divar qalıqları əsasən bir cərgə iri daşlardan ibarətdir. Yaşayış yerinin cənub-qərb tərəfində iki cərgə daşdan hörülmüş divar qalıqlarına təsadüf olunmuşdur.

Otaqlar bəzən bitişik, bəzən isə bir-birindən aralı yerləşdirilmişdir. Onlar əsasən iri həcmli olub sahəsi bəzən 35 kv.m.-ə çatır.

Yaşayış yerinin sahəsi hündür bitki örtüyünə malik olduğu üçün binalar otun içərisində qalmışdır. Burada aparılan axtarışlar zamanı yalnız bir neçə çəhrayı rəngli forma verməyən gil qab qırıqları aşkar olundu. Onların gilinə narın qum qatılmış, çəhrayı rəngdə yaxşı bişirilmişdir. Bəzi qırıqların üzərində qırmızı boya izlərinə təsadüf olunur.

Yaşayış yerinin şimal-şərq oturacağında, Küküçayın sağ sahilində qaval daşına təsadüf etdik. Ola bilsin ki, o, vaxtilə yaşayış yerinin üst hissəsində olmuşdur.

Abidədən aşkar olunan gil qab qırıqlarının analizi və binaların tikinti texnikası bu yaşayış yerinin I Kükü yaşayış yeri ilə həmdövr olduğunu göstərir. Yaşayış yerini e.ə. II minilliyin sonu və I minilliyin əvvəllərinə aid etmək olar.

**4. Külüs yaşayış yeri** 1990-cı ildə qeydə alınmışdır. Sahəsi 14800 kv.m-dir. Şahbuz rayonunun Külüs kəndindən cənub-şərqdə, Külüsçayın sol sahilində, hündür və uzunsov dağın üzərində yerləşir. Yaşayış yeri hər tərəfdən dərin dərələrlə əhatə olunaraq şimal-şərqdə ümumi dağ silsiləsi ilə əlaqələnir. Yaşayış yerinin şimal-şərqdə və cənub-şərq tərəfində iri daşlardan hörülmüş divar qalıqları izlənilir. Abidənin üzərində uçub tökülmüş tikinti qalıqları saxlanmışdır. Onlar tamamilə dağılmış və üzərini ot basmışdır. Bina qalıqları uzunsov daş yığınlarına çevrilmişdir. Bəzi binaların divarları tamamilə dağılmış onların yerində dördkünc formalı çala əmələ gəlmişdir.

Yaşayış yerinin cənub-şərq və şimal-qərb hissəsi traktorla kürənib dağıdılmışdır. Dağıntı zamanı əmələ gələn kəsiklərdə mədəni təbəqənin əlamətlərinə təsadüf olunmadı. Şübhəsiz ki, yaşayış yeri daimi olmadığından təbəqə vaxtaşırı olaraq yuyulub dağılmışdır. Lakin abidənin üzərində dən daşları, çəhrayı və boz rəngli gil qab qırıqlarına təsadüf olunur. Tapıntılar içərisində çəhrayı rəngli gil məmulatı üstünlük təşkil edir. Onlar əsasən formasız qab qırıqlarından ibarətdir.

Qabların gilinə narın qum qatılmış, yaxşı bişirilmiş və hər iki üzdən hamarlanmışdır. Qablardan birinin üzəri qırmızı boya ilə örtülmüşdür. Onlardan biri kasa tipli qaba aid olub qalındivarlıdır. Ağzının kənarı saxlanmışdır. Gövdəsi

qabarıq olub ağzının altı enli batıq zolaqla əhatə edilmişdir. Onun xarici səthinə qırmızı boya çəkilərək cilalanmışdır.

Boz rəngli keramika məmulatı narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş, xaricdən hamarlanmışdır.

Dən daşları boz rəngli tuf daşlarından olub kiçik qırıqlardan ibarətdir. Qırıqlarına əsasən onların qayıqşəkilli formada olduğunu demək olar.

Yaşayış yerinin şimal-qərb hissəsində qədim nekropol qeydə alınmışdır. Qəbirlərin bir qurupu traktorun açdığı yarğana düşdüyündən dağıdılmışdır. Dağıdılmış sahədə kül yığınına, insan skeletinin qalıqlarına və boz rəngli gil qab qırıqlarına təsadüf olunmuşdur. Belə hesab etmək olar ki, yaşayış yerində həyat uzun müddət davam etmiş və onun bir hissəsindən qəbirstanlıq kimi istifadə edilmişdir.

Yaşayış yerində toplanmış arxeoloji materialların analizi onları e.ə. XI-VI əsrlərə aid etməyə imkan verir. Ola bilsin ki, yaşayış yerinin ətrafında sonrakı dövrlərdə də həyat davam etmişdir.

**5. Qarnıyarıq yaşayış yeri** Naxçıvançayın sol sahilində, Kiçik Qafqaz silsiləsinin çaya doğru uzanan hündür çıxıntısı üzərində yerləşir. Yaşayış yeri 1987-ci ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınıb, sahəsi 6200 kv.m-dir. O, hər tərəfdən dərin dərə ilə əhatə olunmuşdur, şimal-şərq tərəfdə ensiz bir zolaqla dağ silsiləsilə əlaqələnir. Yaşayış yerinin ərazisi girintili-çıxıntılıdır. Mədəni təbəqə uzun illər ərzində təbii aşınmaya məruz qaldığından tamamilə dağılmış və olduqca pis saxlanmışdır. Tikinti qalıqları dağılmış və ətrafa səpələnmişdir.

Yaşayış yerindən toplanmış materiallar gil qab qırıqları, əmək alətləri və silahlardan ibarətdir. Gil qablar çəhrayı rəngdə bişirilmişdir.

Çəhrayı rəngli gil məmulatı küpə tipli qablardan ibarətdir. Onların gilinə narın qum qatılmış, bəzən yaxşı, bəzən isə qeyri-bərabər bişirilmişdir. Küpələr ağzının formalarına görə bir-birindən fərqlənir. Onların boğazı konusvari, gövdəsi qabarıqdır. Bəzi küpələrin üzərinə qırmızı boya çəkilmiş, bəzən isə uzunsov çərtmələrlə naxışlanmışdır.

Boz rəngli gil məmulatı küpə və qədəh qırıqlarından ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir.

Küpələr ağzının formalarına görə fərqlənir. Onların boğazı konusvari, gövdəsi qabarıqdır. Bəzi qabların üzərinə qara boya çəkilərək cilalanmışdır. Qədəhlərin yalnız oturacaq hissələri saxlanmışdar.

Əmək alətləri əsasən tufdan və obsidiandan hazırlanmışdır. Onlar dən daşı, dəstər, oraq dişi və qaşovlardan ibarətdir.

Dən daşları alt və üst hissədən ibarətdir. Alt daşlar qayıqvari, üst daşlar isə oval formadadır. Onlar boz və qara rəngli tufdan hazırlanmışdır.

Oraq dişləri iki ədəddir. Onlar obsidiandan hazırlanmışdır. Oraq dişlərinin biri uc, o biri isə orta hissəyə aid olub dişəklənmişdir.

Əmək alətlərinə bir ədəd gil iy başlığı da daxildir. O, iri qum qarışığı olan gildən hazırlanmış, boz rəngdə qeyri-bərabər bişirilmişdir. O, diskşəkilli formadadır. Ortasından deşik açılmışdır.



Şəkil 93. Qarnıyarıq (Kolanı) yaşayış yerinin maddi-mədəniyyət nümunələri

Silahlar iki ədəd obsidian ox ucluqlarından ibarətdir. Onlar üçbucaq formalı olub birinin ucu qırılmışdır. Üçbucaq formalı ox ucluqları hər iki üzdən dişəklənmişdir. Ox ucluqlarının oturacağında dərin oyuq açılmışdır.

Qarnıyarıq yaşayış yerindən aşkar edilmiş materiallar onunla yanaşı yerləşən nekropolun materialları ilə həmdövr olub e.ə. I minilliyin əvvəllərinə aiddir.

**6. Şamlar yaşayış yeri** Şahbuz rayonunun Qarababa və Mahmudoba kəndləri arasında Naxçıvançayın sol sahilində yerləşir. O, qövs şəkilli formada birləşən iki təpəni və onların ətəyini əhatə edir. Yaşayış yeri şimal-şərq tərəfdən quru çay vadisi ilə məhdudlaşır. Yaşayış yerinin yerləşdiyi təpələrdən biri hündür olub qayalıqlarla əhatə olunmuşdur. Abidə 1987-ci ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Sahəsi 1500 kv.m-dir. Yaşayış yerinin zəngin bitki örtüyü yay vaxtı tamamilə quruyur. Yaşayış yerini əhatə edən dağlar əsasən çılpaq olub yalnız qısa boylu bitki örtüyünə malikdir. Bəzi yerlərdə itburnu və yemişan kollarına təsadüf olunur. Yerüstü materiallar çəhrayı və boz rəngli qab qırıqlarından, dən daşları və dəstərlərdən ibarətdir.




Şəkil 94. Şamlar yaşayış yerinin keramikası

Boz rəngli gil məmulatı küpə və kasalardan, çəhrayı rəngli gil məmulatı isə küpə, kasa və badyalardan ibarətdir. Çəhrayı rəngli gil məmulatı bişməsinə görə bir-birindən fərqlənir. Onların bəzisi yaxşı, bəzisi isə qeyri-bərabər

bişirilmiş, divarları arasında boz təbəqə saxlanmışdır. Küpələrdən birinin üzəri yaxşı hamarlanmış, ikincisi isə hər iki üzdən qırmızı boya ilə örtülmüşdür Badya tipli qabın gilinə narın qum qatılmış, yaxşı bişirilmişdir. O, içəridən boz astarlıdır. Qabın gövdəsi qabarıq olub, ağız hissədə bir qədər yığılmışdır. Ağzının kənarı enli və üçbucaqşəkilli olub, dairəvi deşik açılmışdır.

Dən daşları çəhrayı rəngli tuf daşından hazırlanmışdır. Binaların yerlərini yalnız nizamsız şəkildə tökülmüş daş yığınlarına əsasən müəyyən etmək olar. Daşların çoxu yerli əhali tərəfindən sökülüb aparılmışdır. Mədəni təbəqə yalnız bəzi yerlərdə saxlanmışdır. Təbəqənin yaxşı saxlandığı güman olunan yerdə 2 X 3 m ölçüdə kəşfiyyat şurfu qoyuldu. Təbəqə olduqca pis saxlanmışdı. Mədəni təbəqə yumşaq torpaq laylarından ibarət idi. Bəzən kiçik həcmli qaya parçalarına təsadüf olunurdu. Qazıntı sahəsində 0,5 m dərinlikdən başlayaraq kül qalıqlarına təsadüf edilməyə başladı. Kül qalığı əsasən sahənin şimal-qərb hissəsinə yayılmışdı. Kül qalığı təmizlənərkən müəyyən edildi ki, burada iri bir daşın dibində oval formalı ocaq olmuşdur. Ocağın ətrafından çəhrayı və boz rəngdə bişirilmiş gil qab qırıqları tapıldı. Sahədə 1m dərinlikdən başlayaraq material verməyən bərk təbəqə və qaya daşları üzə çıxdı.

Şurfdan aşkar edilmiş materiallar üç küpə qırığından ibarətdir Onların gilinə narın qum qatılmış, çəhrayı rəngdə qeyri-bərabər bişirilmişdir; divarları arasında boz təbəqə saxlanmışdır. Qablardan birinin üzəri yüngülcə cilalanmış və qırmızı rənglə naxışlanmışdır .

Şurfdan toplanmış materialları e.ə. IV-III əsrlərə aid etmək olar. Yerüstü materiallar içərisində çəhrayı rəngli gil məmulatı üstünlük təşkil edir. Bu materiallar e.ə. I minilliyin birinci yarısı üçün xarakterikdir. Materialların analizinə əsasən abidəni e.ə. IX-IV əsrlərə aid etmək olar.

**7. Şapurqala** Şahbuz rayonunun eyniadlı kəndi - Şahbuzkənd yaxınlığında, Naxçıvançayın sol sahilində hər tərəfdən sıldırım qayalarla əhatə olunmuş hündür dağın üzərində yerləşir. Xalq arasında çoxdan məlum olmasına baxmayaraq, arxeoloji abidə kimi 1990-cı ildə qeydə alınmışdır, sahəsi 1300 kv.m-dir. Qalaya qalxan yol qayalıq olub olduqca çətin keçirilir. Yolun üstündə yerli əhali tərəfindən ziyarət olunan Pir vardır. Pirdən bir qədər üstdə hər tərəfdən qayalarla əhatə olunmuş meydança yerləşir. Burada uçub tökülmüş tikinti qalıqlarına və forma verməyən çəhrayı rəngli gil qab qırıqlarına təsadüf olunur.

Qalaya qayaların üzərində salınmış dar cığırla cənub-şərq tərəfdən qalxmaq mümkündür. Bu qalanın yeganə yoludur. Qalaya qalxan cığır kiçik meydançaya çıxır. Burada qayanın üzərində diametri 1,2 m olan dairəvi quyu qazılmışdır. Quyunun içərisi torpaqla dolmuşdu. Torpaq təmizlənərkən heç bir maddi-mədəniyyət qalığı tapılmadı. Onun dərinliyi 1,3 m idi. Quyunun ətrafına çəhrayı rəngli gil qab qırıqları səpələnmişdi. Yeri gəlmişkən qeyd edək ki, Əlincə qalada da hovuzlar qayanın aşağı hissəsində qazılmış və su ehtiyatı saxlamaq məqsədi daşımışdır.

Kiçik meydançadan qalaya yalnız qayaların üzəri ilə dırmanmaq olur. Qalanın yerləşdiyi meydança çoxbucaqlı şəklindədir. Meydançanın hündür yeri onun cənub-şərqində yerləşən iri qayadır. Qayanın içərisində dördkünc formalı otaq qazılmışdır. Onun uzunluğu 4 m, eni 3,6 m-dir. Otaq qapıya tərəf yığıldığından onun qapı yerləşən divarı əks tərəfdə olan arxa divardan bir qədər qısa idi. Arxa divarda yuxarıya çıxmaq üçün daş pilləkən düzəldilmişdir. Otağın içərisi əhəng qarışıq torpaqla dolmuşdu. Yerli əhalinin verdiyi məlumata görə, onun içərisi xəzinə axtaranlar tərəfindən bir neçə dəfə qazılmışdır. Otağın döşəməsində dördkünc formalı oyuq açılmışdır. Onun içərisi torpaqla dolmuşdu. Uçub-tökülmüş tikinti qalıqları içərisində kvadrat formalı bişmiş kərpiclərə təsadüf olunurdu. Onların ölçüsü 19 x 19, 5 sm idi. Otağın qərb divarında rombşəkilli taxça düzəldilmiş, taxçanın altında divar yarımdairəvi şəkildə yonulmuşdu. Taxçanın içərisi çoxüzlü formada idi. Onun içərisi hislənmişdir.



Şəkil 95. Şahbuz və Şapurqala yaşayış yerinin keramikası.
1-6 – Şapurqala, 7-11- Şahbuz

Qalanın içərisində qayada çapılmış daha iki otağa təsadüf edildi. Onlar bir-birini təkrar edirdi. İkinci otağın uzunluğu 4 m, eni 2,5 m, qapının eni 1m-dir. Üçüncü otağın uzunluğu 4,5 m, eni 3 m, qapının eni 80 sm-dir.

Abidənin üzərindən toplanmış materialların əksəriyyəti şirsiz və şirli saxsı qabların qırıqlarından ibarətdir. Saxsıları çəhrayı rəngli olub yaxşı bişirilmişdir. Onlar nimçə, kasa və küpələrdən ibarətdir.

Qalanın mərkəzi hissəsində tamamilə dağıdılmış tikinti qalıqlarına, bişmiş kərpic və çəhrayı rəngli gil qab qırıqlarına təsadüf edilirdi. Bu sahədə mədəni təbəqəni yoxlamaq üçün 2,5 x 2,5 m ölçüdə şurf qoyuldu. Qazıntı zamanı kül qalıqları izləndi və forma verməyən çəhrayı və boz rəngli gil qab qırıqları tapıldı. Təbəqə 0,5 m dərinlikdə qurtarırdı. Bu səviyyədə dən daşlarının qırıqları və bişmiş kərpiclərdən qurulmuş dairəvi formada olan ocaq yerinə təsadüf olundu. Ocağın içərisi boz rəngli küllə dolmuşdu. Başqa maddi-mədəniyyət qalıqlarına təsadüf olunmadı.

Şapurqaladan toplanmış gil məmulatına və tikinti qalıqlarına əsasən demək olar ki, burada eramızın ilk əsrlərindən XV-XVI əsrlərədək həyat davam etmişdir. Şapurqaladan həm müdafiə məqsədilə, həm də gözətçi məntəqəsi kimi istifadə edilmişdir.

**8. Şahbuz yaşayış yeri** Şahbuz rayonunun eyniadlı kəndi yaxınlığında Naxçıvançayın sol sahilində Şapurqalanın yerləşdiyi dağın ətəyində yerləşir. Yaşayış yeri ensiz zolaq şəklində çay boyunca uzanır. 1990-cı ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır, yaşayış yerinin sahəsi 1500 kv.m-dir.

Yaşayış yerində möhrə və daşdan tikilmiş bina qalıqları saxlanmışdır. Binaların əksəriyyəti daş ovuğu qatılmış möhrədən tikilmişdir. Bəzi binaların özülü daşdan, divarları isə möhrədən tikilmişdir. Onlar dördkünc formalıdır. Divarların bəzisi yaxşı saxlanmışdır .

Yaşayış yerində mədəni təbəqə qeyri-bərabər saxlanmışdır. Təbəqənin qalınlığı yaşayış yerində əmələ gəlmiş yarğanlarda və traktorun yol çəkərkən açdığı kəsikdə yaxşı izlənir. Yaşayış yerinin mərkəzi hissəsində təbəqənin qalınlığı 2-2,5 m-ə çatır. Mərkəzdən kənara doğru təbəqənin qalınlığı tədricən azalır. Təbəqə kül qarışığı olan torpaq laylarından və gil qab qırıqlarından ibarətdir. Yaşayış yerinin bir hissəsi yeni salınmış evlərin və yolun tikintisi zamanı dağıdılmışdır.

Yaşayış yerinin yuxarı qurtaracağında qəbirstanlıq vardır. Naxçıvançayın sağ sahilində Şahbuz kəndi içərisində çəkilmiş kəhriz hazırda kəndin əsas içməli su mənbələrindən biridir. Şübhəsiz ki, yaşayaş yeri vaxtilə çayın sağ sahilini də əhatə etmiş, hazırda yaşayaş yerinin yalnız sol sahil hissəsi salamat qalmışdır. Yeri gəlmişkən qeyd edək ki, Şahbuz bulaqlarından Naxçıvan şəhərinə doğru uzanan kəhriz sistemləri Naxçıvan şəhərinin su təchizatında mühüm rol oynamışdır. Su bir neçə kəhriz sistemi vasitəsilə inkişaf etmiş orta əsrlərdə Naxçıvan şəhərinə gətirilmişdir. Kəhrizlər yeraltı suxurların möhkəmliyindən asılı olaraq təbii vəziyyətdə saxlanılır, uçub tökülmə ehtimalı olan yerlərdə 19 x 19 x 4 sm ölçülü bişmiş kərpiclərlə bərkidilirdi.

Şahbuz yaşıyış yerində aparılmış arxeoloji tədqiqatlar nəticəsində müəyyən edildi ki, kəhriz sistemindən su tüngləri vasitəsilə yaşayış yerinə su çəkilmişdir.

Su tünglərinin bir tərəfi geniş, ikinci tərəfi isə dar olub asanlıqla bir-birinə keçirilmişdir. Bərkidici məhlul kimi gəc, gil, əhəng və müxtəlif qarışıqlardan istifadə edilmişdir.

Toplanılmış yerüstü materialların əksəriyyəti çəhrayı rəngdə bişirilmiş, şirli və şirsiz keramikadan ibarətdir. Qabların bir qrupu narın qum qarışığı olan gildən hazırlanmışdır. Onlar əsasən kasa tipli qablardan ibarətdir. Kasalar formaca bir-birindən fərqlənirlər. Qablardan birinin ağzının kənarı relsşəkilli olub, gövdəsi konusvaridir. Ağzının kənarı dalğalı naxışlanmış, içərisi yüngülcə cilalanmışdır

İkinci qrup qablar qum qatılmamış gildən hazırlanmış çəhrayı, bəzən isə boz rəngdə bişirilmişdir. Bəzi qablar qeyri-bərabər bişirilmiş divarları arasında bişməmiş təbəqə saxlanmışdır.

Yaşayış yerinin hazırda saxlanmış tikililəri Orta əsrlərə aiddir. Yerüstü materiallar əsasən Son Orta əsrlərə aiddir. Onların içərisində eramızın ilk əsrlərinə və Erkən Orta əsrlərə aid gil qab qırıqlarına da təsadüf olunur. Abidədə yaşayış eramızın əvvəllərindən başlayaraq XVII-XVIII əsrlərədək davam etmişdir.

**9. Köhnə qala yaşayış yeri.** Şahbuz rayonunda Kənd Şahbuz yaxınlığında Şapurqaladan xeyli yuxarıda yerləşir. Yaşayış yeri 1990-cı ildə qeydə alınmışdır, sahəsi 10 hektardan artıqdır. Qala hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Onun zəngin bitki örtüyü vardır. Yaşayış yeri və onu əhatə edən dağlar seyrək kollarla örtülmüşdür. Yaşayış yerində aparılan kəşfiyyat işləri zamanı forma verməyən gil qab parçaları aşkar edilmişdir. Yaşayış yerinin cənub şərq hissəsində daşdan tikilmiş divar qılıqları saxlanmışdır. Araşdırmalar göstərir ki, daş divarlar yalnız yaşayış yerinin təbii cəhətdən müdafiə olunmayan hissəsinə çəkilmişdir. Bir hissədə müdafiə divarı xeyli irəliyə çıxmışdır. Onun uzunluğu 65 m, eni 1,5 m-dir. Divar yanlarda iri daşlarla hörülmüş, onların arasına kiçik daşlar doldurulmuşdur. Bərkidici maddə kimi gildən istifadə edilmişdir. Divar qalıqları yaşayış yerinin cənub-şərq yamacı boyunca 150 m-lik bir məsafədə izlənilir.

Yaşayış yerində mədəni təbəqə saxlanmamışdır. Ehtimal ki, burada hərbi qüvvələr yerləşdirilmiş , qaladan isə müdafiə məqsədilə istifadə edilmişdir.

Yerüstü materiallar dəmir əşyalardan, şirli və şirsiz saxsı məmulatından, şüşə qab hissələrindən ibarətdir.

Şirsiz saxsı məmulatı küp, qazan tipli qablara aiddir. Qalın divarlı küplərin dar boğazları vardır. Ağzının kənarları xaricə qatlanmışdır. Şarşəkilli gövdəsinə xaricdən relyefli kəmər birləşdirilmişdir. Kəmərin səthi barmaq basılmaqla, bəziləri isə çərtilməklə bəzədilmişdir. Küplər dulus çarxında səliqəli hazırlanmış

hər iki tərəfdən qaramtıl anqob təbəqəsi ilə örtülmüşdür. Saxsısı çəhrayı rənglidir. Ondan təsərrüfat məqsədilə istifadə edilmişdir.

Qazan tipli qabların sınıqları xaricdən qalın his təbəqəsi ilə örtülmüşdür. Lentvari formalı qulpları ağzının kənarlarından xeyli yuxarı qaldırılmışdır. Bu cəhət Naxçıvanın XIV-XVII əsr şirsiz qazanları üçün səciyyəvidir. Oda davamlı gildən hazırlanmış saxsıları bozumtul rənglidir.

Şirli saxsı məmulatı kasa, boşqab tipli qablar və çıraq hissələrindən ibarətdir. Sınıqlar kiçik ölçülü olduğundan qabların tam formasını bərpa etmək imkan xaricindədir. Onların (çıraqlar istisna olmaqla) hamısı nazik divarlıdır. Dulus çarxında hazırlanmış bu qablar ağ anqob üzərindən müxtəlif üsullarla bəzədilmişdir. Bəziləri yaşıl, yaxud göy rəngli şirlə örtülmüş, digər qurupu anqob üstü qravirovka üsulu ilə bəzədilmişdir. Üçüncü qrup şirli saxsı məmulatı anqob üzərindən bozumtul qara rənglə işlənmiş nabati təsvirlərlə bəzədilmişdir.

Aşkar edilmiş gil məmulatı Son Orta əsrlər üçün xarakterikdir. Abidəni təqribən XIV-XVIII əsrlərə aid etmək olar.



Şəkil 96. Ağbulaq və Qızıltapılan yaşayış yerinin maddi-mədəniyyəti.
1-5 – Ağbulaq, 4 -13 - Qızıltapılan

**10. Ağbulaq yaşayış yeri** Şahbuz rayonunun Ağbulaq kəndi ərazisində yerləşir. Hazırda yaşayış yeri yeni tikintilərin altında qalmışdır. Yaşayış yeri 1990-cı ildə qeydə alınmışdır, sahəsi 1525 kv.m-dir.

Yaşayış yeri Naxçıvançayın sol sahilində hündür təpənin yamacında yerləşir. Bu ərazi təbii cəhətdən xeyli zəngindər. Yerli əhalinin verdiyi məlumata

görə, kəndin cənub-qərb hissəsində yol çəkilərkən əmələ gəlmiş yarğanda gil qab qırıqları tapılmışdır. Həmin sahə nəzərdən keçirilərkən gil qab qırıqlarının bir hissəsini tədqiqatçılar toplamışdır. Burada aparılan təmizləmə işləri zamanı iri küp və sümük qalıqlarına təsadüf edilmişdir. Tədqiqatlara əsasən demək olar ki, yaşayış yerinin ərazisindən sonralar qəbirstanlıq kimi istifadə olunmuşdur.

Yaşayaş yerinin cənub-qərb hissəsində aparılan kəşfiyyat işləri zamanı aşkar edilmiş gil məmulat narın qum qarışığı olan gildən hazırlanaraq çəhrayı və sarı rəngdə bişirilmişdir.

Yaşayış yerində aşkar edilmiş materiallara əsasən, abidəni e.ə. I və bizim eranın I-II əsrlərinə aid etmək olar.

**11. Xarabalıq yaşayış yeri** Ağbulaq kəndinin şimal-şərq hissəsində yerləşir. Yaşayış yeri 1990-cı ildə qeydə alınmışdır, sahəsi 7 hektardır. Yaşayış yerinin yerləşdiyi ərazi daşlıq olub bir-birinin üzərində yerləşən terraslardan ibarətdir. Terraslar boyunca iri daşlardan tikilmiş divar qalıqları saxlanmışdır. Divarların eni müxtəlif olub bəzi yerlərdə 2 m-ə çatır. Yaşayış yerinin bəzi yerlərində uçub-tökülmüş daş yığınları burada vaxtilə yaşayış binalarının olduğunu göstərir. Lakin bu ərazi uzun müddət əkin sahəsi kimi istifadə edildiyindən yaşayış binaları tamamilə dağıdılmışdır. Burada mədəni təbəqə demək olar ki, saxlanmamışdır. Terraslar boyunca çəkilən divarlar ola bilsin ki, əkin sahələrini müdafiə etmək üçündür. Yaşayış yerində aparılan kəşfiyyat işləri zamanı forma verməyən gil qab parçaları aşkar edilmişdir.

Aşkar edilmiş gil məmulatına əsasən yaşayış yerini İlk orta əsrlərə aid etmək olar.

**12. Kolluq yaşayış yeri** Şahbuz rayonunun Keçili kəndi yaxınlığında kiçik dağ çayının sol sahilində yerləşir. Yaşayış yeri 1990-cı ildə qeydə alınmışdır, sahəsi 160 kv.m-dir. Yaşayış yeri hündür bitki örtüyü və seyrək kolluqlarla örtülmüşdür. Yaşayış yerinin hər tərəfi yerli əhali tərəfindən istifadə edilən biçənəklərdən ibarətdir. Burada uçub tökülmüş tikinti qalıqlarına təsadüf olunur. Bəzi binaların yerində dördkünc formalı çuxurlar saxlanmışdır. Yaşayış yerinin bəzi hissələrində, xüsusilə çayın sahilinə doğru mədəni təbəqə azacıq da olsa saxlanmışdır. O, kül qarışıq torpaq qatından ibarət olub aşınma nıticəsində dağılmışdır. Burada çəhrayı rəngli gil qab qırıqlarına təsadüf edilir. Lakin maddi-mədəniyyət qalıqları olduqca azdır.

Yaşayış yerinin əks tərəfində, çayın sağ sahilində orta əsr ziyarətgahının qalıqları saxlanmışdır.

Yaşayış yerindən toplanmış gil məmulatı forma verməyən keramikadan ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Bu tapıntılara əsasən yaşayış yerini V-VIII əsrlərə aid etmək olar.

**13. Qızıltapılan yaşayış yeri** Ağbulaq kəndinin şimal-qərb hissəsində, Naxçıvançayın sol sahilində yerləşir. Yaşayış yeri 1990-cı ildə qeydə alınmışdır, sahəsi 3500 kv. m-dir. O, hündür və uzunsov təpənin üzərində yerləşərək üç tərəfdən dərin dərə, bir tərəfdən isə kiçik düzənlik sahə ilə əhatə olunur.

Abidənin şimal-şərq tərəfi arx çəkilərkən dağıdılmış və tikinti qalıqları üzə çıxmışdır. Burada çəhrayı rəngli gil qab qırıqlarına təsadüf edilmişdir. Yaşayış yeri hündür ot və seyrək kolluqla örtülmüşdür.

Abidənin dağıntıya məruz qalmış hissəsində 3 x 3 m ölçüdə kəşfiyyat şurfu qoyuldu. Qazıntı sahəsi iri həcmli çay daşları ilə örtülmüşdür. Çay daşları təmizləndikdən sonra məlum oldu ki, mədəni təbəqənin üzəri qalın torpaq qatı ilə örtülmüşdür. Bu torpaq layı götürülərkən kiçik həcmli daşlara və narıncı rəngdə olan gil qab qırıqlarına təsadüf edilirdi. Qazıntı sahəsində 1 m dərinlikdə iri çay daşlarından hörülmüş tikinti qalığına təsadüf edildi. Tikinti qalıqlarnıdan aşağıda zəngin mədəni təbəqə yerləşirdi.

Burada içərisi küllə dolmuş ocaq yerinə təsadüf olundu. Onun diametri 0,8 m, dərinliyi 0,7 m idi. Badının qalınlığı isə 5 sm-dir. Bad çəhrayı rəngdə olub olduqca pis saxlanmışdı. Kül təmizlənərkən çəhrayı rəngdə bişirilmiş gil qab qırıqlarına, dəmir mıxlara və at nalının bəzi hissələrinə təsadüf olundu. Qazıntı 2 m dərinliyə çatdıqda daş tikinti qalıqları aşkar edildi.

O, iri daşlardan tikilmişdi. Divar sahə boyunca uzanaraq qazıntıdan kənara çıxırdı. Divarın eni 40 sm idi. Yoxlama işləri göstərdi ki, təbəqə bu dərinlikdən aşağı davam etmir. Belə hesab etmək olar ki, mədəni təbəqə 1-2 m qalınlığında olmuşdur.

Qazıntı zamanı aşkar edilmiş materiallar əsasən gil məmulatından ibarət olub çəhrayı və boz rəngdə bişirilmişdir. Çəhrayı rəngdə bişirilmiş gil məmulatı küpə, kasa və banka tipli qabların qırıqlarından ibarətdir.

Boz rəngli gil məmulatı çölmək tipli qabların qırıqları ilə təmsil olunmuşdur. Onların üzərində lentşəkilli qulpun qırığı saxlanmışdır. Onlardan biri iri qum qarışığı olan gildən hazırlanmış üzərində çəhrayı boya izləri saxlanmışdır. Ağzının kənarından gövdəsinin yuxarı hissəsinə birləşən lentşəkilli qulpu vardır .

Aşkar olunmuş maddi-mədəniyyət qalıqlarına əsasən yaşayış yerini Erkən Orta əsrlərə -V-VIII əsrlərə aid etmək olar.

**14. Kəhriz yaşayış yeri.** Şahbuz rayonunun Mahmudoba kəndinin cənubi-qərb qurtaracağında quru çay vadisinin sağ sahilində yerləşir. Yerli əhalinin verdiyi məlumata görə bu ərazidən küp qəbirlər tapılmışdır. Lakin aparılan kəşfiyyat işləri zamanı belə qəbirlərə təsadüf edilmədi.

Yaşayış yeri 1990-cı ildə qeydə alınıb, hazırda saxlanmış sahəsi 4500 kv.m-dir. Yaşayış yerinin bir hissəsi yeni tikintilərin altında qalmış, bir hissəsi isə yarğana düşdüyü üçün dağılmışdır. Abidənin hazırda saxlanmış hissəsində daş tikinti qalıqları və çaydaşından hazırlanmış dən daşlarına təsadüf olunur. Quru çay vadisinin əmələ gətirdiyi yarğanda mədəni təbəqənin əlamətləri izlənir. Maddi-mədəniyyət qalıqları çay boyunca davam edir. Mədəni təbəqə kül yığını, heyvan sümüyü, bad və gil qab qırıqlarından ibarətdir. Təbəqənin üzəri 1-1,5 m qalınlığında xam torpaqla örtülmüşdür. Yaşayış yerinin bu hissəsində 3 x 3 m sahədə kəşfiyyat şurfu qoyuldu. Qazıntı zamanı dairəvi formalı təndir yeri aşkar olundu. O nazik divarlı idi. Qalınlığı 5 sm-olan bad çəhrayı rəngli gildən

hazırlanmışdı. Təndirin diametri 1 m, hündürlüyü 80 sm-dir. Onun içərisi küllə dolmuşdu. Kül təmizlənərkən təndirin içərisindən çəhrayı rəngli gil qab qırıqları, bad qırıqları və iribuynuzlu heyvana aid sümüklər tapılmışdır.

Şurfdan aşkar edilmiş gil məmulatı boz və çəhrayı rəngdə bişirilmiş küpə və banka tipli qabların qırıqlarından ibarətdir. Qabların gilinə narın, bəzisinin gilinə isə iri qum qatılmışdır.

Banka tipli qabın qırığı iri qum qatılmış gildən hazırlanaraq çəhrayı rəngdə bişirilmiş, divarları arasında qalın boz təbəqə saxlanmışdır. Hər iki üzdən kobud hamarlanmış, xarici səthi hislənmişdir.

Yaşayış yerinin yaxınlığında quru çay vadisinin o biri tayında Orta əsr müsəlman qəbirstanlığı yerləşir. Qəbirstanlıqdan cənub-şərqə doğru Danzıl adlanan sahə uzanır. Bu ərazidə xəzinə olması haqqında xalq arasında müxtəlif tipli əfsanələr vardır. Kəhriz yaşayış yerindən toplanmış gil məmulatı əsasında onu Erkən Orta əsrlərə, təqribən III-VII əsrlərə aid etmək olar.

**15. Ordu yurdu yaşayış yeri** Mahmudoba kəndinin şimal-qərb hissəsində, kəndə gedən yolun kənarında yerləşir. Yaşayış yeri 5 hektara yaxın sahəni əhatə edir. Yaşayış yeri hər iki tərəfdən quru çay vadisi ilə əhatə olunmuş alçaq təpələrin üzərində yerləşir. Yaşayış yeri əsasən iki hissədən ibarətdir. Birinci hissə kvadratşəkilli yastı təpədən, ikinci hissə isə xalq arasında «Qərincə» adlanan uzunsov təpədən ibarətdir. Yaşayış yerində mədəni təbəqə demək olar ki, saxlanmamışdır. Yaşayış yerində yerüstü materiallara olduqca az təsadüf olunur. Onlar forma verməyən çəhrayı rəngli gil qab qırıqlarından ibarətdir. Yaşayış yerinin Qərincə adlanan hissəsində divar qalıqları vardır. Onlar təpənin yamacı boyunca təqribən 30 metrlik bir məsafədə salamat qalmışdır. Divarın eni 1 m-dir. O hər tərəfdən iri daşlardan qurulmuşdur. Yaşayış yerində iki yerdə 1 x 1 m sahədə kəşfiyyat şurfu qoyuldu, lakin heç bir maddi-mədəniyyət qalığı aşkar edilmədi. Hazırda yaşayış yeri hər tərəfdən əkin sahələri ilə əhatə olunmuşdur.

Abidəni toplanmış gil qab qırıqlarına əsasən Erkən Orta əsrlərə, təqribən VII-VIII əsrlərə aid etmək olar.

**16. Qızıl Qışlaq yaşayış yeri.** Şahbuz rayonunun Qızıl Qışlaq kəndi yaxınlığında Küküçayın sağ sahilində yerləşir. Abidə 1986-cı ildə qeydə alınmışdır, sahəsi 525 kv. m-dir.

Yaşayış yeri cənub-qərb tərəfdən quru çay ilə məhdudlaşır. Burada uçub-tökülmüş tikinti qalıqlarına rast gəlinir. Yol çəkilərkən yaşayış yerinin bir hissəsi dağıdılmış və tikinti qalıqları aşkar olunmuşdur. Divar qalığının uzunluğu 3 m, eni 1 m-dir. Yerüstü materiallar əsasən çəhrayı rəngli gil məmulatından, o cümlədən şirli qab qırıqlarından ibarətdir. Yaşayış yerindən bir qədər aralıda üzüməzən daşlara təsadüf olunmuşdur. Yaşayış yeri əsasən yamacda yerləşdiyindən vaxtaşırı olaraq yuyulub dağılmış və mədəni təbəqə yığılmamışdır. Yaşayış yerində 2 x 2 m sahədə kəşfiyyat şurfu qoyuldu, lakin heç bir maddi-mədəniyyət qalığı aşkar olunmadı.

Abidədən toplanmış yerüstü materiallar küpə və kasa tipli qab qırıqlarından ibarətdir. Küpələrin biri iri qum qatılmış gildən hazırlanaraq çəhrayı rəngdə bişirilmişdir. O, içəridən boz rəngdə olub hər iki üzdən yaxşı hamarlanmış, xaricdən ağzının kənarına qəhvəyi boya çəkilmişdir .

Abidədən toplanmış yerüstü materiallara əsasən demək olar ki, burada yaşayış eramızın ilk əsrlərindən XIII-XV əsrlərədək davam etmişdir. Mədəni təbəqənin olmaması burada həyatın mövsümü xarakterdə olduğunu göstərir.

**17. Yarnıx yaşayış yeri** Şahbuz rayonunun Yuxarı Remeşin kəndi yaxınlığında yerləşir. Abidə 1990-cı ildə qeydə alınmışdır, sahəsi 625 kv.m-dir. Abidə hündür və uzunsov təpənin üzərində yerləşərək hündür bitki örtüyü və seyrək kolluqlarla örtülmüşdür. Onun cənub-qərb tərəfində təsadüf edilən uçub tökülmüş daş yığınları vaxtilə burada yaşayış binalarının olduğunu göstərir. Bəzi yerlərdə dördkünc formalı otaq yerlərinə rast gəlmək olur. Yaşayış yerində mədəni təbəqə olduqca pis saxlanmışdır, yerüstü materiallara az təsadüf olunur. Aparılan kəşfiyyat işləri nəticəsində abidənin üzərindən çəhrayı rəngli gil qab parçaları tapılmışdır. Yaşayış yerindən forma verməyən gil qab qırıqları və kirəmit qırıqları da tapılmışdır.

Yaşayış yerinin yaxınlığında nekropol vardır. O təpənin yamacında yerləşərək yaşayış yeri ilə nalşəkilli formada birləşir. Şübhəsiz ki, nekropol yaşayış yerinə aiddir və onunla həmdövrdür. Yarnıx yaşayış yerindən toplanmış yerüstü materiallara əsaslanaraq onu V-VIIIəsrlərə aid edirik.

**18. Dəlmə yaşayış yeri** Qızıl Qışlaq kəndindən şimal-qərbdə, Yarnıxdan xeyli aralıda yerləşir. Yaşayış yeri 1990-cı ildə V.Baxşəliyev tərəfindən qeydə alınmışdır, sahəsi 2500 kv. m-dir. Yaşayış yeri hündür təpənin yamacını əhatə edir. Burada aparılan axtarışlar zamanı yerüstü materiallara təsadüf olunmamışdır. Tikinti qalıqları olduqca pis saxlanmışdır, bunlar tamamilə dağılmış, daşları ətrafa səpələnmişdir. Divar qalıqlarını topa Daş yığınlarına əsasən müəyyən etmək mümkündür. Onlar bir-birinə qarışdığından binaların planını izləmək mümkün deyil yaşayış yeri hündür bitki örtüyü və seyrək kollarla örtülmüşdür.

Yaşayış yerinin yaxınlığında nekropol yerləşir, onu yaşayış yerindən torpaq yol ayırır. Qəbirlərin üzərində bütöv sal daşlara təsadüf edilir. Aşkar edilmiş materialların təhlili əsasında yaşayış yerini təqribən V-VIII əsrlərə aid etmək olar.

**19. I Kələki yaşayış yeri** Qızıl Qışlaq kəndinin yaxınlığında, Dəlmədən bir qədər aşağıda, dərənin içərisində yerləşir. Yaşayış yeri 1990-cı ildə qeydə alınmışdır, sahəsi 1250 kv.m-dir. O, hündür təpənin yamacında yerləşərək cənub-şərq tərəfdən düzənlik sahə, şimal-şərqdən isə az Sulu dağ çayı ilə sərhədlənir. Yaşayış yeri çay axan dərənin yamacını və onun üst hissəsini əhatə edir. Tikintilər əsasən daşdan olub güclü dağıntıya məruz qalmışdır. Onların planını müəyyənləşdirmək mümkün deyil, yalnız bəzi yerlərdə düzbucuqlı planda saxlanmış divar qalıqları izlənmişdir.

Yaşayış yerinin yaxınlığında Qızıl Qışlaq fermasının binaları yerləşir. Yerli əhalinin məlumatına görə yaşayış yerinin daşları sökülərək bu binaların tikintisində istifadə edilmişdir.

Aparılan axtarışlar zamanı yaşayış yerindən çəhrayı rəngli gil qab qırıqları toplanmışdır. Onlar əsasən forma verməyən kiçik hissələrdən ibarətdir. Qablar hər iki üzdən çəhrayı olub kəsikdə boz rəngdədir. Saxsı məmulatı içərisində badya tipli qaba aid bir qırıq vardır. Onun gilinə iri qum qatılaraq çəhrayı rəngdə bişirilmiş, divarları arasında boz təbəqə saxlanmışdır. Badyanın hər iki üzünə qırmızı boya çəkilərək cilalanmışdır. Onun gövdəsi silindrik, ağzının kənarı pilləlidir. Yaşayış yerinin yaxınlığında, çayın o biri tayında nekropol vardır.

Aşkar olunmuş gil məmulatının analizinə əsasən yaşayış yerini V-VII əsrlərə aid etmək olar.

**20. II Kələki yaşayış yeri** Şahbuz rayonunun Aşağı və Yuxarı Qışlaq kəndləri arasında, Y.Qışlağa gedən yolun sağ tərəfində yerləşir. Yaşayış yeri 1990-cı ildə qeydə alınmışdır, sahəsi 41500 kv.m-dir.

Yaşayış yeri hər tərəfdən dərin dərələrlə əhatə olunmuş dağın yamacında yerləşir. Dərələrdən azsulu çaylar axır. Abidə çayların birləşdiyi yerdən bir qədər yuxarıdadır. Onun yaxınlığında yerli əhali tərəfindən ziyarət olunan pir vardır yaşayış yerinin əsas hissəsi bulduzerlə kürünərək terraslanmış və əkin sahəsi kimi istifadə edilmişdir. Yaşayış yerində mədəni təbəqə tamamilə dağıdılmışdır. Odur ki, burada aparılan kəşfiyyat işləri lazımi nəticə vermədi. Yaşayış yerinin mərkəzi hissəsində uçub-tökülmüş tikinti qalıqlarına təsadüf olunur, lakin onlar tamamilə dağıdıldığından ölçülərini müəyyən etmək mümkün olmamışdır.

Yerüstü materiallar əsasən çəhrayı və boz rəngdə bişirilmiş gil qab qırıqlarından, o cümlədən şirli qablardan ibarətdir.

Çəhrayı rəngli gil məmulatı küpə, kasa və banka tipli qabların qırıqlarından ibarətdir.

Boz rəngli gil məmulatı isə küpə və çölmək qırığından ibarətdir. Küpələrin gilinə narın qum qatılmış, boz rəngdə yaxşı bişirilərək, hər iki üzdən hamarlanmışdır.

Şirli qablar kasa tipli qabların qırıqlarından ibarətdir. Qabların biri səliqəli hazırlanaraq, çəhrayı rəngdə bişirilmiş, səthi göy rənglə şirlənmişdir .

Yaşayış yerinin yaxınlığında məbəd yeri vardır. O, yaşayış yerindən dərin dərə ilə ayrılmışdır. Məbəd tamamilə dağıdılmışdır. Burada yerin üstünə səpələnmiş kirəmit və saxsı boru qırıqlarına təsadüf olunur. Abidəni aşkar edilmiş materialların dövrünə uyğun olaraq VIII-XIII əsrlərə aid etmək olar.

**21. Kolanı yaşayış yeri** Şahbuz rayonunun Kolanı kəndinin içərisində yerləşir. Abidə 1990-cı ildə qeydə alınmışdır, sahəsi 9500 kv.m-dir. Yerli əhalinin verdiyi məlumata görə, bu təpənin ətəyindən vaxtilə qəbirlər aşkar edilmişdir. Aparılan kəşfiyyat işləri təpənin cənub-şərq hissəsində müsəlman qəbirlərinin olduğunu göstərir. Onlar XIX əsrin sonları və XX əsrin əvvəllərinə aiddir.

Təpənin üzərində aparılan axtarışlar zamanı dağıdılmış tikinti qalıqları, çəhrayı rəngli gil qab qırıqları aşkar edildi. Yaşayış yerinin bəzi hissələrində kül qalıqları izlənir. Buradan az miqdarda maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

Hazırda bu təpənin üstündə məscid tikilmişdir. İstər məscidin tikintisi, istərsə də yol çəkilərkən təpənin müəyyən hissəsi dağıdılmışdır. Dağıntı zamanı əmələ gələn kəsiklərdə mədəni təbəqəyə təsadüf edilməmişdir. Abidənin üzərindən toplanmış materiallar çəhrayı və boz rəngdə bişirilmiş gil qırıqlarından ibarətdir.

Aşkar edilmiş materiallara əsasən, abidəni V-VIII əsrlərə aid etmək olar.

**22. Söyüdlü yaşayış yeri** Şahbuz rayonunun Kolanı kəndindən şimalda, ondan xeyli aralıda yerləşir. Abidə 1987-ci ildə qeydə alınmışdır, sahəsi 12500 kv.m-dir. Yaşayış yeri hündür təpənin yamacında yerləşir. O, şimal-şərq tərəfdən dərin dərə ilə məhdudlaşır. Dərənin o biri yamacında gur sulu bulaq vardır. Dərənin hər iki tərəfində iri böyük söyüd ağacları vardır ki, yerin adı da buna görə verilmişdir. Hazırda burada Kolanı kəndinin obası düşür. Yaşayış yerinin ərazisi zəngin bitki örtüyünə malikdir, bəzi yerlər, xüsusilə cənub-şərq hissə qayalıqdır. Burada uçub-tökülmüş tikinti qalıqları aydın nəzərə çarpır. Tikintilər tamamilə dağıldığından onların planını müəyyən etmək mümkün deyil. Yaşayış yerinin cənub-şərq hissəsində üzərində qarışıq xətlər olan iri daşlara təsadüf olundu.

Yaşayış yerində mədəni təbəqə az saxlanmışdır. Yerüstü materiallar gil qab qırıqlarından ibarətdir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmişdir. Bəzi qab qırıqlarının üzəri qırmızı boya ilə, bəzisi isə yaşıl şirlə örtülmüşdür.

Şirli qab sınıqları kasa tipli qablara aiddir. Dulus çarxında formalaşdırılmış bu tip qablar nazik divarlıdır. Saxsıları çəhrayı rənglidir. Bir qisminin divarları hər iki tərəfdən anqob üstü ornamentlə naxışlanmış, birrəngli şirlə örtülmüşdür.

Şirli qablar arasında ağ anqob üzərindən həndəsi və nəbati təsvirlərlə bəzədilmiş keramika nümunələri də vardır.

Materialların təhlili göstərir ki, burada aşkar edilmiş şirli saxsı məmulatı həmin yaşayış yerlərində istehsal edilməmişdir. Onlar üzərində Naxçıvan şəhəri dulusçularının əl izləri aydınca görünür.

Yaşayış yerindən bir qədər aralıda müsəlman nekropolu vardır. Qəbirlər traktorla dağıdılmış, qəbirüstü daşlar qırılmışdır .

Aşkar olunmuş materiallara əsasən, yaşayış yerini IX-XV əsrlərə aid etmək olar.

**23. Quzey yaşayış yeri** Şahbuz rayonunun Kolanı kəndindən cənub-şərqdə yerləşir. Abidə 1986-cı ildə qeydə alınmışdır, sahəsi 6500 kv.m-dir.

Yaşayış yeri hündür dağın yastı yamacında, azsulu dağ çayının sağ sahilində (Naxçıvançayın sol sahili) yerləşir. Abidə cənub-qərbdən dərin dərə ilə məhdudlaşır. Yaşayış yerini əhatə edən dağlar hündür ot və seyrək kollarla örtül-

müşdür. Yaşayış yerinin ərazisində bir neçə yerdə uçub tökülmüş daş yığınlarına təsadüf olunur. Yaşayış yerində mədəni təbəqə demək olar ki, saxlanmamışdır.

Axtarış zamanı çəhrayı rəngdə bişirilmiş qab parçaları əldə edilmişdir. Onlardan bəzisi forma verməyən parçalar, bəzisi isə kasa tipli qabın parçaları ilə təmsil olunmuşdur. Qablar hər iki üzdən yaxşı hamarlanmış,onların xarici səthi qırmızı boya ilə örtülərək cilalanmışdır.

Yaşayış yerindən bir qədər aralıda nekropol yerləşir. Onların üzəri iri sal daşlarla örtülmüşdür. Daşların bəzisinin küncündə dairəvi deşik açılmışdır. Yaşayış yerini təqribən V-VIII əsrlərə aid etmək olar.

**24. Məzrə yaşayış yeri** Şahbuz rayonunun Mahmudoba kəndindən şimal-şərqdə keçmiş Məzrə kəndinin xarabalıqlarından bir qədər yuxarıda yerləşir. Yaşayış yeri 1986-cı ildə qeydə alınmışdır, sahəsi 5200 kv.m-dir. Yaşayış yerinin ərazisi otla örtülmüşdür. Hazırda yaşayış yerində uçub-tökülmüş tikinti qalıqlarına təsadüf edilir. Tikintilərin əksəriyyəti dağılaraq formasını itirmişdir. Bəzi yerlərdə dördkünc formada çalalara təsadüf olunur. Yaşayış yerinin ərazisi əkin sahəsi kimi istifadə edildiyindən mədəni təbəqə tamamilə dağılmışdır. Sel sularının yuyub açdığı yarğanlarda təbəqənin qalınlığı bəzi yerlərdə 50 sm-ə çatır.

Yaşayış yerinin şimal-qərb hissəsində qədim kurqanların olduğu güman olunan yerdə bizim tərəfimizdən qazıntı işləri aparıldı, lakin heç bir maddi-mədəniyyət qalığı tapılmadı.

Yaşayış yerinin cənub-şərq hissəsində təpənin yamacında yerləşən müsəlman nekropolu vardır. Buradakı qəbir daşlarının üzərində kitabəyə təsadüf olunmamışdır.

Yerüstü materiallar şirsiz və şirli saxsı məmulatından ibarətdir. Şirsiz qabları küp, küpə, səhəng tipli qabların sınıqları təşkil edir. İri həcmli küplər təsərrüfatda işlədilmişdir. Onların saxsısı çəhrayı rənglidir. Qısa boğazlar ağzının kənarlarında xaricə açılmışdır. Ağzı barmaq basılmaqla bəzədilmişdir. Xaricdən gövdəsi dalğavari şəkildə relyef kəmərlə bəzədilmişdir. Bəzilərinin çiyin hissəsi dulus darağı ilə çəkilmiş dalğavari və düz xətlərlə bəzədilmişdir. Küplər hər iki tərəfdən çəhrayı rəngli anqob təbəqəsi ilə örtülmüşdür.

Keramika məmulatı arasında səhəng tipli qablar çoxluq təşkil edir. Dulus çarxında hazırlanmış bu qablar nazik divarlıdır. Çəhrayı rəngli saxsısı yaxşı bişirilmişdir. Dar və qısa boğazlı bu qabların qulpları ağzının kənarlarını çiyninə birləşdirir. Qulplar lentvari formadadır. Səthi anqob təbəqəsi ilə örtülmüşdür.

Səhəng tipli qablar xaricdən dulus darağı ilə çəkilmiş cızma naxışlarla bəzədilmişdir. Qabın çiyin hissəsinə işlənilmiş həndəsi təsvirlər düz və dalğavari xətlərdən ibarətdir.

Şirli saxsı məmulatı kasa və boşqab tipli qabların oturacağına və gövdəsinə məxsusdur. Kasa və boşqab tipli qab oturacaqları hündür dabanlıdır. Onların bir hissəsi anqob üzərindən mavi, bəziləri yaşıl rəngli şirlə örtülmüşdür.

İkinci qrup qablar ağ anqob üzərindən fırça ilə işlənmiş həndəsi və nəbati təsvirlərlə bəzədilmişdir. Həndəsi təsvirlər düz, dairəvi, spiralvari xətlərdən ibarətdir. Təsvirlər Naxçıvan keramikası üçün səciyyəvi olan kölgəli stildə verilmişdir. Şirli saxsı qabların üçüncü qrupu anqob üstü qravirovka üsulu ilə bəzədilib yaşıl, mavi rəngli şirlə örtülmüşdür.

Toplanılmış yerüstü materiallar XIII-XVII əsrlər üçün səciyyəvidir. Bu materiallar əsasında Məzrə yaşayış yerini də həmin dövrə aid etmək olar.

**25. Fərhad evi** Şahbuz rayonunun Biçənək kəndindən şərqdə Batabat yaylağında yerləşir. O, böyük qayanın içərisində çapılmış dörd otaqdan ibarətdir. Onlar bir istiqamətdə gedən düz keçid vasitəsi ilə birləşirlər. Tavanlar tağ şəkillidir. Otaqlar olduqca kobud yonulmuşdur. Onların bəzilərində divarlar boyunca ensiz səkilər düzəldilmişdir. Divarlarda şam, yaxud çıraq qoymaq üçün kiçik taxçalar düzəldilmişdir. Birinci otağın sağ küncündə su ilə dolu çala vardır. Giriş qapısının hündürlüyü 2,20 m, eni 1, 30 m-dir. Xalq arasında Fərhad evi adı ilə tanınan bu abidənin qəbir abidəsi olduğu təsdiq olunmuşdur.

Abidənin girişinin sol tərəfində qazılmış taxçada vaxtilə mixi yazı - kitabə olmuşdur. Lakin kitabə indiyədək saxlanmamış, təbii aşınma nəticəsində dağılmışdır. Kitabənin yerləşdirildiyi uzunsov, dördkünc formalı taxça indiyədək qalmışdır. Abidə Yaxın Şərq ölkələrindən aşkar olunmuş bənzərlərinə əsasən e.ə.VII-VI əsrlərə aid edilir.

**26. Keçili yaşayış yeri** Keçili kəndinin şərq tərəfində yerləşir. Yaşayış yeri seyrək kol və otla örtülmüşdür. Sahəsi 1400 kv.m-dir. Bəzi yerlərdə otlaqların qapısını izləmək mümkündür. Daşdan inşa edilmiş bu otaqlar dördbucaqlı planlıdır. Bərkidici maddə kimi gildən istifadə edilmişdir. Evlərin birinin şərq tərəfində (4 metrlik məsafədə) təndir qalığı aşkar edildi. Təndir badlarda hörülmüş və yaxşı bişirilmişdir. Badlar çəhrayı rəngdədir. Təndirin ən geniş yerdə diametri 90 sm, hündürlüyü 70 sm-dir.

Aparılmış yerüstü tədqiqatlar nəticəsində xeyli miqdarda şirsiz və şirli saxsı məmulatı, tikinti materialları, dəmir əşya qalığı toplanıldı.

Tikinti materialları 19 x 19 x 4 sm ölçüdə olan çəhrayı rəngli bişmiş, çiy kərpiclərdən və daşlardan ibarətdir.

Şirsiz saxsı məmulatı küp, küpə, qazan, qapaq, səhəng tipli qablar və çıraq hissələrindən ibarətdir. Şirsiz saxsı məmulatı nümunələri dulus çarxında səliqəli hazırlanmışdır. Çəhrayı rəngdə bişirilmişdir. Onların bir qrupu cızma və yapma ornamentlə naxışlanmışdır.

Şirli saxsı məmulatı kasa və boşqab sınıqlarından ibarətdir. Saxsıları çəhrayı rənglidir. Dulus çarxında hazırlanmışlar.

Şirli saxsı məmulatını bəzədilmə və şirlənmə texnologiyasına görə üç qurupa bölmək olar.

Birinci qrupa anqob üzərindən göy və yaşıl şirlə örtülmüş qablar daxildir.

İkinci qrupa birrəngli düzəldilib yarımşəffaf şirlə örtülmüş qablar daxildir. Bu tip qablar daxildən və xaricdən zəngin nəbati və həndəsi təsvirlərlə bəzədilmişdir.

Üçüncü qurupa anqob üstü cızma həndəsi xətlərlə bəzədilib mavi rəngli şirlə örtülmüş qablar daxildir.

Dəmir əşyalar mıxlardan (çox güman ki, nallanmada istifadə edilmişdir) və müstəvi formalı dəmir parçasından ibarətdir. Müstəvi formalı dəmir əşyanın bıçaq tiyəsinə məxsus olduğunu ehtimal etmək olar. Materialların dövrünə uyğun olaraq Keçili Orta əsr yaşayış yerini təxminən IX-XIII əsrlərə aid edirik.

**27. Nohur yaşayış yeri** Şahbuz bölgəsinin Ayrınc kəndi yaxınlığında yerləşən Nohur yaşayış yeri Ayrıncçayın sol sahilində yerləşir. Sahəsi 1000 kv.m-dir. Yaşayış yerinin üstü ot və kollarla örtülmüşdür. Evlərin yalnız az bir hissəsinin tikinti qalıqları seçilir. Kvadrat və düzbucaqlı plana malik evlər əhəng daşlarından inşa edilmişdir. Bəzi evlərin özülünün doldurulmasında çay daşlarından da istifadə edilmişdir. Hörgüdə istifadə edilmiş daşların əksəriyyəti yonulmuşdur. Bərkidici maddə kimi istifadə edilmiş gilin tərkibində yad qarışıqlar vardır. Otaqlardan birinin içərisində (6 x 4 m) təmizləmə işləri aparıldı. Nəticədə şirsiz və şirli saxsı məmulatı nümunələri aşkar edildi. Çəhrayı, sarımtıl saxsılı şirsiz qablar qalın divarlı küpə və nazik divarlı səhəng tipli qab sınıqlarından ibarətdir. Səhəng tipli qabın dar və uzun boğazı vardır.

Şirli qab hissələri isə kasa, boşqab sınıqlarından ibarətdir. Onlar bəzədilmə və şirlənmə texnologiyasına görə eynidir. Hamısı anqob üzərindən birrəngli şirlə örtülmüşdür. Materialların təhlili əsasında Nohur yaşayış yerini XI-XIV əsrlərə aid etmək olar.

**28. Eyvaz yaşayış yeri** Ayrınc kəndinin şərq tərəfində dağın sinəsində yerləşir. Sahə kollarla örtülmüşdür. Yaşayış yerində tikinti qalıqlarının əksəriyyəti yaxşı izlənilir. Onlar yerli daşdan düzbucaqlı planda inşa edilmişdir. Otağın eni 3 metr, uzunluğu isə 10 metrdir. Otaqlardan birində təmizləmə işləri apararkən xeyli miqdarda tikinti qalıqları, bir neçə ədəd bişmiş kərpic sınığı (19 x 19 x 4 sm ölçüdə), cüzi miqdarda şirsiz saxsı məmulatı hissələri və ağac tir qalığı aşkar edildi. Möhkəm gövdəli ağac tir qalığından çox güman ki, evin üstünü örtmək üçün istifadə edilmişdir.

Əsas tikinti materialı olan daşların bəziləri (xüsusən bir tərəfləri) daş baltası ilə yonulmuşdur. Onların bəzilərində daş baltasının izi qorunub saxlanmışdır.

Şirsiz saxsı məmulatı nümunələri küpə və səhəng tipli qablara aiddir. Yeri gəlmişkən qeyd edək ki, bu qablar Şahbuz bölgəsi əhalisinin məişətinə sıx daxil olmuşdur.

Küpələr dulus çarxında hazırlanmışlar. Qısa boğazlı, yastı otracaqlıdırlar. Ağzının kənarı xaricə qatlanmışdır. Çəhrayı rəngli saxsısı yaxşı bişirilmişdir. Üzərinə daxildən və xaricdən anqob təbəqəsi çəkilmişdir.

Səhənglər dar və silindrik boğazlıdırlar. Gövdəsinin yuxarı hissəsi şarşəkillidir. Kiçik, yastı oturacaqlı bu qabların saxsısı çəhrayı rənglidir. Hər iki tərəfdən anqob təbəqəsi ilə örtülmüşdür. Eyvaz yaşayış yerini təxminən XIV-XVII əsrlərə aid etmək olar.

**29. Mahmudoba yaşayış yeri** Mahmudoba kəndinin şimal-şərq tərəfində yerləşən yaşayış yerinin sahəsi 1400 kv. m-dir. Yaşayış yeri ot və kollarla örtüldüyündən tikinti qalıqları çətinliklə görünür. Ev qalıqlarının bəziləri dördbucaqlı plana malikdir. 5 x 5 m ölçüdə aparılmış kəşfiyyat qazıntısı nəticəsində müəyyən edildi ki, mədəni təbəqənin dərinliyi 1,5-2 metrdən çox deyildir. Görünür, sel suları nəticəsində mədəni təbəqənin bir hissəsi yuyulub sıradan çıxmışdır. Qazıntıda şirsiz və şirli saxsı məmulatı, mühüm yer tutur.

Şirsiz saxsı məmulatı qazan, səhəng və çıraq hissələrindən ibarətdir. Bozumtul rəngli odadavamlı gildən hazırlanmış qazanların gövdəsi şarşəkillidir. Xaricdən yaxşı hamarlanmış və çox işləndiyindən aşağı hissəsi qalın his təbəqəsi ilə örtülmüşdür. Səhəng tipli qablar, kiçik yastı oturacağa, nazik divara, silindrik dar boğaza, lentvari qulpa malikdir. Çəhrayı rəngli saxsısı məsaməlidir. Xaricdən üzərinə eyni rəngli anqob təbəqəsi çəkilmişdir.

Mahmudoba Orta əsr yaşayış yerindən aşkar edilmiş saxsı məmulatı XIII-XVII əsrlərə aiddir. Abidəni də həmin dövrə aid etmək olar.

**30. Kükü nekropolu** Kəndin içərisində aparılan tikinti işləri zamanı aşkar olunmuşdur. Dağıdılmış abidələr qədim qəbirlərdən ibarət olub kəndin içərisində, yeni tikilmiş məktəbin yaxınlığında yerləşirdi. Nekropol kəndin içərisindən keçən yol boyunca uzanır. Nekropolda iki kurqan tipli qəbir dağıdılmışdı.

Aparılan tədqiqat işləri zamanı birinci qəbrin salamat qalan hissəsi təmizləndi. Qəbirdən bir iri monoxrom boyalı küpə və boz rəngli gil qablar əldə edildi. Onlar torpağın təzyiqindən qırılmışdı. Qablar götürüldükdən sonra iribuynuzlu mala aid sümüklər tapıldı. Qəbrin bəzi yerlərində nazik kül təbəqəsinə təsadüf edilirdi. Bu təbəqə 1 sm qalınlığında olub bəzi yerlərdə qəbir avadanlığının üstünü örtürdü. Qəbrin içərisində müxtəlif dərinliklərdə yerləşən iri daşlara təsadüf edildi. Qəbirin içərisindəki torpaq kənardakı torpaqdan seçilmədiyi üçün onun formasını müəyyən etmək çətin idi. Qəbir avadanlığına və kül qalıqlarına əsasən demək olar ki, onun uzunluğu 2,5 m, salamat qalan hissəsinin eni 0,6 m idi. O, yerin səviyyəsindən 3 m dərinlikdə yerləşirdi. Qəbir kamerası şimal-qərb və cənub-şərq istiqamətində idi. Qəbirdən aşkar olunmuş boyalı küpənin gilinə narın qum qatılmış, çəhrayı rəngdə yaxşı bişirilmiş, üzəri qırmızı boya ilə örtülərək dalğalı xətlərlə naxışlanmışdır. Onun ağzı geniş olub, ağzının kənarı xaricə qatlanmışdır.

Boz rəngli gil məmulatı küpə və kasa tipli qablardan ibarətdir. Küpələrin gilinə iri qum qatılmış, qeyri-bərabər bişirilmişdir. Kəsikdə bəzi yerləri qəhvəyi rəngdədir. Qablar həcmcə bir-birindən fərqlənir. Onların üzəri həndəsi

ornamentlərlə naxışlanmışdır. Naxışlar ştrixlənmiş paralel xətlərdən və romblardan ibarətdir.



Şəkil 97. Kükü kurqanından tapılmış monoxrom boyalı küpə

Kasaların altısı naxışlanma formasına görə eynidir. Bu kasaların gilinə iri və narın qum qatılmış, boz rəngdə qeyri-bərabər bişirilmişdir. Kasaların ağzının kənarları- dəyirmi olub, gövdəsi qabarıq, oturacağı yastıdır. Gövdəsi ağız hissədə bir qədər içəri yığılmışdır. Onların üzəri ştrixlənmiş romb və paralel xətlərlə naxışlanmışdır. Naxışlar bütün kasalarda eynidir. Kasalar xaricdən və daxildən yüngülcə cilalanmışdır. Bəzilərinin üzəri hislənib.

İkinci qəbir tamamilə dağıdılmışdır. Onun salamat qalan hissəsinin uzunluğu 4 m, eni 0,6 m olub birinci ilə eyni istiqamətdə idi. Qəbir avadanlığı əsasən gil qablardan ibarət idi. Burada qəbir avadanlığının üzərini örtən kül qalıqlarına təsadüf edilirdi. Qəbir boyu heyvan sümükləri səpələnmişdi. Sümüklər qəbir avadanlığının yerləşdiyi hissədən bir qədər aşağıda idi. Araşdırmalar zamanı müəyyən edildi ki, burada bütöv öküz skeleti olmuşdur. Qəbir avadanlığının sümük qalıqlarının salamat qalan hissəsi bizim tərəfimizdən toplandı. Mirnəqim Seyidovun verdiyi məlumata görə bu qəbirdən tunc nizə ucluğu və tunc sancaqlar tapılmışdır. Lakin onlardan yalnız nizə ucluğunun qırığını əldə edə bildik.

Qəbir avadanlığı əsasən boz rəngdə bişirilmiş gil qablardan ibarətdir. Onlar küpə, kasa və badya tipli qablarla təmsil olunmuşdur.

Aşkar edilmiş gil məmulatına əsasən Kükü nekropolunu e.ə. III minilliyin sonu və II minilliyin əvvəllərinə aid edirik.




Şəkil 98. Kükü kurqanlarının avadanlığı

**31. I Sarıdərə nekropolu** Birinci nekropol Küküçayın sağ sahilində, kəndə gedən asfalt yolun yaxınlığında olmuşdur. Nekropol yol genişləndirilərkən tamamilə dağıdılmışdır. Dağıdılmış qəbirlərin forması və istiqaməti haqqında heç bir məlumatımız yoxdur. Qəbirlər tamamilə dağıdıldığından onların əlamətlərini müşahidə etmək mümkün olmadı. Belə hesab etmək olar ki, onlar torpaq qəbirlərdən ibarət olmuşdur. Dağıdılmış qəbirlərin avadanlığından yalnız bir neçə ədəd kasa qalmışdır. Bu kasalar formaca eyni olub, narın qum qatılmış gildən hazırlanmış və çəhrayı rəngdə yaxşı bişirilmişdir. Kasaların xarici səthi yaxşı hamarlanmışdır. Onların ağzının kənarı dəyirmi olub, gövdəsi qabarıq, oturacağı yastıdır. Gövdəsi ağıza yaxın bir qədər içəri yığılmışdır. Aşkar edilmiş gil məmulatına əsasən nekropolu e.ə.III minilliyin sonuna aid etmək olar.

**32. II Sarıdərə nekropolu** Küküçayın sağ sahilində yerləşən fermanın üst tərəfində dağ silsiləsinin çaya enən yamacında yerləşir. Nekropol iki tərəfdən quru çay vadisi ilə əhatə olunmuşdur. Burada müxtəlif kollara təsadüf edilir.

Nekropolun üzərində alçaq bitki örtüyü vardır. Nekropolun yerləşdiyi sahə uzun müddət əkin sahəsi kimi istifadə edildiyindən dağıntıya məruz qalmışdır. Nekropolun ərazisində olan kurqanların dördü nisbətən salamat qalmışdır. Onlar şimal-cənub istiqamətində uzanan oval təpələrdən ibarətdir. Təpələrin hündürlüyü1-1,5 m-dir. Buradakı kurqanların biri torpaq işləri görülərkən yerli əhali tərəfindən dağıdılmışdır. Kurqan tamamilə dağıdıldığından qəbir kamerasının formasını müəyyən etmək mümkün olmadı. Yerli əhalinin verdiyi məlumata görə qəbirdə skelet qalıqları olmuşdur. Kurqanın ətrafından boz rəngdə bişirilmiş gil qab qırıqları və bir boz rəngli dən daşının qırığı tapılmışdır.



Şəkil 99. III Sarıdərə nekropolunun avadanlığı

Kurqanların biri V.B.Baxşəliyev tərəfindən 1987-ci ildə tədqiq edilmişdir. Burada uzunluğu 1,5, eni 0,9 m olan möhrə döşəmə üzərində skelet qalıqlarına və dən daşına təsadüf edilmişdir.

Kurqanlardan aşkar edilmiş gil məmulatı əsasən boz rəngdə bişirilmiş kasa tipli qabların qırıqlarından ibarətdir. Onları formasına görə dörd tipə bölünür.




Şəkil 100. Haqqıxlıq nekropolunun avadanlığı

Kurqanların birindən çəhrayı rəngli tuf daşından hazırlanmış alət tapılmışdır. O, dairəvi formalı olub bir üzdən batıq, o biri üzdən isə qabarıqdır. Bəzi yerlərində his qalığı saxlanmışdır.

Aşkar edilmiş gil məmulatının analizi onların e.ə. II minilliyin sonlarına aid olduğunu göstərir.

**33. III Sarıdərə nekropolu** ikinci nekropolun şimal-şərqində, kurqanlardan bir qədər aralıda yerləşir. Nekropol Küküçaya tökülən azsulu çayın yatağına enən yamacda yerləşdiyindən onun bir hissəsi sel suları tərəfindən yuyulub dağıdılmışdır. Nekropol V.B.Baxşəliyev tərəfindən tədqiq edilmişdir. Tədqiqat zamanı nekropolda yeddi qəbir abidəsi öyrənilmişdir. Tədqiq edilən qəbirlər üçün kollektiv dəfn adəti xarakterik olmuşdur. Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, kollektiv dəfnlər təkrar dəfnlər sırasında yaranmışdır. Bəzi qəbirlərin yan daşlarının olmaması bunu təsdiq edir. Qəbirlərin birində itlə dəfn etmə adətinə, digər bir qəbirdə isə dələ kəlləsinin dəfn edilməsinə rastlanmışdır.

Qəbirlərdən aşkar olunan arxeoloji materialların əksəriyyəti boz rəngdə bişirilmiş keramika məmulatından ibarətdir. Keramika məmulatının az bir qismi çəhrayı rənglidir. Qəbir avadanlığının bir qismi tuncdan hazırlanmış boyunbağı, sırğa, üzük və s. əşyalardan ibarətdir. Yeddinci qəbrin materialları arasında altı ədəd obsidian ox ucluğu da vardır.

Sarıdərə nekropolundan aşkar edilmiş yeni materiallar Xocalı-Gədəbəy mədəniyyəti abidələrində özünə geniş analogiya tapır. Sarıdərə nekropolundan aşkar olunmuş materialları e.ə II minilliyin sonuna - e.ə XII-X əsrlərə aid etmək olar.

**34. Haqqıxlıq nekropolu** Şahbuz rayonunun Külüs kəndi yaxınlığında, Külüsçayın sol sahilində, hündür təpənin üzərində yerləşir. Nekropol şimal-şərq və cənub-şərq tərəfdən hündür dağlarla əhatə olunmuşdur. Onun şimal-qərb hissəsi Külüsçaya enən təpəliklərdən ibarətdir. Nekropolun şimal-qərb tərəfindən kiçik dağ çayı axır. Dağ çayı nekropoldan xeyli aralıda Küküçayla birləşir.

Nekropoldakı qəbirlər daş qutulardan ibarətdir. Onlar əsasən təpənin yamacında yerləşdiyi üçün təbii aşınma nəticəsində üzə çıxmış və yerli əhali tərəfindən dağıdılmışdır. Nekropoldan xeyli miqdarda əqiq muncuq tapıldığına görə yerli əhali tərəfindən haqqıxlıq adlandırılmışdır.

Nekropolda 1990-cı ildə V.B.Baxşəliyev tərəfindən tədqiqat aparılmış və dağıdılmış qəbirlərin ikisi təmizlənmişdir.

Birinci qəbir nekropolun şimal-şərq hissəsində yerləşirdi. O, şimal-şərqdən cənub-qərbə doğru yönəlmişdir. Divarlarının yalnız ikisi salamat qalmışdı. Onun salamat qalan hissəsinin uzunluğu 1,3 m eni, 0,4 m idi. Cənub-şərq divarından iki cərgə daş hörgü, cənub-qərb divarından isə bir iri sal daş salamat qalmışdı. Tədqiqat nəticəsində qəbirdən insan skeletinə aid pis saxlanmış sümük qalıqları, gil qab qırıqları və bir ədəd tunc xəncər aşkar edildi.

Gil məmulatı çəhrayı və boz rəngdə bişirilmiş qab hissələrindən ibarətdir. Çəhrayı rəngli gil məmulatı küpə tipli qabların sınıqlarından ibarətdir. Onların

gilinə narın qum qatılmış, əsasən yaxşı bişirilmişdir. Küpələrin gövdəsi şarşəkillidir. Gövdəsinin yuxarı hissəsi cızma xətlər və uzunsov çərtmələrlə naxışlanmışdır. Çəhrayı rəngli qab qırıqlarından birinin silindrik lüləyi vardır.

Boz rəngli gil məmulatı küpə, kasa, çaynik və qədəh tipli qabların qırıqlarından ibarətdir. Küpə tipli qablar formaca müxtəlifdir. Onlar narın qum qarışığı olan gildən hazırlanmışdır. Küpələrin gövdəsi şarşəkilli olub ağzının kənarı xaricə qatlanmış və dəyirmiləşdirilmişdir. Səthi düz və dalğalı xətlərlə, həndəsi fiqurlarla naxışlanmışdır .

Çaynik tipli qabın gövdəsinin və lüləyinin bir hissəsi saxlanmışdır. Onun üzəri qövsşəkilli cızma xətlər, şırım və ştampla vurulmuş ornamentlə naxışlanmışdır .

Qədəh tipli qab bikonus formalı olub ağzının kənarı azacıq xaricə doğru əyilmiş və dəyirmiləşdirilmişdir. Gövdəsinin yuxarı hissəsində halqaşəkilli qulpu vardır. Qulpunda çıxıntı düzəldilmişdir.

Gil məmulatının bir qrupu forma verməyən qırıqlardan ibarətdir. Gövdəsi ağzının kənarına nisbətən xaricə doğru çıxıntılıdır. Onun içərisində konsentrik izlər saxlanmışdır .

Tunc xəncər üçbucaqşəkilli olub yastıtiyəlidir. Tiyə orta hissədə qabarıq olub uca doğru ensizləşir.

Haqqıxlıq nekropolunda qəbirlərin quruluşunu və dəfn adətini müəyyənləşdirmək məqsədilə onların birində tədqiqat aparılmışdır. Qəbrin bir tərəfi tamamilə dağıdılmışdır. Onun üzəri üç iri sal daşla örtülmüşdü. Torpaq örtüyü təmizlənərkən gil qab sınıqlarına təsadüf edildi. Qəbir Daş qutu tipli olub aşağıdan iri sal daşlardan qurulmuş, üzəri isə kiçik daşlarla hörülmüşdür. Kamerası şimal-qərb cənub-şərq istiqamətində idi. Onun üzərindəki daşlar götürülərkən tunc pinset tapılmışdır. Qəbir kamerasının yan daşlarının xeyli hissəsi içəriyə tökülmüşdü. Təmizləmə zamanı qəbir kamerasının şimal-qərb hissəsində heyvan sümüklərinə təsadüf edildi. Qazıntı zamanı 0,4 m dərinlikdə insan skeletinin qalıqları aşkar edildi. Kəllənin üzü şərqə olmaqla üzü üstə düşmüş, ətraf sümükləri qırılmışdı. Çənə sümükləri xeyli aralıda idi. Skeletin ətrafında heyvan və quş fiqurları, gil qab qırıqları aşkar edildi. Kameranın cənub-şərq divarı yaxınlığında bir-birinin yanında iki kəlləyə və qarışıq ətraf sümüklərinə təsadüf edildi. Kəllələr olduqca pis saxlanmışdır, onları bütöv şəkildə əldə etmək mümkün olmadı. Bu skeletlərin ətrafında gil qab qırıqları və heyvan sümükləri aşkar edildi. Kameranın qərb hissəsində 0,9 m dərinlikdə daha iki kəllə aşkar olundu. Onlar üst–üstə düşmüş və tamamilə dağılmışdı. Bu kəllələrin ətrafında əqiq muncuqlar, tunc pilək və plastinkanın qırıqları aşkar olundu. Qəbirin şimal-qərb hissəsində 1,2 m dərinlikdə daha bir kəlləyə təsadüf olundu. Onun ətrafından heyvan sümükləri tapıldı. Dəfn adətinə görə Külüs qəbirləri Sarıdərə və Kolanı qəbirlərinin eynidir. Müşahidələr göstərir ki, skeletlərin bir qismi bükülü vəziyyətdə olmuşdur. Skeletlərin qarışıq olması dəfn

zamanı onların yerinin dəyişdirildiyini göstərir. Qəbirdən aşkar edilmiş gil məmulatı çəhrayı və boz rəngli gil parçalarından və tunc əşyalardan ibarətdir.

Nekropoldan aşkar olunmuş materiallar əsasında onu e.ə. II minilliyin sonu, I minilliyin əvəllərinə aid etmək olar.

**35. Ağbulaq nekropolu** Şahbuz rayonunun Ağbulaq kəndinin içərisində yerləşir. Qəbirlər iri küplərdən ibarətdir. Onlar kənd sakinlərindən birinin həyətində təsərrüffat işləri görülərkən aşkar edilmişdir. Qəbirlər ətraf yerlərə nisbətən bir qədər hündür olan təpə üzərində yerləşir. Bu sahə traktorla kürəndiyi üçün qəbirlər dağıdılmış, iri küp qırıqları ətrafa səpələnmişdir. Dağıdılmış sahədə iri qaya parçalarına təsadüf olunurdu. Burada 4 x 4 m sahədə qazıntı aparıldı. Torpaq daşlı olduğu üçün olduqca çətin qazılırdı. Bəzi yerlərdə boz rəngli çürüntü qalığına təsadüf olunurdu. Qazıntı zamanı 0,4 m dərinlikdə küp qəbirə təsadüf olundu. O, ağzı günbatana olmaqla şərq-qərb istiqamətində idi. Küpün ətrafı bir cərgə daşla dördkünc formada hörülmüşdü. Küp tamamilə əzilmişdi. Əzilmiş vəziyyətdə onun uzunluğu 0,8 m idi .Küpün ətrafı təmizlənərkən heç bir maddi mədəniyyət qalığına təsadüf edilmədi. Küpün ağzına qəra rəngli tək qulplu iri qab qoyulmuşdu. Qab bir neçə hissəyə parçalanmışdı. Dəfn küpü iki qulplu olub, oturacığı əvvəlcədən qırılmışdı. Küpün içərisi torpaqla dolmuş, skelet qalıqları çürüyərək preslənmişdi. Onun kəlləsi küpün ağzına tərəf idi. Küpə təmizlənərkən aqat və şüşə muncuqlar aşkar edildi.

Qəbirdən aşkar edilmiş materiallar keramika məmulatı və muncuqlardan ibarətdir.

İkinci küp qəbir birincidən 5 m aralıda yerləşirdi. Onun üst tərəfi tamamilə dağılmışdı. Küpə şərq-qərb istiqamətində olub içərisi torpaqla dolmuş və tamamilə əzilmişdi. Onun ətrafına kiçik həcmli daşlar düzülmüşdü. Küpün içərisində tamamilə çürümüş skelet qalıqlarına təsadüf edildi. Küpə təmizlənərkən tunc bəzək əşyaları, muncuq və bir ədəd mis pul tapıldı. Küpün ağız tərəfindən bir ədəd çəhrayı rəngdə bişirilmiş su qabı və boz rəngli gil qab qırıqları əldə edildi.

Aşkar olunmuş materialların analizinə əsasən, Ağbulaq nekropolunu e.ə. I və b.e. I-II əsrlərinə aid etmək olar.

**36. Külüs nekropolu** Külüs çayının sol sahilində Haqqıxlıq nekropolundan yuxarıda yerləşən yaşayış yerinin ərazisində, 1990-cı ildə qeydə alınmışdır. Nekropolun yerləşdiyi sahədə daş yığınlarına təsadüf olunur. Sahə qalın bitki və kollarla örtülmüşdür. Qəbirlər yaşayış yerinin şimal tərəfində yamacda yerləşir. Onlar yol çəkilərkən tamamilə dağıdılmışdır. Traktorun dağın yamacında əmələ gətirdiyi kəsikdə mədəni təbəqəyə təsadüf olunmur. Kürənib kənara tökülmüş torpağın içərisində iri və xırda həcmli dağ daşlarına təsadüf edilirdi. Sahədə bir yerdə (2 x 1 m sahədə) boz rəngli kül yığınına təsadüf edildi. Bəzi yerlərdə boz rəngli gil qab qırıqlarına və skelet qalıqlarına təsadüf olunmuşdur. Skelet qalıqları olduqca pis saxlanmışdı. Qəbirlərdən birinin divarı qismən saxlanmışdı. Onun uzunluğu 0,6 m, eni 0,2 m olub kiçik daşlarla iki

cərgə hörülmüşdü. Qəbrin üstü və ətrafı tamamilə dağılmışdı. Təmizləmə zamanı burada insan skeletinin qalıqlarına təsadüf edildi. Onun ətrafından boz rəngli forma verməyən gil qab parçaları aşkar olundu. Maddi mədəniyyət qalıqlarına əsasən demək olar ki, nekropoldakı qəbirlər daş qutu tipli olmuşdur.

Buradan toplanmış maddi-mədəniyyət qalıqları əsasən boz rəngli küpə qırıqlarından ibarət olub formaca bir-birindən fərqlənir. Qabların gilinə narın qum qatılmış boz, yaxud qara rəngdə bişirilmişdir. Onlardan birinin tərkibinə iri qum qatılmışdır. Qabların daxili səthində saxlanmış konsentrik izlərə əsasən demək olar ki, onlar dulus çarxında hazırlanmışdır.

Boz rəngli gil məmulatının bir hissəsi forma verməyən qırıqlardan ibarətdir. Səthi cızma xətlər və çərtmələrlə naxışlanmışdır. Qabların biri qabarıq kəmər üzərindən rombşəkilli çərtmələrlə naxışlanmışdır. Onların içərisində qara cilalı gil qab qırıqları da vardır .

Aşkar edilmiş gil məmulatı Kolanı, Sarıdərə, Kükü materialları ilə oxşar olub e.ə. II minilliyin sonu və I minilliyin əvvəllərinə aiddir.

**37. Şamlar nekropolu** eyniadlı yaşayış yerindən şimal-şərqdə yerləşir. O quru çay vadisi boyunca şimal-şərqə doğru uzanır. Bu sahə xalq arasında «Mehbalı yeri», «Dölçək» adı ilə məşhurdur. Sahə düzənlik olduğundan hazırda başdan-başa şumlanmışdır. Nekropol şimal-qərb və şimal-şərqdən hündür dağlarla, cənub şərqdən isə quru çay vadisi ilə məhdudlaşır. Nekropolun aşağı hissəsində sel sularının açdığı yarğanda yerli əhali tərəfindən boz rəngdə bişirilmiş gil qablar tapılmışdır. Ola bilsin ki, nekropol torpaq qəbirlərdən ibarət olmuşdur. Qəbirlərin heç birinin yerüstü əlaməti yoxdur.

Dağıntı zamanı tapılan materiallar üç bütöv gil qabdan ibarətdir. Onların biri iri kasa tipli qabdan ibarət olub narın qum qarışığı olan gildən hazırlanmış, qara rəngdə bişirilmişdir. Xaricdən yüngülcə cilalanmışdır. Kasanın ağzı geniş olub kənarı dəyirmi, gövdəsi qabarıq, oturacağı yastıdır. Gövdəsi qabarıq zolaqla əhatələnmişdir.

Piyalələr kiçik həcmli olub qabarıq gövdəlidir. Onların gövdəsi ağız hissədə bir qədər içəri yığılmışdır. Üzərində çəhrayı ləkələr saxlanmışdır. Nekropoldan aşkar olunmuş gil qablar tipoloji cəhətdən yaşayış yerindən toplanmış gil məmulatı ilə oxşardır. Buna əsasən dağıdılmış qəbri e.ə. X-IX əsrlərə aid etmək olar.

**38. Kolanı nekropolu**. Şahbuz rayonunun Kolanı kəndi yaxınlığında Naxçıvançayın sol sahilində, dağ silsiləsinin çaya enən yamacında yerləşir. O, hər tərəfdən dərin dərə ilə əhatə olunmuş, yalnız şərqdə ensiz zolaq vasitəsilə dağ silsiləsi ilə əlaqələnir. Kolanı nekropolu 1986-cı ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır.

Nekropolun yerləşdiyi ərazi alçaq kollarla örtülmüşdür. Qəbirlərin bir qrupu aşınma nəticəsində üzə çıxmış və dağıntıya məruz qalmışdır.

Nekropol 1986-1988-ci illərdə aparılan tədqiqat işləri nəticəsində V.B.Baxşəliyev və V.H.Əliyev tərəfindən öyrənilmişdir. Nekropolda 16 qəbir

abidəsi tədqiq edilmişdir. Qəbirlər daş qutulardan ibarət olub iri sal daşlardan qurulmuşdur. Bəzi qəbirlərin qurulmasında həm iri sal daşlardan, həm də hörgüdən istifadə edilmişdir. Qəbirlər əsasən düzbucaqlı və oval formalıdır. Onların biri iki kameralı olub yan daşlarında sxematik təsvirlər, o cümlədən atlı təsviri aşkar olunmuşdur.




Şəkil 101. Kolanı nekropolunun avadanlığı

Qəbirlərin torpaq örtüyündən və içərisindən xeyli gil məmulatı, tunc silah və bəzək əşyaları, obsidian ox ucluqları, əqiq və balıqqulağından hazırlanmış muncuqlar da tapılmışdır. Aşkar olunmuş materiallar Şahbuz tarix-diyarşünaslıq və Naxçıvan MR Dövlət Tarix muzeyində saxlanılır. Gil məmulatı əsasən çəhrayı və boz rəngdə bişirilmişdir.

Çəhrayı rəngli gil məmulatı əsasən küpə tipli qabların sınıqlarından ibarətdir. Onların gilinə narın qum qatılmış əsasən yaxşı bişirilmişdir. Qabların bəzisinin üzəri hislənmiş, bəzisi isə çərtmə ornamentlə naxışlanmışdır.

Gil məmulatının əksəriyyəti boz rəngdə bişirilmişdir. Onlar küpə, kasa, qədəh, nimçə tipli qabların qırıqlarından ibarətdir. Qabların içərisində çaynik tipli və silindrik lüləkli küpələrə də təsadüf olunur.



Şəkil 102. Kolanı neropolunun silahları

Gil məmulatının tərkibinə narın qum qatılmış, bəzən yaxşı, bəzən isə qeyri-bərabər bişirilmişdir. Bəzi qabların üzərinə qara boya çəkilərək cilalanmışdır. Qablar əsasən üfüqi cızma xətlər və çərtmələrlə naxışlanmışdır.

Qəbirlərdən tuncdan hazırlanmış xeyli bəzək əşyası, o cümlədən boyunbağı, üzük, sırğa, bilərzik çıqqa, muncuq, düymə, quş fiqurları və s. aşkar olunmuşdur. Bəzək əşyaları içərisində əqiq və pasta muncuqlar habelə asmalar keçirilmiş tunc boyunbağılar və balıqqulağı keçirilmiş sırğalar və orijinallığı ilə seçilir.

Nekropolda aşkar olunan xəncərlər 7 ədəd olub əsasən yastıtiyəlidir. Onların bəzisinin şəbəkəli qurşağı və konusvari başlığı vardır. Xəncərlərin biri

yerli və Ön Asiya tipli silahların xüsusiyyətlərini özündə birləşdirir. Onların bəzisi Xocalı-Gədəbəy, bəzisi isə Naxçıvan mədəniyyəti üçün xarakterikdir.



Şəkil 103. Kolanı nekropolunun bəzək əşyaları

Ox ucluqları obsidiandan hazırlanmışdır. Onlar badamşəkilli olub arxa hissəsində yarımdairəvi oyuq açılmış, hər iki üzdən yaxşı retuşlanmışdır.

Aşkar olunmuş arxeoloji materiallar Naxçıvan ərazisi üçün xarakterik olub Xocalı-Gədəbəy mədəniyyəti abidələrində və Cənubi Azərbaycanda özünə geniş analogiya tapır. Arxeoloji materialların analizi Kolanı nekropolunu e.ə. I minilliyin əvvəllərinə aid etməyə imkan verir.

**39. Şahbuz nekropolu.** Nekropol Şahbuzkəndin qərb tərəfində yerləşir. Təpənin üstü yaz vaxtı otla örtülür. Qəbirstanlıqdakı qəbirlərin əlamətləri

payızda ot quruduqdan sonra aydın izlənilir. Qəbirlər qərb-şərq istiqamətindədir. Qəbirlərin bir neçəsinin başdaşıları salamat qalmış, əksəriyyəti qırılıb dağıdılmışdır. Başdaşıları üzərindəki yazılar oxunmur. Onların yuxarı hissəsi tağvari formalıdır. Bəzilərinin üzərində ay təsviri cızılmışdır. Şahbuz bölgəsində indi də gecə vəfat etmiş şəxsin başdaşında aypara təsvir edilir

Şahbuzkəndin müsəlman qəbirstanlığını XIV-XVII əsrlərə aid etmək olar. 2006-cı ildə aparılan araşdırmalar zamanı nekropolda üzərində təsvirlər və ərəb əlifbası ilə kitabələr olan sənduqələr aşkar olunmuşdur.

**40. Badamlı nekropolu.** Badamlı qəbiristanlığı kəndin içərisində yerləşir. Qəbirstanlıq hər tərəfdən həyətyanı sahələrlə əhatə olunmuşdur. Qəbirlərin əksəriyyətinin izi itmiş, bəzilərinin yalnız başdaşıları salamat qalmışdır. Baş daşlarının üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Qəbiristanlıqda qırmızı rəngdə tuf daşından hazırlanmış bir daş qoç fiquru vardır. Əhalinin verdiyi məlumata görə, vaxtilə nekropolda xeyli daş qoçlar olmuşdur. Qəbiristanlığın mərkəzi hissəsində dairəvi formalı türbənin bünövrəsinə aid qalıqlar saxlanmışdır. Badamlı nekropolunu XVI-XIX əsrlərə aid etmək olar.

**41. Qanlı göl nekropolu.** Qanlı göl müsəlman qəbiristanlığı Şahbuz bölgəsinin Kükü kəndi ərazisində yerləşir. Qəbiristanlıqda cəmi bir neçə başdaşı yaxşı saxlanmışdır. Əksəriyyəti təbii olub işlənməmişdir. Başdaşılarının bəzilərinin yuxarı hissəsi tağvari şəkildə formalaşdırılmışdır. 2006-cı ildə aparılan araşdırmalar zamanı qəbiristanlığın ərazisində bir daş qoç daş aşkar edilmişdir. Yerli sakinlərin verdikləri məlumata görə bu tip daş qoçlar qəbiristanlıqda çox olmuşdur.

Qəbirstanlıqda aparılan araşdırmalar zamanı bir ədəd dar boğazlı gülabdan tapılmışdır. Nazik divarlı bu zərif qabı oxşarlarına əsaslanaraq XIV-XVI əsrlərə aid etmək olar. Qanlı Göl nekropolu yaylaq maldarlığı ilə məşğul olan türk qəbilələrinə məxsus olmuşdur. Nekropolu arxeoloji materiallar əsasında XIV-XVIII əsrlərə aid etmək olar.

**42. Batabat nekropolu.** Batabat yaylağında yerləşən nekropol bitki örtüyü ilə örtüldüyündən çətinliklə izlənilir. Sel sularının yuduğu qəbirlərdən bozumtul gilli küpə sınıqları aşkar edilmişdir. Küpəni analoji materiallar əsasında e.ə. II-I minilliklərə aid etmək olar. Nekropolun həmin dövrə aid olduğu bizdə şübhə doğurmur.

**43. Qızılbulaq nekropolu.** Batabat yaylağında yerləşən qəbirstanlıq zəngin ot və kollarla örtülmüşdür. Sel sularının yuması nəticəsində bir neçə qəbir dağılmışdır. Nekropolun yerüstü materialları küpə tipli qab sınıqlarından ibarətdir. Küpələrin gövdəsi şarşəkilli, oturacaqları yastıdır. Ağzının kənarları xaricə açılmışdır. Xaricdən yaxşı şüyrələnmişdir. Çəhrayı rəngli saxsısı yaxşı bişirilib. Küpə Ilk Orta əsrlər üçün səciyyəvidir.

Nekropolu toplanılmış materialların dövrünə uyğun olaraq eramızın III-VI əsrlərinə aid etmək olar.

**44. Nursu nekropolu.** Nurs kəndi ərazisində hündür təpə üzərində yerləşən Nekropol müsəlman qəbirlərindən ibarətdir. Yerli əhalinin verdiyi məlumatlara görə, bu qəbirstanlıqda 10-a yaxın qoç fiqurları olmuş, əksəriyyəti sındırılıb dağıdılmış, bəziləri isə daşınıb aparılmışdır. Hazırda qəbiristanlıqda qalan başdaşılarının bəzisinin üzərində ərəb əlifbası ilə yazılar vardır.

Qəbirstanlığı təxminən XV-XVI əsrlərə aid etmək olar.

**45. Türkeş qəbiristanlığı** Türkeş kəndinin içərisində, kəndin qərb tərəfində yerləşir. Qəbirlərin bir çoxunun yerüstü əlamətləri itmişdir. Onların yalnız başdaşıları salamat qalmışdır. Başdaşıları olduqca müxtəlif formalıdır. Onlardan birinin insan fiquru formasında hazırlanması olduqca diqqət çəkicidir. Bəzi başdaşılarının ön tərəfi taxça şəklində oyulmuş və ərəb əlifbası ilə kitabə yazılmışdır. Bəzi başdaşılarının arxa tərəfində də kitabələrə rastlanır. Qəbiristanlığın şərq qurtaracığında boz rəngli tuf daşından yüksək sənətkarlıqla hazırlanmış bir daş qoç vardır. Onun üzərində xəncər təsvir edilmiş və ərəb əlifbası ilə kitabə həkk edilmişdir. Qəbiristanlığı XVI-XX əsrlərə aid etmək olar.

**46. Ayrınc nekropolu.** Şahbuz bölgəsinin eyniadlı kəndində yerləşən müsəlman qəbirstanlığında yalnız başdaşılarının bir hissəsi və bir neçə qoç fiquru qalmışdır. Başdaşılarından ancaq ikisinin yuxarı hissəsi tağvari şəkildə yonulmuşdur. Qəbirstanlıqda olan iki qoç fiquru sadə formalıdır. Qoçlardan birinin spiralvari buynuzları vardır. Nekropolu təxminən XV-XVI əsrlərə aid etmək olar.

**47. Quzey nekropolu.** Kolanı kəndi ərazisində yerləşən Quzey qəbirstanlığının ot və kol-kos örtmüşdür. Qəbirstanlığın izi tədricən itməkdədir. Yağış sularının təsiri nəticəsində onların xeyli hissəsi dağılmışdır. Axtarış zamanı heç bir yerüstü materiala təsadüf edilməmişdir. Yarğanda aşkar etdiyimiz qəbrin istiqamətindən onların müsəlman qəbirstanlığı olduğu müəyyənləşdirilmişdir. Qəbirstanlığı təxminən XI-XII əsrlərə aid etmək olar.

**48. Söyüdlü nekropolu.** Söyüdlü nekropolu Kolanı kəndinin ərazisində yerləşir. Söyüdlü qəbirstanlığında başdaşıları əsasən sıradan çıxmışdır. Başdaşıları adi, işlənməmiş sal daşlardan düzəldilmişdir. Onların üstündə yazı, yaxud təsvirlərə təsadüf edilməmişdir. Sinə daşlarının yalnız bir qismi salamat qalmışdır. Dördkünc formalı sənduqələrdən ibarət olan sinə daşları yuxarıda tağvari formada tamamlanmışdır. Nekropolun yaxınlığında Orta əsr yaşayış yeri vardır. Nekropolun maldar tayfalara məxsus olduğu heç bir şübhə doğurmur.

Söyüdlü nekropolu yaşayış yeri ilə həmdövr olub təxminən IX-XVIII əsrlərə aiddir.

**49. Mahmudoba nekropolu.** Eyniadlı kəndin cənub tərəfində yerləşir. Səthi ot və kol-kosla örtülmüşdür. Toplanılmış yerüstü materiallar küpə və təkayaqlı vaza tipli qab hissələrindən ibarətdir.

Küpənin saxsısı bozumtul rənglidir. Ağzının kənarları azacıq xaricə qatlanmışdır. Xaricdən yaxşı şüyrələnmişdir. İkinci küpə çəhrayı saxsılıdır.

Səthinə eyni rəngli boya çəkilmişdir. Arxeoloji materialların təhlili göstərir ki, Mahmudoba nekropolu təxminən e.ə. I minilliyin sonlarına aiddir.

**50. Şahbuzkənd nekropolu.** Nekropol Şahbuzkəndin şərqində, hündür təpənin güney tərəfində yerləşir. Qəbiristanlıq itmək üzrədir. Müsəlman qəbiristanlığının baş daşları və sinə daşlarının əksəriyyəti sıradan çıxmışdır. Onların yalnız bəzi qismləri salamat qalmışdır. Saxlanmış qalıqlara əsasən sinə daşlarının prizmatik formada olduğunu demək olar. Qəbir daşları üzərində kitabəyə rastlanmamışdır. Qəbiristanlıqdakı daş qoç fiqurları boz rəngli daşdan hazırlanmışdır. Daş qoç fiqurları nekropolun XV-XVII əsrlərə aid olduğunu deməyə imkan verir.

**51. Türkeş nekropolu.** Nekropol Türkeş kəndinin şərqində, yolun kənarında yerləşir. Nekropol su kəməri çəkilərkən dağıdılmışdır. Qəbirlər daş qutu tiplidir. Onların yanları yastı sal daşlarla qurulmuş, üstü isə eyni tipli daşlarla qapadılmışdır. Qəbirlərin içərisində çürümüş skelet qalıqlarının olduğu müəyyən edilmişdir. Nekropoldan aşkar edilən keramika məmulatı I-II əsrlər üçün xarakterikdir.

**52. Qaladibi yaşayış yeri** Kükü kəndinin şimalında yerləşir. Qala hündür qayalığın ətəyində salınmışdır. O, şimal tərəfdən təbii qayalıqla müdafiə olunur. Şərq, cənub və qərb tərəfdə isə iri daşlardan hörülmüş müdafiə divarı ilə möhkəmləndirilmişdir. Qala divarının tikintisində düzbucaqlı çıxıntılardan və rizalitlərdən istifadə edilmişdir. Bu tip tikinti texnikası inkişaf etmiş Dəmir dövrü üçün xarakterikdir. Qalanın içərisində daşdan inşa olunmuş dördkünc formalı binaların qalıqları saxlanmışdır. Tədqiqat zamanı aşkar olunan arxeoloji materiallar çəhrayı rəngli keramika parçalarından ibarət olub Erkən Antik dövr üçün xarakterikdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə yaxşı bişirilmişdir. Arxeoloji materiallara əsasən, qalanı e.ə. VII-IV əsrlərə aid etmək olar.

**53.Topaşan qəbiristanlığı** Aşağı Qışlaq kəndindən şərqdə yerləşir. Ərazi xalq arasında «Post» adlandırılır. Qəbiristanlıq torpaq yolun alt tərəfində yerləşir. Qəbirlərin əksəriyyətinin başdaşıları düşmüşdür. Başdaşılarının üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Başdaşılarında hicri təqvimi ilə 1017, 1191, 1300 və s. tarixli kitabələr vardır. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə qəbiristanlıqda olan daş qoçlar aparılmışdır. Başdaşıları üzərində olan tarixlər qəbirstanlığın 300 ildən artıq istifadə olunduğunu təsdiq edir.Topaşan nekropolunu XVII-XX əsrlərə aid etmək olar.

**54. Yuxarı Qışlaq qəbiristanlığı** kəndin girəcəyində uzunsov təpənin üzərində yerləşir. Qəbiristanlıqda müxtəlif formalı başdaşılarına və daş qoçlara rastlanmışdır. Əhalinin dediyinə görə daş qoçlar vaxtilə daha çox olmuşdur. Bəzi qəbirlərin ətrafı dairəvi, bəzilərininki isə dördkünc formada iri daşlarla əhatə edilmişdir. Başdaşıları əsasən düzbucaq formalı, tağşəkilli formadadır. Onların üzərində ərəb əlifbası ilə kitabələr və tarixlər vardır. Bəzi başdaşıları nəbati ornamentlə naxışlanmışdır. Lakin baxımsızlıq üzündən başdaşılarının əksəriyyəti

qalın torpaq örtüyü ilə örtülmüş, bir çoxu isə dağılmışdır. Qəbirstanlığı XVI-XX əsrlərə aid etmək olar.

**55. Çəpər obası** Biçənək kəndinin yaxınlığında, meşənin içərisində yerləşir. Yaşayış yeri vaxtilə meşənin içərisindən keçən qədim torpaq yolun kənarında, olduqca əlverişli bir mövqedədir. Hər tərəfdən dağlarla əhatələndiyindən yaşayış üçün əlverişlidir. Yaşayış yerindəki tikintilər dağıntıya uğrasa da, o, öz arxaik quruluşunu qoruyub saxlamışdır. Yaşayış yerinə aid binalar oval formalı mərkəzi meydanın ətrafında yerləşmişdir. Binaların bəzisi bir, bəzisi isə iki otaqlıdır. Burada iri həcmli ictimai binalar da vardır. Mərkəzi meydana girən ensiz giriş şübhəsiz ki, vaxtilə qapı ilə qapadılmışdır. Tədqiqat zamanı yaşayış yerindən Son Antik və Erkən Orta əsrlərə aid çəhrayı rəngli keramika parçaları əldə edilmişdir. Arxeoloji materiallara əsaslanaraq yaşayış yerini I-VIII əsrlərə aid etmək olar.

**56. Güney Qışlaq qəbiristanlığı** kəndin girəcəyində yolun kənarındadır. Qəbiristanlıqdan XX əsrin 50-60-cı illərinədək istifadə olunmuşdur. Qəbirlərin bir qisminin başdaşıları düşmüşdür. Qəbirlərin ətrafı kiçik həcmli daşlarla əhatə edilmiş, bəzən isə onların üzərində daşlar təpə şəklində toplanmışdır. Qəbirlərdən bir neçəsinin ətrafı dairəvi formada iri həcmli daşlarla əhatələnmişdir. Başdaşlarının üzərində ərəb əlifbası ilə kitabə, o cümlədən tarixlər yazılmışdır. Başdaşlarının üzərində hicri 1121, 1372 və s. tarixlər qeyd edilmişdir. Onların çoxusunun üzəri qalın torpaqla örtüldüyündən kitabələri və tarixləri müəyyənləşdirmək çətinlik törədir.

Başdaşılarının üzərindəki kitabələrə əsaslanaraq nekropolu XVII-XX əsrlərə aid etmək olar.

**57. Batabat müdafiə divarı** Biçənək kəndindən şimalda, Kaha dərəsinə gedən yolun üzərindədir. Burada yolun hər iki tərəfində iri daşlardan hörülmüş divar qalıqlarına rastlanmışdır. Divarın eni 1,5 m, uzunluğu 25 m-dir. Divar yaxından axan çayla qayalığın arasına çəkilmiş və müdafiə xarakteri daşımışdır. Hazırda divarlar 0,5-1 m hündürlükdə salamat qalmışdır. Divar qalıqlarını I-X əsrlərə aid etmək olar.

**58. Badamlı türbəsi** kəndin mərkəzindəki qəbirstanlığın içərisindədir. Yonulmuş dördkünc formalı daşlardan dairəvi formada inşa olunmuşdur. Girişi qərb tərəfdəndir. Binanın divarları tamamilə uçub tökülmüşdür. Ətrafı daşla örtüldüyündən xarici divarlarının formasını müəyyən etmək mümkün olmamışdır. Türbəni təqribən XVIII-XIX əsrlərə aid etmək olar.

**59. Qanlı göl bəndi** iri həcmli qaya parçalarından inşa edilmişdir. Bəndin uzunluğu 45 m-dir. Bəndin tikintisində həm yonulmuş, həm də yonulmamış qaya parçalarından istifadə olunmuşdur. Bəndin çıxacağı yonulmuş daşlarla işlənmişdir, çıxış kanalının döşəməsinə daş döşənmişdir. Bəndin divarları iki yarımdairəvi kontrforsla möhkəmləndirilmişdir. Bəndin üzərində Kalbalı xan tərəfindən təmir etdirilməsi ilə bağlı kitabə olmuşdur. Bəndin tikilməsini XVIII-XIX əsrlərə aid etmək olar.

**60. Qonaqgörməz yaşayış yeri** Batabat yaylağında yerləşir. Yaşayış yeri xalq arasında Zorbulaq adı ilə tanınan bulağın şimal qərbindədir. Köçəri maldar tayfalara məxsus olan yaşayış yerində hazırda xeyli tikinti qalıqları saxlanmışdır. Divarlar iri daşları bir-birinin üzərinə qoymaqla hazırlanmışdır. Yaşayış yerindəki iri tikintilər heyvanların barındırılması üçün nəzərdə tutulmuşdur. Tikintilər şimal tərəfdən obaya daxil olan girişin sağ və sol tərəfində yerləşdirilmişdir. Burada həmçinin insanların yaşaması üçün nəzərdə tutulan dəyə tipli binaların qalıqlarına və çadır yerlərinə rastlanmışdır.

Yaşayış yerindən əldə edilən yerüstü arxeoloji materiallar Son Orta əsrlər dövrünə aiddir. Yaşayış yerini XVII-XIX əsrlərə aid etmək olar.

**61. Gəlin qayası** Qonaqgörməz yaylağının yaxınlığında yerləşir. Təbii qaya parçasından ibarət olan abidə insan fiqurunu xatırlatdığına görə Gəlin qayası adlandırılmışdır. Xalq arasında olan rəvayətə görə o, özünü düşmənlərdən qorumağa çalışan namuslu bir qadının heykəlidir. Abidə Azərbaycan xalqının daşa dönmə ilə bağlı inanclarını əks etdirir.

**62. Köhnəqala nekropolu** Şahbuz rayonunda Şahbuzkəndin yaxınlığında yerləşir. Nekropol Köhnəqala abidəsinin ərazisində yerləşir. Nekropolda 3 qəbrə rastlanmışdır. Onların üzəri tamamilə daşla örtüldüyündən qəbirlərin istiqamətini müəyyənləşdirmək çətindir. Qəbirlərin üzərində dairəvi formalı, təpəcik əmələ gətirən daş yığınları vardır. Bu tip qəbirlərə Naxçıvan ərazisində olan Orta əsr qəbiristanlıqlarında rastlanır. Nekropolu XVI-XVII əsrlərə aid etmək olar.

**63. Qarapir yaşayış yeri** Külüs kəndindən şərqdə, Külüs qalasının ətəyində yerləşir. Yaşayış yerinin ərazisində daşdan inşa olunmuş dördkünc formalı binaların qalıqları saxlanmışdır. Bəzi binalar tamamilə dağılmış və onların yerində dördkünc formalı çalalar qalmışdır. Abidəni XVIII-XIX əsrlərə aid etmək olar.

**64. Əşkab yaşayış yeri** Külüs kəndinin qərbində, hündür dağların arasında yerləşir. Yaşayış yerinin ərazisi 5 hektara yaxındır. Evlər qrup halında yerləşdirilmişdir. Onların əksəriyyəti dağılmışdır. Bəzi evlərin dördkünc formalı qalıqları indiyədək saxlanmışdır. Bir-birinə sıx yerləşdirilən evlər bir, bəzən isə iki otaqlıdır. Bəzi divarlar 1-1,5 m hündürlükdə qalmışdır. Evlərin girişi əsasən cənub və şərq tərəfdəndir. Yaşayış binalarının yaxınlığında mal-heyvan saxlamaq üçün inşa edilən daş kələklərin qalıqları da saxlanmışdır. Yaşayış yerinin mərkəzi hissəsində məscid və pirin qalıqları vardır. Vaxtilə pirdən çıxan su indi qurumuşdur.

Tədqiqat zamanı yaşayış yerindən əldə edilən yerüstü materiallar Son Orta əsrlərə aid keramika parçalarından ibarətdir. Yaşayış yerini XVII-XX əsrlərə aid etmək olar.

**65. Əyrək yaşayış yeri** Külüs kəndinin şimalında, Külüsçayın sağ sahilində yerləşir. Sahəsi 2 hektardır. Yaşayış yerində iri daşlardan hörülmüş binaların qalıqları saxlanmışdır. Divarların eni 1-1,2 m arasındadır. Yaşayış evləri başlıca olaraq birotaqlı, bəzən isə 2-3 otaqlı olmuşdur. Evlərin girişləri

başlıca olaraq şərq və cənub tərəfdə yerləşdirilmişdir. Evlər bir-birinə sıx yerləşdirilmiş şəkildədir.

Yerüstü materiallar Orta əsrlərə aid şirli və şirsiz saxsı məmulatından ibarətdir. Yaşayış yerinin yaxınlığında, ondan cənub tərəfdə vaxtilə nekropol olmuşdur. Hazırda nekropolun yalnız qalıqları saxlanmışdır. Yaşayış yerini X-XVIII əsrlərə aid etmək olar.

**66. Keçili qəbiristanlığı** Keçili kəndinin cənub-qərbində, kəndə girən yolun sol tərəfində dağın yamacında yerləşir. Qəbiristanlıq XX əsrin 60-cı illərinədək istifadə olunmuşdur. Vaxtilə qəbirstanlıqda olan daş qoçlar aparılmışdır. Qəbirlər müsəlman qibləsinə yönəldilmişdir. Onların ətrafı daşla əhatələnmiş, bəzən isə qəbirlərin üzərində kiçik daş təpəcikləri yaranmışdır. Başdaşılarının əksəriyyəti düşmüşdür. Onların üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Baş daşlarından birinin üzərində səkkizguşəli ulduz, digərində isə çərxi fələk təsvirinə rastlanmışdır. Nekropolu XVI-XX əsrlərə aid etmək olar.

**67. Dəyirman yeri** Keçili kəndinin şərq tərəfində yerləşir. Kolluq yaşayış yeri ilə onun arasında dərin bir dərə vardır. Yaşayış yerində xalq arasında dəyirman adlandırılan məbədin və yaşayış binalarının qalıqları saxlanmışdır. Məbədin divarları iri daşlardan hörülmüşdür. Onun girişi şimal tərəfdən olub iri daşlardan hörülmüş və üzəri sal daşlarla örtülmüşdür. Ətrafda olan binalar tamamilə dağılmış, onların bəzisinin yerində dördkünc formalı çalalar qalmışdır. Məbədin iri qaya parçasının dibində tikilməsi onun daş inancı ilə bağlı olduğunu göstərir. Tikinti qalıqlarını XVII-XIX əsrlərə aid etmək olar.

**68. Danzıl yaşayış yeri** müvəqqəti yaşayış yeri kimi istifadə edilmişdir. Hazırda yaşayış yerində bir neçə dördkünc formalı çala qalıqları saxlanmışdır. Yaşayış yerinin yaxınlığında tikilən kiçik göl indi də istifadə edilməkdədir. Yerüstü materiallar Son Orta əsrlərə aid şirsiz keramika parçalarından ibarətdir. Yaşayış yerini XIX-XX əsrlərə aid etmək olar.

**69. Əyrigözə yaşayış yeri** Kükü kəndinin şimalında yolun kənarında yerləşir. Yaşayış yerinin ərazisi tikinti işləri görülərkən tamamilə dağıdılmışdır. Buna baxmayaraq abidənin ərazisində dördkünc formada daşdan tikilmiş binaların qalıqları indi də saxlanmaqdadır. Yaşayış yerində aparılan araşdırmalar zamanı Son Orta əsrlərə aid şirli və şirsiz keramika parçaları aşkar olunmuşdur. Aşınma nəticəsində yaranmış yarğanlarda mədəni təbəqənin qalınlığı 2 m-dir. Yaşayış yerinin mərkəzində indi də istifadə olunan bulaq vardır. Arxeoloji materiallara əsasən yaşayış yerini XVI-XX əsrlərə aid etmək olar.

**70. Nohur qəbiristanlığı** Qızıl Qışlaq kəndinin cənubunda yolun kənarında, eyniadlı yaşayış yerinin yaxınlığındadır. Qəbirlərin yerüstü əlamətləri tamamilə itmişdir. Qəbiristanlıqda salamat qalan başdaşılarından birinin üzərində ərəb əlifbası ilə kitabə vardır. Qəbiristanlığı başdaşına əsasən XVIII-XX əsrlərə aid etmək olar.

**71. II Ağbulaq nekropolu** Ağbulaq kəndinin şimal-şərqində, eyniadlı yaşayış yerinin yaxınlığında yerləşir. Nekropol yaşayış yerinin yaxınlığında olan

kiçik təpənin üzərində salınmışdır. Qəbirlərin yerüstü əlamətləri itmişdir. Onların yalnız bəzilərinin sinə daşları qalmışdır. Sinə daşları dördkünc formalıdır. Bəzilərinin üzərində sxematik insan təsvirləri vardır. Nekropolu XVI-XVIII əsrlərə aid etmək olar.

**72. Əyrək nekropolu** Külüs kəndinin ətrafında eyniadlı yaşayış yerinin yaxınlığında yerləşir. Qəbir daşları dördkünc formalı prizma şəklində hazırlanmışdır. Onların üzərində yazıya və təsvirlərə rastlanmır. Lakin sinə daşlarından birinin üzərində yedəyində at aparan insan təsviri vardır. Bu tip təsvirlər Orta əsr müsəlman qəbir daşlarında tez-tez rastlanan motivlərdəndir. Nekropolu XVI-XIX əsrlərə aid etmək olar.

**73. Ağbulaq yaşayış yeri** Ağbulaq kəndinin şimal-şərqində yerləşir. Yaşayış yerinin yerləşdiyi ərazi xalq arasında «Çoban biçənəyi» adlandırılır. Yaşayış yeri 350 kv.m. sahəni əhatə edən kənd tipli yaşayış yeridir. Evlərin əksəriyyəti dağılmış, bəzilərinin yerində dördkünc formalı çalalar saxlanmışdır. Dördkünc formada tikilmiş bəzi yaşayış binalarının divarları 1-1,2 m hündürlükdə saxlanmışdır. Yaşayış yerindən toplanmış arxeoloji materiallar Son Orta əsrlərə aid şirsiz saxsı məmulatından ibarətdir. Arxeoloji materiallara əsasən yaşayış yerini XVI-XVIII əsrlərə aid etmək olar.

**74. Kolanı qəbiristanlığı** Kolanı kəndinin girəcəyində yerləşir. Hazırda nekropol torpaq yolla iki hissəyə bölünmüşdür. Vaxtilə nekropolda olan daş qoçlar aparılmışdır. Başdaşılarının əksəriyyəti yuxarıda tağvari formada tamamlanan dördkünc formalı daş lövhələrdən ibarətdir. Onların bəzilərinin ön tərəfi oyularaq taxça şəklinə salınmış, ərəb əlifbası ilə kitabə yazılmışdır. Vaxtilə bu nekropolda IX əsrə aid başdaşına rastlanmışdır. Araşdırmalar göstərir ki, nekropol yerli əhali tərəfindən uzun müddət istifadə olunmuşdur. Hazırda qəbiristanlığın ərazisində Son Orta əsrlərə aid şirli və şirsiz keramika parçalarına da rastlanır. Qəbiristanlığı IX-XX əsrlərə aid etmək olar.

**75. Kələkli nekropolu** Kükü kəndinin şimalında, eyniadlı yaşayış yerinin yaxınlığında, hündür uzunsov formalı təpənin üzərində yerləşir. Qəbirlərin üzəri daşla örtülmüşdür. Onların üzərində yaranan kiçik daş təpəcikləri qəbirlərin istiqamətini müəyyən etməyə çətinlik törədir. Lakin yan daşlarının müsəlman qibləsi istiqamətində yönəlməsi aydın şəkildə müşahidə edilir. Nekropolun ərazisində Son Orta əsrlərə aid şirsiz keramika parçalarına təsadüf olunur.

Nekropolu XVIII-XIX əsrələr aid etmək olar.

**76. Susuz yurd yaşayış yeri** Kolanı kəndindən şimalında, Kolanı yurdunun yaxınlığında yerləşir. Hazırda yaşayış yerinin ərazisində dördkünc formalı binaların qalıqları saxlanmışdır. Araşdırmalar zamanı Son Orta əsrlərə aid şirsiz keramika nümunələri aşkar olunmuşdur. Yaşayış yerini XVIII-XIX əsərlərə aid etmək olar.

**77. Kolanı yurdu** Kolanı kəndindən şimalda, hər tərəfdən dağlarla əhatə olunmuş dərənin içərisində yerləşir. Yaşayış yerində qrup halında yerləşən çadır yerlərinin qalıqları, dördkünc formalı binalara aid tikintilər saxlanmışdır. Bəzi

binaların divarları 1-1,2 m hündürlükdə indiyədək qalmışdır. Yaşayış yerinin mərkəzi hissəsində heyvanların saxlanması üçün böyük kələklər düzəldilmişdir. Tədqiqat zamanı yaşayış yerində daş həvənglərin qalıqarına, Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatına rastlanmışdır. Aşkar olunmuş arxeoloji materiallara əsasən yaşayış yerini XVII-XX əsrlərə aid etmək olar.

**78. Dibək yaşayış yeri** Kolanı kəndindən şimalda, Kolanı yurdunun yaxınlığında yerləşir. Yaşayış yeri köçmə maldarlıqla məşğul olan Kolanı tayfalarına məxsus olmuşdur. Hazırda yaşayış yerində dördkünc formalı daş tikinti qalıqları və çadır yerləri qalmışdır. Yaşayış yerinin içərisində olan iri qaya parçaları qazılaraq həvəng düzəldilmişdir.

Aparılan araşdırmalar zamanı Son Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Aşkar olunan keramika məmulatına əsasən yaşayış yerini XVII-XIX əsrlərə aid etmək olar.

**79. Qaradaş yurdu** Şahbuz kəndinin Ağbulaq kəndindən cənubda yerləşir. Yaşayış yeri sərt qayalığın üzərində salındığından təbii müdafiə mövqeyinə malikdir. Yaşayış yerinin ərazisində dördkünc formalı binaların qalıqları saxlanmışdır. Daşdan tikilmiş bina qalıqları 0,5-1 m hündürlüyündə saxlanmışdır. Araşdırmalar zamanı əldə edilən yerüstü materiallar Son Orta əsrlərə aiddir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmiş, hər iki üzdən hamarlanmışdır. Yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

**80. Zırnel yaşayış yeri** Kükü kəndindən şimal-şərqdə, hündür qayalığın ön tərəfində dağın yamacında yerləşir. Yaşayış evləri əsasən daşdan tikilmişdir. Dördkünc formalı evlər bir otaqlı, bəzən isə iki və üç otaqlıdır. Evlər bir-birinin yaxınlığında, sıx yerləşdirilmişdir. Binaların qalıqları 1,5-2 m hündürlükdə indi də saxlanmaqdadır. Yaşayış yerinin mərkəzi hissəsində bulaq vardır. Hazırda yaşayış yerindən yaylaq kimi istifadə olunur. Toplanmış yerüstü materiallar Son Orta əsrlərə aid şirli və şirsiz saxsı məmulatından ibarətdir. Aşkar olunan arxeoloji materiallar Zırnel yaşayış yerində Orta əsrlərdən yaşayış olduğunu təsdiq edir. Zırnel yaşayış yerini XVI-XX əsrlərə aid etmək olar .

**81. Zırnel qəbiristanlığı** eyniadlı yaşayış yerinin cənub-şərqində, hündür təpənin üzərində yerləşir. Qəbirlər müsəlman qibləsi istiqamətində yerləşdirilmişdir. Onların bəzisinin ətrafı kiçik həcmli daşlarla əhatə edilmişdir. Başdaşıları müxtəlif formalıdır. Tağşəkilli başdaşıları üstünlük təşkil edir. Onların üzərində ərəb əlifbası ilə kitabələr, o cümlədən tarixlər vardır. Məzar kitabələri qəbirstanlığın iki yüz ildən artıq istifadə olunduğunu göstərir. Bəzi başdaşıları oyma naxışlar və nəbati ornamentlə naxışlanmışdır. Zırnel qəbiristanlığını XVIII-XX əsrlərə aid etmək olar.

**82. Zərnətün yaşayış yeri** Şahbuz rayonunun Biçənək kəndindən cənub-şərqdə yüksək dağlıq ərazidə yerləşir. Yaşayış yerinin mərkəzində məscid binasına aid divarların, onun ətrafında isə yaşayış binalarının qalıqları yerləşir. Evlər birotaqlı, bəzən isə ikiotaqlıdır. Divarlar başlıca olaraq qaya daşlarından tikilmişdir. Yaşayış yerinin yaxınlığında olan bulaq hazırda qurumuşdur. Evlər

qrup halında yerləşdirilmişdir. Tədqiqat zamanı yaşayış yerinin ərazisindən Son Orta əsrlərə aid şirli və şirsiz sıxsı məmulatının parçaları aşkar edilmişdir. Onlar küpə, kasa və çölmək tipli qablara aiddir. Gediş-gəlişin çətinliyi yaşayış yerinin tərk edilməsinin əsas səbəblərindən biri olmuşdur.

Arxeoloji materiallara əsasən yaşayış yerini XVIII-XX əsrlərə aid etmək olar.

**83. Anabad yaşayış yeri** Şahbuz rayonunun Güney Qışlaq kəndindən şimalda yerləşir. Xalq arasında «unluq» da adlanır. Abidə qayanın əlçatmaz yerində qazılmış dördkünc formalı qaba oyuqdan ibarətdir. Onun girişi dördkünc formalı olub, nisbətən səliqəli qazılmışdır. Girişin əks tərəfində dairəvi deşik açılmışdır. Abidənin ətrafında maldar tayfalara məxsus biçənəklər vardır. Yerli əhalinin məlumatına görə buradan ərzaq saxlamaq üçün istifadə olunmuşdur. Lakin araşdırmalar onun dini məqsəd daşıyan bir tikinti olduğunu göstərir. Ehtimal ki, onun yaxınlığındakı qayalıqlara vaxtilə pir kimi sitayiş edilmişdir. Abidəni III-VII əsrlərə aid etmək olar.

**84. Ağdaban qalası** Şahbuz rayonunun Şada kəndindən cənubda, hündür, oval təpənin üzərində yerləşir. Təpənin üst hissəsi düz olduğundan yaşayış yeri üçün olduqca əlverişlidir. Təpənin zirvəsi qala divarları ilə əhatə olunmuşdur. Lakin divarlar tamamilə dağıldığından onların yalnız özülü salamat qalmışdır. Bəzi qisimlərdə divarlar 1 m hündürlüyündə saxlanmışdır. Qalanın içəri tərəfində dördkünc formalı, daşdan inşa edilmiş binaların qalıqları saxlanmışdır. Tədqiqat zamanı yaşayış yerindən Antik dövrün son mərhələsinə aid çəhrayı rəngli keramika parçaları aşkar olunmuşdur. Arxeoloji tapıntılara əsasən yaşayış yerini I-X əsrlərə aid etmək olar.

**85. Armudlu gədik nekropolu** Badamlıdan Şada kəndinə gedən torpaq yolun kənarında yerləşir. Hazırda nekropolun ərazisi torpaq yolla iki hissəyə bölünmüşdür. Qəbirlərin bəzisi aşınma nəticəsində üzə çıxmış və dağıdılmışdır. Onlar yanlarda yastı sal daşlarla qurulmuş, üzərləri isə eynitipli daşlarla örtülmüşdür. Antik dövr üçün xarakterik olan bu tip qəbirlərdə maddi-mədəniyyət qalıqlarına olduqca az rastlanır. Araşdırmalar zamanı nekropolun ərazisindən maddi-mədəniyyət qalıqları aşkar olunmadı. Nekropolu qəbir tiplərinə əsasən eramızın ilk əsrlərinə - I-II əsrlərə aid edirik.

**86. Badamlı kahaları** kəndin qərb tərəfində olan çaylağın sağ sahilində bir-birinin yaxınlığında oyulmuş dərin zağalardan ibarətdir. Onların tavanı və qapı girişləri tağşəkillidir. Kahaların dib tərəfində çıraq qoymaq üçün kiçik taxçalar düzəldilmişdir. Kahalar hazırda kənd əhalisi tərəfindən heyvan saxlamaq üçün istifadə olunur. Onların bəziləri çay yatağının xeyli aşağı düşməsi nəticəsində hündürdə qalmışdır. Kahaları XVIII-XIX əsrlərə aid etmək olar.

**87. Biçənək qəbiristanlığı** Biçənək kəndinin şimal-qərb hissəsində, çayın sağ kənarında, uzunsov təpənin üzərində yerləşir. Qəbiristanlığın ərazisində sənduqə tipli sinə daşlarına rastlanması onun uzun müddətdən bəri istifadə edildiyini təsdiq edir. Lakin sənduqələr üzərində kitabələrə rastlanmamışdır.

Qəbiristanlıqda olan qəbirlərin bir çoxunun başdaşılarında ərəb əlifbası ilə kitabələr vardır. Başdaşılarından birinin insan fiquru formasında hazırlanması xüsusilə maraq doğurur.

Arxeoloji dəlillərə əsaslanaraq qəbiristanlığı XVI-XX əsrlərə aid etmək olar.

**88. Daşdüşən yaşayış yeri** Badamlı kəndindən qərbdə, Şada kəndinə gedən yolun sol kənarında yerləşir. Yaşayış yerindəki binalar tamamilə dağıldığından onların yerüstü əlamətlərini izləmək mümkün deyildir. Sel sularının açdığı yarğanda təbəqənin qalınlığını aydın izləmək mümkündür. Mədəni təbəqə 0,5-1 m qalınlığında saxlanmışdır.

Aşkar olunmuş tapıntılar çəhrayı rəngli şirli və şirsiz keramika parçalarından ibarətdir. Arxeoloji materiallara əsasən yaşayış yerini I-X əsrlərə aid etmək olar.

**89. Daşdüşən nekropolu** eyniadlı yaşayış yerinin cənubunda təpənin üzərində yerləşir. Qəbirlər daş qutular və küp qəbirlərdən ibarətdir. Qəbirlərin bəzisi dağıdılmış, keramika parçaları ətrafa səpələnmişdir. Daş qutuların salamat qalmış qalıqlarına əsasən onların yastı sal daşlarla qurulduğunu demək olar. Yerüstü materiallar çəhrayı və boz rəngdə bişirilmiş küpə, kasa və çölmək tipli qabların parçalarından ibarətdir. Keramika nümunələri narın qum qatılmış gildən hazırlanaraq yaxşı bişirilmiş, xaricdən cilalanmışdır. İri küp tipli qablardan birinin üzəri qabarıq, spiral formalı ornamentlə naxışlanmışdır.

Arxeoloji materiallara əsaslanaraq nekropolu I-VII əsrlərə aid etmək olar.

**90. Gilənarlı çala** Biçənək kəndi yaxınlığında meşənin içərisində yerləşir. Vaxtilə burada mövcud olmuş yaşayış yerindən yalnız daş yığınları qalmışdır. Bəzi qisimlərdə daş hörgü və dördkünc formalı binalara aid çalalar qalmışdır. Yaşayış yerində vaxtilə kəhriz olmuşdur. Lakin kənarda quyular qazılıb dağıdıldığından su kəsilmişdir. Xalq arasında bu yaşayış yeri ilə bağlı əfsanə və rəvayətlər qalmışdır. Kəndin üzərinə axan daş yığınları onun təbii fəlakət nəticəsində məhv olduğunu göstərir. Rəvayətə görə insanlar Allahın yolundan çıxdıqları üçün Tanrı onlara bəla göndərmişdir.

Yaşayış yerini Erkən Orta əsrlər dövrünə I-VIII əsrlərə aid etmək olar.

**91. Göllər nekropolu** Biçənək kəndindən şimalda meşənin içərisində yerləşir. Hazırda nekropolun əlamətləri demək olar ki, tamamilə itmişdir. Nekropolun ərazisində bir neçə prizmatik formalı, sənduqə tipli sinə daşları qalmışdır. Onlar üzərində kitabəyə təsadüf olunmamışdır. Sinə daşlarının tiplərinə əsasən nekropolu XVI-XVII əsrlərə aid etmək olar.

**92. Qaragöl yaşayış yeri** Biçənək kəndindən şimalda meşənin içərisində yerləşir. Yaşayış yerində daşdan dördkünc formada tikilmiş binaların qalıqları saxlanmışdır. Binaların qalıqlarına əsasən girişin cənub və şərq tərəfdən olduğunu demək olar. Yaşayış yerində ən maraqlı tikinti qalıqlarından biri də Qaragöl bəndidir. Bənd qaya parçalarından, onun axıdacağı isə yonulmuş

daşlardan inşa edilmişdir. Göldən meşənin içərisindəki su ehtiyatlarının yığılması üçün istifadə olunmuşdur. Yaşayış yerini XVII-XVIII əsrlərə aid etmək olar

**93. II Şamlar yaşayış yeri** Biçənək kəndindən şimalda, meşənin içərisində yerləşir. Daşdan inşa olunmuş binaların qalıqları dördkünc formalıdır. Bəzi binaların tikintisində əhəng məhlulundan istifadə olunmuşdur. Yaşayış yerinin mərkəzində iki hissədən ibarət məscid binasının qalıqları vardır. Məscidə aid divarların bəzi qisımləri yonulmuş daşlardan inşa olunmuşdur. Yaşayış yerindən aşkar olunan keramika məmulatı Son Orta əsrlər dövrünə aiddir. Yaşayış yerinin su sistemi və əkin sahələri olmuşdur. Arxeoloji materiallara əsasən yaşayış yerini XVI-XVIII əsrlərə aid etmək olar.

**94. II Şamlar nekropolu** yaşayış yerindən şimalda meşənin içərisində yerləşir. Sinə daşları müxtəlif formalıdır. Onların bəzisi düzbucaqlı formada hazırlanmış, bəziləri isə yuxarıda tağşəkilli formada tamamlanmışdır. Sinə daşlarının üzərində insan və heyvan rəsmlərindən ibarət müxtəlif motivli təsvirlər vardır. Sinə daşlarının birinin üzərində olan həyat ağacı təsvirləri xüsusilə diqqətçəkicidir. Onlar qədim Şərq incəsənətində geniş yayılan həyat ağacı təsvirlərini xatırladır. Sinə daşları üzərində həmçinin Günəş təsvirlərinə rastlanır.

Nekropolu XVI-XVIII əsrlərə aid etmək olar.

**95. Yemişandərə yaşayış yeri** Şahbuz rayonunun Şada kəndindən cənub-şərqdə yerləşir. Yaşayış yeri dərə boyunca ensiz zolaq şəklində salınmışdır. Dördkünc formalı binaların qalıqları olduqca pis saxlanmışdır. Araşdırmalar yaşayış yerindən maldar tayfaların müvəqqəti məskən kimi istifadə etdiyini göstərir. Yerüstü materiallar çəhrayı rəngli keramika nümunələri ilə təmsil olunmuşdur. Küpə və kasa tipli qablara aid olan parçalar yaxşı bişirilmişdir. Yaşayış yerini XVIII-XIX əsrlərə aid etmək olar.

**96. Güney nekropolu** Güney Qışlaq kəndinin şimalında təpənin yamacında yerləşir. Nekropolun yerüstü əlamətləri tamamilə itmişdir. Onun ərazisində sənduqə tipli sinə daşları və başdaşılarının parçaları saxlanmışdır. Qəbir daşları üzərində kitabəyə rastlanmamışdır.

Güney nekropolunu IV-X əsrlərə aid etmək olar.

**97. Kaha dərəsi yaşayış yeri** Biçənək kəndindən şimalda, Kaha dərəsinə gedən yolun üstündə yerləşir. Yaşayış yerinin ərazisi tamamilə otla örtülmüşdür. Daşdan hörülmüş bəzi binaların qalıqları indiyədək qalmışdır. Onlar dördkünc formalıdır. Yerüstü materiallar olduqca azdır. Tapıntılar başlıca olaraq çəhrayı rəngdə bişirilmiş keramika parçalarından ibarətdir. Tikinti qalıqlarına əsasən yaşayış yerini XVII-XVIII əsrlərə aid etmək olar.

**98. Kaha dərəsi torpaq yolu** Biçənək kəndindən şimalda, meşənin içərisindədir. Yol vaxtilə meşənin içərisində salınmış yaşayış yerlərini və ibadətgahları bir-biri ilə əlaqələndirmişdir. Bəzən yolun alt qisimləri iri daşlardan hörülmüş daş divarlarla dəstəklənmişdir. Yolun qalıqları kaha dərəsində daha aydın izlənir. Torpaq yolu IV-XVIII əsrlərə aid etmək olar.

**99. Köhnəkənd yaşayış yeri** Şahbuz rayonunun Şada kəndindən şimal-qərbdə, təpənin ətəyində yerləşir. Yaşayış yerində qrup halında yerləşdirilmiş evlərin yalnız bünövrəsi qalmışdır. Tikinti qalıqlarına əsasən demək olar ki, evlər başlıca olaraq daşdan inşa edilmişdir. Bəzi evlərin tikilməsi üçün dağın yamacı qazılaraq düzəldilmişdir. Yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatlarından ibarətdir. Aşkar olunan keramika nümunələri Son Orta əsrlər üçün xarakterikdir.

Keramika nümunələrinə əsasən yaşayış yerini XVII-XIX əsrlərə aid etmək olar.

**100. Orta yal nekropolu** Güney Qışlaq kəndindən şimalda, təpənin üzərində yerləşir. Hazırda nekropolun yerüstü əlamətləri tamamilə itmiş, yalnız sənduqə formalı bəzi sinə daşları qalmışdır. Qəbirlər qərb-şərq istiqamətindədir. Nekropolun ərazisində çəhrayı rəngli, xaricdən anqoblanmış keramika məmulatına rast gəlinir. Nekropolu VIII-X əsrlərə aid etmək olar.

**101. Qaraboya yaşayış yeri** Şada kəndindən şimalda, hündür təpənin yamacında yerləşir. Yaşayış yerində evlər qrup halında bir-birinin yaxınlığında yerləşdirilmişdir. Dördkünc formalı binalar başlıca olaraq daşdan inşa edilmişdir. Evlərin girişi şərq və cənub tərəfdəndir. Yaşayış yerinin yaxınlağanda bulaq vardır. Yaşayış yeri XI-XIX əsrlərə aiddir.

.

# SƏDƏRƏK RAYONUNUN ARXEOLOJİ ABİDƏLƏRİ

**Sədərək yaşayış yeri.** Eneolit dövrünün abidəsidir. Yaşayış yeri Sədərək kəndindən cənubda Naxçıvan-Sədərək şose yolunun sağ tərəfində yerləşir. Sahəsi 5 hektardır. Yaşayış yeri 1958-ci ildə O.Həbibullayev tərəfindən qeydə alınmışdır. Yerli əhali yaşayış yerini «şəhər yeri» adlandırır. Aparılan tədqiqatlar göstərir ki, Azərbaycanın şimal rayonlarını Yaxın Şərq ölkələri ilə birləşdirən ticarət yollarının bir qolu bu istiqamətdə olmuş və yaşayış yerinin yaxınlığından keçmişdir.




Şəkil 104. Sədərək yaşayış yerinin keramikası

1978-ci ildə burada təsərrüfat işləri görülərkən mədəni təbəqə dağıdılmış, tikinti qalıqları və gil qablar aşkar edilmişdir. 1978-ci ildə V.H.Əliyevin rəhbərliyi ilə yaşayış yerində kəşfiyyat xarakterli tədqiqat işləri aparılmış və yerüstü materialların bir qismi toplanmışdır. Tapıntılar gil məmulatı və daş alətlərdən ibarətdir.

Gil məmulatı əsasən saman, bəzən isə qum, yaxud daş ovuğu qatılmış gildən hazırlanaraq yaxşı bişirilmişdir. Qablar əldə hazırlanmış hər iki üzdən sığallanmışdır. Onların xarici səthi kələ-kötürdür. Keramika əsasən çəhrayı və sarı rəngdə bişirilmişdir.

Qab sınıqlarının əksəriyyəti çəllək tipli qabların ağız, gövdə və oturacağının müxtəlif hissələrindən ibarətdir. Onlar hər iki üzdən sığallanaraq boz və sarı rəngli anqobla örtülmüşdür.

Tapıntıların bir qrupu dairəvi formalı manqalların sınıqlarından ibarətdir. Onlar saman və qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə bişirilmişdir. Bəzisinin divarları arasında bişməmiş boz təbəqə saxlanmış və hər iki üzdən açıq rəngli anqobla örtülmüşdür. Daş alətlər dən daşları, həvənglər, sürtgəclər, oraq dişləri, bıçaq və iskənələrdən ibarətdir. Yaşayış yerindən həmçinin daşişləmə ilə bağlı xeyli istehsal tullantıları aşkar olunmuşdur. Onlar prizmatik nukleuslar, obsidian və çaxmaqdaşı qəlpələrindən ibarətdir.

Sədərək yaşayış yerindən aşkar edilmiş bu tapıntılar Azərbaycanın Eneolit mədəniyyətinin son mərhələsi üçün xarakterik olub Qobustan, Keçili, Əliköməktəpəsi və II Kültəpədə aşkar olunmuş materiallarla eyniyyət təşkil edir. Eneolit dövründə Azərbaycanda etnik və mədəni cəhətdən qohum olan əkinçi-maldar tayfaların yaşadığını göstərir. Yaşayış yerinin Eneolit təbəqəsi VI-IV minilliklərə aid edilə bilər.

**2. Sədərək Kültəpəsi** Sədərək kəndinin cənub-şərqində, Qaraağac ərazisində yerləşir. Abidənin mərkəzi hissəsində qalın kül təbəqəsi vardır. Bəzi yerlərdə kiçik təpəciklərə rastlanır. Bu ərazi əhali tərəfindən şəhər yeri adlanır. Araşdırmalar zamanı abidənin üzərindən dən daşları, çəhrayı və boz rəngdə bişirilmiş keramika məmulatı aşkar olunmuşdur. Tapıntıların əksəriyyəti Son Tunc Erkən Dəmir dövrünə aid olub boz rəngdə bişirilmiş keramika məmulatından ibarətdir. Keramika məmulatı küpə, kasa, çaynik, çölmək tipli məişət qablarının və təsərrüfat küpələrinin parçalarından ibarətdir.

Abidənin ərazisindən Erkən Tunc dövrünə aid bir neçə keramika parçası aşkar olunmuşdur.

Arxeoloji materialların bir qismi də Orta əsrlərə aiddir. Yerüstü materiallara əsasən Kültəpə abidəsini e.ə. IV-I minilliklərə aid etmək olar.

**3. Fərhad arxı** Sədərək qalasının yerləşdiyi dağın şərq, cənub və qərb ətəyi boyunca uzanır. Su arxının möhkəmliyini təmin etmək üçün iri daş bloklardan dəstək divarı hörülmüşdür. Bu tikintilər xalq arasında «Fərhad arxı», «div hörən» də adlandırılır. Divarın bəzi qisimləri Dmir dövrü üçün xarakterik olan rizalitlərlə möhkəmləndirilmişdir. Araşdırmalar zamanı su kanalının ətrafından Dəmir dövrünə aid keramika məmulatı aşkar olunmuşdur. Fərhad arxını e.ə. VII-VI əsrlərə aid etmək olar.

**4. Çapacaq nekropolu** Sədərək qalasının şərqində, müasir suvarma kanalının yaxınlığında yerləşir. Nekropoldakı kurqanların biri N.Museyibli tərəfindən tədqiq edilmişdir. Kurqanaltı qəbir keramikası daş qutu tipli olub orta

həcmli daşlardan hörülərək qurulmuşdur. Qəbrin uzunluğu 1,85 m, eni 1,50 m, dərinliyi 0,6 m-dir. Qəbir keramikasında insan skeletinin qalıqlarına rastlanmamışdır. Tədqiqat zamanı qonur rəngdə bişirilmiş gil qabların parçaları, obsidian qəlpəsi və daşdan hazırlanmış bir ədəd yağdan aşkar olunmuşdur. Çapacaq kurqanı aşkar olunmuş arxeoloji materiallara əsasən e.ə. XIV-XIII əsrlərə aid edilmişdir.

**5. Sədərək qalası** Sədərək kəndinin cənub- şərqində Sədərək- Naxçıvan asfalt yolunun sol tərəfində, Vəlidağ silsiləsinin zirvələrindən birinin üzərini və onun şərq ətəklərini əhatə edir. Qalanın iki girişi olmuşdur. Qala divarları iri və orta həcmli qaya daşlarından hörülmüşdür. Qala divarı relyefə uyğun olaraq inşa edilmiş, bəzi yerlərdə rizalitlərdən istifadə olunmuşdur. Qala qapılarının möhkəmliyini təmin etmək üçün dördkünc formalı qülələrdən istifadə olunmuşdur. Qala divarının içəri tərəfində dördkünc formalı binaların qalıqları vardır. tədqiqat zamanı qalanın ərazisindən Erkən Dəmir dövrünə aid keramika məmulatı aşkar olunmuşdur. Sədərək qalası e.ə. II-I minilliklərə aid edilir.

**6. Sədərək nekropolu** Sədərək qalasından cənubda yerləşir. Nekropol Naxçıvan Sədərək yolunun çəkilişi zamanı dağıdılmış daş qutu tipli qəbirlər aşkar olunmuşdur. Bu ərazidə dağıntıya uğramış qəbirlərdən biri Nəcəf Museyibli tərəfindən tədqiq olunmuşdur. Qəbir kamerası dördkünc formalı olmuşdur. Onun şimal-şərqdəki divarları iri sal daşlardan, digərləri isə orta həcmli qaya parçalarından hörülərək qurulmuşdur. Qəbir avadanlığı cənub- qərb divarı boyunca yerləşdirilmişdir. Qəbir avadanlığı badya, küpə və çölmək tipli qablardan, əqiq və pasta muncuqlardan ibarətdir. Aşkar edilmiş arxeoloji materiallara əsasən Sədərək nekropolu e.ə. II- I minilliklərə aid edilir.

**7. Cırdatəpə yaşayış yeri** Sədərək kəndindən cənub-qərbdə, Araz çayı yaxınlığında yerləşir. Yaşayış yeri Naxçıvan- İrəvan dəmir yolu çəkilərkən dağıdılmışdır. Hazırda abidənin salamat qalan hissəsinin sahəsi 1 hektara yaxındır. Tədqiqat zamanı yaşayış yerinin ərazisindən Son Tunc və Erkən Dəmir dövrünə, Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Yaşayış yerindən aşkar olunan dən daşları boz rəngli tufdan hazırlanmışdır. Yaşayış yerində Nəcəf Museyibli tərəfindən kəşfiyyat qazıntısı aparılmış, mədəni təbəqə 2 m dərinliyədək tədqiq edilmişdir.

Cırdatəpə yaşayış yeri e.ə. II-I minilliklərə aid edilir. Erkən Orta əsrlər dövründə yaşayış yerində həyat yenidən davam etmişdir.

**8. Kərki yaşayış yeri.** Tunc dövrünün abidəsidir. Kərki kəndindən cənubda dağın üzərində yerləşir. Yaşayış yerində kobud yonulmuş iri qaya parçalarından tikilmiş divar qalıqları saxlanmışdır. Yerüstü materiallar dən daşları, sürtkəclər və gil məmulat ilə təmsil olunmuşdur. Aşkar olunmuş materiallar iki dövrə bölünür. Birinci dövrə çəhrayı və boz rəngdə bişirilmiş gil məmulatı daxildir. Çəhrayı rəngli gil məmulatı qırmızı anqobla örtülərək qara rənglə naxışlanmışdır. Onlar əsasən küpə və kasa tipli qabların sınıqlarından

ibarətdir. Bu qrupa aid gil məmulatının bir qismi forma verməyən sınıqlardan ibarətdir.

Boz rəngli gil məmulatı çölmək tipli qablarla təmsil olunmuşdur. Onların ağzının kənarı xaricə qatlanaraq ucda çəpinə kəsilmişdir.

İkinci dövrə Son Tunc və İlk Dəmir dövrü üçün xarakterik olan gil məmulatı aiddir. Tapıntılar kasa və küpə tipli qablarla təmsil olunmuşdur. Bu dövrə aid gil məmulatı əsasən boz rəngdə bişirilmişdir. Küpələrin üzəri konsentrik dairələrlə naxışlanmışdır. Kasalar silindrik konusvari formada olub gövdəsinin aşağı hissəsi xaricə doğru bir qədər çıxıntılıdır. Ağzının altında cızma xətlərdən ibarət naxışlar vardır.

Çəhrayı rəngli keramika kasa tipli qablarla təmsil olunmuşdur. Onların ağzının altı enli batıq zolaqla əhatələnmişdir. Onların bəzisi keyfiyyətli bişirilmiş, qırmızı anqobla örtülərək parıldayanadək cilalanmışdır.

Yerüstü materialların analizi göstərir ki, Kərki yaşayış yeri uzun müddət müdafiə istehkamı kimi istifadə edilmişdir. Aşkar edilmiş tapıntıları e.ə. III-I minilliklərə aid etmək olar.

**9. Kərki nekropolu.** Tunc dövrünün abidəsidir. Nekropol Kərki kəndindən qərbdə yerləşir. Sahəsi 2 hektara yaxındır. Qəbirlər daş qutu tipli olub kənarları iri sal daşlardan qurulmuş, üzəri iri sal daş daşlarla örtülmüşdür. Bəzi qəbirlərin ətrafında kromlexlərə təsadüf olunur. Daş qutuların bəzisi aşınma nəticəsində üzə çıxmış və dağıntıya məruz qalmışdır.

1979-cu ildə nekropolun ərazisində təsərrüfat işləri görülərkən təsadüfən bir neçə qəbir dağıdılmışdır. Dağıdılmış qəbirlərin materiallarının bir qismi Naxçıvan MR Dövlət Tarix Muzeyinə verilmişdir. Tapıntılar əsasən monoxrom boyalı küpə və kasalardan ibarətdir.

Onların üzəri qırmızı anqobla örtülərək yaxşı cilalanmış, qırmızı anqob üzərindən qara rənglə çəkilmiş xətlə naxışlanmışdır. Naxışlar şaquli çəkilmiş paralel dalğalı xətlərlə doldurulmuş üçbucaqlardan ibarətdir. Küpələrin birinin üzərində üçbucaqların arasında konsentrik dairələr çəkilmişdir.

Bu tip boyalı qablar Naxçıvan MR abidələri üçün xarakterik olub Çalxanqala, Nəhəcir, Yaycı, II Kültəpə və b. abidələrdən məlumdur. Aşkar olunmuş materiallara əsasən Kərki nekropolunu e.ə. III minilliyin sonu, II minilliyin əvvəllərinə aid etmək olar.

**10. Ağoğlan yaşayış yeri** Sədərək kəndinin şimalında Ağoğlan türbəsinin ətrafında yerləşir. Tikintilər tamamilə dağılmışdır. Yaşayış yerinin üzəri müasir tikintilərlə örtülmüşdür. Tədqiqat zamanı dördkünc formalı binaların qalıqları, çəhrayı və boz rəngdə bişirilmiş keramika məmulatı aşkar olunmuşdur. Bu yaşayış yeri ilə bağlı əfsanə xalq arasında dildən-dilə dolaşmaqdadır. Yaşayış yerinin mərkəzində bulaq, onun yaxınlığında isə müasir üslubda bərpa olunmuş türbə vardır. Yaşayış yerini VII- XI əsrlərə aid etmək olar.

**11. Püstə dərəsi yaşayış yeri** Sədərək kəndinin şimal-şərqində yerləşir. Yaşayış yeri ensiz uzun dərənin cənubunda yerləşir. Yerli əhalinin məmulatına

görə bu dərədə vaxtilə püstə bağları olduğu üçün belə adlandırılmışdır. Yaşayış yerinin ərazisi yeni tikinti işləri aparılarkən tamamilə dağıdılmışdır. Araşdırmalar zamanə yaşayış yerinin ərazisindən çəhrayı, sarı və boz rəngdə bişirilmiş keramika məmulatı aşkar olunmuşdur. Keramika məmulatının bəziləri şirlidir. Arxeoloji materiallara əsasən yaşayış yerini VII- XIV əsrlərə aid etmək olar.

**12. Bulaqbaşı nekropolu** eyniadlı ərazinin şərqində təpənin ətəyində yerləşir. Bu ərazi qazılarkən təsadüfən daş qutu tipli qəbirlər aşkar edilmişdir. Qəbirlər yanlarda iri sal daşlarla qurulmuş, onların üstü isə eyni tip daşlarla qapadılmışdır. Qəbirlərdən avadanlıq aşkar edilməmişdir. Naxçıvanda geniş yayılan bu tip qəbir abidələri I-II əsrlər üçün xarakterikdir.

**13. Qırmızıtəpə yaşayış yeri** Sədərək kəndində, Bulaqbaşından qərbdə, oval qırmızı təpənin üzərində yerləşir. Yaşayış yerinin bir qismi müasir tikintilər altında qalmışdır. Təpənin cənub tərəfi tikinti işləri aparılarkən dağılmış və mədəni təbəqə üzə çıxmışdır. Maddi mədəniyyət qalıqları daşdan inşa olunmuş tikinti qalıqlarından və gil qabların parçalarından ibarətdir. Tədqiqat zamanı yaşayış yerinin ərazisindən bütöv küplər də tapılmışdır. Qırmızıtəpə yaşayış yerində həyatın başlanması IV-VIII əsrlərə aid edilir.

**14. Əjdahan mağarası** Sədərək kəndindən şimalda, ucubiz dağının kəndə doğru uzantılarından birində, qayalığın içərisindədir. Yaxınlığında yeddi ildən bir qaynayıb çıxan cincili bulaq var. Mağaranın uzunluğu 12 m, eni 3-4,5 m, hündürlüyü 2-2,5 m arasındadır. Mağaranın üzərinə mərmi düşdüyündən onun tavanının bir qismi dağılaraq girişi tutmuşdur. Tavanı ocaq yanmasından qaralmışdır. Mağaranın ön tərəfi kiçik meydan şəklindədir. İçərisi nəm torpaq qatı ilə örtülmüşdür.

Araşdırmalar zamanı mağaranın girişindən erkən Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Araşdırmalar mağaradan müəyyən müddət yaşayış məskəni kimi istifadə edildiyini göstərir. Burada qədim mədəniyyət izlərinin olmasının müəyyəndirilməsi arxeoloji araşdırmalar tələb edir. Yaşayış yerini III- VIII əsrlərə aid etmək olar.

**15. Çilədağı yaşayış yeri** Sədərək kəndinin şimal-qərbində yerləşir. Yaşayış yerində aparılan araşdırmalar zamanı daşdan inşa olunmuş yeddi otaqlı dördkünc formalı bina qalıqları aşkar olunmuşdur. Divarlar iri qaya parçalarından hörülmüşdür, divarların eni 1m-dir. Bəzi otaqların divarlarında kiçik həcmli, dördkünc formalı taxçalar, taxçalarda isə çıraqlar aşkar olunmuşdur. Yaşayış məskəninin ətrafında suvarma kanallarının izləri saxlanmışdır. Əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur.

Tədqiqatlar zamanı yaşayış yerindən Orta əsrlərə aid keramika parçaları aşkar olunmuşdur. Keramika məmulatı müxtəlif dövrlərə aid olub I-XVIII əsrləri əhatə edir. Arxeoloji materiallar əsasında yaşayış yerini həmin dövrə aid etmək olar.

**16. Çilədağı nekropolu** eyniadlı yaşayış yerindən şimalda yerləşir. Qəbirlərin yerüstü əlamətləri itmişdir. Başdaşıları başlıca olaraq yonulmamış

qaya parçalarındandır. Bəzi qəbirlərin ətrafına dördkünc formada kiçik həcmli daşlar düzülmüşdür. Qəbirlərin bəzisinin isə üzəri tamamilə iri həcmli daşlarla qapadılmışdır. Aşınma nəticəsində qəbirlərin bəzisi dağılmışdır. Onlar torpaqda qazılmış, qərb-şərq istiqamətinə yönəlmiş müsəlman qəbirlərindən ibarətdir. Çilədağı nekropolunu VII-XVIII əsrlərə aid etmək olar.

**17. 44. Sədərək Orta əsr yaşayış yeri.** Yaşayış yeri haqqında məşhur türk səyyahı Evliya Çələbi maraqlı məlumatlar verir: ...biz abad bir kənd olan Sədərəyə çatdıq. Naxçıvan torpaqlarında yerləşən Sədərəkdə 1000 gözəl ev, saysız-hesabsız bağ və üzümlüklər, gözəl iqlimi var. Əhalisi şiədir. Şəhərin arxasında bağların yaxınlığında hündür təpənin ətəyində isti su çıxır. Göründüyü kimi XVII əsr türk səyyahı Evliya Çələbi Sədərəyi həm kənd, həm də şəhər adlandırır.

Lakin Sədərəkdə aparılan arxeoloji tədqiqatlar nəticəsində aşkar edilmiş maddi-mədəniyyət nümunələrinin təhlili göstərir ki, Orta əsrlərdə Sədərək şəhər tipli yaşayış yeri olmuşdur.

Yaşayış yerinin xarabalıqları yerli əhali tərəfindən «Şəhər yeri» adlandırılır. Orta əsr Sədərək yaşayış yeri müasir dövrdə eyni adlı kəndin cənub-şərq tərəfində Araz çayının sol sahilində geniş bir ərazini əhatə edir. Böyük ticarət yollarının kəsişdiyi bir yerdə yerləşən Sədərək Orta əsrlərdə şəhər səviyyəsinə yüksəlmişdir. Şəhər xarabalığının yerləşdiyi sahə uzun illər əkildiyindən yerüstü əlamətlər dağıdılıb məhv edilmişdir.

Sədərək şəhər yerində aparılan arxeoloji tədqiqatlar və kəşfiyyat işləri nəticəsində divar qalıqları və digər zəngin maddi-mədəniyyət nümunələri aşkar edilmişdir.Yaşayış evləri düzbucaqlı formada olub daş və bişmiş kərpicdən inşa edilmişdir. Bərkidici material kimi «Sədərək qumu» və gəcdən istifadə edilmişdir. Evlərin döşəməsinə bişmiş kərpic düzülmüşdür. Tədqiqatlar göstərdi ki, Sədərəkdə evlər döşəmə vasitəsilə isidilmişdir. Spiralvari formalı sistemdən keçən alov, divarların birindən bayıra ötürülürdü. Görünür, istilik sistemi təndir, yaxud ocağa birləşdirilmişdir. Maraqlı cəhət burasındadır ki, yayın dözülməz istisində bu sistemdən evin soyudulması məqsədi ilə istifadə edilmişdir. müəyyən edilmişdir ki, həmin sistem Naxçıvan şəhərində IX əsrdən geniş tətbiq edilmişdir.

Sədərək orta əsr yaşayış yerinə əkinçilikdə istifadə edilən su Araz çayından, qədim Azərbaycan torpaqları Arazdəyəndən çəkilmişdir. Arazdan çəkilən nəhəng arx çay vadisinin suvarılmasında istifadə edilmişdir. Lakin qeyd etmək lazımdır ki, Sədərəyin əkin sahələri əsasən Arpaçay kanalı vasitəsilə suvarılmışdır. Nəhəng daşlardan hörülmüş arxdan qədim dövrlərdə də istifadə edilmişdir. Bu arx indi yerli əhali «Dev hörən» adlandırır.

Orta əsr Sədərək şəhərində əhalinin içməli su ilə təchizində müxtəlif üsullardan istifadə edilmişdir.

İlk vaxtlar açıq arxlardan istifadə olunmuş, inkişaf etmiş orta əsrlərdə isə kəhrizlərdən və saxsı borulardan istifadə edilmişdir. Sədərəkdə kəhriz sisteminin bütöv şəkildə qalıqlarına rast gəlinməmişdir. Kəhriz 20 x 20 x5 sm ölçülü

ənənəvi bişmiş kərpicdən inşa edilmişdir. Kəhriz öz mənbəyini məşhur türk səyyahı Evliya Çələbinin haqqında bəhs etdiyi bulaqdan alırdı. Orta əsr Sədərək şəhərinin kəhrizləri Naxçıvan şəhərinin eyni tip qurğularından əsaslı şəkildə fərqlənmişdir. Əgər Naxçıvan kəhrizləri yerin 7-15 m dərinliyində inşa edilirdisə, Sədərəkdə kəhrizin dərinliyi yerin relyefindən asılı olaraq 1-3 metr olmuşdur. Görünür bu içməli su hövzəsinin nisbətən yaxın olması ilə bağlıdır.

Orta əsr Sədərək yaşayış yerində aparılmış arxeoloji tədqiqatlar nəticəsində xeyli miqdarda maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Bu nümunələr içərisində metal əşyalar, müxtəlif növ saxsı məmulatı, şüşə qab sınıqları, daşdan hazırlanmış əşyalar xüsusi yer tutur.

Şirsiz saxsı məmulatı qazan, çölmək, xum, küp, küpə, səhəng, dolça, şar-konusvari qabların sınıqlarından ibarətdir.

Şirli qablar ağ anqob üzərində çəkilmiş göy, mavi rəngli şirlə örtülmüş monoxrom rənglə, iki və daha çox rənglə naxışlanmışdır. Şirli qab sınıqları kasa və boşqab tipli qabların müxtəlif hissələrinə aiddir.

XI-XV əsrlərdə istehsal edilmiş şirli qablar həndəsi, nəbati və zoomorf təsvirlərlə bəzədilmişdir. Qeyd etmək lazımdır ki, Sədərəyin Orta əsr şirli saxsı məmulatı üzərindəki nəbati və zoomorf təsvirlər əksər vaxtlarda həndəsi fiqur və xətlərlə müşayiət edilmişdir. Nəbati təsvirlər nadir hallarda ayrılıqda qab üzərinə işlənmişdir.

Sədərəkdən aşkar edilmiş şirsiz, şirli saxsı məmulatını oxşarları əsasında IX-XVIII əsrlərə aid edilir. Ehtimal ki, Sədərək Orta əsr şəhəri də həmin dövrdə fəaliyyət göstərmişdir.

**18. Saraclı yaşayış yeri** Vəlidağ silsiləsinin Araz çayına doğru uzanan hissəsində, silsilənin şərq yamacında yerləşir. Yerli əhalinin verdiyi məlumata görə, bu ərazidə çoxlu kəndlər olmuşdur. Onlardan yalnız birinin xarabalıqları ortaya çıxarılmışdır. Saraclı yaşayış yeri dağların qovuşaraq yaratdığı bucaqşəkilli çıxıntıda, dərənin boğazında yerləşir. Yaşayış binaları tamamilə dağılmışdır. Onların yerində yalnız dördkünc formalı çalalar qalmışdır. Tikinti qalıqlarına əsasən demək olar ki, evlərin bünövrəsi daşdan, yuxarı qismi isə möhrə və çiy kərpicdən inşa olunmuşdur. Yaşayış yerindən toplanan yerüstü materiallar Orta əsrlərə aiddir. Yaşayış yeri IX-XIX əsrlərə aid edilir.

**19. Sədərək qəbiristanlığı** Sədərək kəndinin şimal-qərbində yerləşir. Qəbiristanlıq torpaq qəbirlərdən ibarətdir. Onlar qərb-şərq istiqamətində yönəlmişdir. Qəbirlərin ətrafı dördkünc formada qaya parçaları ilə əhatə olunmuşdur. Başdaşılarının əksəriyyəti yonulmamış qaya parçalarındandır. Bəzi qəbirlərə boz və qırmızı rəngli tuf daşından yonulmuş başdaşıları qoyulmuşdur. Başdaşılarının ön tərəfində qazılmış dördkünc formalı taxçada ərəb əlifbası ilə kitabələr, hicri 1323, 1324- cü ilə aid tarixlər yazılmışdır. Qəbir tiplərinə və epiqrafik dəlillərə əsasən, Sədərək qəbiristanlığını XVIII-XX əsrlərə aid etmək olar.

# NƏTİCƏ

Naxçıvan ərazisində Daş dövrü yaxşı öyrənilmədiyindən onun bütün inkişaf mərhələlərini ardıcıllıqla izləmək mümkün olmamışdır. Lakin Naxçıvan Muxtar Respublikasının əlverişli təbii-coğrafi şəraiti qədim daş dövründən insanların burada məskən salmasına şərait yaratmışdır. Naxçıvandakı bir sıra karts mağaralarında, o cümlədən Qara Zağa, Damlama, Qazma və digərlərində arxeoloji araşdırmalar aparılmış, Qazma mağarasındakı tədqiqatlar xüsusilə dəyərli elmi nəticələr vermişdir. Mağarada qalınlığı 3 m olan altı mədəni təbəqə aşkar olunmuşdur. Qazma mağarasından aşkar edilmiş əmək alətləri Cənubi Qafqaz və Yaxın Şərqin Mustye dövrünə aid həmdövr abidələrindən aşkar olunmuş əmək alətləri ilə bənzərdir. Arxeoloji materialların öyrənilməsi göstərir ki, mağarada məskən salan qədim insanların əsas məşğuliyyəti ovçuluq olmuş, yığıcılıq təsərrüfatda ikinci dərəcəli rol oynamışdır. Dördüncü təbəqənin arxeoloji materiallarında Üst Paleolit dövrü üçün xarakterik əlamətlərin izlənməsi qədim Qazma sakinlərinin qəbilə icmalarının yaranması ərəfəsində olduğunu göstərir.

Naxçıvanın Neolit mədəniyyəti Yaxın Şərq ölkələrinin həmdövr mədəniyyəti ilə bir sıra ortaq xüsusiyyətlərə malik olmaqla yalnız keramikli Neolit mərhələsini əks etdirir. I Kültəpənin «1a» təbəqəsində rastlanan maddi-mədəniyyət qalıqları Neolit dövrünün son mərhələsini izləməyə imkan vermişdir. Bu dövrdə daşın işlənmə texnikası inkişaf etmiş, qədim insanlar daşı cilalamağı və deşməyi öyrənmişdir. İnsanlar oturaq həyata keçmiş, istehsal təsərrüfatını mənimsəmişdir. I Kültəpədən aşkar olunan tikinti qalıqları Neolit dövründə insanların dördkünc formalı evlərdə yaşadığını, başlıca olaraq əkinçilik və maldarlıqla məşğul olduğunu göstərir. Qəbilənin təsərrüfat ehtiyaclarının ödənilməsində ovçuluğun da müəyyən rolu olmuşdur. Yaşayış binalarının döşəməsi saman qatılmış gillə suvanmış, evlərin qızdırılmasında dairəvi formalı ocaqlardan istifadə edilmişdir. Bəzi evlərin döşəməsində qamışdan toxunmuş həsir qalıqları saxlanmışdır. Bu dövrdə yaşayış yerində və evlərin döşəməsində dəfnetmə adəti mövcud olmuşdur. Dəfnlər tək və cüt olmuş, qəbirlərə əmək alətləri və bəzək əşyaları qoyulmuşdur. Bəzi skeletlərin oxra ilə boyanmasına da rastlanmışdır

Eneolit dövrü e.ə. VI-IV minillikləri əhatə edir. Bu dövrdə mis emalının və metalişləmənin əsası qoyulmuşdur. Bu dövrdə misə süni aşqarlar qatılması texnologiyanın mənimsənilməsi texniki biliklərin yüksək inkişaf səviyyəsində olduğunu təsdiqləyir. Naxçıvanın mis yataqları ilə zəngin olması və bu ərazidə mis külçəsinə rastlanması mis emalının erkən meydana gəlməsi və inkişafı üçün şərait yaratmışdır. Eneolit dövründə iqtisadiyyatın inkişafı əhali artımına səbəb olmuş, yaşayış üçün əlverişli olan yeni ərazilər mənimsənilmişdir. Naxçıvanda Eneolit mədəniyyəti Daş dövrünə nisbətən daha geniş öyrənilmsişdir. Bu dövrə aid I Kültəpə, Sədərək, Xələc, Ərəbyengicə və digər abidələr qeydə alınmışdır. I

Kültəpə yaşayış yerində aparılan araşdırmalar Eneolit mədəniyyətinin müxtəlif mərhələlərini izləməyə imkan vermişdir. Naxçıvanın Eneolit mədəniyyəti Urmiya hövzəsi və Mesopotamiyanın qədim mədəniyyətləri ilə iqtisadi mədəni əlaqələr şəraitində inkişaf etmişdir. Eneolit mədəniyyətinin təşəkkülündə Ubeyd tayfalarının xüsusilə böyük rolu olmuşdur. Arxeoloji abidələrinin tədqiqi nəticəsində Ubeyd tayfalarının Azərbaycan ərazisində yayılması ilə bağlı xeyli maddi dəlil ortaya çıxarılmışdır

I Kültəpədən aşkar olunmuş skeletlərin tədqiqi onların antropoloji cəhətdən müasir Azərbaycanlılarla bənzər olduğunu göstərmişdir

I Kültəpə üçün xarakterik olan samanlı keramikanın Cənubi Qafqaz abidələrində yayılması qədim tayfaların cənubdan şimala doğru hərəkəti ilə bağlı olmuşdur. Urmiya hövzəsi və Naxçıvan üçün xarakterik olan Eneolit mədəniyyətinin indiki Ermənistan ərazisində yerləşən Mahaltəpə, Xatunarx, Texut, Kültəpə və digər abidələrdə izlənilməsi onların vahid etnik-mədəni rayona daxil olduğunu təsdiq edir.

Eneolit dövründə Naxçıvanın qədim sakinləri əsasən oturaq həyat sürmüş, dördkünc və dairəvi formalı evlərdə yaşamışlar. Evlərin döşəməsi saman qarışıq gillə suvanmış, onların qızdırılmasında dördkünc və dairəvi formalı sobalardan istifadə edilmişdir.

I Kültəpənin tədqiqi Eneolit evlərinin sadə daxili interyerə malik olduğunu göstərir. Evlərin içərisində və onların ətrafında təsərrüfat məqsədilə istifadə olunan müxtəlif qurğular olmuşdur. Ərzaq ehtiyatı taxıl quyularında, yaxud təsərrüfat küplərində saxlanmışdır. Evlərin həyətində və təsərrüfat tikintilərinin ətrafında daş döşəmələrdən istifadə edilmişdir ki, bu da Eneolit tayfalarının dövrünə görə yüksək mədəni həyat səviyyəsinə malik olduğunu təsdiq edir. I Kültəpə sakinləri əkinçilik, maldarlıq və ev sənətkarlığının müxtəlif növləri ilə, o cümlədən metalişləmə, daşişləmə, duluıçuluq, toxuculuq və s. ilə məşğul olmuşlar

Erkən Tunc dövründə qədim Naxçıvan sakinlərinin tarixində əsaslı ictimai-iqtisadi dəyişikliklər olmuşdur. Eneolit dövründə əsası qoyulan tunc metallurgiyası inkişaf etmiş, maldarlıq əkinçilikdən ayrılmış, xış əkinçiliyi meydana gəlmiş, yaylaq maldarlığı inkişaf etmiş, tayfa ittifaqları yaranmışdır. İqtisadiyyatın inkişafı və əhalinin artması yeni yaşayış yerlərinin salınmasına səbəb olmuşdur. Bu dövrə aid I Kültəpə, II Kültəpə, Aşağıdaşarx, Ovçulartəpəsi, I Maxta Kültəpəsi, II Maxta Kültəpəsi, Xalac, Ərəbyengicə, Hovuzlu yaşayış yerləri, Dizə, Qarabulaq, Plovdağ, Xornu nekropolları qeydə alınmışdır.

Erkən Tunc dövrü abidələrində xüsusilə I Kültəpədə, II Kültəpə, I Maxta Kültəpəsində aparılan qazıntılar göstərir ki, Kür-Araz mədəniyyəti üçün dairəvi, yaxud düzbucaqlı artırmaları olan dairəvi evlər xarakterik olmuşdur. Kür-Araz mədəniyyətinin son mərhələsində düzbucaqlı binalardan da istifadə edilmişdir. Evlər düzbucaqlı və dairəvi formada olan ocaqlar və saxsı manqallar vasitəsilə qızdırılmışdır.

II Kültəpə yaşayış yerindən aşkar olunan ziyarətgahlar Naxçıvanın qədim sakinlərinin mənəvi mədəniyyəti və ideologiyasını öyənmək üçün dəyərli mənbələrdəndir. I Kültəpə və II Kültəpədə aşkar olunan tapıntılar Erkən Tunc dövründə keçirilən müəyyən mərasimləri tam olmasa da müəyyən dərəcədə bərpa etməyə imkan verir. Başlıca olaraq məhsuldarlıqla bağlı olan bu mərasimlər cəmiyyətdə baş verən sosial-iqtisadi dəyişiklikləri və insanların həyat tərzini aydın şəkildə əks etdirmişdir.

Əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur.

Erkən Tunc dövründə Naxçıvan abidələri Urmiya rayonunun abidələri ilə vahid iqtisadi-mədəni rayona daxil olmuşdur. Bu rayonların arxeoloji abidələrindən aşkar edilən keramika məmulatı forma və bəzəmə stilinə görə bir-biri ilə yaxın bənzərlik təşkil edir. Ehtimal ki, bu bölgənin dulusçuluq məmulatı Şərqi Anadoluya və Kiçik Qafqazın cənub şərq ətəklərinə doğru yayılmış və burada mədəni inkişafa müəyyən təsir etmişdir

Kür-Araz mədəniyyətinin mənşəyi ilə bağlı tədqiqatçılar arasında müxtəlif fikirlər olmasına baxmayaraq bu mədəniyyətin Cənubi Qafqazda formalaşdığı qəbul edilmişdir. Bəzilərinin fikrinə görə, bu mədəniyyət Qafqazda və Şimali İranda, digərlərinə görə isə Şərqi Anadoluda və Arazın orta axarlarında formalaşmışdır. Son illərin araşdırmaları göstərir ki, bu mədəniyyətin formalaşdığı əsas rayonlardan biri Naxçıvan ərazisi olmuşdur. Azərbaycan, o cümlədən Naxçıvan abidələrinin tədqiqi göstərir ki, Kür-Araz mədəniyyəti Eneolit mədəniyyəti əsasında inkişaf etmişdir.

E.ə. III minilliyin sonunda Azərbaycanın cənub rayonlarında baş verən sosial-iqtisadi dəyişikliklər Naxçıvanı da əhatə etmiş və bu ərazidə boyalı qablarla xarakterizə edilən yeni bir mədəniyyət formalaşmışdır. Orta Tunc dövrü adlandırılan bu dövr I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun, Nəhəcir, Şortəpə və digər abidələrdə aparılan araşdırmalarla öyrənilmişdir. II Kültəpə yaşayış yerində aparılan araşdırmalar zamanı qədim şəhər dövlətlər üçün xarakterik olan xüsusiyyətlər aşkar edilmişdir. V.H.Əliyevin apardığı araşdırmalar göstərmişdir ki, II Kültəpə e.ə. II minilliyin əvvəlində ətrafı divarla əhatə olunmuş yaşayış yerinə çevrilmişdir

Orta Tunc dövrünə aid yaşayış yerlərinin tədqiqi bu dövrdə Naxçıvanda güclü tayfa ittifaqlarının formalaşdığını, şəhər dövlətlərin yarandığını təsdiq edir. II Kültəpə, Şahtaxtı, Qızılburun kimi yaşayış yerləri həm mədəni, həm də mühüm inzibati-siyasi mərkəzlər rolunu oynamışdır. Əhali başlıca olaraq oturaq həyat tərzi keçirmiş, əkinçilik və yaylaq maldarlığı ilə məşğul olmuşdur. İqtisadiyyatın yüksək inkişafı sənətkarlığın xüsusi istehsal sahəsinə çevrilməsinə imkan vermişdir. Sənətkarlığın ən mühüm sahələri dulusçuluq, metalişləmə, toxuculuq və daşişləmə olmuşdur.

Naxçıvanın Orta Tunc dövrü mədəniyyətinin ən mükəmməl əsərləri boyalı keramikadır. Monoxrom və polixrom olaraq iki böyük qrupa ayrılan boyalı qabların dörd inkişaf mərhələsindən keçdiyi müəyyən edilmişdir. Lakin

son illərin araşdırmaları bir neçə aralıq mərhələnin də olduğunu təsdiq edir. Arxeoloji araşdırmalar bu mədəniyyətin Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda formalaşdığını təsdiq edir.

Gəmiqaya təsvirləri Naxçıvanın Tunc dövrü mədəniyyətinin ayrılmaz hissəsidir. Gəmiqaya Ordubad rayonunun Nəsirvaz kəndinin yaxınlığında yerləşir. Qayaüstü təsvirlər başlıca olaraq Qaranquş yaylağında toplansa da, bu tip təsvirlərə Qapıcıq zirvəsindən başlayaraq Nəbiyurdu və Camışölən yaylağınadək geniş bir ərazidə rast gəlmək mümkündür. Başlıca olaraq su qaynaqları ətrafında toplanan qaya təsvirləri qədim insanların təsərrüfatı və mənəvi mədəniyyətini öyrənmək üçün dəyərli mənbədir. Gəmiqaya təsvirlərini stilistik xüsusiyyətlərinə görə iki böyük qrupa ayırmaq olar. Birinci qrupa simvol-işarə və astral rəsmlər, ikinci qrupa isə sujetli təsvirlər daxildir.

E.ə. II minilliyin sonu və I minilliyin əvvəlində bu regionun tarixi mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin olmuşdur. Naxçıvanın bu dövrə aid mədəniyyət abidələrinin bir qrupu boyalı, digər qrupu isə boz rəngli keramikanın üstünlük təşkil etməsi ilə fərqlənir. Qızılburun və Plovdağdan aşkar olunmuş boyalı keramika ilə fərqlənən qəbir abidələri üçün tək, cüt və kollektiv dəfnlər xarakterikdir. Boz rəngli keramika ilə seçilən qəbir abidələrini üç qrupa bölmək olar. Birinci qrupa skeletsiz qəbir abidələri daxildir. Arxeoloji materialların təhlilinə əsasən bu qrupun Orta Tunc dövrü mədəniyyətinin davamı olduğunu demək olar. İkinci qrupa kollektiv dəfnlərlə xarakterizə edilən torpaq qəbirlər, üçüncüyə isə kollektiv dəfnlərin xarakterik olduğu daş qutu tipli qəbirlər aiddir. Sonuncu iki qrupda Xocalı-Gədəbəy mədəniyyətinin təsiri əks olunmuşdur. Bu dövrdə Azərbaycan ərazisində Xocalı-Gədəbəy mədəniyyətinin formalaşması prosesi getmişdir. Azərbaycanın şimalında təşəkkül tapan bu mədəniyyət oradan Azərbaycanın cənub rayonlarına, o cümlədən Naxçıvana yayılmışdır.

E.ə. I minilliyin əvvəllərindən başlayaraq Naxçıvan Urartuların hücumlarına qarşı mübarizə aparmışdır. Bu dövrdə xarici işğalçılara qarşı mübarizə aparmaq üçün Oğlanqala, Çalxanqala, Qazançı, Qalacıq, Şahtaxtı və digər müdafiə istehkamlarından istifadə edilmişdir.

Naxçıvanın Dəmir dövrünə aid abidələrinin arxitekturası da Urartu abidələrindən xüsusi əlamətləri ilə fərqlənir. Urartu qalaları üçün xarakterik olan tikinti texnikası, habelə qalaların daxili strukturu ilə bağlı xüsusiyyətlər Naxçıvan abidələrində izlənməmişdir. Oğlanqalanın bəzi müdafiə divarlarında rizalitlərdən istifadə edilmişdir.

Skiflərin yürüşləri e.ə. VII əsrdə Azərbaycanın, o cümlədən Naxçıvanın tarixində xüsusilə əhəmiyyətli rol oynamışdır. Ön Asiyanı lərzəyə salan skiflərin nə zaman Naxçıvana daxil olması haqqında dəqiq məlumat yoxdur. Lakin Naxçıvan ərazisindən skif tipli ox ucluqlarının tapılması və bir sıra toponomik dəlillər skiflərin e.ə. VII əsrdə bu ərazidə olduğunu təsdiq edir.

Antik dövr abidələri Naxçıvanda geniş öyrənilməmişdir. Bu dövrə aid yaşayış yerləri həm dağ ətəklərində, həm də düzənliklərdə rastlanmışdır.

Naxçıvanın Antik dövr mədəniyyətinin qəbir abidələri daş qutular, quyu qəbirlər və küp qəbirlərlə təmsil edilmişdir. Bu dövrdə Naxçıvanda şəhər tipli yaşayış yerləri inkişaf etmişdir. Yunan coğrafiyaşünası Klavdi Ptolomey Naxçıvan şəhəri haqqında məlumat vermişdir.

Orta əsr abidələri Naxçıvanda xüsusilə geniş yayılmışdır. Orta əsr abidələrinin tədqiqi Naxçıvanın Orta əsr tarixini öyrənmək üçün dəyərli materiallar vermişdir.

## ƏDƏBIYYAT


1. Abbasov A.A. Azərbaycanın qədim dövr etnoqrafiyasının öyrənilməsində Gəmiqaya təsvirlərinin əhəmiyyəti / Elmi sessiyanın tezisləri, Bakı: Elm, 2002, s. 131-134.
2. Ağayev Q.H. Şahtaxtının dörd qəbir abidəsi haqqında / Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Bilik, 1992, s. 98-101.
3. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı: Elm, 2002, 158s.
4. Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar. Бакы, 2003.
5. Baxşəliyev V.B. Miladdan əvvəl XI-VI əsrlərdə Naxçıvanda etnik-mədəni proseslər / Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 5-13.
6. Baxşəliyev V.B. Naxçıvanın qədim yazı nümunələri haqqında // Naxçıvan DU-nun əsərləri, 1999, № 4, s. 86-87.
7. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
8. Baxşəliyev V. B. Gəmiqaya təsvirlərinin poetikası. Bakı: Elm, 2002 , 128s.
9. Baxşəliyev V. Xornu nekropolu İlk Tunc dövrünün yeni abidəsidir // Naxçıvanın Regional Elm Mərkəzinin əsərləri, 2003, VII buraxılış, s. 11-12.
10. Baxşəliyev V. Gəmiqaya təsvirləri. Bakı: Elm, 2003, 165 s.
11. Baxşəliyev V.B., Əliyev V.H. Şahtaxtı nekropolunun yeni tapıntıları // Azərbaycan EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1985, № 4, s. 63-70.
12. Baxşəliyev V.B., Seyidov A.Q. Naxçıvanın qədim tarixi. Bakı: Azərbaycan, 1995, 62 s.
13. Baxşəliyev V.Ordubad rayonunun Bist kəndi ətrafında Son Tunc və Erkən Dəmir dövrünə aid abidələr. Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2006, № 2, s. 81-85
14. Baxşəliyev V. Dəmyələr nekropolu Erkən Dəmir dövrünün yeni abidəsidir. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2006, № 4, s. 84-92
15. Baxşəliyev V. Ordubad rayonunun Bist kəndi ətrafında Son Tunc və Erkən Dəmir dövrünə aid abidələr. Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2006, № 2, s. 81-85
16. Cəfərov H.F. Azərbaycan e. ə. IV minilliyin axırı -I minilliyin əvvəllərində. Bakı: Elm, 2000, 187 s.
17. Əliyev V.H. Culfa arxeoloji tapıntıları // Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1968, №3, s. 72-85.

18. Əliyev V.H. Şahtaxtının Tunc dövrü abidələri // Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1974, №4, s. 70-82.
19. Əliyev V. Tarixin izləri ilə. Bakı: Gənclik, 1975, 77 s.
20. Əliyev V. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 140 s.
21. Əliyev V. Qədim Naxçıvan. Bakı: Elm, 1979, 57 s.
22. Əliyev V.H. Sədərək eneolit yaşayış yeri // Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1985, №2, s. 61-67.
23. Əliyev V. Gəmiqaya abidələri. Bakı: Azərnəşr, 1993, 79 s.
24. Əliyev V.Azərbaysanda qədim şəhərlərin meydana gəlməsi / Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Bilik, 1992, s. 24-28.
25. Əliyev V. Gəmiqayada aparılmış arxeoloji tədqiqatlar / Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Bilik, 1992, s. 33-36.
26. Əliyev V., Aşurov S. Maxta zoomorf fiqurları // Azərbaycan SSR EA Məruzələri, 1988, № 10, s. 73-76.
27. Əliyev V., Aşurov S. Maxta Tunc dövrü abidələri / Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Bilik, 1992, s. 38-40.
28. Əliyev V., Allahverdiyev S. Fərhad evi / Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Bilik, 1992, s.79-81.
29. Əliyev V.H., Göyüşov R.B.Arpaçay vadisində İlk Tunc dövrünə aid qəbir abidəsi / AMM. Bakı: Elm, 1993, XI c., s. 14-19.
30. Həbibbəyli İ. Naxçıvanda elm və mədəniyyət / Azərbaycan tarixində Naxçıvan. Bakı: Elm, 1996, s. 73-91.
31. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1959, 134 s.
32. Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Bakı: Elm, 1991, 256 s.
33. Hüseyni Ə. Əfsanədən həqiqətə. Qobustan, 1973, № 1, s. 49-52
34. Xəlilov C.Ə. Qərbi Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrü abidələri. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1959, 181 s.
35. Xəlilov C.Ə. Azərbaycandan tapılmış tunc kəmərlər / AMM. Bakı: Elm, 1962, IV c., s. 68-108.
36. İsmayılov Q.S. Azərbaycanın yeni Qobustanı // Elm və Həyat, 1977, № 6, s. 6-8.
37. İbrahimov B.İ. Plovdağ – 1 nekropolu dəfn adətinin bəzi xüsusiyyətləri haqqında // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2005, № 1, s. 154-163.
38. Qədirzadə H.Q. Əshabi Kəhf. Müqəddəslik, tarixilik və inancların genezisi. Bakı: Elm, 2002, 112 s.

39. Muradova F.M. Azərbaycanda daşlar üzərində qazılmış işarə və damdağların öyrənilməsinə dair / AMM. Bakı: Elm, 1973, VII c., s. 185-190.
40. Muradova F.M. Qobustan Tunc dövründə. Bakı: Elm ,1979, 118 s.
41. Muradova F.M., İsmayılov Q.S. Azərbaycanın Kür-Araz mədəniyyəti abidələrindən tapılmış ocaq qurğuları // Azərbaycan SSR EA xəbərləri, Tarix, fəlsəfə, hüquq seriyası, 1971, № 2, s. 55-75.
42. Museyibov N. Qobustan və Gəmiqaya təsvirlərində bir qrup işarə haqqında / AQOTP. Bakı: Elm, 1992, s. 26-27.
43. Müseyibov N. Xaç işarələrinin semantikasına dair / Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Bilik, 1992, s. 19-21.
44. Museyibov N. Gəmiqaya rəsmləri. Bakı, 2002. 48 s.
45. Museyibov N. Gəmiqaya və Qobustan işarələrinin müqayisəli təhlili // Naxçıvan DU-nun əsərləri, 2002, № 9, s. 40-42.
46. Müseyibli N. Qobustan və Gəmiqaya petroqliflərində işarə və damğalar / Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı: Nafta Press, 2003, s. 25-29.
47. Müseyibli N. Qədim Sədərək. Bakı: Nafta-Press, 2003, 104 s.
48. Nərimanov İ.H. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1958, 142 s.
49. Nərimanov İ.H. Naxçıvanın erkən əkinçi-maldar əhalisinin tarixindən / Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı: Nafta Press, 2003, s. 32-33.
50. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şahbuz bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1992, 144 s.
51. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Culfa bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1993, 108 s.
52. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. Bakı: Elm, 1993, 184 s.
53. Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minillikdə. Bakı: Elm, 2003, 339 s.
54. Seyidov A.Q., Baxşəliyev V.B., Novruzlu Ə.İ., Babayev V.M. Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri. Bakı: Azərbaycan, 1995, 96 s.
55. Seyidov A.Q., Baxşəliyev V.B. Nəhəcirdə arxeoloji araşdırmalar. Bakı: İqtisad Universiteti, 2002, 201 s.
56. Səfərli Fəxrəddin. Gəmiqaya abidələri // Naxçıvan, № 2, 2000, s. 31-32.
57. Vəli Baxşəliyev, Catherine Marro, Səfər Aşurov. Ovçulartəpəsi yaşayış yerində arxeoloji qazıntılar // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2008, № 1, s. 111-116.

58. Абибуллаев О.А. Материалы Шахтахтинского погребения // Известия АН Азербайджанской ССР. Серия истории, философии и права, 1961, № 5, с. 27-36.
59. Абибуллаев О.А. Некторые итоги изучения холма Кюльтепе в Азербайджане // Советская археология, 1963, № 3, с. 157-168.
60. Абибуллаев О.А. Остатки жилищ во втором слое поселения Кюльтепе около Нахичевани // МИА ССР, 1965, № 125, М - Л., с. 40-64.
61. Абибуллаев О.А. К вопросу о древней металлургии Азербайджана // МИА СССР, 1965, № 125, с. 65-73.
62. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
63. Агаев Г.Г. Археологические исследования в Гявурлале / Тезисы докл. Всесоюз. археол. конф., Баку: Элм, 1985, с. 44-45
64. Агаев Г.Г. Шахтахты в эпоху поздней бронзы и раннего железа. Баку-Мосkва: Ağrıdağ, 2002, 200 с.
65. Алиев В Г.Новые материалы о культуре расписной керамики в Азербайджане // Советская археология, 1967, №1, с.115-121.
66. Алиев В.Г. Археологические раскопки на холме Кюльтепе // Советская археология, 1972, № 3, с. 219-226.
67. Алиев В.Г. Поселения раннегородского типа Нахичеванского края / Тезисы докл. Всесоюз. архолог. конф., Баку: Элм, 1985, с. 51-53.
68. Алиев В.Г. Новые археологические исследования памятников энеолита и бронзы Нахичеванской АССР / АЭИА. Баку: Элм, 1986, с. 5-11.
69. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
70. Алиев В.Г. Археологические раскопки на территории Нахичеванской АССР / Тезисы. докл. конф. Великий Октябрь и развитие археолог. и этнограф. науки в Азербайджане. Баку: Элм, 1988, с. 16-18.
71. Алиев В.Г., Бахшалиев В.Б. Новые археологические находки по древней металлургии Нахичевани / АЭИА. Баку: Элm, 1986, с. 11-14.
72. Алиев В.Г., Фараджева М. Тотемические представления на наскальных изображениях Азербайджана // Археология Азербайджана, 2000, №3-4, с. 23-27.
73. Алиев Н.Г. Керамика эпохи энеолита из поселения Овчулартепеси / Тезисы докл. Всесоюз. археолог. конф.. Баку: Элм, 1985, с. 54.

74. Алиев Н.Г. Сведения об энеолитическом поселении Халадж / Тезисы. докл. конф. Великий Октябрь и развитие археолог. и этнограф. науки в Азербайджане. Баку : Элм, 1988, с. 12.
75. Алекперов А.К. Поездка в Зангезур и Нахкрай // ИОИА, 1927, № 4, с. 212-216.
76. Алекперов А.К. Крашенная керамика Нахичеванского края и Ванское царство // Советская археология, 1937, № 4, с. 249-264.
77. Алекперов А.К. Исследования по археологии и этнографии Азербайджана. Баку: Изд-во АН Азербайджанской ССР, 1960, 249 с.
78. Алекперов А.И. Терракоты Азербайджана эпохи энеолита // Доклады АН Азерб. ССР, 1983, № 8, с. 69-73.
79. Алекперов А.И. Фигурки быка, найденные из Кюльтепе / Тезисы. докл. науч. конф. молод. ученых ИИ АН Азерб. ССР и исторического факултета АГУ. Баку: Элм, 1985, с. 38.
80. Алекперов А.И. Терракоты древнего Азербайджана. Баку: Элм, 1994, 134 с.
81. Асланов Г., Кашкай С. Некрополь Халы-Кешан / Тезисы доkл. Всесоюз. археолог. конфер.. Баkу: Элм, 1985, с. 70-72.
82. Асланов Г.М, Кашкай С.М. Погребения некрополя Мунджуклутепе // Советская археология, 1991, № 3, с. 221-223.
83. Асланов Г.М., Ибрагимов В.И., Кашкай С.М. Древние некрополы Хараба Гилана. Баку: Нурлан, 2002, 64 с.
84. Ахундов Д.И. Об «энеолите» на Южном Кавказе / Археология и Этнография Азербайджана, Баку: Элм, 2003, с. 34-39.
85. Ашуров С.Г. Новые памятники эпохи ранней бронзы в Нахичеванской АССР / Тезисы докл. конфер. Великий Октябрь и развитие археол. и этнограф. науки в Азербайджане. Баку: Элм, 1988, с. 37-38.
86. Бахшалиев В.Б. Металлургия и металлообработка на территории древней Нахичевани: Дисс. на соиск. канд. исторических наук, Ленинград, 1986, 187 с.
87. Бахшалиев В. Б. Новые находки к древней металлургии и металлообработке в Кюльтепе II // Доклады АН Азербайджанской ССР, 1986, № 2, с. 86-89.
88. Бахшалиев В.Б. Некоторые замечания к истории древней металлургии на территории Нахичевансkой АССР / Тезисы доkл. VI Закавказ. науч. конф. историков науки. Тбилиси, 1987, с. 15.
89. Бахшалиев В.Б. К вопросу хронологии и генезиса расписной керамики Юго-Востогного Закавказья // Доклады АН Азербайджанской ССР, 1990, № 10-11, с. 71-75.

90. Бахшалиев В.Б. Могильник эпохи раннего железа на территории древней Нахичевани // Российская археология, 1991, № 4, с. 217-227.
91. Бахшалиев В.Б. К вопросу хронологии расписной керамики из Нахичевани / Результаты I симпозиума археологов и этнографов Азербайджана, Баку: Элм, 1992. с. 10-24.
92. Бахшалиев В.Б. Археологические раскопки на поселении Оглангала // Российская археология, 1994 № 4, с. 106-120.
93. Бахшалиев В.Б. Некторые образцы изобразительного искусства из могильника Коланы // Российская археология, 1995, № 3, с. 205-207.
94. Бахшалиев В.Б. Селимханов И.Р. О змеевидных браслетах из сел Шахтахты и Карабаглар в Нахичеванской АССР // Доклады АН Азербайджанской ССР, 1987, № 11, с. 89-92.
95. Бахшалиев В.Б., Алиев В.Г. Об одном хозяйственно-бытовом комплексе из Кюльтепе II // Доклады АН Азербайджанской ССР, 1989, с. 56-60.
96. Бахшалиев В.Б., Сеидов А.Г., Бабаев В.М. Археологические памятники Кывракского плоскогорья. Баку: Азербайджан, 1995, 80 с.
97. Джафарзаде И.М. Археологические работы в Нахичеванской АССР // Известия АН Азербайджанской ССР, 1949, № 5, с. 93-112.
98. Джафаров А.К. Новая мустерская стаянка Газма в Азербайджане // Советская археология, 1992, №2, с. 270-274.
99. Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа. Баку: Элм, 1984, 108 с.
100. Исмаилов Г.С. Археологическое исследование древнего поселения Бабадервиш. Баку: Элм, 1978, 101 с.
101. Исмаилов Г.С. Раннебронзовая культура Азербайджана: Автореферат дисс. на соис. доктора истор. наук, Тбилиси, 1983, 39 с.
102. Кашкай М.А. Селимханов И.Р. Исследование медно-мышьяковых предметов из ракопок холма Кюльтепе в Нахичеванской АССР // Доклады АН Азербайджанской ССР, 1957, № 4, с. 449-454.
103. Керимов В.И. Исследования укрепленного поселения на территории Нахичеванской АССР / Тезисы докл. конфер. Великий Октябрь и развитие археол. и этнограф. науки в Азербайджане. Баку: Элм, 1988, с. 97-99.

104. Миллер А.А. Археологические исследования в Нахичеванской Республике летом 1926 г.. / Сообщ. ГАИМК. Л., 1926, вып. I, с. 326.
105. Мешшанинов И.И. Краткие сведения о работах археологических экспедиций в Нагорном Карабахе и Нахичевансккий край / Сообщ. ГАИМК. Л., 1926, вып I, с. 217-240.
106. Нариманов И.Г. Обеидские племена Месопотамии в Азербайджане / Тезисы докл. Всесоюз. сесс. Баку : Элм, 1985, с. 271.
107. Нариманов И.Г. Культура древнейшего земледелъцеского - скотоведческого населения Азербайджана. Баку: Элм, 1987, 260 с.
108. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд / СМОМПК. Тбилиси, 1882, вып II, с. 109-142.
109. Сеидов А.Г., Ашуров С.Г. Новые данные о Куро-Аракской культуре в поселении Кюльтепе II / Тезисы докл. Всесоюз. археол. конф.. Баку: Элм, 1985, с. 318-320.
110. Сеидов А.Г., Ашуров С.Г. Археологичеслие исследования на поселении Махта / Тезисы докл. респуб. археол. конф.. Баку: Элм, 1988, с. 36.
111. Сеидов М.М. Археологический комплекс Галаджыг эпохи поздней бронзы и раннего железа / Тезисы доkл. Всесоюз. археол. конф.. Баку: Элм, 1985, с. 320-321.
112. Сеидов М.М. Особенности поселений эпохи поздней бронзы и раннего железа на территории Нахичевани. АЭИА в 1985 г.. Баку: Элм, 1986, с. 32-33.
113. Сеидов М.М. Исследование поселения Дамлама / Тезисы доkл. Великий октябрь и развитие археол. и етнограф. науки в Азербайджане. Баку: Элм, 1988, с. 32-33.
114. Ямполский З.И. О значении слова ван в имени Нахичевань // Известия АН Азербайджанской ССР, 1961,№ 1, с. 13-19.
115. Bahşaliyev V.B. Nahçıvanda bulunmuş kazı bezemeli iki taş Levha haqqında // Arxeoloji və Sanat, İstanbul, 1997, № 76, s. 10-12.
116. Bahşaliyev Veli. Archaeology of Nakhichevan. İstanbul, 1997,128 s.
117. Bahşaliyev V.B. Nahçivanda bir Erken Demir çağ Nekropolu-Kolanı // Türk Tarih Kurumu, Belleten, 1998, № 223, s. 1-13.
118. Bahşaliyev Veli, Andreas Schashner. Das kammergrab von Yurdçu Naxçıvan ein beitrag zur archaologie der früheisenzeit Transkaukasiens und Ostanatoliens // SMEA, 43/1, Roma, 2001, p. 5-23.

119. Belli Oktay, Bahşaliyev Veli. Middle and Late Bronze Age Painted Pottery culture of the Nakhichevan Region. İstanbul: Arkeoloji və Sanat, 2001, 120 s.
120. Belli Oktay, Veli Sevin. Nahçıvanda arkeolojik araştırmalar. İstanbul: Arkeoloji və Sanat, 1998, 80 s.